**AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASI**

**AZƏRBAYCAN ƏMƏK VƏ SOSİAL MÜNASİBƏTLƏR AKADEMİYASI**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş

# PANDEMİYANIN DÜNYA ÖLKƏLƏRİNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA TƏSİRİ PROBLEMLƏRİ

**Beynəlxalq elmi-praktik konfransın**

**MATERİALLARI**

**31 MAY 2021**

**BAKI-2021**

**Elmi redaktor:** prof. Hüseyn Qaraşov

**Redaksiya heyəti:** prof. Fəhrad Möhbalıyev

i.e.d.Vilayət İsmayılov

dos. Zeynəddin Şabanov

Ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş **“Pandemiyanın dünya ölkələrinin sosial-iqtisadi inkişafına təsiri problemləri”** mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, ADNSU, 2021, 295 səh.

**Konfransın Təşkilat Komitəsi**

H.T.Qaraşov- Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor, sədr

F.F.Möhbalıyev – AƏSMA-nın tədris və elmi işlər üzrə prorektoru, professor, sədr müavini

S.Ş.Məmmədov - AƏSMA rektorun köməkçisi,dosent, üzv

R.H.Məmmədova - AƏSMA HİK-in sədri, üzv

H.Ə.Mirzəyeva- AƏSMA Maliyyə-iqtisad fakültəsinin dekanı, dosent, üzv

S.O.Məmmədova – AƏSMA Sosial iş fakültəsinin dekanı, üzv

V.İ.İsmayılov – AƏSMA İqtisadiyyat və idarəetmə kafedrasının müdiri, i.e.d., üzv

Z.M.Şabanov - AƏSMA HİH və sosial fənlər kafedrasının müdiri,dosent, üzv

N. Ə.Umarova- AƏSMA Ümumi fənlər kafedrasının müdiri, tex.ü.f.d. , üzv

N.Y.Mikayılova - AƏSMA Maliyyə və mühasibat uçotu kafedrasının müdiri, dosent, üzv

R.S.Maniyeva - AƏSMA Hİ kadr və fəallarının ixtisasartırma və yenidən hazırlanması şöbəsinin müdiri, dosent, üzv

M.H.Abdullayeva - AƏSMA kitabxanasının müdiri,üzv

A.Ə.Bağırzadə - AƏSMA TEC-in sədri, üzv

**KONFRANSDA İŞTİRAK EDƏN TƏŞKİLATLAR**

1. AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
2. AMEA Elm tarixi İnstitutu
3. AMEA İqtisadiyyat İnstitutu
4. Azərbaycan Mədəniyyət İncəsənət Universiteti
5. Gəncə Dövlət Universiteti
6. Azərbaycan Turizm və Menecment Universiteti
7. Azərbaycan Dövlət Pedaqoji Universiteti
8. Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
9. Bakı Dövlət Universiteti
10. Azərbaycan Texniki Universiteti
11. Azərbaycan Fövqəladə Hallar Nazirliyinin Akademiyası
12. Bakı Slavyan Universiteti
13. Naxçıvan Dövlət Universiteti
14. Azərbaycan Dövlət İqtisad Universiteti
15. Azərbaycan Kooperasiya Universiteti
16. Sumqayıt Dövlət Universiteti
17. Atatürk Universiteti (Türkiyə)
18. Ümumittifaq Kənd Təsərrüfatı Qiyabi Təhsil İnstitutu (Moskva)
19. "Zaporojye politexnik" Milli Universiteti (Ukrayna)
20. Azrieli Mühəndislik Kolleci (İsrail )
21. Ukrayna Milli Universiteti (Ukrayna)
22. Aqrar İslahatlar Mərkəzi
23. Azərbaycan Dövlət Məşğulluq Xidməti

## MÜNDƏRİCAT

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, professor Hüseyn Qaraşovun açılış nitqi**...........................................................7

## PLENAR HİSSƏ

**Füzuli Qurbanov.** Heydər Əliyevin "güclü" dövlət konsepti: Azərbaycan modelinin özəllikləri..........9
**Пини Давидов (Израель)**. Искажения при субъективной оценке потенциального улучшения производительности..........15
**Vilayət İsmayılov.** Pandemiya şəraitində dövlətin yeni dəstək mexanizminin sahibkarlara yaratdığı imkanlar..........20
**Üzeyir Şəfiyev.** Pandemiya dövründə Azərbaycan dövlətinin sosial dəstək proqramları..........28

## I BÖLMƏ

## İQTİSADİ ASPEKTLƏR

**Fəhrad Möhbalıyev, Xəqani Məmmədov**. İqtisadi sahələrdə məşğulluq probleminin təkmilləşdirilməsi istiqamətləri..........34
**Парвиз Гаджиев (Москва).** Влияние основных показателей туристических предприятий в развитии экономики страны..........39
**Hicran Mirzəyeva.** "COVID-19": reallıqlar və vəzifələr..........44
**Aygün Quliyeva.** Azərbaycanda regonların inkişafında maliyyə təminatının gücləndirilməsində rəqəmsal texnologiyalardan istifadə yolları..........48
**Nurəngiz Mikayılova.** Pandemiya dövründə müvəqqəti vergi rejimi..........53
**Андрей Карпенко, Елена Васильева (Украина).** Smart-специализация территорий как инструмент развития трудового потенцила..........58
**Firanə Məmmədova.** İqtisadi riyazi modellərin iqtisadiyyatın inkişafında əhəmiyyəti..........64
**Niyar Umarova.** "COVID 19" pandemiyası dövründə İK və digər intellektual texnologiyaların tətbiqinin üstünlükləri..........68
**Ramil Əliyev.** Sənaye müəssisələrinin maliyyə dayanıqlığının proqnozlaşdırılmasında dinamik modelin işlənilməsi..........71
**Pərvin Məmmədova.** "David's Tea" şirkətinin fəaliyyət aspektləri və dəyər təklifinin formalaşması xüsusiyyətləri..........76
**Səadət Quliyeva.** Ərzaq təhlükəsizliyi problemləri..........79
**Zaur Əsədov.** Pandemiya dövründə kiçik və orta biznesin rəqəmsallaşdırılması zərurəti..........82
**Aynur Adıgözəlova.** Seqment uçotu şəraitində mal ehtiyatlarının müəssisənin əməliyyat seqmentləri üzrə bölüşdürülməsinin bəzi məsələləri..........86
**Təranə Əhmədova.** Kommersiya banklarının müasir vəziyyəti..........89
**Abbas Səfərov.** Kənd təsərrüfatında müəssisələrin ümumi gəlirinin istehsal həcmindən asılılığının proqnoz modeli..........92
**Ülkər Məmmədova.** Kənd təsərrüfatı istehsalçılarının səmərəli kreditləşdirilməsi üzrə Qərbi və Şimali Avropa təcrübəsi..........102
**Ниджат Мусаев.** Влияние индустрии туризма на экономику страны в условиях пандемии..........105

**Aytən Ağayeva.** “Qara qızılın insan kapitalına çevrilməsi” iqtisadi inkişafın tərkib hissəsi kimi....110
**Aygün Səmədova.** Kənd ərazilərində kənd turizmi potensialının qiymətləndirilməsi....113
**Ülviyyə Kərimova.** Azərbaycanda beynəlxalq turizmin inkişafının əsas prioritetləri....119
**Lalə Cabbarlı.** İqtisadiyyatın dövlət tənzimlənməsində liberal və dirijist baxışlar....123
**Səbinə İsmayılova.** Azərbaycanda elm sahəsinin inkişaf perspektivləri....126
**Aysel Məmmədli.** Azərbaycanda qış turizminin inkişaf problemləri....130
**Emin Ağayev**. Pandemiya şəraitində sosial-əmək münasibətlərinin strukturunda əməyin mühafizəsinin yeri....134
**Əlizamin Quliyev.** Pandemiya dövründə qeyri-formal özünüməşğulluqdan formal özünüməşğulluğa keçid prosesinin xarakteristikası....139
**Yasəmən Quluzadə.** Xarici ticarət əlaqələrinin müasir vəziyyətinin təhlili və mövcud problemlərin müəyyənləşdirilməsi....144
**Mehparə Orucova.** Azərbaycanda sənaye müəssisələrinin ixrac potensialının qiymətləndirilməsi....151
**Hikmət Mirzəyev.** “Post-konflikt regionlara” xarici investisiyanın cəlb olunması potensialı....157
**Nahid Almasov.** Tikintidə təşkilati-iqtisadi aspektlərin idarə edilməsinin matris formasının təşkili....161
**Kənan Abbasov.** İstehlakçıların halal sertifikatlı məhsullara münasibətinin müəyyənləşdirilməsi yolları....167
**Anar Məlikov**. Pandemiya şəraitində müəssisələrdə əməyin mühafizəsinin təşkili məsələləri....172
**Səid Mustafayev.** Kənd təsərrüfatının inkişafı əhali məşğulluğunun artırılması amili kimi....177
**Leyla Hacıyeva.** Yerli şərab məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsi məsələləri....181

## II BÖLMƏ
## HUMANİTAR ASPEKTLƏR

**Rafail Həsənov.** Keys-stadi metodunun nəzəri təhlili....185
**Kerem Karabulut (Türkiyə).** Pandemi sürecinin sosyo-ekonomik etkileri....189
**Али Абасов.** Мир после пандемии....200
**Şölət Zeynalov.** Pandemiya dövründə dialoq və əməkdaşlıq bəşəri tələbat kimi....202
**Ağasəlim Həsənov.** Birgəyaşayış etnik-dini separatizmə qarşı: Azərbaycan və Ermənistan reallıqları....206
**Həbib Hüseynov.** Qloballaşma və inkişaf....208
**Faiq Əliyev.** Hüquqi dövlətin formalaşmasının fəlsəfi əsasları....211
**Hörmət Cavadova.** Cəmiyyətin mənəvi həyatının şəxsiyyətin sosiallaşmasında rolu....214
**Həcər Abdallı.** Qadın problemlərinin ümumi xarakteri....216
**Zeynəddin Şabanov.**Pandemiya şəraitində Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının fəaliyyət istiqamətləri....218
**Daxil Vəliyev.** Əli Şəriətinin mədəni inqilab konsepsiyası müasir baxış bucağında....221

**Faiq Ələkbərli.** Çağdaş dövr Azərbaycan fəlsəfəsinin aktual problemləri……………………223
**Əliyar Orucov.** Azərbaycan Respublikasının ideoloji təhlükəsizliyində azərbaycançılıq ideologiyası əsas istiqamət kimi..........................................................226
**Elmira Təhməzova.** Nizami Gəncəvi yaradıcılığında ideal cəmiyyət....................................230
**Светлана Адыгезалова.** Проблемы социальной философии в условиях пандемии……234
**Nəzakət Salmanova.** Əxlaqi dəyər və bəşəri fəzilət...............................................................236
**Mahrux Nəcəfli.** İstanbul Konvensiyası Azərbaycana nə vəd edir?.......................................239
**Мир Фарадж Абасов.** Цифровизация и пандемия…………………………………………243
**İlham Soltanov.** Pandemiya dövründə əhalinin sosial rifahına təsir edən amillər..................245
**Məmmədtağı Rzayev.** Müxtəlif fəlsəfi sistemlərdə insan özünütəsdiqi probleminə dair bəzi mülahizələr…………………………………………………………………………247
**Telman Niftaliyev.** Azərbaycanda ordu quruculuğu prosesinin sosial-siyasi aspektləri.......250
**Ceyhun Qasımbəyli.** "Azərbaycan tarixi" dərslərində vətəndaş hazırlığı keyfiyyətinin yüksəldilməsində təlim strategiyalarından istifadənin rolu və əhəmiyyəti........254
**Həlimə Qafarova.** Sosial idrakın dəyişkənliyi problemi.......................................................257
**Rəşad Rafiqli.** İstehsalın idarə edilməsi prosesinin təkmilləşdirilməsi insan amilindən səmərəli istifadə olunması kontekstində.....................................................................................260
**Şəhla Abdullayeva.** Tarixi zəfərin modaya təsiri....................................................................264
**Günay Ağayeva.** Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin rolu...........266
**Məhsəti Cəfərova.** Elitar və kütləvi mədəniyyətlərin inkişaf mərhələləri................................269
**Kamran Vəlizadə.** Milli dəyərlər və siyasi münasibətlər.........................................................272
**Mədinə Ağayeva.** Ailə və alternativ qayğı proqramları.........................................................275
**Фарида Багирова.** Влияние пандемии на социально - экономические процессы............278
**Xalidə Nəzərova.** Azərbaycan dastanlarında əxlaqi dəyərlər...................................................280
**Turanə Əlibəyova.** Pandemiya mərhələsində informasiya və bilik: qarşılıqlı təsirlərin dinamikası...........................................................................................................................284
**Solmaz Əhmədova.** Məmməd Səid Ordubadinin milli-mədəni yeniləşmə probleminə və milli məsələyə münasibəti.......................................................................................................287
**Fazilə Əliyeva.** Əbunəsir Əl-Farabinin yaradıcılığında varlıq problemi..................................292

**Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının rektoru, sosiologiya elmləri doktoru, professor Hüseyn Qaraşovun açılış nitqi**

Salam, xoş gördük hamınızı.

Bugünkü konfransımız ulu öndər Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuşdur. Ötən il keçirilən konfransda maraqlı, günün fövqündə duran aktual məsələlərə toxunulmuşdu. Bu bir il ərzində bir sıra məsələlər baş vermişdir. Müzəffər Ordumuz Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında cəmi 44 gün ərzində erməni terrorçularını 30 il müddətində işğal altında saxladıqları ərazilərimizdən qovdu, torpaqlarımız azad olundu, Vətən müharibəsində Ordu-Xalq-Dövlət birliyi qələbə qazandı. Bu qələbənin əldə olunması Ulu öndərin ən böyük arzusu idi. Uzun illər həsrətlə gözlədiyimiz gün reallığa çevrilib. Qələbə, əlbəttə, asan əldə olunmadı. Aralarında Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının məzunları da olan çoxlu sayda şəhidlər verdik. Şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyirik. Hazırda işğaldan azad olmuş ərazilərimizdə möhtəşəm tikinti-bərpa işləri başlayıb, iri layihələr həyata keçirilir. Bütün xalqımız bu layihələrin uğurla həyata keçirilməsinə öz töhfəsini verməyə hazırdır.

Bugünkü konfransın mövzusu da böyük aktuallıq kəsb edir. Bilirsiz ki, bu günlər bütün bəşəriyyət yeni növ koronavirusun yayılmasından əziyyət çəkir, yoluxmalar nəticəsində insanlar həlak olur, xəstələrin sayı milyonlarla hesablanır, əksər ictimai həyat sahələri böyük problemlər yaşayır, ölkələrarası gediş-gəliş minimuma endirilib, yaşlı insanlar və aztəminatlı ailələr üçün daha çox problemlər yaranıb. Bütün dünyada COVİD-19-un yayılmasının qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə pandemiya dövründə Azərbaycanda da virusun geniş yayılmasının qarşısının alınması üçün ölkə ərazisində çevik və sistemli preventiv tədbirlərin həyata keçirilməsi məqsədilə karantin mərkəzləri yaradılıb, yüksək ixtisaslı həkimlər bu mərkəzlərə cəlb olunub, ölkəmizə Avropa istehsalı olan laborator testlər, tibb avadanlığı və ləvazimatlar, qoruyucu vasitələr gətirilib, karantin müddətində olan insanların rahatlığı üçün hər cür şərait yaradılıb, geniş maariflənmə işi aparılır, sahibkarlara itkilərinin ödənilməsi üçün 1 milyard manatdan çox vəsait ayrılıb,onlara maliyyə dəstəyi həyata keçirilir.

Xüsusi karantin rejimi dövründə tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara və çətin vəziyyətdə olan insanlara sosial xidmətlərin göstərilməsinin səmərəli təşkili üçün zəruri tədbirlər həyata keçirilir. İş yerlərinin müvəqqəti bağlanmasına, növbəli iş rejiminə keçilməsinə baxmayaraq insanlar əmək haqqı ilə təmin olunub, 600 mindən çox işsiz insana 190 manat həcmində yardım edilir, hər birində 200 çarpayı olan 10 modul tipli xəstəxananın quraşdırılıb, burada koronavirusa yoluxmuş xəstələr ciddi həkim nəzarəti altında keyfiyyətli müalicə ilə təmin olunurlar. Ayrı-ayrı şəxslər, təşkilatlar da aztəminatlı ailələrə yardımlar edir, onları bu çətin vəziyyətdə tək qoymurlar. İnsanların əksəriyyəti dünyanı bürüyən bu pandemiyaya qarşı ölkəmizdə yaradılan xüsusi fonda ianələr edir. Ali və orta ixtisas təhsil müəssisələrində təhsil alanların ödənişlərinin dövlət tərəfindən qarşılanması, cəzaçəkmə müəssisələrindəki bir qrup məhbusların əfv olunması ölkə başçısının daim xalqın yanında olduğuna bariz nümunədir.

Ölkə Prezidentinin sərəncamı ilə COVID-19 xəstəliyi ilə mücadilə edən tibb işçilərinin sosial müdafiəsi gücləndirilmiş, onların əməkhaqlarına aylıq vəzifə maaşlarına əlavələr müəyyən edilmişdir. Heydər Əliyev Fondu və Heydər Əliyev Mərkəzinin dəstəyi ilə Yeni Çağrı Mərkəzi yaradılmış, koronaviruslu xəstələrin müalicəsinə cəlb olunmuş həkimlərə və tibb personalına psixoloji dəstək göstərilməsi təşkil edilmişdir.

Prezident İlham Əliyev və ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva öz çıxışlarında dəfələrlə pandemiyanın müxtəlif sferalara təsiri məsələsinə toxunmuş, problemlərin həlli yollarını göstərmişlər. Nəticə etibarı ilə son günlərdə yoluxmanın azalması hökumət tərəfindən həyata keçirilən strategiyanın düzgün seçildiyini göstərir.

Pandemiya dövründə ölkə ərazisində müvafiq strukturların və xidmət sahələrinin fəaliyyəti zəruri sosial davranış və sanitar-epidemioloji qaydalara uyğun həyata keçirilir. Bu qaydalar

Azərbaycan Respublikası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən müntəzəm olaraq hazırlanaraq ictimaiyyətə təqdim edilir.

Ölkəmizdə virusun yayılmasının qarşısının alınması üçün 18 yaşdan yuxarı olan vətəndaşların kütləvi peyvənd olunması kampaniyası aparılır. Artıq iki milyondan artıq vətəndaşımız peyvənd olunub və proses uğurla davam etdirilir.

COVID-19 virusu ilə mübarizə uzunmüddətli proses olduğundan xəstəliyə qarşı qabaqlayıcı tədbirlər hər bir şəxsin gündəlik həyat tərzinə çevrilməlidir.

Hazırda Azərbaycan Respublikasında təhsil ictimaiyyətini düşündürən əsas sual COVİD-19 pandemiyası şəraitində təhsil müəssisələrinin fəaliyyətinin bərpası ilə bağlıdır. Təhsil müəssisələrində təhsil prosesi zamanı şagirdlərin, tələbələrin, müəllimlərin, inzibati və texniki işçi heyətinin, eləcə də valideynlərin və digər ailə üzvlərinin virusa yoluxma riskinin qarşısının alınması əsas vəzifədir. Eyni zamanda, təhsil siyasətinin hazırlanması və icrasına cavabdeh olan beynəlxalq və milli təsisatlar pandemiya şəraitində vətəndaşların təhsil hüququnun təmin olunması üçün şərtlər, forma və metodlar barədə də ciddi düşünür və müvafiq tədbirlər görürlər. Bununla bağlı BMT-nin bir sıra ixtisaslaşmış təşkilatları və digər qlobal təşkilatların üzv dövlətlərə ünvanlanan çağırışlar və təlimat sənədləri mövcuddur.

Qlobal pandemiya dövründə əhalinin sağlamlığının qorunması və yoluxmanın qarşısının alınması məqsədilə hazırlanan əsas tövsiyələr Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) tərəfindən təqdim olunur. Təşkilat əhalinin pandemiyaya qarşı səfərbər edilməsi və vəziyyətə nəzarət, ayrı-ayrı yerlərdə yaranan yoluxma hallarının təcrid edilərək kütləvi yoluxmanın qarşısının alınması, fiziki məsafənin məhdudlaşdırılması, ölkə daxili və xaricə səfərlərin tənzimlənməsi üzrə təlimatlar hazırlamışdır. Eyni zamanda, Dünya Səhiyyə Təşkilatı üzv dövlətlərə pandemiya dövründə ictimai səhiyyənin təşkili və icrasına nəzarət, risklərin və resursların idarə olunması, qlobal və milli strategiyaların hazırlanması üzrə dəstək göstərir.

Bildiyimiz kimi, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin müvafiq Sərəncamına əsasən COVID-19 pandemiyası ilə bağlı yoluxma hallarının qarşısının alınması məqsədilə 2020-ci ilin mart ayının 3-dən etibarən ölkə ərazisindəki bütün təhsil müəssisələrində, tədris və təlim-tərbiyə prosesi dayandırılmışdır. Mart ayının 11-dən etibarən Təhsil Nazirliyi tərəfindən ümumi təhsil pilləsi ilə bağlı teledərslərə start verilmiş və 2 aprel tarixindən Virtual Məktəb platformasından istifadə olunmağa başlanılmışdır. Ali, orta ixtisas və peşə təhsili müəssisələrində də tədris prosesi internet resurslarından istifadə etməklə təşkil olunmuşdur. 2020/2021-ci tədris ilindən isə bəzi rayonlar və Naxçıvan MR-dakı qurumlar istisna olmaqla bütün səviyyədən olan tədris müəssisələri fəaliyyətini rəsmi karantin rejiminin tələblərinə uyğun olaraq internet üzərindən davam etdirir. Bunun üçün bütün məktəblərdə zəruri şərait yaradılıb, şagird və tələbələrin biliklərə yiyələnməsi üçün pedaqoji kollektivlər səylərini birləşdirmişlər. Onlayn dərslərin keçirilməsinin təhsilin davamlılığında, təhsilalanların təhsildən kənar düşməsinin qarşısının alınmasında əhəmiyyətli rolu danılmazdır. Bununla belə etiraf edək ki, bu gün istər müəllimlər, istərsə də şagird və tələbələr sinifdəki fəal təlim mühiti, canlı ünsiyyət, aktiv müzakirələr, debatlar və digər müxtəlif səpkili tədbirlərdə iştirak etmək üçün darıxıblar. Hamı yenidən öz təhsil müəssisəsinə dönəcəyi günləri gözləyir.

Onlayn təhsillə bağlı yaşanan sıxıntılardan ən böyüyü isə texniki problemlərdir. Təhsil alanlardan kiminin internet problemi, kiminin kompüter, avadanlıq problemi bu işdə ciddi narahatlıq yaradan amillərdən oldu. Çünki müəyyən ailələrdə kompüterin, telefon və digər lazımi avadanlığın, evdəki şərait bu prosesə xeyli təsir göstərsə də bütün kollektivlər buna anlayışla yanaşdılar.

İnanırıq ki, möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz bütün taleyüklü mücadilələrdən, o cümlədən koronavirus pandemiyasına qarşı mübarizədən qalib çıxacaqdır. Mən konfransın işinə uğurlar arzu edirəm və konfransın gündəliyinə əsasən ümidvaram ki, burada maraqlı və aktual çıxışlar olacaqdır. Plenar iclasdan sonra konfransımız humanitar və iqtisadiyyat panelləri üzrə işini davam etdirəcək.

## PLENAR HİSSƏ

# GÜCLÜ DÖVLƏT: AZƏRBAYCAN MODELİNİN FƏLSƏFİ TƏHLİLİ

**Füzuli Qurbanov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
şöbə müdiri, fəlsəfə elmləri doktoru
fuzuli.qurbanov.59@mail.ru

**Açar sözlər:** dövlət, lider, güclü dövlət, güclü lider, şəxsi keyfiyyətlər, müstəqillik, suverenlik, ədalət, həmrəylik, sülh, barış

Keçən əsrin 90-cı illərindən başlayaraq, "zəif dövlət" və "güclü dövlət" anlayışlarının fəlsəfi dərki daha da intensivləşdi. Qlobal miqyasda müşahidə edilən mürəkkəb və ziddiyyətli geosiyasi proseslərin fonunda bu, tamamilə məntiqi görünürdü. Çünki faktiki olaraq böyük bir geosiyasi məkanda - keçmiş SSRİ və bütövlükdə sosialist düşərgəsi coğrafiyasında çoxlu sayda yeni müstəqil dövlətlər meydana gəlmişdi. Bu proses Qərb liberalizminin kommunist ideologiyası üzərində qələbəsi çərçivəsində baş vermişdi. Xeyli sayda problemlərlə yanaşı, ümumiyyətlə, "dövlət", "dövlətçilik", "zəif dövlət", "güclü dövlət", "suveren dövlət", "psevdodövlət" və digər anlayışların məzmununu yeni yanaşmalar əsasında analiz etmək ehtiyacı yaranmışdı.

Ayrıca, Qərbin bir sıra nəzəri təlimlərində "rogue states" (ingiliscədən tərcümədə: "dələduz-dövlətlər", "yaramaz-dövlətlər") kimi terminlə ifadə edilən dövlətlər haqqında danışılmağa başlandı. ABŞ-ın 2002-ci il sentyabr "Milli təhlükəsizlik strategiyası" adlı sənədində bu barədə konkret müddəalar belə yer aldı. Həmin sənədə görə, öz xalqı ilə sərt davranan, beynəlxalq hüquqa hörmətsizlik edən, kütləvi qırğın silahı əldə etməyə çalışan, terrorizmə yardım göstərən, təməl insan dəyərlərini qəbul etməyən dövlətlər bütün dünyaya təhlükədirlər və onlar "quldur dövlətlərdir". Həmin sırada misal kimi İranı, Suriyanı, Şimali Koreyanı, Venesuelanı, Belorusu göstərirlər.

Bununla Qərb fəlsəfi və siyasi-nəzəri təlimlərində həm "dövlət nədir" anlayışının tədqiqi, həm də meydana gələn yeni qlobal geosiyasi mənzərədə özünü göstərən yeni tendensiyaların "zəif" və "güclü" dövlət kateqoriyaları kontekstində analizi daha da aktual məsələ kimi təqdim olunmağa başladı. Bu bağlılıqda Frensis Fukuyamanın "Güclü dövlət" əsəri böyük maraq doğurdu (bax: 1). Çünki F.Fukuyama Qərb fəlsəfi və siyasi-nəzəri fikrində "dövlət" anlayışının ənənəvi dərk edilməsi üzərində XX əsrin sonu XXI əsrin əvvəllərində həmin anlayışın müasir qlobal problemlər kontekstində məzmun çalarlarını, funksional özəlliklərini qarşılıqlı əlaqədə tədqiq edir.

Frensis Fukuyama həmin əsərdə faktiki olaraq Qərb dövlətçiliyinin fəlsəfi refleksiyasının əsas əlamətini vurğulayır. Konkret olaraq, alim yazır: "Güclü dövlət quruculuğu mövcud hökumət institutlarının möhkəmləndirilməsi və yenilərinin qurulmasından ibarətdir" (1, s. 4). Fikrini inkişaf etirərək tanınmış alim ikinci tezisini ifadə edir: dünyada baş verən qlobal ziddiyyətlərin mənbəyi zəif dövlətlərdir! Dövlətin lazımi səviyyədə güclü olmaması (Qərb fəlsəfi fikri anlamında, yəni idarəetmə, hakimiyyət institutlarının nəzarətinin və s. qaneedici olmaması) müxtəlif qlobal cinayətlərin, faciələrin, xəstəliklərin, qanunsuzluqların vüsət almasına səbəb olur (məsələn, AİDS-in yayılması, nüvə silahının qanunsuz əldə edilməsi cəhdləri, narkoticarətin və beynəlxalq terrorun genişlənməsi, ekoloji vəziyyətin pisləşməsi və başqaları).

Beləliklə, Qərb nəzəri fikrində dövlətin gücü onun idarəetmə orqanlarının vəziyyəti ilə bağlıdır. Buna nəzəriyyədə güclü dövlətin "institusional anlamı" deyirlər. Bütövlükdə Qərb fəlsəfi fikrində güclü dövlətin institusional modeli üstünlük təşkil edir (bax: məs., 3). Bununla yanaşı, Qərb dövlətçiliyinin sosial-fəlsəfi analizində "etik" model də mövcuddur. Burada biz, sadəcə bu modelləri müqayisə edəndə Qərb tədqiqatçılarının daha çox institusional modelə üstünlük verməsini nəzərdə tuturuq.

Bununla yanaşı, XX əsrin sonu və XXI əsrin əvvəllərində baş verən bir sıra hadisələr (məsələn, 2001-ci ilin sentyabrında ABŞ-da böyük terror hadisəsi) fonunda Qərb fəlsəfi və sosioloji fikrində dövlət anlayışında yeni çalarlar meydana gəlməyə başladı. O cümlədən, irəli sürdüyü

ideyalar kontekstində F.Fukuyama 2018-ci ildə dövlətlər arasındakı münasibətlərlə bağlı mövqeyinə düzəlişlər etdi. O, dövətlərarası münasibətləri bütövlükdə identikliklə əlaqələndirirdi. Son illər baş verən dəyişikliklər fonunda isə digər faktorların da həmin məsələdə rol oynamağa başladığını vurğulayır (bax: 2). Bura ilk növbədə daha çox Şərqdə özünü göstərən dövlətin etik anlamı daxildir.

Dövlətin etik anlamı üçün hər şeydən öncə, dövlətin gücünün cəmiyyətin və onu idarəedənlərin mənəvi-əxlaqi, etik, ideoloji, ruhi mükəmməlliyi ilə əlaqələndirilməsi xarakterikdir. Bu məqam avtomatik olaraq güclü dövlət anlayışını konkret cəmiyyətin dövlətçilik ənənəsini, rifah anlayışının özünəməxsus dərk edilməsini, maddi-mənəvi tarixi təkamülün nəzərə alınmasını və başqa faktorları nəzərə almaqla dərk etmək zərurətini ortaya qoyur.

Daha geniş miqyasda məsələnin vurğulanan tərəflərinə baxanda A.Melvillin “müasir dünya dövlətlər dünyasıdır” tezisinin heç də asan anlaşılan olmadığını göstərir (4). Xüsusilə, müstəqilliyini əldə etmiş postsovet məkanı ölkələrində dövlət quruculuğu prosesinin uğurlu olması məsələsinin şərtləri və təmini kreativ yanaşma tələb edir. Bu baxımdan Azərbaycan üçün Qərb fəlsəfi-nəzəri fikrində üstünlük təşkil edən institusional model yaxud, məsələn, Rusiya, Çin, Yaponiya və digər şərq ölkələri üçün xarakterik olan etik model daha səmərəlidir?

1993-cü ilin iyunundan bu suala cavab aydındır. Heydər Əliyev Azərbaycanda mnüstəqil güclü dövlət quruculuğu modelini seçdi. Təcrübə göstərdi ki, bu model çox səmərəlidir və postsovet məkanında ən mükəmməli hesab oluna bilər. Burada Ulu Öndərin həm də Azərbaycan üçün güclü lider obrazını mükəmməl təmsil etməsi mühüm məqamdır. Bununla yeni tarixi mərhələdə Azərbaycanda güclü dövlət modeli ilə güclü lider modelinin harmoniyasına nail olundu. Məsələnin bu aspektinin fəlsəfi analizi üzərində bir qədər geniş dayanaq.

Problemə Azərbaycan dövlətçilik ənənəsinin əsas prinsipləri prizmasında yanaşmaq bizcə, metodoloji baxımdan daha düzgün olardı. Araşdırmalar göstərir ki, Azərbaycanda qədimdən mövcud olan dövlətlər daxili sabitlik (asayişin, nizam-intizamın təmini), Ədalətlilik (siyasi, hüquqi, sosial anlamlarda), həmrəylik (ilk növbədə cəmiyyətin bütün kəsimlərinin öz aralarında və liderlə xalqın birliyinə nail olmaqda) və Barışın, Sülhün yurdda və bütün dünyada bərqərar olması prinsiplərinə ciddi əməl ediblər. Bu prinsiplərdən kənara çıxanlar uzun müddət hakimiyyətdə tab gətirə bilməyib. Bütövlükdə Azərbaycanda dövlətlər həmin prinsiplərə nə dərəcədə əməl edilməsindən asılı olaraq “güclü” və ya “zəif” kateqoriyalarına bölünüblər.

Təbii ki, müasir tarixi mərhələdə yuxarıda vurğuladığımız və vurğulamadığımız çoxlu sayda faktorlara görə, dövlət anlayışı daha geniş və mürəkkəb xarakterli parametrlər əsasında analiz edilməlidir. O cümlədən, müstəqilliyini əldə etmiş ölkələr dövlətçilik ənənəsi ilə müasir dövlət modellərinin sintezini özündə ifadə edən güclü dövlət modelini tapmalıdırlar. Heydər Əliyev BMT Baş Assambleyasının 49-cu sessiyasında (1994-cü ilin 29 sentyabrında) və bu təşkilatın yaradılmasının 50 illiyinə həsr edilmiş xüsusi tədbirdə (1995-ci il oktyabrın 22-si) beynəlxalq səviyyədə Azərbaycanda müstəqil dövlət quruculuğunun əsas prinsiplərini dünyaya bəyan etdi. Azərbaycan güclü iqtisadiyyata malik, daxili həmrəyliyə nail olmuş, fərqli mədəniyyətlərin ortaq mövcud olması üçün bütün imkanların yaradıldığı, davamlı inkişaf edən və xarici siyasətdə Sülh və Barışa istiqamətlənmiş demokratik dövlət quruculuğu yolunu seçib. Heyər Əliyev BMT Baş Assambleyasının 49-cu sessiyasındakı nitqində vurğulamışdı: “Bizim respublikamız qətiyyətlə hüquqi, demokratik, sivilizasiyalı dövlət quruculuğu yolunu tutmuşdur. Bütün bunlar mürəkkəb prosesdir, bir günün işi deyil, lakin biz qarşıya qoyulmuş məqsədə doğru ardıcıl surətdə irəliləyirik və qısa bir dövr ərzində çox işlər görülmüşdür, hüquqi demokratik cəmiyyətin formalaşdırılması üçün hər cür şərait yaradılmışdır”(5, s. 306).

Bu prinsiplərdə daha çox maraq doğuran məqam ərazisi qonşu dövlət tərəfindən təcavüzə məruz qalmış bir ölkənin başçısının qətiyyətlə Sülh və Barışa istinad etməsi idi. Heydər Əliyev Azərbaycan dövlətçilik ənənəsinə sadiq qalaraq məhz Ədalət, Sülh və Barışı önə çəkirdi. Aydın idi ki, bu yol Azərbaycanı çox zəfərlərə aparacaq(5).

Digər tərəfdən, Heydər Əliyev yuxarıda vurğulanan tədbirlərdə nitqi zamanı Azərbaycanın beynəlxalq səviyyədə dövlətlərarası münasibətləri necə gördüyünü dəqiq ifadə etdi. Konkret olaraq, böyük dövlətlərin ədalətli və beynəlxalq hüquq normalarına əməl edən ölkələr olması zərurətini vurğuladı. Bu təmin edilməyincə bütövlükdə dünyada sülh, barış və inkişafdan danışmağın əsassız

olduğunu anlamaq çətin deyil. Heydər Əliyev BMT-nin yaradılmasının 50 illiyinə həsr edilmiş xüsusi tədbirdə ifadə etmişdi: "...Elə problemlər var ki, bunlar köklü şəkildə həll olunmalıdır. Dövlətlər arasındakı münasibətlərdə beynəlxalq hüquq normalarının pozulması, beynəlxalq terrorizm...ekoloji fəlakətlərin qarşısının alınması məhz belə problemlərdir. Dünyanın bir çox regionlarında qanlı müharibələrə...səbəb olan təcavüzkar millətçilik və separatizm halları sülh üçün böyük təhlükədir" (6, s. 194).

Həmin bağlılıqda beynəlxalq təşkilatlar, xüsusilə BMT-nin üzərinə böyük məsuliyyət düşür. Bununla Azərbaycan dövləti bütün beynəlxalq məsələləri diplomatiya yolu ilə ədalətli həll etməyə üstünlük verir və bu prosesdə beynəlxalq təşkilatların, ayrıca BMT-nin aparıcı rol oynamasını doğru sayır. Hələ BMT-nin 49-cu sessiyasındakı nitqi zamanı Heydər Əliyev vurğulamışdı: "Gələn il özünün 50 illiyini qeyd edəcək Birləşmiş Millətlər Təşkilatı, bir sıra münaqişələrin və böhran vəziyyətlərinin aradan qaldırılmasında təcrübəyə malik olan Təhlükəsizlik Şurası yeni dünya qaydasının qurulmasında, şübhəsiz ki, aparıcı rol oynayır. Lakin Təhlükəsizlik Şurası qarşısında hələ çətin sınaqlar durur: yeni şəraitdə öz səmərəli fəaliyyətini Dünya Birliyinə sübut etmək"(5, s. 308).

Beləliklə, müasir mərhələdə güclü Azərbaycan dövləti çağdaş inkişaf etmiş güclü iqtisadi infrastruktura malik, demokratik, hüquqi, ədalətli, sülh və barışa can atan, sivilizasiyalı model üzrə qurulur. Bu modeldə mühüm yeri Azərbaycanın davamlı olaraq beynəlxalq təşkilatlarda fəal iştirakı, münaqişələrin danışıqlar yolu ilə həllinə üstünlük verməklə, regional və qlobal əməkdaşlıq layihələrinin həm təşəbbüskarı, həm də aktiv iştirakçısı olmaqla fəaliyyət göstərən ölkə obrazı tutur. Həmin aspektdə də ölkə rəhbəri (lider) yüksək zəka sahibi, güclü intellektual potensiallı, ədalətli, regional və qlobal əməkdaşlıq formatlarında fəal iştirak edən, şəxsi keyifyyətləri ilə fərqlənən lider olmalıdır.

Bununla da Azərbaycan modelində güclü lider obrazı ilə güclü dövlət modeli bir-birini tamamlamalıdırlar. Həm lider həm də dövlət üçün ortaq özəllik Ədalət, Sülh, Barış, Əməkdaşlıq (regional və qlobal miqyasda) və Multikultural dəyərlərə üstünlük vermək olmalıdır. Bundan başqa, Azərbaycan modeli üçün dövlət başçısı və liderliyi özündə təcəssüm etdirən şəxsiyyətin milli dəyərlərə böyük üstünlük verməsi zəruridir. Azərbaycanda dövlətçilik ənənəsi elədir ki, milli və tarixi özəllik mütləq mənada yeni mərhələdə nəzərə alınmalıdır, lakin bu, köhnəliyə, keçmişə üstünlük vermək anlamına gəlməməlidir. Azərbaycan daim müasirliyə can atan, çağdaş dəyərləri özündə daşıyan sivil dövlət olmalıdır. Həmin bağlılıqda Azərbaycan dövlətçiliyi üçün xarakterik olan bir xüsusiyyəti vurğulamaq lazımdır.

Biz, Azərbaycan dövlətlərinin daim əhaliyə (indi vətəndaşa) diqqət və qayğı göstərməsini, paternalist mahiyyətli olmasını nəzərdə tuturuq. Onu qeyd edək ki, rusiyalı tədqiqatçılar da Rusiyada paternalist və etatist ənənənin güclü olduğunu və bunu modernləşmə prosesində mütləq nəzərə almaq lazım gəldiyini yazırlar. Həmin bağlılıqda professor V.İ.Spiridonova vurğulayır: "dövləti əhəmiyyətli dərəcədə saxlamağa yönəlmiş situasiyalara və imkanlara istiqamətləndirən - etatist modernləşmə adlandırılan modernləşmə aspektləri..." tədqiqat üçün xüsusi maraq kəsb edib. Fikrinə davam edərək, rusiyalı filosof yazır: "bu cür işlərin analizi (etatist modernləşməyə həsr edilən Qərb fəlsəfi ədəbiyyatı nəzərdə tutulur – F.Q.) Rusiya reallıqlarına tətbiqi aspektində Rusiya etatist modernləşmə strategiyası çərçivəsində aparılan islahatların gedişində dövlətçiliyin milli modelinin açar aspektlərini saxlamaq perspektivi baxımından müəyyən nəticələr çıxarmağa imkan verib (bax: 3, s. 8-9).

Bizcə, Azərbaycan dövlətçilik modeli üçün də analoji fikirləri söyləmək olar. Həm də əminliklə demək olar ki, tarixi təcrübə Azərbaycanda real olaraq paternalist və etatist məqamların ciddi surətdə yer aldığını sübut edir. Bu baxımdan güclü lider Heydər Əliyevin siyasi varisini də güclü lider kimi yetişdirməsi xüsusi nəzərə alınmalıdır. Çünki həmin fakt Azərbaycanda güclü liderlər yetişdirmək ənənəsinin mövcudluğunu təsdiq edir. Vurğulanan aspekdə nəzəri əhəmiyyəti olan, Qərb və Rusiya fəlsəfi, siyasi-nəzəri təlimlərində geniş analiz edilən bir məqamı qeyd etmək gərəkdir.

Müstəqil dövlət quruculuğu kontekstində tədqiqatçılar qlobal miqyasda meydana gələn yeni geosiyasi, geoiqtisadi və mədəni mənzərənin özəlliklərini analiz edirlər. Vurğulanır ki, müasir

dünyada həm beynəlxalq münasibətlərin strukturu dəyişib, həm də dövlətlərin geosiyasi ierarxiyası əvvəlki düzənini itirməkdədir (bax: məs., 7, s. 22-23). Bu proses bir tərəfdən “dövlət” anlayışının yenidən tərifini aktuallaşdırır, digər tərəfdən isə dövlət başçılığında liderin şəxsiyyəti məsələsini önə çəkir.

2020 və 2021-ci illərdə pandemiya mərhələsinin sosial-fəlsəfi və siyasi analizinə həsr edilmiş elmi tədbirlərdə vurğulanan tezislərdən biri də indiki qlobal siyasi şəraitdə hər bir dövlət üçün liderin şəxsi keyfiyyətlərinin daha çox önəm kəsb etməyə başlaması ilə bağlıdır (bax: məs., 8). Bu o deməkdir ki, istənilən səviyyədə olan dövlət üçün onun rəhbərinin şəxsi keyfiyyətləri bütövlükdə dövlətin uğurlu və ya uğursuz olmasını şərtləndirir. Zəkalı, uzaqgörən, strateji düşünən, ədalətli, kommunikabelli, yüksək intellektual göstəriciyə malik, iradəli, praqmatik qərarlar qəbul edə bilən və öncə milli maraqları düşünən liderlər güclü liderlər kimi qəbul edilirlər. Bu keyfiyyəti onlar konkret praktiki fəaliyyətdə sübut etməlidirlər. Azərbaycan Prezidenti İlham Əliyev məhz bu keyfiyyətlərə malik olan müasir lider olduğunu İkinci Qarabağ Savaşı dönəmində dünyaya sübut etdi.

Azərbaycan Prezidenti hərbi əməliyyatlar getdiyi dönəmdə belə ədalətliliyini, sülh və barış tərəfdarı olması keyfiyyətini saxladı. Dövlət başçısı olması ilə Ali Baş Komandanlığı uzlaşdıraraq bütün mənalarda əsl liderliyini sübut etdi. Azərbaycan Prezidenti həmin mərhələdə aktiv diplomatiya ilə hərbi meydanda uğurlu planları uyğunlaşdıra bildi. Özü də bunu Qərbin əksər KİV təmsilçilərinin və siyasilərinin Azərbaycana qərəzli münasibəti fonunda edə bildi. Bəlkə də bir çoxları gözləyirdi ki, İlham Əliyev edilən təzyiq cəhdlərinə dözə bilməyəcək və mövqeyindən geri çəkiləcək. Ancaq Azərbaycan Prezidenti zəkası, məntiqi, ədaləti, sülhpərvərliyi, yüksək diplomatik bacarığı, mənəvi-etik keyfiyyətləri ilə fərqli davrandı. Məhz şəxsi keyfiyyətləri hesabına müasir tarixi mərhələdə yeni tip lider olduğunu sübut etdi.

İlham Əliyev həm böyük dövlətlərin rəhbərləri ilə, həm KİV nümayəndələri ilə, həm cəmiyyətlə, həm də ordu ilə qurduğu ünsiyyət üsulu ilə tam qalib oldu. Hərbi əməliyyatların gedişində Azərbaycan Prezidentini dünyanın aparıcı dövlətləri real lider olaraq qəbul etdilər. 2021-ci ilin may ayında Respublika Günü münasibəti ilə İlham Əliyevə ünvanlanan təbriklərin məzmunundan da bu məqam aydın görünür. Xüsusilə, Rusiya prezidenti Vladimir Putinin Azərbaycan dövlət başçısına əsl və bərabərhüquqlu lider kimi müraciət etməsi İlham Əliyevin liderliyinin konkret göstəricisi kimi analitiklər tərəfindən vurğulanır.

Beləliklə, XX əsrin 90-cı illərindən Azərbaycanda formalaşan güclü dövlət quruculuğu modeli müasir dövrün perspektivli numunələrindən biri kimi qəbul edilə bilər. Bu, eyni zamanda, Azərbaycanda güclü liderlik keyfiyyətlərinin formalaşdırılması prosesi ilə harmoniya təşkil edir. Azərbaycan modelinin fəlsəfi refleksiyası baxımından ciddi əhəmiyyəti olan bir sıra faktoru vurğulanan kontekstdə analiz etməyə çalışaq.

Azərbaycanda güclü dövlət və güclü lider anlayışlarının sosial-fəlsəsi analizinə milli, regional və qlobal miqyasda meydana çıxan müxtəlif xarakterli yeni faktorların qarşılıqlı əlaqəsi prizmasında baxmaq daha doğrudur. Bu zaman iki mühüm nəzəri məqamın vəhdətini dərk etməyə ehtiyac duyulur. Birincisi, Azərbaycan güclü dövlət kimi digər dövlətlərlə münasibətlərini qarşılıqlı faydalı əməkdaşlıq, bərbərhüquqlu tərəfdaşlıq və multikultural dəyərlərə sadiqlik kontekstində qurur. Bu prosesin təməlini Ulu Öndər Heydər Əliyev qoyub və onun siyasi varisi Prezident İlham Əliyev böyük uğurla davam etdirir. İkincisi, Azərbaycan güclü dövlət modelinin uğuru birbaşa güclü dövlət başçısı-güclü siyasi lider anlayışına bağlıdır. Bu, Azərbaycan dövlətçilik ənənəsi üçün xarakterik olan etik dövlət modelini saxlamağa və onu müasir şərtlərə adaptasiya etməyə imkan verir. Həmin kontekstdə konkret olaraq, Azərbaycan güclü dövlət modelinin institusional dövlət quruculuğu ilə etik dövlət quruculuğu modellərinin orijinal sintezini yaratmağa imkan verdiyini vurğulamaq istərdik. Baxılan problemdə məsələnin mərkəzi tezisi bundan ibarətdir. Bu orijinallığın fəlsəfi cəhətləri nələrdən ibarətdir?

Hər şeydən öncə, Azərbaycan dövlətçiliyinin özünəməxsus tarixi təkamül yolu keçdiyini vurğulamaq lazımdır. Fəlsəfi aspektdə bunun mənalarından biri ondan ibarətdir ki, ənənə ilə yanaşı, artıq bir neçə yüz ildir ki, Azərbaycanda Rusiyanın təsiri ilə Avropa dövlətçilik ənənəsinin institusional struktur elementleri də özünə yer tutub. Faktiki olaraq Avropa dövlətçiliyinin

institusional elementləri, onların Rusiya anlamının "süzgəci"ndən keçərək və imperialist düşüncənin məntiqinə uyğun olaraq təqribən 300 il Azərbaycan dövlətçilik şüuruna öz təsirini göstərib. Öncə bu, Rusiya İmperiyası, sonra isə SSRİ çərçivəsində baş verib. Bununla Azərbaycanda dövlətçilik modelinin Avropa elementləri başlıca olaraq Rusiya sosial-fəlsəfi fikrində özünə yer etmiş ideyaların birbaşa təsirinə məruz qalıb. Bütün hallarda son 300 ildə Azərbaycanda dövlət idarəetməsində Avropa-Rusiya dövlət idarəetməsinin institusional və ideoloji elementləri ciddi yer alıb. Həmin səbəbdən, müasir mərhələ üçün də müstəqil dövlət quruculuğu modelində bu özəllik mütləq nəzərə alınmalıdır. Müasir Azərbaycan dövlətçilik modeli üçün, bizcə, nəzəri, metodoloji və praktiki olaraq əsas problemlərdən biri bundan ibarətdir. Daha konkret ifadə etsək, dövlət quruculuğu modelində avropa-rus institusional struktur elementləri və idarəetmə konsepsiyası ilə Azərbaycan dövlətçilik ənənəsinin elementlərini səmərəli sintez etməkdən ibarətdir. Heydər Əliyev modeli, təcrübə göstərir ki, bu vəzifənin öhdəsindən səmərəli gəlməyə imkan verir.

Əlbəttə, bir konfrans məqaləsi çərçivəsində həmin modelin sosial-fəlsəfi aspektini tam əhatə etmək imkansızdır. Biz burada ancaq dövlət quruculuğunda sistemyaradıcı funksiya yerinə yetirə bilən üç mühüm parametr üzərində qısa dayanacağıq. Onlardan biri müasir Azərbaycan dövlətçilik modelinə müasir demokratik idarəetmənin struktur elemenlərinin uğurla daxil edilməsidir. Birinci parametr kimi, bu, güclü dövlət konsepsiyasında iqtisadi, sosial, siyasi, mədəni və ideoloji faktorların müasir dövrün tələblərinə uyğun nəzərə alınmasından ibarətdir. İkinci, müasir Azərbaycan dövlət quruculuğu modelində milli, regional və qlobal miqyasların milli müstəqil dövlətçiliklə bağlı elementlərinin nəzərə alınmasıdır. Məsələn, xarici siyasətdə regional və qlobal layihələrdə fəal iştirakla yanaşı, beynəlxalq təşkilatlarda da aktivlik nümayiş etdirmək, dünyanın qlobal problemlərinin sivil yolla həllində fəallıq göstərmək. Aydındır ki, bu, müasir diplomatiyanın üsullarından sistemli, davamlı və səmimi istifadə etməyi "dövlət tərbiyəsi"nin vacib tərkib hissəsi kimi qəbul etməklə sıx bağlıdır. Digər nümunə kimi müxtəlif regional və beynəlxalq layihələrdə (nəqliyyat, enerji, mədəni və s.) təşəbbüskarlıq göstərməklə fəal iştiraka nail olmağı göstərmək olar. Azərbaycan dövlət modelində bu məqam konkret olaraq qarşılıqlı faydalı əməkdaşlıq prinsipinə əsaslanır. Vurğulanan kontekstdə əhəmiyyətli misallardan biri də Azərbaycan cəmiyyətinin multikultural məzmununu regional və qlobal miqyaslara proyeksiya etməyə hesablanmış siyasətin ardıcıl reallaşdırılması ilə bağlıdır. Burada sivilizasiyalar, dinlər, mədəniyyətlərarası dialoqa xidmət edən beynəlxalq tədbirlərin təşkilini, müxtəlif beynəlxalq təşkilatlar arasında dialoqun təşkilinə hesablanmış sistemli və ardıcıl addımların atılmasını (məsələn, "Bakı prosesi" İslam Konfransı Təşkilatı ilə Avropa Şurası arasında real dialoqun təşkilinə istiqamətlənib), Azərbaycan milli mədəniyyətinin multikulturalizmin nümunəsi kimi dünya miqyasında geniş təbliğini, Azərbaycanın dövlət səviyyəsində fərqli mədəniyyətə aid olan abidələrin qorunması və saxlanmasında, onların bərpasında konkret xətt yeritməsini vurğulamaq olar.

Nəhayət, üçüncü vacib parametr güclü dövlət quruculuğunu güclü liderin həyata keçirməsinin təmini faktorunu göstərmək olar. Güclü lider parametri birbaşa müasir dövrün tələbləri ilə bağlıdır. Yuxarıda da göstərildiyi kimi, XX əsrin sonu XXI əsrin ilk onilliklərində baş verən müxtəlif təbiətli qlobal proseslər güclü liderliyin və idarəetmədə şəxsiyyətin rolunun yeni səviyyədə ehtiyac kimi qarşıya çıxdığını göstərdi.

Bütün bunların nəticəsi kimi dövlət quruculuq modelinin məzmunu Heydər Əliyevin müstəqilliyin 10 ili bağlı söylədiyi aşağıdakı fikirlərdə lakonik ifadə olunub: "Azərbaycanın dövlətçiliyi bütün dünyaya nümayiş etdirilibdir. Azərbaycanın müstəqil dövlət olaraq dövlət rəmzləri var. Himni dünyanın hər yerində səslənir, milli gerbi Azərbaycanın dövlətçiliyini hər yerdə nümayiş etdirir, dövlət bayrağı Azərbaycanın üzərində uğurla dalğalanır və daim dalğalanacaqdır. Biz bu günlər böyük qürur hissi keçiririk. Ona görə ki, biz müstəqilliyimizi bəyan edəndən sonra bu on il içərisində bütün dünyaya nümayiş etdirmişik və sübut etmişik ki, Azərbaycan xalqının müstəqil yaşamaq arzusu həmişə olmuşdur. Ancaq on il müddətində Azərbaycan bu istək və arzularını tam yerinə yetirib və sübut edibdir ki, müstəqil dövlət kimi yaşaya bilər və daim yaşayacaqdır".

Ədəbiyyat


1. Фукуяма Ф. Сильное государство: Управление и мировой порядок в XXI веке. М: АСТ: АСТ Москва: Хранитель, 2006, 220 с.
2. Fukuyama F. Identity: The Demand for Dignity and the Politics of Resentment. New York: Farrar, Straus and Giroux, 2018.
3. Спиридонова В. И. Эволюция идеи государства в западной и российской социально-философской мысли: сопоставительный анализ автореферат диссертации по философии, специальность ВАК РФ 09.00.11//URL: http://cheloveknauka.com/evolyutsiya-idei-gosudarstva-v-zapadnoy-i-rossiyskoy-sotsialno-filosofskoy-mysli-sopostavitelnyy-analiz. Müraciət tarixi: 27.05.2021.
4. Melville, Andrei, ed. Political Atlas of the Modern World: An Experiment in Multidimensional Statistical Analysis of the Political Systems of Modern States. Preprint. Moscow: MGIMO, University Press, 2009.
5. BMT Baş Məclisinin 49-cu sessiyasında çıxış (29 sentyabr 1994-cü il), s. 306-314 // Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. May, 1994 – dekabr, 1994. Üçüncü kitab / Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: Azərnəşr, 1997, 604 s.
6. BMT-nin 50 illiyi yubileyi ilə əlaqədar BMT Baş Məclisinin xüsusi təntənəli iclasında çıxış (22 oktyabr 1995-ci il), s. 194 / Əliyev Heydər Əlirza oğlu. Müstəqilliyimiz əbədidir: Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məktublar, məruzələr, müraciətlər, fərmanlar. İyun, 1995 – noyabr, 1995. Dördüncü kitab / Buraxılışa məsul: Ramiz Mehdiyev. Bakı: Azərnəşr, 1998, 528 s.
7. Бляхер Л.Е. Издержки глобального лидерства и «соседская» международная политика/Международная аналитика. 2021, Том 12 (1), с. 21–34//https://doi.org/10.46272/2587-8476-2021-12-1-21-34. Müraciət tarixi 27.05.2021.
8. September 15, 2020//URL: https://www.gallup-international.bg/en/43197/ second-wave-of-global-polling-around-the-globe-worriesabout-the-disease-and-poverty-support-for-the-authorities-same-in-bulgaria-with-some-important-specifi cs/. Müraciət tarixi: 27.05.2021.

# ИСКАЖЕНИЯ ПРИ СУБЪЕКТИВНОЙ ОЦЕНКЕ ПОТЕНЦИАЛЬНОГО УЛУЧШЕНИЯ ПРОИЗВОДИТЕЛЬНОСТИ

**Пини Давидов**
Инженерный Колледж Азриэли, Израиль
*pinida@jce.bc.il*

***Ключевые слова:*** исследуемые, улучшение потенциала, субъективная оценка, время, качественные параметры

**Введение**

Планирование представляет собой процесс определения действий, необходимых для достижения желаемой цели. В качестве цели может выступать, например, ремонт дома, строительство моста или написание компьютерной программы. Планирование включает в себя определение функциональных и технических характеристик конечного результата (требования заказчика, чертежи, материалы и т.д.), необходимых ресурсов (оборудование и рабочая сила) для выполнения задачи, последовательности связей между видами деятельности, а также времени, необходимого для выполнения каждого вида деятельности, и общей продолжительности работ. Следовательно, планирование включает в себя прогнозирование различных аспектов, таких как продолжительность действия и необходимые ресурсы. Даже в том случае, если необходимый комплекс мероприятий тщательно спланирован, сделанный прогноз может далеко не всегда в точности предсказать будущее. При снижении числа ошибок прогнозирования повышается вероятность того, что действие будет выполнено в соответствии с первоначальным планом. Таким образом, понимание сущности ошибок прогнозирования представляет собой особую важность.

Необходимо различать «объективное» и «субъективное» прогнозирование. Объективное прогнозирование основано на математическом уравнении, в котором прогнозируемое значение (зависимая переменная) является функцией от других переменных (независимые переменные). Субъективное прогнозирование основано на суждениях отдельных людей. В ходе прогнозирования эти люди учитывают собственный опыт для того, чтобы сделать наилучшие прогнозы.

Канеман и Тверски [7] предполагают, что при прогнозировании продолжительности задачи индивид, как правило, в первую очередь учитывает особенности текущей задачи, в отношении которой он осуществляет прогнозирование, но не учитывает уже имеющуюся информацию относительно продолжительности задач в прошлом и его способность к точному прогнозированию. Данная гипотеза была подтверждена Бюлером и др. [1]: если индивиды получают указание учитывать их предшествующий опыт, точность их прогнозирования повышается. Халкьелсвик и Йоргенсен [6] установили, что выполнение задач занимает больше времени, чем предполагается. Другими словами, индивиды имеют склонность к чрезмерному оптимизму в отношении результативности в будущем.

Была проделана значительная работа по изучению ошибок планирования, выявленных Канеманом и Тверским [7]. Авторы утверждают, что даже если субъекты имеет ранее приобретенный опыт, связанный с тенденцией к недооценке продолжительности задачи, они по-прежнему продолжают недооценивать результативность в будущем [1,2,8,9].

Несмотря на наличие цитируемых источников, обзор литературы, осуществленный Чаном и Хоффманом [3] показывает, что существует ограниченное количество опубликованных исследований, связанных с оценкой установленного или субъективного

времени, необходимого для выполнения задачи. Также, если речь идет об оценке деятельности человека, следует учитывать возможность повышения эффективности вследствие полученного опыта. Потенциальное повышение эффективности со временем как функция от повторения отображается посредством «кривой научения», также известной как «кривая улучшения», которая имеет некоторые характерные черты.

Многие модели кривых научения были предложены для отображения повышения эффективности в зависимости от времени [4, 5]. Однако, наиболее распространенная модель представлена уравнением (1)

$$t(s) = as^{-m}, \tag{1}$$

где: s – номер повторения;

t(s) – ожидаемая продолжительность повторения;

a – показатель, отражающий продолжительность первого повторения;

m – показатель, отражающий прогресс научения.

Следующее уравнение показывает, что в результате применения данной «модели силы» можно получить постоянное снижения времени производительности (в процентах) при каждом увеличении совокупного производства в два раза:

$$\text{SL} = \frac{t(2S)}{t(s)} = \frac{a(2s)^{-m}}{as^{-m}} = 2^{-m}, \tag{2}$$

где: SL – угол наклона кривой, отражающий постоянную долю снижения времени.

Целью данного исследования является изучение способности индивидов оценивать собственный потенциал повышения эффективности, выраженный «кривыми научения».

**Метод**

Испытуемых просили напечатать следующее предложение 16 раз: “Nevertheless, something about Miss Dykstra put me on my guard”.

Компьютерная программа, разработанная для данного исследования, позволяла каждому испытуемому напечатать каждое последующее предложение только в том случае, если последнее предложение было напечатано правильно. В противном случае, испытуемый должен был вносить исправления до тех пор, пока текст не был идеальным. Испытуемым предоставляли продолжительность первых двух повторений, после чего их просили оценить продолжительность 16-го повторения. Затем испытуемые продолжали печатать предложение до тех пор, пока они не доходили до 16-го повторения. Программа осуществляла сбор фактического времени всех шестнадцати повторений и оценку продолжительности 16-го повторения, генерируя базу данных для анализа.

Выборка данного исследования включала 80 испытуемых. Все испытуемые являлись студентами бакалавриата, которые получали деньги за участие в исследовании.

**Результаты**

В целом, было рассчитано среднее время, необходимое для выполнения каждого из 16-ти повторений. Данное время представлено на рисунке 1 для отображения общего паттерна поведения.

При аппроксимации прямой к 16-ти средним значениям посредством регрессионного анализа была получена кривая научения, представленная пунктирной линией на рисунке 1.

Представленный рисунок указывает на то, что имеются явные доказательства существования феномена кривой научения. Вариация точек данных вокруг аппроксимированной кривой научения может объясняться тем, что каждый испытуемый

имеет разный опыт выполнения задач, аналогичных тем, которые использовались в исследовании.

Основной целью данного исследования явилась оценка способности субъектов оценивать результативность в том случае, если повторение отсрочено во времени. Это выражается в разнице между оценочным значением для 16-го повторения, установленного после второго повторения, и фактическим временем, необходимым для осуществления 16-




| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| average actual time | 89.2 | 72.3 | 64.3 | 62.6 | 56.5 | 59.6 | 55.6 | 49.5 | 52.0 | 52.7 | 48.9 | 45.9 | 50.0 | 45.5 | 44.3 | 42.6 |
| calculated time | 87.1 | 73.6 | 66.7 | 62.2 | 58.9 | 56.3 | 54.3 | 52.5 | 51.0 | 49.8 | 48.6 | 47.6 | 46.7 | 45.8 | 45.1 | 44.4 |

**Рисунок 1. Среднее фактическое время, полученное для всех участников в зависимости от номера повторения и аппроксимированная кривая научения**

го повторения, что выражено уравнением (3).

$$d = est(16) - act(16). \quad (3)$$

Где: est – оценочное время;
act – фактическое время.

Результаты различий для всех участников продемонстрированы на рисунке 2.




**Рисунок 2. Распределение частоты расхождений между оценочной и фактической эффективностью**

Среднее отклонение составило avg (d)= 9,391, стандартное отклонение – std (d)=28,14.

Как показано на рисунке 2, различия распределены вокруг нуля не симметрично. Была принята гипотеза о том, что среднее значение существенно отличается от нуля с доверительным интервалом на уровне p = 0,004. Это означает, что ошибка способности субъектов оценивать будущий прогресс заключается в недооценке их потенциального улучшения. При расчете среднего соотношения разницы и фактического общего затраченного времени, субъекты продемонстрировали значение, которое было на 24,3% ниже оценочного значения, что является явным признаком величины искажения.

На основании результатов можно сделать вывод о том, что вокруг кривой научения имеются различные точки, которые были получены, помимо всего прочего, в результате случайных дестабилизирующих факторов. В этой связи возникает вопрос о том, целесообразно ли использовать фактическое время, необходимое для выполнения 16-го повторения. Более подходящей величиной является расчетное значение t(16), полученное на основании кривой научения, которая позволяет сглаживать случайные дестабилизирующие факторы.

**Заключение**

Эксперимент, проводившийся в ходе данного исследования, был выполнен с использованием определенного вида деятельности (печатание текста), который осуществлялся испытуемыми, имеющими разный уровень подготовки. Несмотря на это, была получена очевидная кривая научения, которая указывает на то, что среднее значение фактического времени для 80-ти испытуемых экспоненциально уменьшилось с 89,2 до 42,6 секунд.

Так как испытуемые, предположительно, имели разный опыт набора текста, ожидалось, что параметры их кривой обучения будут существенно отличаться друг от друга. Полученные результаты указывают на то, что реальное время первого повторения варьировало в широком диапазоне от 15 до 219 секунд, при этом кривая научения имела наклон в диапазоне от 60% до 100%.

Опытный работник, как правило, обладает лучшими способностями к выполнению деятельности, в отличие от работника, не имеющего опыта. Лучшие способности выражаются такими параметрами, как время выполнения задачи и качество конечного продукта. Эти параметры были рассмотрены в данном экспериментальном исследовании; испытуемый не мог осуществить следующее повторение до тех пор, пока предыдущее повторение не было завершено без ошибок. Таким образом, учитывалось время выполнения задания-как скорость, так и качество работы. Затем мы сравнивали более высокие показатели с низкими показателями лиц, участвующих в исследовании.

Отклонение эффективности группы с низкими показателями значительно выше, что указывает на то, что опытные работники характеризуются не только более высокой производительностью, но и более высокой стабильностью, что выражается в меньшем отклонении показателей производительности.

Основной целью данного исследования явилось изучение субъективных способностей испытуемых оценивать их производительность в будущем. Было установлено, что испытуемые недооценивают свое потенциальное улучшение примерно на 24%. Иными словами, в случае прогнозирования продолжительности выполнения заданий, подобных тем, которые использовались в данном эксперименте, субъективное прогнозирование должно быть уменьшено на 24% для компенсации субъективной ошибки.

Для типичной организации довольно частыми являются ситуации, в которых необходимо использовать субъективную оценку с целью прогнозирования времени, необходимого для осуществления деятельности. Результаты данного исследования указывают на то, что субъективная оценка подвержена влиянию систематического

искажения. В данном исследовании была установлена сила данного искажения, однако, данное значение нельзя экстраполировать на другие виды деятельности до тех пор, пока оно не будет валидировано посредством экспериментов с использованием других видов деятельности.

**Список литературы**


1. Buehler, R., Griffin, D., Ross, M. (1994). Exploring the “planning fallacy”: why people underestimate their task completion times. Journal of Personality and Social Psychology, Vol. 67, P. 366–381.
2. Buehler, R., Griffin, D., Peetz, J. (2010). The planning fallacy: subjective, motivational, and social origins. In P. Z. Mark & M. O. James (Eds.), Advances in experimental social psychology ,43rd ed., P. 1–62.
3. Chan, A., Hoffmann, E. (2017). Subjective Estimation of Task Time and Task Difficulty of Simple Movement Tasks, Journal of Motor Behavior, Vol.49, No. 2, P.185-199
4. Christoph H. Glock, Eric H. Grosse, Mohamad Y. Jaber, Timothy L. Smunt. (2018). Applications of learning curves in production and operations management: A systematic literature review. Computers & Industrial Engineering, https://doi.org/10.1016/j.cie.2018.10.030
5. Grosse, E., Glock, C., Müller, S.,. (2015). Production economics and the learning curve: A meta-analysis. International journal production economics, Vol. 170, P. 401–412.
6. Halkjelsvik T., and Jørgensen M. (2012). From origami to software development: A review of studies on judgment-based predictions of performance time. Psychological bulletin, 2012
7. Kahneman, D., & Tversky, A. (1979). Intuitive prediction: Biases and corrective procedures. TIMS Studies in the Management Sciences, Vol. 12, P. 313–327.
8. Kruger, J., Evans, M. (2004). If you don’t want to be late, enumerate: unpacking reduces the planning fallacy. Journal of Experimental Social Psychology, Vol. 40, P. 586–598.
9. Rodon, C., Meyer, T. (2012). Searching information on the web and planning fallacy: a pilot investigation of pessimistic forecasts. European Review of Applied Psychology, Vol. 62, P. 103-109.



**Pini Davidov**


## MƏHSULDARLIĞIN POTENSİAL TƏKMİLLƏŞDİRİLMƏSİNİN SUBYEKTİV QİYMƏTLƏNDİRİLMƏSİNDƏ TƏHRİFLƏR

### Xülasə


Məqalədə işçilərin məhsuldarlığının potensial təkmilləşdirilməsi üçün subyektiv qiymətləndirilmədə fərqli təhriflərin verilməsi məsələlərinə baxılmışdır. Tədqiqat işinin əsas məqsədi gələcəkdə tədqiq edilən şəxslərin məhsuldarlığının qiymətləndirilməsi üçün onların subyektiv qabiliyyətlərinin öyrənilməsindən ibarət olmuşdur.Tədqiqat nəticəsində müəyyən edilmişdir ki, sınaq edilənlər öz potensialının yaxşılaşmasını təxminən 24% qiymətləndirmirlər və ən yaxşı qabiliyyətlər vəzifənin yerinə yetirilməsi vaxtı, həmçinin son məhsulun keyfiyyəti kimi parametrlərlə ifadə edilir.



***Açar sözlər:*** tədqiq edilənlər, potensialın təkmilləşdirilməsi, subyektiv qiymətləndirmə, vaxt, keyfiyyət parametrləri

# PANDEMİYA ŞƏRAİTİNDƏ DÖVLƏTİN YENİ DƏSTƏK MEXANİZMİNİN SAHİBKARLARA YARATDIĞI İMKANLAR

**Vilayət İsmayılov**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, i.e.d
*ismaylov1953@mail.ru*

*Məqalədə pandemiya şəraitində ölkəmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə köməklik göstərilməsi istiiqamətində dövlətin yeni dəstək mexanizmi açıqlanmış, onlara verilən güzəştli kreditin həddi, müddəti və faiz dərəcələri izahlandırılmaqla bir sıra keçmiş sovetlər ittifaqı ölkələrinin bu göstəricilərlə müqayisəli təhlili əhatə edilmişdir. Həmçinin güzəştli kreditin verilməsinin yeni dəstək müxanizmləri tədqiq edilməklə onların sahibkarların fəaliyyəti prosesində yaratdığı əlverişli imkanlar təhlil edilərək pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin azaldılması yolları təklif olunmuşdur. Tədqiqat işində nəticəyə gəlinmişdir ki, güzəştli kredit kimi verilən kreditlərdə tətbiq edilən yeni mexanizmlər biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanlarını genişləndirir, investisiya fəallığı, iqtisadi artım və məşğulluq səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynayır.*

**Açar sözlər:** pandemiya şəraiti, sahibkarlıq fəaliyyəti, dövlət dəstəyi, yeni mexanizm, imkanlar

**Giriş**

2019-cu ilin noyabr ayından hal-hazıra kimi dönya ölkələrini caynağına almış və onların iqtisadiyyatına yetərli qədər ziyan vermiş pandemiya şəraitindən az ziyanla çıxmaq hər bir dövlətin bu istiqamətdə apardığı əsas tədbirlər planında öndə durur. Bu baxımdan öləmizdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə köməklik göstərilməsi məqsədilə "Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası" haqqında Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 4 iyun tarixli Fərmanı xüsusi əhəmiyyət kəsb edir [1]. Bu xüsusi əhəmiyyətli Fərmanda olan bəzi əsas müddəalar Azərbaycanda sahibkarlığın inkişaf etdirilməsi istiqamətində nəzərdə tutulmuş əsas şərtlərlə aşağıdakıları əhatə edir:

I Müddəa:-Sahibkarlığın İnkişafı Fondu (SİF) hesabına verilən güzəştli kredit tam və mərhəli şəkildə olmaqla Sosial İqtisadi İnkişafın prioritet istiqamətləri üzrə sahibkarlıq subyektlərinin investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir. Burada qeyd edilir ki, sahibkarlıq subyektlərinə küzəştli kreditlərin verilməsində Sahibkarlığın İnkişafı Fondunun Müşahidə Şurasının müəyyən etdiyi kriteriyalar əsasında bütün kommersiya bankları və bank olmayan kredit təşkilatları iştirak edir.

II Müddəa: Sahibkarlığın İnkişafı Fondunun güzəştli kredit vəsaitindən istifadə istiqamətlərini əhatə edir. Burada Fondun ayırdığı vəsait hesabına sahibkarlığın inkişaf etdirilməsi istiqamətində müəyyən edilmiş prioritet sahələrin, o cümlədən qeyri-neft sektorunun inkişafı, innovativ texnologiyaların tətbiqi və ixrac əməliyyatları üzrə investisiya layihələrinin maliyyələşdirilməsi xüsusiyyətləri geniş şəkildə izahlandırılmışdır.

IV Müddəa: Güzəştli kreditlərin sahibkarlıq subyektlərinə ayrılması və onlardan istifadəni əks etdirir. Burada Sahibkarlığın İnkişafı Fondu güzəştli kredit vəsaiti hesabına

maliyyələşdirilməyə verilmiş layihələri ekspertizadan keçirir (10 gün müddətində), onun tərəfindən təyin edilmiş Müşahidə Şurasının müəyyən etdiyi qaydada ilkin monitorinqi aparır və ekspertizanın nəticəsini qeyd edir. Alınmış nəticədən asılı olaraq kredit almaq məqsədi müraciət edənlərə kredit verilməsi uyğun olduqda müraciətlər ya təmin olunur, ya da imtina edilməsinə dair qərar qəbul edilir və müvafiq kredit verici kommersiya bankına və ya bank olmayan kredit təşkilatlarına rəsmi məlumat verilir.

**Pandemiya şəraitində sahibkarlıq subyektlərinə verilən güzəştli kreditin həddi, müddəti və faiz dərəcələri**

Pandemiya şəraitində sahibkarlıq subyektlərinin, yəni kiçik və orta sahibkarlığın (KOB) inkişaf etdirilməsi məqsədi ilə verilən güzəştli kreditlərin həddləri aşağıdakı kimi müəyyən edilmişdir:

- kiçik həcmli kreditlər-5 min manatdan 50 min manatadək;
- ortahəcmli kreditlər-50 min 1 manatdan 1 milyon manatadək;
- böyük həcmli kreditlər 1 milyon 1 manatdan 10 milyon manatadək həcmdə vəsaitin verilməsi həyata keçirilmişdir. Onu da qeyd etmək lazımdır ki, təklif edilmiş hər bir investisiya layihəsi üçün güzəştli kreditin həcmi 10 milyon manata kimi müəyyənləşdirilmişdir.

Pandemiya şəraitində sahibkarlıq subyektlərinin inkişafı üçün verilmiş güzəştli kreditlər onun həcmindən asılı olaraq kiçik kreditlərdə 3 ilədək, orta kreditlərdə-5 ilədək və böyük kreditlərdə 10 ilədək meddət üçün müəyyənləşdirilərək Sahibkarlığın İnkişafı Fondunun müəyyən etdiyi siyahı üzrə bu növ kreditləşmədə iştirak edən kommersiya bankları və bank olmayan digər kredit təşkilatları tərəfindən verilmişdir [1, s.2-3].

Sahibkarlığın İnkişafı Fondunun pandemiya dövründə müəyyən etdiyi güzəştli kreditlərinin illik faiz dərəcəsi 1%, müvəkkil kredit təşkilatlarının tətbiq etdikləri illik faiz dərəcəsi isə 4% artıq olmamaqla ümumilikdə güzəştli kreditlərin illik faiz dərəcəsi 5%-dək müəyyən edilmişdir. Müəyyən edilmiş faiz dərəcəsini digər keçmiş sovetlər ittifaqı ölkələri ilə müqayisə etdikdə kiçik və orta sahibkarlığın inkişaf etdirilməsi istiqamətində dövlətlərin güzəştli kreditlərinin faiz dərəcəsindən görünür ki, Ermənistanda bu göstərici 6%-dək, Belorusda-7,75%-dək, Qazaxıstanda-6%-dək, Rusiyada 4-6% hüdudunda təşkil etmişdir [3].

Bundan əlavə pandemiya şəraitində fəaliyyət göstərən KOB-ın inkişaf etdirilməsi istiqamətində istehsal prosesinin genişləndirilməsi, yeni texnika, texnologiya və avadanlıqların alınması üçün mimimum həddi 5 min manat, maksimum həddi isə 3 milyon manat, kredit müddəti 5 ildən çox olmamaqla verilən güzəştli kreditlər SİF-in faiz dərəcəsi 2% və krediti verən təşkilatın faiz dərəcəsi 7% olmaqla ümumilikdə 9% şərtində həyata keçirilmişdir ki, bu da onların inkişafında mühüm rol oynamışdır.

Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, kiçik və orta biznes fəaliyyətinin ÜDM-də payı aşağı, orta və yüksək gəlirli ölkələrdə 63-67%, məşğulluqda payı isə 57-78% hüdudunda təşkil edir [2, s. 6].

DB-nın hesabatına əsasən qeyd edə bilərik ki, biznesin aparılmasının etibarlı və səmərəli qaydaları həm iqtisadi sahərdə sahibkarlıq fəaliyyətinin inkişafında, həm də ölənin digər özəl sektorlarının inkişafında maksimum əhəmiyyət kəsb edir. DB-nın həmin hesabatında qeyd edilir ki, dünya üzrə yoxsulluğun ən aşağı həddinə son qoymaq və ümumi tərəqqini artırmaq üçün bizim şansımız demək olar ki, yox səviyyəsindədir [6]. Bu baxımdan da dövlət tərəfindən ayrı-

ayrı biznes fəaliyyətinin həm tənzimlənməsi, həm də mülkiyyət hüquqlarının müdafiə olunması mühüm vəzifə kimi həmişə ön planda yerləşir.

DB-nın“Doing Business ” layihəsi 2002-ci ildə etibarən artıq 17-ci ildir ki, 190 ölkədə "Biznesin aparılması” sahəsində sahibkarlıq fəaliyyətinin tənzimlənməsi və mülkiyyət hüquqlarının müdafiəsi üzrə kəmiyyət göstəricilərini zaman keçdikcə müqayisəli şəkildə özündə əks etdirir. DB-nın “Diong Business 2019” hesabatında 190 ölkə üzrə biznesin asan aparılması istiqamətindəki təhlilə əsasən ölkələrin reytinq sıralanmasının nəticəsi verilmişdir [5]. Həmin nəticəyə əsasən Azərbaycan bu göstəriciyə görə 190 ölkə sırasında 25-ci yer almış və 96,2 bala qədər yüksəlmişdir. Bu göstəriciyə görə 2020-ci ildə Azərbaycan 9 pillə reytinqini aşağı salmış və 34-cü sırada yer almışdır.

Müqavilələrin icra edilməsinin təminatına görə 2020-ci ildə Azərbaycan reytinq sırasında 28-ci olmuş və 70,3 bal toplamışdır. Biznesin asan aparılması üzrə müəyyən edilmiş kriteriyalara görə 190 ölkə içərisində Azərbaycan minoritor investorların müdafiəsində-105-ci sıra, beynəlxalq ticarətdə- 83-cü sıra, elektrik təchizatı sisteminə qoşulmada-80-ci sıra və tikinti üzrə icazələrin alınmasında-59-cu sırada yer almış, qeyd edilmiş kriteriyalar üzrə digər 8 göstəricidə də 47-ci sıradan aşağıda yer almışdır.

Keçmiş sovetlər ittifaqı və Avropa-Mərkəzi Asiya ölkələri üzrə biznesin asan aparılması göstəricilərində fərqli reytinq sıralanmasına nail olunmuşdur. Belə ki, müqayisə edilən ölkələr üzrə kreditin alınması kriteriyası üzrə hesablamaya görə 1-6-cı yerlərdə Azərbaycan-100 bal (1-ci pillə), Gürcüstan -85 bal (15-ci pillə), Rusiya-80 bal (25-ci pillə), Ukrayna-75 bal (37-ci pillə), Avropa-Mərkəzi Asiya ölkələri-72,2 bal və Belorus-50 bal (104-cü pillə) toplamışlar. Həmçinin, bu kriteriyaya görə ölkələr içərisində bir çöx kriteriya üzrə yüksək pillələrdə yerləşən Türkiyə və Polşa hər biri 37 bal toplamışdır [4, s.30-35].

Sahibkarlığın İnkişafı Fondunun sahibkarlığın inkişaf etdirilməsi məqsədi ilə verdiyi kreditlər üzrə yeni tətbiq mexanizmləri bilavasitə sahibkarlıq subyektlərinin iş prosesini asanlaşdırır və onlar üçün əlveriçli şəraiti formalaşdırır. Odur ki, SİF-nin sahibkarlıq subyektlərinin inkişafına dəstək çərçivəsində verdiyi güzəştli kreditləşmə üzrə tətbiq etdiyi yeni mexanizmlərin şərtləri, məqsədi və üstün cəhətlərini təhlil edək (cədvəl 1).

**Cədvəl 1**

**SİF-in sahibkarlığın inkişafı üzrə güzəştli kreditləşmədə tətbiq edilən yeni mexanizmlər**

| Güzəştli kreditin növü | Güzəştli kreditin müddəti və şərtləri | Dövlətin güzəştli kreditlərdə tətbiq etdiyi faiz dərəcəsi və güzəşt meddəti | Güzəştli kreditlərə tətbiq edilən yeni mexanizmlərin üstün cəhətləri |
|---|---|---|---|
| Daşınmaz əmlak girovu olmayan sahibkarlara güzəştli kreditlər | Güzəştli kredit yeni texnika, texnologiya və avadanlıqların alınmasına yönəldilir və kredit girov kimi qəbul edilir və kreditin güzəşt müddəti 12 ayadəkdir | Kredit pul vəsaiti halında yönəldildikdə bankların faiz dərəcəsi 5%, avadanlıqların alınmasına yönəldildikdə 7% təşkil edir | Bu növ kredit mexanizmi subyektlərin maliyyə resurslarına çıxış imkanlarının genişləndirir, investisiya fəaliyyətinin, iqtisadi artımın və məşğulluğun dəstklənməsində |

| | | | |
|---|---|---|---|
| | | | xüsusi əhəmiyyət kəsb edir |
| Kənd təsərrüfatı üzrə uzunmüddətli investisiya tələb edən sahələr (çayçılıq, bağçılıq və s.) | Kiçik həcmli- müd-dəti 3 ildən 5 ilə, orta həcmlidə 5 ildən 7 ilə artırılıb | Kredit dövrünün yarısı (2,5 və 3,5il) güzəşt müddəti təsbit edilib | Kredit risklərinin azaldılması, kiçik və orta sahibkarların güzəştli kreditə çıxış imkanları artır |
| Fors-major hadisə (təbii fəlakətlər, epidemiyalar və s.) ilə bağlı şəraitin dəyişməsi səbəbi | Kredit təşkilatları Fond qarşısındakı borc öhdəliyinə restrukturizasiya olunur | - | Kredit öhdəliyinin icrasına möhlət verilir |

Mənbə: [1] əsasında müəllif tərtib etmişdir

Bundan əlavə Azərbaycanda biznes fəaliyyətinə dəstək məqsədi ilə verilən kreditlərə dövlət tərəfindən zəmanət verilməsi və onların subsidiyalaşması mexanizminin tətbiqi də xüsusi əhəmiyyət kəsb edən əsas şərtlərdən biridir (cədvəl 2).

Cədvəl 2

| Biznes kreditinin həcmi | Kreditə verilən dövlət zəmanəti | Kreditin illik faizinin dövlət tərəfindən maliyyələşdirilməsi | Kreditin müddəti |
|---|---|---|---|
| 500 milyon manat | Ümumi kreditin həcminin 60% hissəsinə dövlət zəmanət verir | Biznes kreditinin illik faizinin dövlət tərəfindən subsidiyalaşdırılan hissəsi 50% təşkil edir və bu ödəmə illik faiz dərəcəsi 15%-dən aşağı faiz dərəcəsi ilə verilən kreditlər üçün nəzərdə tutulur | Biznes fəaliyyətinə verilən zəmanətli kreditlərin müddəti 3 ilədəkdir. Kreditin güzəşt müddəti isə 12 ayadəkdir |

Mənbə: [1] əsasında müəllif tərtib etmişdir

Məlumatların təhilihdən görünür ki, dövlətin biznes fəaliyyətinin inkişafı və genişləndirilməsi məqsədi ilə verdiyi kreditin həcmi 500 milyon manat və ya milli valyutanın müvafiq kursuna əsasən 293,68575624 milyon ABŞ dolları təşkil edir. Bu məqsədlə verilən kreditin həcminin 60% hissəsinə dövlət zəmanət verir , bu da 300 milyon manat və ya 176,211453744 milyon ABŞ dolları təşkil edir. Fikrimizcə, dövlət tərəfindən verilən zəmanət sahibkarların kifayət qədər kredit ödəmə risklərini yüksəldir və onları maliyyə resurslarından etibarlı və səmərəli istifadə etməyə stimullaşdırır.

**Pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin azaldılması**

Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2020-ci il tarixli Fərmanının və 2020-ci il 19 mart tarixli Sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planında iqtisadi fəaliyyət sahələrinin tənzimlənməsi, mövcud iş yerlərinin saxlanması, sahibkarlara dəstək çərçivəsində vergi stimullarının tətbiqi, biznesin sanlaşdırılması məqsədilə subyektlərin kredit ehtiyaclarının təmin edilməsi, pandemiyanın mənfi təsir göstərdiyi sahələrə dövlət dəstəyi mexanizminin təşkili, pandemiyadan sonrakı dövr üçün tədbirlər proqramının işlənilib həyata

keçirilməsi, əhalinin rifah halının yüksəldilməsinə dəstək, həmçinin əhalinin aztəminatlı və xüsusi həssas təbəqəsini əhatə edən bir sıra fəaliyyət istiqamətləri nəzərdə tutulmuşdur. Bu baxımdan pandemiya şəraitində iqtisadi fəaliyyət sahələrində vəziyyəti normalşan ölkələrdən biri də Azərbaycan hesab edilir. Bu şərtlər çərçivəsində dövlət pandemiyanın iqtisadiyyata vurduğu ziyanların aradan qaldırılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, müsəssisələrin müflisləşməsinin qarşısının alınması məqədilə çoxsaylı tədbirlər həyata keçirilmişdir.

2020-ci ildə pandemiyanın ölkə iqtisadiyyatına mənfi təsirlərinin azaldılması məqsədilə həyata keçirilən tədbirlər sırasında bir neçə istiqamətlər nəzərdə tutulmuşdur:

**1. İqtisadi qurumların fəaliyyətinin fövqəladə koordinasiyası istiqaməti:**

-Pandemiya şəraitində iqtisadi-siyasi sahədə qərarların vaxtında qəbul edilməsi ilə iqtisadiyyatdakı proseslərin operativ izlənilməsi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin məlumatlandırılması üçün dövlət qurumları və müəssisələri tərəfindən tələb olunan həcmdə məlumatlar (İN təşkil etdiyi) elektron bazaya daxil edilmiş və həmin bazaya bütün aidiyyəti qurumların çıxışı təmin olunmuşdur.

**2. İş yerlərinin və sosial sabitliyin qorunması istiqaməti:**

-Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan muzdlu işçilərin (300 min nəfər) əməkhaqqının müəyyən hissəsi ödənilmişdir. Bu məqsədlə AR Prezidentinin 19 mart 2020-ci il Sərəncamı ilə ayrılmış 215 mlyn. manat vəsaitdən ödəniş edilmişdir. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən fərdi sahibkarlara (300 min nəfər) maliyyə dəstəyinin həcmi 80 mlyn. manat təşkil etmişdir.

**3. İqtisadi fəallığın qorunmasına vergi stimullarının verilməsi istiqaməti:**

-Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri və tətillərin verilməsi: mikro sahibkarlıq subyektləri, əmlak və torpaq vergisindən müddətli azad olmalar, vergi ödəyicilərinə edilən güzəştlərin həcmi 115 mlyn. manat təşkil etmişdir.

**4. İqtisadiyyata və sahibkarliğa dövlətin kredit-zəmanət dəstəyinin verilməsi istiqaməti:**

-Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə 0,5 mlrd. manat həcmində bank kreditləri üzrə dövlət zəmanəti verilmiş və kredit faizlərinin subsidiyalaşdırılmasına 20 mlyn. manat vəsait xərclənmişdir.

-Sahibkarlığın İnkişafı Fonduna 50 mlyn. manat həcmində əlavə vəsait ayrılmışdır. Bundan əlavə zərər çəkmiş sahələrin sahibkarlıq subyektlərinə 1 mlrd.manat həcmində mövcud kredit portfeli ayrılmış və kredit faizlərinin subsidiyalaşdırılmasına digər mənbələrdən 50 mlyn. manat vəsait verilmişdir. Həmçinin, güzəştli ipoteka kreditləri üçün ayrılan vəsaitlərin həcminin artırılması üzrə 90 mlyn. manat və həyati vacib sərnişindaşıma sahəsinə maliyyə dəstəyinin verilməsi üzrə 280 mlyn. manat vəsait verilmişdir.

**5. Məşğulluq və sosial rifaha dəstək istiqamətində:**

-Dövlət və qeyri-dövlət sektoru üzrə işçilərin işsizlik riskindən qorunması və onların sosial müdafiəsinə müvafiq olaraq 910 min nəfərə və 664 min nəfərə aşağıdakı həcmdə vəsait ayrılmışdır:

a)işsiz və işdən azad olunmuş şəxslərin məşğulluğu və sosial müdafiəsinə- 50 min nəfər haqqı ödənilən ictimai iş yerinin yaradılması vasitəsilə işsiz şəxslərin müvəqqəti məşğulluğunun təmin edilməsinə-30 mlyn. manat (2 ay) və DMX-də işsiz kimi qeydiyyata alınan şəxslərə (200 min nəfər) yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəməyə-70 milyon manat (2 aylıq) xərclənmişdir;

b)özünüməşğulluq proqramının genişləndirilməsinə-11 min nəfərə cəmi 70 mlyn. manat vəsait İşsizlikdən Sığorta Fondu tərəfindən ödənilmişdir;

v)işsizlikdən sığorta ödənişlərinin əhatə dairəsinin genişləndirilməsinə-20 min nəfəri əhatə etməklə 20 mlyn. manat vəsait, işsizliksığorta ödənişi bitmiş, lakin işlə təmin olunmamış 2 min nəfərə-0,6 mlyn. manat İşsizlikdən Sığorta Fondu tərəfindən ödənilmişdir.

**6. Əhalinin xüsusi həssas təbəqəsindən olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində:**

-Bütövlükdə 76 min nəfəri əhatə etməklə 200 mlyn. manat DSMF və 50 mlyn. manat AR Prezidentinin ayırdığı kompensasiya məbləgindən ödəniş hesabına təmin edilmişdir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində sahibkarlıq subyektlərinin (menecerlərin) bilik və bacarıqlarının artırılması, onların beynəlxalq təcrübəyə yiyələnməsi məqsədi ilə ixtisasartırmanın təşkili üzrə «Almaniya-Azərbaycan birgə Proqramı» çərçivəsində 20 sahibkar və gənc menecer 2020-ci ildə 1 ay ərzində Almaniyanın Münhen və Yuxarı Bavariya Ticarət və Sənaye Palatası Tədris Mərkəzində təlimlərdə, müvafiq müəssisələrdə isə istehsalat təcrübəsində iştirak etmiş, ixtisaslaşmış şirkətlərdə işgüzar görüşlər keçirmişlər. Pandemiya dövründə də bu istiqamətdə hazırlıq onlayn formatda davam etdirilmiş (2020-ci ilin 17 avqust), təlimlərdə Azərbaycandan 9 sahibkar və menecer iştirak etmişdir.

Pandemiya şəraitində 2020-ci ildə (fevral) Xaçmazda ilk Kiçik və Orta Biznes Evi (KOB Evi) fəaliyyətə başlamışdır və burada sahibkarlara 250-yə yaxın xidmət göstərilir ki, bundan da 150-si dövlət müəssisələri, 100-i isə biznes subyektlərinin göstərdiyi xidmətlərdir. 2020-ci ildə cəmi sahibkarlıq subyektlərinə 20 mindən çox xidmət göstərilmiş, onlar tərəfindən aparılmış sorğu məlumatlarının nəticəsinə görə xidmətlərdən istifadə edən sahibkarların məmnunluq səviyyəsi 97 faiz təşkil etmişdir. Onu da qeyd edək ki, 25 dekabr 2018-ci ildən Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOB) Gəncə nümayəndəliyi fəaliyyət göstərir.

Pandemiya dövründə Azərbaycanın regionlarında özəl investisiya fəallığının artırılması və investisiyaların cəlb edilməsi istiqamətində 2020-ci ildə 61 sahibkarlıq subyektinə 62 investisiya təşviqi sənədi təqdim olunmuşdur. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 386,4 milyon manat investisiyanın yatırılması və 3242 yeni iş yerinin açılması təmin edilmişdir. İnvestisiya təşviqi sənədlərinin 72,6%-i sənaye, 25,8%-i kənd təsərrüfatı, 1,6% isə turizm sahələri üzrə əlaqəli layihələri əhatə edir. 2020-ci il ərzində müvəkkil kredit təşkilatları vasitəsilə 908 investisiya layihəsinin maliyyələşdirilməsinə 126,9 milyon manat, o cümlədən respublikanın regionları üzrə 876 investisiya layihəsinin maliyyələşdirilməsinə 100,2 milyon manat güzəştli kredit verilmiş və 2700-ə yaxın yeni iş yerləri aşılmışdır.

Həmçinin, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 14 aprel tarixli Sərəncamı ilə pandemiya şəraitində və sonrakı dövrdə kənd təsərrüfatı məhsulları istehsalçılarının mikrokreditlərlə təminatı üçün Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinə (AKİA) 30 milyon manat vəsait ayırılmışdır. Aqrar Kredit və İnkişaf Agentliyi özəl investisiyaların cəlb edilməsi üzrə ümumi dəyərin 41%-nin sahibkarların şəxsi vəsaiti hesabına olmaqla 2020-ci ildə kənd təsərrüfatının inkişafı ilə əlaqəli 60 rayonda 4034 kənd təsərrüfatı sahibkarına 47653,0 min manat məbləğində güzəştli kredit, o cümlədən 3418 şəxsə 34426,0 min manat məbləğində mikrokredit vermiş və mikrokreditin xüsusi çəkisi 72,2% təşkil etmişdir.

Kənd təsərrüfatı istehsal vasitələrinin alışının maliyyələşdirilməsi məqsədilə 2993 kənd təsərrüfatı istehsalçısına 37311,2 min manat kredit və 73616.9 min manat məbləğində güzəşt məbləği ayrılmışdır ki, bundan da 1421 nəfərə həm güzəşt məbləğli, həm də adi kredit verilmişdir. Verilmiş güzəştli kreditlər nəticəsində yeni 1120 daimi və müvəqqəti iş yerləri yaradılmışdır. Eyni zamanda, damazlıq heyvanların satışı və lizinqinin maliyyələşdirilməsi məqsədilə 423 müraciətə 136,4 min manat kredit və 16644,4 min manat güzəşt məbləği ayrılmışdır. 2020-ci ildə benefisiar təsərrüfatlara 1,92 milyon manat qrant vəsaiti verilmiş, nəticədə 174 yeni iş yeri yaradılmış və 16 sub-layihədən 3-nin icrası uğurla başa çatmışdır.

Azərbaycanın prioritet istiqamətləri sırasında brend məhsullar (xurma, pomidor, nar sub-sektorları və gələcəkdə - qara ikra istehsalı) istehsal edən müəssisələrin göstəriciləri əsasında benchmarking (müqayisəli təhlil) aparılmaqla bacarıqların artırılması və fəaliyyətinin genişləndirilməsi istiqamətində təlimlər keçirilir. Seçilmiş istiqamətlər (xurma, pomidor və nar) üzrə 250 beynəlxalq şirkətdən 62 potensial investor müəyyənləşdirilmişdir. 2020-ci ildə (avqust) Xaçmaz KOB İnkişaf Mərkəzi tərəfindən fındıq istehsalının və ixracının artırılması məqsədilə burada fəaliyyət göstərən fındıq istehsalçıları üçün onlayn təlim keçirilmiş və

təlimdə şimal regionunda fındıq istehsalı ilə məşğul olan fermerlər istehsal prosesində qarşılaşdıqları çətinliklər və onların həlli yolları, ziyanvericilərlə mübarizə üsulları istiqamətində maarifləndirilmişlər. Onlayn görüşdə Xaçmaz, Qusar və Şabran rayonlarından 20-yə yaxın fındıq istehsalçısı iştirak etmişdir.

**Nəticə**

Aparılmış tədqiqat işində aşağıdakı nəticələr əldə edilmişdir:

- Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə Sahibkarlığın İnkişafı Fondunun güzəştli kreditləri tam və mərhəli şəkildə verilməklə sosial iqtisadi inkişafın prioritet istiqamətlərində investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir.
- Kreditlər kiçik, orta və böyük həcmli olmaqla, həm də avadanlıqların alınması üzrə cəmi 9% faiz dərəcəsi ilə verilmişdir ki, bu da dünya ölkələrilə müqayisədə əlverişli faiz göstəricisi hesab edilir.
- Güzəştli kredit kimi verilən kreditlərdə tətbiq edilən yeni mexanizmlər biznes subyektlərinin maliyyə resurslarına çıxış imkanlarını genişləndirir, investisiya fəallığı, iqtisadi artım və məşğulluq səviyyəsinin yüksəldilməsində əhəmiyyətli rol oynayır.
- Fors-major hadisələr zamanı kredit öhdəliyinin icrasına möhlət verilməsini təmin edir.
- Həcmi 500 mlyn. manat, illik faizi 15%-ə kimi olan biznes kreditinin 60%-nə dövlət zəmanət verir və illik faizin 50%-i dövlət tərəfindən subsidiyalaşdırılmaqla 3 il müddətinə verilir ki, bu da sahibkarların istehsal prosesinin genişlənməsində, işçilərin əmək haqqının yüksəldilməsində birbaşa dəstək forması hesab edilir.

Bu qeyd edilənlər Azərbaycanda biznes fəaliyyətinin asan aparılmasına, hər bir biznes adamı üçün kreditin əlçatan olasına və kreditdən yararlanma səviyyəsəviyyəsinin yüksəldilməsinə, habelə ölkədə biznesin aparılmasının bu kriteriyasının daha da əlverişli və səmərəli şərtlərlə verilməsinə şərait yaratmış olur.

**İstifadə edilmiş ədəbiyyat**

1.“Azərbaycan Respublikası Sahibkarlığın İnkişafı Fondunun vəsaiti hesabına güzəştli kreditlərin verilməsi Qaydası” haqqında Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2020-ci il tarixli Fərmanı.

2.“Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq səviyyəsində istehlak mallarının istehsalına dair Strateji Yol Xəritəsi”. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı

3.Мониторинг принятых государствами-членами ЕАЭС мер, направленных на преодоление негативных последствий распространения коронавирусной инфекции (COVID-2019). Евразийская экономическая комиссия. 2020

4.“Doing Business 2020”. Comparing Business Regulation in 190 Economies. World Bank Group

5.“Doing Business 2019”. Comparing Business Regulation in 190 Economies. World Bank Group

6. URL: https://www.worldbank.org/en/news/immersive-story/2018/10/31/doing-business-2019-a-year-of-record-reforms-rising-influence

**Вилаят Исмайлов**

# ВОЗМОЖНОСТИ, СОЗДАВАЕМЫЕ НОВЫМ МЕХАНИЗМОМ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ ПРЕДПРИНИМАТЕЛЯМ В УСЛОВИЯХ ПАНДЕМИИ

**Резюме**

В статье раскрыт новый механизм государственной поддержки субъектов предпринимательства, действующих в нашей стране в условиях пандемии, разъяснены лимиты, сроки и процентные ставки по предоставляемым им льготным кредитам, а также проведен сравнительный анализ ряда стран бывшего Советского Союза по этим показателям. Также были изучены новые механизмы поддержки предоставления льготных кредитов и проанализированы благоприятные возможности, создаваемые в процессе деятельности предпринимателей, предложены пути снижения негативного воздействия пандемии на экономику страны. В исследовательской работе сделан вывод о том, что новые механизмы, применяемые в таких кредитах, как льготный кредит, расширяют доступ субъектов предпринимательства к финансовым ресурсам, играют важную роль в повышении инвестиционной активности, экономического роста и уровня занятости.

**Ключевые слова:** условия пандемии, предпринимательская деятельность, государственная поддержка, новый механизм, возможности

# PANDEMİYA DÖVRÜNDƏ AZƏRBAYCAN DÖVLƏTİNİN SOSİAL DƏSTƏK LAYİHƏLƏRİ

**Üzeyir Şəfiyev**
Bakı Dövlət Universitetinin Sosial iş
kafedrasının müdiri, sosiologiya üzrə
fəlsəfə doktoru, dosent
uzeyirshafiyev@gmail.com

**Açar söz:** koronavirus, pandemiya, sosial dəstək, sosial xidmət, sosial siyasət,sosial müdafiə, ictimai həmrəylik

Bildiyimiz kimi dünyanın qarşılaşdığı koronavirus pandemiyası qlobal miqyasda proqnozlaşdırıla bilməyən sosial–psixoloji iqlim yaratdı, bəşəriyyəti yaşamaq uğrunda mübarizəyə səfərbər edə bildi. Hər bir dövlətin sosial mahiyyəti həm də onun vətəndaşına münasibətində ifadə olunur.Dövlət vətəndaş münasibətləri xüsusi tarixi şəraitlərdə, ehtimali və qeyri ehtimali vəziyyətlərdə sınanır, necə deyərlər, bərkdən - boşdan çıxır.Hər bir xalq, cəmiyyət o vaxt şanslı olur ki, onun seçdiyi rəhbər müdrik və tədbirli olur, zamanın ruhunu, çağrışlarını vaxtında adekvat dəyərləndirməyi bacarır.Bu baxımdan Azərbaycan xalqı çox şanslı xalqdır.Çünki onun rasional lider keyfiyyətlərinə malik dövlət rəhbəri vardır.Bu özünü son dövrlər bütün dünya evini təhdid edən karonavirus pandemiyası zamanı bir daha sübut etdi.

Heç kimə sirr deyil ki, virusun hələ pandemiya həddinə çatmadığı dönəmdə bir sıra dövlət rəhbərləri adekvat qiymətləndirməyərək, ona qeyri-ciddi münasibət sərgilədilər, heç bir qabaqlayıcı sosial təhlükəsizlik tədbirləri görmədilər.Çox qısa zamanda virus pandemiya halına keçərək sözügedən dövlətləri dərin itkilər qarşısında qoydu və həmin dövlət başçıları virusa münasibətdə səhv etdiklərini sonradan etiraf etdilər.

Mübaliğəsiz demək olar ki, sosial dövlət quruculuğu istiqamətində kardinal addımlar atan Azərbaycanın dövlət başçısı İlham Əliyev bu taleyüklü anlarda da tarixin sərt sınağından üzü ağ çıxmağı bacarmaqla yanaşı, özünü sosial dövlət hesab edən bir sıra dövlətlərin başçılarına örnək ola biləcək nümunələr, karonavirusla mübarizədə Azərbaycan təcrübəsini sərgilədi.Bu təkcə öz vətəndaşlarına münasibətdə deyil, yaxın və uzaq qonşularına, bütövlükdə dünya evinə verdiyi töhvələrdə təcəssüm olundu.

Belə ki, Azərbaycan pandemiyaya qarşı mübarizədə ilk günlərdən Ümumdünya Səhiyyə Təşkilatı ilə səmərəli əməkdaşlıq etdiyindən 2020-ci ilin 9-13 mart tarixlərində ÜST- ün aparıcı mütəxəssislərindən ibarət heyət ölkəmizdə səfərdə olarkən ölkəmizdə vəziyyətlə tanış olaraq, görülmüş işlərə müsbət qiymət vermiş, Azərbaycanı pandemiyaya qarşı görülmüş tədbirlərə görə nümunəvi ölkə kimi dəyərləndirilmişlər. Xatirlatmaq yerinə düşər ki,Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əlaqələrin yaradılması və pandemiya ilə mübarizəyə Azərbaycan dövlətinin dəstəyi olaraq ilkin olaraq 5 milyon manat vəsaitin BMT- yə ianə edilməsi də beynəlxalq ictimaiyyətə istiqamətlənmiş töhvələrdən sayılmalıdır.

Ədalət naminə qeyd edək ki, virusun hələ ölkə hüdudlarına daxil olmasından öncə ölkə rəhbəri İ.Əliyev uzaqgörənlik nümayiş etdirərək bir sıra qabaqlayıcı sosial təhlükəsizlik tədbirlərinin anonsunu verdi, ölkə vətəndaşlarını, məsul strukturları sayıqlığa və məsuliyyətə dəvət etdi.Bu xəbərdarlıq az sonra, Azərbaycan prezidentinin xalqa əmənəvi “Novruz” müraciətində daha aydın ifadəsini tapdı: “Bu xəstəliyin yayılmaması üçün ilk növbədə, bütün dövlət tədbirləri ilə yanaşı, vətəndaşlar da məsuliyyətli olmalıdırlar. Çünki bu, milli məsələdir, xalqımızın sağlamlığıdır, dövlətimizin təhlükəsizliyidir.”

İlk koronavirus xəstəsinin aşkar edildiyi 28 fevral tarixindən Azərbaycan koronavirusla mübarizədə müstəqil hərəkət etdiyi halda, dünyanın 80-dən artıq ölkəsi Beynəlxalq Valyuta Fonduna koronavirusla mübarizədə maliyyə yardımı üçün müraciət etdi. Azərbaycanda virusun yayıldığı ilk gündən qabaqlayıcı sosial təhlükəsizlik tədbirləri görülməyə başlanıldı. Bu tədbirlər istisnasız olaraq əhalinin bütün təbəqələrini, hər bir vətəndaşın sosial –iqtisadi, psixoloji təhlükəsizliyini əhatə edirdi. Qeyd edək ki, Azərbaycanda pandemiya ilə mübarizədə əsas iki

istiqamətdə- mariflәndirmә vә sәrt yasaqlayıcı tәdbirlәr görülmәyi nәzәrdә tutan işçi planı reallaşdırılırdı.Qeyd olunan tәdbirlәr sırasında ilk öncә aşağıdakı tәdbirlәr öz әksini tapmışdı:

- Koronavirusla mübarizәnin kompleks vә bir mәrkәzdәn idarә edilmәsi mәqsәdi ilә Prezidentin 24 yanvar 2020-ci il tarixli sәrәncamı ilә Baş Nazirin rәhbәrliyi ilә Operativ Qәrargahın vә Koronavirusla mübarizәyә dәstәk Fondunun yaradılması;

- Nazirlәr Kabinetinin 30 yanvar 2020-ci il tarixli sәrәncamı ilә Azәrbaycanda yeni növ koronavirus xәstәliyinin yayılmasının qarşısının alınmasına dair fәaliyyәt Planının tәsdiq edilmәsi;

- әhalinin panikaya düşmәsinin qarşısını almaq mәqsәdilә müvafiq sahә mütәxәssislәrinin kiv vasitәsilә mariflәndirmә işlәrinә cәlb edilmәsi;

-pandemiyanın sosial- iqrisadi fәsadlarının azaldılması vә postpandemiya dövrünә hazırlıq mәqsәdi ilә görülәcәk tәdbirlәrin maliyyәlәşdirilmәsi üçün büdcәdәn 1 milyard manat vәsait ayrılması;

– Ölkәnin әn yaxşı otellәrindә karantin şәraitindә olan 15000- dәn çox xaricdәn tәxliyә olunan vәtәndaşımızın tam dövlәt hesabına saxlanılması;

– Koronavirus infeksiyasina tutulmuş xәstәlәrin ixtisaslı müalicәsi üçün 6-sı dövlәt, 4-ü özәl olmaqla10 yeni xәstәxananın tikilmәsinә qәrar vermәsi vә bu mәqsәdlә 14.8 milyon manat, tibb avadanlığının alınması üçün 97 milyon manat ayrılması barәdә Prezident sәrancamının imzalanması, aprelin 6-da Sumqayıt Kimya Sәnaye Parkında "Bakı Tekstil Fabriki" MMC-nin nәzdindә yaradılan tibbi maska istehsalı müәssisәsinin açılışı , pandemiya ilә әlaqәdar olaraq 575 çarpayılıq "Yeni klinika"-nın açlışı , müxtәlif bölgәlәri әhatә edәn 20- dәn artıq klinikanın koranoviruslu xәstәlәrin müalicәsi üçün sәfәrbәr edilmәsi, iki hәftә әrzindә ölkә daxilindә dezinfeksiya edici vasitәlәrin vә tibbi maska istehsalının tәşkil edilmәsi dövlәtin pandemik şәraitә operativ reaksiyası kimi diqqәtçәkәn idi.

Azәrbaycanda Ümümdünya Sәhiyyә Tәşkilatının "Evdә qal!" çağırışına ciddi şәkildә әmәl edildi. Azәrbaycan Prezidentinin 19 mart 2020- ci il tarixdә imzaladığı koronavirus pandemiyasının ölkәnin sosial- iqtisadi hәyatına mәnfi tәsirlәrinin azaldılmasını vә postpandemiya dövrünün inkişaf perspektivlәrini nәzәrdә tutan "Koronavirus (COVID-19) pandemiyasının vә bundan irәli gәlәrәk dünya enerji vә sәhm bazarlarında baş verәn kәskin dalğalanmaların Azәrbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyә, ölkәdә mәşğulluq mәsәlәlәrinә vә sahibkarlıq subyektlәrinә mәnfi tәsirinin azaldılması ilә bağlı bir sıra tәdbirlәr haqqında" sәrәncamı xüsusi rol oynadı .

Ölkәdә virusun yayılmasının qarşısının alınması ilә bağlı preventiv tәdbirlәr kimi fevralın axırında İranla, martın ortalarında isә Gürcüstan, Rysiya vә Türkiyә ilә gediş- gәlisin dayandırılması, әvvәl uşaq bağçalarının, mәktәblәrin universitetlәrin, daha sonra isә digәr sosial, ictimai obyektlәrin fәaliyyәtlәrinin dayandırılması problemlә mübarizәdә ciddi önlәyici addımlardan idi.

Azәrbaycan prezidenti İlham Әliyev pandemiya ilә mübarizәdә tәkcә sosial –iqtisadi tәhlükәsizlik tәdbirlәri ilә bağlı sәrәncam vermәklә kifayәtlәnmәdi, o ali baş komandan olaraq bu mübarizәnin ön cәbhәsindә özünә yer alaraq vәtәndaşların mariflәndirilmәsindә, onları sosial mәsuliyyәtә dәvәt etmәdә, insanlara psixoloji dәstәk vermә istiqamәtindә dә örnәk addımlar atdı. Ölkә başçısının " Biz birlikdә güclüyük" çağırışı hәmin günlәrdә sosial hәmrәylik üçün dәrin psixoloji gücә malik bir şüara çevrilәrәk xalqımızın vahid bir mәrkәzdә sәfәrbәrliyinә töhvә verdi.Prezidentin tәşәbbüsü ilә yaradılan pandemiya ilә mübarizәyә dәstәk fondu bu ictimai hәmrәyliyin bariz tәzahürlәrindәn biri idi.Xatırladaq ki, bu fonda ölkә başçısı vә xanımı bir illik mәvacibini köçürmәklә göstәrdiyi örnәyә ölkә ictimaiyyәti vә hüquqi şәxslәrdәn böyük dәstәk gәldi. *Vәtәndaşların mariflәndirilmәsi, reallıqla barışmasında, onların sosial mәsuliyyәtә cәlb olunmasında, vәtәndaş hәmrәyliyinә dәvәt olunmasında,vәtәndaş laqeyidliyinin qarşısının alınmasında ölkәnin birinci vitse-prezidenti Mehriban Әliyevanın pandemiyanın ilk günlәrindә Sizin Mehriban imzası ilә xalqa tarixi müraciәtinin dә mühüm әhәmiyyәti oldu.* Öz xalqına bir övlad, bir hәyat yoldaşı, bir ana vә nәnә olaraq müracәt edәn ölkәnin birinci xanımı hәr bir vәtәndaşın hәmrәylik hislәrini cilalayan "Virusa qarşı immunitet vaksin tapıldıqdan sonra

yaranacaq. Biganəliyə qarşı immuniteti isə hər kəs özündə formalaşdırmalıdır..” fikri vətəndaş sosial məsuliyyətinin aşılanması üçün mühüm məna kəsb edirdi.

Prezident İlham Əliyevin koronavirus pandemiyasının ölkə iqtisadiyyatına və vətəndaşların həyat səviyyəsinə mənfi təsirlətinin azaldılması ilə bağlı 10 mart 2020- il tarixli sərəncamının icrası olaraq Nazirlər Kabineti tədbirlər planı hazırladı. Bu tədbirlər sırasında məşğulluğa və sosial rifaha dəstək xüsusi yer tutur. Dövlətimizin başçısının 2020-ci il 19 mart tarixli Sərəncamının icrası ilə bağlı təsdiqlənmiş Tədbirlər Planında məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir əksini tapdı. Aprelin 17-də Azərbaycan Respublikasının Prezidenti tərəfindən elan edilən yeni dəstək tədbirləri ilə 2,5 milyon vətəndaşı əhatə edən məşğulluq və sosial rifah istiqamətinə 600 milyon manat vəsait ayrıldı.

65 yaşdan yuxarı, tənha insanların evdən çıxmaması üçün onlara göstərilən bütün sosial və məişət xidmətlərini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi öz üzərinə götürdü və bu xidmətlər gündəlik olaraq sosial işçilər və könüllülər tərəfindən ləyaqətlə həyata keçirilir, 330 min nəfərə ünvanlı dövlət sosial yardımı verilir və sosial təcrid rejimi ilə əlaqədar ünvanlı sosial yardım verilməsi sadələşdirildi, yardım almaq müddəti isə heç bir diaqnostika aparılmadan avtomatik olaraq uzadıldı.

Əgər nəzərə alsaq ki, inkişaf etmiş Avropa ölkələrində, eyni zamanda, ABŞ-da minlərlə ahıl virusun qurbanı oldu, o zaman ölkəmizdə ahıllarla bağlı təhlükəsizlik tədbirləri sayəsində əldə olunan nəticə heyrətamiz dərəcədə təqdirəlayiqdir.Onu da vurğulamaq yerinə düşər ki, karantin dövründə sosial işçilərin və xidmətçilərin xüsusi fədakar fəaliyyəti ölkə başçısının diqqətindən yayınmadı. Məhz buna görə də ölkə başçısı Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə elan edilmiş xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmətlər göstərilməsinin səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında **14 aprel 2020-ci il tarixli** sərəncam imzaladı.Sərəncamda xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsinə cəlb edilən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun rayon (şəhər) şöbələrində və tabeliyindəki sosial xidmət müəssisələrində çalışan işçilərin əməkhaqlarına aylıq vəzifə (tarif) maaşının 1 (bir) misli miqdarında müddətli əlavə müəyyən edilməsi nəzərdə tutulurdu.

Analoji dəstək proqramı tibb işçiləri ilə bağlı verildi.Belə ki, Nazirlər Kabineti “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə “Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə” bu qərarı qəbul etdi.Qərarda tibbi profilaktik tədbirləri həyata keçirən işçilərə - aylıq vəzifə (tarif) maaşının üç misli məbləğində;

- təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, o cümlədən Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun işçilərinə - aylıq vəzifə (tarif) maaşının dörd misli məbləğində;
- pasiyentlərə stasionar tibbi xidmət göstərən işçilərə - aylıq vəzifə (tarif) maaşının beş misli məbləğində iş vaxtına mütənasib olaraq 2020-ci il martın 1-dən iyunun 1-dək olan müddət üçün ödənilməsi nəzərdə tutuldu.

Eyni zamanda, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi digər sosial tərəfdaşları ilə birlikdə 45 min ailəyə ərzaq yardımı göstərilməsi proqramını həyata keçirildi.Dövlətin bu təşəbbüsünə ölkə içtimaiyyəti mühüm bir hissəsi əməli həmrəyliklə qoşuldu.

“Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası”nın təsdiq edilməsi barədə “Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan

Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.5-ci bəndinin icrası ilə bağlı tədbirlər planı"nın II hissəsinin 4-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində işsiz kimi qeydiyyatda olan şəxslərə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə aylıq 190 (yüz doxsan) manat məbləğində birdəfəlik ödəmə verilməsi haqqında qərar qəbul etdi. 200 min şəxsə yaşayış minimumu (190 manat) məbləğində iki aylıq müavinət verilməsinə başlanıldı . İki ay müddətində 190 manat birdəfəlik müavinət verilməsi üçün dövlət büdcəsindən 70 milyon manat vəsait ayrıldı. Ancaq Prezident hesab etdi ki, ümumi vəziyyəti nəzərə alaraq və insanların sosial müdafiəsini gücləndirmək üçün bu kateqoriyaya aid olan insanların sayı 600 minə çatdırılsın. Beləliklə,200 min əvəzinə, 600 min insana dövlət iki ay ərzində hər ay 190 manat vəsait verilməsi qərara alındı. Xatırladaq ki, bu kateqoriyaya aid olan insanlar aztəminatlı təbəqənin nümayəndələridir, eyni zamanda, koronavirusla bağlı işini itirən və qeyri-formal məşğulluqla məşğul olan insanlardır.

Prezident İlham Əliyevin sərəncamı ilə koronavirus pandemiyasının fəsadlarının azaldılması məqsədi ilə hökumətə büdcədən ayrılmış 1 milyard manat vəsaitin xeyli hissəsi vətəndaşlarımızın iş yerlərinin qorunub saxlanılmasına, ixtisar hallarına yol verilməməsinə, əmək haqlarının karantin şəraitində də verilməsinə yönəldildi. Ümumilikdə 1 milyon 629 min işçinin, o cümlədən dövlət sektoru üzrə 910 min, özəl sektor üzrə 719 min işçinin əməkhaqqı saxlanmaqla məşğulluğu təmin edildi.

Pandemiyanın zərər vurduğu fəaliyyət sahələrində çalışan, əmək müqaviləsi olan 300 min muzdlu işçinin əməkhaqlarının müəyyən hissəsinin ödənilməsi üçün sahibkarlara dövlət tərəfindən 215 milyon manat maliyyə dəstəyinin göstərilməsi qərara alindı. Həmçinin COVID-19 pandemiyasının zərər vurduğu fəaliyyət sahələrində sahibkarlıq fəaliyyəti göstərən 300 min fərdi sahibkara dövlət tərəfindən 80 milyon manat həcmində maliyyə dəstəyi göstərildi.

Karantin dövrünün sosial layihələrindən biri də Prezidentin təşəbbüsü ilə elan edilən haqqı ödənilən ictimai iş yerləri proqramıdır. İşsiz və iş axtaran vətəndaşlar, xüsusi ilə qeyri-leqal, əmək müqaviləsi olmadan çalışan karantin dövründə isə işsiz qalan şəxslərin sosial müdafəsini təmin etmək üçün aylıq əmək haqqı 250 manat olmaqla 50 min sosial iş yeri açılmışdır. Bunun üçün 30 milyon manat vəsait ayrıldı. Nazirlərlə onlayn görüşdə bu məsələyə münasibət bildirən dövlət başçısı 50 min ictimai iş yeri ilə razılaşmadığını bildirdi : "Mən göstəriş vermişdim ki, biz ilkin mərhələdə bu rəqəmi 50 minə çatdıraq. Amma indi hesab edirəm ki, biz daha böyük rəqəmə çatmalıyıq və bu il 90 min ödənişli ictimai iş yeri yaradılmalıdır.Onu da bildirməliyəm ki, insanların vəziyyətini yaxşılaşdırmaq üçün çox böyük sosial və iqtisadi paket təqdim olunur. Əvvəlki dövrlərdə 1 milyard manat məbləğində dəyərləndirilirdi, ondan sonra 2,5 milyard manat həcmində dəyərləndirilirdi. İndi verdiyim tapşırıqlar nəticəsində bu iqtisadi paket 3 milyard manatı, bəlkə də 3,5 milyard manatı ötəcək. Nə qədər lazımdır, biz bunu edəcəyik. Azərbaycan bütün imkanları səfərbər edib ki, bu vəziyyətdən az itkilərlə çıxsın, insanların həyatını qorusun və postpandemiya dövrünə hazır olsun".Bununla yanaşı, sosial proqramların təxirəsalınmazlığı təmin olunmaqla, iki milyondan artıq insanı əhatə edən pensiya, müavinət, təqaüdlərin, ödənişlərin vaxtından əvvəl həyata keçirilməsi təmin olundu. Pensiya və digər ödənişlərin yalnız müvəkkil bankomatdan deyil, ən yaxında yerləşən istənilən bankomatdan əlavə xidmət haqqı ödənilmədən alınması imkanları yaradıldı.

Sosial dəstəyin başqa bir forması isə özünəməşğulluq proqramı çərçivəsində həyata keçirilir ki, bu çərçivədə 2020-ci il ərzində 12 minə yaxın ailənin özünüməşğulluq proqramına cəlb edilməsi nəzərdə tutuldu. Burada həm dövlət vəsaitləri, həm Dünya Bankının, həm də özəl banklarımızın vəsaitləri birgə nəzərə alınır. Bunun üçün İşsizlikdən Sığorta Fondundan 70 milyon manat ayrılıb. 20 min nəfərə işsizlikdən sığorta müavinəti veriləcəyi, bu məqsəd üçün

İşsizlikdən Sığorta Fondu hesabına 20 milyon manat ayrılması qərara alındı. Əmək müqaviləsinin müddəti bitmiş şəxslərə də işsizlikdən sığorta ödənişi şamil edildi.

Pandemiyanın yaratdığı yeni şəraitdə ƏƏSMN gücləndirilmiş iş rejminə keçərək əhalinin sosial xidmətində durdu.Təkcə aprelin ilk on günlüyündə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin e- sosial.az saytına 17 milyondan çox baxış olmuşdur. Aprelin 1-dən 142-Çağrı Mərkəzi tərəfindən 65 551 vətəndaş müraciəti cavablandırılmış, çağrı mərkəzinin işçi heyəti 3 dəfə artırılmış, mərkəz 24 saatlıq iş rejiminə keçdi.

Ölkəmizdə koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri çərçivəsində aztəminatlı ailələrin sosial müdafiəsi diqqətdə saxlanılır. Nazirlər Kabinetinin "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi prosedurunun sadələşdirilməsi barədə" 1 aprel 2020-ci il tarixli Qərarı da bu məqsədə xidmət edirdi.Qərara əsasən, ölkəmizdə martın 1-dən etibarən **xüsusi karantin rejimi müddətində ünvanlı dövlət sosial yardımının təyin olunma müddəti bitən** aztəminatlı ailələrə bu yardımın verilməsi karantin rejimi başa çatdığı tarixdən sonrakı ayın 1-dək uzadıldı.

Sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan 17 min tələbələnin təhsil haqqı xərclərinin ödənilməsi ilə bağlı qərar da dövlətimizin sosial mahiyyətini təqdim edən hadisələrdən biri idi.

Sosial Tədqiqatlar Mərkəzinin "Azərbaycanda pandemiya ilə mübarizə ictimai rəydə " analitik hesabatında əks olunduğu kimi respondentlərin əksəriyyəti (87,8 faiz) hər hansı problemlə qarşılaşacaqları təqdirdə dövlətin onlara dəstək göstərəcəyinə əminliyini ifadə etməsi bunu bir daha sübut edən göstəricidir. Azərbaycan tam əminliklə demək olar ki, koronovirus pandemiyası ilə mübarizədən az itkilərlə çıxan azsaylı ölkələrdəndir.Bu uğurun əsasında xalq – dövlət rəhbəri birliyi, dövlətin sosial rifah dövləti mahiyyətində olmasıdır. Ölkədə gerçəkdən prezident-xalq birliyi var və ölkə başçısı bu birliyin məntiqi nəticəsi olaraq " biz birlikdə güclüyük" şüarını həmin dövrün və gələcəyin şüarı kimi ifadə etdi. Bu şüar həm də qısa zaman kəsiyində xalqı torpaqlarımızın azad edilməsi uğrunda mübarizəyə toparlayaraq ərazi bütövlüyümüzü təmin edilməsində mühüm məna kəsb etdi.Və biz bu gün qürurla bu tarixi zəfərin təntənəsini yaşayırıq.

**İstifadə olunmuş mənbələr**

"Azərbaycan Respublikasında 2020-ci il üçün yaşayış minimumu haqqında" Azərbaycan Respublikasının qanunu. 29.11.2019. URL: http://e-qanun.gov.az/framework/43847

Birdəfəlik ödəmə ilə bağlı müraciətlərin qəbulu başa çatdı. 27.04.2020. URL: http://sosial.gov.az/post/3400

Biz birlikdə güclüyük. İslahat İcmalı. Xüsusi buraxılış. Aprel 2020. URL: http://iqtisadiislahat.org/store//media/2020/Aprel/Biz%20Birlikde%20Gucluyuk.pdf

"Koronavirus (COVID-19) pandemiyası dövründə xüsusi karantin rejiminin tətbiq olunması ilə əlaqədar işsiz kimi qeydiyyatda olan şəxslərə birdəfəlik ödəmənin verilməsi şərtləri və qaydası"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabineti qərarı. 07.04.2020. URL: https://cabmin.gov.az/az/document/4371/

"Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabineti qərarı. 04.04.2020. URL: https://cabmin.gov.az/az/document/4367/

Maşallı T. 190 manatlıq virus və real işsizlik. 15.04.2020. URL: https://azlogos.eu/190-manatliq-virus-v%c9%99-real-issizlik/

"Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunu. URL: http://www.e-qanun.az/framework/39846

Nazirlik 50 min şəxs üçün birdəfəlik ödənişi köçürdü. 26.04.2020. URL: http://sosial.gov.az/post/3399

Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi və İqtisadiyyat nazirlərinin iştirakı ilə videobağlantı formatında iclas keçirib . 17.04.2020. URL: https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Amek_ve_Ahalinin_Sosial_Mudafiesi_ve_Iqtisadiyyat_nazirlerinin_istiraki_ile_videobaglanti_formatinda_iclas_kechirib___YENILANIB_VIDEO-1465443

**Ədəbiyyat:**


1.Azərbaycan Barometri.Jurnalı.14. aprel. Bakı. 2020. 9- cu buraxılışı

2.Azərbaycan Prezidentinin xalqa ənənəvi "Novruz" müraciəti .2020

3.Baş Nazirin rəhbərliyi ilə Operativ Qərargahın və Koronavirusla mübarizəyə dəstək Fondunun yaradılması ilə bağlı Prezidentin 24 yanvar 2020-ci il tarixli sərəncamı

4.Nazirlər Kabinetinin 30 yanvar 2020-ci il tarixli sərəncamı ilə Azərbaycanda yeni növ koronavirus xəstəliyinin yayılmasının qarşısının alınması dair fəaliyyət Planı

5.Aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC-nin nəzdində yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı zamanı prezidentin çıxışı

6.Azərbaycan Prezidentinin 19 mart 2020- ci il tarixdə imzaladığı koronavirus pandemiyasının ölkənin sosial- iqtisadi həyatına mənfi təsirlərinin azaldılmasını və postpandemiya dövrünün inkişaf perspektivlərini nəzərdə tutan "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamı

7.Mehriban Əliyevanın pandemiyanın ilk günlerində Sizin Mehriban imzası ilə xalqa tarixi müraciəti

8.Koronavirus pandemiyasına qarşı mübarizə sahəsində ölkədə elan edilmiş xüsusi karantin rejimi dövründə çətin vəziyyətdə olan şəxslərə və tənha yaşayan 65 yaşdan yuxarı vətəndaşlara sosial xidmətlər göstərilməsinin səmərəli təşkili məqsədilə Azərbaycan Respublikası Xüsusi karantin rejimi dövründə sosial xidmətlər göstərilməsində iştirak edən işçilərin sosial müdafiəsinin gücləndirilməsi haqqında **14 aprel 2020-ci il tarixli** sərəncamı

9.Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.5-ci bəndinin və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 4 aprel tarixli 135s nömrəli Sərəncamı

10.Azərbaycan Respublikasının Nazirlər Kabineti Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş elektron informasiya sisteminin "Məşğulluq" altsistemində işsiz kimi qeydiyyatda olan şəxslərə koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə aylıq 190 (yüz doxsan) manat məbləğində birdəfəlik ödəmə verilməsi haqqında qərarı

11.Nazirlər Kabinetinin "Yeni növ koronavirus (COVID-19) pandemiyası ilə mübarizə şəraitində aztəminatlı ailələrə ünvanlı dövlət sosial yardımının verilməsi prosedurunun sadələşdirilməsi barədə" 1 aprel 2020-ci il tarixli Qərarı

12."Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 25 mart 2020-ci il № 112 saylı qərarı

## I BÖLMƏ

## İQTİSADİ ASPEKTLƏR

# İQTİSADİ SAHƏLƏRDƏ MƏŞĞULLUQ PROBLEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

**Fərhad Möhbalıyev**
**Xəqani Məmmədov**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası,
Azərbaycan Dövlət Məşğulluq Xidməti
*xaqani.mamedov1977@mail.ru*

Məqalədə məşğulluun təmin olunması siyasətinin həyata keçirilməsinin problem yaradan amilləri açıqlanmış, elmi-texniki tərəqqinin iqtisadi sferaların fəaliyyətinə təsiri müəyyənləşdirilmiş, Azərbaycan və bir sıra ölkələrdə əhalinin məşğulluq səviyyəsinin müqayisəli təhlili verilmişdir. Həmçinin, ölkədə artıq fəaliyyət göstərən və açılması planlaşdırılan iş yerlərinin əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynadığı vurğulanır. Hal-hazırda elmi-texniki tərəqqinin yüksək nəticələlərinin məhsulu olan texnika, texnologiyaların tətbiqinin vacibliyi ilə yanaşı qeyd edilir ki, ölkəmizdə yüksək ixtisaslı kadr potensialına ehtiyac vardır, mövcud firma və koorporasiyalar ixtisaslı işçilərin seçilməsində çətinlik çəkirlər. Bu baxımdan həmin seçimin 20/80-ə prinsipinə əsaslanan Vilfred Pareto qanununa uyğunlaşmasına diqqət yetirilməsini məqsədəuyğun hesab edirik. Bu baxımdan, tək alimlərin deyil, bütövlükdə cəmiyyətin qarşısında iqtisadiyyatın müxtəlif sahələrində nəzəri və səmərəli nəticələrin işlənilməsində tədqiqat məsələlərinin qoyulması təsadüfi deyildir.

**Açar sözlər:** iqtisadiyyat, sahələr, məşğulluq, problemlər, təkmilləşdirmə

**Giriş**

Məşğulluq sahəsində qəbul olunmuş “Məşğulluq haqqında” Azərbaycan Respublikası Qanunu, “Azərbaycan Respublikasının məşğulluq siyasətinin həyata keçirilməsi üzrə Dövlət Proqramı” və Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramlarının effektiv həyata keçirilməsi nəticəsində əmək ehtiyatlarının keyfiyyətcə yaxşılaşdırılması və iqtisadi fəallığın yüksəldilməsi, kadr hazırlığı sisteminin əmək bazarının tələblərinə uyğunlaşdırılması. işaxtaran və işsiz şəxslərin sosial müdafiəsinin gücləndirilməsi, yüksək beynəlxalq standartlara uyğun işgüzarlıq mühitinin formalaşması, insan kapitalının yüksək inkişaf səviyyəsi təmin edilir.

Məşğulluğun təmin olunması ilə bağlı siyasətin həyata keçirilməsinə ciddi problem yaradan amillərdən biri ölkədə “gizli” əmək bazarında və ya qeyri-formal sektorda çalışan işçilərin sayının həm yüksək həddə olması, həm də dəqiq məlumatın olmamasıdır. Belə halın mövcudluğu məşğulluq siyasətinin düzgün müəyyən olunmasına ciddi əngəl yaradır, həmçinin insan hüquqlarının ciddi surətdə pozulmasına gətirib çıxarır. Ölkənin əmək bazarında “kölgə”-li əmək bazarının mövcudluğu əmək hüquqlarının kütləvi pozulmasına şərait yaradan əsas amillərdəndir. Hər hansı rəsmi və ya qeyri-rəsmi statistika olmasa da, ehtimallara görə rəsmi əmək münasibətlərinə girmədən əmək fəaliyyəti ilə məşğul olanların sayı, rəsmi əmək münasibətlərinə girərək fəaliyyət göstərən işçilərdən az deyildir. Yüz minlərlə insanın qeyri-rəsmi əmək münasibətində olaraq əmək fəaliyyəti ilə məşğul olması o deməkdir ki, bu insanlara münasibətdə əmək qanunvericiliyi tətbiq olunmur. Belə işçilərin əmək fəaliyyəti həm dövlət, həm də həmkarlar ittifaqlarının nəzarətindən kənarda qalır [3].

**Elmi-texniki tərəqqinin iqtisadi sferaların fəaliyyətinə təsiri**

Elmi-texniki tərəqqiin yeniliklərini bilavasitə tətbiq edən müəssisələrin məhsul istehsalının dəyəri tədricən azalır və bu da son nəticədə müəssisənin iqtisadi səmərəlilik ğöstəricilərini yüksəldir. Bu baxımdan təqribən yarım əsrlik fəaliyyəti dövründə kosmik aparatlar istehsal edən “Space X” kompaniyasi son dövrlərdə dəfələrlə istifadə edilə bilən kosmik aparatların istehsalına başlamış və yüksək nəticələrə nail olmuşdur ki, raket daşıyıcılardan dəfələrlə iastifadə edilməsi nəticəsində uçuşların dəyəri kəskin azalır. Qeyd etmək istərdik ki, bu kompaniya “Mars” və digər planetlərin mənimsənilməsi məqsədi ilə modul günəş batareyalarının, kosmik gəmilərin yaradılması və quraşdırılmasını təşkil edir.

İstənilən ölkədə iqtisadiyyatın sənaye sistemində nisbətən ucuz məhsul istehsal edən və ya xidmətlər ğöstərən, postsənaye sistemində isə keyfiyyətli məhsul istehsal edən və ya xidmətlər göstərən müəssisələr həmişə müəyyən üstünlük əldə edirlər. Məsələn, “Apple” kompaniyasının əməkdaşının sərf etdiyi əməyin rentabelliyi Rusiyanın “Qazprom” koorporasiyasında çalışan əməkdaşın əməyinin rentabeliliyindən təqribən 65 dəfə yüksək olduğu müəyyənləşdirilmişdir [4].

Yaxın on beş il ərzində qlobal dünya, geri dönməmək şərti ilə, elmi-texniki tərəqqinin hesabına cəmiyyətin bütün sferalarında dəyişikliyi təmin edəcəkdir. Buradan da əhalinin məşğulluq problemi ilə bağlı reallıqlar meydana çıxır. Odur ki, artıq biznes-modellər radikal formada dəyişdirilir. Müasir iqtisadiyyatda texnoloji partlayışlar baş verir. Bütün həyata keçirilən texnologiyaların kombinasiyası nəticədə kompaniyalara və ayrılıqda sahibkarlara iki xarakteristika əsasında yeni məhsul istehsalı və xidmət göstərilməsinə imkan verir:

1. Yeni bazarlar yaradılır.

2.Mövcud sahələr ya radikal formada dəyişdirilir, ya da ləğv edilir.

Nümunə olaraq qeyd edə bilərik ki, rəqəmsal fotokameralar artıq plyonkalı kameraları bütövlükdə əvəz etmişdir.

**Azərbaycan və bir sıra ölkələrdə əhalinin məşğulluq səviyyəsi**

Respublikanın nəqliyyat sənayesində taksi xidmətinin göstərilməsində də radikal formadakı dəyişikliklıəri artıq vətəndaşlar hiss etməyə başlamışdır. Belə ki, Bakı şəhərində fəaliyyət göstərən “Qərəmli taksi xidmətləri” kompaniyalarının yaranması taksi xidməti sahəsinin kökündən dəyişdirlməsinə və mərkəzləşdirilmiş xidmət sahəsinin yaranmasına gətirib çıxarır. Belə ki, bu növ xidmətlər fərdi taksi xidmətindən həm tez, sürətli, həm də yaxşı və ucuzdur. Bu növ yaradılmış xidmətlər biznes-modellərin dayandırılmasını deyil, sadəcə səmərəli olmayan tərəfdaşlarının tədricən aradan qaldırılmasını təmin edir.

Bundan əlavə ölkə ərazisində əhalinin qısa müddətdə, növbəyə durmadan və vaxt itirmədən, həm də keyfiyyətli maliyyə ödəmələrinin “Elektron” apatların köməyi ilə rahat və asan, həm də əlavə xidmət haqqı olmadan aparılması heç də bank sistemində məşğul əhalinin sayının azalması ilə nəticələnmir, əksinə bank ximətlərinin və ödənişlərin əhali tərəfindən vaxtlı-vaxtında ödənilməsini təmin etmiş olur.

Beynəlxalq Əmək Təşkilatının (BƏT) qlobal məşğulluq tendensiyaları haqqında hesabatındakı məlumata əsasən qeyd edilir ki, 2017-ci ildə daha 5 milyon insan işsiz statusu qazanmışdır. Həmçinin, BƏT bildirir ki, müsbət irəliləyişlər baş verdiyi təqdirdə, onların müsbət təsiri iqtisadiyyatın real sektorunda deyil, kapital bazarlarında özünü göstərir və növbəti illərdə vəziyyətin yaxşılığa doğru dəyişməsi gözlənilməzdir. BƏT-in baş direktoru Qay Rayder qeyd edir ki, iqtisadiyyatın bərpa olunması tempinin yüksək olmaması növbəti illərdə işsizlərin sayını artıracaq. Bu gedişlə 2018-ci ildə işsizlik üzrə göstərici 215 milyon nəfərə çatacaq. Hətta bütün proqnozların özünü doğrultmasına və bu vaxta qədər 200 min yeni iş yerinin yaradılmasına baxmayaraq, bu addım "köhnə" işsizləri, eləcə də bu müddət ərzində əmək bazarında meydana gələn yeni işsiz kütləsini iş ilə təmin etməyə kifayət etməyəcəkdir.

Beynəlxalq Əmək Təşkilatının hesablamalarına görə, ötən il işsizlərin sayı 206 milyon nəfərə çatmışdır. Bu göstərici bütün dünyada yaşayan əmək qabiliyyətli insanların 6,1%-i təşkil edir. Əgər yeni qlobal iqtisadi kataklizmlər baş verməzsə, növbəti 5 il ərzində işsiz kütləsi il ərzində orta hesabla 3 milyon nəfər artacaqdır. Bununla yanaşı, bəzi regionlarda fəlakətlər

səngimir və buna görə də dünya üzrə ümumi işsizlərin 45%-ni səngiməyən fəlakətlərlə əlaqəli zonaya aid Şərqi Asiya və Cənubi Afrika ölkələrinin vətəndaşları təşkil edir.

Rəsmi statistikaya görə Azərbaycanda iqtisadi fəal əhalinin sayı 2016-cı ildə 5012,7 min nəfər və ya ümumi orta əhalinin sayının 51,4%-ni, onlardan 4 759,9 min nəfər iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali və ya iqtisadi fəal əhalinin sayının 94,9%, işsiz əhalinin sayı isə 252,8 min nəfər və ya 5,1% təşkil edir. Bu göstərici 2017-ci ildə müvafiq olaraq 5042,0 min nəfər təşkil etmişdir ki, onlardan 4788,8 min nəfər iqtisadi əmək fəaliyyəti ilə məşğul olan əhali və ya iqtisadi fəal əhalinin sayının 95,0%, işsiz əhalinin sayı isə 253,2 min nəfər və ya 5,0% təşkil etmişdir [1].

Aşağıda bəzi ölkələrdə iqtisadi sahələr üzrə məşğulluq səviyyəsi və işçilərin orta aylıq əmək haqqının müqayisəsi verilir (cədvəl 1, cədvəl 2).

**Cədvəl 1. Azərbaycan, Rusiya və Almaniyada iqtisadiyyatın müxtəlif sahələri üzrə əhalinin məşğulluğu, %**

| Ölkələr | Kənd təsərrüfatı | Tikinti | Ticarət | Nəqliyyat | Dövlət idarəetmə | Təhsil | Səhiyyə | Digər sahələr |
|---|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 36.8 | 7.2 | 14.7 | 4.1 | 6.0 | 7.9 | 3.9 | 19.4 |
| Rusiya | 7.5 | 7.6 | 18.3 | 10.0 | 7.5 | 9.2 | 7.9 | 32.0 |
| Almaniya | 2.6 | 23.6 | | | 73.8 | | | |

Mənbə: [2, s.88] əsasında müəliflər tərtib etmişdir

**Cədvəl 2. Bəzi ölkələrdə iqtisadi sahələrdə orta əmək haqqı**

| İqtisadiyyat sahələr üzrə orta əmək haqqı | Azərbaycan | | Rusiya | | Belorus | ABŞ |
|---|---|---|---|---|---|---|
| | Manat | ABŞ dolları | Rubl | ABŞ dolları | ABŞ dolları | ABŞ dolları |
| Kənd təsərrüfatı | 3045 | 1743 | 25000-30000 | 5500 | 2900 | 25000 |
| Mədənçıxarmada | 33684 | 19248 | 50000 | 11000 | 21000 | 25000- 130000 |
| Tikinti | 9755 | 5574 | 30000 | 6000 | 6500 | 25000 |
| İnformasiya və rabitə | 9384 | 6256 | 40000 | 9000 | 6800 | 50000-70000 |
| Maliyyə və siğorta fəaliyyəti | 14748 | 8427 | 70000 | 15800 | 9100 | 70000 |
| Peşə,elmi-texniki fəaliyyət | 10644 | 6083 | 30000-40000 | 6000-9000 | 6500 | 50000-70000 |
| Təhsil | 4400 | 2537 | 25000-35000 | 5000-7000 | 3250 | 50000-70000 |
| Səhiyyə | 3000 | 1715 | 30000-40000 | 7400-9000 | 2400 | 70000-200000 |
| İqtisadiyyat üzrə-cəmi | 6000 | 3430 | 47500 | 6785 | 5100 | 28125 |

Mənbə: [2, s.121] əsasında müəlliflər tərtib etmişdir

Məlumatların təhlilinə əsasən qeyd edə bilərik ki, Almaniyada əhalinin məşğulluğunun strukturu fərqlidir və avtomobilqayırma, texnika, dəzgahqayırma, yüksək texnologiya və kimya sənayesi liderlik edir və avrozonada bir sıra göstəricilərinə görə bu ölkə irəlidədir və ölkələr sırasında 2-ci yeri tutur. Dünya ölkələri sırasında Almaniya iqtisadiyyatına görə ABŞ, Çin və Yaponiyadan sonra 4-cü yerdədir. Almaniyada kənd təsərrüfatı sahəsində çox az insan məşğul olur. ÜDM-in strukturunda bu sahənin payı Rusiyada 4,4%, Azərbaycanda 5,6% və Almaniyada 1,2% təşkil etdiy halda almaniyada əhalinin qida məhsullarına olan tələbatının 90%-i daxili istehsal hesabına ödənilir və bu sahədə avropa ölkələrindən Fransa və İtaliyadan geri qalır.

Azərbaycanın kənd təsərrüfatı sektorunda təxminən 36,8% və ya 1729,6 min nəfər məşğul olur. Lakin qeyd etmək istərdim ki, kənd təsərrüfatı məhsullarına və qida məhsullarına ölkə əhalisinin tələbatını bu səviyyədən çox aşagı təmin edə bilirik. O cümlədən, Rusiyanın emal sənayesində 13,7%. Azərbaycanda 4,8% və Almaniyada 2,0% əhali işləyir, halbuki, kənd təsərrüfatı məhsullarının emalı ilə əlqali olan müəssisələrin emal etdiyi məhsullar həm ölkənin brend məhsullarının dünyada tanınmasında, bu tipli müəssisələrdə əhalinin məşğuluğunun artırılmasında, həm də məhsulun keyfiyyətinin uzun müddətə saxlanılmasında rolu danılmazdır. Bu baxımdan gələcəkdə fındıq, qoz, pambıq, üzüm və s. məhsulların emalını həyata keçirdikdən sonra (satış qiymətlərində təxminən 5-6 dəfə artım) digər bazarlara çıxarılması məqsədi ilə həmin tip müəssisələrin ölkənin müxtəlif regionlarında tikilməsi və istifadə edilməsi iqtisadi cəhətdən çox səmərəlidir.

Azərbaycanın iqtisadi sahələrində orta əmək haqqı ABŞ-dan 8,2 dəfə, Rusiyadan 1,98 dəfə, Belorusdan 1,49 dəfə azdır. Lakin buna baxmayaraq milli valyutanın xarici valyutalara görə dəyərinin uzun müddət stabil səviyyədə saxlanılması onun alıcılıq qabiliyyətini də yüksəldir. Yuxarida qeyd etdiyimiz kimi iqtisadiyyatın müxtəlif sahələrində elmi-texniki tərəqqinin nəticəsində yeni yaradılmış məhsul və xidmətlərdən istifadə heç də ölkədə məşğul əhalinin sayının azalmasına deyil, onun həm keyfiyyətli, həm də sürətli və ucuz həyata keçrilməsinə istiqamətləndirilmiş problemlərdir.

Kompyuterlərin proqram təminatı sənayenin ənənəvi sahəsində mütəxəssislərin ali təhsil müəssisələrində hazırlığında köklü dəyişiklik edilməsini tələb edir. Məsələn, ali təhsil müəssisələrini yeni qurtarmış gənc mütəxəssislər iş tapmaqda çox çətinliklərlə üzləşirlər. Lakin, hüququn müxtəlif sahələri haqqında hüquqi məsləhət almaq arzusunda olanlar ABŞ-da "İBM Weston" –un proqramına müraciət etməklə bir neçə saniyə ərzində ona sərfəli olan məlumatı 90% dəqiqliyi ilə alır ki, bu da fərdi müraciət edən hüquqşünasların 70% -i ilə müqayisədə eynidir. Mütəxəssislərin hesablamaların görə, yaxın gələcəkdə bu sahənin mütəxəssislərinə olan tələbat 90% azalacaq, yalnız sırf ixtisaslı məhkəmə mütəxəssislərunə ehtiyac duyulacaqdır.

"İBM Weston" proqramı tətbiq edilmiş sahələrdən biri olan həkim diaqnostokasında da xəstəliklərin diaqnostikasının düzgün qoyulmasını 4 dəfə dəqiqləşdirir. Mütəxəssislərin proqnozuna görə 2030-cu ilə kimi kompyuterlərin intellekti insanların intellektini keçəcək, süni intellektli elementə malik olan kompyuter proqramları ali təhsilli mütəxəssislərin 4-6 iş yerinin ixtisara salınmasına səbəb olacaqdır.

Skolkovski Elm və Texnologiya Universitetinin rektoru Akademik A. Kuleşev tədqiqatlara əsaslanaraq qeyd edir: "Əgər keçmişdə təyyarə hazırlanması 10-15 il ərzində olurdusa, indi müasir rəqabət mübarizəsində o, hər 4 ildən bir yeniləşmirsə, onu istehsal edən kompaniya müflisləşəcəkdir. Əgər əvvəllər mühəndislik metodu peşəkarlığa, işləyənin sağlam düşüncəsinə, biliyinə və uzun müddətli təcrübəsinə əsaslanırdısa, hal-hazırda mühəndis ona kompyuterin verdiyi nəticələri düzgün traktovka etməyi bacarmalıdır".

Ölkələrin əmək bazarına robotlaşmanın, enerjiləşmənin və s. də təsirini nəzərə almamaq mümkün deyildir. Belə ki, yaxın gələcəkdə günəş, külək və su enerjiləri kömür, neft və qazın bir hissəsini əvəz edəcəkdir. Milli iqtisadiyyat bürosunun tədqiqatlarına əsasən 2001-2017-ci illər ərzində təkcə robotlaşma ABŞ-ın əmək bazarından 800 min iş yerinin əldən getməsinə səbəb olmuşdur. Məsələn, təkcə 3D printerinin tətbiq edilməsi 2-4 iş yerinin itirilməsinə səbəb olur.

**Nəticə**

Bütün bu qeyd edilənlərlə bərabər ölkədə artıq fəaliyyət göstərən və açılması planlaşdırılan iş yerləri əhalinin məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Hal-hazırda elmi-texniki tərəqqinin yüksək nəticələlərinin məhsulu olan texnika, texnologiyaların tətbiqinin vacibliyi ilə yanaşı qeyd etmək lazımdır ki, ölkəmizdə yüksək ixtisaslı kadr potensialına ehtiyac və tələbat hələ də vardır və mövcud firma və koorporasiyalar onlara lazım gələn ixtisaslı işçilərin seçilməsində çətinlik çəkirlər. Bu baxımdan həmin seçimin 20/80-ə prinsipinə əsaslanan Vilfred Pareto qanununa uyğunlaşmasına diqqət yetirilməsini məqsədəuyğun hesab edirik. Bu qanuna əsasən "müəssisələrdə çalışan işçilərin 20%-nin gücü 80% nəticə, qalan 80%-nin cücü isə 20%

nəticə verir”. Odur ki, tək alimlərin deyil, bütövlükdə cəmiyyətin qarşısında iqtisadiyyatın müxtəlif sahələrində nəzəri və səmərəli nəticələrin işlənilməsində tədqiqat məsələlərinin qoyulması təsadüfi deyildir.

**İstifadə olunmuş ədəbiyyat**


1.Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Azərbaycanın kənd təsərrüfatı. Statistik məcmuə. -Bakı, -2020, -653s.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi. Sosial, iqtisadi inkişaf. 12 yanvar-dekabr. -Bakı, -2020, -186s.

3. 2019–2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyası” haqqında Azərbaycan Respublikası Prezidentinin 602 saylı Sərəncamı. 30 oktyabr 2018-ci il

URL: https://ru.wikipedia.org/wiki/Apple



**Фархад Мохбалыев**

**Хагани Маммадов**


## НАПРАВЛЕНИЯ СОВЕРШЕНСТВОВАНИЯ ПРОБЛЕМЫ ЗАНЯТОСТИ В ЭКОНОМИЧЕСКИХ СФЕРАХ

### Резюме


В статье раскрыты проблемные факторы реализации политики обеспечения занятости, определено влияние научно-технического прогресса на деятельность экономических сфер, дан сравнительный анализ уровня занятости населения в Азербайджане и ряде стран. Также подчеркивается, что рабочие места, которые уже функционируют и планируются к открытию в стране, играют важную роль в обеспечении занятости населения. Наряду с необходимостью применения техники, технологий, являющихся в настоящее время продуктом высоких результатов научно-технического прогресса, отмечается, что в нашей стране существует потребность в высококвалифицированном кадровом потенциале, также существующие фирмы и корпорации испытывают трудности в подборе квалифицированных работников. В связи с этим мы считаем целесообразным обратить внимание на то, что этот выбор соответствует закону Вильфреда Парето, основанному на принципе 20/80. В связи с этим не случайно не только перед учеными, но и в целом перед обществом ставятся исследовательские задачи по разработке теоретических и рациональных результатов в различных отраслях экономики.



**Ключевые слова:** экономика, отрасли, занятость, проблемы, совершенствование

# ВЛИЯНИЕ ОСНОВНЫХ ПОКАЗАТЕЛЕЙ ТУРИСТИЧЕСКИХ ПРЕДПРИЯТИЙ В РАЗВИТИИ ЭКОНОМИКИ СТРАНЫ

**Парвиз Гаджиев**
Всесоюзный Сельскохозяйственный Институт Заочного Образования, профессор,Москва
*pgadjiev@yahoo.com*

**Ключевые слова:** туризм, предприятия, показатели, расходы, доходы, развитие

**Введение**

Туризм является многогранно развитой отраслью стран с характерными особенностями, одной из главных составляющих дохода в некоторых странах мира (Испания, Италия, Чехия, Турция и др.), что влияет на развитие экономики и мирового сотрудничества. Как утверждают исследователи по туризму это индустрия становится одним из основных факторов создания новых рабочих мест, ускоряет развитие отраслей экономики, стимулирует производство, способствует сохранению народных промыслов и культуры, традиций страны и т.д. Индустрия туризма Азербайджана имеет обширную материально-техническую базу, который обеспечивает занятость в стране и практически взаимодействует всех сфер народного хозяйства. В состав индустрии туризма входить: все виды пассажирских транспортов и специализированный сеть технических услуг; различные специализированные учреждения и не туристические предприятия («второстепенные» области для туризма). Материально-техническая база туризма включает в себя туристическую фирму, гостиницы, туристические базы, предприятия питания и торговли, автотранспортные учреждения, пункты проката туристического снаряжения, туристические бюро с проездными документами, туристические офисы, клубы, вокзалы и др.

Благодаря относительно сильной мировой экономике, растущему среднему классу в странах с развивающейся экономикой, технологическим достижениям, новым бизнес-моделям, доступным расходам на поездки и упрощению визового режима прибытие международных туристов в 2019 году выросло на 11,2% и достигло 3,1704 миллион человек, а расходы прибытие иностранных туристов в Азербайджан с туристической целью выросла на 11,6% и достигло до 1,748 миллиард США [8]. Эти показатели делают туристическую индустрию настоящей глобальной силой экономического роста и развития, способствуют созданию новых и лучших рабочих мест и служит катализатором инноваций и предпринимательства. Короче говоря, туристическая индустрия помогает улучшить жизнь для миллионов людей и преобразовать целые сообщества, а также создает исследовательскую базу для изучения этой отрасли.

**Материалы и методы**

По данным UNWTO, уже в течении нескольких лет (кроме 2016 г.) экспорт туризма рос быстрее, чем экспорт товаров, что привело к сокращению торгового дефицита во многих странах [8]. С таким ростом появляется большая ответственность в обеспечении эффективного управления пунктами назначения, которое сводит к минимуму любое неблагоприятное воздействие туризма. Устойчивое управление туризмом на благо всех является более важным, чем когда-либо. Нам нужно расти больше в стоимости, чем просто в объеме [1, с. 288].

Сильная экономика страны стимулирует рост туризма. Цели визита туристов в Азербайджан 2019 году показывает, что доля отдыхающих туристов составляет 40,6%, доля с целью профессионального бизнеса составляет 29,7%, доля оздоровительных, религиозных, других целей туристов-4,5%, доля посещение родных и близких-25,1%, а доля неопределенных целей составляет 0,1%. Доля туристических поездок в сравнении с

2014 годом в Азербайджане в 2019 году выросла на 703,8 тыс. человек и составило 2863,6 тыс. человек. А доля путешествий в свободное время в мире выросла с 50% в 2000 году до 56% в 2018 году [5,7].

Одной из составных частей индустрии туризма является транспортное обслуживание туристов. От его деятельности в большей степени зависит эффективность туристской деятельности в Азербайджане. Воздействие туризма сильно зависит от вида транспорта. Нет совершенно одинаковых туристских маршрутов, каждый маршрут имеет только ему присущие особенности. Поэтому очень важно правильно соотносить вид транспорта к тому или иному маршруту. Хотя транспортная отрасль обеспечивает связь между регионами, генерирующими туризм, и регионами назначения, роль отрасли как агента в развитии направлений в значительной степени игнорируется.

Важнейшее требование, предъявляемое к транспорту сегодня, заключается в неуклонном повышении скорости доставки пассажиров, росте объемов перевозок, экологической чистоте и эффективности. Из анализа видов используемых международными туристами транспорта видно, что около 58% туристов выбирают авиационный, 36%-автомобильный, 2%-железнодорожный и 4% водяной транспорт [7, с. 21]. По сравнению с 2000 годом доля авиаперевозок пассажиров в 2019 году увеличилось на 12%, а доля рейсов авиатранспорта за тот же период сократился на 10%.

В последние годы проводимая выставка, проведенная Кавказским Международным Отелем, Рестораном и Супермаркетом («Horex Caucasus-2019») оказали положительное влияние на развитие индустрии туризма в Азербайджане. Участники из разных стран встречаются с производителями для заключения взаимовыгодных сделок и демонстрирования профессионального оборудования для кухни, супермаркетов, кондитерского и хлебопекарного оборудования, профессионального торгового оборудования, воздухоочистительного, очистительного и холодильного оборудования, кассовых аппаратов, мебели и т.д. [4].

Туризм является важным компонентом диверсификации экспорта как для стран с формирующейся рыночной экономикой, так и для стран с развитой экономикой, обладающих значительным потенциалом для сокращения торговых дефицитов и компенсации более низких экспортных доходов от других товаров и услуг. По сравнению с предыдущим годом в 2019 году экспортные доходы от пассажирской перевозки международных туристов составляет 121 миллиард долларов США. Экспортные доходы от международного туризма являются важным источником иностранных доходов для многих направлений в мире. Объем доходов от привлечения международных туристов в 10 топ стран мира составляет около 571 миллионов долларов США [5].

Также, туризм генерирует 5 миллиардов долларов США в день на экспорт. Можно отметить, что туристская индустрия составляет долю 7% мирового экспорта и 29% мирового экспорта услуг. Индустрия туризма функционирует как межотраслевой комплекс благодаря налаженным связям с едва ли не всеми государственными управлениями и службами, в частности, с такими структурами как правовая, финансово-экономическая и кадровая.

Государственная поддержка этой отрасли заключается в стимулировании потребностей населения в их услугах. В результате эффективности государственной туристической политики прибыльность индустрии туризма и ее вклад в национальную экономику постепенно расширяется. В связи с этими в Азербайджане был реализован Шахдагский зимне-летний туристический комплекс, один из удивительных уголков, где можно насладиться захватывающими духом пейзажами и управляемый ведущими мировыми компаниями, который входит в топ-10 недорогих горнолыжных курортов России и ближнего зарубежья [6].

Развитие туризма в нашей стране зависит от комплекса условий: природно-географических, историко-политических, социально-экономических, демографических,

сложившиеся в обществе и факторов, которые их определяют. В таблице 1 представлены основные показатели деятельности туристических фирм Азербайджана в 2015-2019г.г.

**Таблица 1.**

**Показатели деятельности туристических предприятий**

| Показатели | 2015 | 2016 | 2017 | 2018 | 2019 |
|---|---|---|---|---|---|
| Стоимость путевок, проданных иностранцам для путешествий в Азербайджане, тыс. манат | 812.3 | 811,7 | 11285,0 | 12496,8 | 20289,0 |
| Общий доход туристических агентств и туроператоров, тыс. манат | 36482,2 | 36758,3 | 41034,2 | 56124,3 | 63363,8 |
| Общие расходы туристических агентств и туроператоров, тыс. манат | 30811,6 | 29101,8 | 36734,6 | 46154,4 | 50400,0 |
| Общее количество сотрудников в турагентствах и на предприятиях туроператоров, тыс. чел. | 1,586 | 1,838 | 1,891 | 1,946 | 2,205 |

Примечание: на основе материалов [7] составлено автором

Из анализа видно, что по сравнению с 2015 годом стоимость путевок, проданных иностранцам в 2019 году составляет в 24,9 раза больше. Общий доход туристических агентств и туроператоров составило в 2019 году 1,7 4 раза больше чем в 2015 году, а общие расходы в сравниваемые периоды увеличился соответственно-1,64 раза. Общее количество сотрудников в этих предприятиях в сравниваемый период составило 619 человек больше [7, с. 15].

Темпы развития туризма и большие объемы валютных поступлений активно влияет на различные сектора экономики, что способствует формированию собственной туристской индустрии. Так как, туритскую сферу приходится около 10 % мирового валового национального продукта, 7% мировых инвестиций, 11% мировых потребительских расходов. Рост туристской активности, измеряемый в численности прибытия туристов в другие страны и доходов от их обслуживания (процентах). Так как, по сравнению статистических данных число прибытий туристов в республики в сравнение с 2014 годом увеличилось в 2019 году 1,4 раза , а количество путешественников с целью туризма увеличился в 1,33 раза [7, с.12].

Такие подходы как создание туристско-рекреационной базы в республике уже находят применение в системе государственного управления Азербайджана на уровне Апшеронской, Гянджа-Казахской, Астара-Ленкоранской и Шеки-Закаталинской экономической зоны и горных регионах республики, а потому государственный менеджмент в состоянии создать условия для привлечения существенных частных инвестиций в туристско-рекреационные объекты, обеспечить эффективное функционирование местных туристических компаний, повысить конкурентоспособность

туристических компаний принимающих туристов. Необходимо организовать четкую взаимосвязь участников туристского рынка со смежными отраслями, руководствуясь идей развития туризма в Апшероне как одного из видов деятельности с максимальным синергетическим эффектом. Это даст возможность работать разрозненным отделам как единое целое для того, чтобы соответствовать единству технологии процесса обслуживания туристов.

Для экономики Азербайджана реализация кластерной политики в Апшероне-это реальная возможность обеспечить экономическую зону конкурентоспособность в будущем, то есть, создавать долгосрочную стратегию развития туриндустрии. При этом косвенное влияние туризма на экономику почти равно ее прямому результату. С учетом данных предпосылок, удельный весь туризма по статистическим данным в Азербайджане достигло в 2019 году 4,9% [7. С.19]. Это очень позитивное явление. Тому имеются причины, а именно: туристов в нашу страну привлекают стабильность, безопасность, гостеприимство, современная инфраструктура, исторические памятники и государственная поддержка сферы туризма, а также, международные мероприятия, международные соревнования и т.д.

Таким образом существующие моменты, формирующие развития туристической индустрии в Азербайджане, можно разделить на группы:

- увеличение доли видов туризма;
-уменьшение диспропорции между ресурсным обеспечением и степенью его использования;
- реклама национального туристического продукта и государственная поддержка туризма в стране.

**Выводы**

По данным ЮНВТО туризм является третьей по величине категорией экспорта в мире после химических веществ и топлива, опережая автомобильные продукты и продукты питания и составляет 1,586 миллиард долларов США. Рост туристской активности, измеряемый в численности прибытия туристов в другие страны по сравнению с 2014 годом, увеличился в 2019 году 1,4 раза, а общие расходы в сравниваемые периоды увеличился-1,64 раза. Большие объемы валютных поступлений с развитием туризма Азербайджана активно влияет на различные сектора экономики, что способствует формированию собственной туристской индустрии. В соответствии с принятой в Азербайджане дорожной картой по развитию туризма есть ряд поручений, которые предполагают совместную работу различных структур. Это развитие транспортной сферы и подготовка квалифицированных кадров в сфере туризма. Кроме того, определены целевые для Азербайджана страны с точки зрения увеличения туристического потока из разных стран мира. Совместную работу над привлечением туристов из этих стран ведут как государственные структуры, так и туристические компании. Таким образом, туризм, являясь выгодной отраслью экономики, может стать при соответствующих условиях, важнейшей частью валового национального дохода страны.

**Список литературы**

1.Галперина Т.И. (2004).Актерское мастерство в деятельности менеджера туристской анимации. Москва: РИБ «Турист », 54 с.

2.Исмайлов В.И. (2014).Актуальные проблемы формирования туристско-рекреационного кластера в Азербайджане. Баку. Журнал. Аграрная наука Азербайджана. №4 , с.16-19

3.Prideaux B. (2000). The role of the transport system in destination development.Tourism Management. 21 (1), pp.53-63

4.https://horex.az/ru-opennews/7405.41.html
5. International Tourism Highlights, 2019 Edition
6. https://1news.az/news/shahdagskiy-zimne-letniy-turisticheskiy-kompleks-voshel-v-top-10-gornolyzhnyh-kurortov-byvshego-soyu
7. http://www.stat.gov.az/source/tourism/-2020
8. https://www.e-unwto.org/doi/pdf/10.18111/9789284421152

**Pərviz Hacıyev**

## TURİZM MÜƏSSİSƏLƏRİNİN ƏSAS GÖSTƏRİCİLƏRİNİN ÖLKƏ İQTİSADİYYATININ İNKİŞAFINA TƏSİRİ

### Xülasə

Məqalədə turizm müəssisələrinin əsas göstəricilərinin ölkə iqtisadiyyatının inkişafına təsiri məsələləri tədqiq edilir, Azərbaycana gələn beynəlxalq turistlərin sayından asılı olaraq gəlir və xərclərdə nisbi dəyişiklik göstərilir. Həmçinin Azərbaycana gələn beynəlxalq turistlərin ümumi sayında müxtəlif hədəflərin payı təhlil edilmiş və qeyd olunmuşdur ki, turizm ölkə iqtisadiyyatının əsas sahələrinə böyük təsir göstərir. Eyni zamanda,tədqiqat işində dünyanın müxtəlif ölkələrindən turist axınının artırılması baxımından Azərbaycan üçün hədəflənmiş ölkələr müəyyənləşdirilmiş və belə bir qənaətə gəlinmişdir ki, bu ölkələrdən turist cəlb ediciliyinin yüksəldilməsi məqsədi ilə dövlət qurumları və ADTA-nin ayrı-ayrı turizm şirkətləri, həmçinin onunla əlaqəli olan digər təşkilatlar birgə iş aparmalıdırlar. Beləliklə, turizm sənayesi ölkənin sosial-iqtisadi inkişafının katalizatoru kimi çıxış edir və müvafiq şəraitdə, Azərbaycanın ümumi milli gəlirinin mühüm hissəsi ola bilər.

**Açar sözlər:**turizm, müəssisələr, göstəricilər, xərslər, gəlir, inkişaf

**Hicran Mirzəyeva**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, dosent
*akademiya_sm@mail.*ru

# "COVID 19": REALLIQLAR VƏ VƏZİFƏLƏR

**Açar sözlər:** pandemiya, COVID 19, beynəlxalq ticarət, dunya iqtisadiyyatı

**Giriş**

XXI-ci əsrin ilkin təəssürat postulatları sanki ötən əsrin əlamətlərini özündə ehtiva edirdi. Belə ki, əhali artımının istehlak vasitələrinin artım tempi ilə qeyri-bərabərliyi, vahid ölkə miqyasında əhali təbəqələri arasındakı həyat səviyyələrindəki fərqliliyin getdikcə dərinləşməsi və bunun bütün ölkələrdə inikası, xammal və yeraltı sərvətlər uğrunda ölkələrarası diplomatik münasibətlərin beynəlxalq hüquq çərçivəsindən kənarlaşması və ən nəhayət istənilən problemin zor tətbiqi ilə həllinin mümkünlüyünün adi hal alması bunun bariz nümunəsidir. Bütün bu deyilənlər bir qütblü və qloballaşan dünya "üstünlükləri" fonunda tirajlanması getdikcə daha dəhşətli hala gələcək dünya düzənindəki subyektiv əsaslı fəlakətləri adi hadisələr kimi cəmiyyətə qəbul etdirilməsinə hesablanmaqdadır.

Son onilliklərdə dünya iqtisadiyyatında baş verən ardıcıl maliyyə-iqtisadi böhranlar Çin XR istisna olunmaqla bütün dünya ölkələrində nəinki iqtisadi artımı ləngitmiş və hətta bir çox ölkələrin iqtisadiyyatını ciddi tənəzzülə uğratmışdı. Azərbaycan Respublikası bu ağır sınaqlardan mümkün qədər az itkilərlə çıxmağı bacardı. Bu, son 15 ildə ölkə iqtisadiyyatının uğurlu diversifikasiyasının, infrastruktur, kommunikasiya, nəqliyyat-logistika, turizm və yaşıl enerji sahələrinin inkişafına verilən prioritetlik sayəsində həyata keçirilən çoxsaylı dövlət proqramlarının icrası ilə əldə oluna bildi.

Beləliklə dünyanın digər inkişaf etməkdə olan ölkələri kimi Azərbaycanda yeni iqtisadi şəraitə uğurlu adaptasiyası formalaşdı. Məhz belə bir mühitdə dünya iqtisadiyyatına indiyədək bənzəri olmayan bir təxribat "COVID 19" pandemiyası saldırısı baş verdi.

**"COVID 19" pandemiyasının aşkar edilməsi və yayılması**

Son 200 illik dünya tarixində əhatəliliyi, yayılma sürətliliyi və sona çatmasının qeyri-müəyyənliyi ilə seçilən bu pandemiya əksər ölkələrdə əhali sağlamlığını, iqtisadiyyatı, sosial mədəni həyatı demək olar ki, tam mənası ilə iflic etmişdir. Bu gün 200 ölkə bu virusla qızğın mübarizə aparmaqdadır.

Koronovirus pandemiyasının ilkin olaraq Çin XR-da aşkar edilməsinə baxmayaraq, dünya mətbuat orqanlarında bu məlumat məlum olmayan səbəblər üzündən 2-3 ay sonra qeydə alındı. Başqa sözlə, Çin dövləti xəstəliyin artıq digər ölkələrdə qeydə alınmasından sonra rəsmi olaraq məlumatı təsdiqləməyə məcbur oldu. Belə bir məsuliyətsiz münasibət pandemiyanın qısa müddətdə Avropa, Amerika, Asiya və Afrika qitələrinə yayılmasına, kütləvi psixozun yaranmasına şərait yaratdı. Eyni zamanda xəstəliyin mahiyyətinin tədqiqinin başlanmasına və virus əleyhinə peyvəndin kəşfinin gecikdirilməsinə, yoluxanların sayının Çin, İspaniya, İtaliya, Almaniya, ABŞ, Rusiya, İngiltərə, Braziliya, Türkiyədə və s. ölkələrdə qısa zamanda kəskin artmasına səbəb oldu [1].

Yaranmış vəziyyətin ciddiliyini dünya birliyinə çatdıran Beynəlxalq Səhiyyə Təşkilatı (BST), BMT çərçivəsində dövlətlərin hər birinin bu sahədə vəzifə və öhdəliklərindən doğan fəaliyyətlərini koordinasiya etmək funksiyasını öz üzərinə götürdü. Koronovirusun öz təsir gücünə görə qısa zaman kəsiyində həyatın bütün sferalarını əhatə edə bilməsi və zaman keçdikcə onun fəsadlarının daha da katastrofik sonluqlarla nəticələnməsi və bu sahədə əsaslandırılmış proqnozların verilə bilməməsi vəziyyəti daha da kəskinləşdirməkdədir. Analitiklərin fikirlərinə

görə koronavirus sayəsində yaranmış böhranın fəsadları 1933-cü il dünya böranından ən azı 3 qat artıq olacaqdır.

Hazırda qeyri-müəyyən sonluqları ilə üzləşməyi istəməyən hər bir ölkə pandemiyaya qarşı qabaqlayıcı kompleks tədbirlər həyata keçirməyə başlamışlar. Lakin bu tədbirlər heç də hər bir ölkədə istənilən nəticənin əldə edilməsi ilə sonuclanmır. Məsələn, Hindistan kimi güclü iqtisadi potensiala malik bir ölkədə hələ də xəstəlik tüğyan etməkdə, iqtisadiyyat ağır itgilərə məruz qalmaqdadır.

Əksər ölkələrdə iş yerlərinin bağlanması, əhali gəlirlərinin azalması, məktəb və digər təhsil ocaqlarında fasilələrin verilməsi, məişət, iaşə və ticarət sahələrində işin və xidmətlərin dayandırılması, idman və mədəni kütləvi tədbirlərin keçirilməsinə qoyulan qadağalar ictimai sosial həyatı daha da gərginləşdirməklə yanaşı cəmiyyətdə ümidsizlik sindromunu gücləndirməkdədir.

**Pandemiyanın dövlətlərarası əlaqələrə təsiri**

Beynəlxaq ticarət və ümumiyyətlə dövlətlərarası iqtisadi və hümanitar əlaqələrin dondurulması, qlobal miqyasda istehlak potensialının alıcılıq tələbinin getdikcə zəifləməsi dünya iqtisadiyyatının pisləşməsi, büdcə kəsirlərinin əsaslı şəkildə artmasına səbəb olmaqla ölkə daxili sabitliyin pozulmasını tətikləməkdədir.

Yəni, qlobal iqtisadi aktivliyin zəifləməsi ümumilikdə neft və neft məhsullarına olan tələbatı da azaltdı. Məhz bu səbəbdən bundan əvvəlki böhran hallarının mənfi təsirləri (bir barrelin qiymətinin 30$-a düşməsi) bitməmiş pandemiya neft qiymətlərindəki risklərin artması yenidən Azərbaycan iqtisadiyyatında da ciddi gərginliklərin yaranmasına səbəb ola biləcəkdir.

Başqa sözlə virusun yayılmasının yaratdığı qlobal iqtisadi problemlər Azərbaycan iqtisadiyyatına əsasən neft bazarında formalaşmış volatilliklər vasitəsilə təsir edir. Neftin qiymətinin sürətli azalması COVID 19-un yayılması ilə birbaşa bağlı olmasa da virusun yayılmasının neft qiymətləri üzərində formalaşdırdığı riskin təsiri bir reallıqdır. Xoş haldır ki, OPEC tərəfindən görülmüş tədbirlər nəticədə son aylarda neftin qiymətinin bahalaşması (bir barrelin qiymətinin 60 $-a qalxması) müşahidə olunmaqdadır.

İlkin olaraq insan sağlamlığına ciddi təsiri ilə meydana çıxan COVID 19 getdikcə cəmiyyətdə qərarlaşmış yaşayış tərzinin pozulmasına, təhsilə, birgə mədəni kütləvi davranışa, işə davamiyyətə, iri müəssisələrin fəaliyyətlərinin dayandırılmasına, kiçik və orta biznes fəaliyyətinin, nəqliyyat sferasının durdurulmasına, ümumən sosial iqtisadi fəaliyyətin iflic olunmasına gətirib çıxardı.

Pandemiyanın meydana çıxması ilə qısa bir zaman kəsiyində planeti əhatə etməsi və həyatın bütün sferalarını təsir dairəsinə alması yeganə tarixi bir hal kimi qiymətləndirilməkdədir. Ümumiyyətlə 26.0502021-ci il tarixinə olan məlumata görə dünya üzrə bu növ virusa tutulmuş insanların ümumi sayı 168 011 339 nəfər, ölkəmizdə isə 332894 nəfərdir.

**Dünya iqtisadiyyatında pandemiya böhranı**

Dünya iqtisadiyyatı pandemiya səbəbindən dərin böhran keçirir və bu vəziyyətin sonunun proqnozlaşdırılması mümkün görünmür. Bu gün hər bir ölkə pandemiyanın vurduğu ziyanın məbləğini dəqiq hesablamaqda çətinlik çəkir.

Belə bir şəraitdə dünya ölkələrinin çox az bir qismi sosial-iqtisadi inkişaf strategiyalarının çətinliklə də olsa öhdəsindən gələ bilir.

Azərbaycan dövləti bu sahədə qabaqlayıcı tədbirlərin-xəstəliyin ölkədə yayılmaması üçün karantin fəaliyyətinin tətbiqi ilə başladı. Ölkədaxili və beynəlxalq sərnişindaşıma ciddi nəzarət altına alındı. Mövcud xəstəxana komplekslərinin müasir tələblər səviyyəsində modernləşdirilməsi, onların maddi texniki bazasının möhkəmləndirilməsi, yeni regional xəstəxanaların yaradılması, onların peşəkar tibbi personal və ləvazimatla təmin olunması bu sahədə dövlətin həyata keçirdiyi ilkin tədbirlərdəndir. Ölkədə vaksinləşmə prosesinin başlanması və uğurla həyata keçirilməsi də bu tədbirlər sırasındadır.

Beləliklə, yuxarıda qeyd edildiyi kimi dövlət tərəfindən həyata keçirilən bu ardıcıl tədbirlər epidemiyanın tənzimlənməsinə, yəni idarə oluna bilən səviyyəyə çatdırılmasına imkan verdi.

Pandemiyanın ölkədə geniş yayılması sosial-ictimai həyata, ölkə iqtisadiyyatına, əhalinin işlə təmin olunmasına və bununla əlaqədar gəlirlilik səviyyəsinə, sahibkarlıq subyektlərinin müflisləşməsinə və təlim-tədris proseslərinin ənənəvi üsullarla aparılmasına ciddi mənfi təsirlər göstərmişdir. Qlobal miqyasda hadisələrin gedişinin proqnozlaşdırıla bilməməsi Azərbaycan dövləti tərəfindən ciddi tədbirlər həyata keçirilməsinə zəruriyyət yaradırdı.

Azərbaycan Respublikası Prezidentinin 4 iyun 2020-ci il tarixli Fərmanında və 2020-ci il 19 mart tarixli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş Tədbirlər Planında iqtisadi fəaliyyətin tənzimlənməsi, iş yerlərinin qorunub saxlanması, iqtisadi fəallığın tənzimlənməsi, vergi stimullarının tətbiqi, sahibkarların kredit ehtiyaclarının ödənilməsinin asanlaşdırılması, pandemiyanın mənfi təsirlərinin təsdiqləndiyi sahələrə dövlət dəstəyinin təşkili, postpandemiya tədbirlər proqramının işlənməsi və həyata keçirilməsi, sosial rifaha dəstək və mövcud iş yerlərinin qorunmasını və ən nəhayət əhalinin aztəminatlı və xüsusi həssas təbəqəsini əhatə edən əməli fəaliyyətlər öz əksini tapmışdır.

Belə bir şəraitdə iqtisadi vəziyyətləri normallaşan ölkələrdən biri kimi Azərbaycan dövləti də pandemiyanın vurduğu ziyanların aradan qaldırılması, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması, müsəssisələrin iflasdan xilas edilməsinə dair çoxsaylı ilkin tədbirlər həyata keçirməkdədir.

Misal üçün, COVID 19-un ölkə iqtisadiyyatına mənfi təsirini azaltmaq üçün 2021-ci ilin 4 aprel ayından biznes sahələri və fərdi fəaliyyəti dəstəkləmək üçün ölkə büdcəsindən 3,4 milyard manat vəsait ayrılmışdır. Bundan savayı, müəssisələrin gəlirliyinə dəstək olmaq məqsədi ilə orada çalışanların əməkhaqqı qismən təmin edilmiş (215 milyon manat); kiçik müəssisələrə yardım (80 milyon manat) edilmiş; müvəqqəti ictimai iş yerlərinə (54 milyon manat); ayrılmış işsizlik üzrə müavinətlərin verilməsinə (230 milyon manat) ödənilmiş; pensiyaların ödənişi üçün (200 milyon manat); məqsədli sosial təminatlar (4,5 milyon manat); enerji və təhsil yardımları (20 milyon manat) və Sahibkarlığın İnkişafına Dəstək Fonduna əlavə olaraq ( 50 milyon manat) civarında maliyyə vəsaitləri ödənilmişdir [3].

Dövlət tərəfindən həyata keçirilən bu tədbirlər nəticəsində ölkə iqtisadiyyatında dayanıqlılığın bərpasına və əhalinin sosial vəziyyətinin yaxşılaşdırılmasına ilkin şərait yaratmaqla gələcəyə ümidləri artırmışdır. İşsizliyin və yoxsulluğun getdikcə artmasının, əhalinin aztəminatlı böyük çoxluğunun iqtisadi vəziyyətinin pisləşməsinin, təhsil sferasındakı davamiyyət və keyfiyyət problemlərinin aktivləşməsinin, xəstəliyinin qorxunc sonuclarının mətbuatda geniş ponpalanmasının qarşısının alınmasına geniş imkanlar açmışdır.

Təhlillər göstərir ki, pandemiyanın təsir imkanlarının və dairəsinin, fəsadlarının, nəticələrinin və onun qarşısının alınması üçün göstərilən tədbirlər sisteminin səmərəliliyinin kompleks tədqiqi aparılmadan, onunla mübarizədə bütün ölkələrin birgə fəaliyyəti təmin edilmədən qlobal miqyasda kəskin uğurlu nəticələrin alınması qeyri-mümkündür.

Bütün bunlar inkişaf etməkdə olan sivil dövlətin öz müstəqilliyini gücləndirilməsi, əhalisinin sosial rifahının ekstremal şəraitdə belə qorunub saxlanılması yönəlik ardıcıl fəaliyyətinin təsdiqidir.

Qeyd edildiyi kimi hazırda ölkəmizdə pandemiya ilə mübarizə idarə oluna bilən həddə aparılmaqdadır. Belə ki, xəstəliyin yayılmasının tənzimlənməsində, əhalinin maddi-rifah halının normallaşdırılmasında, iqtisadi tənəzzülünün qarşısının alınmasında müsbət nəticələr əldə edilməkdədir. Əldə olunan münbit şəraitin davamlılığının təmin edilməsi, normal həyat və iş rejiminə keçilməsi üçün orta və uzunmüddətli tədbirlər kompleksinin işlənib həyata keçirilməsi vacibdir. Bu tədbirlər paketi özündə:

- pandemiya ilə mübarizədə qərarlaşmış davranış, iş və təlim-tərbiyə metodlarının davam etdirilməsini;

- milli iqtisadiyyatın aparıcı sahələrinə dəymiş zərərin müəyyənləşdirilməsi və bu sahələrdə iş rejiminin normallaşdırılmasına müvafiq təşkilati-maliyə dəstəyinin göstərilməsini;
- daxili biznes fəaliyyətinin normallaşdırılması və beynəlxalq iqtisadi əlaqələrin tənzimlənməsi kimi məsələləri özündə əks etdirilməlidir.

**Nəticə**

Beləliklə, "COVID 19" pandemiyası öz təbiəti ilə cəmiyyət həyatının bundan sonra ki, dövrdə əvvəlki ənənəvi həyat tərzi ilə davam edə bilməyəcəyini ortaya qoymuşdur. Ona görədə dünya ölkələrinin vahid bir cəbhədə birləşməsi, qlobal sosial-iqtisadi tənzimləmə prinsplərinə əməl etmələri zəruriyyəti bütün ölkələr tərəfindən birmənalı qəbul edilməlidir. Təhlillərdən belə qənaətə gəlinirki, istənilən ölkədə yeni reallıqlar şəraitində normal həyatın təmin olunması dövlət və cəmiyyətin, hər bir fərdin bu sahədəki məsuliyyət səviyyəsindən birbaşa asılı olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. https://aircenter.az/
2. www.worldometers.info/coronavirus/
3. https://www.taxes.gov.az
4. https://president.az

**Aygün Quliyeva**
Azərbaycan Kooperasiya Universiteti, i.e.d
*aygun.e.guliyeva@hotmail.com*

# AZƏRBAYCANDA REGONLARIN İNKİŞAFINDA MALİYYƏ TƏMİNATININ GÜCLƏNDİRİLMƏSİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARDAN İSTİFADƏ YOLLARI

***Xülasə***

*Məqalədə Azərbaycanda regonların inkişafında maliyyə təminatının gücləndirilməsində rəqəmsal texnologiyalardan istifadə yolları və güclü maliyyə təminatı mexanizmlərinin olmasının vacibliyini şərtləndirən amillər və yanaşmalar tətqiq edilir. Maliyyə-kredit xidmətlərinin əlçatanlığının və operativliyinin təmin edilməsində rəqəmsal texnologiyaların rolu və səmərəliliyi açıqlanmışdır. Elektronlaşdırılmış maliyyə-kredit xidmətlərinin çevikliyi hesabına regionların maliyyə təminatının yaxşılaşdırılması yolları üzrə yanaşmalar və prinsiplər baxılmışdır. İşğaldan azad olunmuş ərazilərdə-Qarabağ regionunda müasir rəqəmsal texnologiyalar əsasında maliyyə təminatı mexanizmlərinin hazırlanması və tətbiqinin vacibliyi əsaslandırılmışdır. Müasir qlobal təsirlər və postpandemiya şəraitində, postmüharibə dövrünün tələbləri kontekstində regional maliyyə təminatı mexanizmlərinin rəqəmsal texnologiyalarda istifadə olunmaqla gücləndirilməsi yolları üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.*

***Açar sözlər:*** region, rəqəmsal texnologiyalar, maliyyə təminatı, problemlər, rəqəmsal üstünlüklər

## Giriş

Dünya təcrübəsindən yanaşdıqda ölkə regionlarının dayanıqlı inkişafının sürətləndirilməsi, xüsusilə yüksək texnologiyaların tətbiqi məsələlərində mərkəzi şəhərlərlə regionlar arasında fərqlərin minimuma endirilməsi, elektron xidmətlərin geniş tətbiqinin nail olunması mürəkkəb məsələlərdən hesab olunur. Amma, bunların diqqət mərkəzində saxlanılması və zəruri tədbirlərin görülməsi vacib şərtlərdəndir. Belə ki, ölkənin hər hansı bir regionunun kompleks və sistemli şəkildə inkişaf etdirilməsi, burada dayanıqlı və tarazlı inkişafın formalaşdırılması, gücləndirilməsi məsələləri mühüm əhəmiyyət kəsb edir və bunun üçün maliyyə təminatının gücləndirilməsi tədbirləri görülməlidir [5]. Eyni zamanda, ölkəmizdə regionların sosial-iqtisadi inkişafı ilə bağlı spesifik məsələlərə daha çox önəm verildiyini nəzərə alsaq, xüsusilə maliyyə təminatının yaxşılaşdırılması, regionların inkişaf prioritetlərinin obyektiv olaraq dəyərləndirilməsi, mövcud resurslardan səmərəli istifadəyə nail olunması, son nəticədə isə dayanıqlı və tarazlı inkişaf modelinin işlənib hazırlanması, tətbiq edilməsi və təkmilləşdirilməsi məsələləri davamlı şəkildə maliyyə resurslarının və investisiyaların cəlbedilməsini tələb edir. Digər tərəfdən, əlbəttə, dünyada regionların inkişafı üçün müxtəlif dövlət dəstəyi mexanizmləri, modellər və yanaşmalar vardır. Məsələn, ABŞ və Qərbi Avropa ölkələrində regionların inkişafında daha çox müxtəlif layihələrdən, o cümlədən ağıllı texnologiyalardan, Smart layihələrdən və s. istifadə diqqət çəkir. Başlıca məqsəd isə regionun investisiya və maliyyə cəlbediciliyinin yüksəldilməsi, bu regionda həyata keçirilməsi layihələrə özəl və xarici investorların marağının yönəldilməsindən ibarətdir. Maliyyə məsələləri və maliyyə dayanıqlılığı çoxşaxəli yanaşmaları, məhsuldar və etibarlı mənbələrin olmasını, maliyyə, yatırılan kapitalın, yönəldilən investisiyanın hərəkətinin şəffaflığı, baryerlərin minimuma endirilməsin, elektron

xidmətlərin geniş tətbiqini şərtləndirir. Bu isə öz növbəsində maliyyə təminatı mexanizmlərinin işləkliyi və səmərəliliyi ilə birbaşa bağlıdır. Dayanıqlı və tarazlı inkişaf strategiyası və prioriteti dövlət tərəfindən daha çox və genişmiqyaslı tədbirlərin görülməsini, yüksək texnologiyaların regionlara transferi üçün müvafiq infrastrukturun yaradılmasını tələb edir. Bundan əlavə, rəqəmsal texnologiyaların daha intensiv formada regionlarda tətbiqinə imkan verən tədbirlərin və layihələrin hazırlanmasını, bu layihələrin təşkilati, hüquqi və maliyyə aspektlərinin tənizmlənməsini, bir çox mühüm fəaliyyət istiqamətlərinə dövlət müdaxiləsinin zəruriliyini, o cümlədən maliyyə mexanizmlərinin formalaşdırılması və inkişaf etdirilməsi ilə bağlı daha məqsədəuyğun, regionların sosial-iqtisadi və ənənəvi inkişaf xüsusiyyətlərinə uyğun olan mexanizmlərin hazırlanmasını və tətbiqini zəruri edir [2]. Hər bir regionda təbii və iqtisadi resursların, məhsuldar qüvvələrin müəyyən hədləri, səmərəlilik sərhədləri və səviyyələri vardır. Amma, bunların hərəkətə gətirilməsi, istehsal, kommersiya və maliyyə dövriyəsinə cəlbedilməsi daha önəmli və strateji məsələlərdən hesab olunur və müasir dövrdə rəqəmsal texnologiyalar bu məsələlərin həllini sürətləndirmək potensialına malikdirlər.

**Regionların inkişafında maliyyə-kredit resurslarının əlçatanlığının təmin edilməsi**

Maliyyə problemləri çözülmədən və dayanıqlı maliyyə mexanizmləri olmadan iri layihələrin, o cümlədən regional layihələrin, regional prioritetlərin praktiki olaraq reallaşdırılması, zəruri tədbirlərin görülməsi, əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi üçün kompleks tədbirlərin həyata keçirilməsi və bunlarla bağlı problemlərin həll olunması, baryerlərin aradan qaldırılması, maliyyə resurslarının əlçatanlığın təmin edilməsi üçün əlavə tədbirlərin, infrastruktur və institusional tədbirlərin genişləndirilməsi, regionlarda maliyyə-kredit və bank təşkilatlarının, müəssisələrinin filiallar şəbəkəsinin yaradılması, maliyyə-kredit xidmətlərinin çeşidinin diversifikasiyalaşdırılması və bu qəbildən olan xidmətlərə əlçatanlığın təmin edilməsi xeyli çətin həll olunan məsələlər kimi xarakterizə edilirlər. Ölkəmizdə hazırkı reallıqlardan yanaşsaq, regionlarda ixtisaslaşdırılmış maliyyə fondları və birlikləri, sığorta və lizinq təşkilatları, bank olmayan maliyyə-kredit birlikləri, həmçinin sərbəst qərarlar vermək iqtidarında və səlahiyyətində olan banklar və bank filialları barmaqla sayılası qədərdir. Əsas etibarı ilə ayrı-ayrı bankların filialları fəaliyyət göstərirlər, amma bu bank bölmələri və struktur vahidləri sərbəst qərar vermək səlahiyyətində deyillər, bu isə öz növbəsində maliyyə mexanizmlərindən və alətlərindən operativ istifadə edilməsini çətinləşdirir, əlavə problemlər yaranır və layihələrin, biznes proseslərin, sahibkarlıq proseslərinin maliyyələşdirilməsi və kreditləşdirilməsi ilə bağlı məsələlər ləngiyir. Elektron xidmətlər və rəqəmsal texnologiyalar artıq regionlara ayaq açmaqdadır, ancaq bu xidmətlərin maliyyə təminatında daha geniş formada tətbiqi tələb olunur [3].

Regionların inkişafının sistemli şəkildə təşkil edilməsi, tələb olunan tədbirlərin və layihələrin həyata keçirilməsi proseslərində önəmli hallardan biri maliyyə-kredit və investisiyalarla bağlı prosedurların bürokratiyalardan uzaqolması, proseslərin şəffaflığını təmin edilməsi, hər bir xidmət növü üzrə zəruri informasiyanın əlçatanlığı və ümumilikdə maliyyə-krdit resurslarının özlərinin əlçatanlığı olduqca böyük əhəmiyyət kəsb edir. Bu məsələlərin özəllikləri mövcuddur və onların araşdırılması, təhlil olunması və regionların inkişafında bu amillərlə bağlı fəaliyyət mexanizmlərinin metodoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi vacibdir. Maliyyə-kredit mexanizmləri regionda fəaliyyət göstərən təsərrüfat və kommersiya strukturları, fərdi sahibkarlar və fermer təsərrüfatları üçün kifayət qədər əlçatan olmalı və bu resursları əldə etmək prosedurları asanlığı ilə seçilməlidirlər. Bürokratik amillərin və baryerlərin

aşkarlanması, aradan qaldırılması tədbirlərinin görülməsinə xüsusi diqqət yetirilməlidir. Heç də sirr deyildir ki, ölkənin maliyyə-kredit resursları əsasən Bakıda cəmlənmişdir və regionlarda ölkə banklarının, həmçinin maliyyə-kredit təşkilatlarının, fondlarının geniş şəbəkəsi mövcud deyildir. Düzdür, bir çox banklar regionlarda filiallar açmışlar və xidmətlər göstərirlər, amma bu xidmətlərin göstərilməsinə, icazə alınmasına uzunmüddət vaxt lazım olur, meyarlar isə kifayət qədər mürəkkəbdir, həlledici qərarlar isə yenə yerində həll olunmur, bankların mərkəzi strukturlarında baxılır, qərar verilir.

Qeyd edək ki, hazırkı dövrdə tətbiq olunan maliyyə mexanizmlərinin çevikliyi və əlçatanlığı, xüsusilə kredit və sığorta xidmətlərinin daha tez və manelərsiz istehlakçılara təqdim olunması problemlərini, ilk növbədə rəqəmsal texnologiyaların fəal tətbiqi yolu ilə həll etmək olar. Regionların sabit və dayanıqlı inkişafı üçün bir çox amillər və elementlər mövcuddur, onların kompleks şəkildə baxılması və qiymətləndirilməsi vacib şərtlərdəndir [1]. Regionların inkişafında maliyyə-kredit və investisiya təminatı problemlərinin həll edilməsi, real investorların və maliyyə təşkilatlarının, kredit birliklərinin daha məhsuldar formada regionlarda fəaliyyət göstərməsi üçün rəqəmsal mexanizmlərin tətbiqi, internet ötürücü infrastrukturun yüksək səviyyədə olması, ən ucqar ərzilərdə və yaşayış məntəqələrində belə avtomat rejimdə fasiləsiz işləyən və maliyyə-kredit əməliyyatlarının həyata keçirilməsinə imkan verən maliyyə-kredit və bank texnologiyalarının, avadanlıqların və qurğuların olması olduqca vacib məsələlər kimi xarakterizə edilirlər. Bu problemlər təkcə regionların sosial-iqtisadi inkişafı, onların perspektiv inkişaf hədəflərinin reallaşdırılması ilə əlaqəli deyildir, demək olar ki, həyatımızın və iqtisadiyyatın bütün sahələrində maliyyə təminatı problemləri, kredit əlçatanlığı məsələləri, eyni zamanda investisiyaların cəlbi, səmərəli və təyinatına uyğun istifadəsi məsələləri aktual olaraq diqqət mərkəzində qalan məsələlərdəndir. Maliyyə-kredit və investisiya təminatı problemləri çoxlu sayda mürəkkəb məsələlərin həllini şərtləndirir, dayanıqlı və məhsuldar mənbələrin formalaşdırılmasını tələb edir. Bundan başqa, maliyyə-kredit resurslarının yığılması, mobilizasiya edilməsi və səmərəli şəkildə bölüşdürülməsi problemləri də ölkə səviyyəsində strateji yanaşma tələb edən hallardandır. Əslində maliyyə-kredit resursları nə qədər çox olsa belə, həmişə çatışmır, bu resurslar artdıqca onlardan səmərəli istifadə olunması problemləri də artır. Xüsusilə, regionlarda, nisbətən infrastrukturun zəif olduğu ərazilərdə, maliyyə-kredit təminatı mexanizmlərinin tətbiq edilməsi və investisiyaların yönəldilməsi üçün o qədər də cəlbedici olmayan şəraitdə bu problemləri həll etmək lazım gəlir [6]. Regionlarda həyata keçirilən layihələr, aparılan geniş miqyaslı işlər böyük mənada dərindən araşdırmaların və əsaslandırılmaların aparılmasını vacib edir. Yəni, resurslar yönəldilərkən, kapital qoyuluşu qərarı və ya investisiyaların yatırılması ilə bağlı layihələrin təsdiq edilməsi proseslərində regionlardakı mövcud risklər, o cümlədən əməliyyat riskləri, çatışmayan hallar və bu istiqamətdə mühüm amillər dərindən öyrənilməli, həll mexanizmləri və alətləri müəyyənləşdirlməli, yüksək texnologiyaların imkanları real olaraq qiymətləndirilməli, nəzərdə tutulan maliyyə xidmətlərinin elektronlaşdırma potensialı əvvəlcədən maksimum proqnozlaşdırılmalı və onların tətbiqi ilə bağlı məsələlər xüsusi diqqət mərkəzində saxlanılmalıdır.

Qeyd edək ki, ölkənin bütün ərazisinin tarazlı və davamlı şəkildə inkişaf etdirilməsi, əvvəldə qeyd etdiyimiz kimi mərkəzi şəhərlərlə regionlar arasında sosial-iqtisadi inkişaf fərqlərinin maksimum aradan qaldırılması, sosial infrastrukturun yaradılması, hər bir regionun iqtisadi inkişaf və məşğulluq ənənələrinə uyğun gələn istiqamətlərdə sahibkarlığın inkişaf etdirilməsi, mikro, kiçik və orta sahibkarlıq subyektlərinin fəallığının təmin olunması, özünəməşğulluq layihələrinin həyata keçirilməsi, ümumiyyətlə iqtisadiyyatın və cəmiyyətin

bütün sahələrində sosial-iqtisadi və ictimai fəallığın gücləndirilməsi bir çox mexanizmlərin və alətlərin fəal şəkildə tətbiqini, ilk növbdə isə informasiya-kommunukasiya texnologiyaları xidmətlərinin geniş spektrdə tətbiq olunmasını şərtləndirir. Şübhəsiz, burada regionun dayanıqlı inkişafı ilə bağlı prioritet hesab olunan və strateji səviyyədə qiymətləndirilən vəzifələri və hədəflərinə uyğun olaraq fəaliyyət mexanizmlərinin müəyyənləşdirilməsi və tətbiqi zəruridir. Bununla bağlı kifayət qədər aktuallığı ilə ön planda olan məsələlərdən biri də regionlarda maliyyə-kredit təminatı problemlərinin alternativ həlli yollarının işlənib hazırlanması və geniş paketdə rəqəmsal texnologiyalardan ibarət xidmətlərin-maliyyə, kredit, həmçinin sığorta xidmətlərinin, lizinq, digər dünya təcrübəsindən məlum olan maliyyə mexanizmlərinin tətbiqi və istehlakçılara təqdim olunması məsələləri həll edilməlidir [7]. Buna görə də, regionlar səviyyəsində maliyyə-kredit mexanizmlərinin optimal olaraq işlənib hazırlanması, bu istiqamətdəki mövcud problemlərin sistemli şəkildə və dərindən araşdırılması, öyrənilməsi və adekvat həlli yollarının müəyyənləşdirilməsi əsas şərtlərdəndir. Maliyyə-kredit problemlərini həll etmədən regionun sosial-iqtisadi inkişaf proseslərinin dayanıqlı və davamlı şəkildə təmin edilməsi, tələb olunan investisiya-innovasiya layihələrinin həyata keçirilməsi, ərazinin infrastruktur baxımından inkişafına təkan verilməsi, yerli resursların istehsal və kommersiya dövriyyəsinə cəlb edilməsi tədbirlərinin görülməsi, ümumilikdə iqtisadi fəallığın artırılması, əhalinin yaşayış səviyyəsinin və gəlirlərinin yüksəldilməsi xeyli çətin görünür.

**İşğaldan azad ərazilərdə Qarabağ layihələrinin rəqəmsal texnologiyalar əsasında təşkili**

Bir məsələni də xüsusi olaraq vurğulamaq istərdik. 30 il ərzində işğal altında qalan torpaqlarımız–Qarabağ regionu 44 günlük Böyük Vətən müharibəsi zəfərindən sonra mənfur erməni faşistlərinin tapdağından təmizləndi və müzəffər ordumuz Ali Baş Komandanın rəhbərliyi altında düşməni diz çökdürdü. Artıq Qarabağın dirçəlişi və reabilitasiyası proseslərinə başlanılmışdır. Burada diqqət çəkən məqamlardan biri regionun sosial-iqtisadi inkişafının təmin olunmasında ağıllı və yüksək texnologiyalara üstünlüyün verilməsidir. Qarabağ regionunda "ağıllı kənd", "ağıllı şəhər", məişət xidmətlərinin, şəhər təsərrüfatının, kənd təsərrüfatının təşkili və idarə edilməsi proseslərinin, nəqliyyat vasitələrinin hərəkətinin intellektual idarəetmə mexanizmlərinin tətbiqinə prioritetlik veriləcəkdir. Maraqlıdır ki, regionda güclü xidmət infrastrukturunun yaradılmasına, turizm-rekrasiya sektorunun güclü inkişaf etdirilməsinə əsas diqqət yönəldilməkdədir və bu proseslərin postpandemiya dövründə xeyli sürətlənəcəyi gözlənilir [4]. Bu regionda beynəlxalq hava limanlarının tikilməsi, dəmir yolu və avtomobil yolları marşrutlarının dünya səviyyəsinə qaldırılması, regiounun inkişafının dünya mütərəqqi təcrübəsinə uyğun şəkildə təşkili hədəflənmişdir. Bütün bunlar, külli məbləğdə və davamlı olaraq maliyyə resursları, investisiyalar tələb edir. Buna görə də yaxın perspektivdə regional aspektdən yanaşdıqda, strateji məsələlərdən biri də Qarabağ regionunda maliyyə-kredit xidmətlərinin rəqəmsal texnologiyaları əsasında ən yüksək səviyyədə təşkilindən ibarətdir.

**Nəticə**

Ümumilikdə, müasir zəmanəmizdə rəqəmsal texnologiyaların fəal şəkildə tətbiq edilməsi imkanları diqqət çəkir və bununla bağlı regional səviyyədə prioritet vəzifələri, ölkə regionlarının inkişafında maliyyə təminatının gücləndirilməsində rəqəmsl texnologiyalardan istifadə yolları ilə bağlı bunlara daha çox diqqət yetirilməsini qeyd etmək istərdik:

– ölkə regionlarında rəqəmsal texnologiyaların daha geniş aspektdə tətbiqi məsələlərinə, rəqəmsallaşma ilə bağlı proseslərin regional baxışdan qiymətləndirilməsinə, rəqəmsal xidmətlərin hazırlanması və tətbqinə obyektiv reallığı özündə əks etdirən konseptual yanaşmalar ortaya qoyulmalı və fəaliyyət strategiyası, mexanizmləri hazırlanaraq həyata keçirilməlidir;

– regionlarda maliyyə-kredit xidmətlərinin təşkili ilə əlaqədar olan aidiyyəti qurumların, birliklərin və fondların, maliyyə-kredit təşkilatlarının, sığort şirkətlərinin fəaliyyətinin gücləndirilməsi tədbirləri görülməli və müvafiq yüksək texnologiyalar əsaslı rəqəmsal maliyyə təminatı infrastrukturu yaradılmalıdır;

– Qarabağ regionun strateji əhəmiyyəti və yüksək iqtisadi potensialı əsas götürülməklə, bu reqionda sosial-iqtisadi inkişaf proseslərinin, reabilitasiya və dirçəliş proqramlarının səmərəli şəkildə həyata keçirilməsi məqsədilə rəqəmsal texnologiyalar əsaslı maliyyə təminatı mexanizmlərinin yaradılması və tətbiqi prosesləri maksimum intensivləşdirilməlidir və s.

**İstifadə edilmiş ədəbiyyatlar:**


1. Ataşov B.X. Maliyyə bazarları. Bakı, “Kooperasiya nəşriyyatı”, 2016. -456 s.
2. Azərbaycan Respublikasında maliyyə xidmətlərinin inkişafına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixi Fərmanı ilə təsdiq edilmişdir. Bakı, 2016.-59 s.
3. Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi. AR-sı Prezidentinin 06.12.2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmişdir, 2016. –65 s.
4. Əliyev Ş.T. Pandemiya və postpandemiya dövründə Azərbaycanda iqtisadi təhlükəsizliyin aktual məsələləri // “Xəbərlər”, AMEA İİ, №5. 2020.-s. 5-12.
5. Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında. Azərbaycan Respublikasi Prezidentinin Sərəncamı // – 28 noyabr 2019-cu il. – № 1616. – Bakı.
6. Гулиева, А.Э. Основные направления и инструменты совершенствования государственных программ регионов Азербайджана //Региональная экономика: теория и практика, Москва, 2019., т. 17, вып.9, стр.1694-1708.
7. Стародубцева, Е.Б. О.М. Маркова. Цифровая трансформация мировой экономики // Вестник АГТУ. Экономика. – 2018. – № 2. – С.7–15.

**Nurəngiz Mikayılova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*nurengiz.mikayilova@mail.ru*

# PANDEMİYA DÖVRÜNDƏ MÜVƏQQƏTİ VERGİ REJİMİ

***Açar sözlər:*** pandemiya, vergi dərəcələri, vergi güzəştləri, müvəqqəti vergi rejimi

## Giriş

Vergi-dövlətin və bələdiyyələrin fəaliyyətinin maliyyə təminatı məqsədi ilə vergi ödəyicilərinin mülkiyyətində olan pul vəsaitlərinin özgəninkiləşdirilməsi şəklində dövlət büdcəsinə və yerli büdcələrə köçürülən məcburi, fərdi, əvəzsiz ödənişdir və vergi sistemi ayrı-ayrı dövlətlərdə müəyyən fərqliliyi ilə seçilməkdədir [1, s. 4, maddə 11]. Belə ki, dövlətlərin siyasi quruluş və iqtisadi modellərindən asılı olaraq müxtəlif vergilər və vergi səviyyələri tətbiq olunur.

Dövlətlərin vergi sistemində fərqliliklər olduğu kimi vergi güzəştləri də mövcuddur. Belə hesab olunur ki, Britaniya ən geniş vergi güzəştləri və maliyyə dəstəyi ilə liderliyini üzun müddət qoruyub saxlamaqdadır. Britaniyada istehsal, xüsusilə də kənd təsərrüfatı məhsulları istehsal edən şirkət və fermerlər üçün xüsusi vergi güzəştləri raketı nəzərdə tutulur. Bundan əlavə Britaniya qanunvericiliyində sağlamlıq imkanları məhdud vətəndaşları işlə təmin edən şirkətlərə verilən güzəştlər də öz əksini tapmışdır. Sağlamlıq imkanları məhdud şəxsi işə götürən şirkət işçi üçün münasib şərait yaradan zaman əlavə xərc (məsələn, dəstəkləyici texnologiya almaq, şirkət binasında panduslar quraşdırmaq) çəkirsə, dövlət tərəfindən ona vergi güzəşti edilir.

Xarici ölkələrdə və respublikamızda istifadə olunan vergi güzəştləri sisteminin müqayisəli təhlili böyük nəzəri və praktiki əhəmiyyət kəsb edir. Bütün əsas vergi növlərinə vergi güzəştləri tətbiq olunur və onların hər birinin məqsədli təyinatı müvafiq vergi növünün xüsusiyyətindən asılıdır.

Təyinatına görə iki əsas vergi güzəştləri növü fərqləndirilir:

1.İstehsal və sahibkarlıq fəaliyyətinin ümumi stimullaşdırılmasına yönəldilən vergi güzəştləri - mənfəət vergisinə tətbiq olunur.

2. Müəyyən sosial məsələlərin həllinə yönəldilmiş vergi güzəştləri- əhali tərəfindən ödənilən birbaşa və dolayı vergilərə şamil olunur.

## Pandemiyanın ölkələrin iqtisadi artımına təsiri

2019-cu ilin dekabr ayında Cin Xalq Respublikasında qeydə alınan "COVID 19" infeksiyası nəticəsində bütün dünyada pandemiya elan olundu. 2020-ci il dünya iqtisadiyyatı üçün sosial-iqtisadi cəhətdən kifayət qədər mürəkkəb bir il olmuşdur. Asiya İnkişaf Bankı korona virusunun (COVID 19) dünya iqtisadiyyatına 4,1 trilyon dollar zərərə uğradacağını bildirib. Belə ki, Asiya İnkişaf Bankı "Outlook 2020" hesabatında bildirilir: "Covid-19" virusunun iqtisadi təsiri yeniləndi: virusun dünya iqtisadiyyatına vurduğu ziyan, uzun iqtisadi fəaliyyətlərin dayandırılması, ilkin proqnozlara görə, Avropa, Amerika Birləşmiş Ştatları və bir sıra böyük iqtisadiyyatları olan ölkələrə ümumilikdə 4,1 trilyon dollara başa gələ bilər. Ümumdaxili məhsul da qlobal səviyyədə 4,8 faiz azalıb" [5].

Pandemiya bütün dünya ölkələrində iqtisadi artıma mənfi təsir göstərmiş və ölkəmiz xarici mənşəli şoklara məruz qalmış, nəticədə ölkə iqtisadiyyatı mənfi fəsadlarla üzləşmişdir. Həmin mənfi təsirlərin azaldılması üçün 2020-ci ildə dövlət tərəfindən xüsusi olaraq vəsaitlər ayrılmışdır. 2020-ci ildə dövlət büdcəsindən ayrılmış vəsaitlərlə yanaşı, müəyyən dövlət fondlarından, digər büdcədənkənar imkanlardan, özəl sektordan və maliyyə-bank sektorundan vəsaitlərin səfərbər edilməsi proqramı həyata keçirilmişdir. Azərbaycanda COVID-lə

mübarizəyə birbaşa olaraq 644 milyon manata qədər vəsait sərf olunmuşdur. Xərclənən vəsait virusla mübarəzəylə bərabər iqtisadiyyata da sərf olunmuşdur. Baxmayaraq ki, 2020-ci il bütün ölkələr üçün iqtisadi sahədə ağır il olub, amma Azərbaycan digər ölkələrə nisbətən bu vəziyyətdən daha az itkilərlə çıxıb. Ölkə iqtisadiyyatı təqribən 4,2% azalıb. Dünya dövlətlərinə nisbətən bu, yaxşı göstəricidir. Qeyri-neft sənayesində 11%-dən çox artım əldə olmuşdur [3].

Vergi siyasəti və vergitutmada bütün dövlətlər, o cümlədən Azərbaycan da vergi güzəştlərinin tətbiq edilməsini labüd hesab etdi və buna gedildi. Markoiqtisadi sabitliyin tənzimlənməsi və məşgullugun təmin edilməsi üçün geniş əhəmiyyətli dövlət tərəfindən dəstək proqramı işlənib hazırlandı. Bu dəstək proqramı əmək haqqının ödənilməsi, sahibkarlara maliyyə yardımlarının edilməsi, banklarda güzəştkı vergilərə zəmanətlərin verilməsi ilə yanaşı vergi güzəştləri də nəzərdə tutulmuşdur. Vergi Məccəlləsinə 04.04.2020 ~ 16.01.2021 dövrü əhatə edəcək "Koronavirus pandemiyasının yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi" (XVIII) fəslini əlavə etdı. XVIII fəsil 4 maddədən ibarət olmaqla vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması ilə bağlı ümumi müddəaları, hesabatların verilməsi və cari vergi ödəmələri, azadolmalar və güzəştlər, sadələşdirilmiş verginin tətbiqi kimi məsələləri həll edir.

Qəbul edilmiş müvəqqəti rejimə görə aşagıda nəzərdə tutulan fəaliyyəti həyata keçirən vergi ödəyicilərinin, habelə sadələşdirilmiş verginin ödəyicisi olan mikro sahibkarlıq subyektlərinin apardıqları əməliyyatlara tətbiq edilən vergi dərəcələrini, vergi güzəştlərini və azadolmaları, vergilərin ödənilməsi müddətlərini, vergi rejiminin seçilməsi ilə bağlı məsələləri tənzimləyir:

~avtomobil nəqliyyatı vasitələri ilə ölkədaxili (şəhərlərarası və rayonlararası, şəhərdaxili və rayondaxili) sərnişin daşımaları (o cümlədən taksi ilə) fəaliyyəti;

~yerləşmə vasitələri hesab edilən mehmanxana (hotel) və mehmanxana tipli digər obyektlərin fəaliyyəti;

~turoperator və turagent fəaliyyəti;

~sifarişlər üzrə malların, o cümlədən yeməklərin, ərzaq və qeyri-ərzaq mallarının satıcılardan alıcılara daşınması və (və ya) çatdırılması fəaliyyəti;

~ictimai iaşə fəaliyyəti;

~sərgilərin təşkili, səhnə, istirahət və əyləncə (oyun), kinoteatr, teatr, muzey və konsert zallarının fəaliyyəti;

~idman-sağlamlıq obyektlərinin fəaliyyəti;

~hazırlıq (tədris) və ixtisasartırma kurslarının, məktəbdənkənar təhsil müəssisələrinin, psixoloji mərkəzlərinin fəaliyyəti.

Bundan əlavə yuxarıda göstərilən fəaliyyəti həyata keçirən şəxslərə, o cümlədən əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən şəxslərə bu cari vergi ödəmələri üzrə hesablamaların və cari vergi ödəmələri ilə bağlı arayışların vergi orqanına təqdim edilməsinə dair müddəalar tətbiq edilmir.

Müvəqqəti vergi rejiminin tətbiq edildiyi mikro sahibkarlıq subyekti olmayan vergi ödəyiciləri əvvəlki il üzrə mənfəət (gəlir) və əmlak vergisi hesabatlarını müvafiq olaraq hesablanmış vergini cari ilin sentyabrın 1-dən gec olmayaraq ödəyirlər. Halbuki dəyişiklikdən əvvəl bu əməliyyatlar cari ilin mart ayının 31-dən gec olmayaraq vergi orqanına verilirdi.

"Pandemiyanın yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimi"ndə azadolmalar və güzəştlər nəzərdə tutulmuşdur (cədvəl 1).

Koronavirus Pandemiyasının təsirinə məruz qalan sahələrdə fəaliyyət göstərən vergi ödəyicilərinə vergituma metodundan asılı olaraq verilən güzəştlərə nəzər saldıqda görürük ki, a) mənfəət vergisi rejimində fəaliyyət göstərən ödəyicilərə mənfəətin 75%-i miqdarında vergi güzəşti verilir. (20% mənfəətin 75%-i); b) vergi ödəyicisi tərəfindən həyata keçirilən zəruri profilaktik xərclər, o cümlədən dizenfeksiya tədbirlərinə görə çəkilmiş xərclər məhdudiyyət

nəzərə alınmadan gəlirgən çıxılacaq; ç) vergi ödəyiciləri 1 il müddətində cari vergi ödəmələrindən və bununla baglı arayişlarin verilməsindən azad edilir; c) müvəqqəti vergi rejimi

**Cədvəl 1**

**Sadələşdirilmiş vergi əvvəl və pandemiya dövründə**

| Daşınma növü | Sadələşdirilmiş verginin tətbiq edildiyi ölçü vahidi | Pandemiyadan əvvəl sadələşdirilmiş verginin aylıq məbləği (manatla) | Pandemiya zamanı sadələşdirilmiş verginin aylıq məbləği (manatla |
|---|---|---|---|
| Sərnişin daşınması (taksi istisna olmaqla), oturacaq yerlərinin sayına görə: | 1 oturacaq yeri üçün | 1,8 | 1,4 |
| Taksi ilə sərnişin daşınması | 1 ədəd nəqliyyat vasitəsi üçün | 9,0 | 4,5 |
| Yük daşınması | yükgötürmə qabiliyyəti üçün (hər tona) | 1,0 | 0,5 |
| İctimai iaşə | | 8% | 4% |

Mənbə: [1] əsasında müəllif tərtib etmişdir

müddətində hava nəqliyyatı daşıyıcılarının sərnişindaşıma fəaliyyətində istifadə etdiyi hava gəmiləri əmlak vergisindən azad edilir; d) pandemiyadan zərərçəkmiş fiziki şəxslərdən tutulan daşınmaz əmlakın icarəsi üzrə ödəmə mənbəyində vergi dərəcəsi 50 faiz azaldılaraq, 14 faizdən 7 faizə endirilir; e) ödənilməmiş vergi, DSMF və işsizlikdən sığorta məbləğləri üzrə hasablanmalı faizlər 1 aprel 2020 tarixindən 2021-ci ilin 1 yanvar tarixinədək təxirə salınır; ə)ictimai iaşə fəaliyyəti üzrə alınmış ərzaq və hazırlanmış qida məhsullarının xarab olması 2021-ci il yanvarın 1-dək vergi tutulan əməliyyat sayılmır; n)əmlak və torpaq vergiləri üzrə tam məbləğdə; f) ictimai iaşə fəaliyyəti ilə məşğul olan və ƏDV ödəyicisi olan şəxslərin 2020-ci il üzrə sadələşdirilmiş vergi metodunu seçmək hüququ 2020-ci il sentyabrın 1-dək uzadılır.

Burada qeyd etmək lazımdır ki, nəzərdə tutulmuş vergi güzəşti həmin fəaliyyəti həyata keçirən şəxslərə malların daşınmasını və ya çatdırılmasını sifariş etmiş satıcıların əldə edilən gəlirlərinə tətbiq edilmir. Müvəqqəti vergi rejimi müddətində əhalinin sağlamlığının və zəruri ərzaq məhsulları ilə ehtiyaclarının təmin edilməsi məqsədilə siyahısı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilən məhsul (mal) növlərinin idxalı ƏDV-dən azad edilir. ƏDV qeydiyyatında olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər cari ilin sentyabrın 1-dən gec olmayaraq, sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququndan istifadə edəcəyi barədə yazılı məlumatı qeydiyyatda olduğu vergi orqanına təqdim edir. Bu zaman vergi ödəyicisi ərizə ilə müraciət etdiyi tarixdən etibarən sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərir və təqdim edilən mallara (işlərə, xidmətlərə) müvəqqəti vergi rejiminin müddəaları tətbiq edilir.

Pandemiyanın təsir etdiyi sahələrdən biri də daşınmaz əmlaka sahib olan fiziki şəxslərdir. Belə ki, Vergi Məcəlləsinə görə fiziki şəxslərdən daşınmaz əmlakın icarəsi üzrə əvvəl 14% vergi

tutulurdusa, pandemiya dövründə ödəmə mənbəyindən tutulan verginin dərəcəsi iki dəfə azaldılaraq 7% civarında müəyyən edilmişdir.

Bütün bunlarla bərabər kənd təsərrüfatında çalışanların sosial yükü də differensiallaşdırılmışdır (cədvəl 2).

**Cədvəl 2**

**Kənd təsərrüfatında çalışanların sosial yükünün differensiallaşdırılması**

| Fiziki şəxslərin kənd təssərüfatına yararlı torpaq sahəsi | Hər bir əmək qabiliyyətli ailə üzvünə görə | |
|---|---|---|
| | Pandemiyadan əvvəl | Pandemiya zamanı |
| < 5 ha | Minimum əmək haqqının 6%-i | Minimum əmək haqqının 2%-i |
| 5-10 ha | Minimum əmək haqqının 6%-i | Minimum əmək haqqının 6%-i |
| >10 ha | Minimum əmək haqqının 6%-i | Minimum əmək haqqının 10%-i |

Mənbə:[5] əsasında müəllif tərtib etmişdir

Hər bir əmək qabiliyyətli ailə üzvünə görə fiziki şəxslərin kənd təsərrüfatına yararlı torpaq sahəsinə uygun olaraq sosial yük differensiallaşdırılmış, torpaq mülkiyyətşilərinin sosial sığorta hesabatının verilməsi sabit qəbzlərlə əvəzləşdirilmişdir. Kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası 2020-ci ildə də davam etmiş və bu sahədə üzrə 2 % (bitkiçilikdə 1 faiz və heyvandarlıq üzrə 2,9 faiz) artım qeydə alınmışdır. Pandemiya dövründə aqrar sektorun fəaliyyəti mövcud çağırışlara uyğun qurularaq kənd təsərrüfatı məhsullarının fasiləsiz istehsalı təmin edilmiş, taxıl üzrə məhsuldarlıq ölkə üzrə 31,2 sentner təşkil etmişdir. Xüsusilə suvarma problemi yaşanmayan əksər regionlarda məhsuldarlıq 40 sentneri ötmüş, pilot təsərrüfatlarda isə taxıl üzrə məhsuldarlıq 60 sentnerə qədər çatmışdır. Ötən ilin müvafiq dövrü ilə müqayisədə 2,5 faiz çox tərəvəz, 4,2 faiz çox meyvə və giləmeyvə, 15 faiz çox tütün, 2,1 faiz çox kartof istehsal edilmişdir. Heyvandarlıq sahəsində də müsbət dinamika saxlanılıb və ət istehsalında ilkin nəticələrə görə 3,1 faiz artım, süd istehsalında isə 1,7 faiz artım əldə olunmuşdur [2].

Qeyd etmək yerinə düşər ki, 2020-ci ildə Dövlət Vergi Xidmətinin xətti ilə vergi daxilolmaları 7,4 milyard manat təşkil etmişdir. Vergi daxilolmaları üzrə illik proqnoz 102,7 faiz, o cümldən, qeyri neft-qaz sektoru üzrə 103,9 faiz icra olunmuşdur. Ümumi daxili məhsul həcminin azalması şəraitində daxilolmaların ÜDM-də xüsusi çəkisi artmış və 10,2 faiz təşkil etmişdir. Dünya bazarında neftin qiymətinin aşagı düşməsi ilə əlaqədar neft-qaz sektoru üzrə daxilolmalarda 20,6 faiz azalma qeydə alınmış, azalma qeyri-neft qaz sektorundan daxilolmalar hesabına kompensasiya olunmuşdur. Bu sektordan daxilomalar 3,3 faiz artaraq 5,6 milyard manat təşkil etmiş, 2020-ci ildə qeyri neft-qaz sektoru üzrə daxilolmaların xüsusi çəkisi 2019-cu ilə nəzərən 5,1 faizdən76 faizə çatmışdır. Qeyri neft-qaz sektoru üzrə vergi daxilolmalarının dövlət büdcəsinin qeyri-neft gəlirlərində xüsusi çəkisi qismən artaraq 2020-ci ildə 52,6 faizə yüksəlmişdir. 2020-ci il ərzində aktiv vergi ödəyicilərinin sayı 24 faizdən çox artaraq 616 mini ötmüş, aktiv ƏDV ödəyicilərinin sayında 17 faizdən çox artım olmuşdur. Aktiv obyektlərin sayı isə 9 faizdən çox artaraq 167 mini ötmüşdür [6]. Sosial-iqtisadi problemlərin tənzimlənməsində vergi siyasəti təsirli bir alət olub vergi güzəştlərinin edilməsi sosial baxımdan haqlı və zəruri bir addımdır. Burada mübahisəli məqam onun əhatə dairəsi və miqyasıdır. İqtisadçılar vergi

güzəştlərinin əhatə dairəsinin genişləndirməsini sahibkarlıq fəaliyyətinin inkişafına və sosial problemlərin həll olunmasına gətirib çıxaracağı fikri ilə tam razılaşırlar [4, s. 32].

**Nəticə**

Pandemiyanın yayılması nəticəsində iqtisadi şəraitin əhəmiyyətli şəkildə dəyişməsi ilə əlaqədar tətbiq edilən müvəqqəti vergi rejimində azadolmalar və güzəştlər nəzərdə tutulmuşdur ki, bu da mikrosahibkarlıq fəaliyyətinə dəstək verən əhəmiyyətli iqtisadi fəalyyət mexanizmidir. Bu dəstək müvəqqəti vergi rejimində vergi ödəyiciləri ilə yanaşı vergi orqanlarının da işini əhəmiyyətli dərəsədə asanlaşdırmışdır.

**İstifadə edilmiş ədəbiyyat**

1. Azərbaycan Respublikasının Vergi Məcəlləsi səh. 4, maddə 11, 2000
2. 2020-ci ilin yekunlarına həsr olunmuş videoformatda müşavirənin materialları. https://president.az/articles/49933
3. “Postpandemiya dövründə vergi sistemi” ilə bağlı keçirilən konfransın materialları. https://oxu.az/economy/466784https://oxu.az/economy/466784
4. Лазуриной О.М. "Налоги и налогообложение”. Учебное пособие. Ярославль.
5. https://www.trt.net.tr/azerbaycan/iqtisadiyyat/2020/04/04/covid-19-un-dunya-iqtisadiyyatina-vuracagi-z-r-r-1390850
6. https://oxu.az/economy/466784

**Андрей Карпенко, д.э.н.**
**Елена Васильева, доц.**
Национальный университет «Запорожская политехника», Украина
*andreykarpenko@ukr.net*

## SMART-СПЕЦИАЛИЗАЦИЯ ТЕРРИТОРИЙ КАК ИНСТРУМЕНТ РАЗВИТИЯ ТРУДОВОГО ПОТЕНЦИЛА

**Ключевые слова:** децентрализация, развитие территорий, инфраструктура, трудовой потенциал, smart-специализация территорий

### Введение

Процессы децентрализации, происходящие сейчас в Украине, направлены на развитие территорий, их инфраструктуры и громад для обеспечения устойчивого развития. Основой эффективного процесса децентрализации является создание способных территориальных громад, ориентированное на повышение качества жизни населения, на диверсификацию деятельности всех субъектов хозяйствования соответствующих территорий. Поэтому изучение влияния административно-территориальной реформы и smart-специализации как ее результата на современное развитие территорий и их трудового потенциала является своевременным и актуальным. Целью статьи является изучение особенностей, рисков и перспектив децентрализации как одного из институциональных факторов современного развития территорий и их трудового потенциала.

### Материал и методы

Вопросы децентрализации власти как институционального фактора системной трансформации экономики, внедрения новой системы административно-территориального устройства, анализа европейского опыта и определения приоритетных направлений smart-специализации изучались на основе монографий и научных статей, а также материалов конференций, периодических изданий, собственных результатов исследований. В работе использовались абстрактно-логический и системно-функциональный методы, которые позволили обосновать приоритеты современного развития территорий и их трудового потенциала.

### Результаты и их обсуждение

Исследование процессов рационального административно-территориального деления занимает важное место среди научных взглядов по решению проблем социально-экономического развития национальных экономик. Особая актуальность обусловливается повышенной ролью регионов в общеэкономическом развитии ведущих стран мира, а также реализацией в отечественной практике процессов децентрализации. Мировая практика доказывает, что именно повышение уровня консолидации всех участников региональной экосистемы в решении проблем территориального развития, оптимальном использовании всех ресурсов и реализации принципов smart-специализации способствуют развитию трудового потенциала.

Поскольку современное территориальное устройство Украины основывается на принципах единства и целостности государственной территории, сочетании централизации и децентрализации в осуществлении государственной власти, сбалансированности и социально-экономического развития регионов, с учетом их исторических, экономических, экологических, географических и демографических особенностей, этнических и культурных традиций, то целесообразно способствовать уменьшению дисбалансов в территориальном развитии, оптимальному использованию

ресурсов, реализации принципов умной специализации. В результате децентрализации власти «должно произойти повышение качества жизни человека за счет создания условий для устойчивого развития территориальных громад как самостоятельных и дееспособных социальных сообществ, члены которых будут иметь возможность эффективно защищать свои права и интересы путем участия в решении вопросов местного значения именно для обеспечения необходимым количеством и качеством социальных и административных услуг» [1, с.12]. Решение указанных задач будет способствовать формированию smart-специализации регионов и развитию их трудового потенциала.

В соответствии с действующими в Украине нормативно-правовыми актами и последствиями реформы децентрализации определено, что административно-территориальное устройство страны закрепляет виды территориального пространства, обладающих общностью экономических, социальных, природных, культурных условий и представлено в форме областей и регионов. Однако, несмотря на длительность реформ (децентрализации-с 2014 г. и smart-специализации-с 2016 г.) в Украине остаются нерешенными ряд проблем: значительная территориальная асимметрия по показателям качества жизни населения и рост диспропорций по основным показателям, увеличение количества периферийных территорий, отсутствие достаточного количества финансово-экономических ресурсов для собственного развития (самообеспечение) территориальных громад, неразвитость локальной инфраструктуры, низкий уровень транспортной доступности в пределах региона, затрудненность доступа населения к публичным услугам на местном и региональном уровне, низкая инновационная активность и соответственно ограниченность в развитии трудового потенциала.

Мировая практика реформирования административно-территориального устройства как неотъемлемая составляющая реформы территориальной организации власти на основе децентрализации свидетельствует о положительных эффектах этого процесса: создание оптимальной системы административно-территориального устройства, эффективного местного самоуправления, совершенствования местной инфраструктуры.

В целом же невозможно дать однозначную оценку той или иной модели местного самоуправления и определить перспективы ее имплементации в Украине в соответствии с существующими особенностями социально-экономической и политической среды. Европейский опыт развитых стран по административно-территориальным реформам демонстрирует приоритетную роль местного самоуправления (территориальной децентрализации) в системе публичной власти, а основной предпосылкой успешного развития громад является объединение территорий и ресурсов.

Современное территориальное развитие на базе громад рассматривается как модель, в которой изменение рычагов развития территорий избирается, планируется, реализуется и контролируется непосредственно громадами. Возникает возможность создания новых условий развития трудового потенциала на основе совершенствования и развития инфраструктуры, стимулирования предпринимательских инициатив и более эффективного использования имеющихся ресурсов. Территориальная децентрализация осуществляется в соответствии с ее компонентной структурой через определенные формы и методы, предусматривает создание таких органов местного самоуправления, которые самостоятельно и независимо от органов государственной власти управляют административно-территориальными единицами.

С целью усовершенствования системы территориальной организации власти и внедрения структурных реформ в 2014 г. Кабинетом Министров Украины одобрена Концепция реформирования местного самоуправления и территориальной организации власти в Украине, в контексте которой были приняты соответствующие нормативно-правовые акты о сотрудничестве территориальных громад, о добровольном объединении территориальных громад, о внесении ряда изменений в Бюджетный и Налоговый кодексы Украины, Закон Украины «О местном самоуправлении», утверждена Методика формирования способных территориальных громад.

Процесс децентрализации в Украине характеризуется двумя этапами [2]:

-первый (2014-2019 гг.)-сформирован и действует основной пакет нового законодательства, внедряются первоочередные законодательные инициативы (Законы о внесении изменений в Бюджетный и Налоговый кодексы Украины-состоялась финансовая децентрализация (местные бюджеты выросли на 206 400 000 000 грн: с 68600000000 в 2014 г. до 275 млрд. грн в 2019 г.); Закон «О добровольном объединении территориальных громад»-позволил начать формирование способного базового уровня местного самоуправления (за 2015-2019 гг. в Украине добровольно создано 982 объединенные территориальные громады (ОТГ), в состав этих ОТГ вошли около 4500 бывших местных советов (с почти 12 000), такие темпы межмуниципальной консолидации международные эксперты назвали очень высокими; Закон также ввел институт старост в ОТГ, которые представляют интересы сельских жителей в совете общины).

-второй (2020-2021 гг.)-Кабинет Министров Украины определил поддержку реформы децентрализации в Украине одной из приоритетных задач, что будет способствовать развитию местного самоуправления и экономического развития страны в целом; 2020 г. стал ключевым в вопросе формирования базового уровня местного самоуправления (Правительство утвердило новое административно-территориальное устройство базового уровня; в соответствии с распоряжениями Кабинета Министров, в Украине сформировано 1469 территориальных громад, которые будут покрывать всю территорию страны).

Реформирование началось с базового уровня административно-территориального устройства-добровольного процесса территориального объединения громад, которое является основой для радикальных изменений территорий, в частности коренной перестройки отношений между центральными региональными и местными органами власти. Новые громады создают определенные правовые, экономические, социальные и психологические условия для жителей территорий и совместно с местными органами власти и бизнесом должны адаптироваться к рыночным требованиям.

Соответственно за пять лет более чем в 40 раз выросла государственная поддержка местного и регионального развития, на 2019 г. была предусмотрена субвенция на строительство, реконструкцию, ремонт и содержание дорог общего пользования местного значения, поддержка по трем государственными программам (Государственный фонд регионального развития (ДФРР), субвенция ОТГ, субвенция на сельскую медицину).

Основой экономической независимости отдельных территорий является принцип финансовой самостоятельности. Довольно длительное время в Украине существовала модель межбюджетных отношений, которая предусматривала сбалансирование бюджетов неплатежеспособных регионов и громад прибыльными, что лишало их стимулов экономического развития. В основе нового порядка межбюджетных правоотношений определено: бюджетная автономия и финансовая самостоятельность; формирование институциональной и финансовой способности территориальных громад; расширение доходной базы местных бюджетов; закрепление или увеличение доли стабильных налоговых платежей и сборов за местными бюджетами; децентрализация расходных полномочий; новые виды межбюджетных трансфертов; замена системы бюджетного выравнивания местных бюджетов по расходам на систему выравнивания по доходам. Бюджетная децентрализация имеет ряд преимуществ (сохранение макроэкономической стабильности, обеспечение инвестиционной активности, рациональное использование бюджетных средств, формирование эффективных каналов коммуникаций, снижение коррупции, финансовая независимость органов местного самоуправления, стимулирование к наращиванию бюджетного потенциала, развитие трудового потенциала и инновационных процессов) и является весомой составляющей бюджетной политики.

Бюджеты ОТГ имеют прямые межбюджетные отношения с государственным бюджетом в форме: базовой дотации; реверсной дотации; образовательной субвенции; медицинской субвенции; субвенции на формирование инфраструктуры ОТГ; субвенции

на осуществление мероприятий по социально-экономическому развитию отдельных территорий; других субвенций и дотаций, если есть основания для предоставления и получения соответствующих межбюджетных трансфертов; средств Государственного фонда регионального развития [3, с.182]. Темпы роста собственных доходов местных бюджетов показывают положительную динамику финансовой децентрализации: за последние три года более чем вдвое выросли доходы общего фонда местных бюджетов на одного жителя (собственные доходы, НДФЛ, местные налоги и сборы). Преимуществами бюджетной децентрализации является необходимость оптимизации доходных источников, совершенствование налогового администрирования, рационализация расходной части бюджета, что приводит к минимизации бюджетного дефицита [4, с.91]. Резервами формирования доходной части местных бюджетов могут выступать: детенизация экономики на уровне местных производителей, организация новых рабочих мест, привлечение финансовых инвестиций. Финансовая децентрализация выступает инструментом регулирования регионального развития, способствует укреплению экономического потенциала территорий, создает дополнительные условия для развития трудового потенциала.

Практическая трансформация административно-территориальных единиц базового уровня вызвала необходимость дальнейшего реформирования органов местного самоуправления, территориальной организации власти и административно-территориального устройства и на субрегиональном уровне-укрупнение существующих районов. Так, согласно Закону Украины «О добровольном объединении территориальных громад», объединенная территориальная громада получает прямые межбюджетные отношения в случае признания ее способной. В этих условиях объединенные территориальные громады создают свои исполнительные структуры для осуществления полномочий, определенных законом. В подавляющем большинстве это полномочия, осуществляемые соответственно районными госадминистрацией и советом. Поэтому в исполнительном органе районного совета – районной государственной администрации – сохраняются структуры, обеспечивающие реализацию определенных законом полномочий и для таких территориальных громад. При этом нагрузка на работников таких структур является очень низкой. Таким образом, наблюдается нерациональное использование как кадровых, так и финансовых ресурсов [5]. Поэтому сегодня одной из основных задач децентрализации является формирование нового районного деления, моделирование административно-территориального устройства субрегионального уровня в соответствии с европейскими критериями. В перспективе будет сформировано 102-140 районов с учетом как социально-экономических показателей, так и региональных особенностей.

Реформирование административно-территориального устройства субрегионального уровня, которое интенсивно идет к завершению, позволит решить проблемы распределения полномочий между органами исполнительной власти и органами местного самоуправления в соответствии с сущностью правового, демократического государства и гражданского общества, даст возможность достичь баланса интересов в системе отношений «государство-регион-территориальная громада». Соответственно возникнут реальные предпосылки реализации smart-специализации, которая призвана диверсифицировать структуру региональной экономики за счет освоения новых профильных направлений, а значит, стимулировать экономический рост и создание рабочих мест в регионе. Основой для этого является сотрудничество местных органов власти, науки, бизнеса и гражданского общества по принципу «снизу вверх». Smart-специализация предусматривает отказ от принципа резкого разделения труда между производителями и пользователями знаний, воспринимается как инструмент для активизации трансформационных процессов с использованием стратегического видения на основе выявления слабых и сильных сторон.

Smart-специализация базируется на партнерстве между представителями бизнеса, власти, научно-технических учреждений и общественности. Особенность этой политики заключается в том, что власть побуждает и стимулирует предпринимателей, ученых и разработчиков лучше сотрудничать с предприятиями для раскрытия основных направлений и (или) секторов специализации региона [6]. Основным принципом smart-специализации является фокусирование знаний и их сочетания с ограниченным количеством возможных для использования видов экономической деятельности, чтобы страны и их регионы могли быть конкурентоспособными в мировой экономике. Подобный подход позволяет регионам получать новые знания, опыт для дальнейшего использования в управленческой деятельности, является важным фактором производительности. Иными словами, smart-специализация является интегрированной, локальной программой преобразований на основе исследований и внедрения инноваций, которая направлена на: государственную поддержку и инвестиции в основные местные проекты, для реализации в региональных локальных наукоемких производствах для решения проблем и удовлетворения потребностей, включая меры, связанные с информационно-коммуникационными технологиями; поддержку развития инноваций путем увеличения инвестиций в бизнес-среду; поощрение стейкхолдеров быть активными участниками в развитии регионов.

Учитывая то, что smart-специализация является конструктивной, последовательной и включает в себя детальный мониторинг и систему оценки, самоанализ также является неотъемлемой частью такого подхода.

Таким образом, концепция smart-специализации способствует эффективному синергетическому использованию правительственных инвестиций, поддерживает страны и регионы в создании их инновационного и экономического потенциала учитывая ограниченность ресурсов и недостаточную конкурентоспособность. Процесс предпринимательского открытия-это процесс выявления сильных сторон страны или региона в рамках научно-исследовательской, технологической и инновационной сферы, поскольку именно участники предпринимательской деятельности имеют в полной мере знания и информацию о тонкостях процесса производства. Предпринимательские знания выходят за рамки науки и технологий, ведь это скорее сочетание технологически емких сфер с новыми и нужными знаниями о рынке, его потенциале, конкурентах и сочетание факторов и услуг, необходимых для внедрения нового направления предпринимательской деятельности. Такой синтез, интеграция и преодоление разрыва (нецельности) знаний должны создать совместный взгляд на развитие уже существующих или новых секторов экономики.

**Выводы**

Децентрализация власти как институциональный фактор реализации концептуальных положений устойчивого развития имеет положительное влияние на диверсификацию современного развития территорий, повышение качества жизни и благосостояния населения путем гармонизации социально-экономического развития территорий и оптимизации межбюджетных отношений, развитие трудового потенциала. Перспективы дальнейших исследований заключаются в системном мониторинге положительных и отрицательных эффектов децентрализации с целью предотвращения рисков и угроз для территорий и их трудового потенциала, которые могут возникать в ходе административно-территориальной реформы; а также в углублении методологии укрепления способности громад, поиска действенных инструментов содействия устойчивому развитию.

Знания, как главный элемент smart-специализации, сегодня требует значительного разъяснения и максимальной поддержки у местных органов власти с целью развития территорий и их трудового потенциала. Smart-специализация основывается на взаимной помощи и сотрудничестве преимущественно предприятий малого и среднего бизнеса,

исследовательских центров, университетов и местных органов власти и не обязательно учитывает все направления деятельности региона, а именно те отрасли, которые в будущем будут наиболее перспективными. Синергия местных органов власти, науки, бизнеса и гражданского общества способна обеспечить оптимальное использование имеющихся ресурсов территорий и создание инновационных продуктов, услуг или технологий

**Список использованных литератур:**

1. Бовсунівська І. В. Децентралізація влади в Україні як головний фактор сталого розвитку об’єднаних територіальних громад. *Вчені записки Таврійського національного університету імені В. І. Вернадського. Серія : Економіка і управління*. 2018. Т. 29(68), № 6. С. 11-15.

2. Офіційний державний сайт України «Децентралізація». URL: https:// decentralization.gov.ua.

3. Горошкова Л. А., Волков В. П., Хлобистов Є. В., Кутик В. В. Прогностичні моделі фінансового регулювання бюджетів територіальних громад. *Економічний вісник університету*. 2019. Вип. 42. С. 179-190.

4. Двігун А. О. Пріоритетні напрями розвитку децентралізації влади. *Менеджмент та підприємництво: тренди розвитку*. 2018. Вип. 4. С. 84-94.

5. Трипольська М. І., Арабаджиєв Д. Ю., Васильєва О. О. Аналітичний звіт за результатами реалізації проекту «Модель реформування адміністративно-територіального устрою та організації управління на районному рівні Дніпропетровської та Запорізької областей». ГО «Незалежний центр правових досліджень та ініціатив». Запоріжжя, 2019. URL: https://uplan.org.ua/analytics/analitychnyi-zvit-ho-nezalezhnyi-tsentr-pravovykh-doslidzhen-ta-initsiatyv/.

6. Karpenko A., Doronina O., Karpenko N. Smart Specialization and Cluster Interaction in the System of Strategic Management of the Regional Economy’s Innovative Development. *Stages of Formation and Development of the Economy of Independent Ukraine*: Collective monograph [Ed. by Doctor of Economics Sciences, Prof. Yu. Pasichnyk ]. Verlag SWG imex GmbH, Nuremberg, Germany. 2021. P. 233-245.

**Andrey Karpenko**
**Elena Vasilyeva**

## ƏRAZİLƏRİN SMART-İXTİSASLAŞMASI ƏMƏK POTENTSİYALININ İNKİŞAF VASİTƏSİ KİMİ

### Xülasə

Məqalədə davamlı inkişafın konseptual müddəalarının həyata keçirilməsinin institusional amili kimi hakimiyyətin qeyri-mərkəzsizləşməsi ərazilərin müasir inkişafının diversifikasiyasına, sosial-iqtisadi inkişafın uyğunlaşdırılması yolu ilə əhalinin həyat keyfiyyətinin və rifahının yüksəldilməsinə müsbət təsir göstərməsi məsələləri əharə edilir. Tədqiqat zamanı inzibati-ərazi islahatı zamanı meydana gələ biləcək ərazilər və onların əmək potensialı üçün risk və təhlükələrin qarşısının alınması məqsədilə qeyri-mərkəzləşmənin müsbət və mənfi təsirlərini əhatə edən sistemli monitorinqdən istifadə edilmişdir.Qeyd edilir ki, smart-ixtisaslaşmanın əsas elementi kimi biliklər bu gün ərazilərin və onların əmək potensialının inkişafı məqsədilə yerli hakimiyyət orqanlarında əhəmiyyətli izahatlar və maksimum dəstək tələb edir, həmçinin smart-ixtisaslaşma əsasən kiçik və orta biznes müəssisələrinin, tədqiqat mərkəzlərinin, universitetlərin və yerli hakimiyyət orqanlarının qarşılıqlı yardım və əməkdaşlığına əsaslanır və regionun fəaliyyətinin bütün istiqamətlərini mütləq nəzərə almır.

**Açar sözlər:** qeyri-mərkəzləşmə, ərazilərin inkişafı, infrastruktur, əmək potensialı, ərazilərin smart- ixtisaslaşması

**Firanə Məmmədova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademıyası, riy.ü.f.d.
*firanam.@mail.ru*

# İQTİSADİ RİYAZİ MODELLƏRİN İQTİSADİYYATIN İNKİŞAFINDA ƏHƏMİYYƏTİ

**Açar sözlər:** model,riyazi model, məqsəd, qurulma mərhələləri, model və obyektin analogiyası, tətbiq istiqamətləri

## Giriş

İqtisadiyyatın fəaliyyəti üçün əlamətdar cəhət informasiya azlığı və ilkin verilənlərin tam olmaması şəraitində düzgün qərar qəbul etməkdir ki, müasir elm sahələrinin üsulları ilə tanış olmadan bu işin öhdəsindən gəlmək mümkün deyil. Bu zaman analiz edilən iqtisadi proses və hadisələrin ətraflı, tam öyrənilməsi üçün müxtəlif elm sahələrinin araşdırmalarının vəhdəti və tətbiqi vacib amillərdən biridir [1]. Bu vəhdətdən istifadə etməklə, obyekt və hadisələri araşdırmaqla mövcud vəziyyəti qiymətləndirmək iqtisadi-riyazi modellərin başlıca xüsusiyyətlərindən biridir.

Lakin elə elm sahələri var ki, bu sahələrdə real obyektlərlə eksperiment aparmaq mümkün olmur. Belə elm sahələrinə astronomiyanı, təbabəti, iqtisadiyyatı misal göstərmək olar. Odur ki, obyektiv reallığı dərk etmək üçün başqa bir vasitədən-modellərdən istifadə etmək zərurəti meydana çıxır. Yəni eksperimentlər real obyektlər səviyyəsində deyil, onların sadələşdirilmiş proobrazları olan modellər səviyyəsində aparılır.

## Model anlayışı və onun yaranmasına təsir edən göstəricilər

Model anlayışını insan həyatının bütün sahələri üçün nümunə gətirmək olar. 2019-cu ildə Çinin Vuhan şəhərində meydana çıxan “tacşəkilli virus” haqqında hamımız müəyyən məlumata sahibik. Başqa adı “COVID 19 “ olan bu virusun iqtisadiyyata etdiyi təsir nəticələrini araşdıraq. Milyonlarla insanın fiziki və psixi varlığına təsir edən COVİD-19 pandemiyası ilə dünya ölkələrində irimiqyaslı təcridetmə prosesləri başladı. Təcridetmə tədbirləri vasitəsilə gündəlik baş verən ölüm sayını, xəstəxanalarda yerləşdirməni minimuma endirməklə yanaşı pandemiyanın iqtisadi məhsullara təsirini qiymətləndirmək üçün, məhdudlaşdırıcı tədbirlərin təsirlərini özündə birləşdirən və əhalinin sağlamlıq riskini, iqtisadi zəifliyin başlamasını gecikdirmək üçün bir çox dünya ölkələrində riyazi model hazırlamaq planları meydana gəldi. Məlumdur ki, belə model zamandan asılı model olaraq formalaşmalı və bu modeldə virusun yayılma sürəti hesablanmalıdır.

Modellərin yaranmasında əhalinin sıxlığı, həyat tərzi, coğrafi mövqeyi və zamanın rolu əhəmiyyətli dərəcədə təsirə malikdir. Bu amillərin təsiri kimi aşağıdakıları göstərə bilərik. Məsələn, 330 milyonluq əhali üçün 76 həftə davam edən təcridetmə prosesi pandemiyanın yayılmasının qarşısının alınması üçün yaranmış bir model oldu. Bu amillər yaşı 65-dən yuxarı olan insanlarda məhdudiyyətlərin, rejimin ciddiləşməsi və bəzi qadağaların qoyulmasına gətirib çıxardı.

## Riyazi modelin məqsədi

Pandemiya dövrünün belə təcrübələrindən müəyyən fərziyyələr irəli sürmək olar. Fərziyyələri riyazi quruluşa çevrilməklə riyazi modelləri yaradır. Riyazi modelin bir tənliyə çevrilməsi o qədər də vacib deyil. Riyazi modellər bir reqressiya əlaqəsi və ya xətti bir reqressiya ola bilər.

Riyazi modelin məqsədi real vəziyyəti ideal şəkildə dəqiq yaxınlaşma yolu ilə göstərən bir quruluşdur. Dəyişənlərin sayı az əlaqələrin sayı çox olarsa qısa riyazi ifadələr yazmaq daha mürəkkəbdir. Belə modellərə komputer proqramlarını nümunə göstərmək olar. Yüksək səviyyəli dillərdə yazılmış proqramlar C, FORTAN, Basic, R, Octave, MATLAB, Scienti c Pyton, Perl

Data Language riyazi modellərdir. Bu tip riyazi modellərin əsas məqsədi resusların səmərəli istifadəsində, sənayedə, kənd təsərrüfatında optimal nəqliyyat əlaqələrinin müəyyən edilməsində, yüklərin yenidən bölüşdürülməsində, pandemiya şəraitində yoluxmanın və iqtisadi zəifliyin minimuma endirilməsində, maksimum qorunma üsullarının işlənib hazırlanmasında, mürəkkəb, dinamik, stoxastik xarakterli makroiqtisadiyyatın optimal idarə edilməsində iqtisadi-riyazi modellərdən istifadənin zəruriliyini göstərməkdən ibarətdir.

İqtisadi proses və hadisələrə aid həqiqətləri onlar haqqında toplanan informasiya əsasında tədqiq edirlər. İnformasiyanı ya aktiv müşahidə yolu ilə, yaxud da passiv müşahidə yolu ilə əldə etmək olar.

Aktiv müşahidə - insan tərəfindən tədqiqat obyekti üzərində aparılan eksperiment başa düşülür. Məsələn, real vəziyyətlə əlaqədar olaraq aktiv müşahidə kimi pandemiya müddətində “Covid-19” virusunun təsir nəticələrinin hesablanmasıdır.

Praktikada çox zaman obyekt üzərində eksperiment aparmaq ya çox çətin olur, ya da mümkün olmur. Ona görə də belə eksperimentləri onun modeli üzərində aparmaq daha məqsədəuyğundur ki, obyektin modelini qurmaq da bu zərurətdən irəli gəlir.

Obyekti analiz etmək, idarə etmək, obyektin gələcəyi haqqında əvvəlcədən məlumat vermək modelləşdirmənin məqsədi hesab olunur. Modelləşdirmənin bu cür hesablamalarından istifadə etməklə pandemiyanın müddəti haqqında əvvəlcədən informasiya vermək olur. Hal – hazırda bütün dünya ölkələri əvvəlcədən verilmiş proqnozların düzgünlüyü üçün müxtəlif modelləşdirmədən istifadə edirlər. Onu da qeyd edək ki, pandemiya müddətində olan vəziyyətə virus mutasiyasının (dəyişməsi) təsiri təbiidir. Vəziyyətə uyğun olaraq hazırlanan modelə və həmin sahələr üzrə verilən informasiyaların dəqiqliyinə mutasiya mənfi təsir edir.

Model dedikdə elə bir maddi və ya təsəvvür olunan obyekt başa düşülür ki, bu obyekt tədqiqat prosesində öyrənilən real obyekti əvəz edir və onun haqqında əlavə biliklər toplamağa imkan verir (model sözü latın sözü olub “*modulus*” sözündən götürülmüşdür, mənası norma, ölçü deməkdir).

Tarixə nəzər salsaq görərik ki, 1970–ci illərə qədər iqtisadi-riyazi modellərin kifayət qədər az inkişaf etməsinə baxmayaraq, 1973-cü ildən başlayaraq iqtisadi-riyazi modellər dünya bazarlarının inkişafında mərkəzi yer tutmağa başlamış, qlobal maliyyə sisteminin işində əvəzolunmaz bir rola sahib olmuşdu. İqtisadi-riyazi model həqiqi dünya vəziyyətini təsvir edən kəmiyyətlər arasındakı münasibətlər haqqında fərziyyələrə əsaslanan bir riyazi quruluşdur. Göründüyü kimi müasir pandemiya vəziyyətini real işıqlandırmaq üçün iqtisadi-riyazi modellərdən istifadə etmək məqsədə uyğundur. Pandemiyanın yoluxma dərəcəsinə xas olan mühüm xüsusiyyətlərin, yayılma sürətinin araşdırılması üçün obyekt kimi onun modelinin qurulması məqsədə uyğundur.

**İqtisadi-riyazi modellərin qurulması mərhələləri və tətbiqi istiqamətləri**

Başqa sözlə desək, model öyrənilən hadisə, obyekt və ya prosesin tədqiqatın məqsədi baxımından mühüm olan xüsusiyyətlərinin ümumiləşdirilmiş təsviri olub, bu hadisə obyekt və ya proses haqqında əlavə biliklər mənbəyi rolunu oynayır. Məlumdur ki, modellər obyektiv reallığı dərk etməyin universal vasitəsi kimi çıxış edir və eksperimentlə təsdiq olunan hər bir hadisə həqiqət kimi qəbul edilir. Beləliklə, model-obyektiv reallıqla insan şüuru arasında aralıq bənd olub, bu obyektiv reallığı dərk etmə vasitəsi kimi çıxış edir [2].

İqtisadi-riyazi modellərin qurulmasının aşağıdakı mərhələləri mövcuddur.

**1. İdentifikasiya mərhələsi.** Hər hansı araşdırılan prosesin hansı parametrlərdən asılı olması təyin edilir. Fərz edək ki, “COVID 19” virusunun yayılma sürəti üçün axtarılan y parametri $x_1, x_2, x_3, ..., x_n$ parametrlərindən asılıdır, onda bu asıllığı $y = f(x_1, x_2, x_3, ..., x_n)$ kimi göstərmək olar (burada, $x_1, x_2, x_3, ..., x_n$ parametrləri ekzogen parametrlər, y isə, endogen parametr adlanır). Ekzogen parametrlərə giriş parametrləri , endogen parametrlərə isə çıxış parametrləri deyilir. Ekzogen parametrlərə uyğun olaraq insanın müqaviməti, virusla təması,

hava şəraiti və s. göstərmək olar. Deməli, ekzogen parametrlərin qiyməti riyazi modeldən kənarda, endogen parametrlərin qiyməti isə, modeldə hesablama yolu ilə alınır.

**2. Spesifikasiya mərhələsi.** Endogen və ekzogen parametrlər arasındakı qanuna uyğunluğun xüsusiyyəti müəyyənləşdirilir. $y = f(x_1, x_2, x_3, ..., x_n)$ yazılışına daxil olan $f$ simvolu ilə endogen və ekzogen parametrləri arasındakı qanuna uyğunluq işarə olunur.

**3. Parametrlərin qiymətləndirilməsi məsələsi.** Bu zaman riyazi modelə daxil olan parametrlərin həqiqi qiymətləri modeldə yerinə yazılır.

**4. Modelin verifikasiyası.** Bu mərhələdə modelin doğruluğu yoxlanılır. Uyğun gələn model adekvat sayılır. Model uyğun gəldikdə qəbul edilir, model uyğun gəlmədikdə təkzib edilir və yeni modellər axtarılır.

**5. Modelin validasiyası.** Bu mərhələdə modelin praktikada istifadə olunma imkanları araşdırılır. İqtisadi-riyazi model praktik cəhətdən asan olduqda qəbul edilir, praktik cəhətdən çətin olduqda və zaman itgisinə yol verildikdə isə model təkzib edilir. Modellərin qurulmasının əsasını fəlsəfənin "analogiya" prinsipi təşkil edir [4].

Real obyekt ilə onun modeli arasında analogiyanı aşağıdakı üç istiqamət üzrə yaratmaq olar:

1. Daxili strukturuna görə
2. Xarici təsirə görə
3. Ətraf mühitin təsirlərinə verilən cavab reaksiyalarının eyniliyinə görə.

Bu baxımdan modellərin aşağıdakı üç tipini fərqləndirirlər.

1. Fiziki modellər
2. Qrafiki modellər
3. Məntiqi-riyazi modellər

Fiziki modellər obyektlərin daxili strukturunu, sistem yaradıcı xüsusiyyətlərini əks etdirir və zaman laboratoriya şəraitində bütün qurğuları quraşdırılaraq onun fiziki modeli qurulur. Bu model real obyektə oxşamasa da onun üzərində təcrübələr aparmaqla, obyektin həqiqətdə məruz qalacağı bütün təsirlər haqqında informasiya toplamaq mümkün olur.

Qrafiki modellər isə, öyrənilən sistemin, prosesin daxilinə nüfuz etmədən onun xarici görünüşünü, ölçülərini, konturlarını əks etdirir, məsələn, "COVID 19" haqqında yaradılan çertyojları, sxemləri, artıb-azalma diaqramlarını, yayılma xəritələrini, qafiki modellərə aid etmək olar.

Məntiqi- riyazi modellərə "COVID 19" virusunun iqtisadiyyata etdiyi mənfi təsirləri hesablamaq üçün istifaə olunan tənlikləri, bərabərsizlikləri, riyazi ifadələri aid etmək olar.

Mahiyyətinə görə modelləri iki qrupa bölmək olar:

1) Deskriptiv modellər - burada araşdırılan parametrlərin davranış qanunauyğunluğu müəyyənləşdirilir. Bu tipli modellərlə parametrin passiv proqnozunu qurmaq olar.

2) Normativ modellər - bu modellər vasitəsi ilə endogen parametrlərin müəyyən meyar əsasında optimallaşdırılmasına çalışırlar. Belə yanaşmaya bəzən aktiv proqnozlaşdırma modeli də deyilir.

Modellər gerçəkliyin əksetmə üsuluna görə analoq tipli, struktur tipli, funksional tipli növlərinə ayırmaq olar.

Virusun yayılma sürətini hesablamaq üçün funksional tipli modelin ümumi yazılış formasını $y = f(x_1(t), x_2(t), x_3(t), ..., x_n(t))$ işarə etmək olar. Burada araşdırılan y parametri $n$ sayda digər funksiyaların funksiyasıdır. Funksional tipli model obyektin strukturunu müəyyənləşdirməyə, nəticə etibarı ilə, obyektin struktur modelini qurmağa xidmət edir.Belə bir model yuxarıda qeyd etdiyimiz virusun yayılma sürəti üçün nəzərdə tutulan model ola bilər.

**Nəticə**

Məlumdur ki, iqtisadiyyatın inkişafı üçün, eyni zamanda pandemiyanın yayılmasının qarşısının alınması üçün nəzərdə tutulan zaman meyarı mühüm rol oynayır. Zaman faktorunun nəzərə alınmasına görə modelləri qruplaşdırsaq, onda onları dinamik (zaman nəzərə alınır) və statik (zaman nəzərə alınmır) olmaqla iki qrupa bölmək olar.

$y = qk^{\alpha} L^{1-\alpha}$ və $y = qk^{\alpha_1} L^{\alpha_2} e^{\alpha_3 t}$ modellərinə nəzər salsaq görərik ki, birinci model statik, ikinci model isə dinamik tipli modellərdir. Burada k- kapitalın həcmini , L –işçilərin sayını, y- istehsal olunan məhsulun miqdarını, $e^{\alpha_3 t}$ - elmi texniki tərəqqinin hər hansı ölkə üçün səviyyəsini göstərir, $\alpha_1, \alpha_2, \alpha_3$ isə statistik informasiya əsasında qiymətləndirilə bilən parametrlərdir. Pandemiya müddətində elmi texniki tərəqqinin inkişafının yüksək həddə çatması statistik məlumatlara əsasən qeyd edə bilərik.

**İstifadə edilmiş ədəbiyyat**


1. B.S. Musayev, S.M.Şamoyev, Y.İ. Hacızalov “Ticarət –iqtisadi proseslərin modelləşdilirməsi.
2. B.S. Musayev, A.Q. Qəhrəmanov “ İqtisadiyyatda riyazi modelləşdirmə və proqnozlaşdırma”. Bakı 2000
3. http://iqtisadiislahat.org › 08042020_covid_dunya
4. https://az.wikipedia.org › wiki › Modelləşdirmə

**Niyar Umarova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, tex.ü.f.d.
*niyar61@list.ru*

# “COVID 19” PANDEMIYASI DÖVRÜNDƏ İK VƏ DIGƏR INTELLEKTUAL TEXNOLOGIYALARIN TƏTBIQININ ÜSTÜNLÜKLƏRI

***Açar sözlər***-COVID19 pandemiyası, İKT, İT, 5G, telesağlamlıq marketi, tətbiq, üstünlüklər

**Giriş**

XXI əsr texnoloji imkanları, internet-şəbəkə əlaqələri, sürətli informasiya mübadilə kimi bir çox yeniliklərilə əvvəlki əsrlərdən fərqlənir. İnformasiya kommunikasiya texnologiyalarının (İKT) tətbiqilə ilə informasiya resurslarının bol olduğu müasir informasiya cəmiyyətinin bütün sahələrində dövrün tələbinə uyğun informasya emalı texnologiyalarından aktiv şəkildə istifadə olunması əlaqələrin tədricən virtual məkana keçməsinə imkan və şərait yaratdı. 2019-cu ildən etibarən dünyanı öz ağuşuna alan və ölümcül təsirə malik olan COVID 19 pandemiyası və onun yeni mutasiyalarının sürətlə yayılması insanlar arasında real əlaqələrdə nəinki mədudiyyətlər yaratdı, hətta kütləvi şəkildə real əlaqə münasibətlərini virtual məkan üzərində olan əlaqələrlə əvəz edilməsinə səbəb oldu. Pandemiya tək insan ölümü ilə (bu xəstəliyin orqanizmə nə dərəcədə təsir etməsi bilavasitə fərdi ummun sistemindən asılıdır) kifayətlənmədi, eyni zamanda iqtisadiyyatda, sosial həyatda, təhsildə və s. bir çox sahələrdə də öz mənfi təsirini göstərdi. Pandemiya şəraitində qaçılmaz olan iqtisadi geriləməni aradan qaldırmaq, iqtisadiyyata vurulan zərbələrin təsirini azaltmaq (iqtisadi geriləmənin təsiri özünü daha çox xidmət sahələrində, kiçik və orta sahibkarlıqda və əsasən turizm sahəsində göstərdi), müəssisələrin öz istehsalını və fəaliyyət rahatlığı artırmaq, işsizliyin artmasıilə əlaqədar vətəndaşların maddi vəziyyətini yaxşılaşdırmaq və s. üçün ölkəmizdə də genişmiqyaslı xidmət modellərindən, çoxsaylı dəstək, yardım prinsiplərindən, güzəştləri təmin edən dövlət dəstəyi proqramlarından və s. geniş şəkildə istifadə olunur [1]. Görülən tədbirlər sırasında xüsusi xəstəxanalın yaradılması və burada pandemiya xəstələrinin müalicəsi üçün hər cür şəraitin yaradılması, müxtəlif texnologi ləvazimatların, on minlərlə kombinezon və süni tənəffüs cihazlarının alınması və xəstəxanalara paylanması, virus əleyhinə vaksinlərin kütləvi şəkildə vurulması xüsisilə qiymətləndirilməlidir. Həyata keçirilən tədbirlərin istənilən effekti verməsi üçün vətəndaşların da məsuliyyəti olması cox önəmlidir [2]. Üşaqların idarə olunması, təhsildə yüksək nəticələr əldə olunması və mənimsəmənin lazimi səviyyədə olması ən vacib amildir. Pandemiya şəraitində bu istiqamətdə də ən yaxın köməkşimiz İKT və əlaqə sistemləri oldu

**Pandemiya şəraitində İT-nın tətbiqi xüsusiyyətləri**

Pandemiya şəraitində virusun kütləvi şəkildə yayılmasının qarşısının alınması üçün cəmiyyətin izolyasiya mühitinə keçirilməsi, iş yerlərinin bağlanması ilə əlaqədar olaraq bütün şirkətlər onlayn (on-line) rejiminə keçməyə məşbur oldular. Bu dövrdə yaranan iqtisadi kəsrlərin qarşısının alınması üçün informasiya texnogiyalarının (İT) tətbiqinə olan tələbata ehtiyac artdı və bu sahə üzrə mal ixrac edən müəəssisələr daha çox yükləndi. Günün tələbatına cavab vermək üçün İKT avadanlıqlarına (mobil telefonlara, kompüterlərə, planşetlərə və s.) çox ehtiyac yarandı. Lakin, İT sahəsi üzrə avanlıqlar, ləvazimatlar istehsal edən firmalarada pandemiya öz mənfi təsirini göstərdi. Məsələn, Apple firması vəziyyətlə əlaqədar olaraq işçilərin işə çıxmaması nəticəsində zavodun bağlı olması səbəbiylə telefon, smartfon, kompüter və s. bu kimi İKT avadanlıqları istehsal edə bilmədi, bu isə firmanın təqribən 10% pul itirlməsinə səbəb oldu.

Ölümcül virusun yayılması ilə əlaqədar olaraq real aparılması nəzərdə tutulan bir çox konfranslar, yeni informasiya emalı texnologiyaları və digər sahələrə aid olan sərgilər təxirə salındı, bu isə şirkətlərin inkişaf imkanlarının qarşısını aldı. Təqribi hesablamalara görə böyük texnoloji sərgilərin ləğvi təqribən 1 milyarda qədər pul itirilməsinə səbəb olub [4].

**Pandemiyanin İKT avadanlıqlarından istifadəyə müsbət təsiri**

Ümumi götürüldükdə isə bu sahənin tətbiqinə daha çox ehtiyac yarandığı üçün İKT, İT texnologiyalarında böyük bir sıçrayış oldu və 2020-ci ildə bu təqribən 131 milyard ətrafında qiymətləndirildi, bu rəqəmin 2025-ci ildə 295 milyarda çatması gözlənilir. Bunun əsas səbəbi sənayedə, təhsildə, sosial media forumlarında bu platformalara (Google Hangouts, WhatsApp Video call, Zoom, Microsoft Teams və s.) tələbatın artmasıdır.

Telekonfranslarda isə İKT alətlərinin, proqramların yardımı ilə qarşılıqlı əlaqə yaradılır, bu zaman vaxta, məsafəyə, pula qənaət olunur, paralel və fərdi iş rejimi təmin edilir. Lakin eyni zamanda onu da qeyd edək ki, konfransların, iclasların real kecirilməsinin ləgv olunması və onların onlayn mühitinə keçməsi həmin effekti vermir.

Pandemiya İKT avadanlıqlarından istifadənin müsbət təsirini, istifadəsinin iqtisadiyatda, təhsildə, əsasəndə sağlamlıq sahəsində onun tətbiqinin nə dərəcədə vacib olmasını bütün dünyaya sübut etdi. Bir çox dövlətlər “ağıllı” texnologiyaların tətbiqindən istifadəyə keçdi. Məsələn, Cin polisi termal-sensorlu dronlardan istifadə edərək korona viruslu xəstələri təyin edir və lazım olan şəxslərə çox tez kömək edə bilir. Avstraliyada isə xüsusi praqramlaşdırılmış intellektual robotlar pandemiya ilə əlaqədar olaraq insanların sorğularına ətraflı cavab verməklə yanaşı, eyni zamanda çox faydalı olan lazımi məsləhətləridə verir (nəticəsi çox faydalı olmuşdur).

Hazırda Amerika xəstəxanalarında həkimlə xəstəni birləşdirən uzaqdan idarəetmə sistemlərindən istifadə 67% təşkil edir. Cənubi Koreyada yaradılan və ağıllı telefonlara yüklənən xüsusi dövlət proqramı vasitəsilə özünü təcrid etməyə məcbur olan işçilər iş prosesində aktiv iştirak edə bilirlər. Əsasən 2021-ci ilin yanvarından etibarən Çin telekommunikasiya şirkətində 5G sistemindən istifadə edərək, yeni imkanlara malik güclü texnologiyanı tətbiq etdilər. 5G ilə yaradılan şəbəkə vasitəsilə şimali Çin xəstəxanasın həkimləri 27 xəstəxanada olan digər həkimlər və xəstələrlə birbaşa sürətli əlaqə yaradaraq, qarşılıqlı məsləhətləşmələr aparırlar (5G kommunikasıyası ilə əlaqənin sürətli olması virusla mübarızədə çox kömək oldu). Göründüyü kimi pandemiya 5G texnologiyasının daha da inkişaf etməsinə və geniş əhatəli tətbiqinə səbəb oldu. (4). Hazırda Finlandiyadakı Ar-Ge mərkəzində 6G texnologiyasının tətbiqi ilə bağlı araşdırmalar üçün xüsusi qrup yaradılıb. 6G texnologiyasının 2028-də tam hazır olması və 2030-cu ildən etibarən kütləvi şəkildə tətbiqi nəzərdə tutulur. Huawei, Samsung, Qualcomm və digər ağıllı telefon istehsalçıları da 6G üzərində işlədiklərini bildirilir [3].

Proqnozlara görə qlobal telesağlamlıq (ing.-telehealth) marketi və ya onların bazar fəaliyyəti sürətlə inkişaf edəcək. Telesağlamlıq İKT tətbiqinin təzahüründən yaranan yeni termdir, adətən bura əsasən sağlamlıqla əlaqədar verilənlərin kommunikasiya texnologiyası vasitəsilə ötürülməsi, qarşılıqlı əlaqənin yaradılmasının sürətlə təmin edilməsi, müzakirələrin aparılması kimi müxtəlif sistemlər aiddir.

Dünya səhiyyə təşkilatı telesağlamlıq proqramlarının fəaliyyətini müsbət qiymətləndirərək, geniş əhatəli paralel əlaqənin ani vaxt ərzində mümkün olmasına görə bütün dünyanın bu proqramladan istifadə etmələrini xüsusilə qeyd edirlər. İDC (International Data Corporation) [5] şirkətinin sorğularına görə telesağlamlıq platformalarından və onun yaratdığı imkanlardan istifadə edən xəstələrin 83,9% həqqindən artıq razılıq edirlər. Təqribi hesablamalara görə 2024-2025-ci illər ərzində bu bazarın böyüməsi və inkişafının 24,1% artması planlaşdırılır. Pandemiya texnologiya bazarının inkişafına, daha da sürətlə böyüməsinə səbəb oldu. Bu bazarın 2025 ci ilə qədər 17,2 milyarda qədər çatması nəzərdə tutulur (bu sahədə hazırda daha çox həkim-xəstə virtual birləşməsinin, qarşılıqlı münasibətlərinin inkişafı, analizlərin məsafəli təyini və s. istiqamətlər daha öndə durur).

**Nəticə**

COVID 19 pandemiyası bilavasitə sağlamlıqla əlaqədar olduğuna görə burada bizim ən yaxın köməkçimiz informasiya emalı texnologiyalarıdır. Çünki, İKT vasitələri, İT proqramları, internet-səbəkə sistemləri bizə lazım olan əlaqəni təmin edirlər. COVID 19 pandemiyasına qarşı ən əlverişli əlaqə vasitəsi kimi bu texnologiyaların tətbiqidir, ona görədə bu mühitdə telemarket bazarı böyüyərək ən güclü inkişaf edən bazardır.

İnkişf etmiş ölkələrdən geri qalmamaq üçün aşağıdakı məsələlərin həll edilməsini məqsədəuyğun hesab edirik:

1. İT sahəsinə qoyulan xərclər artırılmalı və ölkəmizdə də virtual telemarket bazarına şərait yaradılmalıdır.
2. 5G və 6G texnologiyaların imkanlarından səmərəli istifadə üçün bu sahəyə xüsusi diqqət ayrılmalıdır.
3. İnformasiya texnologiyaları sahəsi üzrə qabaqcıl ölkələrin təcrübəsi nəzərə alımaqla güclü kadrların yetişdirilməsi istiqamətində həlledici addımlar atılmalıdır.

**İstifadə edilmiş ədəbiyyat:**


1. http://anl.az/down/meqale/azerbaycan/2020/aprel/712251.htm
2. http://www.science.gov.az/news/open/13592
3. https://ted.az/az/view/news/21020/6g-nin-tetbiqi-ile-bagli-ishlere-bashlanirnbsp))
4. http://marketdataforecast.com/bloq/impacts-of-covid19-on-information-technology-industry
5. https://www.idc.com

UOT : 62M20
**Ramil Əliyev**
AMEA Iqtisadiyyat Institutu
*ramil-turkel@mail.ru*

# SƏNAYE MÜƏSSİSƏLƏRİNİN MALİYYƏ DAYANIQLIĞININ PROQNOZLAŞDIRILMASINDA DİNAMİK MODELİN İŞLƏNİLMƏSİ

***Açar sözlər:*** istehsalat və sənaye müəssisələri, dinamik model, proqnozlaşdırılma, qiymətləndirmə

## Giriş

Sənaye müəssisələrində maliyyə dayanıqlığının təmin edilməsində müxtəlif növ iqtisadi resursların optimallaşdırılması prioritet məsələlərdəndir. Bu zaman ilk öncə sənaye müəssisəsində maliyyə dayanıqlığı perspektivi kimi mövcud imkanları qiymətləndirilir və proqnozlaşdırılır. Bu da sənaye müəssisəsinin kompleks rəqabətqabiliyyətliliyinə və daxili mühiti amillərinə bir başa müsbət təsir edir [2].

Müasir iqtisadi şəraitdə Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye müəssisələrində maliyyə dayanıqlığının təmin edilməsi istiqamətində proqnozlaşdırmanı həyat keçirtmək üçün əsasən aşağıdakı iqtisadi elementlər nəzərə alınmalıdır:

1.Sənaye müəssisəsinin məhsul istehsalını artırmaq;
- sənaye məhsul istehsalını müəyyən həddə qədər artırmaq
- sənaye müəssisəsinin bazara çıxardığı məhsulun bazardakı xüsusi çəkisinin müəyyən edilmiş həddə qədər yüksəltmək.

2. Sənaye müəssisəsinin istehsal həcminin yüksək templə artımı;
- sənaye müəssisəsinin xalis mənfəətini artırmaq;
- sənaye müəssisəsinin məhsulunun keyfiyyətinin yüksəldilməsi;
- sənaye müəssisələrində servis və xidmətlərin xüsusi çəkisinin artırılması.

3. sənaye müəssisəsinin məhsul çeşidlərinin artırılması;
- sənaye müəssisəsinin yeni növ məhsulun istehsalının artım tempi;
- sənaye müəssisəsinin yeni mütəmadi olaraq bazar seqmentinə çıxması.

Yuxarıda qeyd olunanlara əsasən söyləmək lazımdır ki, istənilən sənaye müəssisəsində dinamik proqnozlaşması konsepsiyaya əsaslanmalıdır. Praktik olaraq sənaye müəssisələrində dinamik proqnozlaşdırma zamanı geniş şəkildə əlaqələndirmə funksiyasından istifadə olunur. Belə ki, hazırlanan dinamik proqnoz modellər elə işlənilməlidir ki, təkcə informasiya toplanması və proqnozlaşdırmanın həyata keçirilməsi yox, həm də sənaye müəssisəsinin strateji hədəfləri zamanı bir iqtisadi kateqoriya kimi daima əldə rəhbər tutulmalıdır. Bu isə o deməkdir ki, proqnozlaşdırmanın fəlsəfəsi, strategiyası və metodologiyası, həmçinin məlumatların yığılması, onların təhlili qaydaları şəffaf və aydın şəkildə həyata keçirilməlidir. Belə olduğu halda, dinamik proqnozlaşdırma və əldə edilən nəticələr daha qabarıq nəzərə çarpacaqdır [3].

Qeyd olunmuş məlumatlara əsasən sənaye müəssisəsinin proqnozlaşdırılmasının işlənilməsi metodologiyası praktikada da öz əksini tapmalıdır. Belə ki, nəzəriyyədə sənaye müəssisəsinin proqnozlaşdırılmasının işlənilməsi zamanı istifadə olunan metodlar əsasən maliyyə təhlilinə, maliyyə hesabatlarına, maliyyə əmsallarına, hesabat dövrünün sonuna və əvvəlinə hesablamalara söykənməlidir.

## Materiallar və metodlar

Maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə proqnoz modellər işlənilən zaman sənaye müəssisəsinin maliyyə vəziyyəti hərtərəfli dinamik təhlil edilməli, iqtisadi göstəricilərin böyümə sürəti baxımından müqayisə edilməli, maliyyə göstəricilərinin hər blokunu qarşılıqlı nisbətlərdə qiymətləndirilməli və müxtəlif maliyyə nisbətləri arasında əlaqə yaradılmalıdır. Nəzəriyyədə baxılan bu iqtisadi elementlər praktikada öz əksini tapacaqdır.

Yuxarıda söylənənlər əsasında belə nəticəyə gəlmək olar ki, Azərbaycan Respublikasında fəaliyyət göstərən sənaye müəssisələrinin maliyyə dayanıqlığının proqnozlaşdırılmasında dinamik modelin işlənilməsini aşağıdakı mərhələlər şəklində həyata keçirilməsi məqsədəuyğundur:

1) Sənaye müəssisənin maliyyə vəziyyəinin kompleks dinamik təhlili üçün hədəf parametrləri seçilməlidir. Bu təhlilin əsas məzmunu təsisçilərin maliyyə vəsaitlərinin çəkisi, investorların maliyyə durumu, banklardan asılılıq, ödənilən vergilər və maliyyə statistik məlumatların düzgün təşkil etməkdən ibarətdir.

2) Sənaye müəssisənin maliyyə vəziyyətini qiymətləndirmək və proqnozlaşdırmaq üçün məlumat bazası formalaşdırılılmalıdır. İlk öncə sənaye müəssisənin balans hesabatı, gəlir və xərclər haqqında hesabat qruplaşdırılmalıdır. Qeyd olunan bu maliyyə-iqtisadi göstəricilərin müqayisəli təhlili nəticəsində tənzimləyici matris normaları tərtib olunur.

3) Sənaye müəssisənin maliyyə vəziyyətinin dinamik qiymətləndirilməsi zamanı tənzimləyici matrislərlərin qurulmasında səmərəli məlumat bazasının seçilməsi.

Hal-hazırda ölkəmizdə fəaliyyət göstərən sənaye müəssisələrinin maliyyə menecerləri öz maliyyə dayanıqlığını dinamik proqnozlaşdırmaq üçün əsasən maliyyə əmsallarından istifadə edirlər. Sənaye müəssisələrinin maliyyə dayanıqlığını təmin etmək məqsədilə proqnozlaşdırılma modellərin işlənilməsi zamanı baxılan maliyyə əmsalların sayına uyğun olaraq tərtib olunan matrisin sütün və sətirləri təyin olunur.

**Sənaye müəssisələrinin maliyyə dayanıqlığının dinamik proqnoz modeli**

Sənaye müəssisələrinin maliyyə dayanıqlığını dinamik proqnozlaşdırmaq üçün $\|L_{nm}\|_{nxn}$ kvadrat matrisinə nəzər yetirək.

Burada: $L_{nm}$-baxılan sətir və sütunlar üzrə kəsişmədə yerləşən üstünlük matris elementidir.

Qeyd edək ki, $t(M_d)>t(M_e)$ olduğu halda $L_{mn}=1$ olur, $t(M_d) < t(M_e)$ olduğu halda $L_{mn} = -1$ olur.

Burada: $t(M_n)$, $t(M_m)$ - müvafiq dövrdə n və m göstəricilərinin böyümə sürətidir.

Dinamik normalar sənaye müəssisəsinin iş rejimi bələdçi rolunu oynayır. Sənaye müəssisəsinin maliyyə menecerləri qəbul olunmuş göstəriciləri faktiki artım tempinə görə sıralayır ki, bu da həyata keçirilən qərarların nəticələrini özündə əks etdirir. Göstəricilərin həqiqi sıralanması normativə görə nə qədər yaxın olsa, dinamik normativdə qeyd olunan normativ əmsalları bir o qədər yerinə yetirilir. Beləliklə də növbəti mərhələdə müvafiq göstəricilər sisteminin maliyyə və iqtisadi göstəricilərini böyümə sürətinə görə tənzimlənir.

Yuxarıda söylənənlər əsasında sənaye müəssisəsinin maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə ilk olaraq likvidlik və ödəmə qabiliyyəti göstəriciləri sisteminin dinamik proqnozlaşdırılmasına nəzər yetirək.

Sənaye müəssisəsinin likvidlik və ödəmə qabiliyyəti göstəriciləri sisteminin dinamik proqnozlaşdırılması zamanı ilk öncə aşağıdakı maliyyə-iqtisadi göstəricilərdən istifadə olunur:

1) $M_v\,Q_{mq}$ – maliyyə vəsaitləri və qısamüddətli maliyyə qoyuluşları;
2) $Ş_{dv}$ - şəxsi dövriyyə vəsaitləri;
3) $K_{qm}$ - qısamüddətli kreditor borcları;
4) $D_{qö}$ - qısamüddətli debitor öhdəlikləri;
5) E - material ehtiyyatları;
6) $D_v$ - Dövriyyə vəsaitləri;
7) $Ö_q$ - qısamüddətli öhdəliklər.

Sənaye müəssisəsinin likvidlik və ödəmə qabiliyyəti göstəriciləri sisteminin dinamik proqnozlaşdırılması zamanı mütləq likvidlik əmsalının təyin olunması vacib iqtisdadi elementlərdən sayılır. Belə ki, mütləq likvidlik əmsalının göstəricisinə əsasən sənaye müəssisənin maliyyə dayanıqlığının təmin edilməsi və effektiv işləməsi üçün maliyyə vəsaitlərinin həcmi və qısamüddətli maliyyə qoyuluşlarının artımı, uzunmüddətli və

qısamüddətli maliyyə öhdəliklərin artımını üstələməlidir. Məhz proqnoz modelin işlənməsidə buna hesablanmalıdır.

Buradan belə nəticəyə gəlmək olar ki, sənaye müəssisəsinin bütün fəaliyyət dönəmində aşağıdakı bərabərlik öz aktuallığını qoruyur:

$$t\ (M_v\ Q_{mq}) > t\ (Ö_q). \qquad \textbf{(1)}$$

Burada: *t* ($M_v$ $Q_{mq}$), *t* ($Ö_q$) – müəyyən zaman daxilində göstəricilərin böyümə sürətini özündə əks etdirir.

Nəzər alsaq ki, sürətli likvidlik əmsalı göstəricisinə əsasən sənaye müəssisənin maliyyə dayanıqlığının təmin edilməsi məqsədilə aşağıdakı proqnoz modelin həyata keçirilməsi məqsədəuyğundur:

$$K_{бл} = (M_v\ Q_{mq} + D_{qö}) / Ö_q. \qquad \textbf{(2)}$$

Proqnoz model nəticəsi kimi istənilən vəziyyətdə $t(D_{qö}) > t(Ö_q)$ halı saxlanılmalıdır.

Araşdırma apardığımız sənaye müəssisələrində də aydın görünür ki, effektiv fəaliyyət nəticəsində şəxsi dövriyyə vəsaitləri qısamüddətli kreditor borclara nisbətən böyüməsinin müsbət bir tendensiyadır. Bu vəziyyətdə də proqnoz model t (Şdv) > t(Kqm) nisbətində olmalıdır.

Ümumiyyətlə sənaye müəssisələrində maliyyə vəsaitləri, qısamüddətli maliyyə qoyuluşları və şəxsi dövriyyə vəsaitləri göstəricilərinin artım tempini təmin etmək üçün proqnozlaşdırma modeli işlənilən zaman əsasən dövriyyə vəsaitinin manevr əmsalından istifadə edilir:

$$Ə_{dv} = M_v\ Q_{mq} / Ş_{dv}\ . \qquad \textbf{(3)}$$

Praktikada da araşdırma apardığımız sənaye müəssisələrində (3) düsturu sənaye müəssisələrində maliyyə dayanıqlığının proqnoz modellərin işlənilməsində dinamik müsbət tendensiya kimi qiymətləndirilir. Proqnoz modellər bütün zaman larda $t(M_v\ Q_{mq}) > t(Ş_{dv})$ halında olmalıdır.

Təhlillər göstərir ki, sənaye müəssisələrində maliyyə vəsaitləri, qısamüddətli maliyyə qoyuluşları və şəxsi dövriyyə vəsaitləri göstəricilərinin böyümə nisbətləri proqnoz modellərin həyata keçirilməsi üçün mühüm iqtisadi prosesdir. Bu baxımdan da hər bir sənaye müəssisələri maliyyə vəziyyəti nisbətində dövriyyə vəsaitlərinin içində şəxsi vəsaitlərinin çoxluğunu təmin etməyə çalışmalıdırlar. Sənaye müəssisələrində şəxsi dövriyyə vəsaitlərinin əmsalının hesablanmasına nəzər yetirək:

$$Ə_{şdv} = Ş_{dv} / D_v\ . \qquad \textbf{(4)}$$

Bütün zamanlarda bu hal üçün sənaye müəssisələrinin proqnoz modellərin işlənilməsində $(t)Ş_{dv} > (t)D_v$ vəziyyəti saxlanılır.

Yuxarıda qeyd olunanlar əsasında sənaye müəssisələrində proqnoz modellərin işlənilməsini tranzit prinsipini tətbiq edərək təhlil olunan göstəricilərin böyümə templəri arasındakı aşağıdakı əlaqəni əldə edərik:

$$t(M_v\ Q_{mq}) > t(Ş_{dv}) > t(D_v) \Rightarrow t(M_v\ Q_{mq}) > t\ (D_v);$$
$$t(M_v\ Q_{mq}) > t(Ş_{dv}) > t(E) \Rightarrow t(M_v\ Q_{mq}) > t(E);$$
$$t(M_v\ Q_{mq}) > t(Ş_{dv}) > t(K_{qm}) \Rightarrow t(M_v\ Q_{mq}) > t(K_{qm});$$
$$t(Ş_{dv}) > t(D_v) > t(Ö_q) \Rightarrow t\ (Ş_{dv}) > t(Ö_q).$$

Baxılan bu bərabərsizliyin böyümə sürətinə görə göstəricilərin üstünlük istiqaməti oxlarından istifadə edərək sxematik şəkildə göstərilə bilər (şəkil 1).




**Şəkil 1. Sənaye müəssisələrinin maliyyə dayanıqlığının əsas iqtisadi göstərici**
Qeyd: müəllif tərtib etmişdir

Şəkildən aydın görünür ki, sənaye müəssisəsinin maliyyə menecerləri maliyyə dayanıqlığının əsas iqtisadi göstərici kimi əsasən maliyyə vəsaitləri və qısamüddətli maliyyə qoyuluşlarının digər iqtisadi göstəricilər ilə əlaqəsini göstərirlər. Yuxarıda söylənənlərə əsasən göstəricilərin artım templərinə görə sıralanmasına nəzər yetirək. Sənaye müəssisəsinin maliyyə dayanıqlığının ilkin göstəricisi olan likvidlik və ödəmə qabiliyyəti göstəriciləri sistemi üçün meyar və standartlara aşağıdakı bərabərlik şəklində baxaq :

$$t\,(M_v\,Q_{mq}) > t\,(Ş_{dv}) > t\,(K_{qm}) > t\,(D_{qö}) > t\,(E) > t\,(D_v) > t\,(Ö_q). \qquad \textbf{(5)}$$

(5) bərabərsizliyinə əsasən matris tərtib edilmiş və nəticəsi cədvəl 1-də verilmişdir.

**Cədvəl 1**

**Sənaye müəssisələrinin maliyyə dayanıqlığının qiymətləndirilməsi üçün likvidlik və ödəmə qabiliyyəti göstəriciləri üzrə tənzimləyici model**

| Göstəricilər | $M_v$ $Q_{mq}$ | $Ş_{dv}$ | $K_{qm}$ | $D_{qö}$ | E | $D_v$ | $Ö_q$ |
|---|---|---|---|---|---|---|---|
| $M_v$ $Q_{mq}$ | x | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| $Ş_{dv}$ | -1 | x | 1 | 1 | 1 | 1 | 1 |
| $K_{qm}$ | -1 | -1 | x | 1 | 1 | 1 | 1 |
| $D_{qö}$ | -1 | -1 | -1 | x | 1 | 1 | 1 |
| E | -1 | -1 | -1 | -1 | x | 1 | 1 |
| $D_v$ | -1 | -1 | -1 | -1 | -1 | x | 1 |
| $Ö_q$ | -1 | -1 | -1 | -1 | -1 | -1 | x |

Qeyd: müəllif tərtib etmişdir

Məlumatlara əsasən dinamik proqnoz modelin qurulması üçün sənaye müəssisəsinin maliyyə dayanıqlığı göstəriciləri bloku üçün standartın yaradılmasına nəzər yetirək:

t(K) > t(PK);

$t(K) > t(UA);$
$t(K_{qm}) > t(D_{qö});$
$t(Ş_{dv}) > t(K);$
$t(M_v\ Q_{mq}) > t(Ş_{dv});$
$t(Ş_{dv}) > t(D_v);$
$t(Ş_{dv}) > t(E);$
$t(Ş_{dv}) > t(PK);$
$t(BV) < t(PK);$
$t(BV) < t(K).$

Burada: K-kapital, UA-uzunmüddətli aktivlər, PK – pul kütləsi, BV- borc vəsaitləri.

Yuxarıda qeyd olunan standart göstəricilərə əsasən sənaye müəssisəsinin inkişaf tempinə görə maliyyə dayanıqlığını qiymətləndirmək üçün aşağıdakı proqnoz modeli hazırlayacağıq:

$$t(M_v\ Q_{mq})>t(Ş_{dv})>t(K)>t(D_{qö}) > t(D_v)> t(E) > t(PK) > t(UA) >t(K_{qm}) >t(BV). \quad \textbf{(6)}$$

Yuxarıdakı (6) bərabərliyinə əsasən proqnoz modellər həyata keçirilərkən sənaye müəssisəsində əmlakın vahidi üçün qiymətləndirilməsi zamanı aşağıdakı bərabərliyə riayət etmək lazıəmdır:

$$t(K)> t(D_v)> t(ƏV)> t(Б)> t(PK)> t(BV). \quad \textbf{(7)}$$

Burada: ƏV - əsas vəsaitlərin göstəricisidir.

Sənaye müəssisəsinin gəlirlilik göstəricisi üzrə maliyyə dayanıqlığını qiymətləndirmək üçün aşağıdakı dinamik proqnozlaşdırılma modelinə baxaq:

$$t(G)> t(K)> t(D_v)> t(ƏV)> t(D_{qö})> t(E)> t(K_{qm})> t(PK)> t(BV). \quad \textbf{(8)}$$

Burada: G – sənaye müəssisəsinin məhsul satışından əldə olunan gəlirdir.

Sənaye müəssisəsinin mənfəət göstəricisi üzrə maliyyə dayanıqlığını qiymətləndirmək üçün dinamik proqnozlaşdırılma modelinə baxaq:

$$t(XG)> t(ÜM)> t(VM)> t(G)\ t(K)> t(D_v)> t(ƏV)> t(PK))> t(BV). \quad \textbf{(9)}$$

Burada: XG - xalis gəlir;
ÜM - ümumi mənfəət;
VM - vergidən əvvəl mənfəəti ifadə edir.

**Nəticə**

Yuxarıda aparılan araşdırmalar zamanı belə nəticəyə gəlmək olar ki, sənaye müəssisəsində maliyyə dayanıqlığının qiymətləndirilməsi zamanı proqnoz modellərin işlənilməsində maliyyə vəziyyətindən, iqtisadi göstəricilərdən, likvidlik, ödəmə qabiliyyətliliyindən, əmlakın vahidi üçün qiymətləndirilməsindən, maliyyə müstəqilliyindən, mənfəət və gəlirlilikdən istifadə edilmişdir. Eyni zamanda sənaye müəssisələrinin real göstəriciləri nisbətləri əsasında matrislər qurulmuşdur.

**İstfadə olunan ədəbiyyat**


1. Azərbaycan Statistika Komitəsi -https://www.stat.gov.az/
2. Andrikopoulos A. Four decades of the Journal of Econometrics: Coauthorship patterns and networks / A. Andrikopoulos // Journal of econometrics. 2016. - vol. 195. - №1. - p. 23-32.
3. Kiani K.M. On business cycle fluctuations in USA macroeconomic time series / K.M. Kiani // Economic modelling. - 2016. - vol. 53. - p. 179-186.

UOT 332.05

**Pərvin Məmmədova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*p.q.memmedova@gmail.com*

# "DAVİD'S TEA" ŞİRKƏTİNİN FƏALİYYƏT ASPEKTLƏRİ VƏ DƏYƏR TƏKLİFİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**Açar sözlər**: şirkətin fəaliyyəti, aspektlər, dəyər təklifi, formalaşması, xüsusiyyətlər

## Giriş

Araşdırma obyekti, "David's Tea", Monrealda yerləşən uğurlu bir Kanada çay zənciridir. Şirkətin əsas fəaliyyəti eksklüziv çay qarışıqlarının satılmasına və isti içkilərin hazırlanmasına yönəlib. Şirkətin qurucusu David Segaldır. Şirkətin əsas məqsədi çaya yeni bir baxış yaratmaq, çay içmə müddətini maraqlı və əlçatan etməkdən ibarət olmuşdur. 2008-ci ildə ilk mağaza Torontoda (Kanada) açıldı. Şirkətin mərkəzi Kanadanın Montreal şəhərindədir və 2009-cu ildə ilk satış məntəqəsinin uğurlu istifadəyə verilməsindən sonra ikinci bir mağaza açıldı və daha sonra aktiv genişlənməyə davam edildi [1].

2011-ci ildə "David's Tea" coğrafi genişlənmə fürsətindən istifadə etmək qərarına gəldi və New Yorkda (ABŞ) bir mağaza açdı. Bir il sonra şirkətin Kanada və ABŞ bazarlarında 100-dən çox pərakəndə satış nöqtəsi var. 2015-ci ilin yayında "David's Tea" sərbəst bazarda səhmlər buraxdıqdan sonra bir ictimai şirkətə çevrildi.

## Müxtəlif ölkələrdə şirkətin bazar payının genişlənməsi

Şirkətin Şimali Amerika bazarlarındakı uğurlu performansı ilə əlaqədar olaraq, rəhbərlik yeni ölkələrə, xüsusən dünyada çay istehlakında lider mövqe tutan Rusiyaya coğrafi genişlənmə ehtimalını nəzərdən keçirir. "David's Tea", Rusiyadakı satış təşkilatını "öyrənmə əyrisi" ndə irəliləmək üçün bir fürsət olaraq görür. Hazırda bu təşəbbüs şirkətin imkanlarını və Rusiya bazarının cəlbediciliyini qiymətləndirmək mərhələsindədir [1].

Çay içkisi dedikdə əhəmiyyətli bir vurğu edilməlidir: müxtəlif çiçəklərdən, meyvələrdən, giləmeyvələrdən, qönçələrdən, yarpaqlardan və digər komponentlərdən hazırlanmış bir içkidir. Çay ehtiva edir, lakin olmaması da mümkündür. Çay içkiləri adi çayın əvəzediciləridir. "David's Tea" onları kateqoriyalara ayırır, əksəriyyəti birinci qrupa aiddir:
1) Sağlamlıq üçün: vitaminləşdirmə, sakitləşdirici, canlandırıcı, boğaz ağrısı və s.;
2) gündəlik istehlak üçün.

"Saf" çay növlərinə gəldikdə, çeşidlər 8 kateqoriyanı əhatə edir: qara, yaşıl, ağ, bitki, oolong, puer, mate, rooibos.

## "David's Tea" nın çay mədəniyyətinin inkişafına töhfəsi

Çay məhsulları ilə yanaşı, "David's Tea", çay mədəniyyətinin inkişafına töhfə verən, bir-birini tamamlayan məhsullar da satır: çay məhsulları və çay içməsini müşayiət edən aksesuarlar. Bu məhsul kateqoriyasının seçimi çox genişdir. Şirkət hər mövsüm yeni, tamamilə yenilənmiş qab-qacaq və aksesuar kolleksiyasını (termoslar, stəkanlar, filtrlər, çaydanlar və çay içməklə əlaqəli digər aksesuarlar) buraxır.

Əsas işinə əlavə olaraq, "David's Tea" qəhvə dükanına bənzər şəkildə fəaliyyət göstərir və müştərilərinə həm standart isti çay, həm şərablı, həm də bitki mənşəli (soya, badam, hindistan cevizi) çaylar təqdim edir. Satış strukturundakı bu istiqamət təxminən 10% -ni təşkil edir. Başlanğıcda, sağlam qidalanma populyarlığının artması səbəbindən şirkət rəhbərliyi bazarı Kanadada doymuş qəhvə içkilərinə alternativ yaratmağa yönəldi. Qəhvə içkilərinin hazırlanmasına bənzər bir prinsipə əsasən (kapuçino, latte, düz ağ) çayların hazırlanması fikri belə ortaya çıxdı.

"David's Tea" fəaliyyətlərində çeşid və yeniliklərin genişliyinə diqqət yetirir. Hər il təxminən 35 yeni çay dadı təqdim olunur və şəbəkədə təqdim olunan digər məhsulların çeşidləri mütəmadi olaraq yenilənir. İstehlakçıların gözləntilərini qarşılamaq üçün şirkət iki həftədə bir dəfə məhsul çeşidini yeniləyir [2].

Şirkət müştərilər üçün xüsusi bir atmosfer yaratmağa çalışır. Buna görə də pərakəndə satış nöqtələrinin parlaq, müasir və minimalist dizayn edilir. Təfərrüatlara çox diqqət yetirilir. Pərakəndə satış yerlərində çay içkiləri hazırlamaq üçün parlaq və sadə qablaşdırma dizaynı, vitrinlərdə rəng koordinasiyalı məhsullar, gündəlik promosyonlar və yeni qarışıqların dequstasiyası aparılır.

Keyfiyyətli müştəri xidməti eyni dərəcədə vacib bir rol oynayır: şirkət çay almaq prosesini asan, maraqlı və interaktiv etmək üçün çalışır. Təcrübəli çay mütəxəssisləri, hər birinə fərdi yanaşma taparaq müştərilərə tam dəstək göstərirlər.

Rusiya bazarında David Çayının daxili və xarici mühitinin təhlilinin nəticələrinə əsasən, alınan məlumatların strukturu üçün SWOT analiz cədvəli təqdim olunur (cədvəl 1). Sənayedəki əsas müvəffəqiyyət amilləri bunlardır: yüksək keyfiyyətli məhsullar, çoxşaxəli məhsul portfeli, etibarlı və rahat qablaşdırma, fərdi xidmət, interaktiv alış-veriş prosesi və yaxşı xarici təchizatçılarla qurulmuş ortaqlıq.

**Cədvəl 1. Sankt-Peterburq bazarında David çayının ilkin SWOT analizi**

| | **GÜCLƏR** | **Zəif tərəflər** |
|---|---|---|
| | **Faydaları (S)** | **Dezavantajlar (W)** |
| **DAXİLİ MÜHİT** | –Rəqabətli geniş çeşidli meyvə və bitki mənşəli çay içkiləri (ayda 3 ləzzət buraxın)<br>– Müvafiq məhsulların müntəzəm olaraq yenilənmiş kolleksiyaları (hədiyyə çay dəstləri, yeməklər, aksessuarlar)<br>–Fəal marketinq fəaliyyəti (yüksək səviyyədə reklam fəaliyyəti, vizual aspektin düşüncəsi, xoş rahat atmosfer, gündəlik dequstasiya)<br>–Yüksək müştəri fokusu (öz-özünə xidmət etmə imkanı, qiymətə təsir etməyən alternativ çay qablaşdırması seçimi)<br>–Çay içkilərini götürməyə hazırlaşırıq<br>–Çay aromalı təbii kosmetik məhsulların olması | –Ənənəvi çay məhsullarının daha çeşidi<br>–Şirin məhsulların dar bir çeşidi<br>–Bazarda təcrübənin olmaması<br>–Məhsullar üçün yüksək qiymətlər (ruslar üçün) |
| **XARİCİ MÜHİT** | **Fürsətlər (O)** | **Təhlükələr (T)** |
| | –Ölkədə çay istehlakının yüksək səviyyəsi<br>–Sağlam bəslənmənin və nəticədə meyvə və bitki mənşəli çay içmək populyarlığının artması<br>- Həyat dinamikliyini və nəticədə, yolda içki istehlakını artırmaq | - Bazarın doyma arzusu<br>- İqtisadi qeyri-sabitlik səbəbindən əhalinin gəlir səviyyəsində azalma<br>–Sektorda əsas oyunçuların olması<br>–Bazarda markalara yüksək müştəri sədaqəti<br>– Çox sayda əvəzedici mal<br>– İstehlakçılar arasında marka məlumatlılığının olmaması |

Mənbə: [3] əsasında müəllif tərtib etmişdir

Alınan amillər müqayisə edilərkən mümkün özəl strategiyalar müəyyən edilmişdir (cədvəl 2).

**Cədvəl 2. Sankt-Peterburq bazarında David çayının ilkin SWOT analizi**

| SO | WO |
|---|---|
| - Bazar potensialından istifadə etmək üçün yüksək səviyyədə reklam fəaliyyətinin aparılması<br>- Sağlamlığa faydalarına diqqət yetirərək marka mövqelərini aydınlaşdırın | - Brend gücləndikcə ənənəvi çayların çeşidinin genişləndirilməsi<br>- Faydalı şirin məhsullar çeşidinin genişləndirilməsi |
| **ST** | **WT** |
| - Təhqiramiz marketinq siyasəti<br>- Çeşidlərin şaxələndirilməsi və müntəzəm məhsul yeniləmələrinin saxlanması | - Genişlənmə yolu ilə böyümə<br>- İstehlakçılar üçün rəqabətli və əlverişli qiymət səviyyəsinin yaradılması |

Mənbə: [4] əsasında müəllif tərtib etmişdir

SWOT analizinin əldə edilmiş nəticələrinin müqayisəsinə əsasən, Sankt-Peterburq bazarında David Çayı üçün ən uyğun iki strategiyanı ayırmaq olar. Beləliklə, şirkətin yeni bazardakı fəaliyyəti iki aspektə yönəldilməlidir:

- Sağlamlıq faydalarına diqqət yetirərək marka mövqelərini aydınlaşdırmaq;
- Aktiv marketinq fəaliyyəti.

**Nəticə**

Beləliklə, təhlillərə əsasən David Çayının Rusiya bazarında, xüsusən də Sankt-Peterburq bazarında istehlakçılara gətirdiyi bir dəyər təklifi formalaşdırmaq mümkündür:

1. Sağlamlığına diqqət yetirənlər üçün ənənəvi olmayan çay içkiləri.
2. Hazır hədiyyələr və markalı çay qabları almaq imkanı.
3. Parlaq bir metal qabda adi bir plastik torbadakı kimi eyni qiymətə çay almaq imkanı.
4. Xoş və əyləncəli alış prosesi.

Satış nöqtəsinin qeyri-adi konsepsiyası uzaqdan müştərilərin diqqətini çəkir: şəffaf panoramik pəncərələr, parlaq şəkildə koordinasiya olunmuş məhsullar, musiqi müşayiəti və çay qoxusu yoldan keçənləri cəlb edir. Fərdiləşdirilmiş xidmət alış seçimlərini sadə və əyləncəli etməyi hədəfləyir. Yüksək ixtisaslı "Çay Bələdçiləri" məhsulların bütün xüsusiyyətləri haqqında məlumat verəcək və müştəri üçün ən yaxşı seçimi etməyə kömək edəcəkdir. İnteraktivlik əlavə dəyər gətirir: satış nöqtəsi formatı müştəriyə müstəqil olaraq rəflərdən mal götürməyə və çay ətirlərini sınamağa imkan verir. "David's Tea"nın yaratdığı atmosfer çay içkisini dadmaq fürsətini mükəmməl şəkildə tamamlayır: hər gün dequstasiya edilir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Российский рынок чая. Товарный и рекламный аспекты. [Электронный ресурс]: Обзор рынков AdIndex Market //Сайт Adindex. URL:https://adindex.ru/markets2/tea.phtml
2. Маркетинговое сопровождение [Электронный ресурс] // Новые Бизнес Технологии. – URL: http://www.gk-nbt.ru/service/marketing.php
3. Anoop Madhok, «Cost, Value, and Foreign Market Entry Mode: The Transaction and the Firm», Strategic Management Journal, vol. 18 (1997), p. 37.
4. https://www.davidstea.com/

**Səadət Quliyeva**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*13sada@mail.ru*

# ƏRZAQ TƏHLÜKƏSİZLİYİ PROBLEMLƏRİ

**Açar sözlər:** aqrar-sənaye kompleksi (ASK), aqrar-bazar, ərzaq təhlükəsizliyi, problem, azad rəqabət

## Giriş

Ərzaq təhlükəsizliyi iqtisadiyyatın elə bir vəziyyətini özündə əks etdirir ki, mövcud imkanlar hesabına əhalinin fəal və sağlam həyat tərzi keçirməsi üçün zəruri həcmdə ərzaq məhsullarına olan tələbatını təmin etmək mümkün olsun. Ərzaq təhlükəsizliyi hər bir vətəndaşın ərzaq istehlakı səviyyəsindən bilavasitə asılı olmaqla həm mikro və makro, həmdə qlobal səciyyə daşıyır. Ərzaq təhlükəsizliyinin mikro səciyyə daşıması hər bir fərdin yaşamaq imkanları ilə xarakterizə olunur. Təbii ki, makro aspektlər ölkənin ümumi inkişaf səviyyəsi, qlobal aspektlər isə ümumi beynəlxalq münasibətlər və dünyada baş verən geosiyasi dəyişikliklərlə bilavasitə bağlıdır. Ümumiyyətlə götürdükdə ərzaq təhlükəsizliyi həm xroniki, həm də müvəqqəti dövri olaraq özünün kəskinlik mərhələsini yaşayır. Ərzaq təhlükəsizliyinin xroniki xarakter daşıması adətən inkişaf etməkdə olan ölkələr üçün səciyyəvi hal hesab edilir. Bu proses həmin ölkələrdə iqtisadi inkişaf səviyyəsinin aşağı olması, eyni zamanda büdcə imkanlarının məhdudluğu, kənd təsərrüfatında və onunla bağlı digər sahələrdə intensiv texnologiyaların tətbiqinin aşağı səviyyədə olması, infrastrukturun zəif inkişafı, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması və s. çoxsaylı faktorlarla bağlıdır.

Müasir dövrdə ərzaq təhlükəsizliyi iqtisadiyyatın elə bir sahəsidir ki, mövcud imkanlar hesabına əhalinin sağlam həyat tərzi yaşaması üçün ərzaq məhsullarına olan tələbatını təmin etmək mümkün olsun. Ərzaq təhlükəsizliyi hər bir şəxsin ərzaq istehlakı səviyyəsindən bilavasitə asılı olmaqla qlobal xarakter daşıyır [1].

## Aqrar sferada dövlətin funksiyaları

Müasir şəraitdə iqtisadi proseslərin sabitləşdirilməsi məqsədilə dövlətin həyata keçirdiyi funksiyalar müxtəlidir. İqtisadiyyatın bütün sahələrində, o cümlədən aqrar-sənaye kompleksində formalaşan bazarda dövlətin yerinə yetirdiyi funksiyalar aşağıdakılardır:

- ictimai mühitin və aqrar islahatın həyata keçirilməsi üçün hüquqi bazanın təmin edilməsi;
- xalq təsərrüfatının bütün sahələrində olduğu kimi aqrar sahədə də azad rəqabətin yaradılması;
- qeyri-istehsal sahələrində səmərəli sosia-siyasətin həyata keçirilməsi;
- yerli kənd təsərrüfatı məhsullarının istehsalının artırılması və daxili bazarın qorunması;
- sənaye ilə kənd təsərrüfatı arasında iqtisadi münasibətlərin elmi əsaslarla təmin olunması;
- istehsalın iqtisadi səmərəliliyini təmin etmək üçün elmi-texniki tərəqqinin istehsala geniş tətbiqinə şəraitin yaradılması.

Dövlət öz büdcəsi vasitəsi ilə iki istiqamətdə iqtisadi proseslərə tənzimləyici təsir göstərə bilir:

- büdcənin gəlirləri hesabına xalq təsərraftının bəzi sahələrinin üstün inkişafına nail olmaq üçün onları güzəştli şərtlərlə maliyyələşdirir;
- dövlət büdcəsinin gəlirlərindən istifadə etməklə sosial funksiyalara diqqəti artırır.

Dövlətin aqrar siyasətində kənd təsərrüfatı əmtəə istehsalçılarının davamlı olaraq subsidiyalaşdırılması əsaslı rol oynayır.

**Qərb ölkələrində kənd təsərrüfatının maliyyələşməsi**

Qərb ölkələrində kənd təsərrüfatının maliyyələşməsi aqrar siyasətin əsas prinsipi sayılmaqla himayəçilik fəaliyyəti hesab edilir. Məhz himayəçilik fəaliyyəti ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi məqsədinə xidmət etməklə, eyni zamanda ərzaq məhsulları üzrə xarici ticarət balansında tarazlığın yaradılmasına və milli kənd təsərrüfatı ərzaq sektorunun inkişafının birbaşa dəstəklənməsinə imkan verir [2].

Son illərdə aqrar bölmənin inkişafı üçün güzəştli kreditlər verilir. Bu isə sahibkarlığın inkişafına müsbət təsir göstərir.

Aparılan tədqiqat işi göstərir ki, iqtisadiyyatın başqa sahələri ilə müqayisədə aqrar bazarın əhatə dairəsinə daxil olan özəl əmtəə istehsalçılarının yaradılması daha yüksəkdir. Bunun nəticəsidir ki, ölkə əhalinin kənd təsərrüfatı ərzaq və yeyinti məhsullarına olan tələbatının ödənilməsində yerli istehsalın rolu və xüsusi çəkisi artır. Bu isə bazarda əmtəənin kəmiyyət etibarı ilə həcminin artımı demək deyildir. Belə ki, istehsalçı əvvəlki təsərrüfat sistemindən fərqli olaraq azad rəqabət mühitində fəaliyyət göstərdiyi üçün keyfiyyətə daha çox fikir verir.

Aqrar bazarda təkmilləşmə prosesinin yaradılması müəssisələrin keyfiyyət və qiymət rəqabəti aparmalarını qaçınılmaz etmişdir.

Aqrar islahatlar torpağın və əmlakın özəlləşdirilməsi iqtisadiyyatda sahibkarlıq mühitinin yaradılması xarici kapitalın şərikliyi əsasında birgə müəssisələrin fəaliyyət göstərməsini stimullaşdırır.

**Kənd təsərrüfatı məhsullarının satış problemlərinin həlli**

Hazırda aqrar sahədə fəaliyyət göstərən sahibkarlıq qurumları kənd təsərrüfatı məhsullarının satışı ilə bağılı bir çox problemlərlə qarşılaşırlar. Belə ki, kənd təsərrüfatı məhsullarının mövcud satış sistemi sahibkarların mənafeinə uyğun gəlmir. Bunun əsasında istehsal edilən məhsulların daxili bazarda reallaşdırılmasında çətinliklər yaranır.

Kənddə fəaliyyət göstərən əmtəə istehsalının satış problemini həll etmək məqsədi ilə ölkənin ayrı-ayrı bölmələrində məhsulların regional topdan satış bazarlar və ya birjaların yaradılması problemin həllinə yaxşı təsir göstərər.

Topdansatış bazarlarının yaradılması məhsul istehsalçılarını bir tərəfdən məhsulun daşınması ilə bağlı olan xərclərdən azad edər, digər tərəfdən məhsul istehsalının artırılmasına maddi marağı yüksəldər.

Kənd təsərrüfatı məhsullarını emal edən kiçik müəssisələrin yaradılması, emal müəssələrinin müasir texnika və avadanlıqlarla təchiz edilməsi hesabına onların fəaliyyətinin bərpa olunmasına nail olunmalıdır.

Yerli sahibkarlara güzəştli və uzunmüddətli kreditlərin verilməsi çox vacib bir məsələdir.

Ərzaq təhlükəsizliyi iqtisadiyyatın aqrar bölməsində səmərəli təsərrüfat maliyyə fəaliyyətinin nəticəsi olmaqla yerli əmtəə istehsalçılarının dövlət yardımının həyata keçirilməsi ilə şərtləndirilir.

Dünya dövlətlərinin təcrübəsi göstərir ki, ərzaq təhlükəsizliyi mülkiyyət formasından asılı olmayaraq dövlət tərəfindən bütün təsərrüfat subyektlərinin maraq və mənafeyləri nəzərə alınmaqla həyata keçirilən aqrar siyasətdən asılı olur [3].

Ərzaq təhlükəsizliyinin dövri olan müəyyən vaxt kəskinləşməsi bütün ölkələr üçün səciyyəvidir. Bu baxımdan, hər bir ölkə ərzaq təhlükəsizliyinin dövri olan kəskinləşməsindən sığortalanmamışdır [4].

**Nəticə**

Bazar münasibətlərinə keçidin ilkin mərhələsi üçün ölkədə, eləcədə maddi-nemətlər istehsalının əsas sahəsi kimi aqrar-sənaye kompleksi sistemində maliyyə münasibətlərinin aşağıdakı istiqamətlər üzrə təkmilləşdirilməsini məqsədəuyğun hesab edirik:

- bank sisteminin yeniləşdirilməsi;
- kredit siyasəstinin təkmilləşdirilməsi;
- vergi siyasətinin təkmilləşdrilməsi;
- qiymət siyasətinin təkmilləşdrilməsi;
- daxili bazarın qorunması və gömrük siyasətinin təkmilləşdrilməsi;
- aqrar bölməyə subsidiya verilməsi və investisiya siyasətinin təkmilləşdirilməsi.

**İstifadə edilmiş ədəbiyyat**


1. Abbasov İsmət Dursun oğlu. Ərzaq təhlükəsizliyi və kənd təsərrüfatının prioritet istiqamətləri. Bakı. 2011
2. Е.Н.Борисенко. Продоволъственная безопасностъ (проблемя и перспективы) Москва 2007, 349 с.
3. A.F.Abbasov. Dövlətin ərzaq təhlükəsizliyi, onun mahiyyəti və xarakterik xüsusiyyətləri. Azərbaycan XX əsrdən XXX əsrə. Ali Diplomatiya kolleci “XX əsrin və ikinci minilliyin tarixi” mövzusunda elmi-praktiki konsrans materialları. Bakı.- 2002,176 s.
4. http://anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_may2009/80397.htm

**Zaur Əsədov**
Azərbaycan Dövlət Neft və Sənaye Univesiteti
*asadovz@mail.ru*

# PANDEMİYA DÖVRÜNDƏ KİÇİK VƏ ORTA BİZNESİN RƏQƏMSALLAŞDIRILMASI ZƏRURƏTİ

**Açar sözlər:** pandemiya, biznes, rəqəsallaşdırma, risk, texnologiya, uğur, amil, fəaliyyət

**Giriş**

Ölkəmizdə və dünyada mövcud pandemiya vəziyyəti həm orta, həm də kiçik biznesdə rəqəmsallaşdırma prosesləri stimullaşdıran amillərdən birinə çevrilmişdir. Pandemiyanın yaratdığı şərtlərdə iqtisadiyyat aktiv olaraq öz şəklini dəyişməyə başladı, rəqəmsal iqtisadiyyatın payı artmağa başladı və nəticədə təşkilatların strukturunda da ciddi dəyişikliklər baş verdi.

COVID-19 pandemiyası zamanı rəqəmsal həllərdən geniş istifadə olunduğu üçün o, bugünkü iqtisadi inkişaf haqqında olan müzakirələrin diqqət mərkəzindədir. Şübhəsiz ki, pandemiya yeni texnologiyaların tətbiqini sürətləndirsə də, pandemiyadan əvvəkli son illərdə də texnoloji yeniliklər artıq dünyanmızın dəyişilməsinə aktiv surətdə başlamışdılar.

İlk növbədə birada bir neçə risk amilləri nəzərdən keçirilməlidir. insanların ənənəvi olaraq yerinə yetirdikləri işlərin artıq robotlar və süni intellektlə daha çox əvəzlənməsi cəmiyyətdə robotların yaradacağı işsizlik qorxusu formalaşmışdır. Doğrudan da, dünyada fəaliyyət göstərən sənaye robotların sayı sürətlə artıq: dünya ölkələri üzrə 3 milyon yeni sənaye robotu 2020-ci ilin sonunadək istismara verilmişdir ki, bu da son 5 il üzrə əməliyyat marjının iki dəfədən də çox artmasına səbəb olmuşdur.

**Rəqəmsal texnologiya və iş mühiti**

Ancaq texnologiya eyni zamanda həm də iş yerləri yaradılmasını stimullaşdırır. Rəqəmsal texnologiyanın gətirdiyi əlavə mənfəət KOB genişlənməsinə xidmət edir. Rəqəmsal platformalar eyni zamanda tamamilə yeni peşələr və iş yerləri yaranmasına da səbəb ola bilər. Kiçik və orta müəssisələr bahalı infrastruktur olmadan da uzaq bazarlara daxil ola bilərlər.

Hələ pandemiya başlamazdan əvvəl də bir sıra sahələrdə texnoloji tərəqqi xüsusilə nəzərə çarpırdı. İlk növbədə, texnologiya, xüsusilə rəqəmsal platformaların sürətlə genişlənməsi sayəsində istehsal proseslərininin ənənəvi formasını dəyişikliyə məruz qalmışdı. Rəqəmsal texnologiyalar ənənəvi sərhədlərə, dəyişən qlobal dəyər zəncirlərinə və iş coğrafiyasına meydan oxuyur. Nəticədə, texnologiya, ticarət maneələrini azaltmaq üçün infrastruktur sərmayələrini, sərbəst ticarət razılaşmalarını və digər liberallaşdırma səylərini tamamlayaraq kiçik və orta sahibkarlığın maliyyələ xərcləri azaldır, bu da qlobal dəyər zəncirlərini genişləndirir və iş yerlərinin coğrafiyasını dəyişilməsinə gətirib çıxarır.

Rəqəmsal platformalı yeni model kiçik və orta müəssisələr yerli kiçik startaplardan başlayaraq bu həllərin köməyi ilə sürətlə qlobal iqtisadi korporasiyalara çevrildilər. Rəqəmsal həllər sayəsində az inkişaf etmiş ucqar regionlarda da  müəssisə qrupları formalaşdırmağa şərait yaradıldı.

Daha sonra, texnologiya iş bazarında uğur qazanmaq üçün lazım olan bacarıqların birləşməsində bir sıra yeniliklrə səbəb oldu: xüsusi iş bacarıqları azalmağa başlaadı, robotlarla əvəz edilə bilməyən bacarıqlara görə (məsələn: blişsel, kritik düşüncə, komanda işi, idarəetmə, sosial-davranış bacarıqları) əməkhaqqı mükafatı artmağa başladı. Bu bacarıqları özündə birləşdirənlər mütəxəsislər üçün qazanc payı daha da yüksəlməyə başladı. İnkişaf etməkdə olan iş dünyası, işçilərin bir vəzifədən digərinə daha asan keçməsini təmin edən uyğunlaşma bacarıqlarını tələb edir. 2000-ci illərdən bəri, qeyri-standart bilişsel və sosial-davranış bacarıqlarından istifadə edən peşələrdə çalışanların nisbəti, inkişaf etməkdə olan bazar iqtisadiyyatlarında 19%-dən 23%-dək, inkişaf etmiş ölkələrdə isə 33%-dən 41%-ədək yüksəlmişdir [2, s. 78-84].

Eyni zamanda rəqəmsal texnologiya iş mühitinin özünü də dəyişdirlməsinə təkan verdi. Rəqəmsal texnologiya “standart” uzunmüddətli müqavilələr əvəzinə tez-tez onlayn iş platformaları vasitəsi ilə daha qısa müddətli işlərin geniş yayılmasına şərait yaratdı. Qlobal miqyasda dünyada üç ən böyük onlayn iş platformalarının: ABŞ-da Upwork, Avstraliyada Freelancer və Çində Zhubajia' şəbəkələrinin artıq 60 milyondan çox istifadəçisi vardır [3].

Pandemiya, təbii ki, əvvəlcədən mövcud olan bu tendensiyaları daha da sürətləndirir. Bəzi məqamlar daha da aydın görünür. "Rəqəmsal platformalı firmalar" bazarlarda daha çox üstünlük qazanırlar. Artıq pərakəndə mağazalarının rəqabət edə bilmədikləri üçün Amazon və Alibaba şirkətlərinin daha da böyüdüklərini və gücləndiklərinin şahidi ola bilərik. Şirkətlər, potensial qapanmalara daha davamlı olmaq məqsədilə İnternet üzərindən kiçik və orta müəssisələri idarə etmək bacarıqlarına daha çox investisiya yatırırlar. Buna uyğun bir sıra "iş yerləri" də artmağa davam edəcəkdir. Firmalar özlərini mənfəətlərini qorumaq üçün avtomatlaşdırma və yeni istehsal sahələrinə investisiya qoymaqda daha maraqlı olmağa başlayırlar. İdxal olunan məhsullara əsaslanan bir çox müəssisə istehsal zəncirlərinin pozulması səbəbindən xammal qıtlığı ilə üzləşə bildiklərindən təchizat zəncirinin məhdudiyyətlərə qarşı daha az həssaslığının qayğısına qalmaq məcbiriyyətində olurlar.

Rəqəmsal platformalar yaxın qonşularımızdan Rusiyada da aktiv istifadə olunur, məsələn: Yandex, Avito, Ozon, və s. Bu cür rəqəmsal platformalar bir neçə funksiya və kommersiya imkanları əhatə etdikləri üçün iş modelinin özü kimi çıxış edə bilər. Rusiya rəqəmsal platformaları bir çox cəhətdən xarici platformalara oxşayır və təbii ki pandemiya zamanı insanların özünü təcrid davranışları onların güclənməsinə səbəb oldu. Rusiyada pandemiya səbəbindən aktiv inkişaf edən və KOB-ə öz məhsullarını təklif edən aktiv rəqəmsal platformaların meydana çıxmasını görürük.

Ölkəmizdə də bu sahədə bir sıra aktiv şirkətlər KOB nümayəndələrinə öz yeni rəqəmsal həllərini təqdim etməyə başlamışdır. Buna misal olaraq ASAN sisteminin, onlayn növbə, onlayn imza və eyniləşdirmə vasitələrinin geniş təbiq olunması, maliyyə sistemində rəqəmsallaşmanın artması, B2B sektorda yeni proqram təminatlarının istifadəyə verilməsi göstərmək olar ki, bu sahəyədə dövlərin xüsusi dəstəyi vardır [1].

İşin növündən və yerinə yetirilən tapşırıqlardan, eləcə də rəqəmsal imkanlardan asılı olaraq məsafədən işləmək bacarığı ölkədən ölkəyə və onların daxilində çox fərqli olmasına baxmayaraq rəqəmsal texnologiyalar insanların uzaqdan işləmə qabiliyyətini yaxşılaşdırır. Uzaqdan iş rejimini asanlaşdıran həllərə daha çox zəngin ölkələrdə, yüksək təhsil səviyyəli və hazırlıqlı işçilərdə və daha yüksək mənfəətli işlərdə rast gəlinir. Qadınların və gənc işçilərin uzaqdan işləmə ehtimalı əhəmiyyətli dərəcədə azdır. Bir çox inkişaf etməkdə olan ölkələrdə rəqəmsal infrastruktur əlçatmaz və ya keyfiyyətsizdir.

Qlobal pandemiya bir çox təşkilatı fiziki imkanları bağlamağa və tamamilə uzaqdan idarə olunan bir iş formatına keçməyə məcbur etdi. Hər bir sahibkar üçün internetdəki potensial alıcılar, müştərilər və tərəfdaşlarla əlaqə qurmaq məsələləri maiyyət etibarilə dəyişikliyə məruz qaldı. Nəticədə bu, həm alıcı, həm də tədarükçü baxımından daha geniş kütləyə çıxış əldə etmək imkanı yaratdı.

2020-ci ilin yazında şirkətlərin uzaq işlərə keçməsi - çətin epidemioloji vəziyyətdə xüsusilə aktuallaşdı. Sahibkarlar rəqəmsal texnologiyanın əhəmiyyətini 2020-ci ildə kiçik və orta sahibkarlığın həyat açarı kimi qəbul etdilər. Transformasiyanı həyata keçirə bilənlər bu böhrandan çıxaraq yeni bir rəqəmsallaşma mərhələsinə keçə bildilər, amma səhv prioritetlər səbəbi ilə zərər görənlər də az olmadı.

Rəqəmsal keçid bir çox sahibkarın qeyd etdiyi kimi asan deyil. Menecerlərin qarşılaşdıqları əsas problemlər maliyyə çatışmazlığı, büdcə məhdudiyyətləri olmuşdur. Bölgələrdən olan sahibkarlar bununla daha çox üzləşirlər.

Rəqəmsal məlumat ötürmə kanallarından istifadə edən şirkətlərin sayı, məsələn, korporativ poçt (48%-dən 56%-ədək), CLOUD - bulud həlləri (46%-dən 52%-ə) və müştəri ilə işin avtomatlaşdırılması sistemləri (23%-dən 33%-ədək) artmışdır. Şirkətlər işlərində rəqəmsal texnologiyalardan və İnternet vasitələrindən getdikcə daha çox istifadə edirlər. Daha çox

şirkətlər öz veb saytlarını yaratdılar (2020-ci ildə 75%, 2019-cu ildə 54%). Rəqəmsallaşmanın kiçik və orta müəssisələrin işləmə rahatlığını artırdığına (34% -dən 57%), iş sürətini (33% -dən 53%) və müştəri xidmətlərini yaxşılaşdırdığına inanan sahibkarların payı (15% -dən 22%) artmışdır [5]. Pandemiya şəraitində həm də şirkətlər getdikcə müştəriləri və tərəfdaşları ilə daha çox onlayn ünsiyyətə üstünlük verməyə başlamışlar. Yalnız müştərilər və ya tərəfdaşlarla şəxsən ünsiyyət qurmağın lazım olduğunu düşünən menecerlərin də payı azalmışdır (38% -dən 30%).

Müştərilər bu gün İT xidmət təminatçılarından şəffaflığa, ədalətə və bərabərliyə hər zamankından daha çox dəyər verirlər. Müştərilər, yeni qaydalarla düşünə bilən və ona uyğun olaraq fəaliyyət göstərə biləcək tərəfdaşlar axtarırlar.

İnternetdə şirkətlər ən çox kontekstli reklam (65%) və sosial şəbəkələrdə reklam (58%) kimi xüsusi satış vasitələrindən daha geniş istifadə edirlər. 2020-ci ildə bu vasitələrə daha tez-tez müraciət olunmağa başlanıldı.

**Kiçik və orta biznesin rəqəmsallaşması**

Kiçik və orta müəssisələrin rəqəmsallaşması mütləq iş modelinin köklü çevrilməsini tələb etmir; transformasiya tədricən və müxtəlif səviyyələrdə həyata keçirilə bilər. Rəqəmsal transformasiyanın tətbiqi şirkətləri daha çevik hala gətirir. Lakin bu cür çevik tətbiqlər təbii ki, baha başa gəlir və müəssisənin risk amilini artırır. Əlavə olaraq, "hər situasiyaya uyğun" bir həll yolu olmadığı üçün şirkətlər rəqəmsal transformasiyanın "hansı strategiyasından" istifadə edəcəyini və "harada tətbiq edəcəyini" nəzərə alaraq öz rəqəmsal çevrilmə potensiallarını inkişaf etdirməlidirlər. Strategiya seçimi və rəqəmsal çevrilmənin müvəffəqiyyəti firmaların mövcud rəqəmsal imkanları, dərketmə və öyrənmə mədəniyyəti, rəqəmsal tarix, tərəfdarları ilə inkişaf etmək qabiliyyəti və s. kimi müxtəlif amillərdən asılıdır [4]. İş modelinin rəqəmsal çevrilməsinə dair strategiyasını formalaşdırmağın üç yolunu qeyd etmək olar:

1. Daha çox rəqəmsallaşmış bir firmaya keçidin sürətləndirilməsi. Bu yol yalnız "sıçrayışa hazır" və rəqəmsal bir firma halına gələn bir firma üçün uygun ola bilər. Bu kateqoriyaya aid firmaların daha "qabaqcıl" olduqlarını və digər şirkətlərdən əvvəl bazarda ola biləcək zəif dəyişiklik siqnallarını aşkarlamaq üçün strateji həssaslığa malik olmaqlarını demək olar.

Rəqəmsal texnologiyaların tətbiqi bütün təşkilati funksiyalarda istifadə olunur, lakin tətbiqetmə dərinliyi funksional vəzifələrdən asılı olaraq dəyişir. Pandemiya başlamazdan əvvəl də rəqəmsal texnologiya tətbiq olunduğu üçün satışlar daha çox rəqəmsallaşdırılmış funksiya olmuşlar. Bu mərhələdə pandemiyanın xarici bir stimul rolunu oynadığı, firmanın sağ qalmasını təhdid etdiyi və rəqəmsallaşmanı sürətləndirərək firmanı sürətli cavab verməyə məcbur etdiyi söylənilə bilər.

Sürətli rəqəmsal çevrilmə, yüksək səviyyədə risk daşıyan ümidverici bir rəqabət üstünlüyü təmin edir. Bu tip transformasiya şirkətlərdən rəqəmsal bir təməl qurmağı tələb edir. Bu, öyrənmə mədəniyyəti tərəfindən dəstəklənən və müəyyən bir rəqəmsal savadlılığa çatan rəqəmsal dünyagörüşü və strategiya inkişafı ilə birləşdirilir.

2. Şirkətin yaşaması üçün satışların rəqəmsallaşdırılması. İkinci yol KOB nümayəndələri üçün daha əlverişlidir. Bu qrupdakı firmalar daha çox yaradıcı yollarla gəlir əldə etmək üçün satış funksiyalarını rəqəmsallaşdırırlar.

Satış gücünü rəqəmsal şəkildə dəyişdirmək qərarı, firmaların iflas həddindən xilas edəcəyini gözlədikləri müştəri təcrübəsi sayəsində gəlir əldə etməyə kömək edir. Əslində bu qrupdan olan firmalar hərtərəfli bir rəqəmsal transformasiya həyata keçirməkdə maraqlıdırlar, lakin rəqəmsal yetkinlik səviyyələrinin aşağı olması səbəbindən yalnız satış funksiyasını rəqəmsallaşdırmağa qərar verirlər.

Mövzu üzrə tədqiqatlar aparan firmalar, istehlakçı təcrübələrindən qaynaqlanan və paylama, loqistika və təchizat zənciri üçün fiziki infrastruktur tərəfindən dəstəklənən məhsul və ya xidmət təkliflərini müxtəlif sosial medialarda birləşdirir.

3. Bazara daxil olmaq üçün rəqəmsal ortaqların axtarışı. İş modelinin üçüncü transformasiya üsulu KOB nümayəndələrinin öz tərəfdaşları ilə qarşılıqlı münasibətlərində necə dəyişiklik aparmalı olduğunu nümayiş etdirdi. Rəqəmsal savadı az olan iki şirkət bu qrupa düşür

və ortaq olmaq üçün çox həvəsli tərəfdaşları olan rəqəmsal ekosistemlərdə özünə müttəfiqlər taparaq bu çətinliklərini dəf etməyə çalışırlar.

Rəqəmsal ekosistemlərdən olan bu tərəfdaşlar, nümunə araşdırma şirkətinin xüsusi ehtiyaclarına uyğun olaraq rəqəmsal texnologiyalardan istifadə edirlər və rəqəmsallaşmaya yeni qoşulan şirkətlərə xüsusi məhsullar axtaran müştəriləri ilə ünsiyyət qurmasında təşkilati kömək edirlər.

Bu yanaşmalar kiçik və orta sahibkarlığın üç əsas rəqəmsal yolu izlədiyini nümayiş etdirir: rəqəmsallaşmanı sürətləndirmək, satış funksiyalarını rəqəmsallaşdırmaq və bazarda rəqəmsal tərəfdaşlar tapmaq. Üç rəqəmsal transformasiya yolundan birini seçmək qərarı mövcud rəqəmsal yetkinlik səviyyəsi, öyrənmə mədəniyyəti, rəqəmsal texnologiyaların tarixi və s. ilə müəyyənləşdirilir.

Kiçik və orta sahibkarlar rəqəmsal transformasiyaya öz illik gəlirlərinin 10%-ə qədər hissəsini xərcləyirlər. Bu investisiyaların geri ödəmə müddəti bir ildən beş ilə qədər ola bilər. Eyni zamanda, şirkətlərin 30%-i müvafiq olaraq əmək xərclərinin azaldığını və kiçik və orta biznes proseslərinin səmərəliliyinin artdığını qeyd edirlər ki, bu da şirkətin mənfəət marjasının artmasına səbəb olur.

Kiçik və orta müəssilər məlumatların idarəedilməsi, Əşyaların İnterneti, istehsal proseslərnin robotlaşdırılması və süni intellekt kimi rəqəmsallaşma texnologiyalarından istifadə edirlər.

**Nəticə**

Beləliklə, pandemiya fiziki istehsalçı və aktivlərin sahiblərindən əməliyyat zəncirindən vasitəçiləri kənarlaşdıran rəqəmsal platforma istehsalçılarına keçid prosesini sürətləndirdi.

Bu illər ərzində KOB nümayəndələri tədricən müştərilərinin dəyişən davranışlarına uyğunlaşaraq rəqəmsal texnologiyaya tədriclə keçid prosesində idilər. Pandemiya rəqəmsal transformasiya zərurətini artırdı. Sadəcə olaraq, təşkilatların müştərilərlə əlaqə qura bilmək və bazarda rəqabət edə bilmək üçün rəqəmsal bir varlığa sahib olması zərurəti özünü daha qabarıq göstərdi.

**İstifadə edilmiş ədəbiyyat**


1. "2018–2020-ci illərdə Azərbaycan Respublikasinda rəqəmsal ödənişlərin genişləndirilməsi üzrə Dövlət Proqrami"

2.Абдрахманова Г.И., Гохберг Л.М., Кевеш М.А. и др. Индикаторы цифровой эконо-мики: 2017. / статистический сборник. – М.: НИУ ВШЭ, 2017.

3.Чакраворти Б., Бхалла А., Чатурведи Р.Ш. Самые цифровые страны мира. Harvard Business Review. http://hbr-russia.ru/innovatsii/trendy/p23271

4."Azərbaycan Respublikasının Milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi". https://static.president.az/pdf/38542.pdf

5.https://static.president.az/media/W1siZiIsIjIwMTgvMDkvMjcvNGp3Njkyc2J6d19BTEFWQV9ZRU5JLnBkZiJdXQ?sha=daaeec64cc5ce312

**Aynur Adıgözəlova**
Azərbaycan Kooperasiya Universiteti
*aynur_adigozalova.58@mail.ru*

# SEQMENT UÇOTU ŞƏRAİTİNDƏ MAL EHTİYATLARININ MÜƏSSİSƏNİN ƏMƏLİYYAT SEQMENTLƏRİ ÜZRƏ BÖLÜŞDÜRÜLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ

**Xülasə**

*Ticarət müəssisələrində əməliyyat seqmentlərinin idarə edilməsində mal əməliyyarlarının xüsusiyyətlərindən və seqmentlər üzrə mal bölgüsünün təşkil edilməsi məsələlərindən bəhs edilir. Burada maliyyə hesabatının müvafiq beynəlxalq standartına uyğun olaraq, müəssisə üzrə baş qərar qəbul edicinin bu sahədəki funksiyaları və seqment menecerləri tərəfindən yerinə yetirilməli olan işlər, eləcə də mal bölgüsü prosesinin seqment uçotu şəraitinə uyğunlaşdırılması yolları göstərilir.*

***Açar sözlər:*** seqment uçotu, baş qərar qəbul edici, mal əməliyyatları, pərakəndə ticarət seqmenti, topdanticarət seqmenti, ictimai iaşə seqmenti

## Giriş

Ticarət müəssisələrində seqment uçotunun tətbiqi şəraitində kommersiya əməliyyatlarının idarə edilməsi müəssisənin seqmentar quruluşu ilə sıx əlaqəlidir. Burada vəsaitlərin seqmentlər üzrə bölüşdürülməsi funksiyası baş qərar qəbul edici tərəfindən yerinə yetirilir. "Baş qərar qəbul edici" dedikdə, müəssisənin idarə edilməsi ierarxiyasında son qərarın qəbul edilməsi səlahiyyətinə malik olan şəxs başa düşülür. Ticarət müəssisələrində baş qərar qəbul edici tərəfindən yerinə yetirilən funksiyaların bir sıra özünəməxsus xüsusiyyətləri vardır. Bu, hər şeydən əvvəl, ticarət fəaliyyətinin iqtisadi mahiyyəti və orada baş verən kütləvi kommersiya əməliyyatlarının xarakterik xüsusiyyətləri ilə bağlıdır.

## Müəssisələrdə seqmentin uçotunun tətbiqində qərar qəbulu

Ticarət müəssisələrində seqment uçotunun əsas istiqamətverici məsələləri "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir [1]. İqtisadiyyatın digər sektorlarında fəaliyyət göstərən müəssisələrdən fərqli olaraq, ticarət müəssisələrinin kommersiya fəaliyyətində əsas yeri malların alqı-satqısı əməliyyatları tutur. Burada bütün kommersiya fəaliyyətinin həlledici nəticəsi mal əməliyyatlarından asılıdır. Əgər mal əməliyyatları düzgün, optimal və səmərəli təşkil edilərsə, onda ticarət müəssisələrinin kommersiya fəaliyyətinin uğurlu və effektiv olacağı şübhəsizdir. Mal əməliyyatlarının əsas tərkib hissələrindən birini malların müəssisənin struktur bölmələri arasında bölüşdürülməsi əməliyyatları təşkil edir. Müəssisədə seqment uçotunun tətbiqi şəraititndə baş qərar qəbul edici tərəfindən 2 əsas funksiya yerinə yetirilir:

1) vəsaitlərin müəssisənin əməliyyat seqmentlərinə paylaşdırılması;
2) müəssisənin fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi.

Bütövlükdə götürüldükdə mal əməliyyatlarının hər bir komponenti baş qərar qəbul edicinin nəzarəti dairəsinə daxildir, lakin malların bölüşdürülməsi əməliyyatları bilavasitə seqment uçotunun təsir dairəsinə düşür. Çünki mallar ticarət müəssisəsinin aktivləri içərisində əsas mövqe tutan aktiv növüdür. Ticarət müəssisələrində seqment uçotunun tətbiqi şəraititndə mal bölgüsü geniş məfhum olub, bir tərəfdəm mal ehtiyatlarının seqmentlər üzrə bölüşdürülməsini, digər tərəfdən isə hər bir seqmentin daxilində mövcud olan komponentlər üzrə bölgüsünü özündə ehtiva edir. Mal ehtiyatlarının müəssisənin seqmentləri üzrə bölüşdürülməsi birbaşa olaraq baş qərar qəbul edicinin funksiyasına aid edilir. Bu prosesdə hər bir seqmentə aid olan mal ehtiyatlarının həcmi təyin edilir. Ticarət müəssisələrində malların bölüşdürülməsi prosesləri müəssisənin ümumi marketinq və bazarlama işinin tərkib hissəsi olmaqla, geniş analitik prosedurlara əsaslanan bir sıra iqtisadi-ekonometrik işlərin kompleksindən ibarətdir. İri həcmli ticarət müəssisələrində (təşkilatlarda) mal bölgüsü ilə müəssisənin marketinq və kommersiya

şöbəsində fəaliyyət göstərən xüsusi menecerlər qrupu məşğul olur. Bu mütəxəssislər ardıcıl və sistemli şəkildə marketinq işi aparır, müəssisənin fəaliyyət göstərdiyi regionun, zonanın və ya digər coğrafi ərazinin iqtisadi-ticarət mühitini öyrənir, alıcı tələbatının vəziyyətini qiymətləndirir, mal qruplarına aid olan informasiyaları toplayır və onları analitik qaydada işləyir, həmçinin marketinq sferasına aid olan digər bu kimi çoxsaylı funksiyaları yerinə yetirirlər. Marketinq işinə aid olan belə informasiyalar ticarət müəssisəsinin kommersiya fəaliyyətinin idarə edilməsi prosesində müxtəlif məqsədlər üçün istifadə edilir. Bunlardan biri də mal bölgüsünün yönləndirilməsi işidir. İlk əvvəl, mövcud mal ehtiyatlarının seqmentlər arasında bölgüsü marketinq və kommersiya şöbəsinin menecerləri tərəfindən əsaslandırılmış şəkildə hazırlanaraq, baş qərar qəbul ediciyə təqdim olunur. Həmin bölgü baş qərar qəbul edici tərəfindən təsdiq edildiyi halda qüvvəyə minir və icra edilir. Mal bölgüsünün bu qaydada təşkil edilməsi "Əməliyyat seqmentləri" adlı 8№-li MHBS-nın 7-ci maddəsinin təsiri altına düşür. Standartın həmin maddəsində vəsaitlərin baş qərar qəbul edici tərəfindən müəssisənin əməliyyat seqmentlərinə paylaşdırılması haqqında belə qeyd edilmişdir:

""Baş qərar qəbul edici" termini mütləq xüsusi vəzifə daşıyan idarəetmə işçisini deyil, funksiyanı bildirir. Bu funksiyanın vəzifəsi vəsaitləri müəssisənin əməliyyat seqmentlərinə paylaşdırmaq və müəssisənin fəaliyyətinin nəticələrinin qiymətləndirməkdən ibarətdir. Çox zaman müəssisənin baş qərar qəbul edici şəxsi onun baş icraçı direktoru və ya baş əməliyyat direktorudur, lakin bu, məsələn, icraçı direktorlar qrupu və başqaları da ola bilər" [2].

**Müəssisənin əməliyyat seqmentləri arasında mal ehtiyatlarının bölüşdürülməsi**

Mal ehtiyatlarının müəssisənin əməliyyat seqmentləri arasında bölüşdürülməsi, mal bölgüsünün birinci mərhələsi adlanır və bu mərhələ baş qərar qəbul edici tərəfindən bilavasitə idarə olunmaqla yerinə yetirilir. Mal bölgüsünün bu mərhələsinə dair qərar baş qərar qəbul edici tərəfindən qəbul edilir. Birinci mərhələ üzrə mal bölgüsünün icra edilməsi prosesi mal bölgüsünün ikinci mərhələsini təşkil edir. Bu mərhələdə hər bir seqmentə aid olan mal ehtiyatları həmin seqmentə cavabdeh olan mütəxəssis-menecer tərəfindən seqmentin daxili komponentləri üzrə bölüşdürülür. Bu prosesdə hər bir əməliyyat seqmentinin daxili struktur quruluşu, orada baş verən kommersiya əməliyyatlarının xarakterik xüsusiyyətləri, seqmentin daxili komponentlərinin xarakteri və funksiyaları, eləcə də bu kimi çoxsaylı amillər nəzərə alınır.

Topdanticarət seqmenti üçün ayrılmış mal ehtiyatlarının alıcı və sifarişçi müəssisələr üzrə bölüşdürülməsi zamanı onlarla bağlanmış olan kommersiya müqavilələrində qeydə alınmış şərtlərin məzmunu əsas götürülür. Belə müqavilələrdə bir qayda olaraq, alıcı və sifarişçi müəssisəyə çatdırılacaq malların adı, miqdarı, qiyməti, çatdırma üsulu və digər bu kimi şərtlər razılaşdırılır ki, bunlar da mal bölgüsünü şərtləndirən əsas informasiyalar kimi qəbul edilir.

Müəssisənin pərakəndə ticarət seqmenti üçün ayrılmış mal ehtiyatlarının ayrı-ayrı mağazalar, pərakəndə satış zonaları və ticarət obyektləri üzrə bölgüsü zamanı hər bir bölgü obyekti üzrə mal satışının xüsusiyyətləri, pərakəndə satış mal dövriyyəsinə dair statistik və operativ uçot məlumatları, alıcı kontingentinin spesifik xüsusiyyətləri və digər bu kimi amillər əsas götürülür. Birinci bölgü mərhələsində pərakəndə ticarət üzrə əməliyyat seqmenti üçün ayrılmış mal ehtiyatları bölgünün ikinci mərhələsində bu seqmentə cavabdeh olan menecer tərəfindən pərakəndə ticarət şəbəkəsinin ayrı-ayrı obyektləri arasında bölünür. Bölgü zamanı hər bir obyektin xarakterik xüsusiyyətləri nəzərə alınır.

Müəssisənin ictimai iaşə seqmenti üçün ayrılmış mallar bu seqmentə cavabdeh olan menecer tərəfindən seqmentin daxili komponentlərini təşkil edən ictimai iaşə obyektləri arasında bölüşdürülür. Bu zaman hər bir obyektin xarakterik xüsusiyyətləri nəzərə alınır.

Ticarət müəssisələrində mal ehtiyatlarının bölgüsü malların tədarükü prosesi ilə ticarət şəbəkəsinin mal təchizatı prosesləri arasında əlaqələndirici halqa rolunu oynamaqla, topdanticarət, pərakəndə ticarət və ictimai iaşə seqmentlərində fəaliyyət göstərən ticarət və ictimai iaşə obyektlərinin fasiləsiz olaraq mal ehtiyatlatı ilə təchiz edilməsi proseslərinin, bu sahənin hər biri üçün xarakterik olan logistika işlərinin təşkilində hərəkətverici impuls rolunu oynayır. Belə ki, tədarük edilərək ticarət müəssisəsinin bölüşdürücü anbarlarında saxlanılan mal

ehtiyatları adları çəkilən hər bir əməliyyat seqmentinin təyin olunmuş obyektləri üzrə nəqliyyat-ekspedisiya və logistika tədbirlərinin yerinə yetirilməsi ilə təyinat yerlərinə çatdırılır.

Mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsinin ikinci mərhələsi başa çatdırıldıqdan sonra marketinq və kommersiya şöbəsinin əməkdaşları tərəfindən mal bölgüsü cədvəlləri tərtib edilir və hər bir bölgü cədvəli müvafiq seqment üçün cavabdeh olan menecer tərəfindən imzalanır, baş qərar qəbul edici və ya onun təyin etdiyi bu iş üçün məsul vəzifəli şəxs tərəfindən təsdiq edildikdən sonra seqmentlər üzrə mal təchizatı və mal yeridilməsi proseslərinin təşkil edilməsinə dair müvafiq sənədlərin hazırlanması üçün ticarət müəssisəsinin marketinq və kommersiya şöbəsin müvafiq operativ qrupuna təqdim edilir. Bununla yanaşı, bölüşdürülən malların çeşidləri üzrə satış qiymətləri həmin malların satışının təşkilinə cavabdeh olan müvafiq mütəxəssis-menecerlər tərəfindən müəyyən edilir. Bunların əsasında operativ qrup tərəfindən malların satışına və əməliyyat seqmentlərinin müvafiq obyektlərinə göndərilməsinə dair sənədlər, əsasən, hesab-fakturalar və nəqliyyat-ekspedisiya sənədləri hazırlanır.

**Nəticə**

Beləliklə, ticarət müəssisələrində mal ehtiyatlarının əməliyyat seqmentləri üzrə bölüşdürülməsi və bunun əsasında çoxsaylı ticarət obyektlərinin mal təchizatı prosesinin mütəmadi qaydada və optimal şəkildə yerinə yetirilməsi informasiyaları seqment uçotunun əsas obyektlərindən biri hesab olunur.

**İstifadə edilmiş ədəbiyyat**


1. “Mühasibat uçotu haqqında” Azərbaycan Respublikası Qanunu. Bakı-2004; 11 səh.
2. “Əməliyyat seqmentləri” adlı 8№-li MHBS. -© MHBS Fondu –səh. A2

**Təranə Əhmədova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*a.tarana1962@gmail.com*

# KOMMERSİYA BANKLARININ MÜASİR VƏZİYYƏTİ

**Açar sözlər:** likvidlik, depozit, stavka, kapital

## Giriş

Müasir iqtisadiyyatda kommersiya banklarının fəaliyyətinin inkişaf etdiriməsi və təkmilləşdirilməsi daim aktual məsələlərdan biridir. Yeni iqtisadi şəraitin tələblərinə uyğun olaraq aparılan iqtisadi islahatlar bank fəaliyyətinin daha da təkmilləşdirilməsini, onların yeni prinsiplər əsasında qurulmasını tələb edir. Müasir bank sistemi ikipilləli qaydada qurulduğu üçün ikinci pilləni kommersiya bankları təşkil edir. Kommersiya bankları bir çox müxtəlif funksiyalar yerinə yetirir, əməliyyat aparır, balans tərtib edir, onu təhlil edir və vəzifələr qarşıya qoyur. Banklar məcmu kapitalını və likvid ehtiyatlarını daimi olaraq müəyyən edilmiş səviyyədə saxlamalı, öz öhdəliklərini yerinə yetirmək və zərərə yol verməmək üçün aktivlərin qiymətdən düşməsinə qarşı zəruri tədbirlər görməli, mühasibat uçotu sənədlərini və digər zəruri sənədləri qanunvericiliklə müəyyən edilmiş qaydada tərtib etməli, bank fəaliyyətinə nəzarət mexanizmlərini formalaşdırmalı və tətbiq etməli, zərərin əmələ gəlməsi riskini maksimum şəkildə azaltmaq məqsədilə aktivlərin diversifikasiyasını (bölüşdürülməsini) təmin etməlidirlər [1, fəsil 5, maddə 31.2].

Kommersiya banklarının kapitalının kafiliyi va "likvidlik" məsələləri çox aktualdır. Kommersiya banklarının gəlir va xərcləri, səviyyəsinin etibarlılığı va qiymətləndirilməsi, mənfəətinin formalaşdırılmasının reytinq sistemi məsələlərinin araşdırılması onların işinin zəruri məsələlərindən biridir. Kommersiya banklarının fəaliyyətinin dayanıqlığı üçün onun likvidlik balansının olması zəruridir, yəni kifayət qədər kapitalı olmalıdır, ödəməqabiliyyətli olmalıdır, kapitallarının keyfiyyətinə qarşı irəli sürülən tələbləri təmin etməlidir.

## Kommersiya banklarının xarakterik xüsusiyyətləri

Kommersiya banklarının xarakterik xüsusiyyəti onların ikili ixtisaslaşmasından ibarətdir, bunlara da təsərrüfatçılıq subyektləri ilə iş və ayrı-ayrı şəxslərin depozitlərinin qəbul olunması aiddir. Sonuncular kommersiya banklarına imkan verir ki, təsərrüfatçılıq subyektlərinin fəaliyyətini maliyyələşdirsinlər va habelə özlərinin investisiyalarını maliyyələşdirsinlər. Bu əlamətlərinə görə onlar xaricdə qarşılıqlı kreditlər üzrə cəmiyyətlərə, kooperativlərə, özəl müştərilərlə işləyən va mənzil inşası (ve ya alınması) üçün kreditlər verən əmanət banklarına bölünürlər.

Kommersiya bankları arasında iri banklar fərqlənir. Onlar dövlət qiymətli kağızlarına mütləq vəsait yatırımları ayırırlar, ənənəvi olaraq bankda hesabları olan özəl (xüsusi) şəxslərə qiymətli kağızlar portfelinin idarə olunması şəklində xidmətlər də təklif edirlər. İri banklar pul ehtiyatlarının cəlb edilməsinin səmərəli vasitəsi kimi səhmlərin emissiyasından geniş istifadə edir. Kommersiya bankları həm sadə səhmlərin, həm də imtitazlı səhmlərin emissiyasını həyata keçirir. Mötəbər banklar öz səhmlərini fond bazarında yerləşdirmək imkanına malikdir [4, s.43]. Ölkə ərazisində də fəaliyyət göstərən kommersiya bankları arasında iri banklar fərqlənir. Bu banklar ölkənin milli sərvətlərinin toplayıcısı rolunda çıxış edir, istehsal və tədavül strukturuna iqtisadi təsir orqanı sayılır. Bank xidmətlərinin xüsusiyyəti ondan ibarətdir ki, onlar həm pul əsasına malikdirlər, həm də özüartan dəyər səciyyəsinə malikdirlər.

Kommersiya bankı təsərrüfatçılığın müstəqil subyektidir, hüquqi şəxs statusuna malikdir, bank məhsulunu itsehsal va realizə edir, xidmətlər göstərir, kommersiya hesablaşması prinsipləri üzrə fəaiyyət göstərir [2, s.9-12]. Bankın vəzifəsi müəssisələrin vəzifəsindən az fərqlənir, belə ki, o öz xidmətləri və məhsulları ilə ictimai tələbatın təmin olunması, əldə olunmuş mənfəət əsasında həm öz kollektiv üzvlərinin, həm də bankın əmlakının sahibinin maraqlarının qorunması ilə bağlı məsələləri həll edir. Bank onun nizamnaməsi ilə müəyyən olunmuş istənilən

təsərrüfat fəaliyyəti növünü həyata keçirə bilər.

Kommersiya bankı təsərrüfat hesablı müəssisə sayılır. Bu onu bildirir ki, kommersiya bankının fəaliyyətində məqsəd iqtisadi maraqların realizə olunmasıdır. Bankın işinin bütünlüklə öz iqtisadi maraqlarının realizasiyasına tabe etdirilməsi bütün digər motivlərin və məqsədlərin tabe etdirilməli olduqları ali prinsip sayılır. Bank, müəssisə kimi öz dəyər forması olan məhsul istehsal edir. Bankın məhsulu rolunu kreditlə birlikdə pul dövriyyəsində olan ödəniş (tədiyyə) vəsaitləri oynayır. Müəyyən mənada xidmətlər da bankın məhsulu kimi çıxış edir. Onlara ənənəvi xidmət növləri ilə yanaşı hesablaşmaların təşkili (naqd va naqdsız formada), əmanətlər, kreditləşdirmə ilə yanaşı qeyri-ənənəvi olan zəmanətlərin, zaminliyin, məsləhətlərin (konsaltinq) verilməsi və s. də daxildir.

Bir çox hallarda bank vasitəçi təşkilat kimi xarakterizə olunur [3, s.4-6]. Bank kreditordur, borc alandır va onların arasında vasitəçidir, habelə pul hesablaşmalarında vasitəçidir. Ona görə də o bu funksiyalarda özünün təsərrüfat subyekti kimi mahiyyətini bütünlüklə nümayiş etdirir.

Banklar öz təbiətlərinə görə ilk növbədə kredit və pul münasibətləri ilə bağlıdırlar, hərçənd ki, onlar həm kreditləşdirmə ilə, həm də fəaliyyətin bir çox başqa növləri ilə məşğul olurlar. Onların fəaliyyətinin əsas məhsulu pul və kredit işidir. Kommersiya banklarının fəaliyyətində ən başlıcası iqtisadiyyatda normal təkrar istehsal prosesi mühiti yaratmaq üçün pul-kredit siyasətinin təşkil edilməsi sayılır. Kommersiya banklarının maddi nemətlər istehsalçısı olmamasına baxmayaraq, istənilən müəssisə kimi, onun da öz məhsulu vardır ki, bu da ilk növbədə ödəniş vəsaitlərinin (pul kütləsinin) formalaşdırılması, habelə kreditlərin, zəmanətlərin, konsaltinqlərin (məsləhətlərin) verilməsi, əmlakın idarə olunması şəklində müxtəlif xidmətlərin göstərilməsidir.

**Bankın fəaliyyət mexanizmi**

Bank fəaliyyətinin hərəkətverici motivi mənfəət əldə etməkdir. Lakin kommersiya bankı üçün mənfəətin hansı yolla əldə olunmasının fərqi vardır. Bank kommersiyası prinsipi-daha az investisiya ilə daha çox mənfəət əldə etməkdir.

Bank haqqında qəbul edilmiş qanuna görə kommersiya bankının fəaliyyəti aşağıdakı tələblərin yerinə yetirilməsi üzərində qurulmalıdır:

- kapitalı daha ucuz almalı (mümkün qədər daha az faiz stavkası ödəməli);
- kapital və xidmətləri daha baha satmalı (mümkün qədər daha çox faiz stavkası əldə etməli);
- etibarlı tərəfdaşların seçilməsi va zəmanətlərin alınması, habelə əməliyyatların rəngarəngliyi və ssuda kapitalının müxtəlif bazalarının mənimsənilməsi yolu ilə itki riskini azaltmalı.

Kommersiya bankının fəaliyyətinin sadələşdirilmiş modelindən görünür ki, həmin bank mümkün qədər daha çox faiz gəliri əldə etməyə çalışır. Amma kommersiya bankları qeyri-faiz gəliri adlandırılan mədaxil, yəni kreditlərin verilməsi hesabına olmayan gəlir də əldə edə bilər. Qeyri-faiz gəlirlərinin əldə edilməsi ilə bağlı əsas fəaliyyət növlərinə məsəhət (konsaltinq) yardımlarını, qarantiya va zəmanətlərin verilməsini, mədaxillərdə iştirak etməsini, öz müştərilərinin qiymətli kağızlarının yerləşdirilməsində vasitəçilik etməsini aid etmək olar.

Sonuncu halda kommersiya bankları qiymətli kağızların alqı-satqısı üzrə həm özlərinin vəsaitləri hesabına, həm da müştərilərin tapşırığı ilə əməliyyatlar aparır, həm də digər təsərrüfatçılıq subyektlərinin emissiyasına və qiymətli kağızların realizasiyasına rəhbərlik edir. Xarakterik haldır ki, kvaziinvestisiya istisna olmaqla, kommersiya bankı tərəfindən üzərinə dividentlərin hesablanılmadığı öz səhmlərini almaqla bağlı bütün digər əməliyyatlar (qiymətli kağızlarla ticarət-komisssion əməliyyatlar) gəlirlərin (mənfəətlərin) əldə olunmasına yönəlmişdir.

Adətən ən iri bankların baş (ana) şirkətinin, bir çox ayrı - ayrı banklara va firmalara nəzarət edan maliyyə strukturu olur. ABŞ - da belə konsernlərin başında adətən holdinq korporasiyası durur ki, konsernin aparıcı bankı da ona tabe olur.

Qərbi Avropa dövlətlərində va Yaponiyada belə holdinqin funksiyasını bilavasitə aparıcı bank hayata keçirir. Belə konsernlərdə cəlb olunmuş depozitlərin məbləği çox hallarda on və hətta yüz dəfələrlə konsernin öz kapitalını üstələyir. Ona görə da, bir qayda olaraq, belə banklar üçün müvafiq dövlət idarəsində depozitlərin sığortalanması üçün öhdəlik mövcuddur.

Son illərdə kommersiya banklarının kredit yatırımlarında istiqraz va digər borclar şəklinda dövlət borcu öhdəlliklərinə investisiyalar getdikcə daha artıq rol oynamağa başlayır. Büdcə kəsirlərinin kreditləşdirilməsində iştirak edən kommersiya bankları çalışırlar ki, belə yatırımların müddətini beş illə məhdudlaşdırsınlar. Belə investisiyaların onlar üçün cəlbediciliyi öz ölkələrinin səviyyəsini əlavə imkanlarla yüksəltmək şərtləndirir və başqa ölkələrdə bunları nisbətən asanlıqla və tez naqd vəsaitlərə çevirmək mümkündür. Bank resurslarının ortamüddətli yerləşdirilmələri və xüsusilə də onların ipoteka və kənd təsərrüfatı kreditlərinə verilməsi kommersiya banklarının balanslarında əhəmiyyətli yer tutmur.

Kommersiya banklarının passiv əməliyyatlarında fərqləndirici əlamət ondan ibarətdir ki, bunlarda cəlb olunmuş vasaitlərin qısamüddətli mənbələrinin, əsasən də müştərilərin vəsaitlərinin, eləcə də banklararası əsaslarla cəlb olunmuş depozitlərin üstünlük təşkil etməsidir.

Beləliklə, bank işi üzrə aparıcı mütəxəssislərin fikrincə banklar gələcəkdə öz işlərində aşağıdakılara nail olmaq imkanına malikdir:

- bank sistemi daha çox universal Avropa bank modelinə, nəinki yüksək səviyyəli seqmentasiya səviyyəsi ilə xarakterizə olunan Amerika va ya Yaponiya modelinə oxşar olmalıdır;
- depozitlərin yerləşdirilməsi va qısamüddətli kreditlərin verilməsi üzrə funksiyaları yerinə yetirən müəssisələr kimi bankların rolunun hər yerdə azalması müşahidə olunacaq;
- kapital bazarında xidmət göstərmək üzrə ixtisaslaşan dolayısı vasitəçilər kimi onların fəallığının yüksəlməsi gözlənilir, yəni onların funksiyaları asas etibarilə informasiyanın işlənilməsinə yönələcək;
- bəzi hallarda bank faaliyyətinin genişlənməsi baş verəcək ki, kommersiya bankları birgə əsasda informasiya xidmətlərinin göstərilməsi ilə bağlı üstünlüklərdən istifadə edə bilsinlər və bura da kredit kartları, trast əməliyyatları, sığortalama va s. sistemləri aid etmək olar;
- kommersiya bankları əvvəlki kimi ödəniş sistemində əhəmiyyətli rol oynayacaq.

**Nəticə**

Lakin hazırda kommersiya bankı və ya, kommersiya sənaye fəaliyyəti arasında aydın həddin mövcudluğu şəraiti Fransa, Almaniya va İsveçrə kimi bəzi ölkələr istisna olmaqla ümumi qəbul olunmuş norma halında qalmaqdadır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Banklar haqqında Azərbaycan Respublikasının Qanunu. 4 mart 2005 - ci il.
2. Ş. Ə. Abdullayev, R. V. Əsgərova. Bank işi. -Dərslik.-Bakı:Çaşoğlu. -2009
3. M. M. Bağırov. Banklar və bank əməliyyatları. Dərslik. -Bakı: ADİU.- 2003
4. Sadıqov E. M. . Bank əməliyyatları. Dərs vəsaiti. -Bakı. -2010.

UOT 51.7

**Abbas Səfərov**
Aqrar İslahatlar Mərkəzi
*abbas221@rambler.ru*

# KƏND TƏSƏRRÜFATINDA MÜƏSSİSƏLƏRİN ÜMUMİ GƏLİRİNİN İSTEHSAL HƏCMİNDƏN ASILILIĞININ PROQNOZ MODELİ

Məqalədə kənd təsərrüfatı müəssisələrinin əldə etdiyi gəlirin onları istehsal etdiyi məhsul həcmindən asılılığını əks etdirən əlaqənin proqnoz modeli işlənilməklə modelin adekvatlığı yoxlanılmışdır. Nəticədə belə bir qənaətə gəlinmişdir ki, ölkə üzrə məhsulun istehsal həcminin orta hesabla 1% artması bütün təsərrüfat kateqoriyalarında kənd təsərrüfatı müəssisələrinin gəlirinin təqribən 0,0103% və ya 13,62 mlyn. manat artımına səbəb olur. Azərbaycanda bütün təsərrüfat kateqoriyalarında kənd təsərrüfatı müəssisələrinin gəlirinin məhsulun istehsal həcmindən asılılığının reqressiv təhlili göstərir ki, həqiqətən məhsulun istehsal həcminin yüksək səviyyədə təmin edilməsi ölkəmizdə kənd təsərrüfatı müəssisələrinin inkişafın strateji istiqamətlərindən biri olan gəlirlərinin artırılmasına, bu isə kənd regionlarında əhalinin həyat keyfiyyətinin yüksəlməsinə əlverişli şərait yaratmış olur. Bu qeyd edilənlər aqrar-ərzaq bazarının aktivləşdirilməsini, kənd təsərrüftaı sferasının idarə edilməsinin təkmilləşdirilməsini təmin etməklə ölkədə istehsal prosesinin müsbət tendensiyada inkişafında, müəssisələrin məhsul satışının reallaşdırılmasında, gəlir səviyyəsinin yüksəldilməsində və sonda ölkə və onun regionlarındakı əhalinin həyat səviyyəsinin yaxşılaşdırılmasında əhəmiyyətli rol oynaya biləcəkdir.

***Açar sözlər:*** kənd təsərrüfatı, müəssisə, gəlir, istehsal həcmi, proqnoz

## Giriş

Mövcud şəraitdə kənd təsərrüfatı istehsalını müəyyən edən amillərin sistemli təhlili əsasında həyata keçirilən və bu sahədə istehsalın dayanıqlılığı və səmərəliliyinin artırılması problemlərinə həsr olunmuş yerli və xarici tədqiqatçıların araşdırmalarının onu kifayət dərəcədə əhatə etmədiyini göstərir. Bu isə, fikrimizcə, kənd təsərrüfatı məhsullarının kifayət qədər aşağı məhsuldarlığa malik olması, istifadə edilən sortların yetərli qədər ya təbii-iqlim şəraitinə, ya torpağın relyefinə, ya da onun spesifik xüsusiyyətlərinə uyğunlaşdırılmaması ilə əsaslandırıla bilər.

Kənd təsərrüfatı istehsalının dayanıqlılığı və səmərəliliyinin artırılması ölkənin aqrar-ərzaq təhlükəsizliyinin təmin edilməsi probleminin ən mühüm tərkib hissələrindən biridir. Dayanıqlılıq və səmərəlilik iqtisadiyyatın hər hansı bir sahəsinin inkişafının vacib parametrləridir. Lakin, bunların içərisində kənd təsərrüfatı problemi xüsusilə kəskin olaraq qalır, çünki ölkənin sosial-iqtisadi və siyasi vəziyyətin sabitliyi bu sahənin vəziyyəti və inkişaf səviyyəsindən, təkrar istehsal şəraitindən çox asılıdır [1, s.60-64].

## Kənd təsərrüfatlnda istehsal prosesinin dayanıqlılığı

Kənd təsərrüfatında təkrar istehsal proseslərinin dayanıqlılığı dedikdə, onun istehsal həcminin və mənfəətinin daimi artımını təmin edən iqtisadi sistem kimi vəziyyəti başa düşülür ki, bu da məhdud resurslardan səmərəli istifadə, logistika əlaqələrinin optimallaşdırılması və istehsalın rasional təşkili əsasında kapitalın yenidən sərmayələşdirilməsinin mümkünlüyü şəraitində təmin edilə bilər. Geniş aqrar təkrar istehsalının davamlılığını şərtləndirən xarici təsir amillərini kənd təsərrüfatı məhsullarının istehsalçılarının fəaliyyətinə təsiri baxımından birbaşa və dolayı qruplara ayırmaq olar. Aqrar biznes müəssisələrinin fəaliyyəti ilə birbaşa təsir amilləri arasında sıx qarşılıqlı fəaliyyət və qarşılıqlı təsir müşahidə olunur.

Kənd təsərrüfatı istehsalına birbaşa təsir göstərən xarici amillərə aşağıdakıları aid etmək olar:

- dövlət-inzibati amillər (dövlət tənzimlənməsi,dövlət dəstəyi,yerli hakimiyyət və özünüidarəetmə orqanları tərəfindən tənzimlənmə və dəstək);

- elmi-texniki tərəqqi amilləri (texnoloji, texniki, ekoloji-bioloji, təşkilati-iqtisadi);

- bazar konyunkturası amilləri (əmək, maliyyə, informasiya, material ehtiyatları və məhsul tədarükçülərinin formalaşdırdığı təklif; topdan, pərakəndə və son istehlakçılar tərəfindən formalaşan tələb; rəqabət).

Kənd təsərrüfatı istehsalının davamlılığının obyektiv ehtimalları bir çox hallarda müəssisələrin təsir göstərə bilmədiyi xarici iqtisadi amillərin göstərilən alt qrupu ilə müəyyən edilir ki, bunlara da dövlət investisiya, maliyyə-kredit, qiymət, vergi və sosial siyasət aiddir.

Qeyd etmək lazımdır ki, vahid, bütöv makroiqtisadi sistemin idarə olunmasında həlledici rol məhz dövlətə ayrılır. Təsərrüfat subyektləri və ev təsərrüfatları sosial-iqtisadi obyektlərə, proseslərə, münasibətlərə yalnız öz təsir zonası hüdudları daxilində idarəedici təsir göstərirlər. Dövlətin səlahiyyətlərinə isə bütövlükdə iqtisadiyyata cavab vermək, maliyyə-kredit sisteminin, xarici iqtisadi münasibətlərin tənzimlənməsi sahəsində öz funksional imkanlarından istifadə edərək, onun inkişaf strategiyasını müəyyən etmək aiddir.

Kənd təsərrüfatı məhsulları istehsalının artması onun sənayeləşməsini zəruri edir ki, bu da elmi-texniki tərəqqi amillərinə aiddir. Tədqiqat işində əsas açar amillərinin ümumi tərəqqiyə malik olmasına baxmayaraq, texnogen kapitalın konsentrasiyası vasitəsi ilə kənd təsərrüfatı sahələri vahidində ekologiyanın mənfi təsirini qeyd etməmək mümkün deyildir. Ekoloji-bioloji amilin aktuallaşdırılması üzrə xarici təcrübə aqrar-sənaye kompleksində ekoloji yenidənqurmanın prioritet məsələsinin həllinin zəruriliyini göstərir, bu isə onun səmərəliliyinin, dayanıqlılığının, rəqabət qabiliyyətliliyinin və ölkənin aqrar-ərzaq məhsulları ilə özünütəminatına adaptasiya olunmasına yönəldilmişdir.

Fikrimizcə, dayanıqlı kənd təsərrüfatının qiymətləndirilməsinin ekoloji meyarlarına torpaq örtüyünün vəziyyətini, zərərli qazların emissiyasını, kimyəvi vasitələrdən qorunmanın tətbiqi, sahələrin ölçüləri və enerji statusu, bitki növlərin dəyişməsinin intensivliyi daxildir.

Beləliklə, əkinçiliyin uyğunlaşma (adaptiv) intensivləşdirilməsi yolu ilə inkişafı təbii-iqlim şəraitindən asılı olaraq bitkilərin yerləşdirilməsinin optimallaşdırılmasını, mümkün bitki potensialından daha effektiv istifadə olunmasını, aqrar-kimyəvi maddələrin minimal ekoloji risklərlə istifadəsi səviyyəsinin müəyyən edilməsini nəzərdə tutur.

**İstehsal həcmi və gəlirin asılılığının proqnoz modeli**

Tədqiqat işində, bütün təsərrüfat kateqoriyaları üzrə kənd təsəttüfatı məhsulunun ümümi istehsal həcmi ilə bu sferada fəaliyyət göstərən müəssisələrin gəlirləri arasındakı asılılığının proqnozlaşdırılması üçün reqressiya modelinin qurulmasının məqsədəuyğunluğu qeyd edilmiş və bu məqsədlə göstəricilər arasında əlaqənin statistik asılılığı cədvəl 1-də verilmişdir.

Ümumi halda xətti reqressiv tənliyi (1) formulası şəklində ifadə olunur

$$y=f(x)+u, \quad [2, s.482], \qquad (1)$$

burada: y- asılı dəyişəni,

x-müvəqqəti sıraların kəmiyyətini,

Kənd ərazilərinin dayanıqlı inkişafının müəyyən edilməsi çərçivəsində qiymətləndirilmənin aparılması və kənd ərazilərinin bu növ turizmin inkişafı üçün cəlbedici olduğunun aşkar edilməsi vacib məsələlərdən biri hesab edilir [2, s.25-29]. Kənd ərazilərinin turizm potensialı səviyyəsinin müəyyənləşdirilməsi üçün onun inkişaf potensialını xarakterizə edən əsas göstəricilərin müəyyən edilməsi və qiymətləndirilməsi mərhələləri mütləq formalaşdırılmalıdır.

## Kənd turizminin inkişafının konseptual əsasları

Kənd ərazilərində kənd turizminin mövcud vəziyyətinin nüəyyən edilməsi məqsədilə kənd turizminin inkişafı çərçivəsində turizm potensialı və kənd turizminin inkişaf imkanları baxımından təhlil edilməsi xüsusilə əhəmiyyətlidir. Təhlilin aparılmasında əsas məqsəd İR-da kənd turizminin inkişafı və ona dəstək proqramlarının işlənilməsidir ki, bu da turizm xidmətləri bazarında rayonun turizm məhsulları üzrə brendinin təşviqinin nəticəsi kimi ərazinin turizm üçün əlverişli olması imicinin formalaşdırılmasıdır. Odur ki, kənd ərazilərində kənd turizmi potensialının qiymətləndirilməsinin mərhələli blok-sxeminə müraciət edək (şəkil 1).

Bu məqsədlə işdə Quba-Xaçmaz İR-nun timsalında turizmin inkişaf etdirilməsinin məqsədəuyğunluğunu ifadə edən göstəricilər hesablanmışdır. Quba-Xaçmaz İR-nun xüsusiliyi kənd ərazilərində turizmin inkişaf etdirilməsinə əlverişli imkan yaradır.

Tədqiqatın birinci mərhələsində İR-nun cografi xarakteristikası tədqiq edilərək göstərilir ki, kənd ərazilərinin çox hissəsi, əsasən də Rusiya Federasiyası ilə sərhəd əraziləri xüsusi ekoloji təsərrüfatçılıq rejiminə malikdir.

Turizmin inkişaf etdirilməsi məqsədi ilə Qusar rayonunun Şahdağ ərazisində MDB məkanında anoloqu olmayan müasir tipli qış-yay turizm kompleksi tikilmiş və istifadəyə verilmişdir. Bundan əlavə iqtisadi rayonun ərazilərində turizmin ekoloji, tarixi, dini, işgüzar, idman, çimərlik, çay və digər növlərinin inkişaf etdirilməsi istiqamətində işlər görülür, bütün bunlar dövlət dəstəyi ilə həyata keçirilir və bu məqsədlə 2025-ci ilə qədər turizmin uzunmüddədli inkişafının strateji istiqamətləri müəyyənləşdirilmişdir. İqlim şəraitinin qışda sərt, yayda isti olması burada turizmin mövsümə uyğun inkişaf etdirilməsinə əlverişli şəraiti formalaşdırır.




**Şəkil 1. Kənd ərazilərində kənd turizmi potensialının qiymətləndirilməsinin blok-sxemi**

Qeyd: müəllif tərəfindən tərtib edilmişdir

İR-nun ərazisində beynəlxalq əhəmiyyətli avtomobil yolları, dəmir yolu xətlərinin və dəniz yolunun olması da burada turizmin inkişaf etdirilməsində mühüm rol oynayır. Qeyd edilən

potensialın mövcudluğu Azərbaycanda, o cümlədən Quba-Xaçmaz İR-da turizmin inkişaf etdirilməsi imkanlarının müəyyənləşdirilməsinə şərait yaradır.

Kənd turizminin inkişafının qiymətləndirilməsinin ikinci mərhələsində turizmin infrastrukturunun təhlili aparılır.

Məlumatların təhlili göstərir ki, Quba-Xaçmaz İR-da mehmanxana və mehmanxana tipli müəssisələrdə turistlərin yerləşdirilməsi 2012-ci ilə nisbətə 2017-ci ildə 7,92 dəfə və ya 47251 nəfər artmışdır. Müqayisə edilən illərdə bu tip müəssisələrdə birdəfəlik tutum 1,25 dəfə və ya 2043 nəfər artmışdır. Müsbət artım dinamikası bu İR-da turizmin inkişaf etdiyini göstərir, artım isə yerləşdirmə vasitələrinin nömrə fondlarının (yaşayış otaqlarının) sayının artması ilə əlaqəlidir.

Azərbaycanda mehmanxana və mehmanxana tipli müəssisələrdə 2012-ci ilə nisbətən 2017-ci ildə yerləşdirilmiş şəxslərin sayı dinaminkasında 2,64 dəfə və ya 609,115 min nəfər artım olmuşdur. Ümumilikdə ölkədə yerləşdirilmiş əcnəbilər və vətəndaşlığı olmayan şəxslərin sayında Quba-Xaçmaz İR-nun xüsusi çəkisi 2012-ci ildə 1,8% olduğu halda, 2017-ci ildə bu göstərici 5,5% və ya 3,06 dəfə çox təşkil etmişdir. Bu göstərici Bakı şəhərində-79,1%; Apşeron İR-da-0,3%; Gəncə-Qazax İR-da-1,2%; Şəki-Zaqatala İR-da-8,7%; Lənkəran İR-da-0,3%; Aran İR-da-0,3%; Dağlıq Şirvan İR-da-0,2%; Naxçıvan MR-da 4,4% təşkil etmişdir. Proqnoza əsasən 2020-ci ildə ölkəyə turist axınında mehmanxanalarda yerləşdiriləcək turistlərin sayının 65 min nəfərdən çox təşkil etməsi planlaşdırılır.

Etnik, kənd və turizm elementləri nəzərə alınmaqla Azərbaycanın turizm potensialının qiymətləndirilməsi üçün turizmin məqsədlərinə görə yerləşdirilməsinin xarakteristikası cədvəl 1-də verilir.

**Cədvəl 1.2020-ci ilin əvvəlinə ölkəyə gələn və gedən turistlərin sayı, min nəfər**

| Göstəricilər | Cəmi | Turizm məqsədi ilə | O cümlədən | | | | Digər məq-sədlə |
|---|---|---|---|---|---|---|---|
| | | | İstirahət, əyləncə turizmi | İşgüzar | Müalicə | Dini ziyarət | |
| Azərbaycana gələn beynəlxalq turistlərin sayı, min nəfər | 3170,4 | 2863,5 | 1164,0 | 850,5 | 63,9 | 16,6 | 1075,4 |
| Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının sayı, min nəfər | 5567,7 | 4347,3 | 1251,7 | 848,8 | 268,8 | 250,0 | 2948,4 |
| Beynəlxalq turistlərin turizm məqsədilə çəkdiyi xərclər, milyon manat | 2971,4 | 2683,6 | 1090,9 | 797,2 | 59,9 | 15,6 | 1007,8 |
| Xarici ölkələrə gedən Azərbaycan vətəndaşlarının turizm məqsədilə çəkdiyi xərclər, milyon manat | 2407,6 | 1879,8 | 541,3 | 367,0 | 116,3 | 108,1 | 1274,9 |

Qeyd: [1,s.21-22] məlumatları əsasında müəlliflər tərtib etmişdir

Məlumatların təhlili göstərir ki, Azərbaycana gələn beynəlxalq turistlərin sayında turizm məqsədilə gələnlərin xüsusi çəkisi 90,3% təşkil etmişdir. Bu tərkibdə istirahət və əyləncə turizmi məqsədilə gələnlər-36,7%, işgüzar məqsədlilər-26,8%, müalicə məqsədlilər-2,0%, dini ziyat məqsədlilər-0,5% və digər məqsədlilər-33,9% təşkil etmişdir. Azərbaycan vətəndaşlarının xarici ölkələrə turizm məqsədilə getmə göstəricinin xüsusi çəkisi 78,1% təşkil etmiş və burada da ən çox meyl istirahət, əyləncə turizmi (22,5%) olmuşdur. Eyni zamanda beynəlxalq turistlərin turizm məqsədilə çəkdiyi xərclər ümumi xərclərin 90,3%-ni təşkil etmiş, Azərbaycan vətəndaşlarının həmin məqsədlə çəkdiyi xərclərin xüsusi çəkisi 78,08% olmuşdur [1, s.22]. Aparılmış təhlildən belə bir nəticə formalaşır ki, Azərbaycanın İR-da əyləncə, istirahət turizm növü üzrə turistlərin sayının artırılması meyli digər turizm növlərindən yüksəkdir. Fikrimizcə, bizim ölkəmizin bütün İR-da əyləncə, istirahət turizm növünün inkişaf etdirilməsi məqsədəuyğundur.

Üçüncü mərhələ ekoloji amilləri nəzərə almaqla ərazilərinin seçilməsindən ibarətdir və çirkləndirici müəssisə və istehsalın mövcudluğu rayon ərazilərinin kənd turizminə olan cəlbediciliyini azaldır. Bu zaman iqtisadi rayonun turizm infrastrukturu qiymətləndirildikdə aşağıdakı göstəricilərə əsasən təhlil aparılır: qonaq evlərinin və turistlərin yerləşdirilməsində evlərini istifadəyə verən sahibkarların sayı; rayondakı yolların keyfiyyəti və uzunluğu; rayonda ənənəvi sənətkarlığın mövcudluğu; əhalinin rifahı; əhalinin beynəlxalq dil bilmə səviyyəsi; rayonda cinayətlərin səviyyəsi və s.

Dördüncü mərhələdə rayonun kənd turizminə cəlbediciliyinin qiymətləndirilməsi aparılır və bunun üçün kənd ərazilərinin turistləri qəbul etməyə hazırlıq səviyyəsinin qiymətləndirilməsi aparılır. İR üzrə turistlərin cəlbediciliyinin qiymətləndirilməsində bizim tərəfimizdən aşagıdakı göstəricilərdən istifadə edilməsi təklif edilir: ətraf mühitin çirklənmə səviyyəsi, əhalinin sıxlığı, İR üzrə kənd ərazilərində turizm ilə məşğul olan rayonların sayı, İR-nun Bakının mərkəzindən ara məsafəsi və qəbul edilmiş turistlərin sayı.

Beşinci mərhələdə müvafiq kənd ərazisinə məxsus olan unikal (müstəsna) kənd turizmi resurslarının seçilməsi aparılır. Məlumdur ki, müstəsna resurslar rəqabət üstünlüyü verir və bunlara isti və soyuq bulaqlar, dağ massivləri-relyef və landşaftlar, unikal açıqlana bilməyən hadisələr, fenomenlər və s. təkrarlanmayan obrazlar yaradır və turistlərdə ilkin təsəvvürləri formalaşdırır.

Altıncı mərhələ İR-nun ərazisində kənd turizminin (turizm məhsulunun) təşviqi və formalaşmasını əhatə edir və turizm məhsulları bazarında kənd turizminin bu növünün əlçatanlığı başa düşülür. Bu mərhələdə əsas məsələ iqtisadi rayonda kənd turizminin inkişafı və ona dəstək üzrə proqramların işlənilməsi, brendin yaradılması və kənd turizminin imicinin formalaşdırılmasıdır ki, bu da əldə olunan turizm brendinin turizm xidmətləri bazarına girişini təmin edir.

**Materiallar və metodlar**

Tədqiqat çərçivəsində ərazinin turizm cəlbediciliyinin qiymətləndirilməsində taksonometrik metod tətbiq edilmişdir [3, s.35-39]. Bu metod qarşılıqlı əvəzedilən amillər çoxluğunun nəzərə alınmasına və hesabat nəticələrinə əsasən seçim sıralanmasına imkan verir:

$$X=\begin{pmatrix} x_{11} & \dots & x_{1j} & \dots & x_{1n} \\ \dots & \dots & \dots & \dots & \dots \\ x_{i1} & \dots & x_{ij} & \dots & x_{in} \\ \dots & \dots & \dots & \dots & \dots \\ x_{m1} & \dots & x_{mj} & \dots & x_{mn} \end{pmatrix}, \qquad (1)$$

burada: i=1,...,m-göstəricinin nömrəsi;
j=1,...,n-iqtisadi rayonun nörəsidir.

Bu zaman iqtisadi rayonun göstəricilərə görə əhəmiyyətinin məcmusu matris şəklində verilir və sonra göstəricilərin normalaşdırılması aparılır və bu məqsədlə X matrisini Z matrisi ilə əvəz edək:

$$Z=\begin{pmatrix} z_{11} & \cdots & z_{1j} & \cdots & z_{1n} \\ \cdots & \cdots & \cdots & \cdots & \cdots \\ z_{i1} & \cdots & z_{ij} & \cdots & z_{in} \\ \cdots & \cdots & \cdots & \cdots & \cdots \\ z_{m1} & \cdots & z_{mj} & \cdots & z_{mn} \end{pmatrix}, \qquad (2)$$

burada: $z_{ij} = \frac{x_{ij} - \overline{x_{io}}}{\sigma_{io}^2}$;

$\overline{x_{io}} = \frac{1}{m}\sum_{j=1}^{n} x_{ij}$- bütün iqtisadi rayonlar üçün *i* göstəricisinin orta qiymətidir;

$\sigma_{io}^2 = \frac{1}{m}\sum_{j=1}^{n}(x_{ij} - \overline{x_{io}})^2$ – *i* göstəricisinin dispersiyasıdır.

Normalaşdırılma prosedurunun aparılması mütləq qiymətlərin və göstəricilərin variasiyasının təsirini azaldır.

Sonrakı mərhələdə "etalon iqtisadi rayon"-nun ($Z_{ei}$) formalaşması yerinə yetirilir. Bunun üçün istənilən sətirdə müvafiq göstəricinin ən yüksək (ən aşağı) dəyəri seçilir və xarakteristikası matris-sütun şəklində verilir:

$$\begin{pmatrix} Z_{ei} \\ - \\ Z_{em} \end{pmatrix}.$$

İqtisadi rayondan "etalon rayon" a qədər olan kvazıməsafə $R_{ij}$ bütün iqtisadi royonlar üzrə (3) formulasına əsasən hesablanır:

$$R_{ij} = \sum_{j=1}^{n}(Z_{ij} - Z_{ei})^2, \qquad (3)$$

burada: $R_{ij}$-nin qiyməti minimum olan iqtisadi rayon ən yaxşı hesab edilir.

Dəqiqliyinə və sadəliyinin tətbiqinə görə bu metod digərlərindən üstün hesab edilir [4, s.1-8]. Həmçinin qeyd etmək lazımdır ki, qiymətləndirmə göstəriciləri nə qədər çox olarsa alınnmış nəticələr də bir o qədər dəqiq və obyektiv olur, əsas nöqsan cəhəti isə çox əmək sərfi tələb etməsidir.

**İR-ın kənd turizminə cəlbediciliyinin qiymətləndirilməsi**

Kənd turizminə cəlbediciliyin qiymətləndirilməsi üzrə metodikanın tətbiqi 10 İR-a görə aparılmışdır. Hesablama zamanı biz statistik məlumatlardan istifadə etmişik. Ərazilər üzrə kənd turizmi potensialına təsir göstərən amillərin qiymətləndirilməsi əsasında aparılmış hesablamalar

Azərbaycanın İR-da kənd turizminin inkişaf prioriteti reytinqinin tərtib edilməsinə imkan verir. Bu hesablamaladan belə nəticəyə gəlmək olar ki, ən yaxşı potensial göstəriciyə Dağlıq Şirvan, Naxçıvan MR, Quba-Xaçmaz İR-ı malikdir. Bakı və Lənkəran İR-nın bu göstəricilər üzrə potensialının aşağı olmasına ətraf mühitin çirklənmə səviyyəsinin yüksək olması təsir göstərir və tədqiqatın nəticələrinə əsasən həmin İR-da ətraf mühitin çirklənməsinin qarşısının alınması üzrə müvafiq tədbirlərin görülmıəsi məqsədəuyğun hesab edilir. Həmin vəziyyət Gəncə-Qazax, Şəki-Zaqatala, Aran və Abşeron İR-na da şamildir.

Aparılmış hesabatın nəticələri imkan verir ki, biz tədqiqar işində İR-ı kənd turizminə cəlbediciliyinə görə təsnif edərək sistemləşdirək (cədvəl 2).

**Cədvəl 2**

**İR-lar üzrə kənd turizminə cəlbedicilik səviyyəsi və kriteriyalar**

| S/N | Kənd turizminə cəlbedicilik səviyyəsi | Kriteriyalar | Azərbaycanın iqtisadi rayonları |
|---|---|---|---|
| 1 | Yüksək | $R_i \leq 0{,}024$ | Dağlıq Şirvan, Naxçıvan MR, Quba-Xaçmaz |
| 2 | Orta | $0{,}024 \leq R_i \leq 0{,}044$ | Bakı, Lənkəran, Yuxarı Qarabağ |
| 3 | Aşağı | $0{,}044 \leq R_i$ | Gəncə-Qazax,Şəki-Zaqatala, Aran, Abşeron |

Qeyd: müəlliflərin hesablaması əsasında tərtib edilmişdir

Burada kənd ərazilərinin turizm cəlbediciliyinə görə səviyyəsi yüksək, orta və aşağı səviyyəyə bölünmüşdür. Qiymətləndirilmə aparılan zaman kənd ərazilərinin yüksək səviyyəli cəlbediciliyində $R_i \leq 0{,}024$, orta səviyyəlidə-$0{,}024 \leq R_i \leq 0{,}044$ və aşağı səviyyəlidə-$0{,}044 \leq R_i$ hüdudunda olması hesablanaraq verilmişdir.

**Nəticə**

Aparılmış sistemləşdirməyə əsasən qeyd etmək olar ki, ölkənin İR-nın çoxu kənd turizmi potensialına malikdir, onun həyata keçirilməsi yalnız bu sahə ilə maraqlanan turistlərin cəlbedilməsini deyil, eyni zamanda həmin ərazilərdə gələcəkdə böyük turizm komplekslərinin yaradılmasını şərtləndirir. Qeyd edilmiş istiqamətin inkişaf etdirilməsi və diqqətdə saxlanılması üçün bizim tərəfimizdən respublikada kənd turizminin formalaşdırılması modeli təklif edilmişdir.

**İstifadə edilmiş ədəbiyyat**

1.Azərbaycanda turizm. Statistik məcmuə. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. -Bakı, -2020, -96 s.

2. İsmayılov, V.İ.Azərbaycanda aqroturizmin inkişaf istiqamətləri //-Bakı: Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi Iqtisadiyyat Elmi Tədqiqat İnstitutu, -2017, --№2, -s.25-29

3.Шуваев, М.А. Таксонометрический метод оценки конкурентоспособности строительных предприятий //-Москва: Экономика строительства, -2012, -№5 (16), -с.35-39

4. Шалаева, О.А., Колеснев , В.И.Таксонометрический метод рейтинговой оценки деятельности различных типов и форм сельскохозяйственных организаций //-Москва: Проблемы экономики, -2011, № 4 (35), -с.1-8

UOT 331.5

**Ülviyyə Kərimova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistrant
*ulya_kerimova1992@mail.ru*

# AZƏRBAYCANDA BEYNƏLXALQ TURİZMİN İNKİŞAFININ ƏSAS PRİORİTETLƏRİ

*Məqalədə ölkələrin reytinqinin müəyyənləşdirilməsi göstəriciləri üzrə keçmiş sovetlər ittifaqı və qonşu ölkələrin reytinq sıralanması verilməklə Azərbaycana beynəlxalq turizm axının surətlənməsi amilləri təhlil edilir. Həmçinin tədqiqat işində beynəlxalq turistlərin qəbulu göstəricisi üzrə artım dinamikasının olduğu qeyd edilmiş və 2018-ci ilə nisbətdə 2019-cu ildə bu artımın 11,3 % təşkil etdiyi göstərilir. Məqalədə beynəlxalq turizm xərcləri əsasında bir sıra ölkələrin reytinqi müəyyən edilmiş və bu göstərici üzrə bir nəfər turistin xərclərinin Azərbaycanda 2157 manat həcmində olduğu müəyyən edilmiş və beynəlxalq turist axınının təmin edilməsi istiqamətində bir sıra təklif və tövsiyyələr verilmişdir.*

**Açar sözlər:** reytinq, göstərici, turizm, axın, inkişaf, perspektivlər, prioritetlər

## Giriş

XX əsrin ikinci yarısından təşkilatın, televiziya və ya radio verilişlərinin, tanınmış şəxslərin geniş populyarlıq göstəricisi kimi reytinq termini şərh edilməyə başlanılmışdır. Dominant iqtisadi dəyərlərdə bu sözün istifadəsi ötən əsrin 90-cı illərindən, yəni bazar iqtisadiyyatı formalaşan dövrdən başlanılmışdır. Reytinq-qiymətli kağızların keyfiyyətinin və ya potensial borclarının ödəməqabiliyyəti səviyyəsinin qiymətləndirilməsidir.

Ölkələrin reytinqini müəyyənləşdirən göstəricilər əsasında reytinq agentlikləri və ya kredir reytinqləri agentliyi borc qiymətli kagızların və ya borcalanların keyfiyyəti və riskini qiymətləndirir. Bu zaman agentliklər investorları və kreditorları məlumatlandırmaq üçün onları etibarlılıq dərəcəsi üzrə sıralayır bu və ya digər reytinq təyin edirlər.

## Müəyyən edilmiş göstəricilər əsasında reytinqin sıralanması

Dünya ölkələrinin reytinq səviyyəsi 19 sayda göstəricilər əsasında müəyyənləşdirilərək hər il mütəmadi olaraq hesablanır. Bunlara ölkə iqtisadiyyatının inkişaf səviyyəsi, demoqrafiya, energetika, resurslar, kənd təsərrüfatı, nəqliyyat, xarici ticarət, təhsil, turizm, ətraf mühit, kasıblıq, ərzaq təhlükəsizliyi, su ehtiyatları, tədqiqatlar və işlənilməsi və s. aiddir. Reytinqin müəyyənləşdirilməsi üzrə iqtisadi göstəricilərə ÜDM-in artım tempi, adambaşına ÜDM-in həcmi, istehlak qiymətləri indeksi (İQİ), işsizlik səviyyəsi, ÜDM-ə faizlə cari əməliyyatların hesabı balansı, cəmi dövlət borcu, kasıblıq səviyyəsi, beynəlxalq ehtiyatlar və s. daxildir.

Keçmiş sovetlər ittifaqı və bir neçə qonşu ölkələrin yuxarıda qeyd edilən 19 göstərici əsasında reytinqi hesablanmış, məlumatlara görə onların reytinqi verilir [6]. Reytinqin dəqiq müəyyənləşdirilməsi zamanı ölkələr üzrə daha ətraflı təhlil aparmaq üçün məlumatlar əhatə matrisindən istifadə göstəricisindən əldə edilmişdir [4-6].

Təhlil göstərir ki, cəmi göstəricilər üzrə 1-4-cü pillərdə Estoniya , Latviya, Litva və Türkiyə, 5-9-cu pillələrdə Rusiya, Ukrayna, Gürcüstan və Moldavadava və Azərbaycan yer almışdır. Həmin göstərici üzrə müqayisə olunan ölkələr içərisində son pillərdə Tacikistan, Özbəkistan və Türkmənistan yerləşmişdir. Onu da qeyd edək ki, 1-9-cu sırada yerləşən ölkələrdə qiymətləndirmə kasıblıq, xarici ticarət, səhiyyə, təhsil, ətraf mühit, kənd təsərrüfatı, telekommunikasiyalar, turizm, iqtisadiyyat və energetika sahələri üzrə əldə edilmişdir. Azərbaycanın reytinqinin yüksək səviyyədə olması məqsədilə dövlət və müvafiq təşkilatlar bu istiqamətdə tədbirlər planı hazırlamalı və xarici təcrübədən bəhrələnməklə həyata keçirməlidir.

## Beynəlxalq turizmin dinamikası

Ölkələrin reytinqinin müəyyənləşdirilməsi üzrə göstəricilərə gəlmə və getmə üzrə turistlərin sayı, turizm müəssisələrinin xərcləri, cəmi idxalda turizm xərclərinin xüsusi çəkisi, nəqliyyat xərcləri, səyahət xərcləri, beynəlxalq turizmdən daxiollmalar, sərnişin nəqliyyatından daxilolmalar, səyahət üzrə əmtəələrdən daxilolmalar və s. aiddir.

Beynəlxalq gəlmə turizmi (gecələyən ziyarətçilər)-12 aydan artıq olmamaqla onların adi yaşayış yerləri və səfər etdikləri ölkənin mənbəyindən ödənilən fəaliyyətin əsas məqsədi olmayan ölkəyə gələn turistlərin sayıdır [1]. Bu göstərici olmadıqda turistlər, səyahətçilər, gəmi səyahətində olan sərnişinlər və gəmi heyətinin üzvlərinin sayı üzrə məlumatlar əsas götürülür. Göstəricinin yığım mənbələri və metodları müxtəlif ölkələrdə bir-birindən fərqlənir. Bəzi hallarda məlumatlar sərhəd xidmətləri statistikasından (polis, immiqrasiya xidməti və s.) götürülür və kadastr sorgusu ilə tamamlanır. Digər hallarda isə turistləri yerləşdirməklə məşğul olan təşkilatlardan götürülür. Bəzi ölkələr üçün gəlmə turizmində hava xətti vasitəsi ilə turistlərin gəlməsinə görə, digərlərində isə turistlərin gəlmə payı üzrə mehmanxanalarda yerləşdirilməsinə görə məhdudiyyətlər qoyulur. Hətta, bir sıra ölkələr xaricdə yaşayan öz həmvətənlərinin gəlməsini də bu göstəriciyə aid edirlər. Müxtəlif ölkələrin gəlmə turizmi göstəricisi çox diqqətlə müqayisə edilməlidir, belə ki, göndərilən turistlərinin məlumatı ümumi səfərlərin sayına aid edilir, lakin səyahət edən insanların siyahısına aid edilmir. Beləliklə, müəyyən müddət ərzində bir neçə səyahət etmiş turist olduqda, bu halda o yeni gələn turist kimi hesablanmalıdır [3].

Azərbaycan respublikası üzrə 2014-2019-cu illərdə qəbul edilən beynəlxalq turistlərin sayı dinamikasına nəzər yetirək [6]. Məlumatların təhlili göstərir ki, müqayisə edilən illər ərzində ölkə üzrə qəbul edilən beynəlxalq turistlərin sayı 2015-2016-cı illərdən başqa digər illərdə artım tendensiyasına malik olmuş, bu artım 2014-cü ilə nisbətən 2017-ci ildə 17,4%; 2018-ci ildə-24,0% və 2019-cu ildə-38% təşkil etmişdir. 2015-2016-cı ildə azalma tendensiyasını turizm sektorunda çalışan işçilərin əmək haqqının bütün il üzrə bərabər olmaması ilə izah etmək olar. Həmçinin, 2019-cu ildə səyahət məqsədi ilə Azərbaycana gələn turistlərin istifadə etdiyi nəqliyyat növündə ən yüksək xüsusi çəkiyə hava nəqliyyatı (40,5%) və avtomobil nəqliyyatı (40%) malik olmuş, digər nəqliyyat vasitələri (dəmir yolu, su nəqliyyatı və s.) ilə səyahətə gələnlərin birgə xüsusi çəkisi 19,5% təşkil etmişdir. Fikrimizcə, bu növ nəqliyyat vasitələrindən istifadə edən səyahətçilərin sayının az olması səyahət edənlərin daha da rahat şəkildə turist kimi səyahət edəcəkləri ölkəyə gəlməsini seçmələri ilə şərtləndirilə bilər [2, s.21] .

Azərbaycan respublikasında beynəlxalq turistlərin qəbulu və yerləşdirilməsində digər ölkələrlə müqayisədə heç bir problem olmamış, hətta mehmanxana və mehmanxana tipli yerləşdirmə müəssisələrində müvafiq dövrdə boş yerlərin də qaldığı müşahidə edilmişdir.

**Beynəlxalq turizmdə xərclər**

Turizm sferasının inkişafında önəmli göstəricilərdən biri beynəlxalq turist axını hesab edilir. 2019-cu ildə ümumi olaraq 1,3 mlyrd. beynəlxalq turist səyahət etmişdir və BMT nəzdində olan ÜTT-nin məlumatında bu göstərici ötən ilə nisbətən 8% artmışdır. UNWTO-nun qiymətləndirməsinə görə dünyada turizmin bu artımı iqtisadiyyatın yüksəlməsini və əhalinin yaşayış tərzinin artmasını xarakterizə edir. Dünyada sürətlə inkişaf edən regionlar orta artım göstəricisi 10% olan Avropa və Afrika hesab edilir. Sürətlə inkişaf edən region göstəricisi Şimali Afrikada ötən illə müqayisədə turist axınının 14% artması ilə izahlandırıla bilər [8]. Beynəlxalq turistlərin sayı əsasən Avropa ölkələrində, o cümlədən Avstriya, İsveçrə, Finlandiya, Danimarka, Almaniya, Türkiyə, Çexiya və s. konsentrasiya edilir. Qeyd edilən Avropa ölkələrində əsasən Şimali Amerika ölkələri sakinləri normal səyahət edə bilirlər ki, bu da İE və İEOÖ arasında müəyyən tarazlıq yaradır. Belə ki, hesablamalara əsasən aşagı və orta gəlir sıviyyəsinə malik olan ölkələr bütünlükdə beynəlxalq turizm xərclərinin 30%-ni özlərində cəmləşdirirlər [7].

Dünya ölkələri sırasında iri turizm ixracatçılarına İspaniya, Fransa, İtaliya, ABŞ, Meksika, Tayland, Böyük Britaniya, idxalçılarına Türkiyə, Yaponiya, Sinqapur, Qonkonq, Çin və s. aid etmık olar. Beynəlxalq turizm sferasında aktiv balanslı ölkələr, məsələn Almaniya, ABŞ öz daxili bazarlarında turizm xidməti dəyərinin yüksək olmasına görə, səyahət etməyi planlaşdıran

vətəndaşlarını turizm xidməti az xərc tələb edən ölkələrə göndərirlər. 2019-cu il üzrə beynəlxalq turizm xərclərinin həcminə görə 1-5-ci pillədə Çin, ABŞ, Almaniya, Böyük Britaniya və Fransa yer almışdır. Bu göstəriciyə görə Rusiya, Ukrayna, Azərbaycan, Qazaxıstan və Estoniya olmaqla müvafiq olaraq 9; 38; 58; 63 və 72-ci pillələrdə yerləşmişlər.

Müqayisə edilən ölkələr üzrə bir beynəlxalq turistə çəkilmiş xərclər aşağıdakı şəkildə verilir. Təhlil göstərir ki, beynəlxalq turizm xərclərinin həcminə görə Moldava, Azərbaycan, Rusiya, Ermənistan və Fransa müvafiq ilk pillələrdə, ən az beynəlxalq turizm xərcinə görə isə Gürcüstan, Türkiyə, Belorus, Qırgızıstan, Tacikstan, Qazaxstan və Ukrayna yerləşir. Gürcüstan və Türkiyə ilə müqayisədə ölkəmizdə bir nəfər beynəlxalq turistə düşən xərclər müvafiq olaraq 11,4 və 7,6 dəfə, Belorus, Qırğızıstan və Ukraynaya ilə müqayisədə isə 6,7; 6,3 və 3,2 dəfə çox təşkil edir.




**Şəkil. Beynəlxalq turizm xərcləri, ABŞ dolları / nəfər**
Qeyd: [6] məlumatları əsasında müəllif tərəfinfdən hazırlanmışdır

Azərbaycanda son dövrlərdə turizmin inkişaf etdirilməsi istiqamətində göstərilən cəhdlərə baxmayaraq hələlik turizm məhsulları və xidmətlərinin xərcləri olduqca yüksək səviyyədədir. Hətta, turizm sferası normal inkişaf edən İtaliya, Meksika, İspaniya, Malayziya və Tayland ilə müqayisədə ölkəmizdə bir nəfər beynəlxalq turisə çəkilən xərcin həcmi təxminən 3,2-4,9 dəfə çoxdur. Beləliklə, Azərbaycana beynəlxalq turist axınını sürətləndirmək məqsədilə turizmin inkişafını əhatə edən Dövlət Proqramlarında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi və vaxtında icra edilməsi vacib şərtlərdəndir.

**Nəticə**

Tədqiqatın nəticəsi göstərir ki, Azərbaycana beynəlxalq turist axınını daha da çox cəlb etmək məqsədilə dövlət və ATA-nın tabeliyində fəaliyyət göstərən müəssisələr, həmçinin bu sahədə olan özəl sahibkarlıq subyektləri birgə fəaliyyət çərçivəsində əsasən aşagıdakı məsələlərin həll edilməsini təmin etməyə istiqamətləndirilməlidirlər: iqtisadiyyatın nisbətən əlverişli sahələrindən biri olan turizmə investisiya qoyuluşu sürətləndirilməklə investorlar üçün stimul yaradıcı şərtlərin təmin edilməsi; turizm növlərinin inkişafını şərtləndirən xarıcı təcrübədən yararlanmaqla yüksək ixtisaslı mütəxəssislərin bu sferaya cəlb edilməsi, müvafiq normativ-hüquqi aktların hazırlanması və səmərəli istifadə edilmə şərtlərinin əlçatanlılığı; turizm sferası üzrə yeni layihələrin işlənilməsi,tətbiq edilməsi istiqamətində güzəştli kreditlərin verilməsi; ölkələrin xarici təcrübəsinə əsaslanan iqtisadi inteqrasiya aktivlərinin turizm sferasının inkişafına cəlb edilməsi və s.

**İstifadə edilmiş ədəbiyyat**

1.”Turizm haqqında” Azərbaycan respublikasının qanunu. Bakı.1999
2. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. Azərbaycanda turizm. –Bakı, -2020, -96 s.
3. İsmayılov V. İ. Azərbaycanda turist rekreasiya klasterinin formalaşmasının aktual problemləri.

Əmək Sosial Münasibətlər jurnalı. Bakı. 2018. №9, səh.85-91
4. http://www.mfa.gov.az/files/file/44.pdf
5. https://knoema.ru/atlas/matrix
6. https://knoema.ru/atlas/topics/
7. http://uchebnikirus.com/turizm/mizhnarodniy_turizm_i_sfera_poslug_malska_mp/geografiya_svitovih_turistskih_potokiv.htm
8. http://internationalinvestment.biz/tourism/70-v-2017-godu-chislo-turistov-sovershivshih-mezhdunarodnye-poezdki-vyroslo-na-70-millionov.html

**Lalə Cabbarlı**
Azərbaycan Əmək və Sosial
Münasibətlər Akademiyası
*l_cabbarli@mail.ru*

# İQTİSADİYYATIN DÖVLƏT TƏNZİMLƏNMƏSİNDƏ LİBERAL VƏ DİRİJİST BAXIŞLAR

***Açar sözlər:*** *tənzimlənmə, dövlət müdaxiləsi, liberalizim, dirijizm, fərqli baxışlar*

## Giriş

Makroiqtisadiyyatda əsas müzakirə mövzularından biri dövlətin iqtisadi proseslərə müdaxilə dərəcəsi olmuşdur və bu məsələ aktuallığını hələ də saxlamaqdadır. Elmi ədəbiyyatda və müzakirələrdə əsasən iki fikir üzərində mübahisə olmuşdur. Bəzi elm adamları dövlətin iqtisadiyyata mümkün qədər az müdaxiləsinə, yəni liberallaşmaya, azad iqtisadiyyata üstünlük verir və iqtisadi inkişaf üçün əhəmiyyətli olduğunu qeyd edirlər. Digərləri isə əksinə dövlətin iqtisadiyyata daha çox müdaxiləsini, yəni dirijist iqtisadi siyasətə üstünlük verir və bunu dövlətin sosial öhdəliklərinin yerinə yetirməsi və iqtisadi inkişafı üçün vacib hesab edirlər. Müasir siyasi-iqtisadi sağçılığın nəzəri-ideoloji təməlini neoklassisizm (neoliberalizm), solçuluğunkunu isə neokeynsçilik təşkil edir. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsinə münasibət üzərində qurulan bütün digər nəzəriyyələr neoklassisizmin və neokeynsçiliyin şəkildəyişmələrindən, bəzən isə ayrı-ayrı məsələlər üzrə bunların mövqelərinin müxtəlif kombinasiyalarından ibarətdir [1,s.21]. AMEA İqtisadiyyat İnstitutunda aparılan tədqiqatlarda isə iqtisadi inkişafın dövlətin iqtisadiyyata müdaxiləsinin çox və ya az olmasından deyil, müdaxilənin effektivlik səviyyəsindən asılı olduğu qeyd olunur [2],[3]. Yəni dirijist iqtisadiyyata malik ölkə liberal iqtisadiyyata malik ölkəyə nisbətən daha yaxşı inkişaf edə və sosial rifah daha yaxşı ola bilər.

## Sosial-iqtisadi proseslərin dövlət tənzimlənməsi

Müasir dövrdə sosial-iqtisadi proseslərin dövlət tənzimlənməsinin səmərəli olması xüsusi əhəmiyyət kəsb edir. Çünki əgər tənzimləmə mexanizmi (dövlət müdaxiləsinin çox və ya az olmasında asılı olmayaraq) səmərəli olmazsa, o halda iqtisadi fəaliyyət sahələrində ciddi problemlər yaranır. Xüsusilə, böhran vəziyyətində istənilən dövlət müdaxilə ilə bağlı ziddiyyətli problemlərlə üzləşir: Bir tərəfdən məcmu istehsal həcminin aşağı düşməsi səbəbindən əldə olunan vəsaitlərdən büdcəyə toplanan vergi daxilolmaları azalır, dövlət öz öhdəliklərini icra edə bilmir. Digər tərəfdən isə iqtisadi artım və sabitləşmə siyasətinin təminatı məqsədilə dövlət güzəştlərə getmək məcburiyyətində qalır. Yəni hökumət vergi yükünü artırmadan dövlət maliyyəsini yaxşılaşdırmağa çalışır.

İqtisadiyyata dövlət müdaxiləsinin zəruriliyini təbliğ edən ilk müstəqil anlayışlardan biri Keynsçilik anlayışıdır. Bu, sərbəst bazar sisteminin makroiqtisadi tarazlığını təmin edən və daxili bir mexanizmin olmamasına əsaslanan nəzəri anlayış idi. Bu da dövlətin müstəqil maliyyə siyasəti ilə iqtisadiyyata müdaxiləsini şərtləndirir. Keyns nəzəri platformasının formalaşması ilə paralel olaraq və onun əsasında dövlət tənzimlənməsi nəzəriyyəsi və praktikasında ayrı bir istiqamət ayrılmışdır. Bu istiqamət dirijizm anlayışıdır.

## İqtisadiyyatın dövlət tənzimlənməsində liberal və dirijist baxışlar

Dövlət dirijizmi dövlətin iqtisadiyyatın idarə edilməsində aparıcı, istiqamətləndirici rolu, dövlət orqanlarının iqtisadi proseslərin və münasibətlərin tənzimlənməsində fəal iştirakıdır. Dirijist iqtisadi siyasət yürüdən ölkələr bəzi iqtisadi uğurlara malik olsa da, bu heç də bütün ölkələrdə eyni səviyyədə uğurlu nəticə vermir.

Dirijizmin əsas xüsusiyyətlərinə daxildir:

1. İqtisadiyyata müdaxilənin birbaşa inzibati metodları;
2. Dövlətin fəal sahibkarlıq fəaliyyəti;

3. Güclü dövlət sektoru;

4. Kapital qoyuluşlarının birbaşa maliyyələşdirilməsi;

5. İndikativ planlaşdırma.

Digər iqtisadi yanaşma isə liberalizmdir. Etimoloji olaraq, "liberalizm" və "liberty (azadlıq)" sözləri arasında əlaqə və birləşmə vardır. Lüdvinq fon Mizesə görə "liberalizm bir siyasi doktrinadır" . Mizes, liberalizmin bir "nəzəriyyə" olmadığını, praxeology (insan davranışını öyrenen disiplin), xüsusilə iqtisadiyyat elmi tərəfindən insanın davranış problemlərinə aid inkşaf etdirilmiş nəzəriyyələrin tətbiqi olduğunu deyir. Bir başqa ifadə ilə, liberalizm tətbiqi iqtisadiyyatdan ibarətdir.

Liberalizm ümumən iki əsas qrupa ayrılır. Sosial liberalizm, rifah dövləti nəzəriyyəsi, cəmiyyətçi liberalizm və s. adlarla anılan forması və 20-ci əsrin ən populyar akademik liberallarından Fridrix Hayekin "həqiqi" liberalizm olduğunu iddia etdiyi klassik liberalizm ayırd edilir. Hayekə görə liberalizm, fərd azadlıqları mahiyyətinə əsaslanan və ilk dəfə İngiltərədə meydana gələn, 17-ci əsrdə "Old Whig"-lərin dövründən 19-cu əsr Gladstonun dövrünə qədərki müddətdə inkişaf edən bir siyasi dövrü ifadə edir [4, s.82-95 və 109].

Bəzi ölkələrin iqtisadiyyatının solluğu (sağlığı) indekslərinin müqayisə edilməsi üçün cədvəl 1-ə nəzər salaq.

Göründüyü kimi, ŞAMA (Şərqi Avropa və Mərkəzi Asiya) dövlətləri ilə inkişaf etmiş ölkələr qarışıq ("məntiqsiz") sıralanır və bu o deməkdir ki, iqtisadiyyatın solluğu-sağlığına görə onların hamısını bir-biri ilə müqayisə etmək mümkündür. Təhlil etdiyimiz ölkələr arasında ən sağçı

**Cədvəl 1. ŞAMA dövlətlərində və bəzi inkişaf etmiş ölkələrdə iqtisadiyyatın solluğu (sağlığı) indeksi (I variant)**

| | |
|---|---|
| Sinqapur | 0,151 |
| Gürcüstan | 0,219 |
| Danimarka | 0,309 |
| Makedoniya | 0,316 |
| Qırğızıstan | 0,324 |
| Azərbaycan | 0,348 |
| Norveç | 0,350 |
| ABŞ | 0,355 |
| Ermənistan | 0,356 |
| Qazaxıstan | 0,360 |
| Yeni Zenlandiya | 0,370 |
| Latviya | 0,372 |
| Albaniya | 0,376 |
| Avstraliya | 0,380 |
| Kipr | 0,389 |
| Bolqarıstan | 0,391 |
| Litva | 0,408 |
| Böyük Britaniya | 0,409 |
| Kanada | 0,420 |
| Ruminiya | 0,426 |
| Yaponiya | 0,446 |
| İrlandiya | 0,448 |
| Macarıstan | 0,448 |
| İsveç | 0,453 |
| Monteneqro | 0,455 |
| Bosniya və Hersoqovina | 0,469 |
| İspaniya | 0,469 |

| | |
|---|---|
| Niderland | 0,471 |
| İtaliya | 0,479 |
| Almaniya | 0,489 |
| Moldova | 0,499 |
| Türkiyə | 0,501 |
| Xorvatiya | 0,532 |
| Ukrayna | 0,537 |
| Rusiya | 0,564 |
| Serbiya | 0,609 |
| Fransa | 0,632 |

Qeyd: AMEA Iqtisadiyyat İnstitutunun məlumatları əsasında tərtib edilmişdir

iqtisadiyyat Sinqapura məxsusdur. İnkişaf etmiş dövlətlərdən Danimarkanın, Norveçin, ABŞ-ın və Yeni Zelandiyanın da iqtisadiyyatı sağ qütbdə yer alır. Ən solçu iqtisadiyyatın sahibi isə Fransadır. Onun yanında isə başqa bir inkişaf etmiş ölkə yoxdur. Almaniya, İtaliya, Hollandiya və İspaniyanın iqtisadiyyatı sol qütblə mərkəz arasındadır.

**Nəticə**

Yuxarıda qeyd etdiklərimizi nəzərə alaraq liberalizm və dirijizm arasında bəzi fərqlilikləri qeyd etmək lazımdır. Liberalizm fərdiliyə əsaslansa da, dirijizm kollektiv bir təşkilata doğru gedir. Lakin dirijizm sosializm demək deyil. Dirijizm ilə dövlət müdaxiləsi arasında fərq vardır. Dövlət müdaxiləsində bəzi problemlərin fərdi olaraq həlli düşünülə bilər. Məsələn, bəzi istehsalçılara yardım və ya bəzi fəaliyyət sahələrinin məhdudlaşdırılması kimi, lakin dirijizmdə bütün problemlər ümumi bir siyasətdə toplanır. Müasir dirijizm dövlət müdaxiləsinin ümumiləşdirilmiş və sistemləşdirilmiş formasıdır. Şəxsi azadlığın məhdudlaşdırılması dirijizmin bir nəticəsidir. Ancaq bu müdaxilə istiqamətverici bir müdaxilədir. Bu müdaxilənin məqsədi iqtisadi inkişafı sürətləndirmək və sabit bir vəziyyətdə saxlamaqdır. Qeyd edilənlər dirijizmi inzibati amirlik sistemindən fərqləndirən xüsusiyyətdir.

**İstifadə edilmiş ədəbiyyat**

1. N. Müzəffərli (İmanov). İqtisadiyyat sosialyönlüyü sağçı və solçu sistemlərdə. Bakı: Şərq-Qərb Nəşriyyat Evi, -2014, -274 s.
2. İS(S)İ – 2015: İqtisadiyyatın liberallıq potensialı (N.Müzəffərlinin elmi redaktəsi ilə). – Bakı: “Elm və Bilik” nəşriyyatı, -2017.
3. İS(S)İ – 2016: İqtisadiyyatın liberallıq-dirijistlik səviyyəsi (N.Müzəffərlinin elmi redaktəsi ilə). – Bakı: “Elm və Bilik” nəşriyyatı, -2017.
4. Hayek F.A.Studies in Philosophy, Politics and Economics. Chicago: The University of Chicago Press, 1967.

**Səbinə İsmayılova**
ATMU, magistrant
*sebineismayılova966@gmail.com*

# AZƏRBAYCANDA ELM SAHƏSİNİN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Açar sözlər:** elm, elmi tədqiqatlar, elmi tədqiqatların maliyyələşdirilməsi, vençur kapitalı

## Giriş

1945-ci ildə yaradılmış Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) 78 illik tarixində, xüsusilə də sovet dövründə bir sıra elmi nailiyyətlər əldə edilmişdir. Elm sahəsi bütün tarixi dövrlərdə hər zaman dövlətin və cəmiyyətin inkişafına xidmət etmiş və etməlidir [5]. Dünya elmində baş verən dəyişikliklər, zamanın çağırışları bu gün Azərbaycan elmi qarşısında böyük hədəflər və tələblər qoyur. Dövlət büdcəsindən ayrılan vəsaitlərə uyğun olaraq AMEA ümumdövlət əhəmiyyətli bir çox layihələrin həyata keçirilməsini, həmçinin elmə ayrılan vəsaitlərin rentabelliyini təmin etməli və elm sahəsində səmərəliliyin artırılması üçün elmi işçilərin əmək haqqını dövrün tələbləri səviyyəsində artırmalıdır. Qeyd etdiyimiz hal, hazırda bəzi ölkələr tərəfindən qəbul olunur. Elm sahəsində maliyyələşdirmə DP-nın reallaşdırılması qrantlar şəklində həyata keçirilir.

Azərbaycan Respublikası Prezidentinin qeyd etdiyi kimi, biz istənilən sahədə, o cümlədən elmdə inkişafa yönəlmiş perspektivli sahələr üçün maliyyə ayırmalıyıq. Bu maliyyələşmə təklifi əksər dünya ölkələrində tətbiq olunur (məsələn, İKT sahəsinə xüsusi diqqət ayrılmalıdır ki, bu da ölkəmiz və digər istiqamətlər üçün vacibdir).

## Azərbaycanda elmin dövlət büdcəsindən asılılğı

Qrantlar şəklində bu sahənin inkişafına yönəlmiş vəsaitlərdən müəyyən qədəri I dərəcəli əhəmiyyətə malik olan qabaqcıl istiqamətlərə, o cümlədən elmi doktoranturaya, onunla birlikdə beynəlxalq məlumat bazalarına (SCI, SSGİ, SCOPUS və s.) istifadə edilməlidir. Həmçinin, bunlar elə istiqamətlər olmalıdır ki, həmin təşkilatın aparıcı mütəxəssisləri dünya üzrə şöhrət qazanmış elmi mərkəzlərindən dəvət almalı, araşdırmalar aparmalı, hesabatlarla çıxış etməli və bununla da Azərbaycan elminin beynəlxalq elmlə əlaqələrini gücləndirməlidirlər.

Azərbaycanda elmin dövlət büdcəsindən asılılığını qismən azaltmaq məqsədi ilə beynəlxalq qrantların alınmasına xüsusi diqqət yetirilməlidir: tədqiqat üçün qrantların ayrılması məsələsinə dünyanın aparıcı alimləri ilə birlikdə baxılması məsləhətdir. Qeyd edilən yanaşma alimlərimizə dünya səviyyəsində inteqrasiya etməyə və əldə edilmiş nəticələrinin praktika da tətbiqinə, həmçinin xarici təcrübədən istifadə etməsinə imkan verəcəkdir (məsələn, vaxtilə MDB ölkələrində, o cümlədən Azərbaycanda birgə tədqiqatlara qrantlar ayıran Amerika Mülki Tədqiqatlar Fondunun təcrübəsi faydalı olardı. Avropa İttifaqı çərçivəsində müxtəlif qrantlardan (Horizon və s.) istifadə etmək məqsədəuyğun olardı. Aİ-da İnnovasiya Şurası yaratmaq üçün 2 milyard ABŞ dolları avro vəsait ayrılmışdır və 2021-2027-ci illərdə həmin şuradan fərqli istiqamətlərin inkişafı üçün böyük həcmdə vəsaitin ayrılacağı nəzərdə tutulur. Burada respublikanın bütün ETİ-nin, o cümlədən bu sahədə çalışan alimlərimizin fəaliyyəti ciddi şəkildə gücləndirilməlidir). Başqa bir ehtimal Dünya Elmlər Akademiyasının **(WAS)** İtaliyadakı xidmətlərindən istifadə etməkdir [1]. Dünya Elmlər Akademiyası tərəfindən təşkil olunan elmi forumlarda iştirak və ayrılan qrantlardan istifadə Azərbaycanda elmin inkişafına təkan verəcək və AMEA-nın beynəlxalq əlaqələrinin inkişafına töhfə verəcəkdir. Bu gün Azərbaycanda elmin inkişafında qarşımızda duran ən vacib vəzifələr optimal təşkilati formaların axtarılıb tapılması, prioritet elmi-texniki sahələrin və məqsədyönlü islahatların həyata keçirilməsi, yerli tədqiqatların dünya elminə inteqrasiyası, elmin maliyyələşdirilməsinin daha təsirli formalarının istifadəsidir.

Bu istiqamətdə yerli və xarici amillər nəzərə alınmaqla elmi təşkilatların idarə olunması, strateji idarəetmənin təşkili məsələlərinin həlli də vacibdir. Onu da nəzərə çatdırım ki,

menecment məsələlərinin effektli həll edilməsi, ilk növbədə, müəssisə strategiyasının hazırlanmasından və həyata keçirilməsindən asılıdır.

İqtisadi inkişaf səviyyəsi, ölkə iqtisadi siyasətinin məqsədi və əsas fəaliyyət meyli oradakı elmi potensialın inkişafından və təşkilatların yüksək keyfiyyətli fəaliyyət nəticəsindən asılıdır [1].

Mövcud vəziyyətdə Azərbaycan elm modeli keçmiş sovetlər ittifaqı modelindən xeyli fərqlənir (şəkil 1) [2] .




**Şəkil 1. Sovet və müstəqillik dövründə elmi təşkilatların struktur qruplaşdırılması**
**Mənbə:** [2] əsasında müəllif tərtib etmişdir

Respublikamızda elm sahəsinin inkişafı və onların institusional təşkilində əsas rolu dövlət sektoru oynayır.

Ali təhsil müəssisələrini elmi tədqiqatlara cəlb edilməsi və elm sahəsinə inteqrasiyası sürətlə artmaqda davam edir. Belə ki, ölkə iqtisadiyyatında və xaricdə əldə edilmiş elmi nailiyyətlərin, o cümlədən texniki və texnoloji nailiyyətlərin siyahısı, respublika iqtisadiyyatındakı elmi nəticələrin maddi dividendləri barədə məlumatlar, onların fəaliyyətlərini səmərələşdirmə istiqamətinə yönləndirmək üçün istifadə edilə bilər.

Müasir Azərbaycan iqtisadi elminə sosioloji və psixoloji metodların tətbiqi ilə respublikanın bir çox təşkilat və müəssisələrində, həmçinin elmi təşkilatlarda ayrı-ayrı şəxslərin və qrupların fəaliyyətinin bu təşkilatın səmərəliliyinin artırılması istiqamətində yönləndirilməsi üçün onlardan səmərəli istifadə etmək imkanı yaranmışdır [3].

Beynəlxalq elmi əməkdaşlıq dövlətin elm siyasətinin mühüm bir hissəsi olmaqla, AMEA-nın fəaliyyətinin əsas strateji istiqamətlərindən biridir. Bu gün bizim bir sıra alimlərimiz beynəlxalq layihə və proqramlarda iştirak edir, dünyanın aparıcı tədqiqat mərkəzlərinin tərəfdaşları ilə birgə tədqiqatlar aparır, yüksək impakt faktorlu elmi jurnallarda (Web of Sciens, Scopus və s.) məqalələr dərc edirlər. Çünki bu cür fəaliyyət sistemli deyil, təsadüfi xarakter daşıyır.

Lazımi səviyyədə elmin inkişaf səviyyəsinə çatmaq üçün hələ də çox işlər görülməlidir: inkişaf sektorunu yaxşılaşdırmaq, iqtisadiyyatın neft ixracından asılılığından azad etmək və bilik iqtisadiyyatı, elmtutumlu sahələrindən, yüksək texnologiyalar və innovasiyalar iqtisadiyyatına keçilməsinin təşkili. Buna əsaslanaraq, qarşıya qoyulmuş məqsədlərə çatmaq üçün yeganə yol innovasiya mexanizmlərindən istifadə etməyi öyrənmək, enerji, biotexnologiya, nanotexnologiya və digər elmtutumlu istehsalat sahələri ilə bağlı biliklərə əsaslanan tamamilə yeni sahələri tətbiq

etməkdir. İnnovativ texnologiyaların tətbiqi əmək məhsuldarlığının yüksəldilməsinin və iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafının ən mühüm mənbəyi hesab edilir [3].

**Finlandiya və Azərbaycanda elm və innovasiya xərclərinin təhlili**

Bu gün Azərbaycan elminin ilkin olaraq strateji məqsədlərinə nail olmaq üçün bilik iqtisadiyyatı haqqında bir çox fikirlər formalaşmaqdadır. Dünyanın inkişaf etmiş ölkələrində artıq belə bir fikir yaranmışdır ki, "İnnovasiyalar bilik iqtisadiyyatının əsasıdır". Bu fikri əsaslandırmaq üçün, məsələn, Finlandiya nümunəsindən yararlanmaq daha da məqsədəuyğun hesab edilir. Belə ki, ötən əsrin son onilliyindən etibarən ölkəmizdə elmin, innovasiyaların və elmin maliyyələşdirilməsinə böyük vəsait ayrılır. XXI əsrin əvvəllərindən bəri Finlandiyada elm və inovasiya xərcləri 5 milyard avro və ya da ÜDM-in 3,5 faizi, təhsilə isə ÜDM-in 4,9 faizi və ya 7,4 milyard avroya çatmışdır. Nəticədə, rəqabətqabiliyyətlilik indeksinə görə Finlandiya artıq bir neçə ildir ki, dünyanın aparıcı, lider ölkələri sırasındadır [4].

Fikrimizcə, Finlandiyanın bu uğurunu aşağıda qeyd edilən şərtlərlə əsaslandırmaq olar:

- inkişaf etmiş yenilikçi infrastrukturun mövcudluğu;
- elmi mənbələrin rəqabət əsasında yerləşdirilməsi (müsabiqə əsasında elm sahəsinə vəsaitin ayrılması) və s.

Əgər, biz yalnız xarici ölkələrin istehsalı olan texnologiyaların alınmasına əmin olsaq, onda texnoloji geriliyimizi aradan qaldıra bilmərik, texnologiya və elmi inkişaf etmiş ölkələrdən asılılıq vəziyyətinə düşərik. Buna görə də yalnız öz elmimizin inkişaf etdirilməsinin vacibliyinə ciddi fikir verilməlidir. Bütün bunlara nail olmaq üçün isə ölkənin elmi-texniki potensialını səfərbər etmək, elmin inkişafının prioritet sahələrində toplanmış ehtiyatları birləşdirmək, əldə edilmiş nailiyyətlərdən istehsalda fəal istifadə etmək üçün şərait yaratmaq lazımdır.

Hazırda akademik sektor konsepsiyasının (ASK) məzmunu Azərbaycan Respublikasının qanunvericiliyində genişləndirilmişdir. ASK-ya, həm Milli Elmlər Akademiyasının nəzdində Elmi-tədqiqat institutları, həm də yüksək ixtisaslı kadrlar hazırlayan ali təhsil müəssisələri şəbəkəsidə daxildir. Bu istiqamətdə yaradılmış elmi müəssisə və təşkilatlar büdcədən maliyyələşmədə elmi təşkilatlar kimi fəaliyyət göstərən qeyri-kommersiya təşkilatlarıdır. Bu səbəbdəndə həmin tip elmi təşkilatların ASK-nın elmi təşkilatları əhatə edən konsepsiyasından istifadə etmələri daha məqsədəuyğun olardı.

Göründüyü kimi, hazırda Azərbaycan Respublikasının elmi təşkilatlarında elmi tədqiqatlar müxtəlif növ elmi tədqiqat müəssisə və təşkilatlarında, elm mərkəzlərdə, elmi və tədris müəssisələrində aparılır. Ölkəmizdə ən böyük elmi-tədqiqat təşkilatı Azərbaycan Milli Elmlər Akademiyasıdır. Lakin AMEA ilə yanaşı, ölkənin müxtəlif nazirlik və dövlət idarəetmə orqanlarının nəzdində Elmi-tədqiqat institutları və mərkəzləri də mövcuddur və onlar fəaliyyət istiqamətlərini bilavasitə tabe olduqları Nazirliklərin əhatə etdiyi sahələrdə yeni nailiyyətlərinin tətbiqini həyata keçirir [3].

Qeyd etmək lazımdır ki, Azərbaycan Milli Elmlər Akademiyasının və bütövlükdə ölkənin akademik sektorunun transformasiyası baxımından postsovet məkanı ölkələrində də bu sahədə baş verən proseslərin ümumi tendensiyalarına diqqət yetirmək məqsədəuyğun olardı. Lakin bir vacib məqamı xüsusilə nəzərə almaq lazımdır ki, bütün bunlar, xüsusilə müəssisə və təşkilatların sabit şəraitdə çalışması müsbət səmərə verə bilər. Digər sahələrdə olduğu kimi, elmi təşkilatlar da bu və ya digər səviyyədə gözlənilməz dəyişikliklərlə üzləşməli olurlar. Bu səbəbdən elmi təşkilatlarda idarəetmə reaksiyasının yaxşılaşdırılması istiqamətlərinin öyrənilməsinə xüsusi ehtiyac vardır [4].

Elmi tədqiqatlar inkişaf etməkdə olan ölkələr üçün vacibdir, bu avtomatik olaraq o deməkdir ki, bütün mümkün elmi məlumatlar mümkün qədər tam şəkildə mövcud olmalıdır. Hər bir tədqiqat layihəsinin sonunda nəticələr haqqında əhatəli nəşr olunma prosesi həyata keçirilir.

Azərbaycanda elm və yenilikçi istehsal və s. şirkətlərin müasir vençur biznesinin yaradılması və inkişafı üçün aşağıdakı istiqamətlərin təkmilləşdirilməsi daha məqsədə uyğun olardı:

* kiçik yenilikçi istehsal və texnologiya şirkətlərinin yüksək ticarət potensialının mövcudluğu;

* bu istiqamətin inkişaf perspektivlərini qiymətləndirən və paytaxtda onun təşkilatçılarına faydalı ola biləcək peşəkar menecerlərin olması;

* institusional investorlar tərəfindən depozitləşdirilmiş kapitalın mövcudluğu;

* qiymətli kağızlar bazarının inkişaf etdirilməsi;

* vençur kapitalı, məhsul istehlakının böyük bazar həcmi və şirkətlərin ödəmə qabiliyyəti ilə əlaqələndirilməlidir.

Ümumilikdə, vençur kapitalı təcrübəsinin Azərbaycana cəlb edilməsi, yerli şirkətlərdə, elmi və təhsil müəssisələrində tətbiqi ölkə iqtisadiyyatının inkişafı, onun strukturunun dəyişdirilməsi, yüksək texnologiyalı sahələrin ayrılması, yerli şirkətlərin milli, regional və qlobal səviyyədə rəqabət qabiliyyətinin artırılması baxımından mühüm əhəmiyyət kəsb edir. Vençur kapitalı hər şeydən əvvəl ona görə vacibdir ki, onun tətbiqi ilə Azərbaycan alimlərinin uzun illər boyu işləyib hazırladıqları və müvafiq patent və müəllif hüquqları almış elmi əsərlərinin istehsalını daha da sürətləndirə bilərik. Eyni zamanda, müəssisə kapitalı ilə biz istehsalın yeni istiqamətlərini, xüsusilə informasiya-kommunikasiya texnologiyalarını, nanotexnologiyaları, biotexnologiyaları və elmin digər istiqamətlərini inkişaf etdirə bilərik. Bunun üçün vençur kapitalı sahəsində geniş təcrübəsi və uğurlu nəticələri olan ölkələrin və onların müəssisələrinin fəaliyyətini diqqətlə öyrənmək lazımdır və bu əsasda institusional islahat proqramları hazırlanmalı və ardıcıl olaraq həyata keçirilərək inkişaf etdirilməlidir. Odur ki, inkişaf etmiş vençur bazarlarının müvəffəqiyyəti üçün əsas şərtləri müəyyənləşdirmək və müasir Azərbaycan şərtlərinə tətbiq etmək vacib şərtlərdən biri hesab olunur.

**Nəticə**

Ölkəmizdə ictimai-siyasi həyatın, mənəvi mədəniyyətin bütün sahələrində tikinti işləri və islahatlar aparılır. Heç bir şübhə yoxdur ki, kiçik ölkələrdə böyük elmi sistem qurmaq real deyildir. Ona görə də bu ölkələrdə aparılan yerli elmi tədqiqatlar beynəlxalq miqyaslı elmi tədqiqatların böyük zəncirinin bir hissəsinə çevrilir. Başqa sözlə, kiçik ölkələrdə təməlli elmlə məşğul olmağın yeganə yolu böyük tədqiqat mərkəzləri ilə əlaqə qurmaq, bir növ onlara bağlı olmaqdır. Onu da qeyd edək ki, ölkəmizdə vençur işi sahəsində çalışan mütəxəssislərin hazırlanması məsələsini həll etmək lazımdır, digər bir vacib məsələ isə tədqiqat institutları və ayrı-ayrı tədqiqat qrupları arasında vençur maliyyələşdirilməsinin necə təşkil ediləcəyidir. Bütün bunları nəzərə alaraq qeyd etmək lazımdır ki, tədqiqat institutlarının, onların tərkibində yaradılan və eyni zamanda müstəqil fəaliyyət göstərən tədqiqat qruplarının, ayrı-ayrı tədqiqatçıların elmi fikrinin formalaşmasında öz mövqelərinin və rollarının olduğunu unutmamalıyıq. Bütün bunlar isə qrupların fəaliyyətlərinin keyfiyyəti ilə səciyyələnən, yeniliyə meylli, hərəkətsiz elmi strukturlar və qruplar kimi xarakterizə edilə bilər. İnvestisiya kapitalı da daxil olmaqla maliyyə mənbələrini yenilik yönümlü strukturlara və qruplara xərcləmək və yönəltmək xüsusilə vacibdir.

**İstifadə edilmiş ədəbiyyat**


1. https://xalqqazeti.com/az/news/23530
2. https://rosstat.gov.ru
3. Hacıyev A. Elm və təhsil: gələcəyə aparan yol /30.05.2019/ - http://www.azerbaijan-news.az/view-168583/elm-ve-tehsil-geleceye aparan-yol
4. https://az.wikipedia.org/wiki/Vencur_maliyyələşdirməsi
5. Феоктистова О.А., Результаты труда научных работников: инструменты государственного стимулирования качества // Интернет журнал «Науковедение» выпуск 5(24), 2014 mailto: publishing@naukovedenie.ru

**Aysel Məmmədli**
Azərbaycan Əmək və Sosial Münasiətlər Akademiyası
*ayselsiracqizi95@gmail.com*

# AZƏRBAYCANDA QIŞ TURİZMİNİN İNKİŞAF PROBLEMLƏRİ

**Açar sözlər: qış turizmi, alternativ turizm, məmnunluq səviyyəsi**

## Giriş

Son zamanlarda dünya turizm sektorunda ənənəvi turizm növlərindən alternativ turizm növlərinə keçid baş vermişdir. Turizm sektoru mövsümi xarakterə sahibdir. Turizmin mövsümiliyinin azaldılması məqsədilə ortaya çıxan turizm növlərindən biri də qış turizmidir. Lakin qış turizminin formalaşması, həyata keçirilməsi və inkişafı üçün həmin ərazinin müəyyən xüsusiyyətlərə malik olması zəruri şərtdir. Bu xüsusiyyətlərə sahib olan ölkələr qış turizminin ölkə iqtisadiyyatına sosial və iqtisadi faydalarını gözönündə tutaraq bu turizm növü üçün lazımi infrastrukturu təmin edirlər.

Azərbaycan böyük qış turizmi potensialına sahib ölkələrdəndir. 2012-ci ildə əsası qoyulan Şahdağ və 2014-cü ildə əsası qoyulan Tufandağ qış turizm mərkəzləri də bu sahədə görülən ən mühüm tədbirlərdəndir. Bunlarla bərabər qış turizminin inkişaf etdirilməsi strategiyası bununla kifayətlənməməli, qış turizmi potensialına sahib olan digər regionlarımızda da infrastruktur təmin edilməlidir.

Azərbaycanda qeyri-neft sektoruna qarşı son illərdə daha çox diqqət göstərilməkdədir. Belə ki, 2003-cü il 24 noyabr tarixində ölkə başçısının sosial – iqtisadi inkişafın sürətləndirilməsinə yönəldilmiş tədbirlər və 2004-cü il 11 fevral tarixində 2004-2008 illərində Regionların İnkişafı üçün dövlət proqramı kimi regionların inkişafına dair ölkə başçısının başlatdığı və planlı bir şəkildə istifadəsini, ölkə turizm sektorunun təkmilləşdirilməsini təşviq etmişdir. Ölkəmizdə qış turizmi yeni bir turizm növü olaraq bilinsə də, SSRİ dövründə də qış turizmi insanların marağına səbəb olmuşdur. Bu dövrdə Şamaxı şəhərində bəzi ərazilər xizək sürmək istəyənlər tərəfindən istifadə edilirdi. Son 10 ildə Azərbaycanda qış turizmi inkişaf etmədiyi üçün vətəndaşlar qış mövsümündə qış turizminin inkişaf etdiyi başqa ölkələrə səfər edirdilər. Son illərdə ölkəmizdə qış turizminin inkişafını dəstəkləyən proqramların hazırlanması bu turizm növünün geniş vüsət almasına səbəb olmuşdur.

## Azərbaycanda qış turizminin inkişaf istiqamətləri

Azərbaycanda iki böyük qış turizmi mərkəzi fəaliyyət göstərir. Bunlardan biri Quba-Xaçmaz iqtisadi rayonunda fəaliyyət göstərən Şahdağ qış turizmi mərkəzidir. Təbii mənzərəsi, saf təmiz havası, uca dağları, mineral sular və qumlu çimərlikləri bölgənin zəngin turizm ehtiyatlarıdır. Böyük Qafqazın yüksək dağ zirvələri olan Bazardüzü, Şahdağ və digərləri bu bölgədə yerləşir. Paytaxt Bakıya yaxın olması isə turist axınının artmasına səbəb olan ən önəmli amillərdən hesab olunur [1, s. 31-32].

İqtisadi cəhətdən inkişaf etməmiş Quba-Xaçmaz rayonunda qış turizminin inkişafı eyni zamanda bölgənin sosial, siyasi, iqtisadi baxımdan da canlanmasını təmin edir. Azərbaycanda qış idman növlərini və xizək sürmə mədəniyyətinin insanlar arasında yayılması Şahdağ qış turizm mərkəzinin əsas məqsədlərindən biridir.

Şahdağ qış turizm mərkəzi fəaliyyətə başladığı gündən təqribən 200 min yerli və xarici turistin ziyarət etdiyi destinasiya olmuşdur. Bu mərkəzdə 17 kilometrelik xizək sahəsi və 9 ədəd kabin mövcuddur. Qış turizminin fəaliyyət müddəti 120 gündür. Mərkəzin ərazisində 4 otel fəaliyyət göstərir.

Digər qış turizm mərkəzi isə Şəki-Zaqatala bölgəsində yerləşən Qəbələ şəhəri ərazisindəki Tufandağ qış turizm mərkəzidir. Şəki-Zaqatala bölgəsi ölkənin tarixi-mədəni abidələrlə zəngin regionudur. Bölgədə həm yaz, həm qış turizminin inkişafı üçün şərait mövcuddur. Qəbələ şəhəri Azərbaycan Dövlət Turizm Agentliyinin açıqlamasına görə,

Banqladeşin paytaxtı Dəkkədə həyata keçirilən İslam Əməkdaşlıq Təşkilatının Turizm Nazirləri X konfransında 2020-ci ilin turizm paytaxtı elan edilmişdir. Qəbələdə qış turizminin inkişafı və potansialının ortaya çıxarılması məqsədilə Tufandağ qış-yay turizm rekreasiyan mərkəzi yaradılmışdır (cədvəl 1). Qəbələ şəhərində istifadəyə verilən hava limanının şəhərə 25 km – lik məsafədə olması bu turizm mərkəzininin əlçatan olmasına səbəb olur. 2014-cü ildə istifadəyə verilən Tufandağ qış-yay turizm kompleksi 15 kilometrelik əyriliyə sahibdir və kompleks ərazisində 5 kabin mövcuddur. Turizm kompleksi 110 gün fəaliyyət göstərir.

**Cədvəl 1**

**Turizm komplekslərinin xatakterik xüsusiyyətləri**

| Qış turizm mərkəzinin adı | Meyillilik səviyyəsi, km | Lift sayı | Fəaliyyətdə olduğu günlərin sayı | Dəniz səviyyəsindən hündürlüyü, m |
|---|---|---|---|---|
| Şahdağ | 17 | 9 | 120 | 1430-2520 |
| Tufandağ | 15 | 9 | 110 | 1400-2470 |

Mənbə: [2, s.70]

Ölkəmizdə qış turizminin inkişafına imkan yaradan ən mühüm şərtlərdən biri də iqlimdir. Belə ki, dünya coğrafiyasında mövcud olan 11 iqlim tipindən 9-u respublika ərazisində yerləşir.

Coğrafi mövqeyinə görə Azərbaycanda yay ayları isti və rütubətli, qış ayları isə Xəzər dənizinin təsiri ilə mülayim keçir. Ölkə ərazisinin dağlıq bölgələri isə daha soyuq iqlim tipinin hakim olduğu ərazilərdir. Bu da yüksək dağlıq ərazilərdə qarın yağmasına, uzunmüddət yerdə qalmasına şərait yaradır [ 4, s.202].

Azərbaycanda qış turizmi bazarının yaxşılaşdırılması istiqamətində görülən tədbirlərdən biri də bu turizm növünün geniş yayıldığı Avropa ölkələrinin, Türkiyə Cümhuriyyətinin təcrübəsindən faydalanmaqdır. Ölkə ərazisinin 50 %-ni dağlıq ərazilər təşkil edir. 200-1000 metrə qədər yüksəkliklər ölkənin 31%-ni, 1000-2000 metrə qədər yüksəkliklər 19,5 %-ni, 2000-3000 metr yüksəkliklər isə 6,5 %-ni tutur. Yüksəkliyi 3000 metrdən yüksək olan ərazilər respublika ərazsinin 1 %-ni təşkil edir [3, s.125-126].

Qış turizmi üçün ən uyğun bölgələr Böyük və Kiçik Qafqazın orta dağlıq bölgələridir. Bu bölgələrdə xizək sahələrinin qurulması üçün yetəri qədər imkan mövcuddur və qar örtüyü 90-120 gün yerdə qalır.

Azərbaycanın şimalında yerləşən və qış turizm potensialına malik olan Şamaxı şəhərinin iqlimi, coğrafi mövqeyi qış idman növlərinin inkişaf etdirilməsi üçün çox uyğundur. Lakin bu regionda qış turizminin inkişafı üçün investisiyaların yatırılmaması, turizm potensialının doğru dəyərləndirilməməsi turizm fəaliyyətlərinə əngəl olur.

Şəki-Zaqatala bölgəsində Qəbələdən sonra Balakən və Qax rayonlarında da xizək sürmək imkanını təmin etmək və qış turizm növünü inkişaf etdirmək üçün bu sahədə tədbirlər görülmüşdür.

Naxçıvan şəhərinin də yüksək dağlıq əraziləri və iqlimi qış turizminin inkişafı üçün əlverilişlidir. 29 noyabr 2018-ci ildə ölkə başçısı Naxçıvan Ağbulaq turizm mərkəzinin inşa edilməsi ilə əlaqədar sərəncam imzalamışdır. 2018-ci ilin iyul ayında bu mərkəzin tikintisinə başlanılmışdır. Mərkəz ərazisində 58 ədəd kabinin olması nəzərdə tutulur. Bu isə saatda 1000 nəfərin kanatdan istifadə etməsinə şərait yaradacaqdır.

Qeyd etdiyimiz üzrə, ölkəmizdə böyük qış turizm potensialı mövcuddur. Buna baxmayaraq, mövcud turizm potensialını ortaya çıxarmaq, turizm sektorunun inkişaf etdirilməsui ilə qtisadi yüksəlişi təmin etmək zəruri şərtdir. Qış turizm mərkəzlərində sadəcə 4 və 5 ulduzlu otellərin olması, başqa alternativlərin olmaması, bu otellərin qiymət baxımından rəqib olmadığını göstərir. Qış turizminə olan tələbi artırmaq, qış turizm məhsullarının təkmilləşdirilməsi üçün lazımi şərtlərin ödənməsi məqsədilə qış idman oyunları mərkəzlərinin yaradılması dəstəklənməlidir.

Şahdağ qış-yay turizm mərkəzində qiymətlər tez-tez dəyişilir. Zirvə otelin verdiyi məlumata görə yeni tarif siyasətinə görə hər ay, hətta günlük tələbata görə qiymət dəyişikliyi

tətbiq edilir. Ötən il Zirvə oteldə adambaşına günlük qiymət 100 AZN, iki nəfərlik qiymət 140 AZN, üç nəfərlik gecələmənin qiyməti isə bir otaq üçün 250 AZN təşkil edirdi. Bu il isə bir nəfərlik gecələmə qiyməti 129 AZN, iki nəfərlik gecələmənin qiyməti 150 AZN olmuşdur (Rüstəmova, 2016: 39-40). Başqa ölkələrdəki qış turizm mərkəzlərində tətbiq edilən gecələmə qiymətlərinə diqqət yetirsək görərik ki, Türkiyənin Bursa şəhərində yer alan Uludağ qış turizm mərkəzində 4 günlük tətilin qiyməti bilet qiyməti də daxil olmaqla 650 AZN təşkil edir. Şahdağ qış turizm mərkəzində isə 4 günlük tətilin qiyməti 500 AZN-dir. Uludağdaki xizək yolunun uzunluğu Şahdağ qış-yay turizm kompleksində olan xizək yolundan daha uzundur [5, s.40].

Uludağda fərqli müştəri qrupları üçün müxtəlif otel növləri mövcuddur. Lakin Azərbaycanda fəaliyyət göstərən qış turizm mərkəzlərində otellər 4 və 5 ulduzludur. Bundan əlavə, Uludağ qış turizm mərkəzində müştərilərə 30-40 % faiz endirim güzəştləri tətbiq edilir. Gürcüstanda fəaliyyət göstərən Bakuryani qış turizm mərkəzi də, ölkəmizdəki turizm mərkəzlərinə nisbətdə daha uyğun qiymətə xidmətlər təklif edir. Burada 20-150 dollar arası xidmət verən otel tapmaq mümkündür. Göründüyü kimi, qonşu respublikalarla müqayisədə ölkəmizdəki qiymətlər yüksəkdir. Hər kəsin gəlir səviyyəsi eyni deyil. Buna görə də yalnız gəlir səviyyəsi yüksək olan insanlar deyil, daha az gəliri olan insanlar da bu xidmətlərdən faydalanmalı, mərkəz ərazisində otel sayı artırılmalıdır.

Ölkədə baş verən devalivasiya da turizmin inkişafına əngəl törədən nüanslardan biridir. Belə ki, devalivasiyadan sonra turizm xidmətləri satan turagentliklərin məhsullarının qiymətində artım qeydə alınmışdır. Bu artım həm yerli, həm xarici turist sayının azalmasına səbəb olmuşdur.

Ölkədə turizm sənayesinin düzgün təşkil edilməsi, turizm bazarının geniş təhlili, turistlərin tələbatlarını ödəyən məhsulalrın hazırlanması, xidmət keyfiyyətinin yüksəldilməsi, ölkə ərazisində qış turizm mərkəzlərinin sayının artırılması ölkəyə qış turizmindən istifadə etmək məqsədilə gələn turist sayının artmasına müsbət təsir göstərəcəkdir.

**Qış turizminin araşdırılmasında sorğu anketindən istifadə**

Araşdırma metodu olaraq onlayn bir anket istifadə edilmişdir. Anketin hazırlanmasında istifadə olunan suallar açıq-aydın və qısa, insanların asanlıqla başa düşəcəyi şəkildə hazırlanmışdır. Anket 31 sualdan və iki bölümdən ibarətdir. Birinci bölümdə anket iştirakçılarının cinsiyəti, yaşı, ailə vəziyyəti, təhsili və gəlirləri ilə bağlı suallar verilmişdir. İkinci bölümdə heç məmnun deyiləm, məmnun deyiləm, qərarsızam, məmnunam, çox məmnunam kimi beş variantdan ibarət seçimlər hazırlanmış və 26 sual şəklində iştirakçılara təqdim olunmuşdur.

Əldə etdiyimiz məlumatlar sentyabr-noyabr ayları arasında təxminən iki ay müddətində toplanmışdır. Anket iştirakçılara e-mail və facebook sosial media vasitəsilə göndərilmişdir. Araşdırmanın nəticəsində Azərbaycan qış turizm mərkəzlərində ən az bir dəfə olmuş 400 nəfər tərəfindən doldurulmuş anket bilgiləri əldə edilmiş və aparılmış tədqiqatdan aşağıdakı nəticə əldə edilmişdir.

**Nəticə**

Beləliklə, qış turizmindəki mövcud problemləri iki qrupa ayırıb dəyərləndirmək olar:

Mikro problemlər:

- turistlərə uyğun turpaketlərin olmaması;
- turizm mərkəzlərindəki xidmət səviyyəsinin aşağı olması;
- qış turizm mərkəzlərində xarici dil biliyinə sahib işçi sayının yetərsiz olması;
- qış turizminə aid reklam məqsədli videoların və ya reklam fəaliyyətlərinin kifayət qədər olmaması.

Makro problemlər:

- qış turizm mərkəzlərinin yetərli sayda olmaması;
- qış turizmi üçün kifayət qədər modern təchizatın olmaması;
- qış turizm mərkəzlərində təklif olunan qiymətlərin yüksək olması;
- nəqliyyat sisteminin aşağı keyfiyyətdə olması;
- turizm sektoruna kifayət qədər sərmayenin qoyulmaması.

**İstifadə olunmuş ədəbiyyat**


1. Əlimuradova F. Turizmin İnkişafının Əsas İstiqamətləri: magistr dərəcəsi dis./ -Bakı, 2015-78.
2. Qurbanova Ş. Kış Turizm Potansiyeli ve Gelişim Olanakları: magistr dərəcəsi dis./ - Bakı, 2018-106.
3. Mürsəlov M. Bir Turistik Ürün Çeşitlendirmesi Olarak Kış Turizmi ve Kış Turizmi Açısından Azerbaycan'ın Guba – Haçmaz Turizm Bölgesinin Arz Potansiyeli: magistr dərəcəsi dis./ -İzmir, 2009-198.
4. Növrəsli T. Azerbaycan Turizm Potansiyelinin Kalkınma Amaçlı Değerlendirilmesi: i.ü.f.d. dərəcəsi dis./-İzmir, 2010-298.
5. Rüstəmova G. Azərbaycanda Dağ-Xizək Turizminin İnkişaf İstiqamətləri //-Bakı. - Turizm və Qonaqpərvərlik Tədqiqatları. Beynəlxalq Jurnal.-2016, -s.37-43

**Emin Ağayev**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
*eminagayev@gmail.com*

# PANDEMİYA ŞƏRAİTİNDƏ SOSİAL-ƏMƏK MÜNASİBƏTLƏRİNİN STRUKTURUNDA ƏMƏYİN MÜHAFİZƏSİNİN YERİ

**Açar sözlər**: mühit, təhlükəsizlik texnikası, əmək şəraiti, əmək prosesi, komponent, iş vaxtı, əməyin mühafizəsi

**Giriş**

İstehsal mühiti əmək prosesində insanı əhatə edən geniş mənada hər şeyi: müəssisənin texnoloji təchizatı, texnologiyaların xüsusiyyətləri, bina və qurğuların vəziyyəti, sanitar-gigiyenik və estetik vəziyyət, insanların qarşılıqlı münasibətləri, peşə təhlükəsizliyi səviyyəsini özündə əks etdirir. İstehsal mühiti elementlərinin daha uğurlu kompanovkasını və komponentlərini, onların əmək şəraiti ilə əlaqələrini V.D.Roik vermişdir [1].

**Əmək şəraitinin əsas komponentləri**

Əmək şəraitinin birinci komponenti–istehsal mühiti adlanır və konkret parametrlərlə - temperatur, nəmlik, səs və titrəyiş və s. ilə xarakterizə olunur. Bu komponent titrəyişlə, bərk və qaz halında olan maddələrin məzmunu, nəmliklə, səs-küylə və konkret parametrləri - istehsal mühiti və görünməyən üçün, havada toz və qazlaşmanın olması ilə səciyyələnir.

Əmək şəraitinin digər komponenti özündə insan orqanizminin həyat fəaliyyətinin psixoloji və fizioloji prosesini əks etdirir və - işin intensivliyi və sürətini, işçinin fiziki, zehni və ruhi yükünü səciyyələndirir.

Müxtəlif komponentlər işlədilməkdə olan psixo-fizioloji prosesin insan həyatının inkişafı və özünəməxsus işləmə prosesi - fiziki və intensivlik işi, fiziki, psixoloji və psixik nağrükşünas işçi. Əmək prosesində işçi qüvvəsinin sərfi - insanın fiziki və əqli qabiliyyətlərinin məcmusu baş verir. İstehsal mühitinin vəziyyətindən və əmək prosesindən asılı olaraq işçi qüvvəsinin müxtəlif dərəcədə sərf olunması baş verir və insanın sağlamlığına, əmək qabiliyyətinə, onun mövcudluğunun bioloji tərəfinə müxtəlif dərəcədə təsiri özünü büruzə verir.

Əmək şəraitinin üçüncü komponenti sosial və iqtisadi amillərlə - istehsalın və əməyin təşkili, insanların öz aralarındakı qarşılıqlı fəaliyyət formaları, əmək və istirahət rejimləri, peşə hazırlığı, əməyin mühafizəsinin təşkili, rekreasiya sistemi, işə qəbul və əməyin ödənişi ilə bağlıdır

Əmək şəraitinin hər üç komponenti insana eyni vaxtda və əlaqəli şəkildə təsir göstərir.

«Azərbaycanda əməyin mühafizəsi haqqında" qanunda əmək şəraiti dedikdə, istehsal mühiti amillərinin əmək prosesində işçilərin sağlamlığına və işgörmə qabiliyyətinə cəmi başa düşülür [2].

Bu qanunda, həmçinin "Təhlükəsizlik" terminin müəyyənləşdirilməsinə müvafiq yanaşma şəxsiyyətin, cəmiyyətin və dövlətin həyati vacib maraqlarının təhlükəsizliyini müəyyən edir.

**Sosial-əmək mexanizmləri**

1. İş vaxtının müddətinin tənzimlənməsini, əmək qabiliyyətli yaş həddini, əmək və istirahət rejimnii, pensiya təminatı hüququ qazanmaq üçün əmək stajının minimum həddini, işə qəbulun yolverilən minimal həddini təmin edən sosial təminatlar. Sosial-əmək təminat sisteminin hazırlanması üçün baza yanaşmaları BƏT-in konvensiya və tövsiyyələridir.

1. Peşə təhsili və informasiya təminatnı – işləyənlərin peşə hazırlığı sisteminin

olması və xüsusilə peşə riskinin yüksək səviyyədə olduğu peşələr və istehsal üçün sistemin mövcudluğuna sosial təminatlar.

3. Maddi təminatı təmin edən sosial təminatlar: Təminatlı minimum əmək haqqı, əməyin ödənilməsi üzrə tarif cədvəli, ödənişli məzuniyyətlər, əmək qabiliyyətinin itirilməsi ilə bağlı müavinətlərin və pensiyaların minimum məbləği.

4. Əmək yükünün yol verilən səviyyəsinə sosial təminatlar – fiziki yük, əməyin intensivliyi və monotonluğuişin tempi, əməyin normalaşdırılması.

**Sosial müdafiənin tibbi mexanizmləri**

1. İlkin və dövri tibbi müayinələrin keçirilməsi, ilkin tibbi yardımın təşkili.

2. İstehsalatda xəsarət alanların müalicəsi və əmək qabiliyyətinin itirilməsinin müəyyənləşdirilməsi sistemi (o cümlədən istehsalat zədələnmələri və peşə xəstəliyi səbəbindən.)

**Sosial müdafiənin kompensasiya-reabilitasiya mexanizmləri**

1. İstehsalatda əmək qabiliyyətinin itirilməsnəi maddi kompensasiya.

2. İstehsalatda xəsarət alanlar tibbi, sosial və peşə reabilitasiyası.

3. Peşə riskinin səviyyəsi yüksək olan istehsalatlarda sağlamlığa dəyən ziyana görə kompensasiya və güzəştlər (əlavə məzuniyyət, qısaldılmış iş günü, vaxtından əvvəl pensiya).

**Əməyin mühafizəsinin təşkilati mexanizmləri**

1. İş yerlərində əməyin mühafizəsinin mövcud vəziyyətinin ekspertizası.

2. İstehsalatda bədbəxt hadisələrin araşdırılmasının təşkili.

Sosial müdafiənin maddi mexanizmləri özündə istehsal mühitinin maddi elementlərinin cəmini, əmək fəaliyyəti prosesində insanmın sosial müdafiəsinin müəyyən səviyyəsini formalaşdıran əməyin mühafizəsinin, gigiyenasının sosial infrastrukturunu ifadə edir.

Sosial müdafiənin bu mexanizmlər qrupunu aşagıdakı kimi strukturlaşdırmaq olar.

Sosial müdafiənin texniki mexanizmləri:

İstehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi, əsas istehsal fondlarının vəziyyəti (onların fiziki və mənəvi aşınmanı baxımından), iş yerlərinin təşkili səviyyəsinin erqonomikanın tövsiyə etdiyi əməyin təhlükəsizliyi qaydalarına uyğun olması; işləyənlərin kollektiv və fərdi mühafizə vasitələrinin mövcudluğu və əməyin mühafizəsi qaydalarına uyğunluğu.

Sosial-məişət infrastrukturu:

Sanitar-məişət infrastrukturuna aid olan binaların sanitar normalara uyğun olması (duşxana, soyunub-geyinmə otaqları, qida qəbulu otaqları və s.).

İki böyük qrup üzrə elementlərinin təsnifatı (sosial-iqtisadi və maddi) onların qarşılıqlı əlaqəsi və tərkibi haqqında təsəvvür yaradır.

"Əməyin mühafizəsi haqqında" haqqında Qanunda Əməyin mühafizəsi ilə bağlı anlayışda göstərilir ki, bu, müvafiq qanunvericilik aktları əsasında fəaliyyət göstərən sosial-iqtisadi, təşkilati, texniki, sanitariya-gigiyena və müalicə-profilaktik tədbirlərin və vasitələrin elə bir sistemidir ki, əmək fəaliyyəti prosesində insanın təhlükəsizliyini, sağlamlığının və iş qabiliyyətinin qorunmasını təmin edir [2].

Əməyin mühafizəsini təşkil edən və qarşılıqlı əlaqəli olan əsas elementlər aşağıdakılardır:

-əməyin mühafizəsinin qanunvericilik və normativ bazası;

-istehsalat sanitariyası və ətraf mühitin mühafizəsi;

-təhlükəsizlik texnikası.

Əməyin mühafizəsi sosial-iqtisadi inkişafın mühüm amilidir. İşəgötürənlərin əməyin mühafizəsinin təmin olunmasına biganə münasibətinin son nəticəsi kimi istehsalat zədələnmələri və peşə xəstəliyi halları baş verir ki, bu da maddi və mənəvi itkilərə səbəb olur.

İqtisadiyyatda, bütövlükdə əmək bazarında mənfi proseslər, ümumiyyətlə, işini

itirmək qorxusu və daha yüksək qazanca işləmək həvəsi insanları təhlükəli əmək şəraitində işləməyə məcbur edir. Öz növbəsində ayrı-ayrı müəssisə rəhbərləri, maksimum mənfəət əldə etməyə çalışaraq əmək şəraitinin sağlamlaşdırılması və yaxşılaşdırılması üçün kifayət qədər vəsait ayırmır, əmək məhsuldarlığının yüksəldilməsinə onun həddən artıq intensivləşdirilməsi hesabına nail olurlar. Nəticədə işçilərin iş gününün və iş həftəsinin müddəti qanunvericiliklə müəyyən olunmuş normadan çox olur. Bütün bunlar onun avadanlığın köhnəlmə fonunda, onun əməyin təhlükəsizliyi standartlarına uyğun olmaması, texnoloji intizamının tələblərinə əməl edilməməsi fonunda baş verir.

Bu neqativ tendensiyaların nəticəsi olaraq zədələnmə səviyyəsi kifayət qədər yüksəkdir ki, bu da əməyin mühafizəsi sahəsində səmərəli dövlət tənzimlənməsi və idarəetmənin zəif olmasının nəticəsidir. Qənaətbəxş olmayan əmək şəraitinin qanunauyğun nəticəsi peşə xəstəliklərinin artmasıdır.

Normativ bazanı lokal normativ sənədlər tamamlayır. Bu sənədlər işçilər və ayrı-ayrı iş növləri üzrə müəssisənin özündə işlənib hazırlanan əməyin mühafizəsi üzrə təlimat, eləcə də müəssisədə əməyin mühafizəsi üzrə işlərin təşkili haqqında əsasnamədir.

İstehsalat sanitariyası – əməyin gigiyenasının nəticə və tövsiyələrinə əsaslanan praktiki fəaliyyət sferasıdır. Sonuncu əmək şəraitinin, onun insanın sağlamlığına təsirinin öyrənilməsi ilə məşğul olan tibb elmini özündə əks etdirir. Eləcə də əmək şəraitinin sağlamlaşdırılmasına, xəstəliklərin profilaktikasına, iş qabiliyyətinin artırılmasına yönəlmiş təşkilati, müalicəvi, profilaktik, sanitar-gigiyenik tədbirlərin işlənib hazırlanması bura daxildir.

Müvafiq olaraq istehsalat sanitariyası aşağıdakı tətbiqi vəzifələri həll edir:

- Sanitariya normalarının praktikada yaradılması və tətbiqi;
- Onlara əməl olunmasına nəzarətin təşkili;
- Əmək şəraitinin müayinəsinin aparılması;
- Xəstəliklərin profilaktikası üzrə əməli tədbirlərin işlənməsi və tətbiqi.

Ətraf mühitin qorunması istehsal fəaliyyətinin ekologiyaya aşağıdakı zərərli təsirlərinin qarşısının alınmasını, aradan qaldırılmasını və ya zərərsizləşdirilməsi nəzərdə tutur: Çirkab sularının təmizlənməsi, atmosferə atılan tullantılarının zərərsizləşdirilməsi və təmizlənməsi.

Təhlükəsizlik texnikası - fəaliyyət göstərən təhlükəli istehsalat amillərinin təsirini aradan qaldıran texniki vasitələrin və üsulların təşkilati tədbirlər sistemidir..

Təhlükəsizlik texnikasının aşağıdakı əsas vəzifələrini fərqləndirmək olar:

- Maşın, avadanlıq və müəssisələrin layihələndirilməsi mərhələsində, eləcə də onların istismarı prosesində istehsalat travmatizminin profilaktikası
- Əməyin mühafizəsinin ümumi normalarını və qaydalarının işlənib hazırlanması;
- avadanlıqların istismarı təhlükəsizlik göstəriciləri haqqında konkret təlimatların işlənib hazırlanması;
- Təhlükəsizlik texnikası üzrə metodik və əyani vəsaitlərin hazırlanması;
- İşçilərin təhsili, təlimatlandırılması, işlərin təhlükəsiz aparılması qaydaları üzrə biliklərin yoxlanılması;
- Təhlükəsizlik texnikası üzrə tədbirlərin həyata keçirilməsinə nəzarət

Əməyin mühafizəsi məzmun və mahiyyətinə əsaslanaraq ona xas olan bir sıra funksiyaların fərqləndirmək olar [3].

*Qoruyucu funksiya* işçilərin həyat və sağlamlığının təhlükəli istehsalat amillərinin zərərli təsirindən qorunmasını, eləcə də ətraf mühitin istehsal fəaliyyətinin nəticələrinin mənfi təsirindən qorunmasını nəzərdə tutur,

*Analitik funksiya* istehsal mühitinin zərərli xüsusiyyətlərinin, peşə riskləri və onların işçilərə təsirinin mümkün nəticələrinin təhlilindən ibarətdir.

*Standartlaşdırma funksiyası* istehsal mühiti amillərinin normativ qiymətlərinin müəyyən edilməsini, işçilərin təhlükəsizliyini təmin edən işlərin aparılması qaydaların

nəzərdə tutur.

*Nəzarət funksiyası* əməyin mühafizəsinin norma və qaydalarına əməl olunmasından, müxtəlif səviyyəli daimi nəzarət sisteminin yaradılması və fəaliyyət göstərməsindən, onlara əməl olunmasına daimi həvəsləndirmə və sanksiyalar sistemini tətbiq etməkdən, iqtisadi, inzibati və cinayət məsuliyyəti tədbirlərini müəyyən etməkdən ibarətdir.

*Profilaktik funksiya* istehsalatda bədbəxt hadisələr və xəstəliklərin profilaktikası üzrə aşağıdakı tədbirləri nəzərdə tutur: Müalicə-profilaktik (tibbi müayinələr, tibbi göstəricilər üzrə peşə seçimi), təşkilati (təlimat və işçilərin təhsili), texniki (texniki müdafiə vasitələrindən istifadə, texnikanın, texnologiyaların, binalarının, qurğularının layihələşdirilməsi zamanı əməyin mühafizəsinə olan tələblərinin uçotu).

*Kompensasiya və reabilitasiya* funksiyası insan sağlamlığına, onun əmək qabiliyyətinə dəyən zərərin maddi kompensasiyasından, müalicə və qulluğa, yenidən peşə hazırlığına vəsaitin verilməsindən, imkan daxilində zərər çəkən insanın əmək fəaliyyətinə qaytarılmasını, yaxud əmək fəaliyyətinin tam itirildiyi halda münasib həyat səviyyəsinin təmin edilməsi üçün tədbirlər sisteminin yaradılmasından ibarətdir.

*İnformasiya funksiyası* işçilərə və işəgötürənlərə əmək şəraiti və əməyin mühafizəsi, mövcud peşə riskləri, zərərli və ya təhlükəli istehsalat amillərinin təsirindən müdafiə, əməyin mühafizəsinə aid hüquq və vəzifələrin qorunması məsələlərinə dair düzgün informasiya və məsləhətlərin verilməsindən ibarətdir.

*Təhsil funksiyası* təşkilatlarının rəhbərləri, sıravi işçilər, mütəxəssislər arasında əməyin mühafizəsi və təhlükəsizlik texnikası üzrə biliklərinin yayılması, eləcə də əməyin mühafizəsi üzrə mütəxəssislərin hazırlanmasını nəzərdə tutur.

*Tədqiqat-tətbiq funksiyası* əməyin mühafizəsi üzrə işləmələri, planlaşdırma və tədbirlərin tətbiqini,,işçilərin müdafiəsi üzrə tədbirlərin və vasitələri, onların səmərəliliyinin qiymətləndirilməsini təmin etməkdir.

*Əməyin mühafizəsinin iqtisadi funksiyası* travmatizmin və xəstələnmələrin səviyyəsinin artması, kompensasiya və cərimələrin ödənilməsi, əmək qabiliyyətinin, əmək məhsuldarlığının, işin keyfiyyətinin aşağı düşməsi ilə şərtlənən əlavə xərclərin və itkilərin xəbərdar edilməsindən ibarətdir.

İstehsalatda əməyin mühafizəsinin təmin edilməsi işlərinin gedişində onu əsasını təşkil edən bir sıra prinsipləri rəhbər tutmaq lazımdır. Onlardan başlıcası istehsalat fəaliyyətinin nəticələrinə münasibətdə işçilərin həyat və sağlamlığının üstünlüyünü qəbul etmək və bu prioriteti təmin etməkdən ibarətdir. Bu amillərin inkişafında aşağıdakı bir sıra prinsiplərin də fərqləndirilməsi zəruridir [4].

1. Əməyin təhlükəsizliyi istehsalın bütün məsələləri üzrə - layihələndirilməsi, tikintisi, istismarından son məhsulun buraxılmasına qədər bütün səviyyələrdə və mərhələlərdə qərarların qəbul edilməsi zamanı nəzərə alınmalıdır.

2. Əməyin təhlükəsizliyinin təmin olunması və iş şəraitinin yaxşılaşdırılması müəssisə rəhbərliyinin birinci dərəcəli vəzifəsidir. Yuxarı və orta səviyyəli rəhbərliyin hər bir nümayəndəsi əməyin təhlükəsizliyinə görə məsuliyyət daşımalıdır. Bu sferada hər bir rəhbərin funksional vəzifələri vəzifə təlimatlarında dəqiq əks olunmalıdır. Əməyin mühafizəsi məsələlərində rəhbərin səriştəliliyi onun peşəkarlıq səriştəliliyinə bərabər tutularaq qiymətləndirilməlidir.

3. Əməyin mühafizəsi xidməti bilavasitə rəhbərinə tabe olan əsas xidmətlərindən biri olmalıdır. Onun funksiyaları dəqiq müəyyən olunmalı və digər xidmət funksiyalarından ayrılmalıdır.

4. Müəssisənin müdiriyyəti əməyin mühafizəsi siyasətinin hazırlanmasında, profilaktik tədbirlərin planlaşdırılması və keçirilməsində işçilərlə və onların səlahiyyətli nümayəndələri ilə əməkdaşlığın inkişafına hər vasitə ilə kömək etməlidir.

5. Əməyin mühafizəsi proqramının işlənib hazırlanması yalnız baş vermiş bədbəxt hadisənin təhlilinə deyil, həm də risklərin ilkin təhlilinə və əmək şəraitinə görə iş yerlərinin attestasiyasına əsaslanmalıdır. Əməyin mühafizəsi sahəsində görülən bütün tədbirlər

əlaqələndirilməli və əmək fəaliyyətinin rasionallaşması üzrə ümumi tədbirlərin sistemin bir hissəsi olmalıdır.

6. Əməyin mühafizəsi işinin təşkili və onun səmərəliliyi ilk növbədə, bütün iştirakçıların səriştəliliyindən, bütün işçilərin, mütəxəssislərin, rəhbərlərin əməyin təhlükəsizliyi ilə bağlı təlimatlandırılmasından asılı olduğuna görə peşə hazırlığı və ixtisasartırmanın ayrılmaz hissəsi olmalıdır.

7. Əməyin mühafizəsi üzrə tədbirlərin əsas məqsədi işçilərin sağlamlığının və həyatının qorunması olduğuna görə onların həyata keçirilməsinin iqtisadi səmərəliliyi bilavasitə sosial səmərəliliklə bağlıdır. Bu əməyin mühafizəsi üzrə fəaliyyət istiqamətlərində prioritetlərin seçilməsi meyarı kimi deyil, qarşıya qoyulan sosial məqsədlərin (əlverişsiz şəraitdə çalışanların sayının, xəstəlik və travmatizmin azaldılması) daha qənaətcil variantlarının seçilməsi meyarı kimi çıxış edir.

**Nəticə**

Beləliklə, sosial-əmək münasibətlərinin strukturunda əməyin mühafizəsinin yerinin təhlili belə nəticə etməyə imkan verir ki, əlverişli mühitin formalaşması, işçilərin sağlamlığa və təhlükəsiz əmək şəraitinə olan hüququnun qorunması sosial-əmək münasibətlərinin başlıca problemlərindəndir

"Əmək şəraiti" və "əməyin mühafizəsi" işçi qüvvəsinin bərpası, əmək fəaliyyəti prosesində insanın təhlükəsizliyinin əsas amili kimi çıxış edir. Əgər "əmək şəraiti" anlayışının sosial-iqtisadi təbiəti əmək prosesi və istehsal mühiti amillərinin məcmusunu özündə əks etdirirsə, "əməyin mühafizəsi" - işçilərin əmək fəaliyyəti prosesində həyat və sağlamlığının təhlükəsizliyinin təmin olunması sistemi kimi müəyyən edilir. Əmək fəaliyyəti prosesinə hüquqi, sosial-iqtisadi, təşkilati-texniki, sanitar-gigiyenik, лmüalicə-profilaktir, reabilitasiya tədbirləri daxildir.

Əlverişsiz əmək şəraiti işgörmə qabiliyyətinə mənfi təsir göstərir, zədələr, xəstəliklər yaradır ki, bunun da nəticəsində ciddi iqtisadi və sosial problemlər yaranır. Bu problem Azərbaycan üçün xüsusilə xarakterikdir. İqtisadiyyatda əvvəllər mövcud olmuş əməyin mühafizəsinin mərkəzləşdirilmiş sistemi artıq ləğv olunmuş, dövlət və özəl bölmənin əlaqəsinə əsaslanan yeni sistem isə hələ tam formalaşmamışdır.

Belə şəraitin yaranmasının əsas səbəbləri aşağıdakılar olmuşdur:

- Əməyin mühafizəsinin idarə olunması sisteminin dağıdılması, islahatların ilk illərində müəssisələrdə, xüsusilə maliyyə problemlərinin yaşandığı özəl bölmə və kiçik biznes sahəsində əməyin mühafizəsi xidmətinin ləğv edilməsi;
- Təhlükəsiz texnoloji proseslər, avadanlıqlar, nəzarət və müdafiə vasitələrinin tətbiqinə və işlənilməsinə yönələn elmi tədqiqatların mqddi-texniki təminatı;
- Əməyin mühafizəsi və təhlükəsizlik texnikası məsələlərində yeni nəsil menecerlərin zəif hazırlığı;
- Bir çox müəssisələrdə maşın və avadanlıqları fiziki aşınmasının yüksək səviyyəsi;

İndiki şəraitdə müəssisələrdə istehsal zədələnmələrinin kifayət qədər yüksək səviyyəsi bu neqativ tendensiyaların nəticəsidir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Роик В.Д. Управление условиями и охраной труда: Учебное пособие. - М.: Изд-во РАГС, 2004. - с. 14-15
2. "Əməyin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, Bakı, 1992
3. Экономика труда: Учебник /Под ред. Проф. П.Э.Шлендера и проф. Ю.П.Кокина. - М.: Юрист. 2002.-С. 183-184.

4.Организация охраны труда: Практические рекомендации / Сост. В.В. Хлопков, А.А.Мыслев. - Черноголовка, 1996.

**Əlizamin Quliyev**
Azərbaycan Texniki Universiteti
*quliyevalizamin@gmail.com*

## PANDEMİYA DÖVRÜNDƏ QEYRİ-FORMAL ÖZÜNÜMƏŞĞULLUQDAN FORMAL ÖZÜNÜMƏŞĞULLUĞA KEÇİD PROSESİNİN XARAKTERİSTİKASI

**Açar sözlər:** qeyri-formal məşğulluq, özünüməşğulluq, aqrar sektor, formal özünüməşğulluq, amillər, stimullaşdırma, səmərəlilik, elektron qeydiyyat sistemi, əmək müqavilələri

### Giriş

Qeyri-formal məşğulluq ölkədə əmək münasibətlərinin səmərəli tənzimlənməsi prosesinə mane olur. Aqrar sektorda da bu problem aktualdır. Dövlətin bu istiqamətdə atdığı addımlar, xüsusilə son illər sistemliliyi və nəticəyönümlüyü ilə fərqlənir. Bununla belə həmin tədbirlər öz icrasının başlanğıc mərhəsəsindədir.

Bu istiqamətdə görülmüş işlərin təhlili və qiymətləndirilməsi üçün kompleks tədqiqatlara ehtiyac vardır. Ümumilikdə Azərbaycanın aqrar sektorunda qeyri-formal özünüməşğulluqdan formal özünüməşğulluğa keçid prosesinin araşdırılması və səciyyələndirilməsi zərurəti vardır. Odur ki, təqdim olunan məqalədə müvafiq məsələlər tədqiq edilməlidir.

### Qeyri-formal məşğulluq və özünüməşğulluq: mövcud yanaşmalar

Əmək münasibətlərinin rəsmiləşdirilməsinin layiqli əmək şəraitinin yaradılmasında mühüm rol oynaması, artıq müzakirə obyekti deyildir. Tənzimlənən sivil bazar münasibətləri şəraitində məhz formal məşğulluğun hazırda layiqli hesab edilən əməyin aparıcı təminat forması olmasını qəbul edən tədqiqatçılar, həmçinin bu fikirdədirlər ki, qeyri-formal məşğulluq bir çox aspektlərdə problemlər yaradır. Həmin problemlər, özünü ilk növbədə vergi, sosial sığorta, sosial təminat və bir sıra digər sistemlərdə, ümumilikdə isə əmək bazarının tənzimlənməsi proseslərində meydana çıxır. Belə vəziyyət qlobal miqyasda müşahidə olunur. “İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) İnkişaf Mərkəzinin məlumatına əsasən, dünyada iqtisadi fəal əhalinin yarısından çoxu, yəni 1,8 milyard nəfər, əmək müqaviləsi bağlamadan, başqa sözlə, sosial müdafiə ilə əhatə olunmadan çalışır” (1).

“Qeyri-formal fəaliyyət daha çox kənd təsərrüfatı və sənayedə rast gəlinir: kənd təsərrüfatında işləyənlərin təqribən 94 faizi, sənayedə çalışanların isə 57 faizi qeyri-formal əsaslarla fəaliyyət göstərir. Hər 5 nəfər qeyri-formal çalışan şəxsdən 3-ü kənd yerlərində yaşayır. Qeyri-formal fəaliyyətə daha çox müvəqqəti və ya natamam iş qrafiki ilə işləyənlər, habelə mikro və kiçik müəssisələrdə işləyənlər məruz qalsalar da, rəsmi fəaliyyət göstərən iri müəssisələrdə də qeyri-formal məşğulluq əhəmiyyətli miqdardadır. İnkişaf etməkdə olan ölkələrdə məşğul əhalinin 70 faizi, inkişaf etmiş ölkələrdə isə 18 faizi qeyri-formal çalışır. Bu göstərici Afrikada 86 faiz, Asiyada 68 faiz, Amerikada 40 faiz, Avropa və Orta Asiyada isə 25 faiz təşkil edir” (2).

Özəl bölmənin aşkar üstünlük təşkli etdiyi sahələrdə qeyri-formal məşğulluqdan formal məşğulluğa keçid problemləri daha aktualdır. Başqa sözlə, “qeyri-formal məşğulluq daha çox özünü qeyri-dövlət sektorunda, xüsusilə də, tikinti və xidmət sektorunda göstərir. Bu, bütün dünya ölkələri üçün xarakterikdir. Dünya Bankının hesablamalarına görə dünyada pərakəndə satış, tikinti və bu kimi bəzi sahələrdə məşğul olanların 80 faiizini qeyri-leqal fəaliyyət göstərənlər təşkil edir” (3).

Azərbaycanın əmək bazarında qeyri-formal məşğulluğun tədqiqi istiqamətində atılan addımlar problemin qoyuluşu mərhələsindədir. Başqa sözlə, qeyri-formal məşğulluğun iqtisadi, hüquqi, sosial aspektləri, onların qarşılıqlı təsirlərinin qymətləndirilməsi məsələləri kifayət qədər araşdırılmamışdır. Odur ki, ilk növbədə qeyri-formal məşğulluq anlayışına aydınlıq gətirmək lazımdır.

Ölkəmizin qanunvericilində, daha dəqiq desək Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununun 1.1.9-cu bəndində göstərildiyi kimi qeyri-formal məşğulluq dedikdə, "Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq əmək müqaviləsi (kontrakt) və ya Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq mülki hüquqi müqavilə bağlanılmadan müəyyən fəaliyyətin yerinə yetirilməsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq sahibkarlıq fəaliyyətinin və mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqdan istifadənin rəsmiləşdirilmədən həyata keçirilməsi, eləcə də "Ailə kəndli təsərrüfatı haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yerli özünüidarəetmə orqanlarında uçota durmadan ailə kəndli təsərrüfatının təşkili nəticəsində qazanc (gəlir) əldə edilməsi" (4, maddə 1) nəzərdə tutulur. Həmin qanunda (maddə 8, 8.0.13-cü bənd) qeyri-formal məşğulluğun qarşısının alınmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsi məşğulluq sahəsində dövlətin vəzifələrindən biri hesab olunur.

Qeyri-formal məşğulluğun öyrənilməsinin nəzəri və təcrübi əsasları, iqtisadi mahiyyəti, məşğulluğun bu növünün meydana çıxmasının səbəbləri, bir sıra mənbələrdə araşdırılmışdır. Bu baxımdan son dövrlərin nəşrləri (5), zənnimizcə diqqətə layiqdir. Belə ki, sözügedən mənbədə Rusiyanın və ümumiyyətlə postsovet məkanı ölkələrinin əmək bazarında qeyri-formal məşğulluq sektorunun mövcud vəziyyətinə və perspektiv gözləntilər barədə dərin müşahidələr və ümumiləşdirmələr vardır.

Rusiya Ali İqtisadiyyat Məktəbində aparılmış tədqiqatlarda qeyri-formal məşğulluq anlayışına münasibətdə, F.Slonimçikin təklif etdiyi kombinasiyalı yanaşma məqbul hesab edilir (6). Bu halda təklif edilən sxemdə qeyri-formal məşğulluq təşkilatın tipi və fəaliyyətin forması vahid rakursda nəzərə alınır.

"Bu sxemə uyğun olaraq aşağıdakı işçi qrupları qeyri-formal məşğul hesab edilimişdir:

- özünüməşğul insanlar;
- qeyri-formal sahibkarlar;
- müəssisələrdə qeyri-formal muzdlu işçilər;
- fiziki şəxslərin yanında muzdla çalışan qeyri-formal işçilər;
- qeyri-müntəzəm çalışanlar" (7, s.185).

Azərbaycanda qeyri-formal özünüməşğulluqdan formal özünüməşğulluğa keçid prosesinin başlanğıcında (hərçənd bu istiqamətdə tədbirlər daim həyata keçirilmiş, lakin əldə edilən nəticələr siyasi qərar qəbul edənləri qane etməmişdir) bu kateqoriyaya aid insanlar müəyyən edilməlidir. Aqrar sahədə bu məsələnin həllindəki özünəməxsusluqlar, ilkin araşdırmalardan görünür ki, Əmək üzrə statistiklərin Beynəlxalq konfranslarının tövsiyələrinin birbaşa tətbiqinə, heç də həmişə imkan vermir. Bu məqsədlə, zənnimzcə ölkə qanunvericiliyində təsbit edilmiş əlamətlərdən istifadə edilməsi məqsədəuyğundur.

Məşğulluğa kömək sahəsində dövlət siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını, eləcə də işaxtaran və işsiz şəxslərin sosial müdafiəsi sahəsində dövlət təminatlarını müəyyən edən Məşğulluq haqqında Azərbaycan Respublikasının Qanununun 5-ci fəsli qeyri-formal məşğuluq məsələlərinə həsr olunmuşdur. Aqrar iqtisadiyyatda qeyri-formal özünüməşğulluqdan formal özünüməşğulluğa keçid prosesinin, onun leqallaşdırılmasının hüquqi mexanizmində "şəxsin məşğulluğuna dair məlumatlar məşğul şəxslərin reyestrinə daxil edilmədikdə, qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədi ilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar tərəfindən fəaliyyət istiqamətlərinə uyğun olaraq birgə nəzarət tədbirləri həyata keçirilməsi" (4, maddə 30, bənd 30.1) nəzərdə tutulur.

Mülkiyyət formaları və məşğulluğun statusuna görə əmək bazarının seqmentlərə bölünməsi zamanı məşğulluğun formallıq əlamətinə önəm verilir. İqtisadiyyatda məşğul əhalini, əsasən aşağıdakı qruplar üzrə fərqləndirirlər:

- formal dövlət sektorunda məşğul olanlar;
- formal qeyri-dövlət sektorunda məşğul olanlar;
- qeiri-formal sektorda məşğul olanlar.

Sonuncular qanunvericiliyə müvafiq qeydiyyatdan keçməmiş və vergi ödəməyən insanlardır. Başqa sözlə, məşğulluğun qeyri-formallığı əlamətləri kimi qanunvericiliyə müvafiq qeydiyyatın olmaması və verginin ödənilməməsi götürülür.

**Aqrar sektorda qeyri-formal özünüməşğulluqdan formal özünüməşğulluğa keçid prosesi**

Rəqəmsal mühitin formalaşması və müvafiq texnologiyaların fəal surətdə tətbiq edilməsi zərurəti, Azərbaycanda "Böyük Verilənlər"in (Big Dates) formalaşmasında əmək ehtiyatları bazarı verilənlərinin özünəməxsus rol oynamasını tələb edir. Bu baxımdan ölkədə qeyri-formal məşğulluğa nəzarətin verilənlər bazasının yaradılması istiqamətində zəruri hazırlıqların görülməsinə başlanmışdır. Deyək ki, "Qeyri-formal məşğulluğa nəzarət" adlı vahid elektron informasiya ehtiyatının yaradılması və ona inteqrasiya edilməsi zəruri hesab edilən informasiya sistemlərinin və ehtiyatlarının müəyyən edilməsi prosedurları (4, maddə 31), prosesləri şəffaflaşdırmaq və rəqəmsal mühitin üstünlüklərini reallaşdırmaq baxımından mühüm addımdır.

Əmək münasibətlərinin rəsmiləşdirilməsi prosesində əmək müqavilələrinin Azərbaycanda yaradılan elektron qeydiyyatı sistemi qeyri-firmal məşğulluqdan formal məşğulluğa keçidi təmin edən mühüm addımlardandır. Ölkədə 2014-cü ildən başlayaraq fəaliyyət göstərən həmin qeydiyyat sistemi, ilk növbədə bir neçə məsələnin həlli imkanlarını, əhəmiyyətli dərəcədə genişləndirmişdir. O cümlədən, işçinin bu günkü əmək və gələcəkdə sosial təminat hüquqlarının qorunması, əmək müqavilələrinin bağlanması zamanı, arzuolunmaz halların aradan qaldırılması, əmək hüquqlarının təminatı üzərində dövlət tərəfindən nəzarətin səmərəli təşkil edilməsi və s.

Haqqında danışılan vahid elektron informasiya ehtiyatının yaradılmasına hazırlıq prosesində "bu sistem vasitəsilə qeyri-formal məşğulluğun qarşısının alınmasına dair preventiv tədbirlərin görülməsi və risk qiymətləndirilməsi həyata keçirilməsi, əmək ehtiyatları ilə bağlı məlumatların, boş yerlərin əmək müqaviləsi bildirişi üzrə elektron sistemə inteqrasiya edilməsi" (8) üçün zəruri işlər görülmüşdür.

Haqlı olaraq informasiya cəmiyyəti prinsiplərinə uyğun olaraq qeyri-formal özünüməşğulluqdan formal özünüməşğulluğa keçid prosesini (o cümlədən, aqrar iqtisadiyyatda) sürətləndirmək üçün ictimaiyyətin rolunun artırılması məqsədi ilə normativ-hüquqi bazanın təkmilləşdirilməsi davam etdirilir. Daha konkret desək ölkə qanunvericiliyində qeyri-formal məşğulluğun aşkar olunması və onun qarşısının alınması üçün məşğulluğun həmin növünün leqallaşdırılması sahəsində görülən tədbirlərdə ictimaiyyətin fəal iştirakı nəzərdə tutulur (4, maddə 32). Nəzərdə tutulur ki, bu iştirak qeyri-formal məşğulluq sahəsində yeni və ənənəvi imkanlardan istifadə etməklə maarifləndirmə işinin intensivləşdirilməsi ilə müşayiət edilməlidir.

Qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçid iqtisadiyyatda ictimai zəruri prioritetlərin reallaşması baxımdan vacibdir. Bununla belə, hesab edilir ki, qeyri-formal sektorda çalışanlar da zəruri hüquqlara malik olmalı, onlar, xüsusilə aqrar sahədə çalışırlarsa dövlət himayəsindən kənarda qalmamalıdır. Qeyri-formal münasibətlərdən formal iqtisadiyyata keçid, qeyri-formal sektoru leqallaşdırmaqla burada çalışanlara, aşağıdakı mənbədə göstərilən hüquqların verilməsini məqsədəuyğun hesab edirik. "Əmək sahəsində əsas hüquqlar; sosial təminat; əmək şəraiti təhlükəsizlik və əməyin giciyenası; gəlt əldə etmək imkanı; təhsil və peşə kvalifikasiyasını və vərdişlərini inkişaf etdirmək imkanı; maliyyə resurslarına və bazarlarına çıxış və s." (9, s.55).

Aqrar sektorda məşğul olan, xüsusilə özünüməşğul subyektlətrin sosial stastus məsələsində cəmiyyətin yanaşması dəyişməlidir. ABŞ-da heyvandarın (kovboyun) cəlbedici imicinin yaradılması təcrübəsinin müasir dövrdə tətbiqi çətin olsa da, onun ölkənin kənd təsərrüfatının inkişafında daxili motivlərin gücləndirilməsində tarixi əhəmiyyəti diqqətdən kənarda qalmamalıdır. Bu baxımdan aşağıdakı mövqe, zənnimizcə diqqətə layiqdir.

"İşçilər üçün qeyri-formal çalışmağın nəticələrinin ənənəvi qiymətləndirilməsi müvafiq vəziyyətdə olanlarla gəlirlərin müqayisəsinə əsaslanır. Lakin bu yanaşmanın öz məhdudiyyətləri də vardır: məsələ təkcə onda deyildir ki, qeyri-formal məşğul olan insanların gəlirləri məqbul səviyyədə deyildir. Mühüm cəhət odur ki, əmək fəaliyyətinin keyfiyyəti təkcə əməyin ödənişinin

pul indikatorları ilə qiymətləndirilmir. Müasir cəmiyyətdə fərdin sosial strukturdakı mövqeyi, xeyli dərəcədə əməyin sferası ilə müəyyən olunur. Odur ki, həmin qiymətləndirmə dairəsi genişləndirilməli, bura subyektiv sosial status da daxil edilməlidir" (7, s.175).

Qeyri-formal əmək münasibətlərinin iqtisadiyyatın müxtəlif sahələrində payı, gözlənildiyi kimi fərqlidir. Bununla belə, haqqında danışılan istənilən pay (xüsusi çəki) hüquqi pozuntudan başqa bir şey deyildir və qarşısı alınmalıdır. Aqrar sahəyə münasibətdə özünəməxsusluğun səbəbi, xeyli dərəcədə kənddə tarixən mövcud olmuş, demək olar ki, bütün ölkələrdə müşahidə edilən gizli işsizliklə əlaqədardır. Əlbəttə unutmaq olmaz ki, bu hal əmək ehtiyatlarından istifadə səmərəliliyini azaldır, kənd yerrlərində layiqli əməyin təşviqinə əngəl törədir. Qeyd edilən və digər amillərin əmək bazarında yaratdığı mühitin xarakteristikaları əmək münasibətlərinin daha səmərəli tənzimlənməsi üçün Azərbaycanda hərtərəfli əsaslandırılmış institusional tədbirlər görülür.

"Qeyd olunan hədəflərə nail olmaq üçün dövlət orqanları arasında koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 17 mart 2017-ci il tarixli Sərəncamı ilə aidiyyəti dövlət orqanlarının, Azərbaycan həmkarlar ittifaqlarının və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının rəhbərləri səviyyəsində Baş nazirin müavini Əli Əhmədovun rəhbərliyi ilə Əmək Münasibətlərinin Tənzimlənməsi və Katiblik yaradılıb" (1).

Azərbaycanda aqrar sektorun özünüməşğulluq potensialı da diqqətdən kənarda qalmamışdır. Son illər bu istiqamətdə mühit yaradan iqtisadi və institusional addımlar atılmaqdadır. Bu baxımdan 17 mart 2017-ci il tarixində Azərbaycan–Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə yaradılan Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyası xüsusi qeyd edilməlidir. Bu komissiya aidiyyəti dövlət qurumlarının və hökumətin sosial tərəfdaşlarının rəhbərlərinin iştirakı ilə yaradılmışdır. Sonrakı addımlar kimi "ölkədə işəgötürən-işçi münasibətlərinin rəsmiləşdirilməsi, əməyin ödənişinin təşkilinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi və bu sahədə dövlət orqanları arasında daha səmərəli koordinasiya olunmuş siyasətin həyata keçirilməsi məqsədilə 2017-ci il oktyabrın 9-da "Azərbaycan Respublikasında qeyri-rəsmi məşğulluğun qarşısının alınmasına dair Tədbirlər Planı" təsdiq edilmişdir" (10). Haqqında danışılan Tədbirlər Planına uyğun olaraq normativ hüquqi aktların və inzibatçılığın təkmilləşdirilməsi, nəzarət tədbirlərinin gücləndirilməsi, monitorinq və qiymətləndirmə sisteminin qurulması, məlumatlandırma və təbliğat işlərinin təşkili ilə bağlı 36 tədbirin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Həmin tədbirlər sırasında ictimaiyyətin və işəgötürənlərin məlumatlandırılması üzrə tədbirlərin özünəməxsus yeri vardır. Bu aspektdə əmək münasibətlərinin rəsmiləşdirilməsinin və ümumilikdə əmək qanunvericiliyinə əməl olunmasının zəruriliyi xüsusi olaraq və inandırıcı surətdə insanlara çatdırılır.

Azərbaycanda 2018-ci ilin 1 yanvar tarixindən qüvvəyə minmiş "İşsizlikdən sığorta haqqında" Qanun özünüməşğulluq sahəsində atılan addımların normativ-hüquqi bazasının möhkəmlənməsində mühüm rol oynamaqdadır (11).

Şübhə yoxdur ki, hazırda qeyri-formal məşğulluq qanunvericiliyə zidd olmaqla yanaşı, sosial sığorta, vergi və bir sıra digər məcburi ödənişlərin icrasına, həyata keçirilməsinə, işçilərin gələcək sosial təminatına, ümumiyyətlə ölkədə əmək bazarının tənzimlənməsinə neqativ təsir göstərir. Belə ki, "qeyri-rəsmi məşğulluq işçilərin sosial müdafiə sisteminə çıxışına imkan vermir, onların əmək hüquqlarının, o cümlədən əməyin mühafizəsinin təmin edilməməsinə, digər tərəfdən, əmək məhsuldarlığının aşağı düşməsinə, keyfiyyətsiz məhsul və xidmətlərin bazara çıxmasına səbəb olur. Ona görə də işəgötürənlər həmin məsələyə daim məsuliyyətlə yanaşmalı və hər bir işçi ilə əmək münasibətlərini tam rəsmiləşdirməlidirlər" (12).

Azərbaycanda qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində atılan addımların səmərəliliyinin təhlili və qiymətləndirilməsi sistemi formalaşır. Bu sistemdə nəzarət tədbirlərinin özünəməxsus mühüm yeri vardır. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 96 nömrəli Qərarı ilə təsdiq edilmiş Qayda bu baxımdan həlledici

addımlardan biridir. Belə ki, həmin qaydada göstərildiyi kimi qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin icrası üçün “risk qrupları üzrə qeyri-formal məşğulluğun aşkar edilməsinə və qarşısının alınmasına dair preventiv və nəzarət tədbirləri ilə bağlı illik plan tərtib olunur və qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanın rəhbəri tərəfindən təsdiq edilir. Qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədilə qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar birgə risk qruplarını müəyyən edir, preventiv və nəzarət tədbirlərini həyata keçirirlər” (13).

Artıq qeyd edildiyi kimi ölkədə “Qeyri-formal məşğulluğa nəzarət” vahid electron informasiya ehtiyatı yaradılır. Bu sistemin köməyi ilə müvafiq orqanlar “Qeyri-formal məşğulluğa nəzarət” üzrə monitorinqlər həyata keçirirlər. Nəticədə pozuntu və uyğunsuzlar aşkar edilir və onların aradan qaldırılması üçün birgə səylərlə tədbirlər görülür.

Qeyri-formal məşğulluqdan (özünüməşğulluqdan) formal məşğulluğa (özünüməşğulluğa) keçid prosesinin səmərəliliyində, xüsusilə aqrar iqtisadiyyatda maarifləndirmə işinin təşkili kifayət qədər böyük rola malikdir. Yuxarıda haqqında danışılmış Qaydada nəzərdə tutulur ki, “qeyri-formal məşğulluğun aşkar edilməsi və qarşısının alınması məqsədilə qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarəti həyata keçirən orqanlar həmkarlar ittifaqları birlikləri və işəgötürənlərin nümayəndəli orqanları, habelə ictimai birliklər cəlb edilməklə: birgə maarifləndirmə, məlumatlandırma və təbliğat işini həyata keçirirlər” (13).

Ölkəmizdə qeyri-formal məğulluqla mübarizə tədbirləri kompleks xarakter daşıyır. Belə ki, müvafiq mübarizə tədbirlərində Azərbaycan qanunvericiliyinə uyğun olaraq vergi, inzibati və cinayət məsuliyyəti də nəzərdə tutulmuşdur.

Qeyri-formal məşğulluqdan formal məşğulluğa keçid istiqamətində fəal tədbirlərin görüldüyü 2018-ci ilin ilk ayında, başqa sözlə, “2018- ci ilin 1 sentyabr tarixinə olan məlumata əsasən ölkədə əmək müqaviləsi bildirişlərinin sayı ilin əvvəli ilə müqayisədə qeyri dövlət sektorunda 89 min 183 müqavilə və ya 16,7%, əmək haqqı fondu isə 74 962 244 manat və ya 26,72% artmışdır” (14).

Dövlət sektorunda əmək müqavilələrin bağlanmasında qeyd olunan artım, həyata keçirilən islahatın mühüm nəticəsidir. 2019-cu ilin müvafiq dövründə, daha doğrusu həmin ilin 9 ayında daha ciddi nəticələr əldə edilmişdir. Belə ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə “2019-cu ilin yanvar-sentyabr aylarında əmək müqavilələrinin sayı 126 min artaraq 1 milyon 528 min 246 müqavilə təşkil edib. Yeni 126 min əmək müqaviləsinin 35 mini dövlət, 91 mini qeyri-dövlət sektorunda bağlanıb. Beləliklə, 2019-cu ilin əvvəli ilə müqayisədə əmək müqavilələrinin sayında 9 faizdən çox artım qeydə alınıb” (15). 2019-cu ilin son üç ayı ərzində daha 35 min müqavilə bağlanmışdır ki, bu da həmin il ərzində ümumilikdə bağlanmış əmək müqavilələrinin 161 min vahid artması deməkdir. “2019-cu ildə həyata keçirilən islahatların nəticəsində ölkədə əmək müqavilələrinin sayı da 161 min müqavilə artıb. Onların böyük hissəsi - 96 mini özəl, 65 mini isə dövlət sektorunda qeydə alınıb” (16). Diqqətəlayiq cəhət haqqında danışılan müqavilələrin 59,6 faizinin özəl bölmədə, o cümlədən aqrar sektorda bağlanmasıdır.

Covid 19 pandemiyası həyatın bütün sahələrində gərginlik yaratmış, iqtisadi fəallığın zəifləməsinə səbəb olmuşdur. Əmək bazarı da bu baxımdan, əlbəttə istisna deyildir. Ölkədə məşğulluğun dəstəklənməsi siyasətinin prioritetlərinə uyğun olaraq aparılan tədbirlər pandemiya dövründə də müəyyən müsbət nəticələr əldə etməyə imkan vermişdir. Belə ki, pandemiya dövründə “görülən işlərin müsbət nəticəsi kimi, özəl sektorda nəinki əmək müqavilələrinin sayında azalma baş verməyib, əksinə, artım dinamikası davam edib. Qeyri-dövlət sektoru üzrə əmək müqavilələrinin sayı bu il aprelin 1-dən 87 200, yanvarın 1-dən 110 min müqavilə artaraq, 2020-ci ilin 1 iyul tarixinə 751 300-ə çatıb” (17).

**Nəticə**

Formal məşğulluğun əhatə dairəsinin genişləndirilməsi və nəticə etibarı ilə qeyri-formal məşğulluğun aradan qaldırılması əmək bazarında sivil rəqabət mühitinin yaradılması üçün

həlledici şərtdir. Formal özünüməşğulluğun təşviqi və dəstəklənməsi üçün ölkə iqtidarının gördüyü sistemli, davamlı və səmərəli tədbirlərin müsbət nəticələrini gücləndirmək üçün aqrar sahədə həyata keçirilən iqtisadi və institusional islhatlar dərinləşdirilməlidir. Əmək münasibətlərinin leqallaşdırılması üçün normativ-hüquqi bazada aparılan təkmilləşdirmələrin artıq görünən nəticələrini yaxşılaşdırmaq üçün hüquqi müstəvidə aparılan işlər davam etdirilməlidir. Yeni bağlanan əmək müqavilələrinin, o cümlədən aqrar sektorda yüksək artım tempi, həyata keçirilən məşğulluq siyasətinin nəticələri barədə nikbin olmağa əsas verir. Qarşıya çıxan problemlərin həllinin sürətləndirilməsi üçün müvafiq elmi təminatın gücləndirilməsi diqqət mərkəzində olmalıdır.

**İstifadə edilmiş ədəbiyyat**


1.Formal məşğulluq sosial hüquqların reallaşdırılması şərti kimi// http://ahik.org/articles/view/formal-mesgulluq-sosial-huquqlarin-reallasdirilmasi - serti-kimi. 07.09.2017

2. Beynəlxalq praktikada qeyri-formal iqtisadiyyat fenomeni – TƏHLİL//https:// aqreqator.az/ az/iqtisadiyyat/481097 27.11.2019

3. Aparılan islahatlar qeyri-formal məşğulluğun səviyyəsinin azaldılmasına müsbət təsir göstərir// V e r g i l ə r sosial-iqtisadi onlayn qəzet.11 dekabr 2019

4. “Məşğulluq haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2018-ci il. № 1196-VQ

5. В тени регулирования: неформальность на российском рынке труда. Под общей редакцией: В. Е. Гимпельсон, Р. И. Капелюшников. Москва, Изд. дом НИУ ВШЭ, 2014

6. Slonimczyk F. (2011) The Effect of Taxation on Informal Employment: Evidence from the Russian Flat Tax Reform. Серия препринтов WP3 «Проблемы рынка труда». WP3/2011/05. М.: Изд. дом ВШЭ (Working Paper Series WP3 of Higher School of Economics. WP3/2011/05. Moscow. Izdatelskii dom HSE

7. Зудина А.А. Формальные и неформальные работники на российском рынке труда: сравнительный анализ самооценок социального статуса. Мир России. 2013, №4, с.174-202

8. Qeyri-formal məşğulluğun qarşisi alınır//http://cbc.az/az/az/v_story/qeyr-formal-mulluun-qarisi-alinir. Jun 21 2018

9. Международная конференция труда, 103-я сессия, 2014 г. Доклад V (I). Переход от неформальной к формальной экономике. Отпечатано Международным бюро труда, Женева, Швейцария ILC.103/V/1. 90 стр.

10. Qeyri-formal məşğulluğu aradan qaldırmaq üçün müvafiq qurumlar birgə iş aparır// http://www.xezerxeber.az/13.11.2018

11. İşsizlikdən sığorta haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 30 iyun 2017-ci il. № 765-VQ

12. İşəgötürənlərə qeyri-formal məşğulluğun mənfi nəticələri barədə məlumat verilib// azertag.az/xeber/1180268. 17.07.2018

13. Qeyri-formal məşğulluğun leqallaşdırılması sahəsində nəzarət tədbirlərinin keçirilməsi və əlaqələndirilməsi qaydası. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 mart tarixli 96 nömrəli Qərarı ilə təsdiq edilmişdir // http://sosial.gov.az/qayda34

14. Anar Əliyev. Qeyri-formal iqtisadiyyatdan formal iqtisadiyyata keçid: nailiyyətlər və perspektivlər//www.audit.gov.az › Files › Anar Əliyev ƏƏSMN

15. Əmək müqavilələrinin sayı artıb – RƏSMİ// https://lent.az/ news/328842

16. Bu il əmək müqavilələrinin sayı 161 min artıb// https://vergiler.az/ news/economy/6451.html. 28.11.2019

17. Özəl sektorda əmək müqavilələrinin sayı artıb //https://apa.az/az/sosial_ xeberler/ Ozl-sektorda-mk-muqavillrinin-sayi-artib-594771.03.072020

**Yasəmən Quluzadə**
Azərbaycan Kooperasiya Universiteti, dissertant
*jasminshahzade@gmail.com*

# XARİCİ TİCARƏT ƏLAQƏLƏRİNİN MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ MÖVCUD PROBLEMLƏRİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ

**Açar sözlər**: xarici ticarət dövriyyəsi, ixrac, idxal, saldo, ixracın strukturu, ixracın strukturu

## Giriş

İstənilən ölkədə xarici iqtisadi əlaqələrin əsas forması kimi xarici ticarət əlaqələri çıxış edir. Azərbaycan Respublikasının da xarici ticarət əlaəqləri əsasən müstəqillikdən sonra müstəqil şəkildə həyata keçirilməyə başlayıb. Bunun üçün də bir çox iqtisadçılar Azərbaycan Respublikasının xarici ticarət əlaəqlərini təhlil edərəkən baza ili kimi 1991-ci il götürülür. Yəni müstəqil dövlət kimi ölkənin xarici ticarət əlaqələrinin hansı baza xüsusiyyətlərinə malik olduğunu bilmək üçün həmin ilin göstəricilərinə baxmağı məqsədəuyğun hesab edilir. Bu baxımdan biz də tədqiqatımızda həmin dövrü baza kimi götürməyi məqsədəuyğun hesab edirik. Növbəti təhlil ili kimi isə 1995-ci ili götürmüşük. Bunun səbəbi isə odur ki, əsasən həmin ildən başlayaraq ölkədə müstəqil dövlətin tələblərinə uyğun iqtisadi sistemin formalaşma mərhələsi başlamış, makroiqtisadi stabilliyə nail olunmuş və sistemli şəkildə iqtisadi islahatlara, o cümlədən xarici iqtisadi əlaqələrin təkmilləşdirilməsi (liberallaşdırılması) sahəsində islahatlara başlanılmışdır. Yəni 1995-ci il müstəqil iqtisadi sistemin formalaşmasının baza ili kimi qəbul etməklə təhlili 2019-ci ilə qədər aparmışıq.

## Materiallar və metodlar

Aşağıdakı cədvəldə xarici ticarət əlaqələrinin ümumi göstəriciləri verilmişdir (bax cədvəl 1,2 və şəkil 1).

**Cədvəl 1**

**Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin ümumi göstəriciləri, min ABŞ dolları**

| İllər | Milyon ABŞ dolları ilə | | | |
|---|---|---|---|---|
| | ticarət dövriyyəsi | idxal | ixrac | saldo |
| 1991 | 4,002.2 | 1,881.2 | 2,121.0 | 239.8 |
| 1995 | 1,304.9 | 667.7 | 637.2 | -30.5 |
| 2000 | 2,917.3 | 1,172.1 | 1,745.2 | 573.1 |
| 2015 | 25,809.0 | 9,216.7 | 16,592.3 | 7,375.6 |
| 2016 | 21,596.6 | 8,489.1 | 13,107.5 | 4,618.4 |
| 2017 | 24,263.8 | 8,783.3 | 15,480.5 | 6,697.2 |
| 2018 | 31,782.7 | 11,465.9 | 20,316.8 | 8,850.9 |
| 2019 | 33,138.5 | 13,667.2 | 19,471.3 | 5,804.1 |

Mənbə: https://www.stat.gov.az/

Cədvəldən gördüyümüz kimi, baza ili kimi götürdüyümüz 1991-ci ildə xarici ticarət əlaqələrinin spesifik xüsusiyyəti ondan ibarətdir ki, həmin ildə respublikadan göndərilən məhsullar gətirilən məhsullardan çox olmuş, həmçinin ticarət əlaqələrinin böyük bir hissəsi -




**Şəkil 1. Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin dinamikası**
Mənbə: https://www.stat.gov.az/

**Cədvəl 2**

**Azərbaycan Respublikasının xarici ticarət əlaqələrinin coğrafi qurluşu, min ABŞ dolları və faizlə)**

| İllər | Ticarət dövriyyəsi | MDB | Uzaq xaric |
|---|---|---|---|
| | min ABŞ dolları | Faiz | |
| 1991 | 4,002.2 | 87,0 | 13,0 |
| 1995 | 1,304.9 | 36,7 | 63,3 |
| 2000 | 2,917.3 | 20,9 | 79,1 |
| 2015 | 25,809.0 | 11,3 | 88,7 |
| 2016 | 21,596.6 | 12,9 | 87,1 |
| 2017 | 24,263.8 | 14,6 | 85,4 |
| 2018 | 31,782.7 | 12,9 | 87,1 |
| 2019 | 33,138.5 | 13,8 | 86,2 |

Mənbə: https://www.stat.gov.az/

87%-i keçmiş müttəfiq respublikaların payına düşmüşdür. Lakin növbəti təhlil ili kimi götürdüyümüz 1995-ci ildə isə artıq xarici ticarət əlaqələrinin coğrafi quruluşu əsaslı şəkildə dəyişmiş və bu əlaqələrdə uzaq xarici ölkələrin payı xeyli artaraq 63,3%-ə çatmışdır. Eyni zamanda xarici ticarət dövriyyəsinin həcmi 1991-ci illə müqayisədə 1995-ci ildə təqribən 3,3 dəfə, o cümlədən idxal 2,8 və ixrac 3,8 dəfə azalmışdır. Xarici ticarət dövriyyəsinin saldosu isə mənfi olmuşdur. Yəni 1991-ci ildən 1995-ci ilə qədərki dövrdə ölkədəki iqtisadi böhran və bunun da nəticəsində iqtisadi potensialın əsaslı şəkildə azalması ilə ölkənin ixrac imkanları da məhdudlaşmış və ixracın səviyyəsi aşağı olmuşdur.

Lakin gördüyümüz kimi son 5 ildə - 2015-2019-cü illər ərzində xarici ticarət dövriyyəsi həm idxalın həm də ixracın artımı hesabına yüksəlmişdir. Xüsusilə ixracda baş verən artımın idxalın artımını üstələməsi nəticəsində ticarət saldosu müsbət olmuşdur. Hətta 2015-ci ildə ixracın həcmi 1991-ci ilin  müvafiq göstəricisi ilə müqayisədə 6,5 dfə çox olmuşdur. Həçinin 2000-ci illə müqyisədə 2015-ci ildə xarici ticarət dövriyyəsinin həcmi 8,8 dəfə, 2015-ci illə müqayisədə 2019-cu ildə XTD-nin həcmi 1,3 dəfə artmışdır.

Bu dövr ərzində də xarici ticarət dövriyyəsində, xüsusilə ixracda uzaq xarici dövlətlərin payı yüksək olmuşdur. Bununla belə, 2000-ci ildən XTD-nin müsbət saldosu demək olar ki, davam etmişdir.

Ölkənin xarici ticarət əlaqələrinin müasir xüsusisiyyətlərini və bu sahədə mövcud olan qanunauyğunluqları sistemli şəkildə öyrənmək üçün, bu əlaqələri milli iqtisadiyyatın sahələri

üzrə və həmçinin xarici ticarətdə iştirak edən məhsulluarı funksional təyinatına görə qruplaşdırmaqla təhlil etmək zəruridir. Başqa sözlə xarici ticarət əlaqələrini keyfiyyət aspektləri üzrə də təhlil etmək lazımdır. Bu məqsədlə aşağıdakı cədvəllərə baxaq (bax cədvəl 3,4,).

Cədvəl 4-dən gördüyümüz kimi ixracda olan artım birmənalı şəkildə neft və neft məhsullarının hesabına təmin edilmişdir. Bundan başqa, 2017-2019-ci illər ərzində ixracın 90%-dən çoxu neft və neft məhsulları da daxil olmaqla cəmi altı məhsul qrupundan ibarət olmuşdur. Əslində belə bir mənzərə 1995-ci ildən sonra yavaş-yvaş formalaşmağa başlamışdır.

Bildirmək istərdik ki, 1991-ci ildə Azərbaycanın ixracında kənd təsərrüfatı və onun emalı sənayesinin məhsulları böyük xüsusi çəkiyə malik (45,8%) olmuş, həmin ildə yanacaq-energetika sənayesinin ixracdakı payı isə cəmi 12,7% olmuşdur. Lakin 1995-ci ilə qədər bu sahədə əsaslı dəyişiklik baş vermiş, kənd təsərrüfatı və onun emalı sənayesinin məhsulları da daxil olmaqla 1991-ci ildə ixracda az-çox rol oynayan bütün digər sahələrin – metallurgiya, kimya və neft-kimya, maşınqayırma və yüngül sənaye sahələrinin ixracı 1995-ci ildə əsaslı şəkildə aşağı olmuş, bununla da yanacaq-energetika sənayesinin məhsulları ixracın yarıdan çoxunu təşkil etmişdir.

Təhlil aparılan dövr ərzində idxalın strukturunun iqtisadiyyatın sahələri üzrə təhlili göstərir ki, idxalın strukturu daha geniş və daha çox çeşidə malikdir (bax cədvəl 3). Azərbaycan müstəqil dövlət kimi digər dünya dövlətləri ilə iqtisadi əlaqələri aktiv şəkildə genişləndirdiyinə görə, digər tərəfdən isə müvafiq sənaye sahələrinin istehsalında əsaslı bir irəliləyiş olmadığına görə, artıq 1995-ci ildən sonra idxalın həcmi hər il artmışdır.Müasir dövrdə ölkənin ixracının əsasən xammaldan ibarət olması kimi bir mənfi hal müşahidə edilir. Yuxarıda da qeyd etdiyimiz kimi, idxalda maşın və avadınlıqların, ümumiyyətlə istehsal-texniki təyinatlı məhsulların xüsusi çəkisinin yuxarı olmasını isə müsbət hal kimi qiymətləndirmək lazımdır.

**Cədvəl 3. İdxalın əmtəə strukturu, min ABŞ dolları**

| Mal qrupları | 2017 | Faizlə | 2018 | Faizlə | 2019 | Faizlə |
|---|---|---|---|---|---|---|
| Cəmi | 8,783,301.4 | | 11,465,914.7 | | 13,667,237.8 | |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 255,900.7 | 2.9 | 278,877.1 | 2.4 | 299,539.4 | 2.2 |
| Bitki mənşəli məhsullar | 559,519.1 | 6.4 | 560,254.3 | 4.9 | 745,717.2 | 5.5 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 148,319.8 | 1.7 | 140,888.5 | 1.2 | 141,237.6 | 1.0 |
| Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 735,866.8 | 8.4 | 723,478.9 | 6.3 | 739,565.0 | 5.4 |
| Mineral məhsullar | 417,031.8 | 4.7 | 766,286.3 | 6.7 | 868,288.9 | 6.4 |
| Kimya sənaye məhsulları | 831,329.6 | 9.5 | 977,158.4 | 8.5 | 1,123,573.5 | 8.2 |
| Plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar | 427,974.6 | 4.9 | 481,719.0 | 4.2 | 537,539.4 | 3.9 |
| Emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar | 19,267.8 | 0.2 | 28,147.3 | 0.2 | 29,730.8 | 0.2 |
| Oduncaq, mantar və onlardan hazırlanan məmulatlar, hörmə məhsulları | 213,768.7 | 2.4 | 298,166.8 | 2.6 | 286,278.3 | 2.1 |
| Oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan hazırlanan məmulatlar | 144,322.9 | 1.6 | 162,458.8 | 1.4 | 197,201.2 | 1.4 |
| Toxuculuq materialları və məmulatları | 315,954.6 | 3.6 | 430,970.9 | 3.8 | 461,454.0 | 3.4 |
| Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər | 71,569.6 | 0.8 | 86,061.3 | 0.8 | 95,968.4 | 0.7 |
| Daş, gips, sement, asbest, slyuda, keramika və şüşədən məmulatlar | 190,563.3 | 2.2 | 232,461.8 | 2.0 | 241,149.7 | 1.8 |
| Mirvari, qiymətli və ya azqiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatlar, bijuteriya, sikkələr | 30,847.7 | 0.4 | 839,147.4 | 7.3 | 2,149,525.5 | 15.7 |
| Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar | 1,060,769.7 | 12.1 | 1,409,735.9 | 12.3 | 1,288,825.6 | 9.4 |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatlar | 1,866,670.0 | 21.3 | 2,589,007.7 | 22.6 | 2,661,228.2 | 19.5 |
| Quru nəqliyyat vasitələri, üzən nəqliyyat vasitələri | 598,206.6 | 6.8 | 818,838.4 | 7.1 | 1,199,879.5 | 8.8 |
| Optik, fotoqrafiya, kinematoqrafiya, ölçü, nəzarət, tibbi alət və aparatları, saatlar, musiqi alətləri | 175,761.1 | 2.0 | 214,196.4 | 1.9 | 253,602.6 | 1.9 |
| Müxtəlif sənaye malları | 233,094.0 | 2.7 | 297,574.0 | 2.6 | 293,118.2 | 2.1 |
| İncəsənət əsərləri, kolleksiya əşyaları və antikvariat | 2,050.5 | 0.0 | 441.6 | 0.0 | 688.3 | 0.0 |

Mənbə: https://www.stat.gov.az/

**Cədvəl 4. İxracın əmtəə strukturu, min ABŞ dolları**

| Mal qrupları | 2017 Min ABŞ dolları | faiz | 2018 Min ABŞ dolları | faiz | 2019 Min ABŞ dolları | faiz |
|---|---|---|---|---|---|---|
| Cəmi | 15,319,977.1 | | 19,489,068.2 | | 19,635,580.4 | |
| Diri heyvanlar və heyvan mənşəli məhsullar | 12,606.8 | 0.1 | 12,090.0 | 0.1 | 23,231.3 | 0.12 |
| Bitki mənşəli məhsullar | 518,273.9 | 3.4 | 584,702.4 | 3.0 | 625,904.0 | 3.19 |
| Heyvan və ya bitki mənşəli piylər və yağlar | 17,046.9 | 0.1 | 16,861.9 | 0.1 | 18,451.0 | 0.09 |
| Hazır ərzaq məhsulları, spirtli və spirtsiz içkilər, sirkə, tütün | 110,982.8 | 0.7 | 90,707.7 | 0.5 | 104,616.8 | 0.53 |
| Mineral məhsullar | 13,911,994.5 | 90.8 | 17,924,252.0 | 92.0 | 17,852,667.1 | 90.92 |
| Kimya sənaye məhsulları | 79,562.4 | 0.5 | 78,106.9 | 0.4 | 102,876.4 | 0.52 |
| Plastik kütlələr, kauçuk, rezin, onlardan hazırlanan məmulatlar | 102,514.2 | 0.7 | 119,289.5 | 0.6 | 180,048.6 | 0.92 |
| Emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar | 15,153.3 | 0.1 | 13,340.2 | 0.1 | 11,857.6 | 0.06 |
| Oduncaq, mantar və onlardan hazırlanan məmulatlar, hörmə məhsulları | 1,129.6 | 0.0 | 284.8 | 0.0 | 650.9 | 0.00 |
| Oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan hazırlanan məmulatlar | 5,443.6 | 0.0 | 9,882.7 | 0.1 | 7,020.5 | 0.04 |
| Toxuculuq materialları və məmulatları | 76,845.6 | 0.5 | 135,209.5 | 0.7 | 185,435.1 | 0.94 |
| Ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər | 386.9 | 0.0 | 165.0 | 0.0 | 848.6 | 0.00 |
| Daş, gips, sement, asbest, slyuda, keramika və şüşədən məmulatlar | 7,893.5 | 0.1 | 4,776.8 | 0.0 | 3,191.8 | 0.02 |
| Mirvari, qiymətli və ya azqiymətli daşlar, qiymətli metallar və onlardan hazırlanan məmulatlar, bijuteriya, sikkələr | 141,530.1 | 0.9 | 146,669.7 | 0.8 | 174,520.0 | 0.89 |
| Az qiymətli metallar və onlardan hazırlanan məmulatlar | 245,050.6 | 1.6 | 252,510.2 | 1.3 | 231,968.9 | 1.18 |
| Maşınlar, mexanizmlər, elektrotexniki avadanlıqlar, aparatlar | 50,449.0 | 0.3 | 64,594.6 | 0.3 | 77,820.4 | 0.40 |
| Quru nəqliyyat vasitələri, üzən nəqliyyat vasitələri | 11,520.5 | 0.1 | 9,386.7 | 0.0 | 11,105.6 | 0.06 |

Mənbə: https://www.stat.gov.az/

**Nəticə**

Hesab edirik ki, xarici iqtisadi əlaqələrin inkişaf istiqamətləri və eləcədə ölkənin xarici iqtisadi əlaqələrinin müasir vəziyyətinin analitik təhlili və qiymətləndirilməsi əsasında bu sahədə müşahidə olunan ümumi inkişaf meyllərini və mövcud olan problemləri aşağıdakı kimi qruplaşdıraq:

- neft və neft məhsulları istisna olmaqla, digər məhsullar üzrə xarici ticarət əlaqələrində mənfi saldo ilbəil artır. Ölkə iqtisadiyyatının strukturunda əsaslı dəyişiklik olmadığı üçün yaranmış mənfi meylin davam edəcəyi gözlənilir;
- ixracda xammal və aralıq məhsulların xüsusi çəkisi 90%-i keçmiş, son məhsulların xüusi çəkisi müvafiq olaraq azalmışdır. Idxalda isə, əksinə, son məhsulların, xüsusilə, istehlak mallarının və maşın və avadınlıqların xüsusi çəkisi artmışdır;
- daxili istehsalda səmərəli struktur dəyişikliyi aparılmadan ölkə iqtisadiyyatı xarici rəqabət üçün həddən artıq açılmışdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Kərimov E.N., Osmanov B. İqtisadi nəzəriyyə (Mikro-Makroiqtisadiyyat). -Bakı, -2010, -634s.
2. G.Ə.Gənciyev, Ə.R.Ələkbərov, Ə.A.Qurbanova. Dünya iqtisadiyyatı tarixi və ölkələrin müasir durumu. –Bakı, - 2013, - 414s.
3. https://www.stat.gov.az/
4. https://www.economy.gov.az

**Mehparə Orucova**
Azərbaycan Texniki Universiteti
*Orujova67@gmail.com*

# AZƏRBAYCANDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN İXRAC POTENSİALININ QİYMƏTLƏNDİRİLMƏSİ

**Açar sözlər:** ixrac potensialı, qloballaşma, iqtisadiyyat, dinamika, ticarət, məcmu təklif, məcmu tələb

## Giriş

Qloballaşma prosesi ölkələrarası əlaqələri və dünya təsərrüfat sisteminə inteqrasiyanı gücləndirdikcə ölkələrarası əmək bölgüsü də dərinləşir. Ölkələrarası əmək bölgüsü ölkələrarası mal və xidmətlərin mübadiləsini zəruri edir. İdxal və ixrac həcmi genişləndikcə, xarici ticarət iqtisadi artımın, həmçinin əhalinin rifah səviyyəsinin əsas amillərindən birinə çevrilir. Azərbaycan siyasi müstəqillik qazandıqdan sonra onun dünya ölkələri ilə müstəqil iqtisadi əlaqələri də möhkəmlənməyə başladı. Müstəqilliyin ilk illərində ölkənin xarici bazara çıxara biləcəyi əsas məhsul neft idi. İdxal etdiyi məhsulların çeşidi isə xeyli geniş idi. Təəssüf ki, sonrakı illərdə ixrac məhsullarının strukturunda müəyyən dəyişikliklər olsa da neft və neft məhsulları Azərbaycanın xarici ticarətində mühüm məhsul olaraq qalır. Elə buna görə də neftin qiymətinin dünya bazarında istənilən istiqamətdə dəyişməsi Azərbaycanın daxili bazarında özünü göstərmiş olur. Neftin qiymətinin artması ölkəyə daxil olan əsas valyuta gəcmini artırdığından əhalinin rifah halına müsbət, azalması isə mənfi təsir göstərir.

Ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılması Azərbaycan Respublikası Prezidentinin keçən ilin sonlarında imzaladığı "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritəsi" sənədində əsas hədəf kimi qoyulub. İxracın diversifikasiyası və müəssisələrin ixrac potensialının artırılması davamlı iqtisadi artım üçün mühüm əhəmiyyətə malik olan məsələdir. Bu hədəf iqtisad elmi qarşısında da mühüm vəzifələr qoyur. "İxrac" və "ixrac potensialı" anlayışlarının iqtisadi mahiyyətinin və nəzəri əsaslarının tədqiq edilməsi, ixrac potensialının qiymətləndirilməsi üçün metodların müqayisəli təhlili və ixrac potensialının iqtisadi və sosial-iqtisadi inkişafa təsirlərinin öyrənilməsi mühüm elmi və praktiki əhəmiyyət daşıyır.

## Mövcud ədəbiyyatlara istinad

Hər hansı bir ölkənin dünya təsərrüfat sisteminə qoşulması onun istehsal etdiyi mal və xidmətlərin dünya bazarına çıxışı üçün mühüm imkanlar yaradır. Belə əlaqələr, həmçinin daxili istehsalın genişlənməsi üçün mühüm investisiya mənbəyidir. Ona görə də hər bir ölkə xarici bazara istiqamətlənmiş mal və xidmət istehsalını genişləndirməyə səy edir. İxracın iqtisadi inkişaf və əhalinin rifah halının yüksəldilməsində mühüm əhəmiyyətini nəzərə alaraq müxtəlif iqtisadi məktəblərin nümayəndələri ixracın simullaşdırılmasının əhəmiyyətini qeyd edirdilər. Məsələn, merkantilistlərin ilk nümayəndələri T. Men, A. Monkretyen və başqaları qeyd edirdilər ki, ixrac əməliyyatları ixrac edən ölkənin sərvətinin artmasında mühüm rol oynayır. A. Smit və D. Rikardo belə hesab edirdilər ki, xarici ticarət ölkənin rəqabətqabiliyyətli istehsalının daxili bazarda istehlakdan artıq qalan hissəsinin realizə olunmasına imkan verir.

İxrac məcmu təklifi və məcmu tələbi artırmaqla iqtisadi inkişafa stimul verir. Təmiz ixrac işçilərin əmək haqqını artırmaqla, firmalara əlavə gəlir gətirməklə məcmu tələbi stimullaşdırır. İxrac fəaliyyəti ayrı-ayrı şirkətlərin inkişafına stimul verdiyi kimi bütünlükdə ölkə iqtisadiyyatına da stimul verir. Tədqiqatlar göstərir ki, ixrac əməliyyatlarının genişlənməsi təbii ehtiyatlardan səmərəli istifadəyə, beynəlxalq əmək bölgüsünün imkanlarından bəhrələnməyə, işsizliyin aradan qaldırılmasına, müxtəlif sahələrdə rəqabətqabiliyyətli məhsulların istehsalının gücləndirilməsinə, xarici valyuta ehtiyatlarının artırılmasına, müsbət saldolu tədiyyə balansının yaradılmasına, davamlı iqtisadi artıma və əhalinin rifah halının yaxşılaşdırılmasına şərait yaradır

[1]. Əlbəttə, belə imkanların reallaşması təkcə ixrac fəaliyyətinin həcm etibarı ilə genişlənməsi ilə deyil, həm də ixrac edilən mal və xidmət strukturunun müxtəlifliyi ilə bağlıdır. İxrac edilən mal və xidmətlərdən hansıları daha yüksək əlavə dəyərə malikdirsə, onların ixracı daha çox gəlir gətirir [2]. A.Guerson, J.Parks, və M Torrado tərəfindən aparılan empirik tədqiqatlar sübut edir ki, ölkənin ÜDM həcmi ixracın diversifikasiyasından ciddi şəkildə asılıdır [3]. J. D. Sachs və A.Varner tərəfindən aparılan tədqiqatlar isə zəif iqtisadi inkişafla xammal əsaslı ixrac fəaliyyəti arasında birbaşa əlaqə olduğunu göstərir [4]. Bəzi tədqiqatşılar isə böyük həcmli ixrac əvəzinə müxtəlif strukturlu ixraca üstünlünlük verilməsinin tərəfdarıdırlar. Məsələn, D.Hummels və P. Klenoy qeyd edirlər ki, inkişaf etmiş ölkələr böyük həcmli ixrac fəaliyyətinə malik deyillər. Bu ölkələr daha çox müxtəlif strukturlu və diversifikasiya olunmuş ixraca üstünlük verirlər [5].

Belə araşdırmalar sübut edir ki, hər bir ölkə üçün o cümlədən Azərbaycan üçün ixrac potensialının araşdırılmasına ciddi ehtiyac var. Qeyd edək ki, "ixrac potensialı" anlayışı iqtisadi ədəbiyyatda nisbətən yeni anlayışlardandır. Elə ona görə də bu anlayışın mahiyyəti ilə bağlı birmənalı tərif və onun ölçülməsi ilə bağlı dəqiq metodologiya yoxdur. Bəzi müəlliflər "ixrac potensialını" dövlətin, şirkətin və ya müəssisənin xarici bazara rəqabətqabiliyyətli hər hansı mal və xidməti çıxarmaq bacarığı kimi qəbul edirlər [6]. Bəzi müəlliflər isə "ixrac potensialını" ölkə daxilində istehsal olunan mal və xidmətlərin, həmçinin təbii ehtiyatların ixracı üçün ölkənin potensial qabiliyyəti hesab edirlər [7]. "İxrac potensialını" öyrənən əksər tədqiqatçılar onu ölkənin, onun iqtisadi sektorlarının, müəssisələrinin, şirkətlərinin "istehsal qabiliyyəti" kimi xarakterizə edirlər. Lakin nəzərə almaq lazımdır ki, bu "qabiliyyət" milli iqtisadiyyatın müqayisəli üstünlüyündən, həmçinin elmi-texniki tərəqqiyə əsaslanan rəqabət üstünlüyündən istifadə edərək dünya bazarında rəqabətədüzümlü mal və xidmətlərin istehsalını nəzərdə tutur [8].

**İxrac potensialının qiymətləndirilməsi**

Beləliklə, ixrac potensialı hər hansı ölkənin, iqtisadi fəaliyyət sahəsinin, müəssisənin və ya şirkətin öz sərəncamında olan təbii ehtiyatlardan, kapitaldan, nəqliyyat-kommunikasiya və digər infrastrukturdan, texnologiyadan və əmək resurlarından, həmçinin menecmentdən istifadə edərək dünya bazarı üçün rəqabətqabiliyyətli mal və xidmət istehsal etmək qabiliyyətidir. Bu "qabiliyyətin" qiymətləndirilməsi və proqnozlaşdırılması üçün müxtəlif iqtisadi, statistik və ekonometrik metodlardan istifadə oluna bilər. Yuxarıda qeyd etdiyimiz kimi, "ixrac potensialının" qiymətləndirilməsi üçün universal metodologiya yoxdur və adətən, ixrac potensialı kimi ixracın dinamikası öyrənilərək proqnozlaşdırılır [9].

İxrac potensialının qiymətləndirilməsi üçün həm daxili, həm də xarici bazar analiz edilməlidir. Bu zaman bir neçə göstəricinin araşdırılması vacibdir. Məsələn, 1) istehsalın həcmi, xarakteri və inkişaf tendensiyası; 2) ixracın dinamikası; 3) ixracın real və obyektiv imkanları; 4) kontagentlərlə mövcud əlaqələrin səmərəliliyi; 5) xarici bazarlarda məhsulun rəqabətqabiliyyətliliyi;6) hər bir məhsul üzrə bazarın həcmi; 7) daxili və xarici bazarın tutumu və sair göstəricilərdən istifadə edilə bilər. Adətən, ölkələr üzrə ixracın konsentrasiyası dərəcəsinin hesablanması zamanı Herfindahl-Hirschman indeksindən istifadə edilir. Əslində Herfindahl-Hirschman indeksi (HHİ) daha çox daxili bazarda monopolist meyllərin qiymətləndirilməsində tətbiq edilir. Belə ki, əgər 1800 < HHI < 10000, onda bazar yüksək konsentrasiyalı, 1000 < HHI < 1800 orta konsentrasiyalı, HHI < 1000 az konsentrasiyalı hesab edilir.

$$\text{HHİ}=\sum_{i=1}^{N} S_i^2. \qquad (1)$$

Burada: N-firmaların sayı, $S_i$- i-ci firmanın bazardakı payıdır.HHİ-nin maksimum qiyməti 10000 ola bilər. Yəni bazarda yalnız bir firma olarsa və onun payı 100% olduğundan HHİ indeksi 10000 olur. Bu mütləq monopoliyadır. Bazarda firmaların sayı çoxaldıqca HHİ azalır, yəni bazarda monopolist meyllər azalır.

Herfindahl-Hirschman indeksini ixrac əməliyyatları üçün tətbiq etsək, onda (1) düsturunu belə yaza bilərik:

$$HHİ_j = \sum_{i=1}^{N} S_{ji}^2 . \quad (2)$$

Burada: $HHİ_j$- j-ci ölkənin Herfindahl-Hirschman indeksi, $S_{ji}$-j-ci ölkədən ixrac olunan i-ci məhsulun bütün ixrac olunan məhsulların həcmində payıdır. Əgər $1800 < HHİ_j < 10000$ onda ixrac daha çox konsentrasiya (az diversifikasiya) olunmuş, $1000 < HHİ_j < 1800$ orta dərəcədə konsentrasiya (orta səviyyədə diversifikasiya) olunmuş, $HHİ_j < 1000$ az konsentrasiya (yüksək səviyyədə diversifikasiya) olunmuş hesab edilir.

Azərbaycanda xarici ticarətin diversifikasiyasını qiymətləndirmək üçün son 25 ildə xarici ticarət dövriyyəsinin, idxal və ixracın dinamikasına nəzər yetirək. Bu göstəricilər 1-ci qrafikdə təsvir edilib. Qrafikdən görünür ki, son 25 ildə Azərbaycanın xarici ticarət dövriyyəsi kəskin artıb. Bu, hər çeydən əvvəl Azərbaycanın dünya təsərrüfat sisteminə aktiv qoşulması ilə və ölkədə karbohidrogen ehtiyatlarının ixracının artması ilə bağlıdır.

Qrafik 1-də diqqəti cəlb edən mühüm məlumatlardan biri ondan ibarətdir ki, tədqiq edilən dövrdə ixrac həcminin artıb-azalmasına baxmayaraq, idxal həcmi davamlı olaraq artıb.

Bu ixrac fəaliyyətində diversifikasıya dərəcəsinin az olması ilə bağlıdır. Doğrudan da ixrac olunan mal qrupları arasında mineral məhsulların üstünlük təşkil etməsi ixrac həcminin dünya bazarındakı konyukturadan ciddi asılılığını göstərir.




**Qrafik 1. Azərbaycanda xarici ticarətin dinamikası, mlyn. ABŞ dolları**

Məsələn, diri heyvanlar və heyvan mənşəli məhsullar, emal olunmamış gön, aşılanmış dəri, təbii xəz, onlardan hazırlanan məmulatlar, oduncaq, mantar və onlardan hazırlanan məmulatlar, hörmə məhsulları, oduncaqdan hazırlanan kütlə, kağız və karton, onlardan hazırlanan məmulatlar, ayaqqabı, baş geyimləri, çətirlər, çəliklər, lələklər, süni güllər, İncəsənət əsərləri, kolleksiya əşyaları və antikvariat, həmçinin müxtəlif sənaye malları və optik, fotoqrafik, kinematoqrafiya, ölçü, nəzarət, tibbi alət və aparatları, saatlar, musiqi alətləri, daş, gips, sement, asbest, slyuda, keramika və şüşədən məmulatlar, mirvari, qiymətli daşlar və metallar, onlardan hazırlanan məmulatlar.

2015-ci ildə Azərbaycandan ixrac edilən 10 əsas mal qrupu bütün ixracın 96,9%-ni, bir məhsul qrupu isə (mineral məhsullar) 86,6%-ni təşkil edib. Əvvəlki illərdə də bu mal qrupları ixracda əsas rol oynayıb. Məsələn, 1995-ci ildə mineral məhsullar qrupu 58,6%, toxuculuq materialları və məmulatları19,5% təşkil edərək, bütün ixrac həcminin 78,1% təşkil edib.

Əgər ixrac edilən əsas mal qrupları üzrə HHİ əmsalını hesablasaq, bu illər üzrə ixracın çox aşağı səviyyədə diversifikasiya olunduğunu görərik. Məsələn, hesablamalar göstərir ki, HHİ 1995-ci ildə 3893,45 olduğu halda 2000-ci ildə 7268,25-ə, sonrakı illərdə isə hətta 8877,71-ə qədər (2010) yüksəlib. Sonrakı illərdə isə bir qədər azalaraq 2015-ci ildə isə 7519,23 olub. Bütün bu illərdə HHİ 1800-dən çox olduğundan ixracın az miqdar məhsul ətrafında yüksək dərəcədə konsentrasiya olunduğunu, yəni diversifikasiyanın səviyyəsinin çox az olduğunu iddia edə bilərik. Azərbaycanda son 15 ildə ixracın əsas mal qrupları üzrə diversifikasiyasının dinamikası və onun orta səviyyəli diversifikasiya ($1000 < HHİ_j < 1800$) və güclü diversifikasiya dərəcələri ilə ($HHİ_j < 1000$) müqayisəsi verilir (qrafik 2) .




**Qrafik 2. Azərbaycanın ixracında Herfindahl-Hirschman indeksinin dinamikası**

Qrafikdən görünür ki, Azərbaycanın ixrac fəaliyyətində son 15 ildə davamlı olaraq diversifikasiya dərəcəsi çox az olub. Bəzi illərdə, məsələn, 2008-ci ildə, HHİ= 9429,72 olaraq özünün hətta maksimum qiymətinə (HHİ= 10000) lap yaxın olub. Yalnız 1994-cü ildə ixracda diversifikasiya səviyyəsini orta dərəcəli hesab etmək olardı. Amma nəzərə almaq lazımdır ki, həmin ildə ölkənin ixrac həcmi cəmi 652,7 milyon dollar, xarici ticarət dövriyyəsi isə cəmi 1,4 milyard ABŞ dolları olub. Ona görə də həmin ildə ixracın diversifikasıyasını o qədər də dayanıqlı hesab etmək olmaz.

Azərbaycanda ixracın diversifikasiyasının davamlı olmaması hər şeydən əvvəl sənaye məhsulları istehsalının yüksək konsentrasiyalı olması və kənd təsərrüfatı məhsullarının yüksək gəlirli olmaması ilə bağlıdır. Xüsusilə, neft gəlirlərinin son 15 ildə artması kənd təsərrüfatı məhsullarının ixracını nəinki artırmadı, əksinə, belə məhsulların idxal həçmini artırdı. Ona görə də ixracda kənd təsərrüfatı məhsullarının payı demək olar ki, cüzidir. Sənaye məhsullarının istehsalında isə konsentrasiya dərəcəsi yüksəkdir (qrafik 3).




**Qrafik 3. Azərbaycanda sənaye məhsulları istehsalının dinamikası**

Qrafikdən görünür ki, 1998-ci ilədək Azərbaycanda emal sənayesi digər sənaye sahələrinə nisbətən daha yüksək çəkiyə malik olub. Sonrakı illərdə isə mədənçıxarma sənayesi digər sənaye sahələrini ciddi şəkildə üstələyib. Hətta 2010-2012-ci illərdə mədənçıxarma sənayesi ümumi sənaye məhsulları istehsalında 80% çəkiyə malik olub. Bu illərdə emal sənayesi cəmi 14% çəki ilə mədənçıxarma sənayesindən xeyli geridə qalıb.

Sənaye məhsulları istehsalında konsentrasiyanın qiymətləndirilməsi üçün HHİ-nin hesablanması göstərir ki, son 20 ildə HHİ davamlı olaraq (1996-cı ildən başqa) orta konsentrasiya həddindən çox yüksək olub (qrafik 4).




**Qrafik 4. Azərbaycanda sənaye məhsulları istehsalının konsentrasiyası (diversifikasiyası)**

Hətta 2008-2009-cu illərdə HHİ-nin qiyməti 6000 həddinə yaxınlaşıb. Sənaye məhsulları istehsalının konsentrasiyasının belə güclü olması və diversifikasiya dərəcəsinin zəifliyi sənaye məhsullarının ixrac diversifikasıyasının da zəif olmasına səbəb olmuşdur.

**Nəticə**

Yuxarıda qeyd edilənlər əsasında belə bir nəticəyə gəlmək olar ki, zəif diversifikasiyalı sənaye istehsalı yüksək diversifikasiyalı sənaye məhsulları ixracını təmin edə bilməz. Tədqiqat işində aparılmış hesablamalar göstərir ki, Azərbaycanın ixracının diversifikasiya dərəcəsi çox zəif, sənaye məhsullarının istehsalının konsentrasiya dərəcəsi xeyli güclüdür.

**İstifadə edilmiş ədəbiyyat**


1. Гаврилов Н. А., Беляков И. М. Государственная поддержка промышленного экспорта в России// Вопросы экономики. – 2007. - № 3. – с. 108-119.
2. Сельцовский В.Л. Диверсификация необходимое направление развития российского экспорта // Российский внешнеэкономический вестник. 2009. № 1.с. 30-42
3. Guerson A., Parks J., Torrado M. Export Structure and Growth: A Detailed Analysis for Argentina // World Bank Policy Research Working Paper Series. 2007. No. 4237
4. Sachs J. D., Warner A. Natural Resources Abundance and Economic Growth. //Harvard Institute for International Development, Harvard University. 1997.
5. Hummels D., Klenow P. The Variety and Quality of a Nation's Exports // American Economic Review. 2005. № 95(3).
6. Артемьева Е.А., Баландина М.С., Воробьев П.В., Кадочников С.М., Коновалова М.А., Никитина О.В., Останин И.В. Корзина роста: потенциальные экспортные отрасли Свердловской области // Журнал Новой экономической ассоциации, № 6, с. 62–81. 2010
7. Райзберг Б.А., Лозовский Л.Ш., Стародубцева Е.Б.. Современный экономический словарь. — 2-е изд., испр. М.: ИНФРА-М., 1999. 479 с.
8. Савинов Ю.А., Мигунов А.Ю. Государственная финансовая поддержка экспорта в России // Российский внешнеэкономический вестник. 2008. № 5, с. 30-37, № 6 сс. 46-55.
9. Ультан С. И., Роговская Н. Ю. Методологические основы формирования и исследования экспортного потенциала отрасли (на примере отрасли цветной металлургии) //Вестник Омского университета. Серия «Экономика». – 2012. – №. 1.

**Hikmət Mirzəyev**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*h.q.mirzeyev@gmail.com*

## "POST-KONFLİKT REGİONLARA" XARİCİ İNVESTİSİYANIN CƏLB OLUNMASI POTENSİALI

***Açar sözlər:*** investisiya, iqtisadi sahələr, şirkətlər, işğaldan azad olunmuş ərazi

**Giriş**

Son bir neçə ildə Azərbaycan hökuməti xarici investisiyalar cəlb etməyə, iqtisadiyyatını şaxələndirmək üçün islahatlar həyata keçirməyə və özəl sektorun rəhbərlik etdiyi böyüməni stimullaşdırmağa çalışır. Bununla birlikdə, Azərbaycan iqtisadiyyatında ixracat gəlirlərinin təxminən 90 faizini və dövlət büdcəsinin yarısından çoxunu neft və qaz hasilatından gələn gəlirlər təşkil edir. Real ÜDM, ilk növbədə, təbii qaz ixracatındakı artım sayəsində 2019-cu ildə 2,2% artmışdır. Neft və qaz sektoru tarixən ən çox xarici investisiyanı cəlb etdiyi halda, Azərbaycan hökuməti iqtisadiyyatı şaxələndirmək üçün əsasən dörd qeyri-neft sektorunu inkişaf etdirməyi qarşısına məqsəd qoydu: kənd təsərrüfatı, turizm, informasiya və kommunikasiya texnologiyaları (İKT) və nəqliyyat. Son illərdə iş mühitinin yaxşılaşdırılması və ümumi iqtisadiyyatda islahatların aparılması istiqamətində görülən tədbirlərə "ASAN" dövlət xidmət mərkəzlərinin lisenziyalaşdırma orqanı ilə səlahiyyətləndirilməsi, gömrük prosedurlarının sadələşdirilməsi, müəyyən iş yoxlamalarının dayandırılması və vergi rejimində islahatları aid etmək olar.

Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının dərc etdiyi "Doing Business 2020" reytinqində Azərbaycan 190 ölkə arasında 25-dən 34-ə düşdü. Bu hesabata görə, Azərbaycan 2018-ci ilin may ayından 2019-cu ilin may ayına qədər dörd uğurlu islahatlar həyata keçirdi və bununla da beş hədəfdən dördünü yerinə yetirmiş oldu. Bu islahatlar əmlakın qeydiyyatı, kredit alınması, investorlarının qorunması və müqavilələrin icrası ilə əlaqəlidir. Bu göstəricilərə görə Azərbaycan ilk 20 "islahatçı" ölkədən biri kimi seçilmişdir. Bununla birlikdə, çoxşaxəli və rəqabətçi bir özəl sektorun yaradılması üçün tələb olunan struktur islahatlarında irəliləyiş yavaş olaraq qalır və korrupsiya Azərbaycanda fəaliyyət göstərən firmalar üçün əsas problem olaraq qalmaqdadır. Kiçik bir hökumətə bağlı holdinq şirkətləri iqtisadiyyatda üstünlük təşkil edir, əqli mülkiyyət hüquqlarının icrası qeyri-kafi və məhkəmə şəffaflığı yoxdur [2].

Azərbaycan qanunlarına əsasən xarici investisiyalar tam və qorunmayan hüquqi müdafiədən istifadə olunur və xüsusi şərtlər xaricində milliləşdirilə və mənimsənilə bilməz. Xüsusi qurumlar sərbəst şəkildə ticarət müəssisələrində maraqlar yarada, əldə edə və sərəncam verə bilər. Xarici vətəndaşlar, təşkilatlar və müəssisələr torpaq sahələrini icarəyə götürə bilər, lakin sahibinə çevrilməyə bilərlər [5].

**İşğal olunmuş ərazilərin infrastrukturu**

İşğal olunmuş regionda müxtəlif təbiət abidələri, nadir bitki və heyvan növləri yayılmışdır. İşğal olunan Kiçik Qafqazın dağlıq zonası Azərbaycanın iri meşə sahəsi olan ərazisidir. Regionun ümumi meşə sahəsi təxminən 246,7 min ha, o cümlədən 13,197 min ha qiymətli meşə sahələridir. Ölkəmizdə xüsusi mühafizə olunan təbiət ərazilərinin sahəsi hazırda 890 min ha çatdırılıb ki, bunun da 42,997 min ha ermənilər tərəfindən işğal olunmuş ərazilərə aid idi [3].

Azərbaycan Respublikasının Dağlıq Qarabağ və onun ətrafında olan Laçın, Kəlbəcər, Qubadlı, Zəngilan, Cəbrayıl, Ağdam (rayon mərkəzi və ərazisinin böyük hissəsi), Füzuli (rayon mərkəzi və ərazisinin böyük bir hissəsi) inzibati rayonları 1989-1993-cü illərdə Ermənistan tərəfindən işğal olunmuşdur və işğal tarixindən bu günədək talançılıq, qeyri-səmərəli istismar nəticəsində regionun infrastrukturu yox səviyyəsinə gətirilmişdir. Bu səbəbdən, gələcək bərpa işləri ümumi infrastrukturun (yollar, qaz, su, elektrik enerjisi, rabitə) və ilkin yaşayış şəraitinin qurulmasından başlamalı və sonrakı mərhələdə isə iqtisadi inkişaf layihələrinə keçilməlidir.

1985-ci ildə Qarabağın Xankəndindəki iri İpək Kombinatına daxil olan barama xammalının cəmi 8%-i Dağlıq Qarabağın özündə istehsal olunurdu. Yerdə qalan 92%-i isə Azərbaycanın digər rayonlarından gətirilirdi. Dağlıq Qarabağ Vilayətinin 1986-cı ildə həyata keçirdiyi xarici iqtisadi əlaqələrin həcminin cəmi 0,3 %-i, idxalının isə 1,4 %-i Ermənistanın payına düşdüyü halda, Azərbaycana onun ixracatının 33,3 % düşürdü. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Xankəndi vaxtilə birbaşa Azərbaycan dəmir və şosse yollarına və bütövlükdə respublikanın nəqliyyat-kommunikasiya sisteminə sıx bağlanmışdır. Xankəndindən dəmir yolu ilə Bakıya qədər olan məsafə 392 km-dir. Regionun gələcək inkişafında bu çox vacib amildir və infrastruktur layihələr sovet vaxtı mövcud olan nəqliyyat loqistikasının xəritələrindən istifadə edə bilər. Təbii, zəbt olunmuş rayonlarda illərdən bəri fəaliyyət göstərən vahid nəqliyyat-kommunikasiya sistemi Ermənistanın təcavüzü nəticəsində hal-hazırda dağıdılmış və bərbad vəziyyətdədir.

İşğal edilmiş ərazilərdə 155 müxtəlif növ faydalı qazıntı yataqları, o cümlədən: 5 qızıl, 6 civə, 2 mis, 1 qurğuşun və sink, 19 üzlük daşı, 10 mişar daşı, 4 sement xammalı, 13 müxtəlif növ tikinti daşları, 1 soda istehsalı üçün xammal, 21 pemza və vulkan külü, 10 gil, 9 qum-çınqıl, 5 tikinti qumu, 9 gips, anhidrid və gəc, 1 perlit, 1 obsidian, 3 vermikulit, 14 əlvan və bəzək daşları (əqiq, yəşəm, oniks, cad, pefritoid və s. ) yataqları yerləşir. Sənaye ehtiyatları 132,6 ton qızıl, 37,3 min ton qurğuşun, 189 milyon $m^3$ mişar daşı, 1 milyon 526 min ton gəc, 18 milyon 432 min $m^3$ üzlük daşı, 23 milyon 243 min $m^3$ gil, 57 milyon 965 min ton tikinti daşı, 96 milyon 987 min ton qum-çınqıl, 1898,4 ton civə, 4 milyon 473 min $m^3$ perlit, 2 milyon 144 min $m^3$ pemza, 129 milyon 833 min $m^3$ soda istehsalı üçün əhəngdaşı, 147 milyon 108 min ton sement xammalı və s. iqtisadiyyatın inkişafında vacib əhəmiyyət daşıyan faydalı qazıntılar aşkar edilmişdir.

İşğal olunmuş ərazilər Azərbaycanın sənayesi və tikintisində böyük əhəmiyyəti olan müxtəlif növ tikinti materialları ilə çox zəngindir. Belə materialların böyük ehtiyatları Ağdam rayonu ərazisində yerləşən Çobandağ (əhəngin ehtiyatları 140 milyon ton və gillər 20 milyon ton ), Şahbulaq (25 milyon ton gil), Boyəhmədli (45 milyon ton gil) və digər yataqlardadır. Həmçinin, iri tikinti daş yataqları Xankəndində, mərmər isə Harovda yerləşir [3].

**Cədvəl**

**İşğal olunmuş rayonlar üzrə ayrı-ayrılıqda faydalı qazıntılar**

| Rayonun adı | Faydalı qazıntı növü |
|---|---|
| Ağdərə | Qızıl, qurğuşun, sink, mis, mişar daşı, gəc |
| Şuşa | Üzlük daşı, gil, tikinti daşı |
| Xocalı | Gil, üzlük daşı, qum-çınqıl |
| Xocavənd | Üzlük daşı, tikinti daşı |
| Kəlbəcər | Qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti daşları, üzlük daşları, əlvan daşlar (obsidian, oniks, pefritoid, listvenit) |
| Laçın | Civə, mişar daşı, üzlük daşı, tikinti daşı, gil, qum-çınqıl, pemza, vermukulit, vulkan külü, əqiq, jad |
| Qubadlı | Mişar daşı, gil, tikinti daşı, üzlük daşı, əlvan daşı |
| Zəngilan | Qızıl, gümüş, üzlük daşı, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl |
| Cəbrayıl | Mişar daşı, gil, qum, sement, gəc, tikinti daşı, kips, ahhidrid, pemza, vulkan külü, əlvan daşlar (yəşəm, xalsədan) |
| Füzuli | Mişar daşı, gil, qum-çınqıl |
| Ağdam | Mişar daşı, üzlük daşı, sement xammalı, gil, qum-çınqıl |

Mənbə: [6] əsasında müəllif tərəfindən tərtib edilmişdir

Təbii ki, yuxarıdakı faydalı qazıntılarla bağlı məlumatlar müəyyən mənada nisbi xarakter daşıyır və növbəti mərhələdə bütün yataqların qiymətləndirilməsi aparılmalı, sovet dövrünə aid rəqəmlər dəqiqləşdirilməlidir. Nəzərə alınmalıdır ki, keçən 30 il ərzində ərazilər talançılığa məruz qalmışdır. Həmçinin, yeni qiymətləndirmə üsulları meydana gəlmişdir və regionun faydalı qazıntılarla bağlı yeni geoloji xəritəsi hazırlanmalıdır.

Xudafərin SES isə Araz çayı üzərində İranla Azərbaycan arasında imzalanmış razılaşmaya uyğun olaraq inşa edilir. Belə ki, 2016-cı ilin fevralında “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında Saziş” imzalanmışdır. Araz üzərində elektrik stansiyalarının ümumi gücü 280 meqavata çata bilər. Bu layihələrin reallaşması Azərbaycana illik 368 milyon kVt/saat elektrik enerjisi istehsalı gətirə bilər.

Kəlbəcər rayonu ərazisində yerləşən İstisu mineral suları özlərinin əlverişli qaz və kimyəvi tərkibinə, yüksək temperaturuna, böyük təbii ehtiyatlarına görə fərqlənir. İstisu bulağı üstündə keçən əsrin 80-ci illərində iri kurort və mineral sudoldurma zavodu tikilmişdir. Həmin zavod sutkada 800 min litr su istehsal edirdi. Turşsu mineral bulağı Azərbaycanın Şuşa şəhərinin 17 km-lik məsafəsində yerləşir. Turşsu vasitəsi ilə müxtəlif daxili xəstəliklər müalicə olunur, kəmər vasitəsi ilə Şuşa şəhərinə su verilirdi

Təxminən 30 ildir işğal altında olan torpaqlarımızı rəşadətli ordumuz azad edərək Azərbaycanın regionda və dünyada öz nüfuzunu, etimadını daha da gücləndirdi. Azərbaycana investisiya qoymaq istəyən, lakin münaqişə səbəbi ilə investisiya qoymağa risk etməyən ölkələr “II Qarabağ müharibəsi”ndən sonra onunla əməkdaşlıq etmək istəyirlər. Bu məsələ ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyev Dağlıq Qarabağ bölgəsində olarkən İkinci Qarabağ müharibəsindən sonra yenidənqurma prosesinin artıq başladığını və bütün dost ölkələrin iştirak edə biləcəyini elan etdi.

Xarici şirkətlər, Ermənistanın işğalından azad edilmiş Azərbaycan ərazilərinin bərpasında iştirak edən ölkərə həm maddi yardım, həm də işğal olunmuş ərazilərdə öz şirkətlərinin filiallarını yaratmaq istəyirlər. Artıq bu şirkətlərin rəhbərləri və nümayəndələri ilə rəsmi səviyyədə görüşlər keçirilir, müzakirələr aparılır və eyni zamanda əməkdaşlıq barədə bəzi ölkələrlə müqavilələr imzalanıb. Bu cür ölkələrə Türkiyə, Rusiya, İngiltərə, Pakistan, İtaliya, Fransa, Hollandiya, İran, İsrail və s. misal gətirmək olar [1].

Qarabağ bölgəsi, ”Ceymstaun Fond” undakı bir hesabata görə, Qarabağın və Bakının nəzarəti altındakı ətraf ərazilərin bəzi hissələrinin “yaşıl enerji” zonasına çevrilməsi üçün hökumət tərəfindən müəyyən planlar hazırlanır. “Azərbaycan yalnız işğaldan azad edilmiş bölgələri yenidən qurmağı və inkişaf etdirməyi deyil, eyni zamanda bu ərazilərdə “ ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyalarını həyata keçirməyi hədəfləyir. İsrail ətraf mühitin davamlılığının müdafiəsi məsələsində dünya lideridir. Ölkə az su şəraiti olan quraq bir səhrada yerləşsə də, ölkənin bütün su ehtiyatlarını istifadə etmədən yüksək keyfiyyətli məhsullar yetişdirmək üçün damcı metodu ilə sulamadan geniş istifadə edir. İsrail eyni zamanda çirkab suları üçün istifadə olunan suyun demək olar ki, 90 faizini təkrar emal edərək suyun təkrar istifadəsində dünyada liderdir. Azərbaycan İsrail dövlətinin ətraf mühitin idarəedilməsi, kənd təsərrüfatı, memarlıq, tibb, təhsil, yüksək texnoloji və s. ilə əlaqəli göstərə biləcəyi köməyi yüksək qiymətləndirir. Belə layihələr əsasında İsrail Azərbaycanın post-konflikt regionlarına öz yatırımlararını etmək məqsədilə ölkələr arası müəyyən sazişlərin bağlanmasında maraqlıdır.

Bundan başqa Macarıstan şirkətlərinin azad edilmiş torpaqların bərpasında, xüsusən də “ağıllı şəhərin” inşasında iştirak etməkdə maraqlı olduqları gözlənilləndir. Su ehtiyatlarının idarə edilməsi bu ərazilərdə vacibdir və bu sahədə böyük təcrübəyə sahib olan Macarıstan, Dağlıq Qarabağ bölgəsinin bərpasına böyük töhfə verə bilər. Azərbaycan və Macarıstan arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb və burada deyilir: "Məhsuldar əməkdaşlıq nəticəsində qarşılıqlı ticarət dövriyyəsinin, o cümlədən Macarıstanın Azərbaycana ixracatında 6 faiz, Azərbaycanın Macarıstana ixracatında isə 60 faiz artması gözlənilir [1].

ABŞ şirkətləri də Dağlıq Qarabağ bölgəsinin bərpasında iştirak etməkdə maraqlıdırlar. ABŞ“Cənub Qaz Dəhlizi” layihəsini dəstəkləyir və ölkəsinin şirkətləri Azərbaycanın azad edilmiş ərazilərində infrastrukturun yenidən qurulması və bərpasında iştirak etməkdə maraqlıdırlar. Regionun daxili imkanlarının çox olması, eləcə də digər ölkələrin təcrübəsi və xarici şirkətlərin potensialı sayəsində Azərbaycan azad edilmiş ərazinin 10 min $km^2$ çox hissəsini

bərpa etmək və bu torpaqların sakinlərinin evlərinə qayıda biləcəklərini qısa müddətdə təmin etmək mümkündür.

Azərbaycan, xüsusən də Azərbaycan Dövlət Neft Şirkəti (ARDNŞ) və Azərbaycan Dövlət Neft Fondu (SOFAZ), ABŞ da daxil olmaqla müxtəlif ölkələrə investisiya yatırsa da, Azərbaycan xarici investisiyaları fəal şəkildə təşviq etmir. *Azərbaycan Respublikası Dövlət Neft Fondunun* (ARDNF) investisiyaları ümumiyyətlə daşınmaz əmlak, qiymətli metallar və aşağı gəlirli dövlət qiymətli kağızları ilə məhdudlaşır. SOCAR Azərbaycan qazını Avropa bazarlarına nəql edən Cənub Qaz Dəhlizinin bir hissəsi olaraq Türkiyə və Gürcüstanda neft və qaz infrastrukturuna və neft-kimya emalına, habelə Yunanıstan, Albaniya və İtaliyada qaz boru kəməri şəbəkələrinə böyük sərmayə yatırmışdır. Hökumət yerli investorların xarici sərmayə qoymalarını məhdudlaşdırmır.

**Sərmayələr potensialının qiymətləndirilməsi**

Bütün bu qəbul edilmiş qanunlara və dəyişikliklərə əsassən işğal altından azad olmuş ərazilərdə investorları cəlb etmək üçün 3 istiqamətli sərmayələr potensialını genişləndirmək lazımdır:

1. Dövlət büdcəsindən kapital qoyuluşu xərclərini artırmaq.
2. Daxili investisiyaların önünü bu regiona açmaq.
3. Xarici investorların maraqlarını bu bölgəyə daşımaq.

**Nəticə**

Azərbaycanda ən çox çəkilən xərclər tikinti, təmir və infrastruktura yönələn xərclər sayılır və Qarabağın azad olunması ilə bağlı olaraq orada aparılacaq təmir-bərpa işləri bu xərclərimizin daha çox olmasına səbəb olur. Eyni zamanda dövlət büdcəsində kapital qoyuluşu xərclərimizi və müdafiə xərclərimizi artırmalıyıq. Buna görədə ictimai vəsaitlər (dövlət büdcəsi bu kateqoriyaya aiddir) hesabına Qarabağa yönəldə biləcəyimiz sərmayə mənbəyi hesab oluna bilər.

Daxili investorları işğaldan azad olmuş ərazilərə sərmayə qoymaları üçün instutsional güzəştlərdən vergi güzəştlərinədən həvəsləndirmə mexanizmləri təklif etmək lazımdır. Bununla həm də yerli kapitalın xarici ölkələrə axının qarşısını almaq mümkün ola bilər. Bundan əlavə xarici investisiyanın ölkəyə cəlb olunması günün ən vacib məsələlərindən biri olmaqdadır. Xarici inestisiyanın ayrı-ayrı dövlət və şirkətlərdən daha sürətlə cəlbi post-konflikt regionlarında sosial-iqtisadi inkişafına və eyni zamanda bütöv Azərbatcanın sosial-iqtisadi inkişafına sürətli təkan verəcək.

**İstifadə olunmuş ədəbiyyat**


1. https://www.azernews.az/nation/177063.html
2. https://www.state.gov/reports/2020-investment-climate-statements/azerbaijan/
3. http://www.iqtisadiislahat.org/news/isgal_olunmus_erazilerin_azad_edilmesi_azerbaycan_iqtisadiyyatina_ne_ved_edir-1059
4. https://files.preslib.az/projects/azereco/az/eco_m2_8.pdf
5. İnvestisiya fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi. “Azərbaycanda Ətraf Mühit”. Staristik məcmuə. Bakı. -2020. -140 s.

**Nahid Almasov**
Azərbaycan Neft və Sənaye Universiteti
*nahid.almasov@mail.ru*

# TİKİNTİDƏ TƏŞKİLATİ-İQTİSADİ ASPEKTLƏRİN İDARƏ EDİLMƏSİNİN MATRİS FORMASININ TƏŞKİLİ

Məqalədə istehsal sahələrinin genişləndirilməsində tikinti təşkilatlarının rolu, müəssisənin idarəetmə sisteminin təşkilinin təkmilləşdirilməsi istiqamətləri təhlil edilmiş, dayanıqlı istehsalın təşkili prosesinin formalaşması modeli verilmişdir. Həmçinin qeyd edulir ki, tikinti təşkilatlarında istehsal səmərəliyinin yüksəldilməsi Azərbaycan iqtisadiyyatının tələblərinə lazımi səviyyədə cavab verə bilmir. Bu tələbin təmin edilməsi üçün tikinti müəssisələri öz inkişafında kəskin dönüş etməli-davam edən prosesdən təşkilati-texnoloji yüksəliş prosesinin formalaşmasına keçməlidir. İqtisadiyyatın inkişafı, struktur dəyişiklikləri, innovasiyalı inkişaf idarəetmənin yeni konsepsiyalarının həyata keçirilməsi mexanizmlərinin və tikinti müəssisələrinin təşkilati strukturunun təkmilləşdirilməsini tələb edir.

***Açar sözlər:*** tikinti, müəssisə, təşkilati-iqtisadi aspektlər, idarəetmə, matris forması

## Giriş

Sosial-iqtisadi inkişafın sürətləndirilməsi, iqtisadiyyatın transformasiyası yolu ilə ölkənin məhsuldar qüvvələrinin keyfiyyətcə dəyişməsi sahəsində qarşıda duran vəzifələrin həllində əsaslı tikinti mühüm rol oynayır. İnşaat kompleksi ölkənin hər bir reginunda xalq təsərrüfatının aparıcı sahələrinin yenidən qurulması və yenidən silahlanmasını, bütün əhalinin abadlaşdırılmış mənzillərlə təminatını ən qısa müddətə həyata keçirməlidir. Bunun üçün investisiya dövrünün müddətini 2 dəfə azaltmaq, tikintinin səmərəliliyi və keyfiyyətini kəskin şəkildə artırmaq tələb olunur.

Tikinti istehsalının inkişafının nəticələrinin təhlili əsasında aparılan tədqiqatlarda müəyyənləşdirilmişdir ki, bu sahənin istehsalat aparatının köklü şəkildə dəyişməsinin zəruriliyi vacibdir. Fikrimizcə, tikinti proseslərinin səmərəliliyi və keyfiyyətinin yüksəldilməsinə daim istiqamətlənmiş yüksək mütəşəkkil istehsalat kollektivlərinin çatışmazlığının mühüm səbəblərindən biri bazar iqtisadiyyatının inkişafı və son nəticələrə yönəldilmiş tikinti istehsalının sistemli fəaliyyəti şəraitndə istehsal aparatının formalaşması və istifadəsi probleminin nəzəri və praktiki aspektlərinin kifayət qədər işlənib hazırlanmamasıdır [1, s.26-31].

## İstehsal sahələrinin genişləndirilməsində tikinti təşkilatlarının rolu

İstehsal sahələrinin genişləndirilməsində (fəaliyyət göstərən istehsalda tikintinin və yeni istehsal güclərinin, rekonstruktiv dəyişliklərin, modernləşmənin və texniki silahlanmanın) tikinti təşkilatlarının mühüm rolu vardır. Tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi, fəaliyyət göstərən müəssisələrin genişləndirilməsi və yeniləşdirilməsi, texniki silahlanması, yeni tikililərin istehsal güclərinin və obyektlərin vaxtında isə salınması nəticəsində istehsalın texniki səviyyəsinin yüksəldilməsi, eyni zamanda onun səmərəliyi bilavasitə tikintinin vəzifəsi hesab edilir. Əhalinin mənzillə təmin edilməsi, onun keyfiyyəti və komfortluğunun yüksəldilməsi, istismarda olan mənzil-yaşayış fondunun, mədəni-məişət təyinatlı obyektərin yeniləşdirilməsi və təmiri ilə əlaqəli problemləri də tikinti müəssisələri yerinə yetirir. Beləliklə, tikinti iqtisadiyyatın digər sahələrinin yalnız inkişafı ilə deyil, həmçinin praktiki olaraq bütün sahələrin istehlak tələbatı ilə də üzvi əlaqədədir.

Təsərrüfat subyekti kimi tikinti təşkilatlarına sənaye və texniki birliklər, təşkilati, inzibati və iqtisadi müstəqilliyi olan subyektlər aid edilir. Bütün təsərrüfat fəaliyyətli müəssisələrdə olduğu kimi, tikinti təşkilatlarının da daxili və xarici mühit amilləri ilə əlaqəsi danılmazdır. Onun daxili mühit amillərinə kadr personalı, istahsal vasitələri, informasiya və pul daxildir.

Xarici mühit amillərinə isə tikinti təşkilatının məhsullarının istehlakçıları (sifarişçilər), istehsalat komponentləri ilə təmin edicilər, həmçinin dövlət orqanları və onun ərazisinin yaxınlığında yerləşən əhali daxildir. Qeyd etmək lazımdır ki, tikinti təşkilatlarının stabil standart strukturu mövcud deyildir, çünki o, istehsalat-iqtisadi konyuktura, elmi-texnuki tərəqqi və sosial-iqtisadi proseslərin təsiri altında daimi korrektə edilir.

Dünya ölkələrində iqtisadi artımımın stimullaşdırılmasını həyata keçirmək məqsədi ilə bina və infrastrukturların investisiyalaşması prosesi hər il davam etdirilir. Belə ki, inkişaf etmiş ölkələr yeni infrastrukturun istifadəyə verilməsindən xeyli gəlir əldə edir, eyni zamanda aydın görünür ki, onların iqtisadiyyatı xidmət sferası və infrastrukturun artımında diversifikasiya edilir. Məhsuldarlığın Hərtərəfli Qlobal İndeksi (MHQİ) üzrə İqtisadiyyat və Biznes Tədqiqatlar Mərkəzinin (İBTM) məlumatına əsasən aktivlərin tikintisindən ən yüksək gəlir əldə edən ölkələr sırasında Çin (10,4 trilyon ABŞ dolları), ABŞ (5,4 trilyon ABŞ dolları), Hindistan (3,6 trilyon ABŞ dolları), Yaponiya (1,9 trilyon ABŞ dolları) və Meksika (1,4 trilyon ABŞ dolları) ilk yerləri bölüşür. İlk 10 ölkə içərisində 7-10 sıralarda Almaniya (1,0 trilyon ABŞ dolları), Braziliya (966 milyard ABŞ dolları), Türkiyə (807 milyard ABŞ dolları) və Fransa (794 milyard ABŞ dolları) yerləşir. Məlumatların təhlili göstərir ki, Çində iqtisadi artım orada yaradılmış aktivlərdən güclü asılıdır və həmin göstərici ÜDM-in 52,9%-ni təşkil edir. Onu da qeyd etmək lazımdır ki, Çinin iqtisadiyyatı istehsal və investisiyadan fərqli olaraq tədricən xidmət və tələbat istiqamətinə balanslaşdırılır. Çində istehsalın bu intensivliyi ABŞ iqtisadiyyatını 1,93 dəfə, Hindistan iqtisadiyyatını 2,89 dəfə ötməyə imkan verir [4].

Yuxarıda qeyd edilənlərdən belə bir fikir formalaşır ki, iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən tikintidə fəaliyyət göstərən müəssisələrin normal fəaliyyətinin təşkili ilk növbədə bazar münasibətlərinin inkişafına əsalanmalıdır.

Bazar münasibətlərinin və yeni mülkiyyət formalarının inkişafı iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən tikintidə bu proseslərə adekvat idarəetmə sistemlərinin formalaşmasını tələb edir. İdarəetmə sisteminin formalaşması problemi müəssisələrdə xüsusi əhəmiyyət kəsb edir [2, s. 58-63]. Bazar münasibətləri çərçivəsində tikinti müəssisələrinin fəaliyyətinin məzmunu və məqsədlərinin müəyyənləşdirilməsi, onların iqtisadi davranışları köklü şəkildə dəyişir.Geniş iqtisadi sərbəstliyə və özünün istehsalat-kommersiya fəaliyyətinin nəticələrinə görə əmtəə-pul münasibətlərinin obyekti olan müəssisələr yüksək səmərəli fəaliyyəti, rəqabətliliyi və tikinti işləri bazarında dayanıqlı vəziyyəti təmin edə bilən idarəetmə sistemlərini formalaşdırmalıdır.

**Müəssisənin idarəetmə sisteminin təşkilinin təkmilləşdirilməsi**

Təsərrüfat fəaliyyəti təcrübəsində həll edilməsi vacib hesab edilən problər sırasında idarəetmə sisteminin təşkilinin təkmilləşdirilməsi, tikinti istehsalatı müəssisələrinin daxili və xarici mühitinin xüsusiyyətləri nəzərə alınmaqla qeyd edilməlidir. Təsərrüfat fəaliyyətinin yeni şətaitində tikinti kompleksi müəssisələrinin idarəetmə prinsipləri bazar və dövlət tənzimlənməsi metodlarının birləşməsi əsasında qurulmalıdır ki, buna da planlaşdırma daxildir [3, s.3-13]. Tikinti müəssisələrinin planlaşdırılmasının əhəmiyyəti müasir dövrdə yalnız artmaqla yekunlaşmır, eyni zamanda arzu olunan sistemin əldə edilməsinə təsir göstərən keyfiyyətcə yeni məzmunda planın işlənilməsini əks etdirir ki, bu da elmi səviyyənin yüksəldilməsini və müəssisənin inkişafına hərtərəfli təsirinin gücləndirilməsini tələb edir.

Bu baxımdan, planlaşdırmanın təkmilləşdirilməsi planın həlledici təsirini təmin etməkdir və bu təsir aşağıdakılarda özünü daha geniş formada göstərir: istehsalatın və idarəetmənin mütərəqqi strukturunun formalaşmasında; elmi-texniki tərəqqinin planlı olaraq sürətləndirilməsi əsasında istehsalın genişləndirilməsində; təşkilatın planlı işləri səviyyəsinin yüksəldilməsində; proqnozlaşdırma, perspektiv və cari planlaşdırmanın qarşılıqlı əlaqələrinin gücləndirilməsində; planlı göstəricilər sisteminin təkmilləşdirilməsi və onun resurslardan səmərəli istifadəyə təsirinin gücləndsirilməsində; müəssisələrin mövcud ehtiyatlardan nisbətən tam istifadəyə marağının artırılmasında. Ümumiyyətlə, planlaşdırmanın ağırlıq mərkəzi ona təsir göstərən proqramların formalaşmasını əhatə edir.

Proqramlaşdırmaya proqram yanaşması müəssisənin sosial-iqtisadi və təşkilati-texniki inkişafının bütün elementlərini və aspektlərini əks etdirir, onun gücləndirilməsi isə öz növbəsində bazar təsərrüfatı fəaliyyətinin idarəedilməsi tələblərinə cavab verən nəzəri və metodoloji qaydaların işlənilməsi məcburiyyətini şərtləndirir. Bu aspektdə həyata keçirilməsi vacib hesab edilən əməliyyatlar sırasına konkretləşdirilmiş tədbirlərin cəmi aid edilir ki, bu da dəqiq müəyyənləşdirilmiş məqsədlərin icra edilməsinə istiqamətləndirilməklə ona müxtəlif fəaliyyət növləri ilə inteqrasiyada idarəetmə aləti kimi baxılmasına imkan verir. Bu halda inteqral proqramlar tikinti müəssisələrinin istehsalat sistemində struktur vahidi rolunda çıxış etməklə istehsalat və idarəetmənin daxili və xarici inkişaf parametrlərini, eyni zamanda müəyyən problemə dair iqtisadi, istehsal, təşkilati, elmi-texniki və sosial tədbirlərin üzvi əlaqəsini özündə əks etdirir.

Tikinti müəssisəsinin planlaşdırma və idarə edilməsi üzrə nəzərdə tutulan proqramın optimal variantı, fikrimizcə, xərclər və nəticə arasındakı əlverişli nisbətin həllini təmin edən üsulun müəyyənləşdirilməsidir. Bu üsula isə idarəetmə sisteminin təkmilləşdirilməsi üzrə tədbirlərin strateji istiqamətdə planlaşdırılması cavab verir. Beləliklə, idarəetmə sisteminin təkmilləşdirilməsi üzrə tədbirlər planına biz tikinti müəssisəsinin inkişafı və istehsalın səmərəliliyinin yüksəldilməsinin ümumi planı kimi baxmış oluruq.

İdarəetmə sisteminin mürəkkəbliyi hər hansı bir iqtisadi və riyazi problemin həllinə yönəldilən optimal tədbirlərin işlənib hazırlanmasını azaltmağa imkan vermir. Tədqiqat göstərir ki, idarəetmənin funksional sisteminin təhlili zamanı aşkar edilmiş prosedurlar, qaydalar, həll prinsipləri və model-sxemlərdən danışılmalıdır.

Planlaşdırma və idarəetmənin modelinin seçilmə kriteriyası başlanma şəraitini və idarəedici parametrləri əks etdirməlidir və bunun tərkibi mövcud tədbirlərin formalaşdırılması üzrə qərarların qəbul edilməsi texnologiyası ilə müəyyən edilir. İdarəetmənin səmərəliliyinin yüksəldilməsi və təkmilləşdirilmiş proqram layihəsinin əsas göstəriciləri matris formasında verilrilir və proqramın məqsədlərinin aktuallığını, habelə onlara nail olmaq üçün mənbələri aydın şəkildə nümayiş etdirir.

Dövlət səviyyəsində məqsədli proqramların icrası konkret hüdudlar çərçivəsində nizamlanır. Azərbaycanda dövlət səviyyəsində proqram məqsədli idarəetmə və planlaşdırma metodlarının başlıca şərtlərinə: böyük ərazi, coğrafi müxtəliflik, inzibati təcridlik; istehsal amillərinin məkan baxımdan yenidən bölgüsü, iqtisadiyyatın sahəvi strukturu; yüksək aşınma səviyyəsi və əsas fondların köhnəlməsi kimi mənfi tendensiyaların dayanıqlılığı, əhalinin sayının azalması, korrupsiya halları və cinayətlərin artması, resursların (təbii, maliyyə və insan) xarici ölkələrə axını; elmi-texniki inqilab, əmək resurslarının keyifyyəti və əhalinin təhsili, iqtisadiyyatın enerjitutumluluğu və s. kimi əmək məhsuldarlığını müəyyənləşdirən həlledici göstəricilərdə inkişaf etmiş ölkələrdən geri qalma aiddir.

Fikrimizcə, proqram-məqsədli idarəetmənin nisbətən sadəliyi və ciddi məntiqi, tədqiqat aparılan sahədə idarəetmənin təkmilləşdirilməsi təcrübəsindəki istifadə prosesinin mürəkkəbliyini azaltmır. Odur ki, əmək fəaliyyətinin tipini təmin edən, yaranmış iqtisadi sistemə adekvat olan və idarə edilmədə yüksək nailiyyətlərin əldə edilməsinin əsas hissəsi olan insanı, kollektivi nəzərə alan iqtisadi stimullaşma mexanizmi lazımdır. Yalnız bu əsasda sosial-iqtisadi və təşkilati-akademik xarakterli iri uzunmüddətli proqramların icrası ilə bağlı istənilən vəzifəni maksimum dərəcədə effektiv həll edə bilən, düşüncəli insanlardan ibarət olan kollektivi yaratmaq üçün proqram yönümlü idarəetmənin ümumi məqsədinə nail olmaq mümkündür.

Qeyd etmək lazımdır ki, təlim və planlaşdırılan tədbirlərin praktiki icrası zamanı bir sıra çətinlik və problemlərin ortaya çıxması nəticəsində yaranan psixoloji baryeri aşmaq bu tip idarəetmənin həyata keçirilməsinin əsas pilləsi hesab edilir.

Yuxarıda göstərilən nəzəri və metodoloji təkliflər müəssisələrdə istehsalın səmərəliliyinin yüksəldilməsi və inkişafı proqramının təşkilati mexanizmini yaratmadan qeyri-mümkündür və praktik olaraq həyata keçirilə bilməz. Müasir idarəetmədə bu vacib problemin həlli ayrı-ayrı orqanlar və işçilər arasında yeni qarşılıqlı təsir etmə stilinə keçməklə onda xarakterik münasibətlərin dəyişdirilməsi prinsipləri ilə əlaqəlidir və təşkilati mexanizmin yeni tipinin

formalaşmasına gətirib çıxarır. Bu cür dəyişikliklər, idarəetmənin təşkliati strukturunun formalaşmasının metodiki işlənilməsini zəruri etməklə genişlənmə və bazar münasibətlərində dərinləşmədə müəssisənin səmərəli istehsalının yüksəldilməsi və inkişaf planının həyata keçirilməsinə istiqamətləndirilməklə nail oluna bilər.

Qeyd edilən məsələnin həllinə metodoloji cəhətdən yanaşma müəssisənin fəaliyyətində, təşkilati strukturunda daimi, fasiləsiz və tədricən baş verən yenilik və modifikasiyalar qarşısında onun xarakterinə və miqyasına görə əhəmiyyətli olan dəyişikliklərə üstünlük verilməsindən ibarətdir. Müəssisələrin təşkilati mexanizminin formalaşması prosesinə bu cür yanaşma təşkilati qərarların məzmununu kəskin dəyişdirməklə onları nisbətən radikallaşdırır və kompleksləşdirir, bu da müəssisinin proqram strategiyası prosesinin həyata keçirilməsində özünü göstərir. Fikrimizcə, müasir təsərrüfatçılıq şəraitində müəssisələrdə proqram-məqsədli planlaşdırmanın tətbiq edilmə miqyasının genişləndirilməsi vacib və prinisipial hesab edilir. Bu isə istehsalatın inkişafı və idarəedilməsinin kompleks proqramının həyata keçirilməsinin təşkilati mexanizminin formalaşması zamanı yaranan psixoloji gərginliyin azaldılması və münaqişəli məsələlərin aradan qaldırılmasına şərait yaradır.

Proqram-məqsədli planlaşdırmanın səmərəli fəaliyyətinin təmin edilməsi idarəetmə sisteminin formalaşması əsasında xüsusi bloklarla həyata keçirilə bilər ki, bunlar da özündə müxtəlif tematik istiqamətin təyinatına, məsələn tikinti təşkilatının təyinatına, müvafiq olan xüsusiləşmiş və qarşılıqlı əlaqəli struktur elementlərini birləşdirir. Xüsusi və icra edici bloklara aşağıdakıları aid etmək olar:

- istehsalın səmərəliliyinin yüksəldilməsinin təmin edilməsi üzrə diaqnostika və məqsədlərin işlənilməsi blokları;
- hər tematik sahəyə müvafiq olaraq problemin aşkar edilməsi və qiymətləndirilməsinin, inkişafın məqsəd və alt məqsədlərinin dəqiqləşdirilərək qoyulması bloku;
- material və maliyyə resursları arasıında balanslaşdırılmış bölğü üzrə resursların bölüşdürülməsi bloku;
- proqnozların, plan və kompleks proqramların işlənilməsi bloku.

İstehsalın inkişafı və səmərəliyinin yüksəldilməsində proqram-məqsədli planlaşdırmanın əsas elementlərinə icra edici bloklar aid edilir və bunlara aiddir: proqnozlama və diaqnostika; məqsədlərin dəqiqləşdirilərək qoyulması; istehsal sahəsinə uyğun resursların bölüşdürülməsi; sahələr üzrə perspektiv plan və proqramların işlənilməsi.

Əsas elementlər müəyyənləşdirildikdən sonra təşkilat mexanizmin fəaliyyəti təsdiq edilmiş plan və proqramların praktiki olaraq həyata keçirilməsinə istiqamətləndirilir, bu da fəaliyyətdə olan idarə etmənin təşkilatçılıq formalarının proqressivliyindən kəskin dərəcədə asılıdır.

**Dayanıqlı istehsalın təşkili prosesinin formalaşması modeli**

Dayanıqlı istehsalın təşkili prosesinin formalaşması modelinə ( şəkil 1) əsasən müəssisəsinin idarəetmə strukturu və istehsal bölmələrinin formalaşması bilavasitə təşkilatın sosial inkişafından, onun mövcud istehsal gücünün düzgün müəyyən edilməsindən və inkişafının strateji planlaşdırılmasından, o cümlədən kadr potensialı və əqli mülkiyyətdən formalaşan əqli kapitaldan və istehsalın qiymətləndirilmə kriteriyalarından asılılıdır. Belə ki, əqli kapital bilavasitə müəssisənin mövcud kadr potensialı və onun əqli mülkiyyətindən, istehsalın qiymətləndirilməsi isə texniki, texnoloji, innovativ, kadr və resurs potensiallarının qiymətləndirilmə kriteriyasından asılı olaraq inkişaf edir. Fikrimizcə, bu aspektdə idarəetmənin matris strukturundan istifadə edilməsi məqsədə uyğun hesab edilir.

İdarəetmənin matris strukturuna isə aşağıdakılar xarakterikdir:

- idarəetmənin xüsusi səviyyəsinin tətbiqi ( məqsədli proqramın rəhbəri);
- icra edicilərin ikili tabelikdə olması (proqram və istehsal üzrə);
- xüsusi kollegial orqan-şuranın yaradılması (məqsədli proqramın ali idarəetmə səviyyəsi) və planlı-koordinasiya şöbəsi (orta idarəetmə səviyyəsi);
- proqram üzrə mərkəzləşdirilmiş stimullaşdırıcı material fondunun yaradılması.

Eyni zamanda idarəetmənin matris formasının təşkili mütəxəssis qruplarının inteqrasiya olunmuş qarşılıqlı fəaliyyətini təmin edir və proqramın fərqli istiqamətlərdə konkret məsələlərinin yerinə yetiriməsinə yönəldilir. İdarəetmə proqramının hazırlanması və həyata keçirilməsi əsasında təklif edilən yanaşma mövcud təşkilati strukturların imkanlarını kəskin genişləndirir, eyni zamanda bir çox mürəkkəb təşkilat problemlərin həllinə imkan yaradır.

İdarəetmənin matris formasının təşkili üzrə məqsədli qrupların yaradılmasında biz təklif edirik ki, "müəssisə daxili qruplar" yaradılsın. Təşkilinə görə bu qrup formaları asılı olmayan kiçik innovasiya firmaları ilə eyni tiplidir və onların əsas funksiyası məqsədli əsasda riskli məsələlərin həllidir, özünün qeyri-müəyyənliyi, hər hansı yeniliyin kommersiya məqsədli realizasiyasından fərqlənir.




**Şəkil 1. Şirkətin dayanıqlı istehsalının təşkili prosesinin modeli**
Qeyd: müəllif tərəfindən tərtib edilmişdir

Bu tip qruplara yenilik təşəbbüskarlığı olan işçilər rəhbərlik edir, bunlar da işlərin sərbəst həyata keçirilməsində geniş hüquqa, həmçinin xüsusi “risk” fondları da yarada bilmək imkanına malik olur. Proqram müvəffəqiyyətlə yerinə yetirildikdə bütün iştirakçıların yüksək əmək haqqı alması, xidməti vəzifəsinin yüksəldilməsi qarantı verilir. Bu da tikinti müəssisəsində müəyyən məsələlərin həll edilməsi ilə yanaşı, insan amilinin aktivləşdirilməsini təmin edən innovasoya fəaliyyətinin güclənməsinə, yuxarıda qeyd edilmiş təşkilati tədbirlərin birgə həllinə şərait yaradır.

Təklif edilən yanaşma əsasında istehsalın inkişaf etdirilməsi və səmərəliliyin yüksəldilməsi üzrə idarəetmə sisteminin tətbiqi mərhələsində nisbətən əlverişli hesab edilən “təşkilati inkişaf” metodologiyasından istifadə olunur və bu metodologiya “açıq sistem”-in təşkili konsepsiyası ilə birgə geniş fəlsəfi konsepsiyanı əks etdirir.

Bu baxımdan tikinti təşkilatlarında istehsalın səmərəliliyi istiqamətində yeni planlaşdırma və idarəetmə sisteminin tətbiqi xüsusilə əhəmiyyətlidir. Tikinti təşkilatlarında planlaşdırmanın yeni sisteminin tətbiqinə yeni yanaşma təsərrüfatın istehsal səmərəliyinin yüksəldilməsinə və onun fəaliyyətinə təsir edəcəkdir. Belə ki, idarəetmə prosesinin inkişaf etdirilməsi “üç dövrdə vəziyyət”: gələcək, indiki və keçid konsepsiyasına (indiki konsepsiyadan gələcəyə ) əsaslanır. Bu zaman planlaşdırma və idarəetmə sisteminin tətbiqinin kriteriya dərəcəsi olaraq, xarici və daxili mühitin qeyri-sabitliyi şəraitində, tikinti təşkilatları təcrübəsində işçi heyətin kompetentliyinin (inkişafının) təhsilləndirmə, iş təcrübəsinin toplanması, ümumiləşdirilməsi və istifadəsi vasitəsi qəbul edilir.

Hal-hazırda tikinti təşkilatlarında istehsal səmərəliyinin yüksəldilməsi Azərbaycan iqtisadiyyatının tələblərinə lazımi səviyyədə cavab verə bilmir. Bu tələbin təmin edilməsi üçün tikinti müəssisələri öz inkişafında kəskin dönüş etməli-davam edən prosesdən təşkilati-texnoloji yüksəliş prosesinin formalaşmasına keçməlidir.

Beləliklə, iqtisadiyyatın ümumi vəziyyətinin və bazar şəraitinin inkişafı, institusional və struktur dəyişiklikləri, innovasiya tipli inkişafa keçid idarəetmənin yeni konsepsiyalarına keçilməsini və onların həyata keçirilməsi üçün müvafiq mexanizmlərin işlənilməsini tələb edir.

İdarəetmənin matris formasının təşkili üzrə yaradılması təklif edilən məqsədli “müəssisə daxili qruplar” formalarına görə asılı olmayan kiçik innovasiya firmaları ilə eyni tiplidir və onların əsas funksiyası müvafiq məqsəd əsasında riskli məsələlərin həlli hesab edilir. Bu qruplara yenilik təşəbbüskarlığı olan işçilər rəhbərlik edir və onlar işlərin sərbəst həyata keçirilməsində geniş hüquqa, həmçinin xüsusi “risk” fondları da yarada bilmək imkanına malik olur.

Tikinti təşkilatlarında planlaşdırmanın yeni sisteminin tətbiqinə yeni yanaşma təsərrüfatın istehsal səmərəliyinin yüksəldilməsinə və onun fəaliyyətinə təsir göstərməklə planlaşdırma və idarəetmə sisteminin tətbiqinin kriteriya dərəcəsi olaraq, xarici və daxili mühitin qeyri-sabitliyi şəraitində, tikinti təşkilatları təcrübəsində işçi heyətin kompetentliyinin (inkişafının) təhsilləndirilməsi, iş təcrübəsinin toplanması, ümumiləşdirilməsi və istifadəsi vasitəsi qəbul edilir.

**Nəticə**

Tikinti təşkilatlarında istehsal səmərəliyinin yüksəldilməsi Azərbaycan iqtisadiyyatının tələblərinə lazımi səviyyədə cavab verə bilmir. Bu tələbin təmin edilməsi üçün tikinti müəssisələri öz inkişafında kəskin dönüş etməli-davam edən prosesdən təşkilati-texnoloji yüksəliş prosesinin formalaşmasına keçməlidir. İqtisadiyyatın inkişafı, struktur dəyişiklikləri, innovasiyalı inkişaf idarəetmənin yeni konsepsiyalarının həyata keçirilməsi mexanizmlərinin və tikinti müəssisələrinin təşkilati strukturunun təkmilləşdirilməsini tələb edir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Горбунов, А. А. К вопросу о переспективах развития предпринимательства в малоэтажном жилишном строительстве / А.А.Горбунов, О.В.Буянов // -Москва: Строительство. Экономика и управление, - 2020, -№1 (37), -с.26-31

2.Збрицкий А.А. Совершенствование систем управления в строительстве / А.А.Збрицкий, А.В.Кротов, К.Д.Горбан [и др.] // Экономика строительства, -М.: Стройиздат. 1989, 192 с.
3.Збрицкий, А.А.Основы формирование отраслевой системы профессиональных квалификаций в ЖКХ / А.А.Збрицкий, Л.Н.Чернышов, Т.А.Ивчик // -Москва: Экономика строительства, -2020, -№6 (66), -с.3-13
4.Global built asset performance index 2016 / Centre for economics and business research // World Economic League Table, -2016

**Kənan Abbasov**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
*kenan.abbsov4092@gmail.com*

# İSTEHLAKÇILARIN HALAL SERTIFIKATLI MƏHSULLARA MÜNASİBƏTİNİN MÜƏYYƏNLƏŞDİRİLMƏSİ YOLLARI

***Açar sözlər:*** halal, sertifikat, məhsullar, istehlakçı, bazar

## Giriş

Bütün sektorlarda olduğu kimi, qida sektorunda istehlakçıların tələblərindəki dəyişikliklərə uyğun olaraq hər gün bazara yeni məhsul və xidmətlər təqdim olunur. İstehlakçıların müəyyən bir hissəsi istehlak edəcəkləri məhsulların dini inanclarına uyğun olmasını istəyir.

Yəhudi inanclarına uyğun "Koşer məhsulları" ABŞ, Türkiyə və Azərbaycan da daxil olmaqla bir çox ölkədə satılmaqdadır. İslam dininə uyğun istehsal olunan qida məhsulları "halal" adlanır. Dünyada İslam inancına sahib insanların çoxluğu və müsəlman ölkələrində əhalinin sürətlə artması, dünyaya yayılması və s. səbəblər halal məhsul bazarının çox sürətlə böyüməsinə səbəb olmuşdur. İstehlakçı davranışları və istəkləri çox mürəkkəb və dəyişkən bir quruluşa malikdir. Bu mürəkkəb davranışları izah etmək üçün bir çox işlər görülmüş və onlara təsir edən amillərin təyin edilməsinə çalışılır. Qeyd edək ki, psixoloji, iqtisadi, sosial və fərdi amillər alıcı qərarına təsir edən əsas amillər hesab edilir:
- şəxsi amillər: cinsiyyət, ailə, yaş, təhsil səviyyəsi və s.;
- iqtisadi amillər: maliyyə vəziyyəti, gəlirlər, məhsul qiymətləri, ölkənin iqtisadi vəziyyəti;
- sosial amillər: istehlakçının mənsub olduğu sosial qruplar, mədəniyyətlər və sosial mühit;
- psixoloji amillər: istehlakçının inancları, dəyərləri [2, s. 40-44].

Din insanların gündəlik həyatına, turizmə, qida məhsullarına, digər sahələrə və iqtisadiyyata böyük təsir göstərir. Məşhur iqtisadçı Marshall demişdir: “İnsanların gündəlik işlərini istiqamətləndirən iki vacib qurum var: din və iqtisadiyyat”. Hər hansı bir məhsul və ya xidmətin kosher sertifikatı (iudizmdə koşer qaydaları əsasında hazırlanan məhsul) alması üçün bu məhsuldakı bütün komponentlər və istehsal prosesi bu sertifikata malik olmalıdır. Sertifikatlaşdırma istehsal prosesinə nəzarət edən şəxslər tərəfindən məhsulu təşkil edən maddələrin kosher standartlarına uyğun olub-olmadığını müəyyənləşdirir. Belə ki, İsrail ilə ticarət etmək istəyən bütün ölkələr və təşkilatlar kosher sertifikatları və standartlarına riayət etməlidirlər. Ən inkişaf etmiş kosher bazarı ABŞ-da yerləşir, eyni zamanda bir çox ölkələrdə, xüsusən də Avropada fəaliyyət göstərən kosher bazarları mövcuddur (cədvəl). ABŞ-da tipik bir supermarketdə qablaşdırılan məhsulların təxminən 35-40%-nin kosher sertifikatına malik olması vacib hesab edilir. Hesablamalar nəticəsində müəyyən edilmişdir ki, kosher sertifikatlı məhsulları şüurlu surətdə alan 15 milyon nəfər ABŞ istehlakçısının yalnız 20 faizinin yəhudidir [1, s. 230].

**Bir sıra dünya ölkələrində koşer bazarının ümumi göstəriciləri**

| | |
|---|---|
| Koşer bazarının il ərzində artımı, % | 15 |
| Dünyada koşer istehlakçılarının sayı, milyon nəfər | 25 |
| Koşer məhsulları istifadə edən ABŞ istehlakçıları, % | 21 |
| ABŞ-da koşer istehlakçılarının sayı, milyon nəfər | 15 |
| Avstralyada koşer istehlakçılarının sayı, milyon nəfər | 2,5 |
| Koşer bazarı üçün məhsul istehsal edən müəsisələrin sayı, vahid | 75000 |
| İllik istifadə olunan koşer sertifikalı məhsulların dəyəri, milyard ABŞ dolları | 150 |
| ABŞ-da koşer bazarının ümumi dəyəri, milyard ABŞ dolları | 12,5 |

| | |
|---|---|
| Avstralyada koşer bazarının ümumi dəyəri, milyard ABŞ dolları | 1,4 |

Mənbə: [5]

Kosher Network International (KNI) araşdırmasına görə, hər gün artan kosher bazarı məhsullarının hazırkı dəyəri 24 milyard dollardır. Proqnoza görə, İslam bazarın həcmi 2025-ci ildə 11,5%-ə kimi artaraq 30 milyard dollara çatacağı gözlənilir.

Dünyada müsəlman əhalisi digər dinlərə inananlara nisbətən daha çox artır. Hazırda müsəlmanlar yalnız İslam ölkələrində deyil dünyanın müxtəlif ölkələrində yaşayırlar. İslami marketinqin hədəf auditoriyası yalnız müsəlman istehlakçılarına deyil, həmçinin halal məhsullar istehlak etməyi seçən cəmiyyətin hər bir üzvi hesab edilir.

İslam bazarında məhsulların həcmi hər il sürətlə artır. 2001-ci ildə İslam bazarında məhsul həcmi 150 milyard dollar olduğu halda, bu rəqəm 7 ildən sonra 430 milyard dollar artaraq 580 milyard dollara çatmışdır. Hər hansı bir yeməyin halal sayılması üçün yeməyi təşkil edən bütün maddələrin halal olması lazımdır. Məsələn, halal ət şərtlərini təmin etmək üçün heyvan təbii olaraq bəslənməli və dini ayinlərə uyğun olaraq kəsilməlidir. Ayrıca məhsulun bişirilməsi, nəql etdirilməsi və çatdırılması kimi mərhələlərdə haram məhsullarla qarışdırılmamalıdır.

Halal konsepsiyası bir çox qidaları, məhsulları, xidmətləri və davranışları əhatə edir. Yalnız qida məhsulları deyil, həm də kosmetika, dərman vasitələri, otel-kafe biznesi, logistika, texnologiya və bir çox digər sahələri nəzərdən keçirdiyimizdə, halal konsepsiyasının marketinq potensialı daha da geniş mənada anlama gəlir. Halal məhsullar və xidmətlərin kateqoriyalarına qısa nəzər salaq.

Turizm sektorundakı halal konsepsiya dedikdə, müsəlman istehlakçıların tələb və ehtiyaclarını qarşılayacaq tur paketlərin yaradılması və istehlakçıların dini inanclarına cavab verən otel və ticarət xidmətlərinin yaradılması başa düşülür. Halal konsepsiya, turizm sektorunda uzun müddət nəzərdə çıxarılan, unudulan bir prosesdir. Zamanla müsəlman turistlərin sayı və gəliri artdıqca və qeyri-müsəlman ölkələrdə mühacir olan müsəlman sayındakı böyük artım halal məhsul və xidmətlərə olan tələbi artırdıqca turizm sektoru üçün qazanc gətirən bir bazar seqmenti ortaya çıxmışdır. 2013-cü ildə halal turizm sənayesi məhsullarının həcmi 140 milyard dollar dəyərinə çatmışdır ki, bu da dünyada cəmi səyahət xərclərinin 13% -ni təşkil edir. Proqnoz hesablamalara görə 2026-cı ildə bu göstəricinin 300 milyard dollara çatacağı gözlənilir [4, səh. 49]. Halal kosmetik məhsullar hazırlandığı yerin halal standartlarına uyğun olaraq, halal olmayan maddələr və komponentlərdən istifadə edilmədən hazırlanan məhsullar kimi müəyyən edilə bilər. Heyvan mənşəli bir çox kosmetik məhsul haram sayılır, lakin burada bəzi istisnalar vardır. Halal məsələsində diqqətli olan istehlakçıların bu mövzuda məlumatlı olması faydalıdır. Halal kosmetika dünya bazarında getdikcə daha çox yer tutan sahələrdən biridir. Qlobal bazarlara baxdığımızda hər il dünya kosmetika bazarında 5-14 milyon dollar və ya daha çox bu tip məhsulların satışı həyata keçirilir.

Halal qida, xidmət, əkinçilikdən bəhs edərkən, bu gün halal tibb anlayışı tez-tez eşidilməyə başlanmışdır. Halal tibb heyvan sümüklərindən, yağlardan və haram sayılan maddələrdən ibarət olmayan dərmanların hazırlanması və istifadəsidir. Burada nəzərə almaq lazımdır ki, əsas qadağan olunmuş maddələr ümumiyyətlə qərb ölkələrində hazırlanan dərmanların tərkibini təşkil edən donuz yağı və sümüklər, spirt, jelatin və s. məhsullardır. Ümumiyyətlə, donuz və iribuynuzlu heyvanlardan alınan jelatin dərman sənayesində geniş istifadə olunur.

Halal sertifikatı qərəzsiz olan, müəyyən kadr və laboratoriyalarla təchiz edilmiş, şirkətin halal standartlara uyğun olaraq istehsal etdiyini göstərən qurumlar tərəfindən verilən bir sənəddir. Burada qarşılaşılan əsas problem hər ölkənin fərqli standartlara sahib olmasıdır. Bu standartların müəyyənləşdirilməsində üç əsas şərt vardır. Bunlar halal qida istehlakçılarının halal standartlara olan tələblərini qarşılayır, gigiyenik və sağlam bir şəkildə halal qidalar istehsal edir, nəhayət bu məhsulların bazara çıxarılması və qəbul edilməsini təmin edir, digər ölkələrlə əməkdaşlıq mühiti yaradır.

ABŞ-da halal sertifikat verən 40-dan çox müəssisə və təşkilat fəaliyyət göstərir. Ancaq bu qurumların sertifikatları bir çox bazarda etibarlı deyil. İndoneziya və Malayziya kimi əhalisinin əksəriyyətinin müsəlmanlar təşkil etdiyi və öz standartlarına sahib olduğu ölkələr ABŞ-ın yalnız 5 bu tip təşkilatını tanıyırlar və onlarla ticarət etmək istəyən müəssisələr mütləq bu standartlara uyğun olmalıdır.

Avropa ölkələri baxımından qiymətləndirildikdə: Almaniyada 6, Polşada, Hollandiyada, Fransada 5, Türkiyədə, İngiltərədə, Avstriyada 4, İrlandiya və İtaliyada 3, Belçikada 2, İspaniyada 1, Norveçdə, Portuqaliya və digər ölkələrdə olan bu tipli müəssisələr də nəzərə alınmaqla 40 halal sertifikatlaşdırma təşkilatının mövcud olduğu məlumdur.

Halal sertifikatlaşdırmanın bir çox faydası var, bunlardan ən başlıcası qida istehsal edən müəssisələrin rəqabət üstünlüyü təmin etməsi, məhsul istehlakçısının məhsulun tərkib hissələrini və istehsalla əlaqəli hər şeyi öyrənmək üçün narahat olmaması, daha geniş bir kütləyə müraciət etməsi və istehlakçıların qarşısını almasıdır ki, bu da məhsul seçiminə çox vaxt sərf edilməsini göstərir. Halal sertifikatı, halal qidaya əhəmiyyət verən müsəlman və ya qeyri-müsəlman istehlakçılara qidaların sağlam və gigiyenik proseslərinin ilk yerdə olmasını təmin edir. Halal sertifikatlaşdırma şirkət gəlirlərini artırır və istehlakçılar tərəfindən daha çox seçilir. Halal sertifikatlaşdırma idxal edən ölkələrdə və müəssisələrdə halal istehlakçıların təhlükəsizliyini təmin etməyə kömək edir. Ümumiyyətlə, qeyd etdiyimiz bu şərtlər müsəlman ölkələrində halal məhsulların bazarda artımına səbəb olur.

Müsəlmanlar dünya əhalisinin 25%-ni təşkil edir və 2025-ci ilə qədər bu nisbətin 30%-ə yüksələcəyi gözlənilir. Halal məhsullar bazarının yalnız müsəlmanlar tərəfindən deyil, digər istehlakçılar tərəfindən də diqqəti cəlb etməsi onun dünya bazarında əhəmiyyətli bir yer qazanmasına səbəb olmuşdur.

Din istehlakçı davranışı və onların satın alma qərarları üzərində böyük təsir göstərir. Din qida, xidmət, nəqliyyat sektorlarını məhdudlaşdıran amildir. Nümunə olaraq, bildirildiyi kimi, İslamda alkoqollu içkilər, donuz əti, bəzi qadağan olunmuş qidalar istehlak etmək qadağandır. Donuz əti istehlakı yalnız İslam üçün deyil, hinduizm və buddizm üçün də qadağandır. Bu, halal qidaların ümumiyyətlə bir çox bazarları cəlb etdiyi qənaətinə gəlməyə imkan verir.

Halal məhsul bazarının böyüməsinin bir sıra əsas səbəbləri vardır [3, səh. 25]:

- dünyada müsəlman istehlakçı sayının gündən-günə artması;
- illik halal qida istehlakının 16% artması;
- yalnız müsəlman istehlakçıların deyil, digər istehlakçıların da halal məhsullara olan marağının artması. Ən bariz nümunələrdən biri, 2 milyon müsəlman istehlakçısı olan İngiltərədə 6 milyon insanın halal sertifikalı qidalar istehlak etməsidir;
- müsəlman istehlakçı sayının artması və iqtisadi şərtlərin inkişafı halal məhsul bazarının geniş miqyasda inkişafına kömək edir;
- halal məhsul tələblərinə dair məlumatlılığı artırmaq üçün müsəlman istehlakçıların bilik səviyyəsinin artırılması.

## Halal məhsullarda 4P

Məhsul. Codex Alimentarius Komissiyası sənədlərinə görə, halal məhsullar "İslam qaydalarına uyğun olaraq icazə verilən məhsullar" olaraq təyin edilir. İslami qaydalara görə, bu elementlərdən azad olan yerlərdə və ya cihazlarda hazırlanan, işlənən, daşınan, saxlanılan və qadağan olunmuş elementləri olmayan hər hansı bir qida və məhsullar hesab edilir.

Halal məhsullarda qiymətləndirmə. Halal qida məhsullarının qiyməti müəyyən amillərdən asılı olaraq dəyişir. Bu amillərə misal olaraq istifadə olunan texnologiyalar, qida sertifikatı, müəssisəyə məxsus əmlak və şirkətin istehlakçı düşüncələri aiddir. İstehlakçılardan daha çox mənfəət əldə etmək üçün marketinq yönümlü fəaliyyətlərin həyata keçirilməsi İsalma daxil deyil. İslam inancında böyük bir səy göstərmədən qazanmaq qadağandır. Bundan əlavə, məhsulun keyfiyyətində dəyişiklik olmadan məhsulun qiymətini artırmağın və müştəriləri yanıltmaq üstünlüyünün əldə edilməsinin çətin olduğu bildirilmişdir.

Bir çox məsələdə olduğu kimi, halal məhsul istehsal edən müəsisələr də marketinqdə qiymət baxımından çox diqqətlidir. Məsələn, marketinqdə bəzi qiymət strategiyaları üçün İslam inancında tamamilə yer yoxdur. İslam dinində eyni məhsulun eyni bazarda fərqli qiymətlərlə istehlakçılara təqdim edilməsinə icazə verilmir.

Halal məhsulların çatdırılması. İstehlakçıların halal məhsul paylandığı zaman nəqliyyat üçün əlavə pul xərcləməsi qəbul edilməzdir. Qeyri-müsəlman ölkələrdə paylama şəbəkəsi halal məhsul istehlakçılarının cəmləşdiyi bölgələrdə daha təsirli olmalıdır.Bu səbəbdən halal məhsul müəssisələri fəaliyyətlərini həyata keçirərkən bu vəziyyəti nəzərə almalıdır. İslam dininin yerləşmə-paylanma prosesi ilə əlaqədar uyğun hesab etmədiyi bəzi vəziyyətlər vardır. Bunlardan ən başlıcası halal məhsulların və qeyri-halal məhsulların daşınması zamanı birlikdə daşınmamasıdır.

Halal məhsullarda həvəsləndirmə. İslam dininə görə bir satıcı insan kimi davranışlarla Tanrı qarşısında bir məsuliyyət hiss edirsə hər cür əməliyyatda dürüst və ədalətli olmalıdır. Müəssisələr bəzi hallarda reklam zamanı məhsulla əlaqəli bütün mənfi halları gizlətmək və istehlakçıları inandırmaq üçün şişirdilmiş cəhdlər edirlər [6]. İslam inancına görə istehlakçıları razı salmaq üçün müəssisələrin və marketoloqların bu cür saxta davranışlara əl atması qəbul edilməzdir.

Müştəri məmnuniyyəti istehlakçı ehtiyaclarının cəmləşdiyi mövcud bazarlarda ən vacib amildir. Halal məhsul müəssisələri istehlakçıların ehtiyaclarını nəzərə alaraq məhsullarda və qidalarda müəyyən qatqı maddələrinin olmamasına diqqət yetirirlər. Bu məhsullarda qatqı maddələrinə əlavə olaraq, daşınma, qablaşdırma və qorunma yerlərinin halal standartlarına riayət olunmasına diqqət yetirilir.

**Nəticə**

İstehlakçıların sağlamlıq və gigiyena ilə bağlı artan narahatlığı istehlak qaydalarına təsir göstərir. Bu məsələlərdə halal məhsulların təmizliyini nəzərə alsaq, təkcə müsəlman deyil, həm də qeyri-müsəlman istehlakçıların bu məhsullara marağı gündən-günə artır.

Bu gün müəssisələrin məhsul yönümlü bazarlar əvəzinə müştəri mərkəzli bazarlara daha çox əhəmiyyət verməsinin ən böyük səbəblərindən biri, bir bazarda istehlakçıların tələbləri ilə məhsulla əlaqəli tələblərin fərqli olmasıdır. Müsəlman istehlakçıların ehtiyaclarını nəzərə alaraq, zaman keçdikcə İslam bazarının fenomeni ortaya çıxdı və bu bazarda məhsul əvəzinə, inanclarına görə istehlakçıların ehtiyac duyduğu məhsul və xidmətlərə diqqət yetirildi.

Artan bazar potensialını nəzərə alsaq, halal məhsul bazarının yaxın gələcəkdə qida sənayesində çox yer qazanması qaçılmazdır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Al-Mazeedi, H. M., Regenstein, J. M. ve Riaz, M. N. (2013). The issue of undeclaredingredients in halal and kosher food production: focuson processingaids. Comprehensive Reviews in Food Science and Food Safety, 12(2)-228-233.
2. Alserhan, B. A. (2010). On Islamic Branding: Brands as Good Deeds. Journal ofIslamic Marketing. 1(2)- 40-44.
3. Cemalcılar, İ. (1999). Pazarlama Kavramlar Kararlar, İstanbul, Beta Basım Yayım Dağıtım-25
4. Chandra, G. R. (2014). Halal Tourism; A New Goldmine For Tourism. International Journal Of Business Management & Research, 4(6)- 45-62.
5. Gutnick, R.M., The Kashrut Authority Of Australia & New Zealand,(2012), https://www.ka.org.au/sites/default/files/201709/The%20KA%20Brochure%20Email%20%26%20Web%20Final%28CertificationGuideBooklet%29.pdf, ).
6. Shaw, M. C. (1996). Principles Of Abrasive Processing (No. 13). Oxford UniversityPress On Demand.

**Anar Məlikov**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
*anarmk@tcsgl.com*

# PANDEMİYA ŞƏRAİTİNDƏ MÜƏSSİSƏLƏRDƏ ƏMƏYİN MÜHAFİZƏSİNİN TƏŞKİLİ MƏSƏLƏLƏRİ

**Açar sözlər:** pandemiya, əmək şəraiti, təşkil, müəssisə, fəaliyyət, əməyin mühafizəsi, istehsal

## Giriş

Pandemiya şəraitində müəssisədə əməyin mühafizəsinin təşkili dedikdə onun strukturu, bununla bağlı hər hansı bir hadisənin hissələrinin daha ciddi şəkildə qarşılıqlı qurulması başa düşülür [1].

Müəssisədə əməyin təşkilinin mahiyyətini müəyyənləşdirdirdikdən sonra onun məzmununu müəyyənləşdirmək, yəni yuxarıda müzakirə olunan əmək prosesinin hansı komponentdən və ya elementlərdən ibarət olunduğunu göstərmək lazımdır. Bunun üçün əmək prosesinin həyata keçirilmə qaydasının aşağıdakı ardıcıllığını qeyd etmək məqsədəuyğundur: əvvəlcə fəaliyyətin məqsədini təyin etmək; ikincisi, istehsal texnologiyası nəzərə alınmaqla, istehsal əməliyyatlarının siyahısı və onların ardıcıllığı; üçüncüsü, bütün növ işlərin işçilərin arasında bölüşdürülməsi və onlar arasında qarşılıqlı fəaliyyət sisteminin, yəni müəyyən əməkdaşlığın qurulması; dördüncüsü, işlərin rahatlığı üçün iş yerlərinin uyğunlaşdırılması; beşincisi, iş yerlərinə hər cür dəstək xidmətləri üçün xidmət işlərinin təşkili; altıncı, rasional üsulların və əmək metodlarının işlənilməsi; yeddincisi, əmək notmalarının  və onların ödəmə sistemlərinin yaradılması. Müvafiq əməyin təşkili üçün müəssisədə təhlükəsiz və sağlam əmək şəraiti yaratmaq, əməyin planlaşdırılması və uçotu, əmək intizamını təşviq etmək, kadrları seçmək və hazıtlamaq lazımdır.

## Mövcud ədəbiyyatlara istinad

"Təşkilat" termini sözdə funksional məna daşıyır. Bu mənada, bizim fikrimizcə, müəssisədə əməyin təşkili əmək prosesini və işçilərin istehsal vasitələri ilə və bir-biri ilə əlaqəli istehsal əlaqələrini həyata keçirmək qaydalarının qurulması və ya dəyişdirilməsi ilə əlaqəli hərəkətlərə aiddir [2].

Yuxarıda göstərilənlərə əsaslanaraq hesab edirik ki, müəssisədə əməyin təşkili bir tərəfdən işçilərin istehsal vasitələri və bir-biri ilə istehsal münasibətləri sisteminə aiddir, əmək prosesinin müəyyən bir qaydasını formalaşdıran əmək bölgüsü və işçilər arasında əməkdaşlığı, iş yerlərinin təşkili və onlara xidmətinin təşkili, səmərəli əmək üsulları və metodları, əsaslandırılmış əmək normaları, əmək haqqı və maddi həvəsləndirmə, əməyin planlaşdırılması və uçotu, seçmə ilə təmin olunan əmək prosesinin müəyyən bir qaydasını formalaşdırmaq. kadrların hazırlığı, yenidən hazırlığı və ixtisaslarının artırılması,, sağlam və təhlükəsiz əmək şəraitinin yaradılması, habelə əmək intizamının aşılanması ilə, digər tərəfdən isə əmək prosesinin və işçilərin istehsal vasitələri ilə və bir-biri ilə qarşılıqlı istehsal əlaqələrinin qurulması, tənzimlənməsi və ya dəyişdirilməsi üçün tədbirlərlə təmin edilir.

Bizim fikrimizcə, A.İ. Roфenin  öz əsərlərində fərqləndirdiyi əməyin mühafizəinin əsas elementlərinə əmək şəraitini və əməyin mühafizəsini daxil etməklə daha yığcam şəkildə təsnifləşdirmək olar [3].

Əmək şəraiti və əməyin mühafizəsi qanuni, sosial-iqtisadi, təşkilati və texniki, sanitar-gigiyena, tibbi- profilaktik, reabilitasiya və digər fəaliyyətlər daxil olmaqla əmək fəaliyyəti prosesində işçilərin həyatını, sağlamlığını və əmək qabiliyyətini qorumaq üçün bir sistemdir [4].

Əməyin mühafizəsi yalnız müxtəlif fəaliyyət növü deyil, həm də əmək fəaliyyəti zamanı işçilərin həyat və sağlamlığının təhlükəsizliyini təmin edən biliklər sistemidir. Hadisələrin özü isə, əməyin mühafizəsi konsepsiyasında qoyulmuş əsas ideyanı həyata keçirməkdən başqa bir şey deyil.

"Əməyin mühafizəsi haqqında" Azərbaycan Respublikasınıım Qanununda deyilir: "Əməyin mühafizəsi müvafiq qanunvericilik aktları və digər normativ aktlar əsasında fəaliyyət göstərən sosial-iqtisadi, təşkilati, texniki, sanitariya-gigiyena və müalicə-profilaktik tədbirlərin və vasitələrin elə bir sistemidir ki, əmək fəaliyyəti prosesində insanın təhlükəsizliyini, sağlamlığının və iş qabiliyyətinin qorunmasını təmin edir"[5].

Ona görə də, fikrimizcə, bu anlayışlar vahid bir kateqoriya kimi qəbul edilməlidir, belə ki, əməyin mühafizəsi və ona uyğun əmək şəraitinin yaradılması bir məqsəd üçün - istehsalın humanistləşdirilməsi, işçilərin həyatının, fiziki və mənəvi sağlamlığının qorunması üçün həyata keçirilir.

Professorlar S.S.Möhbalıyev və R.K.İsgəndərov qeyd edirlər ki, Azərbaycanda həyata keçirilən sosial-iqtisadi dəyişiklilərin məqsədi sosial yönümlü bazar iqtisadiyyatına əsaslanan, sosia baxımdan təmin olunmuş cəmiyyət qurmaqdır. Bunun üçün əsas vəzifələrdən biri sərbəst bazar iqtisadiyyatının təbii qanunlarından bacarıqla istifadə edərək baş mütəxəssislər yetişdirməkdən ibarətdir [6].

**Pandemiya şəraitində əlverişli əmək şəraiti və əməyin mühafizəsi şərtləri**

Xüsusilə pandemiya şəraitində əlverişli əmək şəraitinin yaranması işinin təşkili üçün vacib şərt onların həqiqi vəziyyətinin obyektiv qiymətləndirilməsidir. Bu halda, əmək şəraitinin formalaşmasına təsir göstərən ayrı-ayrı amillərin təhlili və qiymətləndirilməsi ilə yanaşı, vahid, ayrılmaz bir göstərici istifadə edərək istehsal mühitinin təsirinin müxtəlifliyini ifadə etmək vacibdir.

İstehsal mühitinin bütün amillərinin insanın işgörmə qabiliyyətinə, sağlamlığına və həyat fəaliyyəti səviyyəsinə məcmu təsirinin kəmiyyət və keyfiyyət baxımdan qiymətləndirilməsi işin ağırlığı göstəricisində ifadə olunur. Bu konsepsiya həm fiziki, həm də zehni əməyə aiddir. Əmək şəraitinin təsiri ilə orqanizmin üç əsas funksional vəziyyəti yaranır: normal, sərhəd (norma və patoloji hədlər arasında) və patoloji. Hər bir vəziyyətin özünəməxsus fərqləndirici xüsusiyyətləri var və insan orqanizminin hansı vəziyyətdə olması onun əmək fəaliyyətinin nəticələrindən və sağlamlığından asılıdır.

Öz növbəsində, təhlükəli istehsal amili müəyyən şəaidə işçinin xəsarət almasına və ya sağlamlığın kəskin pisləşməsinə səbəb olan amildir. . İşçi ilə baş verən bədbəxt hadisə onun təhlükəli istehsal amilinə məruz qalması ilə əlaqələndirilir. İstehsalatda xəsarətlərin birləşməsi ilə xarakterizə olunan bu hadisələrə peşə zədələnməlaıri deyilir. İstehsalat təcrübəsinin göstərdiyi kimi, əməyin təhlükəsizliyi psixoloji və digər sosial amillər nəzərə alınmaqla istehsalın və əmək mədəniyyətinin estetikasının artması ilə sıx bağlıdır. Bu kimi amillərin öyrənilməsi əməyin mühafizəsinin, o cümlədən mənəvi və psixoloji cəhətlərin sosial aspektlərinin inkişafına zəmin oldu. Əməyin mühafizəsi, əvvəllər qeyd olunduğu kimi, təkcə təhlükəsizlik və sağlamlığı deyil, həm də insanın əmək prosesində işgörmə qabiliyyətini də təmin edir.

Əməyin mühafizəsi nəzəriyyəsinin öyrənilməsinin predmeti əməyin mühafizəsi, deməli insanın fizioloji və psixoloji imkanları, əməyin inkişafı qanunları və onların əmək şəraitinin formalaşmasında əks olunması, optimallaşdırılmasıdır..

Əməyin mühafizəsinin funksiyalarına yalnız əməyin mühafizəsinin təşkili, planlaşdırılması, onun vəziyyətinə nəzarət, əməyin mühafizəsi tədbirlərinin həyata keçirilməsini stimullaşdırmaq kimi ənənəvi funksiyalar deyil, həm də istehsal zədələnmələri və xəstələnmələrin təhlili, əməyin mühafizəsi vəziyyətinin qiymətləndirilməsi, əməyin mühafizəsi mədəniyyətinin yüksəldilməsi və işlərin idarə edilməsi daxildir

Əməyin mühafizəsinin strukturu əməyin mahiyyəti, bölgüsü və növləri ilə sıx şəkildə bağlıdır. Əməyin mahiyyəti onun bir-biri ilə əlaqəli bir sıra elementlərini özündə cəmləşdirən quruluşunu müəyyənləşdirməklə aşkar olunur: məqsəd daşıyıcıları kimi əməyin subyektləri,

məhsuldar qüvvələr (obyekt və vasitələr), əmək fəaliyyəti prosesi, əmək məhsulları (məqsədli və ikinci dərəcəli), ictimai münasibətlər (istehsal və iqtisadi. Əmək sistemin daxili elementlərindən başqa, həm də xarici təsir elementlərinə malikdir (ölkədəki siyasi və iqtisadi vəziyyət, inkişafın texniki səviyyəsi, təbii şərait). Beləliklə, əməyin tədqiqi zamanı əməyin mühafizəsi ayrıca və məcmu olaraq onun strukturunu yaradan bütün elementləri ilə birlikdə öyrənməlidir. Yalnız bu yanaşma bir çox problemi həll etməyə imkan verə bilər.

Əməyin mahiyyətini təhlil edərkən, əmək subyektinin üstünlüyünü tanımaq lazımdır. Onsuz, yalnız istehsal və digər münasibətlər deyil, həm də əmək özü prosesi ola bilər. Əməyin mahiyyətini təhlil edərkən, əmək subyektinin üstünlüyünü qəbul etmək lazımdır. Onsuz, yalnız istehsal və digər münasibətlər deyil, həm də əmək prosesinin özü ola bilməz ..

Əməyin mühafizəsinin inkişafına əmək bölgüsü ciddi təsir göstərir. Əmək bölgüsü dedikdə, əmək prosesində keyfiyyətcə fərqli iş formalarının xüsusiləşdirilməsi başa düşülür. Ümumi, fərdi və xüsusi əmək bölgüsü fərqləndirilir.

Ümumi əmək bölgüsü sənaye, tikinti və kənd təsərrüfatı kimi əmək fəaliyyətinin növlərinin təcrid olunmasını təmin edir. Sadalanan əmək formalarının hər biri istehsal vasitələrindən istifadədə özünəməxsus xüsusiyyətlərə malikdir və xalq təsərrüfatının sektorunu və son nəticədə əməyin mühafizəsinin elmi və praktik istiqamətini müəyyənləşdirir.

Fərdi əmək bölgüsü, sənayenin növ və alt növlərə bölünməsi ilə əlaqələndirilir. Müvafiq olaraq, əməyin mühafizəsi də bölünür: sənayedə - maşınqayırmada əməyin mühafizəsi, enerji sektorunda; geologiyada - bərk faydalı qazıntıların axtarışı, neft kəşfiyyatı zamanı əməyin mühafizəsi.

Xüsusi əmək bölgüsü bir müəssisə daxilində əmək fəaliyyətinin növlərinin aşağıdakı əlamətlərə görə fərqləndirilməsini nəzərdə tutur: funksional (idarəetmə, əsas və köməkçi istehsal); texnoloji (işin növünə görə); peşəkar və təsnifləşdirilmiş (işin mürəkkəbliyinə görə). Xüsusi əmək bölgüsü həm də əməyin diferensiallaşmasına və mühafizəsinə imkan verir. Xüsusi əmək bölgüsü, enerjinin ona tətbiq edilməsinə görə növlərə bölünür. Sonuncu halda zehni və fiziki əmək fərqləndirilir. Elmi-texniki tərəqqinin müasir dövründə iqtisadiyyatın bütün sahələrində istehsalın texniki əsasları dəyişir, sonuncuların mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi artır. Texniki bazadakı dəyişikliklər, onun intellektuallaşmasında ifadə olunan əməyin məzmununda dəyişiklik yaradır. Yaradıcılıq payı artır. Yalnız yeni peşələr yaranmır, həm də ənənəvi peşələrin məzmunu dəyişir. Bununla əlaqədar olaraq, sadə işdən daha mürəkkəb və yaradıcı, dar ixtisaslaşmadan daha geniş sistemə keçid qanunu qüvvəyə minir və buradan - ilk növbədə üstünlük təşkil edən fiziki əməyin inkişafının ilk növbədə zehni əməyə keçməsi qanunu qüvvəyə minir, bu da zehni əməyin qorunmasının inkişafını zəruri edir.

Biliklərin və vərdişlərin sürətli qocalması şəraitində həm işçilər, həm də rəhbərlər və mütəxəssislər mövcud vəziyyətdə öz ixtisaslarını artırmalıdır. Mexanikləşdirmə və avtomatlaşdırmanın, eləcə də müasir tədqiqat metodlarının tətbiqi əməyin fiziki ağırlıq dərəcəsini azaldır, lakin psixoloji-əsəbi gərginliyinin yaranmasına səbəb olur. Bundan əlavə, əsasən əqli iş insanın fiziki fəaliyyətinin məhdudlaşması nəticəsində fiziki hərəkətsizlik və istehsal ilə əlaqəli ürək-damar və digər xəstəliklərin sayının artması nəticəsində orqanizmin funksiyalarının əhəmiyyətli dərəcədə pozulmasına səbəb ola bilər. Elmi - texniki tərəqqinin inkişafı ilə yeni zərərli və təhlükəli amillər meydana çıxır və ya yaranır. Əməyin mühafizəsinin vəzifəsi, insanı vaxtında qorumaq üçün onların meydana gəlməsini müəyyənləşdirmək və ya əvvəlcədən bilməkdir. Beləliklə, əməyin mühafizəsinin vəzifələri təşkilati-gigiyenik və təşkilati-texnikiyə bölünür. Təşkilati və gigiyena vəzifələrinə aşağıdakılar daxildir:

- əməyin gigiyenik şəraitinin təmin olunması;
- istehsal, köməkçi və məişət binaları ilə, sanitar-məişət avadanlıqları ilə təminat;
- gigiyena məhsulları ilə fərdi və kollektiv qorunmanı təmin etmək;

- müalicə və profilaktik xidmətin təşkili;
- optimal əmək və istirahət rejiminin təmin edilməsi və s.

Təşkilati və texniki vəzifələrə aşağıdakılar daxildir:

- istehsal avadanlıqlarının istismarının təhlükəsizliyini təmin etmək;
- istehsal prosesinin fəaliyyətinin təhlükəsizliyini təmin etmək;
- binaların, tikililərin, avadanlıqların və s. işlərin təhlükəsiz aparılmasını təmin etmək.

Beləliklə, fikrimizcə, əməyin mühafizəsinin ən vacib vəzifəsi işçinin maksimum əmək məhsuldarlığı ilə rahatlığını təmin etməklə xəstəlik və ya zədələnmə ehtimalını minimuma endirməkdir.

Əməyin mühafizəsinin strukturundan digər elmlərlə əlaqə asanlıqla müəyyən edilir. Belə ki, biotibbi biliklər biologiya, anatomiya, gigiyena, epidemiologiya və digər elmlər; mühəndislik və texniki biliklər - xüsusi mühəndislik, eləcə də ümumi mühəndislik elmləri (materialların müqaviməti, mexanika, elektrik mühəndisliyi); sosial-iqtisadi, - humanitar və ya sosial elmlərlə (iqtisadiyyat, pedaqogika, hüquq və digər) əlaqəlidir.

Əməyin mühafizəsinin sosial əhəmiyyəti əmək şəraitinin davamlı təkmilləşdirilməsiı və yaxşılaşdırılması, təhlükəsizliyinin artırılması, peşə xəsarətlərinin və xəstələnmənin azaldılması yolu ilə ictimai istehsalın səmərəliliyinin artmasına töhfə verməkdir. Əməyin mühafizəsinin sosial əhəmiyyəti ictimai istehsalın inkişaf səviyyəsini səciyyələndirən üç əsas göstəricinin dəyişməsinə təsir etməkdə özünü göstərir. Vaxtından əvvəl yorğunluğun qarşısını alaraq növbəarası fasilələrin, mikrozədələnmələrin sayının azaldılması və xəsarət; peşə, ümumi xəstəlik səbəbindən iş vaxtı itkisinin azaldılması ilə iş vaxtı ehtiyatının artması nəticəsində əmək məhsuldarlığının artırılması.

Əməyin mühafizəsinin iqtisadi əhəmiyyəti əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsi tədbirlərinin səmərəliliyi ilə müəyyən edilir və əməyin mühafizəsinin sosial dəyərinin iqtisadi ifadəsidir. Əməyin mühafizəsinin iqtisadi dəyəri aşağıdakı iqtisadi amillərlə müəyyən olunan sosial göstəricilərdəki dəyişikliklərin nəticələri ilə müəyyən edilir: əmək məhsuldarlığının artması və deməli, əmək fəaliyyəti üçün rahat şəraitin yaradılması ilə əlaqədar müəssisənin fəaliyyətinin iqtisadi nəticələri. məsələn, əməyin psixofiziki və erqonomik xüsusiyyətləri nəzərə alınmaqla, mikroiqlim, işıqlandırma və işıq mühitinin optimal parametrlərinin təmin edilməsi, optimal iş və istirahət şəraitinin formalaşdırılması müalicə- profilaktik tədbirlərin görülməsi; xəsarət və xəstəliklər, eləcə də iş buraxmaya görə müddətin azaldılması səbəbindən iş vaxtı fondunun artması. [7] Diqqət yetirmək lazımdır ki, əmək şəraiti yalnız peşə xəstəliyinə deyil, ümumi xəstəliklərin də yaranmasına və müddətinə də əhəmiyyətli dərəcədə təsir göstərir; əlverişsiz əmək şəraitində işləməyə görə müavinət və kompensasiya xərclərinə qənaət olunur. Qısaldılmış iş günü və əlavə məzuniyyət kimi bu cür müavinətlər və kompensasiyalar əhəmiyyətli iş itkiləri ilə əlaqədardır və əslində işlənilməyən saatlar üçün böyük miqdarda pulun ödənilməsi ilə müşayiət olunur. Yüksək tarif dərəcələri, güzəştli pensiyalar, müalicə-profilaktik qidalanma, pulsuz süd verilməsi kimi güzəşt və kompensasiyaların verilməsi də çox pul tələb edir. Yol verilən normativ tələblərə uyğun şəraitin yaradılması bu xərcləri qismən və ya tamamilə azaltmağa imkan verirə Əmək şəraitinə görə kadr axıcılığına xərclərin azaldılmasıi, ağır əmək, əlverişsiz sanitariya-gigiyenik əmək şəraitii səbəbindən işçilərin öz istəyi ilə işdən azad edilməsinin vacib səbəblərindəndir. İşçi qüvvəsi axıcılığı müəssisəyə ciddi ziyan vurur, çünki yeni işə götürülmüş şəxsin təlimi və təcrübə prosesi xərc tələb edir. Bu halda, işə yeni götürülən şəxsin lazımi təcrübə və bacarıqlara yiyələnməsinə qədər məhsuldarlığı az olur.

Əməyin mühafizəsinin idarə edilməsinin iqtisadi mexanizmi belədir:

- əməyin mühafizəsi üzrə tədbirlərin planlaşdırılması və maliyyələşdirilməsi;
- əmək şəraitinin yaxşılaşdırılması və əməyin mühafizəsinin daha qabaqcıl vasitələrinin tətbiqində işəgötürənin iqtisadi marağının təmin edilməsi;
- təhlükəli, zərərli və çətin əmək şəraitinə görə işəgötürənin iqtisadi məsuliyyəti; əməyin mühafizəsi tələblərinə cavab verməyən məhsulların istehsalı və satışı üçün; peşə

vəzifələrinin icrası ilə əlaqədar işçilərə xəsarət yetirildikdə, peşə xəstəliyi və ya peşə vəzifələrinin icrası ilə əlaqədar sağlamlığa digər zərər;

• zərərli və təhlükəli, istehsalın və əməyin təşkilinin müasir texniki səviyyəsində aradan qaldırılması mümkün olmayan ağır, ‚təhlükəli və zərərli əmək şəraitinə görə işçilərə kompensasiya və müavinət vermək.

**Nəticə**

Əməyin mühafizəsinin maliyyələşdirilməsi Azərbaycan Respublikasının büdcəsində, müəssisələrin mənfəətində, habelə əməyin mühafizəsi fondlarından ayrılmış vəsait hesabına həyata keçirilir. İşçilər əməyin mühafizəsini maliyyələşdirmək üçün heç bir xərc çəkmir. Əməyin mühafizəsi üzrə ictimai fondlar da yaradıla bilər. Vəsaitlər yalnız işçilərin sağlamlığının və iş şəraitinin yaxşılaşdırılması üçün istifadə edilə bilər. Əməyin mühafizəsi fondlarının vəsaitlərini başqa məqsədlər üçün istifadə edən müəssisələr, xərclənən vəsaitin 100% miqdarında cərimə ödəyirlər. Əməyin mühafizəsi müxtəlif biliklərin tətbiqini və bütün maraqlı tərəflərin iştirakını tələb edən mürəkkəb bir sahədir, Əməyin mühafizəsinin milli siyasətinin həyata keçirilməsi üçün müvafiq institusional mexanizmlər tələb olunur Məhz buna görə də əməyin mühafizəsi problemlərinin həllinə yalnız texniki ixtisaslar üzrə mütəxəssislər (mühəndislər) deyil, iqtisadçılar, sosioloqlar, psixoloqlar və başqaları da daxil edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1.Адамчук В.В. Экономика и социология труда. – ЮНИИТИ,2003, - 407 с.

2.Поляков И.А. Основы научной организации на предприятии: учеб. Пособие – М. 2001 – 201 с.

3.Рофе А.И. Организация и нормирование труда:- М, 2001.-330 с

4.Azərbaycan Respublikasının Əmək Məcəlləsi, Bakı – 2000

5.Əməyin mühafizəsi haqqında” Azərbaycan Respublikasınıım Qanunu, Bakı, 1992

6.Mehbalıyev S.S., İsgəndərov R.K. “Əmək bazarı və əhalinin sosial müdafiəsi, Bakı, 2000, 544 c.”

7.Говорков. В.Я. Охрана труда сегодня и завтра. М.-2011 412 с.

**Səid Mustafayev**
Aqrar Tədqiqatlar Mərkəzi
*Atillasalahli03@gmail.com*

# KƏND TƏSƏRRÜFATININ İNKİŞAFI ƏHALİ MƏŞĞULLUĞUNUN ARTIRILMASI AMİLİ KİMİ

**Açar sözlər:** kənd təsərrüfatı, məşğulluq, rəqəmsal iqtisadiyyat, urbanizasiya, çoxfunksiyalılıq

## Giriş

Sosialist təsərrüfatçılıq sistemindən bazar iqtisadi sisteminə keçid sayəsində kənddə işsizlik və məşğulluq məsələləri ön plana çıxır. Belə ki, uzun illər ərzində əsasən ictimai mülkiyyətə əsaslanan kolxoz və sovxoz təsərrüfatlarında çalışan əmək qabiliyyətli insanlar həmin strukturlara məxsus torpaq, daşınmaz əmlak, maddi-texniki resurslar və infrastruktur obyektlərinin özəlləşdirilməsi ilə öz fəaliyyətlərini dayandırmasından sonra kənd yerlərində çoxsaylı qeyri-məşğul işçi qüvvəsinin sayı yarandı.

Qeyd edildiyi kimi, ölkədə qısa zaman kəsiyində yeni sahibkarlıq mühitinin ortaya atılması, uzun illər formalaşmış istehsal münasibətlərinin iflasa uğraması iqtisadi münasibətlər və vərdişlərin, məsuliyyətin dəyişməsi ilə nəticələnmişdi. İri təsərrüfat subyektlərinin parçalanması ilə kiçik istehsalçı qruplarının (torpaq mülkiyyətçilərinin) yaranması təbii olaraq ölkədə kənd təsərrüfatı məhsulları istehsalının qat-qat azalmasına, əmək və istehsal məhsuldarlığının aşağı düşməsinə və nəhayət istehsalçı gəlirlərinin azalmasına, yoxsulluğun artmasına səbəb olmuşdu.

Ölkədə aparılan radikal aqrar islahatlar, o cümlədən torpaq islahatından sonra kənd əhalisinə torpaq və mülkiyyət payının verilməsi kənddə məşğulluq probleminin həllinə qismən də olsa yardım etdi. Nəticədə bu dövrdə, elə indinin özündə də torpaq payı almış kənd sakinləri məşğul əhali qismində təsnifləşdirilməkdədir. Aqrar islahatların sonrakı mərhələlərində ölkədə koorperativ münasibətlərin inkişaf etdirilməsi, iri ixtisaslaşmış kənd təsərrüftaı müəssisələrinin yaradılması, müasir aqrotexniki üsulların tətbiqinə əsaslanan innovativ istehsal sahələrinin yaradılmasına üstünlük verildi. Bununla işçi qüvvəsinə tələbat qismən də olsa artdı. Lakin bu heç də əmək bazarındakı işçi qüvvəsinin tələbatını hələ də ödəmək iqtidarında deyildir.

Beləliklə bazar iqtisadiyyatının spesifikasına uyğun formalaşan əmək bazarının fəaliyyətindəki, ciddi ziddiyyətlər özünü hələ də göstərməkdədir.

## Aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqinin genişləndirilməsi

Qabaqcıl xarici təcrübə göstərir ki, kənd təsərrüfatı inkişafının əhali məşğulluğu səviyyəsinin yüksəldilməsinə və məşğulluğunun strukturunun yaxşılaşdırılmasına müsbət təsirinin dəstəklənməsi üçün mütərəqqi, o cümlədən rəqəmsal texnologiyalardan istifadə dairəsinin, dövlət-özəl bölmənin tərəfdaşlığı sayəsində həllinin genişləndirilməsi səmərəli və məhsuldar yanaşma kimi qiymətləndirilə bilər.

Təhlillər göstərir ki, rəqəmsal iqtisadiyyat, o cümlədən aqrar sahədə rəqəmsal texnologiyaların tətbiqi miqyası, xüsusilə ilkin yanaşmada dövlət-özəl bölmə tərəfdaşlığı sayəsində genişləndirilə bilər. Əlbəttə, bu istiqamətdə görülməli işlər, nümunələr də o qədər çox deyildir. Bu sahədə ilkin addım açıq cəmiyyət prinsiplərini və informasiya cəmiyyətinin üstünlüklərini reallaşdırmaq istiqamətində olmalıdır. Bütün aqrar-sənaye innovasiyaları hamı üçün əlyetərliyi rəqəmsal texnologiyaların tətbiqi üçün əlverişli mühit yarada bilər. Əlbəttə, bu halda informasiya resurslarının və informasiya sistemlərinin inteqrasiyası tələb edilir [1]. Azərbaycanda kənd təsərrüfatının inkişafının əhali məşğulluğunun yüksəldilməsinə təsirinin iqtisadi aspektlərini araşdırarkən, son illər xüsusi diqqət yetirilən şaxələndirmə amilini yaddan çıxarmaq olmaz. Aqrar sahənin şaxələndirilməsi, ilk növbədə istehsal fəaliyyətində yeniliklərə

həssaslıq, iş şəraitində baş verəcək dəyişikliklərin etibarlı surətdə proqnozlaşdırılmasını nəzərdə tutur. Aqrar sahədə şaxələndirilmiş innovasiyalı fəaliyyət kəskinləşən rəqabət mübarizəsində qalib gəlməyin əsas amillərindən biri kimi meydana çıxır.

Şaxələndirilmiş innovasiyalı aqrar fəaliyyətin kənd ərazilərində məşğulluğa təsirini qiymətləndirmək üçün, zənnimizcə yeniliyin məcmu səmərəliliyi anlayışına aydınlıq gətirilməlidir. Yəni, məşğulluq baxımından aqrar şahədə şaxələndirilmiş istehsal mühitini formalaşdıran amillərin xarakterizə olunması zamanı, bir çox hallarda innovasiyaları iqtisadi və qeyri-iqtisadi xarakterli kimi fərqləndirmək lazım gəlir.

Kənd ərazilərində məşğulluğun səviyyəsinə münasibətdə aqrar sahədə şaxələndirilmiş istehsal mühitini şərtləndirən amillərə ümumilikdə aşağıdakılar aid edilməlidir: risklərin səviyyəsi; innovasiyaların dəstəklənməsi mexanizminin səmərəliliyi; investisiyaların qorunması mexanizminin mükəmməlliyi; klasterial təşəbbüslərin dəstəklənməsi tədbirlərinin sistem əmələ gətirməsi; sürətləndirilmiş amortaziya siyasətinin əhatə dairəsinin optimallaşdırılması; marketinq tədqiqatlarının yaxın perspektivə səmərəliliyi; kənd ərazilərinin strateji inkişaf prioritetlərinin reallaşdırılması imkanları və s. [3].

Kənd təsərrüfatının inkişafı demoqrafik vəziyyətə, əhali məşğulluğunun yüksəldilməsinə təsir edən mühüm amildir. Əlbəttə, haqqında danışılan vəziyyətin əsas xarakteristikalarının müəyyən edilməsi zəruridir. Bu zərurət həm də ölkəmizin strateji siyasi və iqtisadi hədəfləri, perspektiv sosial-iqtisadi inkişaf prioritetləri ilə bağlıdır. Uzunmüddətli sabit və arzuolunan demoqrafik vəziyyətin təmin edilməsinin demoqrafik baxımdan ölkədəki sosial-iqtisadi siyasətin tənzimlənməsi, qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi, o cümlədən əmək resurslarının strukturunun təkmilləşdirilməsi ilə bərabər, qanunvericilik bazasının gücləndirilməsi hesabına bu sahənin potensialı vasitəsilə əmək bazarında situasiyanın yaxşılaşdırılması üçün kompleks tədbirlərin reallaşmasını şərtləndirir.

Ölkəmizdə son 10-15 il ərzində regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, ailə və kəndli-fermer, təsərrüfatlarının və digər sahibkarlıq subyektlərinin inkişafının təmin edilməsi məqsədilə mütərəqqi, həm də pozitivlik baxımından radikal qanunların qəbul edilməsi, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarının verilməsi praktikası təqdirəlayiq və həlledici hal kimi qiymətləndirilməlidir. Nəticədə ardıcıl olaraq sahibkarlığa dəstək siyasətinin yürüdülməsi ölkənin bütün regionlarında əhali məşğulluğu ilə bağlı proseslərin tənzimlənməsi üçün əlavə imkanlar açmışdır. Bu kimi dəstək mexanizmləri və qanunvericilik aktları kiçik sahibkarlığın inkişafına geniş imkanlar açmaqla yanaşı, müxtəlif fəaliyyət sahələrində idxaləvəzedici istehsalın təşkilinə rəvac verir, əhali gəlirlərini artırır, onların maddi rifahının yüksəlməsinə və daha yaxşı yaşamasına, ümumilikdə demoqrafik vəziyyətin stabilləşdirilməsinə imkanlar açır.

Heç də sirr deyildir ki, son vaxtlara qədər regionlarda fəaliyyətə başlayan kiçik sahibkarlıq subyektləri çoxlu obyektiv və subyektiv maneələrlə üzləşirdilər. Bu səbəbdən yenicə fəaliyyətə başlayan kiçik və orta sahibkarlıq subyektlərinin bir hissəsi fəaliyyət sahəsini genişləndirmək imkanından məhrum olur və fəaliyyətlərini dayandırmağa məcbur olurdular. Nəticədə yerli istehsal sahələri effektivliyini itirir, yeni yaradılmış iş yerləri bağlanır, əhalinin iqtisadi fəallığı zəifləyir, bütün bunlar isə əmək resurslarının formalaşması ilə bağlı proseslərə mənfi təsir göstərirdi. Nəticədə yerli gənclərin bir çoxu qazanc dalınca böyük şəhərlərə, o cümlədən xarici ölkələrə üz tuturdular. Başqa sözlə, ölkədaxili və ölkəxarici miqrasiya artır, ölkəmiz məhsuldar işçi qüvvəsinin bir hissəsini itirirdi. Yəni, intellektə malik minlərlə vətəndaşının iqtisadi fəallığının və intellektual bacarığının nümayiş etdirilməsi üçün məqbul şərait təmin olunmurdu. Onu da qeyd edək ki, sadalanan problemlər hazırda heç də tamamilə həll edilməmişdir [1].

Kənd təsərrüfatının inkişafının əhali məşğulluğunun yüksəldilməsinə təsir edən mühüm amillərdən biri də aqrar-sənaye klasterlərinin formalaşdırılması və inkişafının mövcud səviyyəsi, klaster təşəbbüslərinin dəstəklənməsi mühitinin xarakteristikaları ondan irəli gəlir. Klasterləşmə rəqabət qabiliyyətinin artırılması və biznes fəaliyyətinin səmərəliliyinin yaxşılaşdırılması istiqamətində inkişafa, o cümlədən işgüzar fəallığa əhəmiyyətli təkan verə bilir. Tədqiqat göstərir

ki, kənd ərazilərində məşğulluğun səviyyəsinin yüksəldilməsi və məşğulluğun strukturunun yaxşılaşdırılmasında klaster təşəbbüsləri əsasən aşağıdakı ardıcıllıqla reallaşdırılır:

- kənd ərazilərində təsadüfi qazancla dolanan və fraqmentar özünüməşğulluqla məşğul olan subyektlər aşkar edilir;
- kiçik istehsalçılar və aqrobizneslə məşğul olan qurumlar klasterləşməyə cəlb edilir;
- klasterlərin təşviqi və maliyyə stimullaşdırılması həyata keçirilir;
- aqrar dəyər zəncirinin bütün iştirakçıları, yardımçı qurumlar və digər iştirakçılar innovasiyalı fəaliyyət üçün yeni iş yerləri formalaşdırır.

Kənd təsərrüfatının inkişafının əhali məşğulluğunun yüksəldilməsinə təsirinin bir əsas istiqaməti də sahənin çoxfunksiyalılığının reallaşdırılması hesab edilməlidir. Kənd ərazilərində əhalinin məşğulluğunun iqtisadi, sosial, ekoloji, texnoloji aspektlərinin birgə reallaşdırılması prosesi kənd təsərrüfatının çoxfunksiyalılığına kənd həyat tərzinin təkcə tərkib hissəsi deyil, habelə onu formalaşdıran mühit yaradan sistem kimi baxılmasını tələb edir. Çoxfunksiyalılıq amilləri kompleksi aqrar sahəyə alternativ olan məşğulluq prioritetlərində də həlledici rol oynamaq potensialıdır. Bu baxımdan, aşağıdakı mövqe ilə razılaşmağı məqsədəuyğun hesab edirik.

"Kənd təsərrüfatının çoxfunksiyalılığı konsepsiyasının müxtəsər mahiyyəti ondan ibarətdir ki, iqtisadiyyat təkcə istehsalat deyil, həm də istehsalla dolayısı bağlılığı olan və ya heç bir bağlılığı olmayan münasibətlər sisteminin məcmusudur. Təbii ki, biz bu münasibətlər sistemindən danışdıqda sənaye ilə yanaşı, kənd təsərrüfatını da nəzərdə tuturuq. Məsələ burasındadır ki, artıq aqrar elmdə əkinçilik və heyvandarlıq məhsullarının istehsalı və ərzaq təhlükəsizliyinin təmin edilməsi ilə yanaşı, məşğulluq, ətraf mühitin qorunması, bölgələrin sosial inkişafı, bioenerji, mədəni mirasın mühafizəsi kimi funksiyaların olması da tədqiqatçıların diqqətini özünə cəlb edir" [2]. Kənd ərazilərində məşğulluğun mühüm amili kimi kənd təsərrüfatının çoxfunksiyalılığı, həmin ərazilərdə fəaliyyət növlərinin sayını dəfələrlə artırmaq və əhatə dairəsini genişləndirmək iqtidarındadır. Əlbəttə, bu proses öz-özünə və ərzaq təhlükəsizliyi probleminin təmin edilməsindən təcrid olunmuş şəkildə baş vermir. Sonrakı mərhələdə ətraf mühit amili də önə çəkilir.

"Kənd təsərrüfatının çoxfunksiyalılığı aspekti, xüsusilə ərzaq təhlükəsizliyi və inkişafın təmin olunması məsələlərinə aiddir. Daha sonrakı mərhələdə çoxfunksiyalılıq terminini də kənd təsərrüfatı ilə yeyinti məhsullarının təhlükəsizliyi, ərazi balansı, landşaftların saxlanması və ətraf mühitin qorunması kimi fundamental sahələrin əlaqələrinin xarakterizə edilməsi məqsədi daşıdığı xüsusi vurğulanmağa başlanmışdır" [2] .

Bununla belə, hələ də ölkəmizin ərzaq təhlükəsizliyinin tam təmin edilməməsi və bununla bağlı taxılla təminatın ödənilməməsi məşğulluq müstəvisində də diqqət çəkir. Taxılçılıqda məhsuldarlığın artırılması və istehsal sahələrinin ən azı 1,5-2 dəfə artırılması ölkəyə taxıl idxalının tənzimlənməsinə, bunun üçün sərf edilən külli məbləğdə valyuta vəsaitlərinin ölkənin iqtisadi və sosial inkişafının strateji istiqamətlərinin reallaşdırılmasına yönəldilməsinə imkan verər. Taxılçılığın inkişafı və bu strateji ərzaq məhsuluna tələbatın ərzaq təhlükəsizliyi meyarlarına uyğun ödənilməsinə istiqamətində atılan addımlar kənd ərazilərində məşğulluğun səviyyəsinə də əhəmiyyətli təsir göstərə bilər.

Məşğulluğun yaxşılaşması sahəsində əlverişli istehsal sahələrindən biri də pambıqçılıqdır.

Əlbəttə pambıqçılıq üzrə dövlət proqramının icrası hər hektara daha çox adam-gün tələb edir. Son illərdə Azərbaycanda pambıqçılığın inkişafı sayəsində minlərlə iş yerləri yaradılmışdır. Pambıqçılıq sahəsinin inkişafının sistem yaratma effektivliyi, yəni multiplikativ effektivliyinin yüksək olmasının nəzərə alınması bütün aspektlərdən bu sahənin inkişafının prioritetliyinə tam əsas verir. Analoji meyilləri müəyyən mənada üzümçülüyün, meyvəçiliyin (o cümlədən fındıq, badam bağlarının salınması və s.), ipəkçiliyin inkişafı barədə söyləmək mümkündür. Bütün bunlar ölkənin aqrar sahəsinin gələcək inkişaf potensialından xəbər verir. Azərbaycan üçün ənənəvi əkinçilik sahələrindən olan pambıqçılığın son məhsula nəzərən

inkişaf etdirilməsi üçün də ölkəmizdə son illərdə bazası formalaşdırılmış və bu sahənin inkişafı üçün kifayət qədər imkanlar yaradılmışdır.

**Nəticə**

Ölkəmizdə pambıqçılığın hüquqi, təşkilati və iqtisadi əsasları müvafiq qanunla müəyyənləşdirilmiş, bu sahənin inkişafı ilə bağlı münasibətləri tənzimlənməkdədir.

Pambıqçılığın geniş multiplikativ effektliyə malik olması, yəni bu sahədə əyriçilik və toxuculuq və s. müəssisələrin, daha doğrusu toxuculuq fabriklərinin və tikiş müəssisələrinin yaradılması kənd yerlərində və ümumiyyətlə ölkədə məşğulluğun artırılmasında xüsusi töhvə verə bilər.

**İstifadə edilmiş ədəbiyyat :**


1. R.Ə. Balayev. Urbanizasiya: şəhər iqtisadiyyatı və ərzaq problemi. Bakı: “Ели”, -2007, -295 s.
2. R. Hüseyn. Kənd təsərrüfatının çoxfunksiyalılığı : qlobal iqtisadi sistemdə onun yeri və rolu. Bakı: “MBM”, - 2008, - 336s.
3. М. А. Иванов. Формирование трудовых ресурсов в условиях рыночной экономики. Вестник Курской государственной сельскохозяйственной академии, - 2015.

**Leyla Hacıyeva**
Aqrar Tədqiqatlar Mərkəzi
*metbee41@gmail.com*

# YERLİ ŞƏRAB MƏHSULLARININ RƏQABƏTQABİLİYYƏTLİLİYİNİN YÜKSƏLDİLMƏSİ MƏSƏLƏLƏRİ

**Açar sözlər:** üzümçülük və şərabçılıq kompleksi, dövlət tənzimlənməsi, aksiz dərəcəsi, rəqabətlilik, daxili bazar, subsidiyalaşdırma

Giriş

Azərbaycan Respublikasında da üzümçülük və şərabçılıqda məhsul istehsalı və satışının artımına, bu sahədə istehsal dayanıqlılığına nail olunması digər spesifik şərtlərlə yanaşı, eyni zamanda məhsulların rəqabətliliyinin yüksəldilməsi ilə bağlıdır. Hazırda ölkəmizdə istehsal olunan şərabçılıq məhsullarının bir qismi əsas parametrlər üzrə rəqabətdə müvafiq xarici məhsullara uduzurlar. Ölkəmizdə istehsal olunan şərabçılıq məhsullarının daxili bazarda qiymət rəqabətliliyinə onların xarici analoqlarına edilən nisbətən yüksək idxal aksizlərinin tətbiqi sayəsində nail olunur. Hazırda ölkəyə gətirilən təbii üzüm şərabları, üzüm suslosunun 1 litri üçün 2,5 manat, şampan şərabının 1 litri üçün 2,5 manat, viski, rom və likörlərin 1 litri üçün 6,0 manat aksiz tətbiq olunur. Göründüyü kimi, aksizlərin dərəcələri əslində daxili bazarın qorunması funksiyasını reallaşdırmaq səviyyəsindədir və təbii ki, yerli şərab və şərabçılıq məhsullarının qiymət rəqabətinə davam gətirməsinə şərait yaradan amillərdən biri kimi çıxış edir. Əlbəttə, alkoqollu içkilər olaraq, şərab və şərab məhsullarının idxalı zamanı onlara aksizlər tətbiq edilməsi, həm də əsas etibarilə (bu məhsulların istehlakının sosial əhəmiyyəlilik baxımından zərurilik dərəcəsi nəzərə alınmaqla) fiskal funksiya da yerinə yetirdiyini nəzərə alır.

Qeyd edək ki, şərabçılıq məhsullarının rəqabətqabiliyyətliliyinin artırılması Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 15 dekabr tarixli 1890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”ında da əsas vəzifələrdən biri kimi müəyyən edilmişdir . Rəqabət qabiliyyətliliyin təmin olunmasında sahənin iqtisadi tənzimlənmə mexanizmi əhəmiyyətli rol oynayır. Azərbaycanda hazırkı mərhələdə üzümçülüyün bərpası və dinamik genişləndirilməsi prosesləri həyata keçirildiyi üçün bu sahədə iqtisadi tənzimləmə vasitələri həm istehsalın artırılması və həm də məhsulun rəqabət qabiliyyətinin yüksəldilməsi vəzifələrinin reallaşdırılmasına yönəldilir.

**Şərabçılıq iqtisadi tənzimlənmənin əsas hədəfi kimi**

İqtisadi tənzimləmə vasitələri şərabçılıq məhsullarının rəqabətqabiliyyətliliyinin yüksəldilməsinə, məhsula çəkilən xərclərin səviyyəsinə zəruri keyfiyyətin təmin olunması, habelə, geniş çeşidliliyin olması vasitəsilə təsir göstərir.

Hazırkı şəraitdə ölkəmizdə tənzimləmənin əsas hədəflərdən biri şərabçılıq üçün yüksək keyfiyyət göstəricilərinə malik xammal istehsalının təmin olunmasıdır. Bu yönümdə üzümçülüyün inkişafının stimullaşdırılması ilə bağlı yeni üzümlüklərin salınması və üzüm emalı üzrə layihələrin maliyyələşdirilməsinə dövlət tərəfindən güzəştli kreditlər verilir. Bununla yanaşı, üzümçülüklə istifadə olunan geniş çeşiddə texnikaların şərtləri daim yaxşılaşdırılan lizing xidmətləri yolu ilə istifadəsinə geniş şərait yaradılıb. Üzümlüklərin becərilməsi ilə əlaqədar, istehsalçılara üzümlüklərin hər hektarına görə yanacaq və motor yağlarının əldə edilməsi üçün subsidiyalar, habelə üzümlüklərə verilmək üçün aldıqları mineral kübrələrin dəyərinin 70 faizi həcmində kompensasiyalar verilir.

Dövlətin üzümçülük sahəsinə göstərdiyi dəstək tədbirləri, öz növbəsində, üzümçülükdə məhsuldarlığın artırılması və istehsalçıların xərclərinin müəyyən hissəsinin ödənilməsi əsasında rəqabətqabiliyyətli məhsul istehsalına əhəmiyyətli təsir etmiş olur. Həmin istiqamətdə

üzümçülüyün inkişafı yönümündə invetisiyaların təşviq mexanizmlərinin tətbiq çərçivəsində nəzərdə tutulan stimullaşdırma tədbirləri də mühüm rol oynayacaqdır.

Eyni zamanda, nəzərə almaq lazımdır ki, üzümçülükdə rəqabət qabiliyyətli istehsala əlverişli imkanların təmin edilməsi baxımından tənzimləmənin iqtisadi mexanizmlərinin daha da təkmilləşdirilməsinə ehtiyac vardır.

**Material və metodlar**

Nəzərə almaq lazımdır ki, kənd təsərrüfatının intensiv sahəsi kimi, üzümçülükdə istər plantasiyanın bar verilən yaşa gətirilməsi və istərsə də məhsul istehsalı ilə bağlı becərmə xərclərinin səviyyəsi nisbətən yüksəkdir. Belə şəraitdə bu sahəyə digər kənd təsərrüfatı məhsullarının istehsalı ilə eyni həcmdə göstərilən maliyyə köməyi maya dəyərinin aşağı salınmasına əhəmiyyətli təsir göstərə bilmir. Bizim hesablamalarımıza görə son illərdə kənd təsərrüfatı müəssisələrinə yanacaq və mator yağlarına görə hər hektara verilən dövlət köməyinin məhsulun bir sentnerinin maya dəyərinə nisbəti taxıl məhsulları üzrə uyğun göstəricidən 2 dəfə, tərəvəz üzrə müvafiq göstəricidən isə 2,5 dəfə az olmuşdur. Digər tərəfdən, hazırkı şəraitdə Azərbaycanda üzümçülük rentabellik səviyyəsi aşağı olan sahələr sırasına daxildir və istehsalçıların yeni plantasiyaların salınması üçün daxili resurslar hesabına imkanları məhduddur. 2015-ci ildə kənd təsərrüfatı müəssisələrində üzüm satışından rentabellik meyvə və giləmeyvə satışı üzrə rentabellikdən 10,7 faiz, bütünlükdə bitkiçilik məhsulları satışı üzrə rentabellikdən 22,9 faiz az olmuşdur. Həmin ildə fərdi sahibkar təsərrüfatları üzrə üzüm satışından ümumən mənfəət əldə edilməmişdir. Qeyd edilənlərlə əlaqədar, üzümçülük üzrə subsidiyaların daha yüksək səviyyədə müəyyən edilməsi məqsədəuyğundur.

İqtisadi tənzimləmə mexanizminin təkmilləşdirilməsi şərabçılıq məhsullarının rəqabət qabiliyyətinin yüksəldilməsində də əhəmiyyətli rol oynaya bilər. Müasir şəraitdə dünya şərab məhsulları bazarında rəqabətin güclənməsi və belə şəraitdə innovasiya yönümlü texnologiyaların rolunun artması səciyyəvidir. Texnoloji proseslərin təkmilləşdirilməsi hesabına rəqabət üstünlüyünün təmin edilməsi istehsal xərclərinin aşağı salınması strategiyasının zəruri tərkib hissəsi kimi çıxış edir. Mütəxəssislər bu baxımdan şərabçılıqda enerjiqoruyucu sürətli hazırlama texnologiyasının tətbiqini perspektivli dəyərləndirirlər. Eyni zamanda markalı şərabların və digər şərabçılıq məhsullarının hazırlanmasında müvafiq imkanları genişləndirən yeni nəsl ferment pereparatlarının, diskoid kremniya pereparatlarının, müasir dozator nasoslarla effektli dozalama ilə soyuq hazırlamanın benton suspenziyanın tətbiqi də pespektivli hesab edilir [1].

Qeyd edilən istiqamətlər üzrə əsaslı irəliləyişlərə nail olunması ilə əlaqədar, şərabçılıq sahəsində elmi-tədqiqat işlərinin və məsləhət xidmətlərinin genişləndirilməsində dövlətin daha fəal rolunun təmin edilməsinin prioritetliyinin qorunub saxlanılması məqsədəuyğundur. Bu sahədə son dövrlərdə ölkəmizdə kənd təsərrüfatının elmi təminatının yaxşılaşdırılması, habelə bu sferada informasiya və məsləhət xidmətlərinin müasir tələblər nəzərə alınmaqla, daha da gücləndirilməsi ilə bağlı həyata keçirilən təşkilatı, institutsional tədbirlərin əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Üzümçülük və şərabçılığın innovasiyalı inkişafının sürətləndirilməsi məqsədi ilə və müasir dünya təcrübəsini nəzərə almaqla, bu sahədə elmi-tədqiqat işlərinin yerinə yetirilməsinin institusional strukturunun və maliyyələşdirilməsi formalarının diversifikasiyası zəruridir. Buna ölkəmizdə qəbul edilmiş qanunvericilik bazası da əlverişli şərait təmin edir. Üzümçülük və şərabçılıq haqqında Azərbaycan Respublikası Qanununda üzümçülük və şərabçılıq sahəsində elmi tədqiqat, sort-sınaq və təcrübə işlərinin aparılması dövlət büdcəsi və digər mənbələr hesabına maliyyələşdirilməsi nəzərdə tutulmuşdur. Hazırda ölkəmizdə yaradılan iri üzümçülük və şərabçılıq təsərrüfatlarının inkişafı istər elmi-tədqiqatların maliyyələşdirilməsi, istəsə də bilavasitə tədqiqatların təşkili sahəsində onların əhəmiyyətli rol oynamaları perspektivlərini yüksəltmiş olur.

Qabaqcıl dünya təcrübələrini nəzərə almaqla üzümçülük və şərabçılığın dövlət tənzimlənməsinin təkmilləşdirilməsi əsasən 3 istiqamət üzrə aparıla bilər:

- tədqiqatların çoxkanallı maliyyələşdirilməsi sisteminin təkmilləşdirilməsi;

- üzümçülük və şərabçılıq sahəsində dövlət, müstəqil özəl tədqiqat qurumlarının və istehsalçı şirkətlərin tədqiqat bölmələrinin səmərəli əməkdaşlığına şəraitin yaradılması;
- tədqiqatların insan resursunun keyfiyyətinin yüksəldilməsi, tədqiqat və təhsilin inteqrasiyasının həyata keçirilməsinin təmin edilməsi.

Dövlət tənzimlənməsi tədbirləri, ilk növbədə, sahənin investisiya təminatının yaxşılaşdırılması, müasir, resusrsa qənaətedici texnologiyaların tətbiqinin sürətləndirilməsinə yol açmalıdır [2].

Üzümçülük məhsullarının istehsalında innovativ, resursqoruyucu texnologiyanın tətbiqinin stimullaşdırılmasının əsas vasitəsi olaraq təsərrüfat subyektlərinin investisiya təminatını yaxşılaşdırımaq məqsədilə ölkə iqtisadiyyatının qeyri-neft sektorunun mühüm sahələrindən biri kimi şərabçılıq məhsulları istehsalının inkişafına "Azərbaycan İnvestisiya Şirkəti" ASC-nin vəsaitlərinin cəlb edilməsi sahəsində əməli addımların atılması da vacibdir.

Eyni zamanda, üzümçülük və şərabçılığın genişmiqyaslı inkişafı şəraitində emal sektorunun inkişafının maliyyələşdirilməsi üçün gələcəkdə yaradılması məqsəduyğun olan "Üzümçülüyün və şərabçılığın inkişafı" fondundan vəsaitlərin ayrılması məqsədli kredit xətlərinin açılması, habelə emal texnologiyaları və avadanlıqlarının əlverişli şərtlərlə lizingə verilməsi mexanizmlərindən istifadə də aktual əhəmiyyət kəsb edəcəkdir.

Üzüm emalının təşkili ilə bağlı əlverişli şərtlərlə investisiya təminatının yaradılması sahəsində dövlət tərəfindən qeyd edilən tədbirlərin reallaşdırılması öz hövbəsində, kiçik təssərrüfatlarda üzüm istehsalını həyata keçirən subyektlərin şərabçılıq məhsullarının istehsalı və satışı üzrə kooperativlər yaratmalarını da stimullaşdırılmış olacaqdır. Emal və satış sahəsində kooperativlərin yaradılması istehsal olunan şərabçılıq məhsullarına qeyri-istehsal xərclərinin səviyyəsini aşağı salmaqla məhsulun rəqabət qabiliyyətinin yüksəlməsnə imkan yaratmış olur.

Şərabçılığın inkişafının tənzimlənməsində vergi mexanizmi də fəal rol oynaya bilir. Bu yönümdə vergi mexanimi ilk növbədə ölkənin müxtəlif regionlarında üzümçülük və şərabçılığın inkişafı üçün mövcud olan torpaq və iqlim potensialından dolğun istifadə əsasında şərab istehsalının artırılmasına yönəldilməlidir.

Müasir dünya praktikasında bu problem, müxtəlif keyfiyyət xüsusiyyətlərinə malik üzüm yetişdirilməsi üçün yararlı torpaqların xüsusi mülkiyyətdə olması nəzərə alınmaqla, çox kiçik və kiçik ölçülü şərab istehsalçıları üçün vergi güzəştlərinin tətbiqi ilə həll edilir.

Şərabçılğın inkişafı üçün vergi mexanizmindən göstərilən istiqamətdə istifadə edilməsi Azərbaycan Respublikasında əsaslı islahatlardan sonra formalaşmış olan aqrar struktur şəraitində xüsusi maraq doğurur. Məlum olduğu kimi, sistemli transformasiyalar ilə əlaqədar həyata keçirilən aqrar islahatların gedişində ölkəmizin kənd təsərrüfatında əkinə yararlı, o cümlədən sənaye yönümlü üzüm sahələrinin salınması üçün yararlı sahələrin əsas hissəsi pay torpaqları kimi xüsusi mülkiyyətə verilmişdir. Şərabçılıq təsərrüfatlarının təşkili baxımından bu sahələrin hər biri o qədər də böyük deyildir.

Dünya praktikasında şərabçılığın inkişafının tənzimlənməsində vergi mexanizmindən istifadənin digər istiqaməti istehsal olunan məhsulun çeşidinin tənzimlənməsidir. Bu mexanizmdən xüsusilə xarici bazarlarda tələbin daha yüksək olduğu məhsulların istehsalının genişləndirilməsinə iqtisadi marağın gücləndirilməsi məqsədilə dah cox istifadə edilir.

Belə vergi güzəştləri bir qayda olaraq bazar konyukturalarını nəzərə almaqla qısa və orta müddətli dövrlər üçün tətbiq edilir. Həmin istiqamətdə həyata keçirilən tədbirlər səmərəli tətbiq edildiyi hallarda əhəmiyyətli nəticələr verə bilir. Belə ki, Argentinada 2005-ci ildən ixrac üçün keyfiyyətli məhsul hazırlamaq potensialına malik olan istehsalçılar daxili vergilərin ödənilməsindən 5 il müddətinə azad edilmişlər. 2010-cu ildə bu müddət növbəti dövr üçün uzadılmışdır. Nəticədə istehsal və satışın həcmi yüxarı templə artmışdır [3].

Ümumiyyətlə dünya təcrübəsi yüksək dietik və müalicəvi-proflaktik xassələri olan şərab növlərinin istehsalının genişləndirilməsi məqsədləri üçün güzəştli vergi mexanizmindən istifadənin səmərəliliyini subut etmişdir.

Şərab məhsullarının rəqabətqabiliyyətliliyinin təmin edilməsində aksiz vergisi mexanizmi də istifadə edilir. Yuxarıda göstərdiyimiz kimi, Azərbaycan Respublikasında idxal olunan

şərabçılıq məhsullarına nisbətən yüksək aksiz dərəcələrinin tətbiq edilməsi həmin qəbildən yerli məhsulların qiymət rəqabətində üstün mövqelərini təmin edən əsas amillərdən biri kimi çıxış edir. Bununla yanaşı, daxili bazarda satışa çıxarılan yerli məhsullar üçün aksiz dərəcələrinin səmərələşdirilməsinə də ehtiyac yoxdur. Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da şərab aksizli məhsulların sırasına daxil edilmişdir. Azərbaycan Respublikasında istehsal olunan şərablar və şərab materialarının hər litrinə 0,2 manat, sampan şərablarının hər litrinə 2,6 manat məbləğində aksiz vergisi tətbiq olunur. Son dövrlər üçün şərabçılıq məhsullarına tətbiq edilən aksiz dərəcələrinin ümumən yüksəlməsi səciyyəvidir.

**Nəticə**

Beləliklə, dietik və müalicəvi-proflaktik xassələri olan şərab növlərinin istehsalının genişləndirilməsi məqsədi ilə güzəştli vergi mexanizmindən istifadə bu sahədə istehsalın genişlənməsinə əlverişli imkan yaradır.

Yuxarıda qeyd edilmiş tənzimləyici tədbirlər indiki halda qənaətbəxş sayılsa da sahənin gələcək dayanıqlı rəqabətliliyi istehsal xərclərinin azaldılması və keyfiyyətin yüksəldilməsi prioritetliyi üzərində reallaşdırılacaq tədbirlərdən asılı olacaqdır.

**İstifadə edilmiş ədəbiyyat**


1. Магомедов Р. М. О необходимости госрегулирования виноградовинодельческого подкомплекса. Проблемы и перспективы развития сельского хозяйства Росии, http://www.cnshb.ru/jour/jg.aspid=2906
2. Маскаев О. Е. Совершенствование системы государственной поддержки воспроизводственного процесса АПК: На примере виноградарства Северо-Кавказского региона. Автореферат диссертации соискание ученой степени к.э.н., Нальчик, 2005
3. www.aqro.gov.az\ texnik-siast\ texniki/techizat-lizinq-xidmətləri.

## II BÖLMƏ

## HUMANİTAR ASPEKTLƏR

# KEYS-STADİ METODUNUN NƏZƏRİ TƏHLİLİ

**Rəfail Həsənov**
Bakı Dövlət Universitetinin Sosiologiya kafedrasının müdiri,
sosiologiya elmləri doktoru, professor
has_rm62@yahoo.com

**Açar sözlər:** keys-stadi, dərin keys-stadi, külli-keys-stadi, instrumental keys-stadi

Son vaxtlar keyfiyyət sosiologiyasının problemlərinə artan maraq sosioloji gerçəkliyin vacib hissəsini təşkil edir və sosioloji tədqiqatın ənənəvi sərt metodlarından uzaqlaşmanın əsas səbəbləri izahedici mühakimələrin fraqmentarlığı və əvvəlcədən məlum olması ilə izah oluna bilər.

Keys-stadinin tətbiqi iki məqsəd daşıyır: öyrənilən obyektin başa düşülməsinə nail olmaq və daha ümumi sosial proseslər haqqında yeni biliklər əldə etmək.

Keys-stadinin tətbiqi çərçivəsində müxtəlif metodlardan istifadə edilə bilər, lakin analizin ümumi məntiqi, şübhəsiz ki, keyfiyyət paradiqmasına meyllidir.

Kəmiyyət və keyfiyyət tədqiqatlarının qarşılıqlı münasibəti

Kəmiyyət məlumat toplama metodları və onların təhlili "sərt" metodlara aid edilir.

Onların nəzəri və metodoloji əsasını cəmiyyət haqqında bütöv bir sistem kimi düşünmək və onun nəzəriyyəsini yaratmaq, obyektiv reallığı rasional qaydada tənzimləmək və məntiqi şəkildə izah etmək təşkil edir.

Qərb sosiologiyasında 60-cı illərin ortalarında "sərt" kəmiyyət metodlarından istifadə özünün pik səviyyəsinə çatdı. Lakin elə bu vaxt da sosioloqlar makro-sosioloji nəzəriyyələrin sosial hadisələr və proseslərin "insan təbiətini" düzgün izah etmə qabiliyyətindən məyus olduqlarını ifadə etməyə başladılar.

Müasir sosiologiya üçün humanistləşmə dövrü - qlobal problemlərin rasional idrakından lokal birliklərin və insanların gündəlik sosial praktikasının dərk edilməsi, sosial hadisələrin makro analizindən mikroanalizinə istiqamətlənmə başladı.

Başqa sözlə, kəmiyyət sosiologiyası əsasən strukturlar, sosial qurumlar və təşkilatlar arasındakı sosial qarşılıqlı fəaliyyət problemlərini öyrənməyə istiqamətlənmişdirsə, keyfiyyət sosiologiyasını bu münasibətlərin real praktikasının subyektiv tərəfi maraqlandırır. Məsələn, müəyyən bir cəmiyyətdə sahibkar və ya satıcı olmaq nə deməkdir və sahibkarla satıcı arasındakı münasibət praktikası nədən ibarətdir. Birinci sıra problemləri başa düşmək üçün ümumiləşdirilmiş məlumatların təsviri və izahatına əsaslanan sosial biliklər lazımdırsa, ikinci sıra problemləri - konkret insanların təcrübəsini, bacarıqlarını, hisslərini dərk etmək üçün başa düşməyə və şərhə əsaslanan biliklər zəruridir.

Keyfiyyət yanaşması elmi axtarışın bütün mərhələlərində - tədqiqatçının nəzəri yönümündən, maraqlarının fokusundan, araşdırılması aparılan obyektə münasibətindən tutmuş məlumatların toplanılması proseduru və onların şərhinə kimi - fərqli məntiqə arxalandığına görə yuxarıda qeyd olunan strategiya və prosedurlardan əhəmiyyətli dərəcədə fərqlənir. Məsələn, sistem təhlili baxımından müasir Azərbaycan cəmiyyətinin müxtəlif sosial qruplarının – II Qarabağ savaşı qazilərinin; iki uşaq böyüdən tək anaların; vaxtından əvvəl istefa vermək məcburiyyətində qalan hərbçilərin - ümumi həyat şəraitini öyrənmək və izah etmək mümkündür. Onların hamısını bütövlükdə demək olar ki, eyni yaşda müəyyən bir şəhərdə yaşayan və ya "islahatlar yaşayan cəmiyyətin çətinlikləri ilə təkbətək qalmış” insanlar qrupu kimi götürmək olar. Ancaq keyfiyyət (və ya humanist) sosiologiyasının nöqteyi-nəzərindən yanaşsaq, bu xüsusi

insan vəziyyətlərinin hər biri özünəməxsusluğu, spesifik sosial təcrübəsi, xüsusi həyəcanları və əziyyətləri ilə seçilir ki, birlikdə onlar həmin insanların özünəməxsus "həyat dünyasını" təşkil edir. Bu "xüsusi" dünya bir araşdırma obyekti ola bilər. Onların keçmiş təcrübələri, gündəlik qayğıları yalnız bu qrupların nümayəndələrinin fərdi taleyini, qavrayış və davranış xüsusiyyətlərini ümumi sosial məzmun çərçivəsində - bu sosial-tarixi vəziyyətin öyrənilməsi yolu ilə başa düşülə bilər. Digər tərəfdən, bu insanların təcrübəsi ümumi ictimai təcrübənin xüsusi bir "parçası"dır. Özəl təcrübələrin mozaika tək birləşməsi bütövlükdə cəmiyyətin sosial mənzərəsini təqdim etməyə imkan verir.

Keyfiyyət paradiqmasını bəzən humanist, interpretativ və ya anlayan sosiologiya da adlandırırlar. Fərdlərin sosial fəaliyyətin daşıyıcısı hesab olunduğu strukturalizmdə sosial strukturların fərd üzərində üstünlüyü qəbul olunur və cəmiyyətdə sosial qaydanın bunun sayəsində təmin olunduğu qənaətinə gəlinir (G.Zimmel, C.Mid, M.Veber). Bunlar ictimai aləmin nə məhsulu, nə də ki, "qurbanı" deyillər, əksinə düşünən, hiss edən və yaradıcılıqla ətrafdakı dünyanı yaratmaqda iştirak edən, həm öz davranışlarına, həm də başqalarının davranışlarına məna və əhəmiyyət verən aktorlardır. Bu yanaşmaya görə böyük sosial sistemlər ortaq "mənalar və əhəmiyyət"in qurulduğu və müəyyən dərəcədə sosial qarşılıqlı əlaqənin bütün iştirakçıları tərəfindən bölüşüldüyü mürəkkəb qarşılıqlı fəaliyyət prosesindən yaranmışdır. Məsələn, hər kəs toy şənliyində "vağzalı" rəqsinin səslənməsinin nə demək olduğunu başa düşür. O, rəmzi olaraq bütün hərəkətləri strukturlaşdırır və mərasimin bütün iştirakçıları üçün eyni simvolik məna daşıyır. Buna görə keyfiyyət sosiologiyasını həmçinin subyektiv sosiologiya da adlandırırlar. Maks Veberin ənənələrinə uyğun olaraq, keyfiyyət tədqiqatı aparan sosioloq subyektin öz fəaliyyətinə hansı mənanı verdiyini öyrənir. Bu subyektiv mənalar tədqiqatçı tərəfindən şərh olunur və insan davranışının tipik modellərinin qurulması üçün müəyyən məntiqi ardıcıllıqla təşkil edilir.

Simvolik interaksionizm (C. Mid, Y. Habermas, H. Blümer) keyfiyyət sosiologiyasına sosial ünsiyyətlərin mənalarını şərh etmək üçün əsas kimi dil ideyasını gətirdi. Bu yanaşmaya görə cəmiyyətdə qarşılıqlı əlaqə dil, jest, simvol mübadiləsi yolu ilə təmin edilir. İnsan hərəkətini yalnız xarici təzahürlərini müəyyənləşdirmək əsasında başa düşmək olmur, bunun üçün qarşılıqlı əlaqədə iştirakçılar tərəfindən başa düşülən bir dildə ifadə olunan daxili simvolik mənanı bilmək lazımdır.

Fenomenoloji ənənədə bu fikirlər insanın davranışının motivlərini yalnız onun bioqrafik vəziyyətinin ideyası əsasında (A.Şyütsun "həyat dünyası") anlaya biləcəyi fikri qədər inkişaf etdirilmişdir. İnsanlar subyektiv olaraq hər bir sosial vəziyyətə (P. Berger və T. Lukman) öz motivlərini və davranışlarını təqdim edərək sosial gerçəkliyi qururlar və bu cür hallar təkrarlandıqda, eyni motivləri və davranışları tətbiq edərək onları səciyyələndirirlər. Beləliklə, subyektin daxili dünyası başqalarının mülkiyyətinə çevrilir, səciyyələndirilir və nəticədə "institusional" vəziyyətə gətirilir.

Etnometodologiya, insanların gündəlik işlərini empirik müşahidə edərək davranış mənalarının öyrənilməsinə əsaslanır. Buradakı adi insanlar, peşəkar sosioloqlarla müqayisədə gündəlik təcrübələrində daha səriştəli mütəxəssislər hesab olunurlar. Bu fərdi sosial qrupların gündəlik təcrübəsi haqqında məlumat mənbəyi kimi istifadə olunur. Təhlilin bu aspektini həm də folklor sosiologiyası adlandırırlar (H.Qarfinkel).

Beləliklə, metodologiya baxımından keyfiyyət və ya humanist sosiologiya təbiətcə mikrososiologiyaya aid edilir; tədqiqatçı subyektə ictimai fəaliyyətin agenti olaraq diqqəti cəlb edir və ilk növbədə sözlər, kəlamlar, hekayələr ilə ifadə olunan şəxsi gündəlik təcrübəyə və başqaları ilə qarşılıqlı münasibətlərə istinad edir.

### "Keys-stadi" anlayışının mahiyyəti və məzmunu

Bu termini biz Azərbaycan dilində "tək, ayrı, konkret, fərdi hadisənin araşdırılması", "vəziyyətlərin tədqiqi", "situasiyanın tədqiqi" kimi işlədə edə bilərik. Lakin bu terminin Azərbaycan dilində bu cür səslənməsi doğru olmasa da hazırda onun qəbul edilmiş bir analoqu yoxdur və buna görə də sosioloji ədəbiyyatda "keys-stadi" terminindən istifadə olunması zənnimizcə daha məqsədəuyğundur.

Qeyd edək ki, müasir qərb sosioloji ədəbiyyatında “keys-stadi” metodunu ifadə etmək üçün müxtəlif terminlərdən istifadə olunur: “hadisə metodu” (case method), “hadisənin tədqiqi” (case study), “monoqrafik araşdırma” (monographic study), “monoqrafik yanaşma” (monographic approach), “iştiraklı müşahidə”, “etnoqrafiya”, “çöl işləri” və s. Bu terminlərin müxtəlifliyinə baxmayaraq əslində onlardan istifadə zamanı eyni metodlar nəzərdə tutulur.

Bu metodun mahiyyəti obyektin bütün əlaqələri ilə birlikdə öyrənilməsidir. Tədqiqat obyekti isə digər metodlarla öyrənilməsi çətinlik törədən qapalı bir icma (məsələn, sosial elitalar, cəmiyyətin “dib”i, dini sektalar), istehsalat və ya tədris kollektivləri ola bilər.

Kəmiyyət tədqiqatları 10, bəzi hallarda isə 20-25 günlük vaxt çərçivəsinə malik olduqları halda, keyfiyyət tədqiqatlarında bu uzun müddətə hesablanmışdır və bir neçə aydan bir neçə ilədək uzana bilər. Keys-stadi metodunda tədqiqatçılar uzun müddətə insanların gündəlik həyatının iştirakçısına çevrilirlər.

Keys-stadi metodikasında müşahidə, iştiraklı müşahidə, arxiv materialları, kino-fotosənədlər kimi metodlardan istifadə oluna bilər.

Tədqiqatçının diqqət mərkəzində əsas hadisələrin xronoloji ardıcıllığında qeydə alınan vahid bir hadisə ola bilər.

Keys-stadi metodunun spesifikliyi nadir obyektin dərin tədqiqindədir və tədqiqatın nəticələri fəaliyyət üçün təkliflərin hazırlanmasına yönəlmişdir.

Bu metodun mahiyyəti həm də bir və ya bir neçə hadisəni ətraflı öyrəndikdən sonra cəmiyyətdə baş verən dərin proseslərin məzmununu verməkdən ibarətdir.

Bir qayda olaraq, digər hadisələrlə müqayisə, verilmiş unikal obyektin strukturunun öyrənilməsində ikincidir. Müqayisə olunan obyektlərin sayı üç və ya dörd hadisəni keçməməlidir. Müqayisəli təhlil üçün 3 və ya 4-dən artıq hadisə olduqda tədqiqatçı hadisənin dərinliyini itirə bilər və bunanla da onlardan hər birinin qeyri-adekvat təsvirinə gətirib çıxara bilər.

Təhlil üçün məlumat mənbələri əsasən vəziyyətin intensiv öyrənilməsinin müxtəlif üsulları ilə əldə edilən nəticələrdir ki, bura müşahidə, iştiraklı müşahidə, fotoşəkillər, fokuslaşmış və ya ekspert müsahibələri, arxiv materialları və videomateriallar aid edilir.

Tədqiqatçı "hadisəni" adətən əsas hadisələrin xronoloji ardıcıllığı ilə təsvir edir, daha vaciblərini daha detallı təsvirinə yönəldir.

Bir neçə "hadisədən" istifadə edərkən onların hər birinin sərhəddi dəqiq müəyyənləşdirirlir və ardıcıl olaraq təsvir olunur, daha sonra onların çarpaz təhlil aparılır.

Beləliklə, keys-stadinin spesifikliyi obyektin unikallığının dərindən öyrənilməsindədir. Burada müşahidənin nəticələri çox vaxt lokal, tətbiqi xarakter daşıyır və fəaliyyət üçün təkliflərin hazırlanmasına yönəlmişdir.

Fikrimizcə, bütün müxtəlif nəzəri təriflər və praktiki tədqiqatlar üçün hazırda bu metodu başa düşmək üçün ən azı iki fərqli yanaşma ayırd edilə bilər:

1. birinci yanaşma keys-stadini müstəqil tədqiqat növü və ya strategiyası,
2. ikinci isə yalnız sosioloji tədqiqatın ayrı-ayrı mərhələlərində istifadə olunan metodların məcmusu kimi müəyyənləşdirir.

Bu anlayışlar arasındakı fərq prinsipial xarakter daşıyır. Müstəqil tədqiqat strategiyası olaraq keys-stadi digər tədqiqat metodları ilə əldə edilə bilməyən müəyyən bir sosioloji məlumatı əldə etməyə imkan verirsə, ikinci halda o, bir empirik məlumat toplamaq üçün keyfiyyət üsulları ilə müəyyənləşir.

Keys-stadi konsepsiyasının formalaşması üçün, bizcə, iki fikir fundamental əhəmiyyətə malikdir:

1. Frederik Le Plenin adı ilə əlaqəli **“**monoqrafizm” və
2. Çikaqo məktəbinin əsərlərində öz əksini tapmış fərdi hadisələrin dərindən (in depth) öyrənilməsi.

F. Le Plenin monoqrafik metodu birbaşa müşahidə vasitəsilə özləri və ətrafları haqqında dolğun məlumat toplamaqla yanaşı kiçik sosial qrupların öyrənilməsinə kompleks yanaşmanı təmsil edir. Fransız fəhlələrinin ailələrinin tədqiqatına (1855-1885**)** F. Le Ple tərəfindən tətbiq olunan

tədqiqlər onun tələbələri E. Demolin və A. de Turvil tərəfindən davam etdirildi: onlar məlumatların toplanacağı parametrləri ətraflı şəkildə izah etdilər və bu da tətbiqetmə sahələrini əhəmiyyətli dərəcədə genişləndirməyə imkan verdi.
Öz şöhrətinin zenit nöqtəsində, 1920-1930-cu illərdə, keys-stadi keyfiyyət və kəmiyyət metodlarının antitezisinin bir hissəsi idi.
Metoda olan maraq müəyyən dərəcədə 40-cı illərdə də davam etmişdir və çox vaxt bu R.Bercess və onun həmkarlarının adı ilə bağlanır.

Müharibədən sonrakı dövrdə həm metodologiyada, həm də sosioloji tədqiqat praktikasında pozitivizm üstünlük təşkil etmişdir. Buna baxmayaraq, zəngin keyfiyyətli məlumat toplamaq üzərində davamlı, əziyyətli işlər davam etdirildi ki, bunlar "çöl işi", "iştiraklı müşahidə" və ya "etnoqrafiya" kimi təyin olundu. Bu araşdırmaların çoxu artıq klassikaya çevrilmişdir.
1960-cı illərin sonundan keyfiyyət tədqiqatlarına dair məqalələrin yazılışında bir canlanma baş verdi.
Sosiologiyada keyfiyyət yanaşma mövzusuna elmi marağın canlanması, əksəriyyəti "postmodernizm" sözü ilə izah edilə bilən ictimai düşüncənin inkişafında yeni bir mərhələ ilə əlaqədardır.

Postmodernist cərəyanlar, tədqiqatçını öyrənmə obyektindən uzaqlaşdıraraq, həqiqəti bilmə ehtimalını inkar edərək ənənəvi obyektivlik və elmilik meyarlarına yenidən baxmağa vadar etdi. Metodun nəzəri cəhətləri bu görüşlərə uyğun olduğundan, tədqiqat praktikasında keys-stadi araşdırmasına maraq yenidən dirçəldi.
Qeyd edək ki, keys-stadini növlərinə və tiplərinə görə də səciyyələndirmək mümkündür. Belə ki, R.Steyk keys-stadini **instrumental**, **dərin** və **küllü** növlərinə bölür.

1. İnstrumental tədqiqatda nəzəriyyə və hadisə qarşılıqlı əlaqədədir: ilkin nəzəriyyə bir ictimai fenomenin vəziyyətini izah edir, hadisə isə nəzəriyyəni tamamlayır.
2. Dərin keys-stadidə, əksinə, konseptuallaşdırma tədqiqat prosesində baş verir.
3. Küllü keys-stadi tədqiqata bir deyil, bir çox hadisənin daxil edilməsini nəzərdə tutur və sosial fenomenin müxtəlif şəraitdə funksiyasını göstərmək, eləcə də tədqiq edilən fenomenin müxtəlif təzahür formalarında öyrənilməsini tədqiq etməkdən ötrü müqayisə üçün istifadə edilə bilər.

Fransız tədqiqatçısı A.David "hadisənin" dörd tipini ayıraraq fərqli, lakin oxşar tipologiyanı təklif edir:

1) "İllüstrativ hadisə" M.Qlyukmanın təsnifatındakı eyniadlı tiplə və R.Steykin təsnifatındakı instrumental tiplə əlaqələndirilir.

2) "Tipik hadisə" müəyyən parametrlərə görə bütövlükdə bir sosial hadisəni təmsil edir. Bu tədqiqatda əsas məqsəd tez-tez rast gəlinən səciyyələrin ümümiləşdirilməsidir.

3) "Eksperimental" hadisə nəzəriyyənin yoxlanılması üçün istifadə olunur ki, burada da seçimin əsas şərti müəyyən nəzəriyyənin bu və ya digər müddəalarının yoxlanılmasıdır.

4) Nəhayət, "fərdi" hadisə az rast gəlinən, az öyrənilmiş fenomendir ki, bu vaxt tədqiqatçını konkret obyektin spesifikliyi, unikallığı maraqlandırmır. Bu tədqiqat tipində yeni konseptlər, nəzəri müddəalar tədqiqatın əsas nəticəsi kimi çıxış edir.
R.Yinin elmi işlərində keys-stadinin digər tədqiqat tiplərindən fərqləri göstərilmişdir. Belə ki, o, sosial tədqiqatın beş əsas tipini fərqləndirir: eksperiment, sorğu, tarixi tədqiqat, sənədlərin təhlili və keys-stadi.

Beləliklə, keys-stadinin əsas metodoloji prinsipləri aşağıdakılardır: tədqiqat yanaşmasının çevikliyi, hadisənin bütöv sosial vahid kimi fərqləndirilməsi, öyrənilən reallığın dərin və hərtərəfli nəzərdən keçirilməsi, tədqiqatın etibarlılığını təmin etmək üçün onun kollektiv xarakteri.

Müasir şəraitdə keys-stadi özündə çöl tədqiqatının müxtəlif formalarını birləşdirən, əgər belə demək mümkündürsə, bir "çətir markasını" xatırladır ki, onun da əsas xüsusiyyəti dəyişənləri hadisənin özü kimi deyil, seçmə halları kimi təqdim etməsidir.

# PANDEMİ SÜRECİNİN SOSYO-EKONOMİK ETKİLERİ

**Kerem Karabulut**
Prof. Dr., Atatürk Üniversitesi
İktisadi ve İdari Bilimler Fakültesi,
İktisat Bölümü Erzurum/TÜRKİYE
kerem@atuni.tr

**Anahtar Kelimeler:** Pandemi, COVİD -19 ve ekonomi, pandeminin etkileri, pandemi ve gelecek, sosyal etkiler, siyasal etkiler.

2019 yılının Aralık ayının sonunda Çin'in Wuhan şehrinde ortaya çıkan ve tüm ülkelere yayılan Korona virüsünün dünya ekonomik, siyasal ve sosyal yapısı üzerinde ciddi etkileri olmuş ve bu süreç devam etmektedir.

Bilindiği gibi, insanoğlu gezici ve toplayıcılık hayatından milattan önce yaklaşık 10 bininci yıllarda yerleşik hayata geçmiş ve böylece birbirleri ile iletişimleri mümkün olmuş, insanlar ve şehirler arası etkileşimler başlamıştır. İnsanların birbirleri ile temasa başlamaları ve etkileşim içerisine ilk girişleri küreselleşmenin ilk adımları olarak değerlendirilebilir. Yerleşik hayat ürün geliştirmeyi sağlamış, zamanla değiş-tokuş (takas) ortaya çıkmış ve değişik bölge ve kıtalarla etkileşimler şeklinde günümüzdeki seviyesine gelmiştir.

Tarihi süreç içerisinde İnsanoğlunun yaşantısını ve gelişimini etkileyen iki temel değişim vardır. Biri tarım devrimi, diğeri de sanayi devrimidir. Tarım devrimiyle insanoğlunun kaderini değiştiren etkiler ortaya çıkmıştır. İnsanlar ihtiyaç fazlası üretim yapabilmiş ve sanayi devrimine kadar gelen ilerlemenin finansmanı oluşmuştur. 1760'larda ortaya çıkan sanayi devrimi ile gelişim hızı tarım devriminden çok hızlı olmuş ve seri üretime geçiş süreci başlamıştır. Bu süreç bir taraftan küreselleşmeyi tetiklemiş, diğer taraftan da sanayide yeni aşamaların ve teknolojilerin geliştirilmesini sağlamış ve günümüze kadar ilerleyerek gelmiştir. 2010'dan sonrası ise 4. Sanayi devrimi dönemi olarak adlandırılan aşama başlamıştır. Bu aşamada, dijital bir süreç içerisinde çok hızlı bir şekilde dünya adeta "küresel bir köy" haline gelmiştir. İşte bu hız ve baş döndürücü gelişmeler her konuda olduğu gibi salgın hastalıklar konusunda da küresel etkileşim ve yayılma dönemini başlatmıştır. Artık insanoğlu "küresel salgınlar" veya "küresel virüsler" dönemi ile karşı karşıya gelmiştir.

2019 yılının Aralık ayının son gününde Çin'de başlayıp tüm dünyaya yayılan COVID-19 pandemisi sürecinde yaşanan gelişmeler, ülkeler ve bölgeler üzerinde ekonomik, siyasal ve sosyal açıdan değişik etkilere sahip olmaktadır. Etkiler hem insanlar hem de devletler düzeyinde ortaya çıkmaktadır. Bu çalışma ile hem insanların hem de devletlerin pandemi sürecinden nasıl etkilenebilecekleri ve geleceğe yönelik olarak nasıl gelişmelerin yaşanabileceği konusunda sosyal, ekonomik ve politik değerlendirmeler yapılmaktadır.

## Önemli pandemiler hakkında kısa bilgiler

Yirminci yüzyılda dünya önemli pandemilerle (salgınlarla) karşı karşıya kalmıştır. Bunların en önemlilerinden birisi, "İspanyol Gribi" veya "1918 Büyük Grip Salgını" olarak bilinen ve 1918 yılında başlayıp 1 yıl içerisinde yaklaşık 50 milyon insanın ölümüne sebep olan salgındır. Aslında hastalığın gerçek adı "İspanyol Gribi" değildir. I. Dünya savaşına katılan İngiltere, Fransa ve Almanya savaşın sonlarında ortaya çıkan bu salgını savaşın gidişatını etkilememesi için halka duyurmamışlardır. İspanya ise savaşa girmemiş ve virüsün basın tarafından duyurulması konusunda herhangi bir kısıtlama getirmediği için ilk olarak bu ülkede halka duyurulmasından dolayı "İspanyol Gribi" olarak bilinmiştir. Hastalığın Birinci Dünya Savaşına denk gelmesi sebebiyle düzenli kayıtların tutulamadığı bu nedenle de net ölüm sayının bilinmesinin zor olduğu ifade

edilmektedir. Buna rağmen yaklaşık olarak dünya nüfusunun %5'nin kaybedildiği ve ABD'deki can kaybının ise 500 binden fazla olduğu belirtilmektedir. İlk antibiyotiğin 1928, ilk grip aşısının ise 1940'larda bulunmuş olması dikkate alındığında, 1918 salgını dönemindeki tedavi imkânlarının ne kadar kısıtlı olduğu daha kolay anlaşılmaktadır (Demircioğlu ve diğerleri; 2020: 18-19).

Diğer bir önemli salgın ise "1947 Kolera Salgını"dır. 23 Eylül 1947'de Mısır'ın Doğu Nil Deltasında başlayan ve 11 Aralık 1947'de sona eren bu salgında toplam 20.344 vakanın görüldüğü ve 10.627 can kaybı yaşandığı belirtilmektedir. Yirminci Yüzyılın önemli salgınlarından birisi de "1957-1958 Asya Gribi"dir. Bu grip ilk olarak Şubat 1957'de Doğu Asya'da ortaya çıkarak buradan dünyaya yayılmıştır. Kısa sürede Çin'de yayılan ve daha sonra ABD gibi ülkelere geçen bu salgının da toplamda 1 ila 2 milyon insanın ölümüne sebep olduğu ifade edilmektedir. Ülkelerin bu salgını kontrol altına almak ve yayılmasını önlemek için 1918'e göre daha iyi tedbirler almasına bağlı olarak İspanyol Gribi'ne göre daha az insan hayatına mal olmuştur. 1981 yılından beri var olan ve 40 yılda yaklaşık 40 milyon insanın yaşamını yitirmesine sebep olan bir diğer önemli hastalık ise HIV/AIDS'tir. (Demircioğlu ve diğerleri; 2020: 33-40).

Çin'in Hubei eyaletine bağlı olan Wuhan şehrinde 31 Aralık 2019'da ortaya çıkan SARS-CoV-2 virüsünün sebep oldugu COVID-19 salgını, hızlı bir şekilde 6 kıtada yüzlerce ülkeye yayılmış ve bu virüsün sebep olduğu ilk Pandemi olarak tarihe geçmiştir (Birinci ve Bulut;2020: 62). 02.02.2021 tarihi itibarıyla Dünya Sağlık Örgütü'nün yayınladığı haftalık raporda, 222 ülke ve bölgeden bildirilen toplam vaka sayısı 102 milyonun üzerine çıkmış ve toplam ölüm sayısı ise 2,2 milyonu geçmiştir (T.C. Sağlık Bakanlığı ..). Çin'de insanların gıda ihtiyaçlarını karşılamak için bünyeye yeterince adapte olmayan değişik hayvansal gıdaların tüketilmesi sonucu insana bulaşan korona virüs pandemisi bugüne kadar görülenlerin en şiddetlilerinden biri olmuştur. Pandemiden en çok etkilenenler ise gelişmiş ülkeler, nüfus yoğunluğu fazla olan ve sağlık hizmeti imkanı az olan yerler olmuştur (Ortaş; 2020: 295).

**Devletin toplumsal ve ekonomik rolü konusundaki iktisadi görüşler**

Yapılan antropolojik araştırma sonuçlarına göre, tarihte ilk devletin Mezopotamya bölgesinde kurulduğu anlaşılmaktadır. Mezopotamya denilen bölge, Fırat ve Dicle nehirlerinin arasında bulunmakta ve verimli topraklara ve geniş su kaynaklarına sahiptir. Bu bölgede kurulan ilk devletin yaklaşık 5.300 yıl önce ortaya çıktığı ve yaklaşık 14 devlete ev sahipliği yaptığı vurgulanmaktadır. Mezopotamya'da kurulan devletlerin nüfusunun 40.000'lere kadar çıktığı anlaşılmaktadır. Mezopotamya bölgesi dışında ilk devletlerin ortaya çıktığı bölgeler arasında Mısır, Anadolu, Girit, Yunanistan, Roma, Çin gibi bölgeler de yer almaktadır. Devleti doğuran etmenlerle ifade edilmek istenilen, devletin ortaya çıkış sürecinin hemen öncesinde toplumların devletleşmesini tetikleyen unsurlardır. Tarihte bilinen ilk devletlerin ortaya çıkmasında bir taraftan kuvvet ve mücadele sebepleri etkili olurken, diğer taraftan ekonomik ve sosyal sebeplerin tetikleyici rol oynadığı ifade edilmektedir (Düvenci; 2018: 77). Korona virüsün ortaya çıkardığı önemli sonuçlardan birisi de devletin özellikle kriz sürecinin yönetiminde büyük bir öneme sahip olduğudur.

*Temel İktisadi düşünceler itibarıyla devlete bakış kısaca şu şekilde özetlenebilir:*

Hazırda pandemiya şəraitində dünyada baş verənlər bir daha təsdiq etdi ki, Planetimizi mədəniyyətlər, sivilizasiyalar və dinlər arasındaki əlaqə və münasibətlərdə yalnız mənfəət əldə etmək üçün "ölüm-qalım" meydanı kimi təsvir etmək çox qorxulu tendensiyadır və bu formalı epoxal axın - yalnız mənfəət və maddi nemətləri tərənnüm edən axın – insan nəslini ünsiyyətdə görünməmiş problem ilə üz-üzə qoya bilər. Həm də bu depersonifikasiyanın sürətlənməsinə və ünsiyyətin pozulmasının son həddinə gətirib çıxara bilər. Başqa sözlə desək, bizim sivilizasiyamınızın hər bir ifrat "hərəlkətliiyi" mənfəət, qazanc, daha çox əmlak uğrunda yarışı bir növ həm daxili mübarizə və inkişafı stimullaşdırsa da, digər tərəfdən də bu total hərəkətlilik yer üzünü tanınmaz hala salmışdır, biz isə bunu dialektika adlandırıq? Ona görə də bəzi məqamlarda total olaraq dialoq və əməkdaşlığı mənfəət, kapital, və sivilizasiyon üstünlük kimi dərk edən insan pandemiya şəraitində bir daha aydın şəkildə sübüt etdi ki, dialoq və əməkdaşlıq onun üçün yalnız maraq və "özünü xilas" vasitəsi kimi qəbul edilməkdədir. Bu yolverilməzdir, istər ontoloji, istər idrakı və ekzistensial refleksiya sübut edir ki, bəşəriyyət, dünya öz mövcudluğunu yalnız yüksək dialoq və əməkdaşlıqda davam etdirə bilər. Məhz "Bakı Prosesi" platformasının, o cümlədən Azərbaycan modelinin strategi hədəfləri də bunu sübut edir: dünya böyük dialoqa gəlməlidir!

**Nəticə**

Tezisləri aşağıdakı kimi ümumiləşdirmək olar:

-Pandemiya şəraitində dialoq və əməkdaşlıq sistemində mövcud problemlər silsiləsində olan ziddiyyətləri aradan qaldırmaq üçün dünya hər şeydən əvvəl fəlsəfi təfəkkürə apelyasiya etməlidir;

-Dialoq və əməkdaşlıq insanın, fərdin, dövlət və mədəniyyətlərin ontoloji tələbatıdır. Bu tələbatı həyata keçirmək üçün "dil" və "dialoji şüur" yer üzündə yeni dialoq mədəniyyəti paradiqamasını özündə ehtiva edən ən optimal instrumentlərdir;

-Dialoq prosesində tolerantlıq və multikulturalizm dialoq mədəniyyətinin həyata keçirilməsində ən vacib şərtlərdən biri kimi çixiş edir;

-Dialoq və əməkdaşlıq prosesi yeni komminikasiya şəraitininn yaradılmaslına xidmət edir;

-Mədəniyyət, tarixi yaddaş, bilik və komminikasiya pandemiya şəraitində dialoq və əməkdaşlığın yeni müstəvidə aparılmasını zərurətə çevirir;

-Pandemiya şəraitində Azərbaycan Respublikasının Şərq və Qərb arasında humanitar və mədəniyyətlərin dialoqu aspektində apardığı işlər, gördüyü tədbirlər bəşəri tələbatın məntiqi zərurətindən doğur;

-Coğrafi cəhətdən Azərbaycan Şərq və Qərbin qovuşmasında yerləşir, mədəniyyət və sivilizasiya baxımından isə Azərbaycan Şərq və Qərbin sintezidir!

-Bu tezisi 44 günlük nüharibə tariximizdə Qərb ölkələrinin Azərbaycan Respublikasının haqq işini dəstəkləməsi də sübüt etməkdədir.

**Ədəbiyyat**


1. İlham Əliyev, Azərbaycan tolerantlıq örnəyidir (çıxışlar, nitqlər, görüşlər, təbriklər]. Bakı, 2015. 616 s.
2. Философия Мартина Хайдеггера и современность. – М.: Издательство Наука, 1991. – 253 с.
3. İ. Məmmədzadə. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər Perspektivlər. tamamlanmış və yenidən işlənmiş ikinci nəşr. Bakı, "Elm və təhsil", 2019, 200 səh.
4. Fridrix Nitsşe. Hakimiyyət əzmi. Yolçu və kölgəsi. Bakı. "ZƏKİOĞLU" nəşriyyatı, 2008, 588 s.
5. Zeynalov, Ş. Ə. "Dialoq mədəniyyəti və müasirlik". Bakı "Avropa" nəşriyyatı, 2020 s. 330 səh.
6. Yaspers K. "Tarixin mənası və təyinatı". Bakı: "Zəkioğlu" nəşriyyatı, 2008, 764 s.

# BİRGƏYAŞAYIŞ ETNİK-DİNİ SEPERATİZMƏ QARŞI: AZƏRBAYCAN VƏ ERMƏNİSTAN REALLIQLARI

**Ağasəlim Həsənov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
aparıcı elmi işçisi
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
aghasihasanli@gmail.com

**Açar sözlər:** birgəyaşayış, multikultralizm, seperatizm, reallıq, tolerantlıq

Azərbaycanın birgəyaşayış təcrübəsi göstərir ki, müxtəlif etnik-dini qruplar dinc şəraitdə birgə yaşaya bilərlər və etnik konfliktlərin həlli heç də monoetnik cəmiyyətin yaradılmasında deyil. Multikulturalizm siyasətini dəstkləyən Azərbaycanda etnik müxtəlifliyin təmin edilməsi, qarşılıqlı hörmət və tolerantlıq mühitnin qorunması, etnik-dini qrupların dinc birgəyaşayışı və təhlükəsizliyi kimi zəruri məsələlər daima diqqətdə saxlanılır. Həmçinin, tolerantlıq və mədəni müxtəlifliyə hörmət ekstremizmə, müxtəlif növ sosial gərginliyə, zorakılığa və vətəndaş müharibəsinə qarşı ən yaxşı vasitə kimi qəbul edilir.Təəssüf ki, Ermənistan kimi ölkələr belə bir təcrübəyə malik deyil və orada monoetnik cəmiyyətin yaradılması baş verə biləcək etnik konfliktlərin həll yolu kimi dəyərləndirilir.

**Ermənilərin Qafqaza göçürülməsi və bölgədə etnik-dini seperatizmin baş qaldırması**

Çar Rusiyasının XIX əsrdən etibarən Azərbaycana qarşı apardığı məkirli siyasəti ermənilərin əzəli Azərbaycan torpaqları olan İrəvana, Zəngəzura, Qarabağa köçürülməsi və yerli müsəlman-türk əhalinin isə həmin ərazilərdən deportasiyası ilə nəticələnmişdir. Məlum 1828-ci il Türkmənçay müqaviləsindən sonra Şimali Azərbaycanın Naxçıvan və İrəvan xanlıqları ərazisinə köçürülən ermənilər üçün vilayət təşkil edilmişdir. Daha sonra isə, cəmi 25 min erməninin yaşadığı həmin ərazilərə Qacar İranı və Osmanlı İmperiyasından kütləvi surətdə ermənilər köçürülmüşdür. Davamlı olaraq, aparılan bu köçürmə proses nəticəsində Qərbi Azərbaycan torpaqlarında Ermənistan Respublikası yaradılmışdır.

Ermənistan dövlətinin yaradılmasına qədər yerli müsəlman-türk əhalinin Qərbi Azərbaycan torpaqlarından deportasiyası baş verirdi. Lakin, Ermənistan dövlətinin yaradılmasından sonra bu proses daha da kəskinləşdi. Qərbi Azərbaycanda yerli müsəlman-türk əhalinin deportasiyası prosesi əsasən aşağıdakı 4 mərhələni əhatə etmişdir.

1-ci mərhlə 1905-1906-cı illər
2-ci mərhələ 1918-1920-ci illər
3-cü mərhələ 1948-1953-cü illər
4-cü mərhələ 1988-1991-ci illər.

"Türksüz Ermənistan" siyasətini həyata keçirən Ermənistandan deportasiya edilmiş azərbaycanıların sayı təxminnən 500.000 nəfər ətrafındadır. Azərbaycanın Yuxarı Qarabağ bölgəsinin Ermənistan tərəfindən işğal olunması nəticəsində bir milyonadək soydaşımızın köçkünə çevrilməsini etnik təmizləmənin 5-ci mərhələsi kimi qeyd edə bilərik.

Mərhələli şəkildə etnik təmizləmə reallaşdıran Ermənistan Respublikası əhalisinin 97.9%-ni ermənilər, qalan 2.1%-ni isə ruslar, yezidi kürdlər və s. çox azsaylı etnik qruplar təşkil edir. Ölkədə erməni ortodoksluğu əsas din olaraq qalmaqdadır.

**Birgəyaşayışın Azərbaycan nümunəsi**

Uzun əsrlər boyu müxtəlif etnik azlıqlara mənsub insanlar Azərbaycanda sülh və əminamanlıq şəraitində yaşamışdır.Bu multikultural, polietnik və tolerant irs Azərbaycanda bu gün də davam etdirilməkdədir. Azərbaycanda fərqli inanclara sahib xalqalar əsrlər boyu bu ərazidə dinc yanaşı yaşamış, multikultral dəyərlərin və tolerant irsin formalaşmasına öz töhfələrini vermişlər. XX əsrin 90-cı illərində Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən

sonra burada multikulturalizmin dovlət siyasətinə çevrilməsi və buna müvafiq dövlət institutlarının yaradılması tarixi irsin qorunmasını və inkişafını təmin etmişdir.

Milli azlıqlar və etnik qruplar Azərbaycan əhalisinin 9,4%-ni təşkil edir. Belə ki, respublika əhalisinin 2,2%-ni ləzgilər (178,000 nəfər), 1,34%-ni ruslar (119,300 nəfər), 1,35%-ni ermənilər (120,7 min nəfər), 1,26%-ni talışlar (101,8 min nəfər), 0,10%-ni yəhudilər (8,9 min nəfər), 0,07 %-ni kürdlər (8,1 min nəfər), 0,56 %-ni avarlar (50,9 min nəfər), 0,02 %-ni xınalıqlar (3,2 min nəfər), 0,43 %-ni mesheti türkləri (43,3 min nəfər), 0,25 %-ni tatarlar (30 min nəfər), 0,24%-ni ukraynalılar (29 min nəfər), 0,12%-ni saxurlar (10,9 min nəfər), 0,11%-ni gürcülər (9,5 min nəfər), 0,03 %-ni udinlər (3,1 min nəfər) və digər etnik qruplar təşkil edir. Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan türkləri əhalinin 90%-dən çoxunu təşkil edir.

Göründüyü kimi, Azərbaycan çoxmillətli bir ölkədir və dövlət etnik münasibətləri tənzimləmək üçün multikulturalizm siyasəti həyata keçirir ki, bu da öz ifadəsini müxtəlif etnik qruplara dövlət tərəfindən göstərilən mənəvi və maddi dəstəkdə tapır. Dövlət etnik, dini, dil və mədəni ayrıseçkilik olmadan milli azlıqları cəmiyyətə inteqrrasiya etməyə calışır.

Azərbaycanda müxtəlif dinlərə etiqad edən insanların cəmiyyətə inteqrasiysında ən maraqlı tərəf kimi məhz dövlət özü çıxış edir. Azərbaycanda bir sıra konfessiyalar mövcuddur. Azərbaycan əhalisinin təxminən 90 % -dən çoxunu müsəlmanlar təşkil edir. Digər dinlərə etiqad edənlər və ya dindar olmayanlar təxminən 10 % -ə yaxındır. İlk öncə qeyd edək ki, bu gün ölkədə 1802 məscid, 11 kilsə və 6 sinaqoq fəaliyyət göstərir. Azərbaycanda 525 islam və 34 qeyri-islam dini icmanın fəaliyyət göstərməsi tolerantlığın bariz nümunəsi sayıla bilər.

Beləliklə, Azərbaycan və Ermənistan cəmiyyətlərində birgəyaşayış probleminin tarixi və çağdaş durumu ilə bağlı apardığımız elmi araşdırmaya əsaslanaraq bəzi nəticələri qeyd edə bilərik:

Azərbaycan öz polietnik mənzərəsini qoruya bilmiş, onu inkişaf etdirmişdir və burada müxtəlif etnik birliklərin dini konfessiyaların nümayəndələri bərabər hüquq və azadlıqlara malikdirlər. Azərbaycanda multikulturalizm dövlət siyasətinə və həyat tərzinə çevrilmişdir. Ölkədə hər bir etnik qrup öz dilini , folklorunu, mədəniyyətini inkişaf etdirmək imkanlarına sahibdir. Həmçinin, Azərbaycan mədəniyyətlərin ,sivilizasiyaların dialoqunu təbliğ edən böyük forumların keçirildiyi məkana çevrlimişdir və ölkədə din-dövlət münasibətləri arzuolunan xətt üzrə inkişaf edir. Azərbaycanda bir çox dünya ölkələrinə nümunə ola biləcək dini tolerantlıq mühiti mövcuddur və ölkədə kilsələri, məscidləri,sneqoqları və digər dini məbədləri qorumaq dövlət siyasəti ilə dəstəklənir.

Ermənistan isə etnik-dini seperatizmi dəstəkləyən, öz ərazisində etnik deportasiyalar reallaşdıran və nəticədə öz monoetnlikliyi ilə fərqlənən ölkəyə çevrilmişdir. Bu ölkədə faşist, milliyyətçi ideologiyalar hakimiyyətə iddialı olan müəyyən siyasi dairələr tərəfindən dəstəklənir. Ermənistanda din öz humanist mahiyyətindən uzalaşaraq əslində erməni milliyyətçiliyi ilə vəhdət təşkil edir və uydurulmuş "Böyük Ermənistan" ideyasının kerçəkləşməsinə xidmət edir. Həmçinin, bu ölkədə dini, etnik və s. sahələrdə dözümsüzlük mühiti vardır erməni cəmiyyəti qeyri-tolerantlığı ilə fərqlənir. Ermənistanda tarixi abidələri, dini məbədləri, məscidləri məhv etmək, təhqir etmək və ya onları erməniləşdirmək dövlət siyasətinin tərkib hissəsidir. Azərbaycanla müqayisədə Ermənistan dövləti birgəyaşayışı, mədəniyyətlərarası dialoqu təbliğ edən böyük forumlara ev sahibliyi edə bilməyib.

# QLOBALLAŞMA VƏ İNKİŞAF

**Həbib Hüseynov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun Təhsil şöbəsinin müdiri,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
habib.huseynov@gmail.com

**Açar sözlər**: qloballaşma, inkişaf, cəmiyyət, inteqrasiya

«Qloballaşma» anlayışı dedikdə ilk növbədə insanların fikrində müəyyən qlobal xarakterli təsirlərin nəticəsində dünyada baş verən proseslər haqqında müxtəlif cür təsəvvürlər yaranır. Bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Qloballaşma - ümumbəşəri bir təhlükə kimi. Qloballaşmada başlıca təhlükələr bunlardır: millilik tədricən yox olmağa başlayır; milliliyə xas olan özünəməxsus dəyərlər sistemi yeni tələblər çərçivəsində digər, standartlaşdırılmış dəyərlərlə əvəzlənməyə başlayır; Dövlətlər arası sərhədlər tədricən öz mənasını itirir və bu da öz növbəsində insanların şüurunda dövlətçilik təfəkkürünü sarsıdır; antropogen təsirlərin nəticəsində ətraf mühit problemlərinin kəskinləşməsi və təbii fəlakətlərin kumuliyasiyası şiddətlənir; mədəniyyətlərarası ekstremist provakasiyalar üçün zəmin yaranır; elmi-bioloji provakasiyalar (gen mühəndisliyi, süni kənd təsəsrrüfatı məhsullarının yaradılması və s.) leqallaşır; ayrı-ayrı fərdlər tərəfindən qlobal xarakterli texnoloji diversiyaların artması təhlükəsi genişlənir və s.

2. Qloballaşma - ümumbəşəri dinamik inkişaf prosesi kimi.

3. Qloballaşma yeni texnologiyalar, xüsusilə kompüterləşmə bazasında vahid ümumdünya maliyyə-informasiya məkanı yaratmağa meyilli prosesdir.

Qloballaşma inteqrasiyanın ən yüksək mərhələsi sayılsa da ondan fərqlidir. Qloballaşma prosesi 10 il bundan əvvəl 20-ci əsrin 1990-cı illərində başlasa da hələlik bitkin bir proses kimi formalaşmamışdır.

Dünya maliyyə bazarında cərəyan edən kapitalların «maliyyə sunamisi» 1997-99-cu illərdə dünya iqtisadiyyatında XX əsrin ən böyük böhranına səbəb olur və 2008-ci ildə bu proses təkrarlanaraq, bütün ölkələrin iqtisadiyyatını sarsıtmışdır. Buna baxmayaraq xarici atributlar və qloballaşma vasitələri əsasında - yeni informasiya texnologiyasının cəmiyyətə, ümumiyyətlə, bəşəriyyətə etdiyi təsirlər nəticəsiz qalmır. Keyfiyyətcə yeni nəsil informasiya-kommunikasiya texnologiyalarının tətbiqi nəticəsində yeni biznes sahələri əmələ gəlmiş, qlobal dünyanın formalaşması prosesi sürətlənmişdir.

Qloballaşmada əsas gözə çarpan mövcud əmək alətlərinin dəyişməsidir. Yüksək texnologiyaların sürətlə dəyişdirilməsi, məhsuldar istehsal, internet, operativ informasiya mübadiləsi, interaktivlik, elektron hökumət, hamıya sərbəst və keyfiyyətli formada təhsil və tibbi yardım almaq imkanları, sərbəst formada ölkələrarası yerdəyişmə, özünün qabiliyyətini reallaşdırmaq imkanlarının genişlənməsi, virtual məkanların formalaşması (kompüter vasitəsilə müəyyən virtual layihələrin qurulması), insanların sərbəst virtual qovuşmaları və s.

3. Qloballaşma - müxtəlif xalqlar və ölkələrin bir-birilərindən asılılğının artması və onlar arasında olan fərqlərin tarazlaşması prosesi kimi.

4. Qloballaşma - müxtəlif xalqlar və ölkələr arasında olan fərqlərin pozitiv eliminasiyası prosesi kimi.

Artıq heç kimə sirr deyil ki, bəziləri üçün vətən anlayışı onların tələbatlarının yaxşı təmin olunduğu yer kimi q\bul edilir. Bu baxımdan çox sayda vətəndaşların asanlıqla öz ölkələrini tərk etmələri və sosial rifah şəraiti yüksək olan Avropa, Şimali Amerika ölkələrinə miqrasiya etmələri faktı danılmazdır. Sanki, həmin şəxslərin qismində (onların maddi rifahlarının yüksəlməsi ilə əlaqədar) yoxsul ölkələrin bir-birilərinə yaxınlaşması kimi də qəbul oluna bilər.

Bununla belə, o da faktdır ki, dünyada yaranmış olan iqtisadi bərabəsizlik, ifrat yoxsulluq və bəzilərinin həddən artıq varlı olması müxtəlif dərəcəli gərginliklərin və münaqişələrin

yaranmasına səbəb olur. Bunu bir çox ekspertlər qlobal çevrilişlərin ilk əlamətləridilər. Qeyd etmək lazımdır ki, yaranmış olan yeni problemlər daha atrıq təhlükələr törədir.

XIX əsrin axırlarında başlayan qloballaşma prosesi, ən geniş mənada, ölkələr arasındakı maneələrin ortadan qalxması nəticəsində ölkələrin bir birilərinə yaxınlaşması, bütünləşməsi deməkdir. Bu maneələrin növlərindən asılı olaraq, qloballaşma da müxtəlif istiqamətlərdə ola bilər; məsələn, siyasi, iqtisadi, hüquqi qloballaşma və s. İqtisadçılar üçün daha maraqlı olan iqtisadi qloballaşmanın özü də üç istiqamətdə ola bilər: beynəlxalq ticarətin sərbəstləşməsi, beynəlxalq kapital hərəkətlərinin sərbəstləşməsi və nəhayət istehsalın qloballaşması (internationalization of production).

Qloballaşmaya tək bir tərifin verilməsi çətin olsa da, mütəxəssislər bunun "kapitalizmin yenidən qurulması ideologiyası" kimi ortaq bir tərifi üzərində birləşirlər. Hələ 1947-ci ildə Cenevrədə ticarətin sərbəstləşməsi istiqamətində başlayan müzakirələr, 1970-ci illərdə kapital hərəkətlərinin sərbəstləşməsini də gündəmə daxil etdi. Bu gün isə artıq dünya miqyasında istehsalın qloballaşma prosesi başlayıb.

Artıq bu günün dünyası bir-birindən coğrafi baxımdan nə qədər uzaq və mədəniyyət baxımından nə qədər fərqli olursa olsun, insanları eyni qlobal informasiya mənbələri ilə bağlayan bir dünyadır. Şübhəsiz ki, informasiyanın yayılma sürəti fərqli ola bilər. Ayrıca da avtoritar rejimlər buna müxtəlif maneələr və nəzarətlər gətirməyə təşəbbüs göstərə bilərlər. Lakin, buna cəhd etsələr belə, maneələr sonsuza qədər sürməyəcək və bu sədlər hər yerdə aşılacaq. Müxtəlif insan qrupları, hansı mədəniyyətə mənsub olursa olsunlar, indi başqa insan qruplarının necə yaşadığını, hansı növ malları satın aldığı, istehlakçı olaraq zövq və davranışlarının necə dəyişdiyi haqqında anında məlumat almaqdadırlar.

Həmçinin qloballaşma inkişaf etməkdə olan ölkələrdən də yan keçmir. Sadəcə 2.5 milyonluq bir əhalisi ilə heç bir təbii sərvətə malik olmayan Sinqapur qlobal iqtisadiyyatı qəbul etməsəydi indiki rifaha çata bilməzdi.

Aqrar sektorun və fermerçiliyin olmamasına baxmayaraq, sinqapurlular yaponlardan daha çox ucuz və keyfiyyətli kənd təsərrüfatı məhsulları istehlak edirlər. Eyni şey Sinqapurda daha çox ucuz olan inşaat materialları üçün də keçərlidir. Ayrıca, əhalisi bizimlə haradasa eyni olan İrlandiya son on il ərzində ölkəyə 157 milyard dollar xarici kapital cəlb etməyi bacarıb ki, bu da ölkənin sürətli inkişafını təmin etmişdir.

İqtisadi sərhədlərin getdikcə ortadan qalxdığı bir dünyada, milli dövlətlərin iqtisadi həyata himayəçi (proteksionist) və mədəni müdaxilələri iqtisadi baxımdan bir məna kəsb etməkdədirmi? Bunun üçün dünyada 4 fərqli faktordakı dəyişmələri incələmək gərəkdir:

Birincisi, inkişaf etmiş ölkələrin kapital bazarında investisiya üçün ifrat miqdarda kapital ehtiyatları mövcuddur. Məsələn, Yaponiya 10 trilyon dollarlıq bir kapital ehtiyatına malikdir. Əsas məsələ bu kapitalın olduğu ölkələrdə yetərincə investisiya fürsətinin olmamasıdır. Ona görə də bunu başqa ölkələrdə dəyərləndirmək üçün müxtəlif mexanizmlər ortaya atılır. Harada olursan ol, əgər cəlbedici fürsətləriniz varsa kapital sizə də göz atacaqdır.

İkincisi, sənayelərin 10 il öncəsi ilə müqayisədə daha da qlobal hala gəlməsidir. Bu gün Amerika və Avropa şirkətləri Çin və Hindistana öz gələcəklərini orada gördüklərinə görə getməkdədirlər. Hissələrinin 80 faizi idxala dayanan bir amerikan məhsulunun sadəcə bu ölkəyə mənsub olması da mübahisəlidir.

Üçüncüsü, inkişaf edən informasiya texnologiyası firmanın, hər ölkədə ayrı bir müəssisə qurmadan, dünyanın istənilən yerində işlərini yürüdə bilməsini təmin edir.

Günümüzdə yaşanan qloballaşma fenomeni yeni deyildir. Dani Rodrikin «Qloballaşma sərhədi aşdımı» (Globalization Has Gone Too Far) adlı kitabında söylədiyi kimi, 19-cu əsrin sonlarında mal və xidmət ticarətinin dünyanın toplam ÜDM-si içərisindəki payı (xüsusən o zamankı inkişaf etmiş ölkələr baxımından) indikindən çox idi. Məsələn, o zamankı ABŞ-ın xaricə açıqlıq səviyyəsi indikindən daha yüksək idi. Yenə yeni qitəyə müstəmləkə ölkələrindən gətirilən yüksək miqdarda əmək axını da əməyin mobilliyini (hərəkətliliyini) günümüzdəkinə görə daha da artırmışdı. Həmçinin sərmayə hərəkətləri rahat bir şəkildə ölkələr arasında dolaşa bilməkdə idi. Fəqət o zamankı dünya şərtləri əlverişli olmadığı üçün qloballaşma prosesi də

daimi olmadı. Çünki milli dövlətlər buna hazır deyildi və ölkə bazarları istehsal edilən mal və xidmətlərin tamamını istehlak edə biləcək vəziyyətdə idi. Yenə iki dünya müharibəsi və ardından yaşanan iki qütblülük bu prosesi ciddi bir şəkildə axsatdı. Xüsusilə 1960-cı illərdə, Afrikada yaşanan milli dövlətləşmə (müstəqillik) hərəkatları da bunda rol oynadı. XX yüzilliyin II yarısı bəşəriyyət tarixinə elmi- texniki inqilab (ETİ) dövrü kimi də daxil olmuşdur. ETİ məhsuldar qüvvələrin inkişafında keyyfiyyət sıçrayışı olmaqla, elmin, istehsalın aparıcı qüvvəsinə, cəmiyyətin inkişafının həlledici amilinə çevrilməsilə xarakterizə olunur. XVIII əsrdən etibarən maşın və yeni avadanlığın istehsalata kütləvi tətbiqi sənaye çevrilişinin əsas mahiyyətini təşkil etməklə yanaşı, sonrakı sosial-iqtisadi inkişafa da dərin və həlledici təsir göstərdi. Bütün XIX əsr ərzində kapitalizm iqtisadiyyatın bütün sahələrinə dərininə və eninə nüfuz etmişdir.

XX əsrdə son dərəcə sürətli inkişaf nəticəsində cəmiyyət həyatını bütün sahələrində ciddi dəyişikliklər baş verdi. Yeni maşın və avadanlıq növlərinin, elektrik enercisinin sənayeyə tətbiqi istehsalın və əmək məhsuldarlığının sürətlə artırılmasında həlledici rol oynadı. Təbiətşünaslıqdakı mühüm kəşflər elmi-texniki tərəqqini sürətləndirdi. Müasir elmi-texniki inqilab nəticəsində istehsalın kompleks avtomatlaşdırılması, kompüterlərin tətbiqi ilə nəzarət və idarəetmə, insanın kosmosa daxil olması və kainatın sirrlərinə yiyələnməsi, enercinin yeni növlərinin (atom, nüvə, külək, günəş və s.) kəşfi, konstruktor materiallarının yeni növlərinin yaradılması və istifadəyə verilməsi kimi ciddi nailiyyətlər əldə edildi.

Keçmiş ŞŞRİ-də şəxsiyyətə pərəstiş, inzibati-amirlik sisteminin hökm sürməsinə baxmayaraq, elmin inkişafına müəyyən şərait yaradılmışdı və elmi-exniki tərəqqi sahəsində sovet dövləti dünyada qabaqcıl yerlərdən birini tuturdu. 1954-cü ildə dünyada ilk atom elektrik stansiyası, 1955-ci ildə ilk atom buzqıran gəmisi işə salınmış, 1957-ci ildə yerin ilk süni peyki buraxılmış, 1961-ci ildə ilk sovet adamı kosmosa uçmuşdur.

Dünya ictimaiyyətinin etiraf etdiyi kimi, sovet təhsil sistemi dünyada ən yaxşı təhsil sistemlərindən biri idi. Təbii ki, bu proseslər Azərbaycanda da elm və texnikanın inkişafı üçün əlverişli şərait yaratmışdı. Azərbaycan da təhsilin səviyyəsi qalxmış, təhsil sistemində çoxşaxəli və çoxpilləli tədris şəbəkəsi formalaşmışdı. Sovet imperiyası elmi-texniki tərəqqi vasitəsilə hərbi gücünü, beynəlxalq nüfuzunu artırmaq məqsədilə Azərbaycanda yaranmış elmi-intellektual potensialdan səmərəli istifadə etməyə çalışırdı. Azərbaycanın təbii sərvətlərinin üzə çıxarılmasında, xalqın mənəvi qüvvələrinin dövlətin məqsədlərinin həyata kçirilməsinə səfərbər edilməsində vacib olan fundamental tətbiqi elm sahələrinin inkişafına imkanlar yaradılmış, neft geologiyasının əsası qoyulmuşdu. Lakin respublikada elmin maddi-texniki bazasının inkişafına lazımi qədər vəsait ayrılmırdı, müasir avadanlıq, hesablama texnikası, cihazlar çatışmırdı. Elm və təhsil üzərində inzibati-amiranə iş üsulunun güclənməsi nəticəsində elmi-texniki tərəqqinin aparıcı sahələrində geriləmə getdikcə sürətlənirdi.Xüsusilə onun kibernetika, fiziologiya, fizika, genetika, demorqafik geologiya, müasir idarəetmə, menecment, çoçiologiya və s. Sahələrinin müasir tələblər səviyyəsində inkişafına lazımi diqqət yetirilmirdi. Bütün bunlarla yanaşı, elmi-texniki inqilab cəmiyyət həyatının bütün sahələrinə, o cümlədən idarəetmə sahəsinə də təsir göstərirdi.

Elmi-texniki inqilab istehsalatda müxtəlif siniflər və sosial qrupların qarşılıqlı münasibətlərində, adamların mənəvi simasında, xarakterində cidi dəyişikliklər yaratmışdır. Məhz texniki tərəqqi məhsuldar qüvələrin artması, istehsalın təşkili və idarə olunmasında elmiliyin və səmərəliliyin daha da yüksəlməsinin əsasıdır.

Texniki tərəqi müasir dünyanın mürəkkəb iqtisadi, sosial və siyasi həyatının bütün sahələrində aparıcı rol oynayır, tarixi prosesin gedişinə təsir göstərir. ETİ-nin səciyyəvi xüsusiyyətlərindən biri cəmiyyət və təbiət arasında münasibətlərdə yeni meyllərin artması, əməyin ictimailəşdirilməsi səviyyəsinin güclənməsidir. Bu inqilab insanların sosial fəallığının lokal sərhədlərini aradan qaldırmışdır. Dünya dövlətləri arasında qarşıdurmanın zəifləməsilə sosial məkan genişlənmiş, ümumbəşəri dəyərlərin daha geniş miqyasda əxz edilməsi üçün şərait yaratmışdır. ETİ-nin digər xüsusiyyəti insanların həyat və fəaliyyətinin bütün sahələrinə fəal təsir və nüfuz etməsindən ibarətdir.Öz inkişafının gedişində bu inqilab bəşəri, qlobal xarakter almışdır.

# HÜQUQİ DÖVLƏTİN FORMALAŞMASININ FƏLSƏFİ ƏSASLARI

**Faiq Əliyev**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin müəllimi,
tarix üzrə fəlsəfə doktoru, dosent
faigaliyev@mail.ru

**Açar sözlər:** hüqiqi dövlət, vətəndaş cəmiyyəti, azadlıq, qanun, demokratiya, liberal dəyərlər, orta sinif

Filosoflar hüquqi dövlətin formalaşmasının bir sıra fəlsəfi əsaslarının mövcud olduğunu qeyd edirlər. Bu əsaslar çərçivəsinə cəmiyyətin optimal stratifikasiyasının, təbəqələr arasında böyük iqtisadi və mədəni fərqlərin olmamasının, orta təbəqənin güclü və böyük olmasının yaratdığı iqtisadi potensial və iqtisadi münasibətlər, liberal-demokratik dəyərlərə söykənən konstitusiya və qanunvericilik bazası, demokratik siyasi rejim, liberal-demokratik sistemləri olan qonşu dövlətlərin əhatəsində olmaq, regionun müsbət imkan və təsirləri, siyasi qüvvələrin maraqları və bu istiqamətdə fəaliyyətləri, hakimiyyətin hədəfləri, əhalinin hüquqi, siyasi, mədəni səviyyəsi, sosial qruplar və onların təşkilatlanmış (forum halında) fəaliyyətləri, cəmiyyətdə aparıcı stereotiplər, sosial təbəqələr arasındakı münasibət və buradakı ziddiyyətlər və s. daxildir.

Özündə insan zəkasının kəşflərini və təcrübəsini əks etdirən əsrlərlə formalaşan və inkişaf edən hüquqi dövlət ideyası ən maraqlı və unikal ümumbəşəri, universal dəyərlərdən biridir. Bir çox nəsillərin dövlətçilik təcrübəsinə əsaslanan zəngin və müxtəlif ideyalardan təşkil olunan hüquqi dövlət ideyası inkişaf edərək bu günkü səviyyəsinə çatmışdır. Azərbaycan hüquqi dövlət konsepsiyasının konstitusiya əsaslarını insan və onun hüquq və azadlıqlarının ən ali dəyər kimi qəbul edilməsi, qanunun hüquqi dövlətdə rolunun əsas olaraq anlaşılması prinsipi, dövlət-cəmiyyət münasibətlərindən təşkilati-hüquqi tələblərin inikas olunması prinsipləri təşkil edir. Deməli, Azərbaycan Konstitusiyasından təsbit olunmuş hüquq və azadlıqların praktiki həyata keçirilməsi və müdafiə edilməsi mürəkkəb və kompleks vəzifədir. Yalnız demokratik cəmiyyətdə şəxsiyyətin hüquq və azadlıqları təmin edilir və bunun üçün əlverişli şərait yaradılır. Demokratiya insan hüquq və azadlıqlarına tam təminat verərək, insana-vətəndaşa siyasətlə maraqlanmaq və məşğul olmaq öz ölkəsinin həyatına aid informasiya ilə tanış olmaq, hökumətin fəaliyyəti, onun həyata keçirdiyi proqramlara, tədbirlərə qiymət vermək imkanları yaradır (1, s.46).

Modernləşən Azərbaycanda ölkə Prezidenti cənab İlham Əliyevin siyasətinin də əsasını insan, vətəndaş hüquq və azadlıqlarının qorunması, hüquqi dövlətin təşəkkülü və daha da inkişaf etdirilməsi durur. Vətəndaş cəmiyyətinin yaradılması və möhkəmlənməsi, demokratikləşmə prosesinin gerçəkləşməsi, hüquqi dövlətin qurulması ölkəmizdə sadəcə olaraq, bir şüar, yaxud bir niyyət deyil, Azərbaycanın hərtərəfli inkişafı üçün başlıca şərtdir: "Müstəqil dövlətimiz bu gün dünya ölkələrinin ən qabaqcıl təcrübələrindən və dəyərlərindən bəhrələnərək inkişaf edir. Demokratik cəmiyyət, hüquqi dövlət, insan və vətəndaş haqlarının aliliyi, siyasi plüralizm prinsiplərini rəhbər tutaraq Azərbaycan Avropanın və dünyanın ən qabaqcıl, qüdrətli dövlətləri ilə çiyin-çiyinə fəaliyyət göstərir. Ölkəmiz beynəlxalq aləmdə öz layiqli yerini tutub. İndi dünyanın, regionun və bizi əhatə edən xarici aləmin əsas strateji və qlobal məsələləri bizim rəyimiz, mənafelərimiz nəzərə alınmadan həll edilmir. Bizi tanıyırlar, qəbul edirlər və əsas məsələlərdə bizimlə hesablaşırlar (2, s.57).

Fikrimizcə, hər hansı bir cəmiyyətdə hüquqi dövlətin formalaşması həmin cəmiyyətin ümumilikdə dövlətçilik ənənələri ilə ciddi şəkildə bağlıdır. Dövlətçilik ənənəsi cəmiyyətin bir sosial quruluş kimi üfiqi və şaquli əlaqələr sisteminə malik olma, dövlət-vətəndaş-cəmiyyət münasibətlərinin harmoniyasını yaşamış olma vərdiş və tərbiyəsinin, bu vərdiş və tərbiyənin tarixi yaddaşla ötürülməsini göstərir. Müxtəlif tarixi fasilələr olsa da, həmin cəmiyyət daim dövlət qurmaq və onu yaşatmaq ənənəsini özündə bir potensial olaraq saxlayır. Zənnimizcə, bu bütövlükdə dövlətçilik ənənəsi olaraq hüquqi dövlətin formalaşması üçün bir vacib potensialdır.

Çünki istənilən halda hüquqi dövlət hüquq və qanun üzərində qurulur ki, burada həm vətəndaşın qanunla yaşamağın nə olduğunu bilmək, həm də hakimiyyətə gələnlərin vətən, vətəndaş, millət, cəmiyyət anlayışlarına özgə yox, özününkü prizmasından baxmağı öyrətmək çətinliyi yaratmır.

Belə bir dövlətçilik ənənələrinə sahib olan xalqlar, Makiavellinin sözü ilə desək, azadlığı dadmış xalqlar kimi itaət altında uzun müddət qala bilmirlər. Dövləti azadlıq isə vətəndaş azadlığının bir başlanğıcıdır. Lokkun dediyi kimi, dövləti azadlığı vermək daha sonra vətəndaş olaraq mülki azadlıqları, nəhayət, ləyaqəti də verməklə nəticələnir. Bu mənada, yalnız dövləti azadlığa malik, yəni, dövlətinin suveren olduğunu və ona məxsus olduğunu, öz dövlətində vətəndaşlıq qüruru ilə yaşadığını bilən vətəndaşlar digər azadlıq və hüquqlarını da təmin etmək iqtidarına sahib ola, heç olmazsa, bu azadlıq və hüquqlar uğrunda mübarizə aparmağı düşünə bilərlər.

Dövlətçilik ənənəsi də öz növbəsində cəmiyyətin inkişafı üçün bir təkan, vasitədir. Cəmiyyətin stratifikasiyasının inkişafı, müasir tələblər səviyyəsində mürəkkəbləşməsi, təbəqələrin mütəşəkkilliyi, təşkilatlanması və s. göstəricilərin formalaşması da bu amildən əsaslı şəkildə asılıdır. Qeyd edək ki, cəmiyyətin optimal stratifikasiyası, burada təbəqələrin mürəkkəbliyi, təbəqələrarası münasibətlərin inkişaf etmiş və tolerant ənənələrə malik olması onların hər birinin digəri qarşısında yeri və məsuliyyətini dərk etməsi, orta təbəqənin cəmiyyət içində optimal çəkiyə malik olması hüquqi dövlət yolunda çox vacib şərtdir.

Bir ölkədə orta təbəqənin olması və onun cəmiyyətin təbəqələr nisbətində əsaslı yerə və çəkiyə malik olması ilk növbədə təbəqələr arasında iqtisadi münasibətləri tənzimlyəir. Belə bir situasiya öz ardınca siyasi münasibətlərdə tələb, maraq və təklif alış-verişini hüquqi və mədəni çərçivədə inkişaf etdirmək üçün zəmin yaradır. Siyasətçilər və cəmiyyətin orta və aşağı təbəqəsi arasında maraqların və mənafelərin uyğunlaşdırılması, mərkəzləşdirilməsi və təkliflərin həm ümumictimai, həm də sosial qrupların maraqları fonunda qurulması mədəniyyəti formalaşır. Söylədiklərimiz hüquqi dövlətin gerçəkləşməsi üçün olduqca vacib amillərdir. Çünki məhz həmin mədəniyyət bütün təbəqələr arasında, o cümlədən, hakimiyyət-vətəndaş münasibətlərində proseslərin hüquqi müstəvidə aparılması, bu müstəvidən kənara çıxmadan qarşılıqlı razılaşma və maraqların təminatı ilə nəticələnməsinə əsas olur (1, s.17).

Cəmiyyətdə orta sinfin rolunu yüksək qiymətləndirən Aristotelin fikrincə, *orta sinfin nümayəndələrinin çoxluq təşkil etdiyi dövlət güclü dövlət olar və burada normal inkişaf prosesi gedə bilər. Əksinə olduqda isə, yəni sərvəti bol olanlar çoxluq təşkil edərsə, yaxud kasıblar çox olarsa, onlar arasında daim konfliktlər baş verər ki, bunun nəticəsində də ya xalis demokratiya, ya xalis oliqarxiya, ya da tiraniya* yaranar. Göründüyü kimi, hüquqi dövlətin obyektiv əsasları sırasında cəmiyyətin stratifikasiyası məsələsi ciddi əhəmiyyət kəsb edir. Lakin bu ayrı-ayrı sosial əsasların fonunda yox, onun üstündə olan və bir qədər də tarixilik xüsusiyyətlərini kəsb edən bir problem kimi qəbul olunmalıdır.

Hüquqi dövlətin formalaşmasında, birinci obyektiv əsas hesab oluna bilən konstitusiya və qanunvericilik bazasıdır. Dövlətin hüquqi sisteminin yazılı, formal əsasları liberal-demokratik dəyərləri təmsil etməlidir. Düzdür, bəzi hüquqi dövlət statusu daşıyan ölkələr var ki, onlar formal konstitusiyaya malik deyillər. Böyük Britaniyanı misal göstərmək olar. Lakin burada bütün dövlətçilik proseslərinin tənzimlənməsi demokratik və liberal dəyərlərə söykənir, hansı ki, bir sıra formal konstitusion normalara malik olan, mükəmməl konstitusiyası ilə öyünən dövlətlərdə bu dəyərlərin praktik həyatda konkretləşməsinə rast gəlinmir. Bununla belə, konstitusiya və qanunvericilik bazasının liberal-demokratik dəyərlər əsasında formalaşmış olması vacib şərtdir. Burada xüsusi cəhət yalnız konstitusiyanın yox, həmçinin qanunlar və normativ aktların həmin dəyərlərin tələblərinə cavab verməsi lazımdır.

Hüquqi dövlətin formalaşmasında ciddi arqumentlərdən biri siyasi sistemin siyasi normalar və oyun qaydaları sistemi, yəni siyasi rejimdir.

Qeyd etmək lazımdır ki, konstitusiya və qanunlar bazası siyasi sistemin, dövlətin öz qarşısında qoyduğu hədəfdir. Bu hədəfə doğru aparan vasitələri isə siyasi rejim təmsil edir. Hüquqi dövlətin özəlliyi bundadır ki, onda hədəf və vasitə birləşir. Yəni, vasitənin-siyasi

norma və oyun qaydalarının söykəndiyi dəyər və kriteriyalar konstitusiyada qoyulan hədəflərin söykəndiyi dəyərlərdən fərqli olduğu zaman hüquqi dövlət idyeası itir. Hüquqi dövlət yalnız bu iki göstəricinin vahid dəyərlər sistemində birləşdiyi halda gerçəkləşmiş olur. Ona görə də, hüquqi dövlətdə «Makiavellinin vasitə məqsədə haqq qazandırır» prinsipi keçərli deyil.

Siyasi rejim vətəndaşın siyasi hüquqlarını gerçəkləşdirməsi, sosial qrupların təşkilatlanması, insanların birləşərək siyasi partiya yaratmaq, hakimiyyət uğrunda konstitusiyanın verdiyi hüquq və azadlıqlar çərçivəsində mübarizə aparmaq, siyasi partiya daxilində, onun təmsilçisi olaraq vətəndaşların öz siyasi hüquqlarını gerçəkləşdirmək istiqamətində son dərəcə ciddi obyektiv şərt olduğu şübhə doğura bilməz. Deməli, müəyyən mənada siyasi rejimi hüquqi dövlət ideyasının gerçəkləşməsinin bir açarı kimi ifadə etmək olar.

Siyasi rejim birbaşa olaraq vətəndaşların, sosial qrupların, bütövlükdə cəmiyyətin siyasi aktivliyi, siyasi həyatda iştirakı istiqamətində tədbirlər görür. Həmin tədbirlərin sırasında ilk yeri insanların seçki hüququnun gerçəkləşməsi imkanlarının təminatı durur. Belə ki, demokratik siyasi rejim ölkədə azad və tərəfsiz seçki komissiyalarının qurulub müstəqil və təzyiq görmədən fəaliyyət göstərməsi üçün şərait yaratdığı halda, qeyri-demokratik siyasi rejim, yəni, avtoritar siyasi rejim tam tərsinə, iqtidar qüvvələrinin diktəsi altında olan və birbaşa şəkildə əhalinin seçki hüquqlarının pozulması, seçki nəticələrinin saxtalaşdırılması təlimatı alırlar. Demokratik rejimdə insanlarda özlərinin seçki hüquqlarının gerçəkləşməsinə dair tərəddüdsüz bir inam formalaşdığı, seçki nəticələrinin saxtalaşdırılması anlayışının nə olduğunu bilmədikləri, bunu heç təsəvvür etmədikləri, belə məsələlərin gündəmə gəlmədiyi halda, qeyri-demokratik rejimdə əksi olan situasiya yaranır. Vətəndaşlarda nə seçki, nə seçki hüquqları deyilən bir anlayışa, nə də siyasi həyatda hər hansı bir şəkildə iştirakın verəcəyi az da olsa nəticəyə inam olur(2, s.89).

Bu proses analoji olaraq insanların söz azadlığı, mətbuatın öz funksiyasını yerinə yetirmək imkanları, yəni, mətbuat azadlığının gerçəkləşməsi ilə gedir. Deyə bilərik ki, seçki kampaniyası zamanı hüquqi dövlətin prinsiplərinin sınağa çəkildiyi vacib tarixi mərhələdir. Siyasi hakimiyyət uğrunda gedən mübarizədə bir tərəfdən sıravi vətəndaşların siyasi hüquqlarının (buraya sadəcə seçki hüququ yox, həmçinin sərbəst toplaşmaq, fikir azadlığı prinsipləri də daxildir) necə təmin olunması məsələsi aktuallaşmır, həmçinin siyasi opponentlərin öz fəaliyyətlərini tam bərabərlik şəraitində eyni imkanlar və eyni vasitlərlə aparmaq, mətbuatın təzyiqsiz və diktəsiz siyasi prosesləri işıqlandırmaq, senzurasız fəaliyyət göstərmək məsələləri üzə çıxır.

Qeyd etmək istərdik ki, bir dövlətin hüdudları daxilində hüquqi dövlət ideyasının gerçəkləşməsi sadəcə həmin dövlətin maraqları məsələsi deyil və sadəcə onun imkanları ilə məhdudlaşmır. Burada dövlətin yerləşdiyi regionun obyektiv və subyektiv göstəriciləri, mədəni xüsusiyyətləri, region dövlətlərinin siyasi, iqtisadi, mədəni maraqları, dövlətin qonşu dövlətlərlə münaqişə vəziyyəti və s. amillər ciddi rol oynayır.

Bu gün Azərbaycanda hüquqi dövlətin təntənəsi üçün lazımi tədbirlər həyata keçirilir, qanunlar və hüquqi-normativ aktlar qəbul edilir, bütün vətəndaşlara öz hüquqlarından istifadə etməklə ictimai həyat sahələrində iştirak etmək üçün bərabər imkanlar yaradılıb. Hüquqi dövlətin və vətəndaş cəmiyyətin bərqərar olmasında tutduğu mövqedən asılı olmayaraq bütün vətəndaşlar fəal iştirak etməli təbliğat və maarifləndirmə işləri genişləndirilməlidir.

**Ədəbiyyat**

1.Quliyev R. Azərbaycanda hüquqi dövlətin təşəkkülünün sosial-fəlsəfi problemləri. Bakı: Elm, 2013, 158 s.

2. Yusifov N. Hüquqi dövlətin fəlsəfi əsasları. Bakı, Təknur, 2015,148 s.

# CƏMİYYƏTİN MƏNƏVİ HƏYATININ ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA ROLU

**Hörmət Cavadova**
Bakı Dövlət Universitetinin müəllimi,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
cavadova22@mail.ru

**Açar sözlər:** cəmiyyət, mənəvi həyat, şəxsiyyət, sosiallaşma, təhsil, mədəniyyət

İnsanın həyat fəaliyyətinin ən zəngin hissəsi məhz onun mənəvi varlıq sahəsidir. Ən elementar mənəvi ehtiyaclardan tutmuş, ən həssas və sintetik tələbatlara qədər bütün mənəvi hadisələr, ideyalar və anlayışların istehlakı burada baş verir. Mənəvi həyat anlayışını təkcə nəzəri planda anlamaq düzgün olmaz. O, özünü həm şüur səviyyəsində, həm də insanın məqsədəuyğun fəaliyyəti sahəsində göstərir. Mənəvi həyat daim inkişafdadır. Mənəvi həyat özündə rasional, emosional, qnoseoloji, sərvət cəhətlərini birləşdirir, daxili və xarici dünyaya münasibəti əks etdirir. Mənəvi prosslər elmi konsepsiyalar, əxlaqi dəyərlər, dini inamlar, estetik baxışlar, biliklər və s. insan mənəviyyatına daxildir.

Şəxsiyyətin inkişafına təsir edən amillərdən danışarkən cəmiyyətin mənəvi sferasına xüsusi diqqət yetirmək lazımdır. Mənəvi sahə hər hansı bir cəmiyyətin xarakterini formalaşdıran fikirləri,ideyaları,bütün mədəniyyət sahələrini əhatə edən və onlara nüfuz edən inancları,davranış tiplərini özündə ehtiva edən bir sistemdir. Elm, təhsil, din, mədəniyyət mənəvi sferaya aiddir. İnsanın kamil mənəviyyatlı, vətənpərvər və humanist şəxsiyyət kimi formalaşmasında cəmiyyətin mənəvi həyatının rolu böyükdür. İnsanın mənəviyyatı, bir tərəfdən genetik əsaslara malik olsa da, əsasən sosial-mənəvi mühitin təsiri ilə formalaşır. Burada cəmiyyətin mədəni-mənəvi həyatı, insanın yetişdiyi mühitin kulturoloji aspektləri mühüm rol oynayır. Mədəni-mənəvi mühit isə cəmiyyətin müvafiq rakrusu ilə yanaşı əvvəlki nəsillərdən miras qalan sənət əsərləri, xüsusən, bədii ədəbiyyat və kinonun təsiri ilə formalaşır. Din, əxlaq, incəsənət insanın iç dünyasına, mənəvi aləminə təsir edir və onu yönləndirir.

Elmi ədəbiyyatda şəxsiyyətin inkişafına təsir göstərən sosial mühit iki kateqoriyaya ayrılır: a)mikromühit b)makromühit. Mikromühit dedikdə insanı bilavasitə əhatə edən mühit başa düşülür.Mikromühit ailə,məktəb ,məhəllə və s. amillərin məcmusundan ibarətdir. Makromühit isə daha geniş anlayış olub özündə cəmiyyət həyatını,onun maddi və mənəvi sərvətlərini özündə birləşdirir.

Ailə fərdi əhatə edən ilkin mühitdir.Valideynləri ilə sağlam münasibətləri olan uşaqlar ailədən kənarda öz ətrafı və dostları ilə də istənilən şəkildə münasibətlər formalaşdıra bilirlər. Bu səbəbdən ana və atanın uşağa olan münasibəti,onunla necə davranması əhəmiyyət kəsb edir. Çox zaman uşaqlar bəzi özəl davranışları da ana-atasını izləyərək mənimsəyirlər. Ana və atasını ideal obraz kimi görən uşaqlar həmçinin,əxlaqi mədəni dəyərləri və normaları da onlardan mənimsəyirlər. Kiçik yaşlardan etibarən uşağın ailə mühiti, yoldaşlıq mühiti, ona təsir edən müxtəlif ictimai qurumlar şəxsiyyətin inkişafı,onun sosial tərbiyəsi baxımından böyük əhəmiyyətə malikdir. Uşaq yaşa dolduqca ətraf mühitin faktorları daha da artaraq onun şəxsiyyətinə təsir edir,eyni zamanda bu təsir onun başqalarına,ətrafdakılara münasibəti vasitəsilə özünü göstərir.

Ailədən sonra sosial tərbiyə müəssisələrinin və təşkilatlarının da şəxsiyyətin inkişafında əhəmiyyətli rol oynayır. Sosial tərbiyə müəssisələri içərisində məktəb mühüm yer tutur. Məktəb ilə yanaşı müxtəlif formal və qeyri-formal qruplar da gənclərin özünü təsdiq etməsinə, özünü reallaşdırmasına imkan yaradır. Kütləvi informasiya vasitələri də şəxsiyyətin inkişafına, onun sosiallaşmasına təsir edir. KİV eyni zamanda şəxsiyyətin maarifləndirilməsi, biliklərinin genişləndirilməsi, sosial normaların, dəyərlərin formalaşdırılması kimi mühüm funksiyaları da yerinə yetirir.

Təhsil artıq neçə əsrlərdir ki, cəmiyyətin bütövlüyünü və inkişafını təmin edən əsas sosial institutlardan biridir. Hər bir ölkənin ictimai təşkilatlanma səviyyəsi ilk növbədə təhsilin keyfiyyətindən asılıdır. Cəmiyyəti təmsil edən şəxslərin hamısı – dövlət xadimləri, yaradıcı

ziyalılar da, iş adamları da və s. ilk sistemli bilikləri təhsil ocaqlarında almış, onların şəxsiyyət kimi yetişməsi də, dövlətçilik təfəkkürləri də, vətəndaşlıq duyğuları da əsasən təhsil müəssisələrində formalaşmışdır. Yəni bu gün təhsil hansı səviyyədədirsə, on il sonra cəmiyyət də həmin səviyyədə olacaqdır. Tərbiyə təhsilin önəmli bir funksiyasıdır, xüsusilə mənəvi-əxlaqi təhsil ən yüksək mərtəbədə durur. Dünyanın dahi mütəfəkkirlərinin dediyi kimi tərbiyə təhsildən də üstündür. Ona görə də təlimin tərbiyə funksiyası həmişə diqqıt mərkəzində saxlanılmalıdır. Bu baxımdan şəxsiyyətin inkişafına təsir edən amillərdən danışarkən təlim-tərbiyə faktorunun da əhəmiyyəti xüsusi qeyd olunmalıdır.

Tərbiyə, onun şəxsiyyətin inkişafında yeri və rolu ilə bağlı fikirlər qədim tarixə malikdir. Qədim yunan mütəfəkkirləri Platon, Sokrat, Aristotel və başqaları insan həyatında tərbiyənin yerini yüksək qiymətləndirmişlər. Platon bu məsələ ilə bağlı belə bir fikir ifadə etmişdir ki, "İnsanı həqiqətən tərbiyə etsək, o ən sakit, ilahi məxluq olar." Tərbiyənin əsas məqsədi hərtərəfli insan şəxsiyyətinin yetişdirilməsidir. Müasir dövrdə isə tərbiyəyə şəxsiyyətin ahəngdar formalaşması, inkişafı prosesi kimi baxılır. Şəxsiyyətlər yetişdirmək üçün gənc nəslin elmi dünyagörüşü formalaşdırılmalı,onlara mənəvi,əxlaqi tərbiyə verilməli, iqtisadi, ekoloji və estetik tərbiyə üzrə maairfləndirici işlər həyata keçirilməlidir. Tərbiyə ilk öncə ailədə valideynlər tərəfindən, sonra isə təlim-tərbiyə müəssisələrində xüsusi təhsil almış mütəxəssislər tərəfindən həyata keçirilən,şəxsiyyətin formalaşması və inkişafı məqsədi daşıyan pedoqoji prosesdir. Tərbiyə prosesi dinamik, mürəkkəb və məqsədyönlü bir prosesdir. Tərbiyənin əsas mahiyyətini şəxsiyyəti yüksək insani keyfiyyətlərlə zənginləşdirmək, ona mənəvi, əxlaqi keyfiyyətləri aşılamaq, cəmiyyətdə qəbul olunmuş düzgün davranış normaları və qaydalarına istiqamətləndirmək, milli-mədəni dəyərləri mənimsətmək təşkil edir. Tərbiyə xarici bir faktor kimi təbii imkanlara, bioloji olana güclü təsir edərək, potensial qabiliyyətləri ya inkişaf etdirir ya da onları zəiflədir. Məqsədyönlü şəkildə həyata keçirilən tərbiyə prosesi şəxsiyyətin ahəngdar inkişafını təmin edir.

Şəxsiyyətin inkişafına təsir edən amillərdən danışarkən mədəniyyət,mədəni mühitə xüsusi diqqət yetirmək lazımdır. Mədəniyyət hər hansı bir cəmiyyətin xarakterini formalaşdıran fikirləri, ideyaları, bütün mədəniyyət sahələrini əhatə edən və onlara nüfuz edən inancları,davranış tiplərini özündə ehtiva edən bir sistemdir. B.Malinovski "Elmli Mədəniyyət nəzəriyyəsində" qeyd etmişdir ki, hər bir cəmiyyət öz mədəniyyətinin xüsusiyyətləri vasitəsi ilə şəxsiyyət yaradır. Mədəniyyət şəxsiyyəti böyük ölçüdə dəyişdirir və bu səbəbdən də müxtəlif irqlərə, millətlərə, dinlərə mənsub şəxslərin davranış nümunələri arasında fərqliliklər özünü göstərir. Mədəniyyət və şəxsiyyət arasında əlaqələrin öyrənilməsi üçün çox zaman tədqiqatçılar ayrı-ayrı cəmiyyətlərdə böyüyən uşaqları, onların davranışını izah etməyə çalışırlar. Fərqli cəmiyyətlərdən olan insanların arasındakı fərqliliklərin mədəni fərqliliklərə əsaslandığı iddia edilir. Mədəniyyətdən mədəniyyətə fərqlənən uşaqların böyüdülmə, formalaşdırılma tərzləri onun şəxsiyyətinin formalaşmasında önəmli rol oynayır.

Təbii ekologiyada olduğu kimi sosial-mənəvi ekologiyada da böhran baş verə bilər. Ona görə də sosial-mənəvi mühitin saflığının qorunması dövrün qlobal problemlərindəndir. Bayağı mədəniyyətin yayıldığı, milli-mənəvi mühitimizə yad olan təsirlərin gücləndiyi bir dövrdə sosial-mənəvi sahənin problemlərini öyrənmək və lazım gəldikdə həyəcan təbili çalınmalıdır. Xüsusilə, televiziyanın, internetin milli mənəviyyata yad elementlərə dolduğu bir zamanda mənəvi mühitin qorunması problemi çox aktualdır.

Dərin tarixi kökləri olan din insanların həyat tərzinə nüfuz edərək onların milli xüsusiyyətlərinin formalaşmasında böyük rol oynamışdır. Dinin dünyagörüşü funksiyası gerçəkliyi spesifik şəkildə əks etdirir, fövqəltəbii qüvvənin mövcudluğunu göstərir. Dinin tənzimedici funksiyası müəyyən dəyərlər və normalar sistemi işləyib hazırlamışdır ki, həmin sistem insanların davranışını motivləşdirir və tənzimləyir. Dinin həmçinin inteqrasiyaedici mühafizəedici funksiyaları isə müxtəlif birliklər səviyyəsində inteqrasiyanı təmin edə bilir, ictimai həyatin sabitliyini qoruya bilir.

# QADIN PROBLEMLƏRİNİN ÜMUMİ XARAKTERİ

**Həcər Abdallı**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi,
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
hacar_a@gmail.com

**Açar sözlər:** Pekin Fəaliyyət Platforması, qadın, problem, səlahiyyət, cəmiyyət

Pekin Fəaliyyət Platformasında qadınların səlahiyyətlərinin genişləndirilməsinə nail olmaq məqsədilə priotitet tədbirlərin görulməsini tələb edən 12 strateji istiqamət müəyyən edildi. Qadinların vəziyyəti üzrə Komissiya aidiyyatı olan bu 12 problemli sahənin hər biri üzrə əldə edilmiş nailiyyətləri nəzərdən keçirmiş və 1996-cı ildən etibarən onların icrasını sürətləndirmək məqsədilə razılaşdırılmış çıxarış və tövsiyəiər qəbul etmişdir. Fəaliyyət Platforması bu razılaşdırılmış çıxarış və tövsiyələrlə birlikdə XXI əsrdə gender bərabərliyi, inkişaf və sülhün bərqərar olunması sahəsində gələcək tərəqqinin əsasını təşkil edir.

BMT-nin Nizamnaməsinin və beynəlxalq hüququn məqsəd və prinsiplərilə tam bir araya gələn Fəaliyyət Platformasının məqsədi bütün qadınların səlahiyyətlərinin genişləndirilməsindən ibarətdir. Qadınların bütün hüquqlarının və fundamental azadlıqlarının tam təmin olunması onların səlahiyyətlərinin genişləndirilməsinin əsas şərtidir. Milli və regional xüsusiyyətləri, müxtəlif tarixi, mədəni və dini amilləri nəzərə almaqla yanaşı, dövlətlər öz siyasi, iqtisadi və mədəni sistemlərindən asılı olmayaraq insanların bütün hüquqlarını və fundamental azadlıqlarını təmin və müdafiə etməyə cavabdehdirlər. Fəaliyyət Platformasının insanın bütün hüquqlarına və fundamental azadlıqlarına müvafiq qaydada, o cümlədən milli qanunlar çərçivəsində həyata keçirilməsi və strategiyaların, siyasətin, proqramların və inkişaf prioritetlərinin müəyyən edilməsi hər bir dövlətin suveren vəzifəsidir; ayrı-ayrı şəxs və icmaların müxtəlif dini və etik dəyərlərinin, mədəni amillərinin və etiqadlarının əhəmiyyəti və onlara hərtərəfli hörmət isə qadınların öz hüquqlarından tam istifadə etmələrinə, bərabərliyə, inkişaf və sülhün bərqərar olunmasına nail olmağa kömək etməlidir.

Fəaliyyət Platformasında vurğulanır ki, qadınların problemləri ümumi xarakter daşıyır və bu problemlərin həlli bütün dünyada gender bərabərliyinə nail olmaq məqsədilə qadınların ancaq kişilərlə birlikdə, müttəfiqlik şəraitində çalışmaları sayəsində mümkündür. Platformada qadınların vəziyyətində və həyat şəraitində olan fərqlər nəzərə alınır və dəyərləndirilir və bəzi qadınların səlahiyyətlərinin genişləndirilməsində xüsusi maneələrlə rastlaşdığı etiraf edilir.
Fəaliyyət Platformasında etiraf edilir ki, qadınların tam bərabərliyinə və ya imkanlarının genişləndirilməsinə əngəl törədən səbəb irq, yaş, dil, etnik mənşə, mədəniyyət, din və ya əlillik, yerli xalqlara mənsubiyyət kimi faktorlardan və yaxud da bu kimi digər amillərdən asılı olur. Bir çox qadınlar, xüsusilə də tənha analar öz ailə vəziyyətləri, sosial-iqtisadi durumları, o cümlədən kənd ərazilərində, təcrid olunmuş və ya yoxsulluğa məhkum olunmuş həyat şəraitləri ilə əlaqədar olaraq xüsusi maneələrlə rastlaşırlar. Qaçqın, məcburi köçkün, immiqrant və işləyən miqrant qadınlar üçün əlavə maneələr də mövcuddur.Bir çox qadınlar xüsusilə təbii fəlakətlərin, ciddi və yoluxucu xəstəliklərin və onlara qarşı müxtəlif növ zorakılıqların təsirindən əzab çəkirlər.

**Pekin Fəaliyyət Platformasında müəyyən edilmiş 12 problemli sahənin həllində əldə edilmiş uğurlar və qarşıya çıxan problemlər**

Bütün ömrü boyu qadınların sağlamlığının hər bir sahəsini əhatə edən səhiyyə proqramlarının işlənib hazırlanması barədə siyasət tərtibatçılarının və planlaşdırıcı orqanların məlumat səviyyəsini yüksəldən proqramlar həyata keçirilib ki, bu da bir çox ölkələrdə uzunömürlüyün təminatına təkan verib. Aşağıda göstərilən məsələlərə müvafiq münasibət formalaşmaqdadır: qadın və qızların malyariya, vərəm, su vasitəsilə yayılan, yoluxucu xəstəliklərdən, qarın-bağırsaq xəstəliklərindən və az qidalanmadan baş verən ölüm hallarının yüksək göstəricilərinə, Fəaliyyət Platformasının 94 və 95-ci maddələrində əhatə olunmuş cinsi və reproduktiv sağlamlıq və qadınların reproduktiv hüquqları məsələlərinə diqqət artırılır;həmçinin bəzi ölkələrdə Platformanın 96-cı maddəsinin icrasına xüsusi diqqət yetirilir;

ailə planlaşdırılması və qoruyucu (kontraseptiv) vasitələrdən istifadə metodlarının əhəmiyyəti barədə məlumatlar, eyni zamanda kişilərin ailə planlaşdırılmasında rolu və kontraseptiv vasitələrdən istifadə etmələrinin əhəmiyyəti barədə xəbərdarlıqları artırılır; cinsi yolla keçən xəstəliklərə, xüsusilə də qadın və qızların insanın immunodefisit (AIDS) virusu ilə yoluxmalarına və bu növ yoluxucu xəstəliklərdən qorunma metodlarına xüsusi fikir verilir; eyni zamanda ana südü ilə körpələrin qidalanmasına, ümumi qidalanmaya, uşaq və ananın sağlamlığına, sağlamlıq və onunla bağlı təhsil və fiziki hazırlıq sahələrində gender məsələsinin tətbiq edilməsinə, məhz qadınlar üçün profilaktik və reabilitasiya proqramlarına narkomaniya, o cümlədən toksikomaniya, tənbəki, narkotiklər, spirtli içkilərlə mübarizə aspektlərinin daxil edilməsinə, qadınların əqli sağlamlığına, iş yerlərində sağlamlıq şəraitinə, ətraf mühit amillərinə və yaşlı qadınların xüsusi ehtiyaclarının tanınmasına diqqət artırılır.

1999-cu ilin 30 iyun - 2 iyul tarixində Nyu-Yorkda çağırılmış 21-ci xüsusi sessiyasında Baş Assambleya Əhali və İnkişafa dair Beynəlxalq Konfransın (ƏİBK) Fəaliyyət Proqramının həyata keçirilməsi məqsədilə qadınların sağlamlığının mühafizəsinə yönəlmiş fəaliyyətində əldə olunmuş nailiyyətləri nəzərdən keçirmiş və onun əsas istiqamətlərini təsdiq etmişdir.

Bəzi ölkələrdə qadınların imkanlarının genişləndirilməsinə, beynəlxalq hüquq və Birləşmiş Millətlər Təşkilatının nizamnaməsinə uyğun olmayan birtərəfli tədbirlər mane olur ki, bu da dövlətlərarası ticarət münasibətlərinə maneçilik törədir, sosial-iqtisadi inkişafın reallaşmasına imkan vermir və zərərçəkmiş ölkələrin əhalisinin həyat və məişətinə mənfi təsir göstərir və bu təsir özünü əsasən qadınların və uşaqların həyatında büruzə verir.

Silahlı münaqişələr zamanı qadın hüquqları davamlı şəkildə pozulur, bu isə beynəlxalq insan hüquqları qanunu və beynəlxalq humanitar hüquqa dair fundamental prinsiplərin pozulması deməkdir. Hərbi münaqişə şəraitində qadınlara qarşı zorakılığın bütün formaları, o cümlədən cinsi köləlik, zorlama, müntəzəm zorlama, cinsi sui-istifadə, hamiləliyə məcburetmə hallarının sayı artır. Köçkünlük, yoxsulluq, boşanma, ailələrin dağılması və hərbi münaqişənin digər nəticələri evini və əmlakını itirən əhaliyə,xüsusən qadın və uşaqlara kəskin mənfi təsir edir. Hərbi münaqişələr zamanı beynəlxalq hüquqa zidd olaraq qızlar da batalyonlarda işləməyə cəlb edilir və ya oğurlanıb cinsi kölə ya da ki, ev xidmətçisi kimi istifadə edilirlər.

### *İqtisadiyyat gender güzgüsündə*

Qadınların əmək bazarında iştirakı genişlənir və bu iqtisadi sərbəstlik şəraitində onların məhsuldar fəaliyyəti ilə tamamlanır. Bəzi ölkələr qadınların iqtisadi və sosial hüquqlarına, onların iqtisadi resurslardan bərabər istifadə və onlar üzərində bərabər nəzarət imkanlarına və işlə təmin edilmədə bərabər imkanlar əldə etmələrinə dair geniş tədbirlər təklif etmişlər. Getdikcə iş və ev vəzifələrinin uzlaşdırılması, analıq və atalıq məzuniyyətlərinin, həmçinin valideynlik məzuniyyətinin verilməsi, uşaqlara və ailə üzvlərinə qayğı xidmətlərinin və müavinətlərin təmin edilməsinə olan ehtiyac geniş anlamda tanınmaqdadır. Bəzi ölkələr iş yerlərində ayrı-seçkilik və zorakılıq davranışlarının və qeyri-sağlam iş şəraitinin qarşısını almaq məqsədilə müəyyən prinsiplər qəbul etmiş, qadınların sahibkarlıqda, təhsil və təlimdə, o cümlədən elmi texniki biliklərə yiyələnmə və qərar qəbul etmə sahələrində rolunu artırmaq üçün maliyyə mexanizmləri yaratmışlar. Qadınların iqtisadı imkanlarının genişləndirilməsinə mane olan problemləri, o cümlədən haqqı ödənilən və ödənilməyən əmək arasında münasibətləri aşkar edən tədqiqatlar aparılmış və bu qiymətləndirmənin aparılmasına yardım edə bilən mexanizmlər işlənilmişdir.

Qadınların hakimiyyət orqanlarında və qərar qəbul etmə prosesində iştirakının əhəmiyyəti getdikcə geniş miqyasda etiraf edilir. Bir sıra ölkələrdə qadınlar bu sahələrdə yüksək mövqeyə nail olublar. Bir çox ölkələr qadınların marağını müdafiə edən müsbət yönümlü tədbirlər tətbiq etmiş, o cümlədən bəzi ölkələr kvota sistemləri və ya könüllü sazişlər, qiymətləndirilməsi mümkün olan məqsəd və tapşırıqlar müəyyənləşdirilmiş, qadınların rəhbərliyinə dair təlim proqramları hazırlanmış və həm kişi, həm də qadınların ailə və iş öhdəliklərini uzlaşdırmağa imkan verən tədbirlər həyata keçirmişlər. Müxtəlif sahələrdə çalışan siyasətçi qadınlar, qadın parlament nümayəndələri, fəal və peşəkar qadınların vəziyyətini yaxşılaşdırmağa imkan verən milli mexanizmlər, eləcə də milli və beynəlxalq şəbəkələr yaranır və möhkəmlənir.

# PANDEMİYA ŞƏRAİTİNDƏ AZƏRBAYCAN HƏMKARLAR İTTİFAQLARI KONFEDERASİYASININ FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

**Zeynəddin Şabanov**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının
HİH və sosial fənlər kafedrasının müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
zeynaddin.shabanov@gmail.com

**Açar sözlər:** pandemiya, dövlət, cəmiyyət, həmkarlar ittifaqı

Müasir dünyanı narahat edən problemlərdən biri də yeni növ koronavirusun geniş yayılaraq insan fəlakətinə səbəb olması, ölənlərin sayının milyonlarla ölçülməsi, xəstəlik səbəbindən ictimai həyat sahələrinin iflic olması, bəzi sahələrin iflasa uğraması, yaşlı insanlar arasında təlaşın, qorxunun və psixoloji gərginliyin artmasıdır. Bu virusun qarşısının alınması üçün müxtəlif səviyyəli zəruri tədbirlər həyata keçirilmişdir. Həyata keçirilən belə tədbirlər isə iqtisadi dinamikliyin zəifləməsinə səbəb olmuşdur. Məhdudiyyət, qapanmalar və qadağalar biznes sektorunun zəifləməsinə, maliyyə şoklarının yaranmasına (fond bazarları, kredit standartları) və ictimai istehlakın azalmasına və bunun nəticəsində böyük iqtisadi ziyana səbəb olmuşdur.Pandemiya dünya iqtisadiyyatına böyük zərbə vurur. Ümumdünya Bankının məlumatına əsasən, 2020-ci ildə dünya iqtisadiyyatının inkişafı 5,2 faiz aşağı düşmüşdür. Bunu isə II Dünya müharibəsindən sonrakı dövrdə iqtisadiyyatın ən dərin tənəzzülü kimi səciyyələndirmək olar. Belə təsirlər Azərbaycandan da yan keçməmişdir. Beynəlxalq ticarət, nəqliyyat, turizm, otellər, restoranlar, aviaşirkətlər, oflayn xidmətlər (bərbərlik, dərzi otelyeləri, fitnes, idman,teatr, kino ) və əyləncə yerləri pandemiya dövründə ən çox zərər çəkən sahələrdir.

COVİD-19 pandemiyasının iş dünyasına təsirinin ilkin təhlili də göstərir ki, milyonlarla insan tamamilə və ya qismən işsiz və yoxsullar sırasına qoşulur. Beynəlxalq Əmək Təşkilatının məlumatına görə, COVİD-19 pandemiyası dünyada 25 milyona yaxın iş yerinin itirilməsinə səbəb olmuşdur.

Koronavirus səbəbindən dünya üzrə işsizlərin sayı 188 milyon əhatəsindədir. Müqayisə üçün qeyd edək ki, 2008-2009-cu illərdəki qlobal maliyyə böhranı zamanı 22 milyon insan işsiz qalmışdı. Qismən işsizliyin də əhəmiyyətli dərəcədə artacağı proqnozlaşdırılır. Pandemiya iqtisadiyyata mənfi təsir göstərməklə bərabər, iş vaxtının və əməkhaqqının azaldılmasında da rol oynayır.

İşləyən əhali arasında yoxsulluğun əhəmiyyətli dərəcədə artması da gözləniləndir. Qlobal olaraq, BƏT işləyən yoxsullara qoşulacaq insanların sayının 8,8 milyondan 35 milyona qədər artacağını təxmin edir.

Azərbaycanda bu virusun yayılmasının qarşısının alınması üçün zəruri,preventiv tədbirlər həyata keçirilir. Prezident İlham Əliyev koronovirus pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dalğalanmaların iqtisadiyyata, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirlərinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında 19 mart 2020-ci il tarixdə sərəncam imzalaıb. Sərəncama əsasən həmin ilin dövlət büdcəsindən Nazirlər Kabinetinə 1 milyard manat vəsait ayrıldı və İşçi Qrupu yaradıldı. Bu qrup pandemiyanın iqtisadiyyata, makroiqtisadi sabitliyə, məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirin azaltmaqla bağlı tədbirlər hazırlayır və onlar hökumət tərərfindən həyata keçirilir. Bu tədbirlər paketinə daxildir: özəl sektorda çalışan 640 min işçidən 304 min nəfərinin (45 faizinin) maaşlarının ödənilməsi; 290 mindən çox mikro və fərdi sahibkara maliyyə dəstəyi göstərilməsi; biznes üçün müxtəlif xarakterli vergi güzəştləri, tətillər və imtiyazların olunması; vergi ödəyicilərinin bank kreditlərinə dəstək verilməsi; əhalinin elektrik enerjisinin kommunal limiti 100 kvt-saat artırılması; sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin təhsil haqqı xərclərinin ödənilməsinə yardım edilir; həyati vacib sərnişindaşıma fəaliyyəti sahələrinə dəstək həyata keçirilir.

Hazırda Azərbaycanda 1 milyon 555 min əmək müqaviləsi ilə çalışan muzdlu işçi vardır. Onların 910 mini dövlət və neft, qalan 665 mini isə qeyri-dövlət və qeyri-neft sektorlarında çalışır. Dövlət büdcəsindən maaş alanlar sığortalıdırlar. Ölkədə hüquqları ən çox pozulan işçilər məhz özəl sektordadır. Böhran həmişə ilk olaraq onları vurur. Koronavirusun da iqtisadi qurbanları məhz özəl sektorda çalışanlardır. Üstəlik, burada pandemiya ilə əlaqədar sosial təcrid tələbləri ilə bağlı gərgin vəziyyət yaranıb.

Ancaq dövlət qoyduğu məhdudiyyətlər ilə əlaqədar tələblərin mənfi təsir və təzyiqlərindən qaçmır. Belə ki, 304 min muzdlu işçi 44 min sahibkarlıq subyektini əhatə edir ki, onların maaşları dövlət tərəfindən ödənilir. Bu həm vətəndaşlara, həm də birbaşa olaraq özəl sektora dəstəkdir. Üstəgəl, 290 mindən çox mikro və fərdi sahibkar... Bu, 600 minə yaxın fiziki şəxs deməkdir. Çünki söhbət fərdi şəkildə fəaliyyət göstərən sahibkarlardan gedir.

Pandemiyadan zərər çəkmiş sahələr 4 böyük sektoru və 20 fəaliyyət istiqamətini əhatə edir ki, bu zaman ən çox zərər dəyən, əhəmiyyətli dərəcədə minimal təsirə məruz qalan və heç qalmayan sahələr təsnif edilib. Dövlət dəstəyinin ümumən 2,5 milyard manat təşkil edəcəyi deyilir ki, bu da ÜDM-in 3 faizidir.

2019-cu ildə sosial sahədə startı verilən genişmiqyaslı maliyyələşdirmə tədbirləri üzrə 2020-ci ildə də bəzi sahələr üzrə əməkhaqqlarının əlavə olaraq artırılması nəzərdə tutulurdu ki, nəticədə 2019-cu ildə tətbiq olunan və 2020-ci ilə proqnoz edilən artımlar üçün 4 milyard manata qədər əlavə vəsait xərclənəcəkdi. Bunun 2,5 milyard manatını artıq koronavirus "mənimsədi". Belə bir vəziyyətdə vətəndaşlarımız kimi, iqtisadiyyatımız da bütün sektorlar üzrə pandemiyadan sığortalanmalıdır.

Pandemiya dövründə dövlət büdcəsi daha da genişləndirilib və ilk 6 ayda sosial xərclər 5 milyard manata yaxılaşmaqla, ilk dəfə yarımillik büdcənin 42,5 faizini təşkil edib. Məsələn, 2020-ci ildə rekord sayda – 7 min köçkün və 1500 şəhid ailəsinə yeni mənzillər verildi, özünəməşğulluq rekord həddə - 12 min ailəni əhatə etdi, ödənişli ictimai işlər ilk dəfə olaraq 90 minə çatdırıldı, ünvanlı sosial yardım alanların sayı 85 min ailəyə və ya 300 mindən çox insana çatdı.

Hər zaman olduğu kimi, pandemiya dövründə də, vətəndaşların sosial rifahı hökumət tərəfindən əsas diqqət yetirilən məsələ olub. Məhz bu dönəmdə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması məqsədilə 4,8 milyon insanı əhatə edən və  2020-ci il üçün müvafiq istiqamətdə həyata keçirilən tədbirlərə ayrılan vəsaitə əlavə olarq 600 milyon manatlıq paket təqdim olundu. Vətəndaşların sosial rifahının yaxşılaşdırılması məqsədi ilə həyata keçirilən tədbirləri 4 əsas istiqamət üzrə qruplaşdırmaq olar:
-əmək müqaviləsi ilə işləyən  şəxslərin iş yerlərinin qorunması;
-işsiz və qeyri-formal  işləyən vətəndaşların sosial rifahının yaxşılaşdırılması;
-özünü-məşğulluq proqramı çərçivəsində dəstəyin göstərilməsi;
-sosial layihələrin əhatə dairəsinin genişləndirilməsi.

Pandemiyanın ölkə iqtisadiyyatına əsas təsirləri də məhz 2020-ci ilin mart ayından özünü göstərməyə başlamışdır. Ötən dövr ərzində mərkəzi icra hakimiyyəti orqanları tərəfindən əhalinin sosial vəziyyətinin dəstəklənməsi, iqtisadi artıma və sahibkarlığa dəstək alətləri müəyyən edilmiş və müvafiq tədbirlər görülmüşdür.

1.Pandemiyadan zərər çəkmiş sahələrdə çalışan 304 min muzdlu işçilərin əməkhaqlarının ödənilməsi üçün maliyyə dəstəyi proqramı (iş yerlərinin azaldılmaması məqsədilə) – 215 milyon manat
2.Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən 292 min fərdi (mikro) sahibkara maliyyə dəstəyi proqramı (iş yerlərinin qorunması məqsədi ilə) – 80 milyon manat.
3. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə vergi güzəştləri, imtiyazları və tətilləri proqramı – 115 milyon manat.
4. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinə yeni verilən bank kreditləri üzrə kredit-zəmanət dəstəyi proqramı – 500 milyon manat.
5. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən sahibkarlıq subyektlərinin mövcud kredit portfeli üzrə kredit faizlərinin subsidiyalaşdırılması – 1milyard manat.

Pandemiya ilə mübarizədə ölkədə işçilərin sosial-iqtisadi hüquqlarını müdafiə edən Azərbaycan həmkarlar ittifaqları da əsaslı tədbirlər həyata keçirmişdir. Koronavirus infeksiyasının aradan qaldırılmasına yardımçı olmaq üçün AHİK və üzv təşkilatları bütün imkanlarını səfərbər edərək müəyyən addımlar atmışdır.

Bununla yanaşı, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası Koronavirusla Mübarizəyə Dəstək Fonduna 410 min manat və Naxçıvan Muxtar Respublikasında koronavirusla mübarizəyə dəstək üçün 200 min manat, Heydər Əliyev Fondunun "Regional inkişaf" İctimai Birliyinə 205 min manat vəsait köçürmüşdür. Eyni zamanda COVİD-19 infeksiyasına qarşı mübbarizə məqsədilə Naxçıvan Muxtar Respubliksaı Həmkarlar İttifaqları Şurasına 10.000 manat köçürlümüşdür.

AHİK və onun tabeliyində olan təşkilatlar tərəfindən yaradılan mobil qruplar bu dövr ərzində 29.588 aztəminatlı ailəyə 1.305.748 manatlıq, o cümlədən 76 şəhər və rayonda yaşayan 3900 aztəminatlı ailəyə 68 ton ərzaq sovqatları paylamışdır. Yaşı 65-dən çox olan ehtiyac sahiblərinə, imkansız həmkarlar ittifaqı üzvlərinə 1.959.881 manat məbləğində maddi yardım göstərmiş, karantin rejimində istifadə edilməsi üçün həmkarlar ittifaqı təşkilatları üzvlərinə 351 min 056 manatlıq qoruyucu tibbi vasitələr paylanmışdır.

Məlumdur ki, koronavirusla mübarizədə əsas ağırlıq səhiyyə sahəsində çalışanların üzərinə düşür.Bunu nəzərə alan sahə həmkarlar ittifaqları səhiyyə işçilərinin pandemiya dövründə sosial problemlərinin həllinə xüsusi diqqət yetirmişdir. Səhiyyə sahəsində fədakarcasına çalışan 4699 tibb işçisinin ailəsinə 164.157 manat, 12.443 nəfər tibb işçisinə isə 743.112 manat maddi yardım edilmişdir.13 min ədəd qoruyucu tibbi vasitə paylanmışdır. Belə vasitələrə 113 min manat sərf edilmişdir.

Azərbaycan həmkarlar ittifaqı təşkilatları tərəfindən koronavirusla mübarizəyə və eyni zamanda dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək məqsədilə 4 milyon manatdan çox vəsait xərclənmişdir.

"İnfeksiyaya qarşı orqanizmdə immunitetin yaranmasına nail olmaq, xəstəlikdən qorunmaq, infeksiyanın ötürülməsini məhdudlaşdırmaq, ən əsası, ölüm halının qarşısını almaq üçün ölkəmiz koronavirusa qarşı peyvəndləri alan ilk dövlətlərdən biri oldu və bu il yanvarın 18-dən ölkə əhalisinin vaksinasiyasına start verildi. Bununla da Azərbaycan Cənubi Qafqazda vaksinasiyaya başlayan ilk ölkə oldu və artıq 2 milyon doza peyvənd istifadə olunub. Bu da əhalinin 20 faizi deməkdir. Görünən odur ki, Prezident İlham Əliyevin rəhbərliyi altında vətəndaşlarımızın sağlamlığının qorunması üçün dövlətimiz bütün mümkün variantları uğurla tətbiq edərək dünya dövlətləri arasında nümunəvi ölkəyə çevrilib".

Pandemiyanın ilk günlərindən başlayaraq AHİK və üzv təşkilatların şəhər, rayon və həmkarlar ittifaqı təşkilatları ilə keçirdiyi maarifləndirici tədbirlərdə işəgötürənlərə bu sahədə müəyyən işlərin aparılması tövsiyə edilmişdir. Bu gün işçilərin dəstəklənəsi üçün addımlar atılması zəruridir. Bunun üçün həmkarlar ittifaqı təşkilatları və işçilər arasında təcrübə və informasiya mübadiləsi gücləndirilməli, onların problemləri ön plana çəkilməli və sosial məsələlərin maksimum həllinə nail olunmalıdır. Bu müstəvidə həm hökumətin, həm işəgötürənlərin, həm də həmkarlar ittifaqı nümayəndələrinin yolları kəsişir. Əsas məsələ işçilərin iş yerlərini itirməsinə mane olan addımların atılması, onların sosial-iqtisadi hüquqlarının qorunmasıdır.

**Ədəbiyyat**

1.Azərbaycanda COVİD-19 pandemiyası müddətində zərərçəkmiş sahələr üzrə durum təhlili və həmkarlar ittifaqının rolu.Bakı, 2020

2.http://ahik.org/articles/view/settar-mohbaliyev-pandemiyaya-qarsi-mubarize-tedbirleri-azerbaycani-numunevi-olkeye-cevirdi

3. www.ulfet.com

# ƏLİ ŞƏRİƏTİNİN MƏDƏNİ İNQİLAB KONSEPSİYASI MÜASİR BAXIŞ BUCAĞINDA

**Daxil Vəliyev**
Bakı Dövlət Universitetinin müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru
daxil.veliyev@yahoo.com

**Açar sözlər:** Əli Şəriəti, fəlsəfə, din, İran, mədəni inqilab

Müsəlman Şərqi ölkələrindən olan İranın ən görkəmli filosoflarından biri də Əli Şəriətidir. Əli Şəriəti belə hesab edirdi ki, Qərb mədəniyyətindən fərqli olaraq Şərq mədəniyyəti öz başlanğıcını ən qədim orijinal sivilizasiyalardan götürür. Eyni zamanda o hesab edirdi ki, "özünəqayıdış" şüarı bəzi xalqlar üçün, məsələn, tropik Afrika ölkələri xalqlarının milli azadlıq hərəkatı üçün qəbuledilməzdir. Belə ki, həmin xalqlar müstəqil mədəniyyət və tarixə malik deyillər. Dərin köklərə malik olan milli mədəniyyətdə inqilab etmək müvəffəqiyyətin əsas şərti hesab olunduqda kənardan yerli mədəniyyətə güclə sirayət edən kortəbii Qərb modeli mexaniki surətdə inkar edilir.

Şəriəti, ümumiyyətlə, bu problemə tarixi - ənənəvi prizmadan baxır. O, başa düşürdü ki, milli azadlıq hərəkatı milli mədəniyyətin qorunub saxlanılmasının əsas simvoludur və kənardan gələn "modernizmin" antitezisi hesab edilə bilər. Bu o demək deyil ki, milli mədəniyyətə kənardan qoşulmaq istəyən hər bir elementə qarşı mütləq pis baxmaq lazımdır. Bu proses təbii olaraq, mədəni inqilabın qələbəsindən sonra yeni cəmiyyətin sosial – siyasi inkişafında özünü daha qabarıq göstərir. Belə ki, sosial – siyasi inkişafa mane olan bir çox ənənələrdən imtina edilir və onlar yenisi ilə əvəz olunur.

Ziyalıların əksəriyyəti müsəlman intibahının tərəfdarları və islam islahatçıları hesab olunur. Əli Şəriəti islam dininin geniş yayıldığı cəmiyyətdə mədəniyyətin və dinin qarşılıqlı dialoqu məsələsinə önəmli yer verirdi. O, bu problemi hələ 1960-cı illərin əvvəllərində bir çox mühazirələrində milli özünüdərketmə ilə əlaqələndirmiş və milli mədəniyyətin inkişafının perspektivləri məsələsinə toxunmuşdu. Sonrakı mərhələlərdə Şəriəti bu problem üzərində işini davam etdirmiş, ayrıca nəşr etdirdiyi muhazirələrində başlıca ideyalarını əks etdirmişdir .

Ə.Şəriəti öz dini - fəlsəfi nəzəriyyəsini həmin dövrdə Yaxın və Orta Şərq bölgəsində, Asiyada baş verən milli - azadlıq hərəkatı ilə əlaqələndirməyə çalışmışdır. Onu xüsusilə Şərq insanını öz milli kökündən ayıran elementlərə qarşı mübarizə maraqlandırırdı. O, bu mübarizədə "həqiqi" islamın intibahının, yabancı elementlərə qarşı müqavimətin təşkil edilməsinin vacibliyini qeyd edirdi. O, belə hesab edirdi ki, Qərblə qonşu olan bir çox müsəlman dövlətləri Qərbin iqtisadi - siyasi gücünə daim meyillidir və bu nöqteyi-nəzərdən əksər müsəlman ziyalıları arasında "Qərbçilik ideyalarına" həyacanlı yanaşma prosesi həmişə gündəmdə olmuşdur. Şəriəti əmin idi ki, milli mədəniyyəti müxtəlif kənar elementlərlə dağıtmaq iqtisadi və siyasi nəticəsizlik yaradacaqdır. Onun fikrincə, "üçüncü dünya" ölkələrinə münasibətdə örnək ola bilməyən və durğunluq dövrünü keçirən kapitalizm mütərəqqi dinamik hərəkətini itirmişdir, əks mövqedə - əks din doktrinasını əldə rəhbər tutan sosializm isə etalon rolunu oynaya bilməz. Bu problemlərin həllində Şəriəti bəşər dinlərində mövcud olan humanizmi, o cümlədən müsəlman ölkələri üçün "islam humanizmini" yeganə vasitə kimi görürdü. "Xilaskar" rolunu Məhəmməd peyğəmbərin dövründə mövcud olan ideal islam oynamalıdır" deyən Şəriəti bu istiqmətdə düşüncələrini bir növ tamamlayırdı.

Həmin dövrdə mövcud olan dünya sivilizasiyası haqqında Şəriətinin bir çox fikirləri ilə tanış olmağımız məqsədəuyğundur. O, qeyd edirdi ki, dünya sivilizasiyası yeni mərhələyə çatmışdır və bu mərhələ özünün son günlərini yaşayaraq yaradır və tamamlanır. Bu tamamlanma prosesində incəsənət öz problemlərinə səthi yanaşır. Böyük kütləyə nisbətən kiçik kütlə elitar xarakter alır. Seçənlər üçün seçilənlər əmtəəyə, istehsal malına çevrilir. Bu proseslər nəticəsində bir çox istiqamətlərdə "incələşdirilmiş" incəsənət hamıya ünvanlanmış "dar ixtisaslaşmanı" meydana çıxarır. Həm də buna bir çox ziyalılar da başa düşmədən müsbət qiymət verirlər. Elm sahəsində də bir sıra belə uğursuzluqlar mövcuddur. Şəriətinin fikrincə, ictimai fikrin formalaşmasında elmin əhəmiyyəti incəsənətin əhəmiyyətindən daha vacibdir.

İncəsənət fenomeni həmişə elitanın sevimli "oyuncağı" olmuşdur. Şəriətinin düşüncələrinə görə, incəsənətdə yeni dəyişikliklər məhz bu sevgi nəticəsində əmələ gəlirdi. Bu yeniliklər demokratikdir, çox incə siyasi rəngə malikdir. Müəyyən zaman kəsiyindən sonra bu incəsənət – mədəniyyət müstəqilləşir və bürokratik aparat tərəfindən idarə olunmur.

Bir çox tədqiqatçılar kimi, Şəriəti də Şərq incəsənətinin qarşılaşdığı problemlərə öz münasibətini bildirir və belə hesab edirdi ki, ənənələr probleminə yeni metodoloji yanaşma bu çətin prosesin həllinə təkan verəcəkdir. Məhz bu səbəbdən o, ənənələrə və onların inkişafına fərqli yanaşırdı.

O, özünün "Mədəniyyət dil, inanc sistemidir" tezisində qeyd edirdi ki, hər bir nəzəriyyədə milli azadlıq hərəkatı özündən əvvəlki proseslərə tabedir, eyni zamanda, özündən sonra gələn proseslərə asanlıqla "hökmranlıq edir"; ənənələr də fərqli – təbəqələşmə proseslərində eyni hərəkətləri təkrar edir. İran filosofunun fikrincə, "Şərq" insanı daim öz keçmişini ideallaşdırır və bu ona yeni ideal cəmiyyət formatı haqqında miflər yaratmağa kömək edir. Bu, çox təhlükəlidir. çünki, Şərq təfəkkürlü insanı real surətdə keçmişə qayıtmağa həvəsləndirir, "Keçmişə qayıtmaq" həvəsi bütün bəşəriyyət üçün arzu edilən olsada , müasir insan təfəkkürünün formalaşması üçün bu proses çox vacibdir. Avropada baş verən proseslər onu göstərir ki, orada yaşayan insanlar həqiqi olanı ideallaşdırıb reallığa çevirmək üçün bütün əsaslara malikdirlər, belə ki, Avropanın "qızıl əsri" hələ qurtarmamışdır. Bu proseslər Qərb dünyasında ictimai əsaslara söykənib güclənərkən, Şərq ölkələrinin fəlsəfə tarixi sanki uzaq keçmişə "sitayiş edirdi". O dövrdə konfusiçilik çinlilər üçün, buddizm Hind mədəniyyəti üçün və bəzi insanlar tərəfindən təhrif edilmiş islam müsəlmanlar üçün ideal cəmiyyətin dağıdıcısı rolunu oynayırdı. "Kamil insan" barəsində quruculuğun, yaradıcılığın, ədalətin, bərabərliyin simvolu olan həqiqi islam ideyaları təhrif olunmuş halda müasir insanı saysız – hesabsız əzablara düçar edən zalımların əlində silaha çevrilmişdir.

İlkin olaraq bu prosesləri tənzimləmək üçün Şəriəti "özünəqayıdış" çağırışının mahiyyətinin araşdırılmasının vacibliyini qeyd edirdi. Bu həmin dövrdə milli – mədəni azadlıq hərəkatının prinsipial şüarı hesab olunur və mütərəqqi nöqteyi-nəzərdən milli mədəniyyət əsasında "mədəni inqilab"ın həyata keçirilməsini nəzərdə tuturdu.

Bir çox ölkələrdə ənənəvi mədəniyyət tərəfdarları "mədəni Qərb eksponsionizminə" qarşı mübarizədə xüsusi cavabları ilə şərtlənən nəzəriyyələr hazırlamışlar. Bu sırada müsəlman filosofları da ənənəvi islam fəlsəfəsinin inkişafının xüsusi yollarını işləyib hazırlamışlar. Bununla belə, bu islahatçılara görə, mədəniyyət sahəsində "təmələ qayıdış" hər bir mədəni inqilabın ilkin mərhələsinin şüarıdır, lakin onun son məqsədi deyildir.

Şəriəti "özünəqayıdış" çağırışında müxtəlif ziddiyyətlərin və praktikada reallaşmasının müxtəlif çətinliklərinin mövcudluğunu qeyd edirdi. Praktika onu göstərirdi ki, bu şüarın tez – tez irəli sürülməsi neqativ nəticələrə səbəb olur. Belə ki, bu sahədə islahatçıların böyük zəhmətlə "dəfn etdikləri" köhnə ənənələr heç bir islahata məruz qalmadan yenidən gündəmə qayıdırdı. Bir çox ölkələrin təcrübəsi onu göstərir ki, bu proseslərin cilovuna düşmüş islahatçılar hadisələrin neqativ istiqamətdə inkişafı səbəbindən əksər hallarda "günahkar" yerində qalmışlar. Məhz buna görə də Şəriəti "özünəqayıdışı" mədəni inqilabın son məqsədi deyil, islahatın çıxış nöqtəsi sayan nəzəriyyələri müdafiə edirdi. O, belə hesab edirdi ki, intibah dövründə yaranan nəzəriyyələr yeni formalaşan mədəniyyətin mütərəqqi aspektlərini gücləndirməli və insanları yeni həyata həvəsləndirməlidir.

# ÇAĞDAŞ DÖVR AZƏRBAYCAN FƏLSƏFƏSİNİN AKTUAL MƏSƏLƏLƏRİ

**Faiq Ələkbərli**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının
dosenti, fəlsəfə üzrə fəlsəfə doktoru
*faikalekperov@mail.ru*

**Açar sözlər:** fəlsəfə, aktual məsələlər, ictimai fikir, elm, tədqiqat, ideologiya

XIX-XX əsrlər Azərbaycan Türk fəlsəfi və ictimai fikri bu günümüzlə, gələcəyimizlə birbaşa bağlı olduğu üçün onu araşdırmaq və təhlil etmək çox vacib və məsuliyyətli məsələdir. Ona görə ki, bu dövrdə Azərbaycan türklərinin ictimai-siyasi həyatı və mədəni-fəlsəfi mühiti yeni bir mərhələnin başlanğıcına təsadüf edir. Yeni mərhələyə baxışın müsbət ya da mənfi çalarlar daşımasından asılı olmayaraq bir şey həqiqətdir ki, Azərbaycan xalqı bir tərəfdən yeni ictimai-siyasi və elmi-fəlsəfi həyata bütöv şəkildə daxil ola bilməmiş, digər tərəfdən isə Qərb mədəniyyətinin ciddi təsirinə məruz qalmışdır.

Hər iki amil son iki əsrdə Azərbaycan Türk fəlsəfəsinin, tarixinin, mədəniyyətinin, ədəbiyyatının, siyasətinin başlıca problemləri sırasında qalmaqdadır. Əgər son iki əsrdə Azərbaycan xalqı maddi və mənəvi anlamda bütünlüyünü itirmişdirsə, bu, dolayısıyla onun tarixinin, ədəbiyyatının, dilinin, mədəniyyətinin və fəlsəfəsinin yazılmasında yarımçıqlıq kompleksinin ortaya çıxmasına səbəb olmuşdur. Etiraf edib-etməməyimizdən ya da bunun fəlsəfə ilə nə qədər bağlı olub olmamasından asılı olmayaraq, bu, bir həqiqətdir ki, əgər hər hansı xalqın fəlsəfəsi, tarixi, ədəbiyyatı yarımçıqlıq kompleksi şərtləri altında yazılırsa, o zaman həmin xalqın, sözün həqiqi mənasında, milli ruhunu əks etdirə biləcək fəlsəfədən, tarixdən, ədəbiyyatdan, mədəniyyətdən söhbət gedə bilməz. Yəni natamamlıq kompleksi şərtləri altında yazılan hər hansı millətin tarixi, fəlsəfə tarixi, ədəbiyyat tarixi, mədəniyyət tarixi milli ruhdan başqa nə varsa hər şeyi özündə əks etdirir, ancaq milli ruh qarşısında gözlə görünən ya da gözlə görünməyən saysız-hesabsız sədlər çəkilir, divarlar hörülür.

Son iki əsrdir ki, Azərbaycan Türk xalqı da məhz maddi-fiziki və milli-mənəvi parçalanma nəticəsində natamamlıq kompleksinə doğru sürüklənmiş, bu natamamlıq çərçivəsində də əsasən hər hansı doğma və yad tədqiqatçılar onun tarixini, fəlsəfəsini, mədəniyyətini, hüququnu, ədəbiyyatını yazmışlar və yazmaqdadırlar. Bir sözlə, XIX əsrin əvvəllərində Azərbaycan türklərinin ictimai-siyasi və fəlsəfi həyatında yeni mərhələyə qədəm qoyması onun maddi-fiziki və milli-mənəvi parçalanması fonunda baş vermiş, bununla da onlarla, bəlkə də yüzlərlə problemlərin təməli qoyulmuşdur. Hər halda Səfəvilər Türk dövlətinin süqutundan sonra onun yerində yeni imperiya quran Əfşarlar Türk dövlətinin az bir müddət ərzində uğursuzluğa düçar olması Azərbaycan türkləri üçün, bu günə qədər çözülməsi heç də asan olmayan ciddi ictimai-siyasi və elmi-fəlsəfi problemlərə yol açmışdır. Doğrudur, XVIII əsrin sonlarına doğru keçmiş Səfəvilərlə Əfşarlar dövlətlərinin qalıqları üzərində Qacarlar Türk dövlətinin meydana çıxması bu bölgədə yaşayan Türklər, o cümlədən Azərbaycan türkləri üçün yeni bir ümid işığı olub, bəlkə də bu günə qədər yaşadığımız və yaşamaqda olduğumuz problemlərin xeyli qisminə son verə bilərdi. Ancaq Qacarlar dövləti çar Rusiyası ilə Böyük Britaniyanın hərbi-siyasi oyunları nəticəsində keçmiş Səfəvilər Türk dövlətinin bütün ərazilərinə, o cümlədən Güney Qafqaza, eyni zamanda Azərbaycanın quzey hissəsinə sahib ola bilmədi. Bununla da Azərbaycan Türk torpaqlarının bir hissəsi çar Rusiyasının işğalı altında qaldı ki, bu da, yuxarıda da qeyd etdiyimiz kimi, onun yalnız gələcək ictimai-siyasi həyatında deyil, elm-mədəniyyət və fəlsəfə sahəsində də

xeyli fərqliliklərə, problemlərə yol açdı. Hər halda Azərbaycan Türk torpaqlarının, Azərbaycan Türk xalqının çar Rusiyasının işğalı altında qalan bir hissəsi ilə, Qacarların tərkibində qalan böyük hissəsi arasında baş verən maddi-fiziki və milli-mənəvi ayrılıqlar, antitürk ideyaların da birbaşa təsiri ilə onların mütəfəkkirlərinin dünyagörüşündə yarımçıqlığa, natamamlığa, hətta qeyri-milli düşüncələrə (irançılıq, rusçuluq, avropaçılıq-qərbçilik və s.) yol açmış oldu.

Bu gün, Azərbaycan alimlərinin boynuna düşən əsas vəzifə bir tərəfdən təxminən XIX əsrin əvvəllərindən çar Rusiyasının işğalı altında yaşamağa məcbur olan Azərbaycan Türk xalqının dünyagörüşü ilə, Qacarların tərkibində, ancaq onun ana sütununu təşkil edən Azərbaycan türklərinin dünyagörüşündəki oxşarlıqları və fərqlilikləri çox həssaslıqla tədqiq edib obyektiv qiymətini vermək, digər tərəfdən bütövlükdə fəlsəfi və ictimai fikrimizin əsas inkişaf yollarını, onun mahiyyətini ortaya qoymaqdır. Bu anlamda son iki əsrdə ayrı-ayrılıqda yaşamağa məcbur edilmiş Quzey Azərbaycan türkləri ilə Qacarlar dövlətinin ana sütununu təşkil etmiş Türklərin bu dövr ərzində yaşadıqları ictimai-siyasi, ədəbi-mədəni, elmi-fəlsəfi mühiti ayrı-ayrılıqda ələ almaqdan daha çox bir bütünün, vəhdətin tərkib hisssi kimi tədqiq etmək lazımdır. Yəni çar Rusiyası ilə Qacarlar arasında bağlanmış 1828-ci il Türkmənçay müqaviləsindən sonra, bəlkə məcburiyyətdən bir çox hallarda vahid Azərbaycan türklərinin deyil də, Quzey Azərbaycan xalqının və Güney Azərbaycan xalqının tarixindən, iqtisadiyyatından, mədəniyyətindən, fəlsəfəsindən bəhs etmişik ya da etməyə davam edirik. Bizcə, artıq bu ənənəyə birmənalı şəkildə son verilməli, yəni vahid Azərbaycan Türk xalqının tarixindən, iqtisadiyyatından, mədəniyyətindən, fəlsəfəsindən kitablar, əsərlər yazılmalıdır. Əlbəttə, bu, o demək deyil ki, biz XIX əsrin başlarından etibarən çar Rusiyasının işğalı altında qalan Azərbaycan xalqının bir hissəsinin ya da Qacarlar dövlətinin ana sütununun təşkil etmiş Azərbaycan türklərinin böyük hissəsinin məcburən ayrı-ayrılıqda yaşamalı olduğu tarixi, fəlsəfəni, mədəniyyəti, ədəbiyyatı da mütləq şəkildə, heç bir məntiq olmadan vahidləşdirməli, bütövləşdirməliyik. Əsla belə bir şeyə yol verilməməlidir. Sadəcə, burada əsas məqsəd Azərbaycan Türk xalqının parçalanmadan sonra yaşadığı tarixi, fəlsəfəni, ədəbiyyatı, mədəniyyəti oxşarlıqları və ziddiyyətləri ilə yanaşı, vahid bir çatı altında ümumiləşdirməyi, bütöv şəkildə görməyi bacarmaq, yəni natamamlıq kompleksindən qurtulub təxminən 50 milyonluq vahid xalqın fəlsəfəsini, tarixini, ədəbiyyatını, mədəniyyətini yazmaq olmalıdır. Bu anlamda Azərbaycan da daxil olmaqla, böyük bir tarixi ərazidə hökm sürən Qacarlar dövlətinə və həmin dövrün Türk mütəfəkkirlərinə diqqətlə yanaşılmalıdır.

Bu baxımdan hesab edirik ki, çağdaş dövr Azərbaycan fəlsəfəsinin aktual məsələləri aşağıdakılardan ibarətdir:

1. Fəlsəfi tədqiqatlarda Sovet-Rus metodologiyasından, təfəkküründən uzaq durmaq və milli fəlsəfi fikrin təmərküzləşməsinə çalışılmalıdır;
2. Fəlsəfi tədqiqatlarda Avropa-Qərb metodologiyasına həsaslıqla yanaşmaq və obyektiv araşdırmalar aparılmalıdır;
3. 19-cu əsrdə Azərbaycan maarifçiliyi məsələsinə Sovet-Rus metodologiyası prizmasından yanaşmağa son vermək lazımdır. Maarifçilik nə A.A.Bakıxanov, nə də M.F.Axundzadə ilə başlamışdır. Maarifçilik hər zaman öz dövrünə görə olmuşdur. Sadəcə, 19-cu əsr Azərbaycan maarifçiliyinə Qərbin və Rusiyanın ciddi təsiri olmuşdur. Ümumiyyətlə, 19-cu əsr quzey Azərbaycan xalqının fəlsəfə tarixi yazılarkən burada yalnız Qərb və Rus mədəniyyətinə, fəlsəfəsinə münasibət deyil, eyni zamanda Şərq fəlsəfə tarixinin tərkib hissəsi kimi Türk-İslam mədəniyyətinə və fəlsəfəsinə diqqət yetirilməlidir. Şübhəsiz, bu

zamanda Qərb-Şərq qarşıdurması anlamında, Türk-İslam və Avropa-Rus ziddiyyətlərinə, fərqliliklərə diqqət yetirilməlidir;

4. Çağdaş fəlsəfi məsələlərdən biri kimi "Azərbaycan fəlsəfə tarixi" deyil," Azərbaycan xalqının fəlsəfə tarixi" anlayışı önə çəkilməli, bu anlamda yalnız Quzey Azərbaycan xalqının deyil, Güney Azərbaycan da daxil olmaqla bütöv Azərbaycan xalqının fəlsəfə tarixi ələ alınmalıdır. Bu zamanda özündən əvvəlki fəlsəfə tarixinin davamı kimi, Azərbaycan Türk ziyalıların fəlsəfi düşüncədə rolu qeyd olunmalıdır. Başqa sözlə, qeyri-müəyyən ya da "mələz" bir xalqın fəlsəfi düşüncəsindən deyil, Azərbaycan Türk xalqının fəlsəfi düşüncə tarixi yazılmalıdır. Təbii ki, Azərbaycan türkləri ilə yanaşı azsaylı etnik qrupların nümayəndələri arasında da müəyyən fəəlsəfi fikir payı olanlar varsa, kitabda yer almalıdır. Ancaq bütövlükdə ya Azərbaycan xalqının fəlsəfəsi dedikdə, Azərbaycan türklərin fəlsəfəsi diqqətə çatdırılmalıdır;
5. Azərbaycanın quzeyinin Rusiya tərəfindən işğalından sonra Azərbaycan Türk mədəniyyətinin Rus-Avropa mədəniyyətinə sövq edilməsi qeyd olunmalıdır. Bu anlamda Güney Azərbaycanda daxil olmaqla böyük bir tarixi ərazidə hökm sürən Qacarlar dövlətinə və həmin dövrün mütəfəkkirlərinə diqqətlə yanaşılmalıdır. Xüsusilə, Qacarlar dövlətinin varlığı dövründə yazıb yaratmış Azərbaycan Türk ziyalıları fəlsəfi tədqiqatlara cəlb olunmalıdır;
6. Azərbaycanda 19-cu əsrin sonu, 20-ci əsrin əvvəllərində mövcud olmuş siyasi-fəlsəfi cərəyanlara gəlincə, onları ümumiləşdirmək lazımdır. Belə ki, əsas olaraq üç istiqamət götürülməlidir: 1) ümmətçilik-islamçılıq, 2) sosial-demokratiya (milli menşeviklər, milli bolşeviklər, milli sosialistlər vəb.) 3) milli demokratiya (türkçülük-istiqlalçılıq-azərbaycançılıq). Burada Türkçülük, Azərbaycan türkçülüyü və onun nəticəsi olan Azərbaycan milli ideyası-azərbaycançılıq xüsusi öndə tutulmalıdır. Bizə elə gəlir ki, burada romantizm və realizm adı altında ayrıca cərəyanlardan bəhs etmək isə doğru çox da deyildir. Çünki romantic ve realist mütəfəkkirlər ayrıca bir cərəyanı təmsil etməyiblər. Sadəcə, onlar dünyagörüşlərinə görə, ya milli demokratlara, ya da sosial-demokratlara yaxın olublar;
7. Şəxsiyyətlərə gəlincə, bizcə Azərbaycan xalqına aid fəlsəfi tədqiqatlarda A.A.Bakıxanov, M.Ş.Vazeh, S.Ə.Nəbati, Mirzə Kazim bəy, M.Ə.Talıbov, C.Əfqani, M.F.Axundzadə, M.M.Nəvvab, Z.Marağayi, S.Ə.Şirvani, Ə.Axundoğlu, H.Zərdabi, Ə.b.Hüseynzadə, Ə.b.Ağaoğlu, M.Ə.Rəsulzadə, M.Xiyabani, F.b.Köçərli, N.Nərimanov, M.Hadi, H.Cavid, M.Ə.Sabir, M.Təbətabi, M.B.Məmmədzadə, S.C.Pişəvəri, Səhənd, H.Hüseynov, R.Axundov, M.Ə.Şəbüstəri, T.Ərani, M.Zehtabi, C.Heyət və başqalarına ayrıca diqqət yetirilməsi zəruridir. Ancaq Ə.Qəmküsar, S.Ağamalıoğlu, Ə.Qarayev, S.H.Tağızadə, S.Səlmasi, C.Salamulla və başqalarına ümumi şəkildə toxunmaq olar;
8. Ümumiyyətlə çarlıq Rusiyası, SSRİ, İran Pəhləviləri dövrlərinə aid Azərbaycan Türk fəlsəfi fikir tarixini yazarkən məsələlərə "dövrün şərtləri belə idi" prinsipindən yanaşmaq da çox doğru deyildir. Demək istədiyimiz odur ki, fəlsəfi dünyagörüşlərində kim hansı mövqe tutubsa onu da olduğu kimi yazaraq Azərbaycan Türk toplumuna çatdırmaq lazmdır.

## AZƏRBAYCAN RESPUBLİKASININ İDEOLOJİ TƏHLÜKƏSİZLİYİNDƏ AZƏRBAYCANÇILIQ İDEOLOGİYASI ƏSAS İSTİQAMƏT KİMİ

**Əliyar Orucov**
Fövqəladə Hallar Nazirliyi Akademiyasının Tədris şöbəsinin
böyük metodisti, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
orucov.aliyar@mail.ru

**Açar sözlər:** milli təhlükəsizlik, etnik təhlükəsizlik, mənəvi təhlükəsizlik, ideoloji təhlükəsizlik, informasiya təhlükəsizliyi, ideologiya, azərbaycançılıq ideologiyası, dövlətçilik, vətənçilik, konsepsiya, doktrina.

Müasir dövrdə ideoloji təhlükəsizilik müəyyən milli ideologiyanı- azərbaycançılığı, onun dəyər, qanun və qaydalar sistemini, mədəni-mənəvi ideyaların realaşmasını təmin edir.
Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərində ideologiyaların operativ modernləşməsi, hərtərəfli informasiya təminatı, imperativ normaların tam olmaması, fikir, söz, etiqad, KİV-lərin azadlığı kimi konstitusiya prinsiplərinə riayət edilməsi mühüm yer tutur.

Sosioloji və politoloji refleksiya məkanında azərbaycançılıq ideologiyası milli təhlükəsizlik kontekstində müasir Azərbaycan cəmiyyəti formatında xüsusi aktualıq kəsb edir.

Beləliklə, mövzunun aktuallığını şərtləndirən əsas amillər aşağdakılardır:

Birincisi, Azərbaycan Respublikasının ideoloji təhlükəsizliyin təmin edilməsinin sosial əhəmiyyətinin dövlət quruculuğu və sosial-iqtisadi inkişafın radikal dəyişdirilməsi dövründə artması ilə informasiya cəmiyyətinin formalaşması mərhələsində müxtəlif milli-mənəvi dəyərlərlə azərbaycançılıq ideologiyasının inteqrasiyası və qarşılıqlı təsir mexanizmləri məsələsini müstəsna dərəcədə aktual edir.

İkincisi, qloballaşmanın təsirilə mədəni irsə mənfi təsirin, təhdid və təhlükələrin yaranması köhnə və yeni mədəni formalar arasındakı münaqişənin baş verməsi, xaricdən "mədəni təcavüzün" geniş miqyas alması, demokratiya sahəsindəki böhran və şəxsiyyətin yadlaşması problemi cəmiyyətin ideoloji təhlükəsizliyində əsas rol oyanayan azərbaycançılığın daha da inkişaf etdirilməsini tələb edir.

Üçüncüsü, milli-dövlətçilik ideologiyasının azərbaycançılığın sosial imperativi kimi təsbit olunması cəmiyyətin ideoloji təhlükəsizliyini təmin edən amil kimi çıxış edir.

Azərbaycan cəmiyyətinin və dövlətinin milli təhlükəsizliyinin ideoloji istiqamətlərində azərbaycançılıq milli-dövlətçilik ideologiyası mühüm amil kimi çıxış edir. Bu ideologiya inteqrativ, birləşdirici xarakter daşıyır. Həmin inteqrativ ideologiya xalqın təcrübəsinin məhsulu olan yeni normaları və qaydaları dəyər yönümündən əsaslandırır. Azərbaycançılıq ideologiyası milli-siyasi, milli-sosial ideya kimi təhlükəsizlik ideologiyasıdır, milli mədəniyyətdə cəmiyyətin birləşdirici dünyagörüşüdür. "Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası müasir beynəlxalq təhlükəsizlik sistemində ciddi rola və yerə malikdir. Beynəlxalq təhlükəsizlik sistemində fəal iştirakçıya çevrilməklə Azərbaycan Respublikası öz milli təhlükəsizliyinin səmərəli təmin edilməsi üçün də unikal imkanlar eldə etmişdir" [Babaoğlu, 2009:257]. Bu imkanların reallaşmasında azərbaycançılıq ideologiyası həlledici amil olmuşdur.

Azərbaycan Respublikasının milli-ideoloji təhlükəsizliyinin təmin olunmasının, azərbaycançılığın ümumi və xüsusi prinsipləri mövcuddur. Ümumi prinsiplər qanunçuluq, şəxsiyyət, cəmiyyət və dövlətin həyati mühüm maraqlarının balansına riayət olunması, ideoloji təhlükəsizliyin təmin edilməsinə məsuliyyət daşınmasıdır. Akademik R.Mehdiyev milli ideologiya ilə aşılanmış vətəndaşlığın dövlətin öz tərəqqisini, təhlükəsizliyini, ərazi bütövlüyünü, nəsillərin və milli ruhun varisliyini təmin etmək səylərinin əsas amilinə çevrildiyini göstərir: "Tarixi inkişafın mənasını, intellektual fenomeni və mədəni irsi özündə birləşdirən azərbaycançılığı bu gün belə təsəvvür edirik. Belə ideologiya millətin birliyinə, onun ruhunun əzəmətinə və sosiumun fəaliyyətinin məqsədyönlülüyünə çalışaraq gələcəyə körpümüz olmağa

qadirdir. Dövlət siyasətinin strategiyası olan azərbaycançılıq dolğun ideologiyanın bütün keyfiyyətlərini qazanır, Azərbaycan xalqının bugünü və gələcəyinin qavranılması və qiymətləndirilməsini müəyyən edir. Milli dövlət öz suverenliyini qorumağa, milli rifahın maksimum səviyyəyə çatmasına nail olmağa çalışır və s. məhz belə qavrama prizmasından yanaşaraq vurğulamaq lazımdır ki, müasir Azərbaycan dövləti öz vətəndaşlarının təhlükəsizliyini təmin etməyə və onların sosial rifahına təminat verməyə qadirdir" [Mehdiyev, 2016:25].

Azərbaycançılığın xüsusi prinsipləri bütün ideoloji təhlükəsizlik təsisatı üçün xarakterikdir. Onlar aşağıdakılardan ibarətdir: İdeoloji pluralizm sistemində azərbaycançılıq, milli dövlətçilik ideologiyasının yer tutması; Dini, milli bərabərlik və mədəni müxtəlifliyə hörmət; Aşkarlıq, tolerantlıq; İqtisadiyyatın ideoloji stimullaşdırılmasının ideologiyaların iqtisadi stimullaşdırılması ilə birləşdirilməsi; Cəmiyyətin iqtisadi və mənəvi inkişafının təmin edilməsi; Azərbaycan mədəniyyətinin özünəməxsusluğuna və çoxcəhətliliyinə hörmət və xarici təcrübənin ağıllı əxz olunması. "Millət- Azərbaycan, milli ideya, dövlətçiliyin sivil ideya modeli- azərbaycançılıq! - iki əsrlik nəzəri-ideoloji fikrimizin yekunu, sonuc qənaəti bu gün bu iki düsturla formulə edilir" [Qarayev, 2002]. Buradan belə qənaətə gəlmək olar ki, azərbaycançılıq ideologiyasının tarixi zəmini təhlükəsizlik ideyası kimi min, min beş yüz il və daha qədimlərə gedib çıxır.

XX əsrin sonlarında dəyişikliklər nəticəsində cəmiyyətin ideoloji məkanında mono ideologiyadan ideoloji müxtəlifliyə keçid baş verdi. Postsovet Azərbaycanında azərbaycançılıq milli-dövlətçilik ideologiyasına çevrildi, milli təhlükəsizliyin ideoloji istiqamətlərində mühüm yer tutdu.

İdeoloji təhlükəsizlik siyasi təhlükəsizliyə əsaslanır. Dövlət hakimiyyəti müasir cəmiyyətdə ideoloji təhlükəsizliyin başlıca obyekti olub aşağıdakı məqamlarla şərtlənir: "Birincisi, müəyyən dəyər, ideya və prinsiplərin məcmusu əsasında dövlət hakimiyyətinin sistem kimi səmərəli fəaliyyəti öz elementlərinin mövcud qarşılıqlı əlaqələrinin möhkəmlik dərəcəsinin zəruriliyi təmin edilir. İkincisi, dövlət hakimiyyətinin fəaliyyəti onun ideoloji mühitinin şəraitinə tabedir. Üçüncüsü, dövlət hakimiyyəti bütövlükdə dövlətin ideoloji təhlükəsizliyinin təmin olunmasının əsas amili kimi çıxış edir"[Поярков,2011:153]. Müəyyən ideya prinsip və dəyərlərin məcmusu, dövlət və onun iradəsi, vətəndaşların cəhdləri dövlət hakimiyyətinin fəaliyyətinin zəruri şərtidir. İdeologiyanın zəifləməsi dövlətin məhv olmasına gətirib çıxara bilər.

Bir sözlə, ideoloji təhlükəsizlik dövlət hakimiyyətinin sistem kimi keyfiyyətidir. Dövlətin və cəmiyyətin milli təhlükəsizlik strategiyasında ehtiyatlar və potensiallar vasitəsilə ideoloji təhlükəsizliyin təmin edilməsi modernləşmə və onun tərkib hissəsi olan sosiomədəni transformasiyalarla sıx əlaqədardır.

Milli təhlükəsizlik haqqında 2004-cü il iyunun 29-da Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Bu Qanunda milli təhlükəsizliyin ideoloji istiqamətləri öz əksini tapmışdır: "O, bir tərəfdən ölkənin etnik-milli birliyinin təminatıdırsa, digər tərəfdən ümumi müqqədəs məsləkə nail olmaq üçün dövlətin təhlükəsizliyini ehtiva edir, milli həmrəyliyin vahid məqsəd naminə səfərbəredici ideoloji gücünə çevrilir. Bu güc milli təhlükəsizliyin təmin olunması baxımından əsas istiqamətləndirici amil rolunu oynaya bilər. Təbii ki, bu ideya istər hərbi gücün, istərsə də siyasi, iqtisadi gücün təşkiledici mayası sayılır. Azərbaycançılıq ideyası geosiyasi parametrlərimiz nöqteyi-nəzərindən araşdırıldıqda labüd olaraq müəyyən zaman anlamında siyasi vasitəyə çevrilir" [Xəlilov, 2006:155-156]. Deməli, milli təhlükəsizliyi təmin etmək üçün azərbaycançılığı inkişaf etdirmək lazımdır. Bir sözlə, azərbaycançılıq Azərbaycanda dövlətin, cəmiyyətin və vətəndaşların təhlükəsizliyini təmin edən fenomendir.

Azərbaycançılıq təhlükəsizlik məsələlərində də milli maraqlara cavab verir və bu ideya dövlətin təhlükəsizliyinin əsas komponentidir. Azərbaycançılıq bütün ölkənin milli təhlükəsizliyini təmin edən milli birlik və stabilik ideologiyasıdır. Azərbaycançılığın bir ideologiya kimi təşəkkülünü publisistika ilə, ədəbiyyatla, mədəniyyətlə əlaqələndirən İ.Həbibbəyli onun siyasi ideologiyaya və dövlətçilik proqramına çevrilməsini Heydər Əliyevin fəlsəfi konsepsiyası ilə əlaqələndirir, daha doğrusu, ümummilli liderin kəşfi hesab edir. Ədəbiyyat və dövlətçilik probleminə də bu istiqamətdə yanaşır. Akademik İsa Həbibbəylinin

nəzəri görüşlərində ədəbi təsir probleminin yenidən dəyərləndirilməsi, miqyasının genişlənməsi məsələsi ilə bağlı irəli sürdüyü müddəalar və fikirlər də diqqəti cəlb edir. Onun üçün təsir təkcə ənənə və ədəbi əlaqədən ibarət deyil. Problemə həm ənənəvi, həm də müasir multidissiplinar mövqedən yanaşan alim əlaqə probleminin aspektlərinin xeyli genişləndiyini müşahidə edir və özü yeni üfüqlərin daha da açılması üçün elmi, əməli fəaliyyət göstərir [Məmməd, 2019].

Beləliklə, azərbaycançılıq müqəddəs milli ideyadır - xəlqilik, vətənpərvərlik və təhlükəsizlik ideologiyasıdır. Azərbaycançılıq cəmiyyətdə birliyi möhkəmləndirmək, sabitlik yaratmaq, azlıqlara mehribanlıq və birgəyaşayışı yaratmaqla ölkədə təhlükəsizliyin təmin olunmasına xidmət edir. Deməli, ölkəmizdə bütün milli azlıqların və titul xalqın mənafeyini ifadə edən azərbaycançılıq ideologiyası Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərinin optimal bazasını təşkil edir.

Azərbaycançılıq vətənpərvərlik və tolerantlıq ideyaları ilə vəhdətdə olub milli təhlükəsizliyimizin ideoloji istiqamətlərindən biri kimi özünü göstərir. "Azərbaycançılıq vətənçilik ideyasının cəmiyyətdə tam bərqərar edilməsi üçün hüquqi-ideoloji, mənəvi-psixoloji bazanın daha da möhkəmləndirilməsi lazım gəlir ki, buda milli-dini mənsubiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyinin təmin edilməsi, ayrı-seçkiliyə, dini dözümsüzlüyə yol verilməməsi ilə mümkündür" [İbrahimov, 2016:73]. Deməli, burada Azərbaycanın milli təhlükəsizliyinin ideoloji istiqamətlərində vahid azərbaycançılıqdan, mədəniyyət, din, mənəviyyat, dil, ərazi birliyindən, milli və dini tolerantlıqdan müxtəlif millətlər arasında yaxınlıqdan, vətənpərvərlikdən, xalqların monalit birliyindən gedir.

Müstəqillik dövründə ümummilli lider Heydər Əliyev azərbaycançılığın əsas cəhətləri olaraq ümumbəşəri və milli mənəvi dəyərlərin vəhdətini, sintezini, xalqımızın mənəviyyətinin qorunması və zənginləşdirilməsi olduğunu göstərir. Azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin əsas ideologiyası hesab edən Heydər Əliyev deyirdi: "Biz azərbaycanlığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"[Heydər Əliyev, 2003:308]. Deməli, Ulu Öndər azərbaycançılığı geniş təsir gücünə, təhlükəsizliyi təmin etməyə qabil olan, ölkəyə, dövlətə, cəmiyyətə və xalqa məhəbbətdə, sədaqətlə xidmət etməkdə təzahür edən mühüm amil hesab edirdi.

S.Vəliyeva azərbaycançılığın təhlükəsizliyin ideoloji istiqamətlərindən biri kimi praktiki əhəmiyyətini xüsusi qeyd edir: "Azərbaycançılıq ideyasının praktiki mənası Azərbaycan dövlətçiliyinin, Azərbaycan dilinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərin, mütərəqqi adət-ənənələrin qorunub saxlanılmasını, əbədi yaşamasını özünün milli və vətəndaş borcu hesab edən insanların yetişdirilməsidir. Elə insanların tərbiyə edilməsidir ki, bu insanlar sadaladığımız dəyərlərlə fəxr edərək, onların qorunması missiyasını nəsildən nəslə ötürsün"[Vəliyeva,2002:102]. Müəllif azərbaycançılığı dövlətçiliyin, milli mədəniyyətin, millətin və vətəndaşların təhlükəsizliyini əbədi hifz edən bir vasitə hesab edir.

Beləliklə, milli ideologiya cəmiyyətdə milli birliyi və millətlərarası ümumxalq münasibətləri qorumaq, millətin tarixdə mövqeyini izah və təsdiq etmək üçün yaradılır. Bundan əlavə milli ideologiya xalqın milli-mənəvi varlığının başlıca əlamətlərindəndir. O, xalqın kimliyini göstərən təfəkkür, adət və ənənələr sistemidir. Dil, din, ərazi və ideoloji birlik millət və milli dövlətin tarixi varlığının əsas rəmzləridir. "Milli ideologiya xalqımızın milli idealı olan azadlıq və müstəqilliyin, milli inkişafın təmin olunmasına, ərazi bütövlüyünün qorunub saxlanılmasına xidmət etməlidir. Milli ideologiya xalqın inamının, əqidəsinin, düşüncəsinin mənbəyi və hərəkətverici qüvvəsi kimi milli dövlətçiliyin qorunmasına xidmət edir" [Orucov, 2012:234].

**Nəticə.** Qeyd etdiyimiz kimi azərbaycançılıq ideyası ta qədim dövrlərdən indiyədək xalqımızın ictimai təfəkküründə təhlükəsizliyi təmin edən səfərbəredici və birləşdirici fenomendir. Müstəqillik dövründən azərbaycançılıq milli-dövlətçilik ideologiyası olaraq Azərbaycanı mədəni-mənəvi təhdidlərdən qoruyan, milli təhlükəsizliyinə xidmət edən, ölkəmizi yüksək və təhlükəsiz inkişaf edən dövlətlərdən birinə çevrilməsinə geniş imkanlar açan bir ideologiyadır. Müasir dövrdə azərbaycançılıq ideologiyası dövlət ideologiyası olaraq öz təsir dairəsini genişləndirərək ölkəmizin sosial, siyasi, iqtisadi və mədəni cəhətdən daha da inkişaf etməsinə zəmin yaradır.

Azərbaycan ordusunun 2020-ci il sentyabrın 27-də başlatdığı 44 günlük İkinci Qarabağ Müharibəsi- Ermənistan tərəfindən işğal olunmuş Azərbaycan ərazilərinin azad edilməsi uğrunda genişmiqyaslı hərbi əməliyyatlarda azərbaycançılıq ətrafında birləşən milli azlıqların nümayəndələri də iştirak etmişdir. Onlar vahid vətənləri olan Azərbaycanın 30 ildən artıq işğal altında olan torpaqlarını azad etmək, ölkəmizin milli təhlükəsizliyini qorumaq, ərazi bütövlüyünü təmin etmək üçün Qarabağda hərbi əməliyyatlarda şəhid, qazi və qalib olaraq 44 gündə erməni işğalına son qoydular. Ermənistan ağır itkilər verərək, məğlub oldu. Ölkənin bütün vətəndaşları kimi, onlar da azərbaycançılıq ideologiyası ətrafında sıx birləşərək hər zaman Azərbaycan dövlətinin, Azərbaycan Prezidentinin yanında oldular. Bununla da onlar sübut etdilər ki, Azərbaycan Konstitusiyasında göstərildiyi kimi, azərbaycançılıq "Azərbaycan xalqının vahidliyini Azərbaycan dövlətinin təməlini təşkil edir. Azərbaycan Respublikası bütün Azərbaycan Respublikası vətəndaşlarının ümumi və bölünməz vətənidir" [Azərbaycan Respublikasının Konstitusiyası, 2018]. Beləliklə bütün postsovet məkanda "dondurulmuş" münaqişələr arasında yalnız "Dağlıq Qarabağ münaqişəsi" Azərbaycanda iqtidar-xalq-ordu birliyi sayəsində, hərbi-siyasi, diplomatik yolla öz uğurlu həllini tapdı. Bu isə Cənubi Qafqaz regionunda yeni geosiyasi reallıq yaratdı.

Araşdırmalar göstərir ki, milli təhlükəsizliyin ideoloji istiqamətləri ictimai həyatın müxtəlif sahələrini əhatə edən çoxtərəfli prosesdir. Burada mənəvi təhlükəsizlik, əqli, dini, mədəni, etnik, informasiya və ideoloji təhlükəsizlik əsas yer tutur.

Azərbaycan Respublikasının milli təhlükəsizliyinin ideoloji istiqamətlərində azərbaycançılıq ideologiyası əsas yer tutur. Azərbaycançılıq mütərəqqi birgə yaşayış modeli olaraq müxtəlif xalqların mədəniyyətlərinə və dinlərinə tolerant münasibəti, qarşılıqlı dözümlülüyü ifadə edir. Azərbaycanın milli mədəniyyətini, milli-mədəni dəyərlərini, adət-ənənələrini mühafizə etməklə milli təhlükəsizliyə öz töhfələrini verən azərbaycançılıq ideologiyası milli kimliyin inkişaf konsepsiyası kimi də çıxış edir.

Azərbaycançılıq vətənpərvərlik ideyası ilə vəhdət təşkil edir, dövlətçiliyin, onun təhlükəsizliyinin təmin olunmasına xidmət edir. Ölkənin milli təhlükəsziliyinin müdafiəsində azərbaycançılıq ideologiyası milli güc mənbəyi olub etnik-milli, dövlət maraqlarının təminatçısıdır. Hazırkı şəraitdə azərbaycançılıq ideologiyası özündə həm vətənpərvərliyi, həm də dövlətçiliyi ehtiva etməklə aktual əhəmiyyət kəsb edir. Bu gün Azərbaycançılıq ideologiyası dövlət quruculuğu və təhlükəsizlik doktrinasdır.

**İstifadə olunmuş ədəbiyyat:**

Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Hüquq Yayın Evi, 2018, 92 s.

Babaoğlu H. Azərbaycan Respublikasının müasir dünya siyasətində yeri və rolu. Bakı: Aypara-3, 2009, 328 s.

Heydər Əliyev və milli-mənəvi dəyərlər. Bakı: Səda, 2003, 428 s.

Xəlilov C. Milli təhlükəsizlik mənlik şüuru kontekstində. Bakı: Vətən, 2006, 220 s.

İbrahimov Ə. Azərbaycançılıq ideyasının konseptual aspektləri. Bakı: Avropa, 2016, 180 s.

Qarayev Y. Milli mən şüuru və etnik yaddaş-azərbaycançılıq // "Azərbaycan" qəzeti, 14-16 fevral 2002-ci il.

Mehdiyev R. Azərbaycançılıq- milli ideologiyanın kamil nümunəsi // Multikulturalizm: ədəbi-bədii, elmi-publisistik jurnal, 2016, № 1, s. 20-27.

Məmməd T. Akademik İsa Həbibbəyli missiyası: azərbaycançılıq, analitiklik, kreativlik // "Şərqin qapısı" qəzeti, 09.10.2019, s.1.

Orucov Ə. Azərbaycan xalqı milli özünüdərk yollarında: XIX əsrin sonu- XX əsrin əvvəlləri (tarixi-fəlsəfi aspekt). Bakı: Avropa, 2012, 251 s.

Vəliyeva S. Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi. Məsələnin qoyuluşuna dair. Bakı: Azərbaycan Universieti nəşr., 2002, 140 s.

Поярков С.Н. Идеологическая безопасность государственной власти: понятие и сущность // Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики. Тамбов: Грамота, 2011, №3(9), в 3хч. Ч.1, с.152-154 с.

# NİZAMİ GƏNCƏVİ YARADICILIĞINDA İDEAL CƏMİYYƏT

**Elmira Təhməzova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun böyük elmi işçisi,
fəlsəfə üzrə fəlsəfə doktoru
elmira.r@mail.ru

**Açar sözlər:** Nizami Gəncəvi, ideal cəmiyyət, idarəetmə,sülh, hüquq, sosial idarəetmə

Dahi Azərbaycan şair-filosofu Nizami Gəncəvinin yaşadığı dövrdə ərəb dilinə çevrilən yunan müəlliflərinin, xüsusilə Aristotel və Platonun sosial-siyasi və fəlsəfi ideyaları Orta əsrlər müsəlman mütəfəkkirlərinin dünyagörüşünə böyük təsir göstərmişdir. Bu baxımdan yunan müəlliflərinin dövlət və cəmiyyət, onun idarəolunması, sosial ədalət ilə bağlı fikirləri öz əksini Orta əsrlər müsəlman mütəfəkkirlərinin əsərlərində də tapır. Lakin müsəlman Şərqində bu ideyalar İbn Sina, Əl Fərabi, İbn Xəldun və başqa bu kimi mütəfəkkirlərin əsərlərində yeni inkişaf mərhələsinə qədəm qoyur. Onlar arasında həmin dövrün filosof-şairi Nizami Gəncəvinin də adını çəkmək olar. Nizami onlardan fərqli olaraq əxi ideyalarının öz sosial-siyasi ideyaları ilə müqayisəli təhlil nəticəsində inkişaf etdirmiş və onları öz əsərlərinin sosial-siyasi ideyalarında tərənnüm etmişdir.

Orta əsrlər müsəlman mütəfəkkirlərinin sosial-siyasi ideyalarını birləşdirən ümumi cəhət, «ideal cəmiyyət», «ideal dövlət», «xoşbəxtlər ölkəsi» ideyasıdır. Bu, Orta Şərq müsəlman aləmində mövcud olan bir çox ictimai təlimlərdən biridir. Fərabinin «xeyirxah şəhər» sosial utopiyası ilə Nizaminin «xoşbəxtlər ölkəsi» sosial ideyası arasında paralellər aparmaq mümkündür. Onun sosial utopiyası ictimai gözəllik ideyasının ən hündür zirvəsidir. Bu cəmiyyətdə təbəqələşmə yoxdur və insanlar bərabər hüquqludurlar. Nizami dövrünün utopik azadlıq ideyasının ilk yaradıcısı kimi ortaya çıxır. O, bu fikirləri ilə Avropada utopik sosialistləri qabaqlamışdır.

Nizaminin ideal cəmiyyəti ilk baxışdan utopik bir cəmiyyət modeli kimi nəzərə çarpır. Mütəfəkkirə görə, bu məqsədə çatmağın əsas yolu, şəriət qanunlarına itaət etməkdən, xalqın islami prinsiplərə yiyələnməsindən, onları dərkindən və həyat tərzinə çevrilməsindən keçir. Bunun üçün xalqın maarifləndirilməsi və islam əxlaqı ilə əxlaqlandırılması vacib şərt kimi ortaya çıxır. Bu baxımdan cəmiyyətin ali məqsədə doğru inkişafı praktiki bir fəaliyyət sahəsinə çevrilir. Məhz bu yolda əsas vəzifə, həmin dövrlərdə dövrün tələbi ilə ortaya çıxan əxilik və sufilik hərəkatlarının üzərinə düşürdü. Buna görə də, dövrün mütəfəkkirlərinin və onlar arasında dahi Nizaminin məhz bu istiqamətdə fəaliyyət göstərməsi, onların dövrünün həm də fəal ictimai xadimləri olduğunu göstərir. Məhz, bu baxımdan Orta Şərq sosial-siyasi ideyaları antik dövrün formal sosial-siyasi ideyalarından öz praktikliyi və humanistliyi ilə fərqlənir.

Nizaminin yaradıcılığında utopik cəmiyyətin təsvirinə tez-tez yer verilir. O, əsasən cəmiyyətin idarə olunmasında ədalət, humanizm, mərhəmət prinsiplərinə əsaslanır. Bu da onun həm yaşadığı cəmiyyətdən narazılığını, həm də insanın yalnız xoşbəxt cəmiyyətdə xoşbəxt ola biləcəyinə inamından irəli gəlir. Nizami dövrünün naqisliklərindən – əyriliklərindən, yalançılıqdan, rüşvətdən, xəyanətdən və başqa şeylərdən çox şikayətlənir. Yəni, o yaşadığı cəmiyyətin ideal saydığı cəmiyyətdən xeyli fərqləndiyini deyir. Və xoşbəxt saydığı cəmiyyəti təsvir edir. O, doğru danışan, düz işlər görən, xeyirxah, heç kəsə pislik etməyən insanların cəmiyyətidir. Burada Nizaminin qədim Yunan filosoflarının utopik cəmiyyət təsəvvürləri ilə qismən uyğunluğu duyulur. Xüsusilə, Sokratın xeyirxah insanlar icmasına, Platonun dövlətinə qismən yaxınlıq görünür.

Nizami cəmiyyətin ali məqsədə doğru inkişafında "adil şah" ideyasına böyük əhəmiyyət verir. Platon ideal dövlətin başında filosofu görürsə, Nizami adil şahı görür. Ancaq Nizaminin adil şahı da nəcib, bilikli, əxlaqlı, geniş dünyagörüşünə malik adam olmalıdır. Bu mənada onun «adil şahı» Platonun «filosof – hökmdar» obrazına uyğundur. Bu onu göstərir ki, Nizaminin cəmiyyət və dünya haqqında təsəvvürlərinin formalaşmasında Sokrat və Platonun fəlsəfəsinin

rolu böyük olub. Nizami elə bir dövrdə yaşayırdı ki, cəmiyyətdə sosial inteqrasiya, iqtisadi qanunauyğunluqlar özünü göstərirdi. Ölkə adətən, ayrı-ayrı vilayətlərdən ibarət idi və onlar şahın fərmanı ilə idarə olunurdu. Onda belə təsəvvür yaranırdı ki, cəmiyyətdə olan hər bir hadisə (siyasi, iqtisadi, mənəvi) şahın necə fərman verməyindən asılıdır. Fərman siyasi-iqtisadi reallığı yaradırdı, əks təsəvvür olunmurdu. Məhz buna görədir ki, ölkənin hər bir uğuru və ya uğursuzluğu şahın adı ilə bağlanırdı. Ancaq onun dərin zəkası bir çox sosial problemlərə nüfuz edə bilirdi. Nizami əsərlərində hökmdarların əxlaqi simasını dəyişdirərək, psixoloji məqamlara toxunurdu.

Nizami əsərlərində bildirir ki, tarixin bütün dövrlərində insanların sülh şəraitində birgə yaşayışını təmin etmək və ictimai münasibətləri tənzimləmək üçün müəyyən sosial-siyasi ideyalara, hüquqi qaydalara ehtiyac olmuşdur. Həmişə İlahi dinlərin əxlaqi hökmlərində və hüquqi normalarında nəzəri şəkildə əks olunan bu ideyalar, onları təbliğ edən peyğəmbərlərin sosial-siyasi fəaliyyətində öz praktiki həllini tapmışdır. Bu ənənə, Şərqdə müxtəlif cəmiyyətlərə dövrün tələblərinə uyğun şəriət gətirən, təhrif olunan İlahi qanunları yenidən bərpa edən və bu ənənələri davam etdirən peyğəmbərlik məktəbi tərəfindən formalaşmışdır. Buna görə də, Nizami öz ədəbi qəhrəmanı olan İskəndəri əsərin sonunda peyğəmbərlik sifəti ilə tərənnüm etmişdir.

Nizami Gəncəvi cəmiyyəti təbiətin ayrılmaz bir hissəsi kimi səciyyələndirir. Onun sosial ədalət ideyasının təməlində İlahi eşq ideyası dayanır. Varlığı idarə edən İlahi eşq, həmçinin cəmiyyətin də idarəolunmasını təmin edir. Cəmiyyətdə xoşbəxtlik, onu təşkil edən insanların bir-birinə olan məhəbbəti əsasında bərqərar olur. Bunu İskəndəri heyrətə gətirən «xoşbəxtlər ölkəsində» olan insanların qarşılıqlı münasibətlərində müşahidə edirik. Çünki İlahi eşq insanlararası münasibətlərə sədd çəkən bütün idrak formalarını aşaraq vəhdətə, harmoniyaya gətirir.

Nizaminin sufizmdən qaynaqlanan eşq fəlsəfəsi humanizm ideyaları ilə üzvi şəkildə birləşərək ictimai xarakter kəsb etməyə başlayır. Aşiqlər humanizmin və sosial ədalətin obrazına çevrilirlər. Xeyirxahlıq eşq ilə əldə olunur. Çünki eşq qəlbi paklaşdırır, ona fədakarlıq, qəhrəmanlıq kimi pak hisslər bəxş edir, insanı əbədiyyət, həqiqət kimi uca mənalara qovuşdurur. Lakin bu uca zirvələrə yetişən əsər qəhrəmanları, yaşadıqları cəmiyyət üçün «dəli, divanə» hesab olunurlar. Məsələn, Məcnun bu cəmiyyətdə dəli-divanə kimi tanınan bədbəxt bir insandır. Onun varlığı, cəhalət qaranlığına qərq olmuş cəmiyyət üçün sönmüş bir günəşdir. Nizami Gəncəvi bununla, yəni eşq fəlsəfəsi ilə ictimai rejimin çirkinliklərini ortaya qoymuşdur. Məcnunun eşqi yaşadığı cahil cəmiyyətdə özünə yer tapmır. Deməli, Nizamiyə görə İlahi ədalətin, harmoniyanın və ictimai təkamülün əsas düşməni cahillikdir. Cahillik isə bütün varlığı vəhdətə gətirən İlahi eşqdən məhrum olanların idrakıdır. Nizami var-dövləti, vəzifəni, eyş-işrəti hər şeydən uca tutan cəhalət obrazlarını əsərlərində aydın şəkildə işıqlandırmış və onları kamil insan obrazları ilə üz-üzə qoymuşdur. Mütəfəkkir bu metodla cəmiyyətdə sosial-əxlaqi xeyir və şər problemini həll etməyə çalışmışdır.

Lakin Nizamiyə görə təbiətdə mütləq mənada ideal cəmiyyət yaratmaq mümkün deyildir. Çünki cəmiyyət kamil və cahil insanların mübarizəsindən ibarət olan bir idraki təkamül prosesidir. Cəmiyyətin ali məqsədə doğru təkamülü həm fiziki, həm də metafizik bir prosesdir. Buna görə də, ideal cəmiyyət öz son məqsədinə metafizik «cənnət» ideyasında qovuşur. Cənnət, sonralar cəhənnəm əhli olacaq kafirlərdən seçilmiş mömünlərin yeri olduğu halda, dünya hər ikisinin birlikdə mövcud olduğu yerdir. Buna görə də, onların vahid bir ideal cəmiyyətdə mövcudluğu problem olaraq qalır. Nizaminin bu baxımdan ideal cəmiyyət ideyası daha çox metafizik xarakterlidir.

Nizami problemin həllinə dialetik təkamül prinsipindən yanaşır. Ona görə, bəşəriyyəti sosial ədalətə aparan yol, kamil insanın yetişdirilməsi və tərbiyəsindən keçir. Hətta ayrı-ayrı kamil tarixi şəxsiyyətlər, peyğəmbərlər təkbaşına bu problemin öhdəsindən gəlmək iqtidarında deyildirlər. Nizami bunun üçün sərkərdəlik, hökmdarlıq, filosofluq və peyğəmbərlik mərhələlərindən keçən ədəbi İskəndər obrazını yaratmış və bununla dünyada sosial ədalətin, kamil cəmiyyət modelinin qurulmasının hər bir cəmiyyət üzvünün kamilləşməsindən asılı olduğunu, yəni ayrı-ayrı mömin şəxsiyyətlərin qurduğu vətəndaş cəmiyyətinə bağlı olduğunu

göstərmişdir. Buna görə də, Nizami Gəncəvinin əsərlərinin əsas fəlsəfi məzmunu, insan və onun özünüdərk fəlsəfəsi üzərində qurulmuşdur. Çünki sosial problemlərin həlli məhz şəxsiyyətin yetişdirilməsindən asılı olmuşdur. Eyni zamanda Nizamiyə görə, cəmiyyətdə şəxsiyyətin, kamil insanın yetişdirilməsi, təbiətin özündə potensial şəkildə mövcud olan antrop prinsipinə uyğun gəlir.

Nizami antrop prinsipini önə çəkməklə insanın təbiətdə oynadığı rolu və onun üzərinə düşən vəzifəni xatırlatmışdır. Bu rol və vəzifələr hər bir vətəndaşın üzərinə düşür. İnsan yalnız öz qurduğu cəmiyyətə görə deyil, həmçinin onu əhatə edən ətraf mühitə, təbiətə görə İlahi bir məsuliyyət daşıyır. Lakin rəiyyəti idarə etmək vəzifəsini üzərinə götürən hökmdarlar burada bir xəlifə kimi xüsusi məsuliyyət daşıyırlar. Buna görə onların üzərində xüsusi İlahi cavabdehlik vardır. Onlar təbiətdə və tarixdə müəyyən missiyanı yerinə yetirir və bunun üçün təbiət onlara bu missiyanın yerinə yetirilməsinə potensial şəkildə imkan yaradır. Nizami hökmdarları Adəm və Məhəmməd peyğəmbərin varisləri kimi dəyərləndirərək onları Humaya bənzədir. Onların həyat tərzi ilə peyğəmbərlərin həyat tərzini müqayisə edir. O, həmçinin aləmdə olan bütün varlıqların yaradılan müqəddəs bir gövhər olduğunu və hökmdarların isə onlardan biri olduğunu, lakin onlar üzərində tarixi bir missiya daşıdığını bildirir:

Nizami xüsusilə hökmdarlara bildirir ki, İlahi qanunlara itaət və onların qorunub saxlanılması, şahların üzərinə düşən ən böyük məsuliyyətdir. Daim adil, haqqpərəst insanlar, cəmiyyətdə bunların qorunub saxlanılması, yəni xalqın hüquqlarının qorunması üçün mübarizə aparmış və canlarından keçmişlər. Heç bir hökmdar isə bu əmanətə xəyanət edə bilməz:

Nizami Gəncəvi bildirir ki, yaratma, əmr və hökm Yaradana aid olduğu üçün, onlara aid olan haqq və vəzifələr də Ona aiddir. Yaradanın hakimiyyət və qüdrətini, mütləq xarakterini, onun sonsuzluğunu, varlığı yaradıb idarə etməsini təsdiq edən sifətləri vardır. Onun hakimiyyəti öz əksini varlıqda tapır və obyekt üzərində reallaşır. Yaradanın Mutləq hakimiyyətinin bir təcəllisi olan dövlət İlahi hakimiyyətin gerçəkləşməsində bir vasitədir. Dövlət qanunlarla mövcuddursa, qanunlar da İlahi hakimiyyətlə müəyyənləşir. Nizami Yaradana «Ey Şahi Cahan», «Dünyanı yaşadan ey Sahibi-taxt» ifadələri ilə müraciət edir.

Beləliklə, Allah qanunlarla idarə olunan ədalətli cəmiyyətin varlığında təcəlli olunur. Nizamiyə görə, sosial-əxlaqi münasibətlər həm qorxu, həm də sevgi üzərində qurulur. Hər iki əxlaqi davranış cəmiyyətdə sosial siyasi balansı qoruyub saxlayır və geniş mənada inkişafa təkan verir. Çünki bu sevgi «qardaşlıq sevgisi» kimi həm cəmiyyətə, həm də Allahın təcəllisi olan təbiətə sirayət edir:

Nizami hakimiyyətin Yaradana məxsus olduğunu vurğulayaraq, buna əsərində bir neçə misal gətirir. Tarixdən məlum olduğu kimi, Məhəmməd Peyğəmbərin Sasani şahı Xosrova tarixi məktubu vardır. Lakin Xosrov bu məktuba sayqısız yanaşdığı üçün İlahi iradə tərəfindən cəzalandırılmışdır.

İslamın siyasi ideyalarına istinadən şair mütləq hakimiyyətin və idarənin Allaha aid olduğunu vurğulayır. İnsan bu məsuliyyəti öz üzərinə götürsəydi, cəmiyyətdə heç bir zaman nizam və ədalət bərqərar ola bilməzdi. O, boynuna düşən vəzifə və məsuliyyətini yerinə yetirmək üçün, hüquq və azadlığa ehtiyac duyur. Onun hərtərəfli kamilləşməsi ilə əlaqədar hüquq və vəzifələri müəyyənləşdirildiyi kimi, cəmiyyətlərin də maddi və mənəvi inkişafı ilə bağlı hüquq və vəzifələri Mütləq Ədalət prinsipinə əsasən müəyyənləşdirilir. Nizami bunun Allahın Peyğəmbər ilə göndərdiyi İlahi qanunlarda tərənnüm olunduğunu bildirir. Bütün insanlar bu baxımdan qanun qarşısında bərabərdirlər. Bu bərabərlik, bütün insanların səadətinə təminat verir. kimi həmin ölkədə insanın öz din, mal, namus, vətən və canlarını qorumaq və inkişaf etmək üçün öz dövlətlərinin yaradılması zərurəti meydana çıxmır. Yəni, dövlətin mövcud olmadığı bir şəraitdə insanlar təbiətdə olduğu kimi bir cəmiyyət halında İlahi hakimiyyətin iradəsinə tabe olurlar. Onlar İlahi eşqin qanunları ilə idarə olunur və idarə edirlər. Bu cəmiyyət cəhalətdən xilas olan və mənəvi təkamülün zirvəsinə yüksələn kamil insanların cəmiyyətidir.

Lakin dövlətdən azad olan bu «xoşbəxtlər ölkəsi» cəmiyyəti özündən azad ola bilməmişdir. Bununla Nizami onu göstərmək istəmişdir ki, insan bir fərd kimi əzəldən cəmiyyətdən kənarda mövcud ola bilməmişdir. Cəmiyyətdə mövcud olan ziddiyyətlərin kökü,

əslində fərdlər arasında olan maddi-mənəvi disbalansdan yaranmışdır. Lakin hər bir fərdin mövcudluğu cəmiyyətin varlığından asılı olduğu üçün, cəmiyyətin birliyi və hüquqiliyinin qorunub saxlanılması da zərurətdən irəli gəlir.

Nizaminin sosial-fəlsəfi fikirlərində müəllimin rolu məsələsi ən mühüm yerlərdən birini tutur. Təlim prosesində müəllim-şagird münasibətlərinin əhəmiyyəti müxtəlif mütəfəkkirlərin diqqət mərkəzində olub. O, müəllim-tələbə münasibətlərinə təkcə öyrədən-öyrənən bağlılığında baxmır. Onun biliyi ilə yanaşı, əxlaqı, insani keyfiyyətləri də böyük rol oynayır. Yalnız nəcib və əxlaqlı insan müəllim ola bilər. Bu ciddi, prinsipial və muasir təsəvvürlərlə səsləşən mövqedir. İndi təlimin etik-mənəvi tərəfi barədə çox yazılır, müzakirələr aparılır. Bu işdə Nizaminin fikirləri kompas rolunu oynaya bilər. “Ağıla nur” və “ürəyə qüvvət” yalnız "tərbiyə, hünər, nəzakət" bir yerdə olduqda əhəmiyyətli təsir verə bilir. Aydın görünür ki, Nizami təfəkkürlə ruhun (mənəviyyatın, hislərin) vəhdətindən danışır. Onun üçün ifadənin möhkəmliyi ilə əqlin itiliyi bir-birini tamamlayır və bu mənada birinin digərindən ayrı mövcudluğu mümkün deyil. Bunların vəhdətinə isə müəllimin insani keyfiyyətləri ilə yüksək biliyi bir-birini tamamladıqda nail olmaq olar.

# ПРОБЛЕМЫ СОЦИАЛЬНОЙ ФИЛОСОФИИ В УСЛОВИЯХ ПАНДЕМИИ

**Светлана Адыгезалова**
Азербайджанский Государственный Педагогический Университет, доцент кафедры «Философия и социальные дисциплины», доктор философии по философии
asvet53@mail.ru

**Ключевые слова**: социальная философия, глобализация, пандемия, трансформация социального познания.
**Açar sözlər**: sosial fəlsəfə, qlobalaşma, pfndemiya, sosial idrakin transformasiyası.

Многообразие проблем социальной философии эпохи глобализации дополнилось фактором пандемии, которая не только ставит неожиданные задачи перед познанием, но и свидетельствует о начале новой эпохи развития человеческой цивилизации. Такие масштабные социальные процессы, как глобализация, становление постиндустриального и информационного общества, не могли не трансформировать логику развития познания. А постнеклассическое и постмодернистское мировоззрение, соответственно, не могло не изменить традиционные методы познания. Пандемия переводит многие процессы из реального пространства-времени в режим виртуальности, такие масштабные институты, как образование, здравоохранение и другие ускоренными темпами осваивают режимы он-лайна.

Страны мира с различным уровнем развития противостоят вызовам схожих проблем по отличающимся методам, зависимым от потенциала этих стран. И это в значительной мере тормозит процесс генезиса общечеловеческих ценностей и ожесточает борьба за сохранение традиционных ценностей, транслятором которых в каждом конкретном случае выступает та или другая интерпретация этно-религиозного наследия, облекаемая в форму социальной доктрины, способной объяснить любую проблему общества. Такой осознанный примитивизм импонирует сознанию масс, находящихся под гнетом не воспринимаемых до конца теорий, формирует протестное настроение, множит фобии и недоверие между носителями различных культурных традиций. Войны «возмездия» создали ситуацию новых вызовов как в мировой политике, так и в культуре.

Продолжается крушение традиционных институтов государства, сложившихся норм политики, демократии и общечеловеческой морали. Идет напряженный поиск новых моделей этики взаимоотношений цивилизаций, культур и народов, в которых возрастает роль религии, а это требует своего объяснения. Имеется в виду современная тенденция, при которой в первую очередь развивается не культурная, а политическая составляющая религии. Замена реальных социальных и политических проблем мифологемами религиозного сознания весьма опасная практика, что подтверждается многочисленными межэтническими конфликтами, за которыми незримо (а иногда и открыто) стоят ложно интерпретированные религиозные ценности.

Тенденции глобальной пандемии в мировом масштабе приводят к сворачиванию многогранности традиционных человеческих качеств, усиливают попытки стирания идентичности личности по менталитету, этносу, расе и национальности. В этих условиях одной из важнейших проблем становится сохранение достигнутой веками свободы человека. Той свободы, которая определяется возможностью личности мыслить и поступать в соответствии со своими представлениями и идеями, а не вследствие внешнего принуждения. Произвольное ограничение свободы личности, жесткая регламентация ее сознания и поведения, низведение человека до роли простой «детали» в социальных и технологических системах наносит ущерб, как личности, так и обществу.

Современному обществу необходима такая модель социального познания, которая способна нивелировать основные риски и угрозы глобализации и пандемии.

Современный процесс глобализации следует рассматривать как, пусть и радикальный, не имеющий аналогов, но закономерный этап социальной эволюции. Но можно ли такую же оценку вынести процессу пандемии? Конечно же, нет! Скорее, это результат, издержки неуправляемости многими сторонами глобализации, которую в первую очередь необходимо проанализировать как проблему социальной философии, возникшую в результате человеческой деятельности, основанной на определенных ценностях.

Процесс глобализации в значительной мере поддерживается уровнем развития информационного общества. Поэтому необходимо выявить сущностные черты современного информационного общества, характеризующиеся спецификой технологических процессов, средств массовой коммуникации. Человек такого общества – «хомо информатикус» - является частью глобализирующегося мира, но пандемия вносит в этот процесс дезинтеграционные тенденции, она уже привела к национальной замкнутости, росту сепаратистских настроений, государственному эгоизму. Прежде чем бороться с этими явлениями, необходимо их изучить, что становится главной проблемой современной социальной философии.

Современный этап глобализации обусловил переход функции интеграции человечества к средствам массовой информации. В данном утверждении есть нечто виртуальное, замена реального объединения людей в обществе новыми средствами коммуникации. СМИ – создают новую форму объединения, при которой люди могут и не иметь информации о специфике жизни других людей, которые совместно участвуют в общей социальной интеграции, происходящей на новом уровне посредством разнообразных информационных систем. Новая социальная коммуникация реализуется в выстраиваемых компьютерных сетях, объединяющих большие группы людей с общими интересами и потребностями.

Если глобализация продолжится как процесс, охватывающий весь мир, связывающий структуры, культуры и их институтов, то малые государства и общества в результате превратятся в подэлементы более крупных систем, проповедующих идеи свободного мирового рынка, глобальной массовой культурой и мирового информационного сообщества, которому малые государства будут понуждаться делегировать свои суверенные права.

Угроза для жизни человека исходит теперь не от внешнего врага или некогда дикой природы, а от «второй», созданной руками самого человека искусственной природы, которая ведет к росту числа глобальных экологических катастроф. Прежние оптимистические прогнозы различных футурологов, как и идея непрерывного прогресса человечества, сегодня не вызывают общественного доверия. Проблемы выживания в этих новых условиях существования все чаще становятся предметом размышлений ученых и философов.

Экономика эпохи глобализации сворачивает промышленное производство, а расширение информационных систем приводит к росту сферы услуг, которая становится основным полем приложения труда человека.

Постепенно происходит становление «третей среды» обитания человечества, которая в условиях, предоставляемых информационными технологиями, приобретает виртуальный характер. Соответственно этому масштабному процессу идет формирование новой культурной традиции, связывающей между собой реальный и виртуальный мир человека.

В этих условиях настоятельно требуется разработка новых областей социальной философии, способных объяснить происходящие изменения в жизни общества.

В целом, человечество находится в преддверие радикальной трансформации мировоззрения и становления новой проблематики социальной философии.

# ƏXLAQİ DƏYƏR VƏ BƏŞƏRİ FƏZİLƏT

**Nəzakət Salmanova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
böyük elmi işçisi,fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
naza_salmanova@mail.ru

**Açar sözlər:** əxlaq, dəyər, mənəvi dəyər, düzgünlük, hörmət, dözümlülük, funksionallıq

Dünya həmişə dəyişir, tarix heç vaxt dayanmır. Buna görə insanın müasir dünya tərəqqisi ilə yan-yana gəzməsi təəccüblü deyil. İndi Gənclik fövqəladə texnologiyalar əsrində böyüyür və inkişaf edir. Buna görə dəyişikliklər əvvəlkindən daha sürətlə gedir.

“Dəyər” nədir? Dəyərləri fəlsəfi ədəbiyyatlarda əslində “aksiologiya” adlandırırlar. Aksiologiya mədəniyyətin və fəlsəfənin bir istiqaməti olaraq insani dəyərləri öyrənən elmdir. Praktiki fəaliyyət prosesində insan intellekti vasitəsilə dəyərlərin təsnifatı verilmiş və qiymətləndirilmişdir. Təcrübə zənginləşdikcə bir çox dəyərlər nəzərdən keçirilmiş, bəziləri sıradan çıxmış, yeniləri meydana gəlmişdir.

Insanlar dəyərlər müstəvisində özlərinin əlaqə və münasibətlərdən ibarət olan dəyərlərini formalaşdırırlar. Bu formalaşdırma əlaqələrdən, təsirlərdən meydana gəlir. Insanın duyğu ilə qəbul edilən hər bir əlamət, obraz dəyərdir. Lakin subyektiv olaraq dəyər olmaya da bilər. Məsələn, bir şəxs hər bir duyğuda siqnalı özü üçün dəyərli hesab etməyə bilər. Çünki ondan zərər görə bilər. Bu baxımdan da zaman, məkan, imkan və gerçəkliklər dəyərlərdən təşkil olunur. Dəyər fəlsəfəsinə görə, dəyər-insan həyatı üçün əhəmiyyətli olan təbii və mədəni predmetlərdir, hansılar ki, onlar insanların dünyaya etdikləri təsirlərdən meydana gəlir, eləcə də öz-özünə təbii olaraq ortaya çıxır. Yüksək dəyər digərləri ilə müqayisədə, əks olan tərəflə müqayisədə meydana gəlir. Insanlar yaxşıya can atırlar; çünki pislik var, həqiqətə can atırlar; çünki yalan var, insanlar gözəlliyə məftun olurlar; çünki eybəcərlik var. Qiymətləndirmə qabiliyyəti dərketmə ilə əlaqəlidir. Dəyərlər oriyentasiyasının özünəməxsus birləşməsi (maraqlar, təqdimatlar, inamlar, inanclar, baxışlar, hisslər, əxlaq-davranış prinsipləri) hər bir insanın daxili aləminin unikallığını meydana gətirir, onun təkrarolunmaz şəxsiyyətinin və induvidiallığının bazasında qərarlaşır. Elmi baxışa görə, dəyər insanlıqla bağlıdır. Onun tarixi də insanlığın tarixini əks etdirir. Bütün mövcud problemlər dəyər problemidir. Aksiologiya XX əsrdən müstəqil elmi istiqamət kimi inkişaf etməyə başlamışdır və bir çox elmlərin qarışığını özündə cəmləşdirir.

Mənəvi dəyərlər cəmiyyətin mənəvi münasibətlərinin təzahür formalarından biridir. Bu, cəmiyyətin bir növ mənəvi dəyərləri, şəxsiyyət davranışının motivasiyasını və istiqamətini əks etdirir. Əxlaqi dəyərlər insanların hərəkətlərindən yaranır (müsbət və ya mənfi).

Mənəvi dəyərləri quruluşuna görə aşağıdakı kimi yerləşdirmək olar:

- Mənəvi tələbatlar (hər şeyin həyata keçirilməsini istəmək);
- Insanların sosial hadisələrini və ya hərəkətlərini mənəvi meyarlar baxımından qiymətləndirməsi;
- Səy göstərməyiniz lazım olan məqsədlər və onlara çatmaq üçün vasitələr.

Əxlaqi dəyərlər də bir dəyər növüdür. Əxlaq, insanın davranışını idarə edən spesifik kontekstdən qaynaqlanan qaydalardır. Əxlaq bir qrup şəxs tərəfindən qurulan adətlərdir, etik davranışları müəyyənləşdirir.

Əxlaqi dəyərlər, ilk növbədə, ümumbəşəri fəzilətlərlə, eləcə də kifayət qədər sərt yazılmamış qanunların – prinsiplər, qaydalar və normaların yaradılması ilə baglıdır. Qüsursuz, tamamilə və mükəmməl bir şəkildə ifadə olunan mənəvi dəyərlər mənəvi (əxlaqi) ideal kimi çıxış edir. Bunlar mövcud və ya baş verən hadisələrin özünəməxsus mənəvi əhəmiyyəti baxımından qiymətləndirmədən ibarətdir. Məsələn, pislik olduğu üçün yaxşılıq qiymətləndirilir, mənəvi hərəkət bir dəyər kimi çıxış edir, çünki başqa bir seçimin real ehtimalı var.

Insanların müəyyən fenomen və hərəkətlərinin mənəvi dəyərləri yalnız obyektiv amillərdən asılı deyil: cəmiyyətin sosial-iqtisadi quruluşundakı yeri və rolu, eyni zamanda subyektiv qavrayışdan, xüsusən də insanın ictimai əhəmiyyətli ehtiyac və maraqları dərk etməsindən.

Mənəvi dəyərlər, yalnız ictimai (sosial, sosial-tarixi, mənəvi) hadisələri (münasibətləri), cəmiyyət və insan üçün əhəmiyyətini səciyyələndirə bilər. Bir insanın dünyaya, özünə, gerçəklik hadisələrinə, həqiqi həyatda həqiqi mənəvi ehtiyaclarının problemli şəkildə həyata keçirilməsinə fəal maraq göstərir.

Əxlaqi dəyərlər bir insanın fəaliyyətini sosial və fərdi problemlərə yaradıcı, şüurlu bir seçim həllinə yönəltməyə qadirdir, yalnız həqiqi davranışda (əxlaqi hərəkətlər və şəxsi mənəvi xüsusiyyətlər şəklində) həyata keçirildikdə. Onların sosial gücü fəaliyyətlərdə - biznesdə, karyerada, ictimai fəaliyyətlərdə özünü büruzə verir. Əxlaqi dəyərlər insan davranışının, münasibətlərinin sosial-mənəvi tənzimlənməsində vacib amildir. Mənəvi dəyərlərdən mənəvi qaydalar yaranır.

Mənəvi dəyərlərin məzmunu insan həyatının konkret tarixi şəraiti və ondan asılı olaraq köklü şəkildə dəyişir. Bir cəmiyyətdə, hətta bir sosial qrupda yaxşı və ədalətli sayılan şey digərində qınağa səbəb olur və ya əksinə. Bütün insanlara və hər zaman uyğun gələn universal və mütləq mənəvi dəyərlər yoxdur.

Əxlaqi dəyərlər təbiətdə statik qoruyucu ola bilər, insanların reallıqları dəyişdirməməsinə, əksinə təməllərini qorumağa və mövcud həyat şərtlərinə uyğunlaşmasına istiqamətləndirə bilər. Əxlaqi dəyərlərin statik qoruyucu tərkibinin prioritet mövqeyi onların əsas yaradıcı və transformativ mənasının – insan həyatının ahəngdarlaşmasına səbəb olur. Mənəvi dəyərlərin statik qoruyucu mahiyyəti, dinamik inkişaf edən cəmiyyətin vəzifələri ilə barışmaz qarşıdurmaya girir; bu mənəvi dəyərləri "yenidən qiymətləndirməyə" ehtiyac var.

Müəyyən sosial-tarixi şəraitdə mənəvi dəyərlərin deformasiyası, məsələn, hər hansı bir fikir ayrılığının, yaradıcı fəaliyyətə məhdudiyyətlərin qoyulması və s. meylinin olduğu bir cəmiyyətdə baş verir.

Əxlaqi dəyərlərə aşağıdakılar daxildir:

1. Düzgünlük

Bu keyfiyyət dürüst olmaq kimi tərif edilə bilər. Dürüstlük səmimi, birbaşa, açıq və ya hətta düz olmağı nəzərdə tutur. Ənənəvi cəmiyyətlər bu dəyər üzərində quruldu və doğruluq bir keyfiyyət idi.

2.Hörmət

Keçmişdə hörmətin dəyəri böyüklərə hörmətlə ifadə olunurdu. Bunun səbəbi ağsaqqalların gənclərdən daha bilikli və müdrik olduqları güman edilmişdir.

3.Dözümlülük və əməkdaşlıq

Bu dəyərin izah olunması üçün bir suala diqqət yetirək. İki nəfər razı olmadıqları təqdirdə birlikdə işləyə bilərmi? Bunun ən məntiqi cavabı - Xeyr. Bunun səbəbi bir insanın həmişə digərinin çatışmazlığını görməsidir. Şəxslərin işləməsi üçün qarşıya qoyulmuş hədəflərə çatmaq üçün birlikdə fərqlərini qiymətləndirməli, məqsədlərinə uyğunlaşmağı öyrənməlidirlər. Zəif və güclü tərəflərini bir araya gətirməlidirlər. Dözümlülük, qarşılıqlı əlaqədən irəli gələn qarşılıqlı anlaşmanı əhatə edir. Hörmət, işbirliyi, qarşılıqlı faydalı əlaqələri əhatə edir. Azərbaycan tolerant ölkədir.

4.Çətin iş və funksionallıq

Ənənəvi cəmiyyətlər zəhmətin və funksionalizmin fəzilətlərini qiymətləndirirdilər. Hər şey bu cəmiyyətlərdə dəyərləri gənc nəsillərə aşılamağa yönəldilmişdir. Ənənəvi cəmiyyətlər tənbəlliyi və bu kimi digər dəyərləri dəstəkləmirdilər. Fərdlər zəhməti inkişaf etmiş bir həyat üçün vacib hesab edirdilər.

5. İnsan həyatına və şəxslərin ləyaqətinə hörmət

Insan həyatı müəyyən əxlaqi normativlərə uyaraq "düzgün" yaşamaqda və bu həyatın maddi nemətlərindən özünü çəkindirərək, əbədi həyat üçün ibadətlər ilə mənəvi həyatı qazanmağa çalışmaqda görürdülər. Ləyaqət hər kəsə istədiyi səviyyədə tam olaraq öyrədilə bilməz. Demək

ki, hər kəs müəyyən ölçülərdə tərbiyə edilə bilər, yəni ləyaqət sahibi ola bilər. Deməli, Insan həyatının ən böyük əxlaqi dəyərlərindən biridir.

6. İndiki dəyərlər

Hər bir ölkənin toxunulmaz, müqəddəs sayılan simvolları, dəyərləri var. Məsələn, müxtəlif yerlərdə dindar şəxsləri, valideynləri və ya başqa amilləri müqəddəs hesab edirlər. Hətta heyvanların belə müqəddəs olduğu ölkələr var. Lakin son zamanlar Azərbaycanda müqəddəslik məfhumuna münasibət daha da qabarıb. 2-ci Qarabağ savaşının başlanması bu anlayışın daha da ucadan fərəhlə səslənməsinə səbəb oldu. Çünki Vətən bizim üçün müqəddəsdir. Ana qədər əzizdir. Necə deyərlər ikinci anamızdır. Vətən uğrunda sevinə-sevinə ölümə gedən igidlərimizi görəndə bunu mən bir daha kəşf etdim. Yaşasın Azərbaycan əsgəri.

Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu Öndər Heydər Əliyevi görürük. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu Öndər Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli Liderimiz Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu Öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: “Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik”.

Hər bir dövlətdə olduğu kimi Azərbaycanda da dil onun milli-mənəvi dəyərlərinin tərkib hissəsi sayılır. Ona görə də Azərbaycan dilinin inkişaf etdirilməsi, onun zənginləşdirilməsi hər zaman dövlətimiz üçün prioritet olub. Azərbaycan dilini xalqın ən böyük sərvəti hesab edən ümummilli lider Heydər Əliyev çıxışlarında hər zaman vurğulayırdı ki, milli dövlət quruculuğu prosesinin çox mühüm şərtlərindən biri milli-ədəbi dil zəminində xüsusi rəsmi dil üslubunun formalaşmasıdır. Bu zərurəti nəzərə alan Heydər Əliyev 18 iyun, 2001-ci ildə “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” fərman imzaladı ki, sözügedən sənəd həmin dövrdə bu istiqamətdə atılan vacib addımlardan biri idi. 2001-ci il, avqust ayının 1-dən isə latın qrafikalı Azərbaycan əlifbasına keçilməsinə qərar verildi. Ümummilli liderin “Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında” 2001-ci il, 9 avqust tarixli fərmanı əsasında xalqımızın əlamətdar bayramları sırasına daha biri əlavə olundu. Ölkəmizdə Azərbaycançılıq məfkurəsinin inkişaf etdirilməsi, onun qorunub saxlanması da milli-mənəvi dəyərlərə xidmət etmək baxımından mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyil ki, Azərbaycançılığın əsas atributlarından biri milli dövlətçilik, digəri isə milli-mənəvi dəyərlər hesab edilir. Bu mənada Heydər Əliyevin Azərbaycançılıq ideyasının formalaşması, onun inkişaf etdirilməsi və milli-mənəvi dəyərlərin bir hissəsinə çevrilməsində müstəsna xidmətləri olub.

## Ədəbiyyat


1. Məmmədzadə İ. Transformasiya dövründə kişi-qadın əxlaq və gender davranış nümunələri. Müstəqil Azərbaycan 20 il: dövlət ailə, qadın və uşaq siyasəti. B., “Nurlar”, 2012, səh.57-61
2. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. M.J.Manafova, N.T.Əfəndiyeva, S.A.Şahhüseynova ümumi redaktəsi ilə. Bakı. Sabah, 2010
3. Новая философская энциклопедия: в 4 т. / под ред. В. С. Степина, А. А. Гусейнова и др. – М.: Мысль, 2010. – С. 585.

# AZƏRBAYCANDA DÖVLƏT GENDER SİYASƏTİ

**Mahrux Nəcəfli**
AMEA gender üzrə məsul şəxs, AMEA Qadınlar Şurası sədrinin müavini,
fəlsəfə üzrə fəlsəfə doktoru
mahru.abbas@gmail.com,
**Açar sözlər:** gender siyasəti, qadın, kişi, hüquq bərabərliyi, qərar qəbuletmə

SSRİ-nin dağılmasından sonra yaşanan keçid dövrü sovet respublikaları üçün asan olmadı. Keçid dövrü hər şeydən əvvəl bu ölkələrin sosial, iqtisadi, siyasi, mədəni həyatında miqyaslı və dərin dəyişmələr gərəkdirdi. İnsan potensialını düzgün inkişaf etdirmənin ən səmərəli yollarından biri bu region əhalisinin yarısından çoxunu təşkil edən qadınların hüquq və imkanlarını reallaşdırmaq olardı. XX əsrin ən vacib siyasət dərslərindən biri budur ki, niyyət yaxşı olsa da bir insan birliyi başqasının maraqlarını adekvat ifadə edə bilməz. Varlılar və kasıblar, müxtəlif etnik qruplar, inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında münasibətlər belədir. Qadın və kişi münasibətləri də bu qəbildən münasibətlərdir. Qadınlar öz maraqlarını özləri daha yaxşı ifadə edər, cəmiyyətdə baş verən dəyişmələr və qərarvermədə bütün vətəndaşlar təmsil olunarsa, bu, daha ədalətli olar.

Sosializm dövründə qadın və kişilərin bərabərliyi sözdə elan olunsa da, real həyatda onların səsi eşidilmirdi. Bütün yenilik və dəyişmələrin ötürücüsü partiya və dövlət idi. Milli parlamentlər qurulan kimi bütün region boyunda parlamentdə təmsil olunan qadın sayı yuxarıdan kvota ilə müəyyənləşmiş 30%-dən 4-14% arasına düşdü. Bu cür aşağı göstəriciyə baxmayaraq sovet zamanı kvota təmsilçiliyindən fərqli olaraq hal-hazırda parlamentdə təmsil olunan qadınlar öz seçicilərinin gerçək siyasi təmsilçiləridir. Qadınlar yerli idarəetmə orqanlarına seçkilərdə əhəmiyyətli uğur qazanırlar ki, bu da əhalinin maraqlarına uyğun dəyişmələrin iştirakçısı olmaq, eləcə də öz siyasi təsirlıərini artırmaq imkanı deməkdir.

Qadınların hakimiyyət strukturlarına inteqrasiyası həm sosial ədalətin təmini, həm də iqtisadi baxımdan səmərəli ola bilər. Qərar qəbuletmədə qadınların bərabər iştirakı əhatə olunan isan resursunu əhəmiyyətli dərəcədə artırır. Bu adamlar isə iqtisadiyyatın fundamentini təşkil edirlər. Qadınlar özəl sektorda, böyük müəssisələrin özəlləşməsində hələ də zəif təmsil olunsalar da ölkəmizdə artıq formalaşmış ənənələr də var. Bu regionun, o cümlədən, Azərbaycan qadınları təhsillidir və yeni iqtisadiyyatın qurulmasında bu potensialdan istifadə edilir. Kiçik müəssisələr iqtisadi artım və tərəqqinin hərəkətverici qüvvələridir və bu sahədə qadınların təşəbbüsləri artmaqda davam edir.

Ölkəmizdə dövlət və iş dairələri güclü vətəndaş institutlarının formalaşmasında maraqlıdır. Belə institutlar ictimai həyatın bütün səviyyələrində partnyor kimi fəaliyyət göstərə bilər. Ölkəmizdə fəaliyyət göstərən qadın-QHT-lərin Ailə, Qadın və Uşaq DK ətrafında birləşərək birgə işi bu sahədə işin səmərəsini artırmış olur. Beynəlxalq təşkilatların bu sahədəki fəaliyyəti də bu işə dəstək verir. Ölkəmizdə qadın-QHT-lərin sayı ilbəil artmaqda davam edir. Bu birliklər siyasi və hüquqi problemlərin həllində, qadınların iş və peşə fəaliyyətinin genişlənməsində, təhsil və səhiyyə sahəsində sosial xidmətlərin göstərilməsində göstərdikləri səy ilə ilə həm də qadın hüquqları və bərabərliyinin təsdiq formasına çevrilirlər.

Qadınların qərar qəbuletmə prosesinə qatılmasına yol açacaq vəzifə yüksəlişini siyasi və iqtisadi reformalarla mümkün hesab etmək sadəlövhlük olardı. Bunun üçün elə mühit formalaşmalıdır ki, qadınların cəhdləri alqışlansın və dəstəklənsin, onların resurs və imkanlara çıxışı təmin olunsun. Dövlət, iş dairələri, ictimai institutlar bu işi dəstəkləyən siyasət və strategiya yürütməlidirlər. Amma bunun üçün yerli idarəetmə orqanlarındakı qadın təmsilçilərdən tutmuş parlament təmsilçisi qadınlaradək hər kəs bu işə kömək etməlidir. Ölkəmizdə qadının parlament sədri seçilməsi bu proseslərə yardım edəcəkdir.

Ümumiyyətlə, qeyd etməliyik ki, Azərbaycan Birləşmiş Millətlər Təşkilatının (BMT) üzvü olan dövlətlərin 2015-ci ilin sentyabr ayında keçirilən Dayanıqlı İnkişaf Sammitində dünya liderləri tərəfindən qəbul edilmiş "2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"də əks

olunan 17 Dayanıqlı İnkişaf Məqsədi və 169 hədəfi özündə birləşdirən qlobal Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM) qoşularaq bəzi öhdəliklər götürmüşdür. Hər kəsi əhatə edən və universal xarakter daşıyan bu yeni məqsədlər Minilliyin İnkişaf Məqsədlərinin əldə etdiyi nəticələrə əsaslanır və növbəti inkişaf istiqamətlərini müəyyənləşdirir. DİM-lərin 5-ci məqsədi gender bərabərliyinə nail olmaq, bütün qız və qadınların səlahiyyətlərini artırmağa həsr olunmuşdur (bax: 1).

DİM-lərdən irəli gələn öhdəliklərlə bağlı dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 6 oktyabr tarixli Fərmanı ilə Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır. Şura tərəfindən təsdiq edilmiş Azərbaycan üçün prioritet hesab edilən məqsəd, hədəf və onlara uyğun göstəricilərin layihəsinə əsasən genderlə bağlı 5-ci məqsədə aid bütün hədəflər prioritet olaraq seçilmişdir.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında (bax: 2) ölkədə gender bərabərliyinin təmin olunmasının diqqət mərkəzində saxlanılması və onun həlli istiqamətində gender əsaslı zorakılıq hallarının qarşısının alınması, məişət zorakılığına məruz qalmış şəxslər üçün yardım mərkəzlərinin və sığınacaqların yaradılması, orta təhsildən yayınma və erkən nikahlarla mübarizə, eləcə də zorakılıq üzrə monitorinq sisteminin tətbiqi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanların təmin edilməsi, qadınların işdə irəli çəkilməsi, qadınların rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi, ana və uşaqların sosial müdafiəsi və mühafizəsinin gücləndirilməsi, uşaq bağçalarının sayının artırılması, ailə planlaşdırma xidmətlərinin inkişaf etdirilməsi, işləyən valideynlər üçün uşağa baxmanın asanlaşdırılması (BƏT-in ratifikasiya olunmuş "Ailə öhdəlikləri olan işçilər haqqında Konvensiya"sına uyğun olaraq) tədbirlərinin görülməsi nəzərdə tutulmuşdur.

Son illər Azıərbaycanda yaranan sosial mühit qadın sosiumu qarşısında da yeni tələblər qoyur. Bu, ilk növbədə qadınlarla bağlı əsrlərlə, illərlə oturuşmuş stereotiplərin dağılması, cəmiyyətdə qadının sosial rolları diapazonunun genişlənməsi ilə bağlıdır. Azərbaycanda qadınların siyasət, biznes və elm kimi ənənəvi kişi sahələrində təmsil payı artmaqdadır. Qadınlar ictimai həyatın bütün sahələrini fəal şəkildə mənimsəyirlər. Bu sahələrdən biri də elmi fəaliyyət sferasıdır. Sosial-iqtisadi mühitin dəyişməsi ilə "elmdə qadın" məsələsi də transformasiyaya uğrayıb yeni xüsusiyyətlər əldə edir. Məsələn, Azərbaycanda fəlsəfə doktorlarının, təhsilin sonrakı pillələrində qızların sayının artması faktdır.

Azərbaycanın başqa dünya ölkələri kimi informasiya dövrünə qədəm qoyması istehsalın intellektuallaşması, bir çox sahədə fasiləsiz innovasiya prosesinin başlaması elmin bütövlükdə cəmiyyətdə rolunu artırır. Elmi icmanın yaradıcı potensialından rasional istifadə məsələsinin aktuallaşması bu prosesdə alim-qadınların da rolunu nəzərə almağı tələb edir.

Gender bərabərliyi sosial ədalət, insan hüquqları, demokratiyanın təbiətinin keyfiyyəti ilə bağlı əsas anlayışlardandır. Dünya birliyinin bir hissəsi olan Azərbaycan üçün də gender balansı demokratiyanın vazkeçilməz şərtlərindən hesab olunur. Ümumiyyətlə, Azərbaycanda müasir gender durumu daha geniş regional və qlobal tendensiyaları əks etdirir. Bu vəziyyətin ən xarakterik əlaməti təhsil və səhiyyə sahəsindəki yüksək qadın təmsilçiliyi ilə yanaşı biznes liderləri və qərarvermədə təmsilçiliyin daha da inkişafına ehtiyac duyulmasıdır.

Gender amilinin ümumi siyasətə daxil edilməsi dövlətin öz strategiyaları və proqramlarının təkmilləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Gender bərabərliyi yoxsulluğun azaldılması, davamlı inkişafın təmin olunması və səmərəli idarəçiliyin qurulması üçün zəruri olan şərtlərdən biridir. Yoxsulluğun azaldılması, regionların sosial-iqtisadi inkişafı, məşğulluğun artırılması və milli iqtisadiyyatın inkişafı üzrə qəbul edilmiş strateji sənədlərdə qadınların inkişafı, gender bərabərliyinin təmin edilməsi üzrə xüsusi tədbirlər nəzərdə tutulmuşdur.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında insan kapitalının inkişafı xüsusi olaraq diqqət mərkəzindədir. Gender bərabərliyi sahəsində problemlərin həlli "dövlət siyasətinin əsas istiqamətlərində gender əsaslı zorakılıq hallarının qarşısının alınması üzrə tədbrlərin görülməsi, qadınlar və kişilər üçün əmək bazarında bərabər imkanlar yaradılması, qadınların işdə irəli çəkilməsi, rəhbər vəzifə tutmaq imkanlarının daha da genişləndirilməsi kimi məsələlər"

prioritet olaraq göstərilir(“Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası, 7.4 Gender bərabərliyinin təmin olunması və ailənin inkişafı, s.30).

**Ümumi gender statistikası**

2020-ci ilin yanvarın 1-i vəziyyətinə Azərbaycan əhalisinin ümumi sayından 50,1%-i və ya 4 milyon 999,1 nəfəri qadınlardır. Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il doğulan 139 min körpənin 46,6%-ni qız uşaqları təşkil edib. Qadınların 53,4%-i nəsilvermə qabiliyyətinə malikdir.

Qadınların sağlamlığının qorunması daim Azərabaycan dövlətinin diqqət mərkəzindədir. Ölkədə 17 doğum evi, 130 qadın məsləhətxanası, 248 uşaq poliklinikası və ambulatoriyası xidmət göstərir. İlkin məlumatlara görə, Azərbaycanda qadınlar məşğul əhalinin 48,2%-ni təşkil edir.

Ölkənin ümumi təhsil müəssisələrində müəllimlərin 80, 1%-i, orta ixtisas təhsili müəssisələrində 78,9%-i, ali təhsil müəssisələrində 52%-i, həkimlərin isə 62%-i qadınlardır. Ümumi təhsil müəssisələrində şagirdlərin 46,9%-i, orta ixtisas təhsili müəssisələrində oxuyanların 65,7%-i, ali təhsil müəssisələrinin tələbələrinin 48,2%-i qızlardır.

Qadınların elm sahəsində xüsusi çəkisi artmaqda davam edir. Elmi işçilərin 58, 1%-ini qadınlar təşkil edir. Son 5 ildə həm elmlər doktorları, həm də fəlsəfə doktorlarının sayı 1,3 dəfə artmışdır. Azərbaycan Milli Elmlər Akademiyasının həqiqiq üzvlərindən 9-u qadın, müxbir üzvlərdən 12-si qadındır.

Dövlət qulluğunda çalışanlar arasında qadınların xüsusi çəkisi ilkin məlumatlara görə, 28,6%, sahibkarlar arasında isə 21,5% qadınlardır. Bədən tərbiyəsi və idmanla məşğul olanların 42%-i qadınlardır.

Məşğul əhalinin ümumi sayında məşğul qadınların xüsusi çəkisi 48,2% təşkil edir, onlardan 78,1%-i özəl sektorda, 21,9%-i isə dövlət sektorunda çalışır. Sahibkarlar arasında qadınların xüsusi çəkisi artaraq 2011-ci ildə 16,2 % -dən, 2018-ci ildə 21,5 %-dək yüksəlmişdir.

Hazırda təhsil və səhiyyə sahəsində çalışanların 70%-i, bədən tərbiyəsi və idmanla məşğul olanların 42 %-i qadınlardır (bax: 3).

Bu vaxta qədər həyata keçirilmiş tədbirlər nəticəsində Azərbaycanda orta və ali təhsil sahəsində gender bərabərliyinə nail olunmuşdur (15-24 yaşlı qadınlar və kişilər üzrə savadlılıq səviyyəsi 100% təşkil edir). Bu bərabərliyin ölkədə baş verən çevik sosial-iqtisadi inkişaf zamanı qorunub saxlanılması Azərbaycan hökumətinin əsas prioritetlərindən biridir. Azərbaycanda bütün təhsil pillələri üzrə gender bərabərsizliyinin aradan qaldırılması üzrə əsaslı nailiyyətlər əldə olunmuşdur. Orta-ixtisas təhsili müəssisələrində isə qızlar tələbələrin 65,7%-ni təşkil edir.

Ölkədə aparılan gender siyasətinin nəticəsi olaraq ictimai-siyasi həyatın bütün sahələrində xüsusilə qərarqəbuletmədə qadınların iştirakı artmışdır. Belə ki, 2005-ci ildə ölkədə keçirilən parlament seçkilərində qadın deputatlar 14 nəfər (11%), 2010-cu ildə 20 nəfər (16%)-ə, 2015-ci ildə 21 nəfər (16,8%), 2020-ci ildə yenə 21nəfər təşkil edib.

Yerli özünüidarəetmə orqanlarında da qadınların təmsilçiliyi artmaqdadır. 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində bələdiyyə üzvü olan qadınlar 4% idisə, 2009-cu ildə 26.5% , 2014-cü ildə isə 35 % olmuşdur. 2019-cu ildə keçirilmiş son seçkilərdə də bu nəticə qorunmuşdur.

**Perspektiv**

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi 2020-2024-cü illər üçün Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planı hazırlayıb. Gender bərabərliyi üzrə Milli fəaliyyət planının hədəfləri:

* gender siyasətinin səmərəliliyinin artırılması, institusional mexanizmlərin təkmilləşdirilməsi;
*gender amilinin bütün siyasət və tədbrlərə daxil edilməsi;
* qadınların kişilərlə bərabər qərarqəbuletmənin bütün səviyyələrində bərabər iştirakının artırılması;
* əmək bazarında qadınlarlın kişilərlə bərabər rəqabət qabiliyyətliliyinin artırılması;
* təhsil materiallarının gender ekspertizasının keçirilməsi;

* qızlar arasında təhsildən yayınma və erkən nikah hallarının azaldılması;
* ictimai həyatın bütün sahələrində gender stereotiplərinin və cinsi ayrıceçkiliyin aradan qaldırılması;
* əhalinin qadın hüquqları və gender bərabərliyi sahəsində biliklərinin artırılması;
* kütləvi informasiya vasitələrində gender bərabərliyinin təbliğinin gücləndirilməsi;
* gender məsələlərinə məsul şəxslərin işinin təkmilləşdirilməsi; Gender məsələləri üzrə məsul şəxslərdən ibarət Koordinasiya qrupunun yaradılması;
* qadınların iqtisadi imkanlarının genişləndirilməsi;
* əlverişsiz şəraitdə yaşayan və qadın və kişi qruplarına, o cümlədən, kənd qadınları, əlilliyi olan qadınların, məcburi köçkün, qaçqın və ahıl qadınların əsas ehtiyaclarının öyrənilməsi;
* qadınların rəqəmsal bacarıqlarının inkişafı, yeni texnologiyaların və innovativ həllərin yaradılmasında rolunun artırılması.

Bu hədəflərə çatmaq üçün Qanunvericiliyin təkmilləşdirilməsi, İnstitusional mexanizmlərin gücləndirilməsi, Məlumatlandırma və maarifləndirmə, Gender əsaslı zorakılıqla mübarizə, Təhsil və gender stereotipləri ilə mübarizə, Çətin həyat şəraitində yaşayan qadın və qızlar; Sülh və təhlükəsizliklə bağlı proseslərdə qadınların iştirakı, Siyasi və ictimai həyatda qadın və kişilərin bərabər iştirakı, Kənd qadınları ilə xüsusi iş, Təhlil və qiymətləndirmə nəzərdə tutulur.

Eləcə də "Azərbaycan Respublikasında məişət zorakılığının aradan qaldırılması və onunla mübarizəyə dair 2019-2024-cü illər üçün Milli Fəaliyyət Planı" hazırlanıb və beynəlxalq təşkilatlarla birgə müxtəlif layihələr həyata keçirilir.

Mənbələr:


1. unazerbaijan.org/az/buklet-dayaniqli-inkisaf-məqsədləri/
2. https://president.az>future_az PDF
3. stat.gov.az/sour

# ЦИФРОВИЗАЦИЯ И ПАНДЕМИЯ

**Мир Фарадж Абасов**
доктор философии по политическим наукам, докторант
Азербайджанского Университета туризма и менеджмента
kila50@mail.ru

**Ключевые слова**: цифровизация, пандемия, диджитализм, посткапитализм, футурология
**Açar sözlər**: rəqəmsallaşdırma, pandemiya, dicitalizm, postkapitalizm, futurologiya

Еще до начала пандемии коронавируса в мире произошли существенные изменения, связанные с переходом на новые информационные технологии. Большинство областей экономического развития подверглись процедуре цифровизации, которая значительно облегчила процессы производства. Вместе с тем эта процедура привела к резкому сокращению рабочих мест и исчезновению целого ряда профессий.

Информационная революция потрясла сам фундамент капитализма, что дает основание предсказать зарождение новой формации, способной функционировать без рынка или при условии его радикальной трансформации. Особенно зримо этот процесс наблюдается в наиболее развитых странах Запада.

Новая система уже находится в процессе своего формирования и апробации. Имя ей политико-экономическая система диджитализма - активно саморазвивающаяся, самая виртуальная и одновременно самая реально интегрированная в жизнь. С термином «диджитал» человечество столкнулось на рубеже двух последних веков. Цифровая печать, цифровые носители, цифровой сигнал. Компьютерные системы и системы передачи информации в процессе постоянного прогресса все глубже и глубже интегрируются во все сферы жизни. Вполне реальные объекты и субъекты межчеловеческой деятельности стали наполняться виртуальными элементами. В итоге привычный мир потихоньку поглощается и встраивается в новую мировую формацию. Если все предыдущие системы предполагали объединение людей для продвижения каких-либо глобальных целей, то диджитализму нет необходимости в больших человеческих собраниях. Бросающаяся в глаза цель – освободить человечество от всякого вида физического труда и максимально разорвать реальные связи между группами лиц и отдельными индивидами. Уже сейчас социальные сети решают намного больше вопросов, чем политические партии, в них появились свои лидеры, есть свое мерило успеха, существует возможность сиюминутных оценок значимости той или иной информации. Социальные сети вполне справляются со многими функциями государства, партий, учебных заведений, СМИ. СМИ отмирают, люди готовы читать и слушать онлайн, старый процесс очного обучения скоро будет не нужен.

Реальной человеческой связи между людьми становится все меньше, уже с детского возраста у поколения диджиталистов эмоции и переживания выносятся из реального мира в мир виртуальный. Система диджитализма не предусматривает различий пола, нации, цвета кожи, или еще чего-либо. Диджиталисты откинут все это, создавая свой мир в котором нет места отдельным странам, границам, нациям, языкам. Их страна ограничена их сетью, их язык это биты и байты, их цвет кожи, раса и пол - каприз настроения. Отныне мир будет делиться на старый и новый свет.

Соответственно, будет возникать новый мировой порядок, осложненный появлением нового типа человека, битвой за ресурсы, постоянных угроз глобальной войны. Экономика претерпит уход из реального мира в цифровой мир.

Термин «цифровая экономика», введенный в употребление в 1995 году, сегодня используется во всем мире, ООН посвящает ей свои ежегодные отчеты. Пришло осознание того факта, что сегодняшний рост ВВП стран мира во многом зависит от

развития цифровой экономики, именно в этой области, по мнению специалистов, в ближайшее время будет создаваться 70% новых ценностей в экономике.

Еще совсем недавно такая футурология считалась фантастикой, или весьма удаленным будущим. Ситуация резко изменилась после 2019 года, когда по всему миру прокатилась первая волна коронавируса. В кратчайшие сроки глобальная болезнь создала такие социально-экологические условия, которые в наибольшей степени способствуют развитию и утверждению новой посткапиталистической системы.

Цифровые данные превращаются в новый экономический ресурс, необходимый для создания стоимости и получения выгод, а контроль в области данных позволяет превращать их в «цифровой интеллект». Сбор, хранение, анализ и преобразование данных становится фактором усиления влияния на рынке.

Внедрение цифровой экономики, как и любая другая новация, порождает множество социальных, экономических и политических проблем, тем самым способствуя трансформации сознания общества и человека. И все же наиболее острый характер имеют политические проблемы, связанные со становлением новой формации, называемой посткапиталистической.

В современную эпоху диджитализма такие социальные системы, как глобальная сеть, даркнет, фейсбук и т. д. сигнализируют о начале качественно новой революции, быстро меняющей привычный мир. Мы наблюдаем эффект синергии в виртуальном пространстве, за счет общения людей разных стран мира в процессе достижения общих целей, формирование зачатков новой политической активности в социальных сетях. Твиттер, фейсбук, инстаграмм и другие системы общения и обмена информацией вызвали кризис печатных СМИ, но они породили также Интернет-войны, фейковую информацию, хакерские атаки на частные и государственные сайты и базы данных. Словом, как и любое другое социальное новшество, цифровая цивилизация несет в себе как позитивные, так и негативные последствия. Поэтому роль человека в слежении за развитием новой формации будет неуклонно возрастать. Как и будет меняться характер основной деятельности человека, проявляя специфику и основные отличия диджитализма от социализма советского толка и неолиберального капитализма. В этом ракурсе исследования хорошо видны отличие процесса становления новой формации. Прежде всего, происходит постоянное выдвижение на авансцену мировой экономики интеллекта и образования, меняющее смысл понятия социального капитала. Интеллект превращается в главный инструмент производства экономических благ. Поэтому следует ожидать изменение характера средств и затрат производства, товара, стоимости и цены на средства производства, а также вариацию их использования. Можно смело прогнозировать отход от традиционной экономики: появления «заводов без рабочих», «полей без фермеров», «средств передвижения без водителей» и т.д. Человеческое воспроизводство предсказуемо будет сокращаться, сопровождаясь новым типом воспроизводства – «роботы, создаваемые роботами». И это новое воспроизводство в гораздо более стремительных темпах будет формировать новые поколения автоматов. Уже сегодня многие идеи прогнозируемой формации реализуются на практике, способствуя появлению в обороте виртуальных «вещей», например, денег – биткойнов, блокчейнов и т.д.

Снизится вероятность мировых войн, поскольку они будут рассматриваться как неразумное использование ресурсов, что, конечно же, не отменит саму войну, как способ решения социальных, политических и экономических проблем. Будет наблюдаться снижение уровня угроз в области глобальной и социальной экологии. Может быть, на этом пути и будет преодолена пандемия коронавируса.

# PANDEMİYA DÖVRÜNDƏ ƏHALİNİN SOSİAL RİFAHINA TƏSİR EDƏN AMİLLƏR

**İlham Soltanov**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
soltanovilham@rambler.ru

**Açar sözlər: pandemiya, iqtisadiyyat, səhiyyə, siyasət, psixoloji vəziyyət**

COVID-19 adlandırılan yeni növ koronavirusun səbəb olduğu infeksion xəstəlik ilk dəfə 2019-cu ilin dekabr ayında Çinin Vuhan şəhərində aşkar olunmuşdur. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 2020-ci ilin mart ayında koronavirus infeksiyasını pandemiya olaraq qəbul etmiş və nəticədə dünyanın əksər ölkələri xüsusi rejim, karantin, fövqəladə hal və s. bu kimi ciddi tədbirlər görməyə məcbur olmuşdur. Pandemiya həmçinin ölkələrin iqtisadiyyatına və şirkətlərin maliyyə vəziyyətinə çox ciddi mənfi təsir etmiş və etməkdədir.

Belə bir şəraitdə, bir sıra qabaqcıl ölkələrdə olduğu kimi, respublikamızda da mümkün iqtisadi itkilərin qarşısının alınması və sahibkarlıq subyektlərinə dəstək məqsədi ilə, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 19 mart tarixli 1950 nömrəli Sərəncamının 10.2-ci bəndinin icrası ilə bağlı Nazirlər Kabineti tərəfindən "Koronavirus (COVID-19) pandemiyasının və bundan irəli gələrək dünya enerji və səhm bazarlarında baş verən kəskin dəyişikliklərin Azərbaycan Respublikasının iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Tədbirlər Planı təsdiq eilmişdir.

**Pandemiya dövründə səhiyyə**

Dünyada tüğyan edən koronavirus pandemiyası bütün dünya dövlətlərini çətin sınaq qarşısında qoydu. İnkişaf etmiş ölkələrin böyük əksəriyyəti çıxılmaz vəziyyətdə qalaraq virusa yoluxanların sayının azaldılması, insan ölümlərinin qarşısının alınmasında çətinliklərlə qarşılaşdılar və bununla da demək olar ki, böhranlı vəziyyət yarandı. Ölkəmiz dünyada geniş yayılmış pandemiya fonunda qətiyyət nümayiş etdirərək profilaktik tədbirlər görülmüş, insanların sağlamlığının qorunması üçün bütün lazımi işləri görməklə virusun yayılmağa başladığı dövrdən dövlət başçısının tapşırığına əsasən zəruri, qabaqlayıcı, profilaktik və təxirəsalınmaz tədbirlər görülmüşdür. Ölkə prezidentinin təşəbbüsü ilə modul tipli xəstəxanaların tikintisi xüsusi karantin rejimi dövründə ölkənin səhiyyə sisteminin indiyədək görünməmiş qlobal çağırışa və arta biləcək xəstə sayına davam gətirməsi üçün mövcud xəstəxanaların infeksion çarpayı fondunun artırılması təmin olundu. Koronavirus pandemiyası sözün həqiqi mənasında müharibədir və hazırda bütün dünya əhalisi narahatlıq içərisində yaşayır. Bu savaşın başlıca qəhrəmanları həkimlərimizdir. Pandemiyanın başladığı zamandan indiyə kimi onlarla həkim dünyasını dəyişmişdir. Bununla əlaqədar olaraq, bu infeksion xəstəliklə birbaşa mübarizə aparan tibb işçilərinin maddi vəziyyətinin möhkəmləndirilməsi istiqamətində təxirəsalınmaz tədbirlər görülmüşdür. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına və Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq qərar və sərəncamlarına uyğun olaraq İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi (Agentlik) tərəfindən 2020-ci ilin mart-dekabr ayları ərzində yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinə iş vaxtına/saatına mütənasib olaraq 145.8 milyon manat, qeyri-tibb işçilərinə isə 23 milyon manat müddətli əlavə ödənilib. Yeni növ koronavirus infeksiyası ilə mübarizə tədbirlərinə cəlb edilən özəl tibb müəssisələrində çalışan tibb işçilərinə ötən ilin aprel-dekabr ayları üzrə iş vaxtına/saatına mütənasib olaraq 385.000 manat məbləğində müddətli əlavə ödənilib. Könüllülərə adambaşına aylıq 250 manat olmaq şərtilə, 138.500 manat məbləğində mükafat ödənilib. Qeyd etmək istərdim ki, ölkəmizdən başqa dünyanın heç bir ölkəsində bü infeksion xəstəliklə mübarizəyə heç bir kəs könüllü olaraq iştirak etməmişdir.

**COVID-19 pandemiyasının yaratdığı psixoloji vəziyyət**

Psixoloji vəziyyətlə bağlı məsələyə nəzər saldıqda ölkə sərhədllərinin, məktəblərin, universitetlərin, iş yerlərinin bağlanması, insanların gəlirlərinin azalması və ya kəsilməsi, karantin qaydalarına əsasən ölkə daxilində hərəkətin məhdudlaşdırılması, hətta insanların evdən çölə çıxmasının qadağan edilməsi onlarda depressiya, yuxu pozulması, təşviş, həyəcan hissi yaratmaya bilməz**.** Sosial təcrid və karantin rejimi insanların gündəlik həyat rejiminin ciddi şəkildə dəyişməsinə, sosial fəallığının azalmasına gətirib çıxarır, bu isə öz növbəsində psixoloji gərginliyin yaranmasına səbəb olur. Uzun müddət qapalı yerdə qalmaq insanlarda "kabin hərarəti" (və ya "kabin sindromu") adlı psixoloji pozuntuya səbəb ola bilər. Bu sindrom karantin rejimi ilə yanaşı, həm də sualtı gəmilərdə, eyni nəqliyyat vasitəsilə uzunmüddətli səyahət və ekspedisiyalarda və digər bu kimi şəraitlərdə meydana çıxır. Bu hal insanlarda stress, yuxu və qida rejiminin pozulması, əsəbi davranışlar, kobud ünsiyyət və kobud zarafatlar və ya əksinə özünəqapanma və qəmginliklə müşayiət oluna bilər. İnsanların psixoloji durumunun pisləşməsi onlarda immunitetin zəifləməsinə gətirib çıxarırdı ki, belə insanlarda virusa daha tez yoluxma riskləri artırır. Virusa yoluxmağın qarşısını almaq üçün gigiyenik qaydalara əməl etməklə yanaşı, düzgün qidalanma,.ünsiyyət və davranış zamanı özünənəzarəti qoruyub saxlamağı bacarmaq lazımdır.

**Pandemiyanın iqtisadi təsirləri**

Pandemiya başlayandan bir neçə ay sonra demək olar ki dünya iqtisadiyyatı iflic vəziyyətinə düşdü. Çox sayda tanınmış böyük şirkətlər ziyana düşdü, bəziləri isə müflis oldu. Hökümət tərəfindən iqtisadiyyatı qorumaq üçün vaxtında aparılan siyasət öz bəhrəsini verdi. Bunun sayəsində iqtisadiyyatın olduqca az ziyana düşməsinə nail olundu. Dövlətin pandemiya dövründə həyata keçirdiyi qabaqlayıcı tədbirlər və eləcə də postpandemiya dövrü üçün nəzərdə tutulmuş proqramlar bir sıra ölkələr üçün nümunə oldu. Bu tədbirlər, xüsusilə pandemiya ilə mübarizə tədbirləri – 30-dan artıq ölkəyə humanitar yardımların edilməsi Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Koronavirus pandemiyasının tüğyan etdiyi ilkin zamanlarda sosial qapanma ilə əlaqədar olaraq bir çox müəssisələrin bağlanması, insanların iş yerlərinin itirməsilə əlaqədar olaraq hökumət tərəfindən təxirəsalınmaz tədbirlər hayata keçirilmişdir. Pandemiya dövründə 1 milyon 660 min muzdla (əmək müqaviləsi ilə) çalışan işçinin iş yeri və əməkhaqqı gəliri, eyni zamanda, hər ay əhalinin 23 faizindən və ya 2 milyon 340 min nəfərindən çoxuna sosial ödənişlərin davamlılığı təmin edilib. İşsiz və xüsusi karantin rejiminə görə işini itirən qeyri-formal işləyən şəxslərdən ibarət 600 min aztəminatlı şəxsi əhatə edən birdəfəlik ödəmə proqramı istiqamətində ödənişli ictimai iş yerlərinin sayının 38 mindən 90 minə çatdırılması işlərinin aparılıb. Bu il azı 12 min ailənin özünüməşğulluq proqramı üzrə kiçik müəssisələrinin qurulması, 100 minədək ailənin ərzaq yardımı ilə təminatı, işsizlikdən sığorta ödənişlərinin 20 minədək şəxsi əhatə etməsini diqqətdən qaçırmaq olmaz.

Bu müddət ərzində dövlət və qeyri-dövlət sektoru üzrə işçilərin əsassız yerə işdən çıxarılmasına, ixtisarına yol verilməyib, bu sektorda minimal işçi sayı ilə fəaliyyət davam edib, məzuniyyətə buraxılan işçilərin evdən işləmələri ilə əməkhaqlarının saxlanması təmin edilib. Bu tədbir dövlət sektorunda çalışan 910 min işçini əhatə edib.

Pandemiya bu gün də davam edir. Ümid edirik ki, dünya əhalisi həkimlərin tövsiyyələrinə əməl etməklə tezliklə bu bəşəri bəladan xilas olacaqdır.

# MÜXTƏLİF FƏLSƏFİ SİSTEMLƏRDƏ İNSAN ÖZÜNÜTƏSDİQİ PROBLEMİNƏ DAİR BƏZİ MÜLAHİZƏLƏR

**Məmmədtağı Rzayev**
Bakı Slavyan Universiteti
*m.rzayev@hotmail.com*

**Açar sözlər:** insan fəaliyyəti, həyat, fəlsəfi sistem, özünütəsdiq,mülahizələr

**Giriş**

İnsanı fəaliyyət dairəsi müxtəlif olduğundan,həyatda özünütəsdiq etməsi də müxtəlif yollarla baş verir. Bu yolların ümumiləşdirilməsinə cəhd etsək şərti olaraq aşağıdakı təsnifat meydana çıxar:

1. Elmi özünütəsdiq (incəsənət və bədii yaradıcılıq da daxil olmaqla)
2. Dini özünütəsdiq
3. Həyatda özünütəsdiq (Elmi və Dini özünütəsdiqdən başqa digər özünütəsdiq sahələri).

Elmi özünütəsdiq bir çox hallarda "ölümsüzlüy"ə gətirib çıxarır. Amma bu "ölümsüzlük" milyonlardan, bəlkə də yüz milyonlardan, Nizami, Nəsimi, Füzuli, Puşkin, Taqor, Nyuton, Eynşteyn, Leonardo da-Vinci və b. birinə nəsib olur.

Dini özünütəsdiq, ümumiyyətlə, dinə tam riayətdə özünü biruzə verir. Yaşadığımız dövrdə müxtəlif dinlərin mövcudluğu insanın da dini özünütəsdiqinin (dinlərin müxtəlifliyi baxımından) müxtəlif olmasına gətirib çıxarmışdır. Dünyada geniş yayılmış Buddizm, Xristianlıq, İslam, İudaizm və başqa dini sistemləri ayrı-ayrılıqda xarakterizə etsək bu müxtəlifliyi açıq-aydın görmüş olarıq.

**Din və özünütəsdiq**

Qeyd etmək lazımdır ki, tarixin müəyyən inkişaf dövrlərində, xüsusilə də Şərqdə, dini və elmi (incəsənət və bədii yaradıcılıq da daxil olmaqla) özünütəsdiq üst-üstə düşmüşdür. N.Gəncəvi, İ.Nəsimi, N.Tusi, M.Füzuli, C.Rumi, Əl-Qəzəli və başqalarının elmi və bədii yaradıcılığı dini dünyagörüşlə bağlı olduğundan, bu dahilər özlərini həm elmdə, həm də dində təsdiq etmişdirlər.

Ümumilikdə götürdükdə, insan istər elmdə, istərsə də dində özünütəsdiq etdikdə, elə həyatda özünütəsdiq etmiş olur. Bu nöqteyi-nəzərdən insanın həyatda özünütəsdiqi anlayışı dini və elmi özünütəsdiq anlayışlarından genişdir. Lakin dini və elmi özünütəsdiq sahələrindən başqa insan özünü həyatın digər sahələrində də təsdiq edə bildiyindən, bizi həm də həyatın bu sahələri maraqlandırır. İnsanı digər canlılardan fərqləndirən cəhətin onun biopsixososial varlıq olmasını nəzərə alaraq, hesab edirik ki, əsl insan özünütəsdiqi bioloji sosial və psixoloji (mənəvi) özünütəsdiqin heç bir sahəsindən özünü məhrum etməməlidir.

Onu da qeyd etmək lazımdır ki, mövcud dini sistemlər içərisində insanın bu cür özünütəsdiqinə islam dini daha çox önəm verir.
Bu sahələr həddən ziyadə çox və müxtəlifdir.

**Fəlsəfi cərəyanlarda insan idrakı haqqında baxışlar**

İrrasionalizm fəlsəfi cərəyanı rasional idrakın imkanlarını məhdudlaşdırır, insan şüurunun, əqlinin sonsuz imkanlara malik olmasına qarşı çıxır, əvəzində seyirçiliyi, intuisiyanı, instikti, etiqadı önə çəkirdi. İrrasionalizm fəlsəfi cərəyanının nümayəndələri fəlsəfənin əsas vəzifəsini dünyanın obyektiv qavranılmasının dərkində deyil, fərdin subyektiv dünyasının forma və normalarının müəyyənləşdirilməsində, daxili mənəvi-əxlaqi həyatının təsdiqlənməsində görürdülər. Onların fikrinə görə, insanı heyvandan əql, zəka idraki-təfəkkür qabiliyyəti deyil, ilk

növbədə əxlaqi dəyərləndirmə qabiliyyəti və fəaliyyətinin məqsəd və vəzifəsində subyetiv marağın olması fərqləndirir. Müasir qərb fəlsəfəsində irrasionalizmin aşağıdakı sistemləri və məktəbləri fəaliyyət göstərir, A.Şopenhauerin iradə fəlsəfəsi, F.Nitşse, V.Diltey və A.Berqsonun həyat fəlsəfəsi, M.Haydekker və J.P.Sartrın ekzistensializm fəlsəfəsi.

Həyat fəlsəfəsi məktəbinin banilərindən biri olan F.Nitşsenin fikirlərinə görə həyat maksimum hakimiyyətə canatmadır. O hesab edirdi ki, insanın iradəsi hansı səmtə yönəlibsə, o (insan) özünü bu sahədə maksimum təsdiq etməlidir. Nitşse özünü təsdiq edə biləcək belə insanları Fövqəlinsan adlandırırdı.

Bu məktəbin digər nümayəndəsi, Z.Freyd belə hesab edirdi ki, həyatda insanın öz mənini təsdiq etməsinə yuxarıdan Fövqəlmən (adət ənənələr, əxlaq normaları, qanunlar, ictimai fikir və s.), aşağıdan isə şüursuzluq (məhəbbət, affekt vəziyyətləri və s.) maneçilik törədir.

**Həyat fəlsəfəsi nümayəndələrinin insan inkişafına yanaşmaları**

Həyat fəlsəfəsi XIX əsrin II yarısı- XX əsrin əvvəllərində Qərbi Avropada ən önəmli yer tutan İrrasionalizm fəlsəfi cərəyanının təzahür formalarından biridir.

İrrasionalizm fəlsəfi cərəyanı rasional idrakın imkanlarını məhdudlaşdırır, insan şüurunun, əqlinin sonsuz imkanlara malik olmasına qarşı çıxır, əvəzində seyirçiliyi, intuisiyanı, instikti, etiqadı önə çəkirdi.

İrrasionalizm fəlsəfi cərəyanının nümayəndələri fəlsəfənin əsas vəzifəsini dünyanın obyektiv qavranılmasının dərkində deyil, fərdin subyektiv dünyasının forma və normalarının müəyyənləşdirilməsində,daxili mənəvi-əxlaqi həyatının təsdiqlənməsində görürdülər. Onların fikrinə görə, insanı heyvandan əql, zəka idraki-təfəkkür qabiliyyəti deyil, ilk növbədə əxlaqi dəyərləndirmə qabiliyyəti və fəaliyyətinin məqsəd və vəzifəsində subyetiv marağın olması fərqləndirir.

Müasir qərb fəlsəfəsində irrasionalizmin aşağıdakı sistemləri və məktəbləri fəaliyyət göstərir, A.Şopenhauerin iradə fəlsəfəsi, F.Nitşse, V.Diltey və A.Berqsonun həyat fəlsəfəsi, M.Haydekker və J.P.Sartrın ekzistensializm fəlsəfəsi.

Həyat fəlsəfəsi həyata bəraət qazandırılmasını arzulayır, onun mücərrəd, siyasi, iqtisadi və başqa utilitar yanaşmalarla sıxışdırılması və kasadlaşdırılmasının əleyhinə çıxırdılar.

Həyat fəlsəfəsində üç əsas məktəb fəaliyyət göstərmişdir.

1. Akademik həyat fəlsəfəsi (V.Diltey, H.Zimmel).
2. Yaradıcı təkamül fəlsəfəsi (A.Berqson və tərəfdarları).
3. İradə fəlsəfəsi (F.Nitşse və tərəfdarları).

Akademik həyat fəlsəfəsinin nümayəndələri həyatı- iradə, niyyətlər, hisslər və təəssüratlar faktı kimi müəyyənləşdirirdilər. Onların fikirlərinə görə, gerçəklik sırf təəssüratdır və ondan kənarda gerçəklik mövcud deyildir.

Yaradıcı təkamül fəlsəfələrinə görə isə əsas məqsəd təbiətin təkamülü və insan inkişafının vəhdətdə verilməsinin vacibliyidir. Onlar belə hesab edirlər ki, həyat çırpıntıdır, ehtirasdır, aramsız yaradıcı təşəkküldür.

Həyat fəlsəfəsinin etik təsvirinin yaradıcısı alman filosofu F.Nitşse olmuşdur. O, zəruri olan hər şeyin əsasında iradəni görürdü. Nitşseyə görə iradə həyatın əsasını təşkil edir. Həyat-iradənin təzahürüdür. Amma Şopenhauerdə olduğu kimi abstrakt dünya iradəsinin yox, hakimiyyət iradəsinin Nitşse fəlsəfəsinin əsasında "hakimiyyət istəyi", "hakimiyyət iradəsi", "hakimiyyətə canatma", "Fövqəlinsan axtarışları" durur . O, öz Fövqəlinsanının dini və əxlaqi normalardan və dəyərlərdən, bütlərin və dahilərin təsirindən azad olmasını istəyirdi. Nitşsenin görmək istədiyi insan mübarizə, inkişaf, təşəkkül tərəfdarı idi. Belə insanın gələcəyi hakimiyyət istəyinin hansı səmtə yönəlməsindən asılı olduğundan qabaqcadan məlum deyildi. Filosofa görə insan öz hərəkətlərindən peşman olmamalı və vicdan əzabı çəkməməlidir, əgər bu hərəkət təşəkkülə, yaradıcılığa, hakimiyyət istəyinə yönəlibsə. Onun fikrinə görə insanın adi halı nihilizm olmalıdır. Yəni o (Fövqəlinsan) nəyisə və ya kimisə inkar edə-edə daim təkmilləşməli və yeni-yeni formalarda təşəkkül tapmalıdır. F.V.Nitsşenin etikası paradoksal idi. O, belə bir tezislə çıxış edirdi ki, insanın yüksəlməsi və insanlar arasında səmimi münasibətlərin

yaranmasında əsas maneə Avropada tarixən formalaşmış və hökmranlıq edən əxlaq formalardır. Özü də bu əxlaq normaları xristianlıq dini əsasında formalaşmışdır. Onlar insanın fövqəlinsan olmasına maneçilik törədirlər. Bu səbəbdən də onları dağıtmaq və fövqəlinsanların ruhlarına cavab verəcək yeniləri ilə əvəz etmək lazımdır. Nitsşe fəlsəfəni etika kimi başa düşürdü .“İnsan dediyin bir kəndirdir, heyvanla fövqəlinsan arasında bir kəndir, özü də bu kəndir uçurumun üstündə bənd olunub. “Yıxılıb dura-dura zor-bəla ilə azca irəliləyir, qorxa-qorxa dönüb gəldiyi yollara nəzər salır, öz yaşamından dəhşətə gəlir və..Vəssalam, canını tapşırır.Budur insanın bütün həyatı!.....O adamları sevirəm ki, dünyaya kor gəlib kor getməsinlər, həyatdan bir şey anlasınlar, öləndə də arxayın olsunlar ki, ruhlarını, az da olsa, kamilləşdirə biliblər” [1, s.273]. Nitşse özü etiraf edirdi ki, “Zərdüşt belə demişdir” əsərində yaratdığı Zərdüşt obrazı Fövqəlinsan yox, adi insanla Fövqəlinsan arasında bir yoldur, bir bağdır. O, əsl Fövqəlinsanlara yaşadığı dövrdən (1844-1900) iki əsr sonra rast gələcəyinə inanırdı.

Artur Şopenhauerin etik baxışları maraqlıdır. O yazırdı ki, əgər insan həyatı müşahidə edərək özünü unudursa, onda o, idrakın tam subyekti səviyyəsinə yüksəlir və iradənin subyekti olmaqdan çıxır. “Dünya həyatı iradənin nəticəsidir. İnsan mikrokosmos deyil, dünya makroantroposdur. Əziyyət – insanın həqiqi qisməti budur. Həyat həmişə faciəvi keçir, xüsusilə onun sonu faciəvidir. Onun pessimist və irrasionalist motivləri ekzistensializm fəlsəfəsinə böyük təsir göstərmişdir. A.Şopenhauer buddizm təlimilə də yaxından tanış olmuş və “nirvana” onun etik idealının formalaşmasında mühüm rol oynamışdır” [4, s.184]. Şopenhauerə görə dünya “Közlə örtülü bir səhnədir hansından ki, insan keçməlidir. Hər şeyin hərəkətverici qüvvəsi – arzunu, istəyi doğuran həyat iradəsidir. Hətta arzular həyata keçdikdə belə insan xoşbəxtlik hissini yaşıya bilmir, bunun əvəzinə ona doyma və darıxdırma gəlir, sonra isə yeni arzu, istək və istirablar [5, s.6]. “Həyat qısadır, həqiqət isə uzaqlara sirayət edir və çox yaşayır: həqiqəti deyəyin” [5, s.11].

**Nəticə**

İnsanı digər canlılardan fərqləndirən cəhətin onun biopsixososial varlıq olmasını nəzərə alaraq, hesab edirik ki, əsl insan özünütəsdiqi bioloji sosial və psixoloji (mənəvi) özünütəsdiqin heç bir sahəsindən özünü məhrum etməməlidir.

Sonda onu da qeyd etmək lazımdır ki, mövcud dini sistemlər içərisində insanın bu cür özünütəsdiqinə islam dini daha çox önəm verir.

## Ədəbiyyat


1. Nitsşe F. Zərdüşt belə dedi / Alman ədəbiyyatı antologiyası. Bakı:“Şərq-Qərb”, -2009, -688 s.
2. Юнг. К.Г. о Психологии восточных религий и философий, М., МЕДИУМ, - 1994, -258 с.
3. Юсиф Рустамов. История социально-политических и правовых учений (курс лекций). Баку: издательство Университета «Азербайджана», -2007, -484 с.
4.Шопенгауэр А. Избранные произведения. М.:Просвещение, -1992, -480 с.
5.Шопенгауэр А. Мир как воля и представление. М.: «Эксмо», - 2015, -160 с.

# AZƏRBAYCANDA ORDU QURUCULUĞUNUN SOSİAL-SİYASİ ASPEKTLƏRİ

**Telman Niftaliyev**
Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)
Humanitar fənlər kafedrasının dosenti, sosiologiya üzrə fəlsəfə doktoru
niftaliyev1961@gmail.com

**Açar sözlər:** ordu ,sosiallaşma,doktirina, dövlət, şüur, idarəetmə

Müasir dövlətlərin quruculuğu və inkişafı prosesində ordunun təsis edilməsi və öz missiyasının səmərəli həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edir, çünki müstəqillik qazanan xalq həm daxili, həm xarici təhdidlər qarşısında günün tələbləri səviyyəsində müdafiə olunmağa hazır olmalıdır. Dövlətin təhlükəsizliyi bilavasitə ölkənin Silahlı Qüvvələrinin vəziyyəti, onların hər tərəfli inkişşafı ilə əlaqəlidir. Bunu həyata keçirən milli dövlətin mühüm vəzifələrindən biri kimi hesab etmək lazımdır.

Müstəqilliyini bərpa etmiş Azərbaycan xalqı özünün həm milli-dövlət quruculuğu, həm ayrıca hərbi quruculuğu sahəsində böyük çətinliklərlə rastlaşmasına baxmayaraq, mühüm və mürəkkəb vəzifələrinin öhdəsindən şərəflə gəlməyə müvəffəq olmuşdur və bu quruculuq uşlərini uğurla davam etdirir. Bu işdə cəmiyyətin bütün yaradıcı qüvvələrinin, o cümlədən sosial-siyasi və hümanitar tədqiqatçıların əsaslı tövsiyyələrinin böyük praktiki əhəmiyyəti vardır.

Ordu quruculuğu istiqamətində taleyüklü məsələlərin araşdırılmasında iki mühüm cəhət elmi və siyasi ictimaiyyətin diqqət mərkəzində olmuşdur. Birincisi, insan amilidir. Müasir ordunun təşkili, hərbi-texniki təchizatı və döyüş hazırlığı səviyyəsi ilk növbədə hərbi heyətin (zabitlərin və əskərlərin) keyfiyyət göstəriciləri, başlıca olaraq isə şəxsiyyət və peşəkar kimi formalaşmasından asılıdır. Bu isə insanları təsir altına alan erkən və ikinci mərhələ sosiallaşma prosesləri və müvafiq sosial təsisatların fəaliyyətini daha dərindən öyrənməyə sövq edir. Qeyd edək ki, burada, aparıcı vəzifə kimi zabit heyətinin formalaşmasında hərbi təsisatların bilavasitə həlledici rolu vardır.

İkinci cəhət, ordunun bir ictimai təsisat kimi digər təsisatlar sistemində qarşılıqlı əlaqələrin təsiri altında formalaşması və inkişaf etməsidir. Belə ki, iqtisadiyyatın, siyasət və ideologiyanın, elm və təhsilin, ailə və sosial sahənin, digər təsisatların ordu institutuna təsirləri güclüdür, və hər bir cəmiyyətdə konkret tarixi dövrdə ordunu da ictimai inkişafın məhsulu hesab etmək olar. Bununla yanaşı daxili amillərin təsirini nəzərə alarkan xarici mühitin də təsir amillərini qiymətləndirmək vacibdir. Qloballaşma şəraitində dövlətlərarası rəqabətin kəskinləşməsi mühüm bir cəhət kimi nəzərə alınır. Bunun bir çox təsirləri sırasında ordu quruculuğunun da oxşar xarici amilləri vardır (bunların sırasında müttəfiqlər, güman edilən və ya faktiki düşmən tərəfi və s. göstərmək olar). Bir çox dövlətlərin daxili və xarici təhlükəsizliyi məhz belə xarici amil vasitəsilə təmin edilir. Buna bariz misal olaraq, NATO təşkilatını göstərmək məqsədəuyğun olardı. Azərbaycanın Milli Ordusu qeyd edilən proseslərdə aparıcı rol oynayır və bu quruculuq işinin səmərəliliyini artırmaq üçün elmi yanaşma və sosial təşqiqatlara ehtiyac vardır.

Müstəgilliyin bərpa olunması anından Azərbaycan Respublikasının bir dövlət kimi qüdrətli sistem kimi fəaliyyət göstərməsi güclü ordunun qurulması ilə bilavasitə bağlı olmuşdur. Bunun başlıca səbəbləri sosioloji və sosial-politoloji yanaşma nöqtey-nəzərindən mövcud tarixi şərait, yaşanan geosiyasi və geoiqtisadi proseslər və hələlik nəticələri aradan qaldırılmamış xarici təhdidlər və təcavüzlə izah edilə bilər. Ölkənin yerləşdiyi geosiyasi məkan strateji sosiologiya yanaşması baxımından ordu quruculuğunun mühiti anlayışına müraciəti sövq edir. Ordu quruculuğu prosesində sosiallaşma insan amilinin başlıca təzahür forması kimi yalnız geniş məkanda baş verən proseslərin nəzərə alınması, daxili və xarici amillərin sosioloji təhlili kontekstində dolğun və əhatəli ola bilər, çünki yaşanan qloballaşma və açıqlıq dövründə proseslərin daha çox təsirlərə məruz qalması haqlı olaraq bir çox mütəxəssislərin fikrincə

lazıminca qiymətləndirilməlidir, bunların həm tərkibi, həm də təsir xüsusiyyətləri mütləq nəzərə alınmalıdır.

Keçmiş SSRİ-nin dağılması ərəfəsində 1991-ci ildə işıq üzü görmüş "Mirovoye obşestvoznaniye i Vostok" kollektiv elmi monoqrafiyda qarşıdakı dövr üçün dövlətin qudrətini O.V.Zotov aşağıdakı konseptual formula ilə təyin etmişdir (*tərcümə adaptasiyası ilə* - müəllif):

**Qüdrət = (Əhali + İqtisadiyyat + Hərb) x (Şüur+ Doktrin + İdarəetmə)**.

Bu ifadədə dövlətin qüdrətinin maddi və qeyrimaddi amillərin cəm halda götürülmüş hasilindən asıllılığı bildirilmişdir. Fikrimizcə, bu "distur"dan ordu quruculuğunun təyinatı və qarşılıqlı əlaqələrinin təhlili məqsədilə istifadə etmək məqsədəuyğundur. Hər bir komponent burada ən geniş mənada götürülmüşdür, lakin onların hər birinin artım (güclənmə - keyfiyyətcə yüksəliş) xarakteri əsas rol oynayır.

Birinci yanaşmada şərti olaraq bu komponentləri (onlara zamandan asılı olan və dərəcə-qiymətlərə malik olan dəyişənlər demək olar) dövlətin daxili mühitin amilləri kimi saymaq olar.

Eyni zamanda "hərb" komponent-dəyişəninin birbaşa və dolayı daxili asılılıqları da burada izlənə bilər. Belə ki, "əhali" amili zaman axarında tərkib dəyişikliklərinə məruz qaldıqca, məsəllən təbii artım və ya miqrasiya nəticəsində, onda bunun "hərb" amilinin də vəziyyətinə təsiri müəyyən edilmiş ola bilər (hərbi çağırış, və ya hərbi səfərbərlik dövrlərində bunu aydın müşahidə edirik).

Ordu quruculuğunun iqtisadiyyatın vəziyyətindən asılılığı şübhə doğurmur. H.Əliyev çıxışlarının birində qeyd etmişdşir ki, "Qüclü iqtisadiyyatı olan dövlət hər şeyə qadirdir" . Başqa sözlə desək, yalnız geniş iqtisadi imkanları olan dövlət dolğun və müstəqil ordu quruculuğunu apara bilər və bunun nəticəsində dövlətin qüdrəti artım meylini göstərir. Eyni zamanda "əhali" amilinin güclənməsi təkcə sayca artması deyil (baxmayaraq ki, digər bərabər şərtlər müqabilində iqtisadi inkişaf əhali artımına şərait yarada bilər), əsasən onun keyfiyyətcə yüksəlməsi, yəni sağlamlığının möhkəmlənməsi, təhsil səviyyəsinin artması, firavan və təhlükəsiz həyat tərzinə malik olması, qeyrisosial davranışlara yol verməməsi deməkdir. Bu halda daha keyfiyyətli əhalidən sağlam gənc nəslin orduya töfhəsi də samballı olar.

Aydındır ki, yuxarıdakı maddi dəyişənlərin artım nümayiş etməsi yalnız qeyrimaddi dəyişənlərin müvafiq təsirləri nəticəsində mümkündür. Bütün hallarda proseslərin şüurlü və oncədən tərtib edilmiş strategiya və planar əsasında həyata keçirilməsi dövlətin qüdrətinin maddi bazasının təkmilləşdirilməsinə gətirib çıxara bilər. Eyni zamanda həm şüur (daha gec dəyişən), həm doktrin(strateji baxış), həm də idarəetmə (dövlətdə bir sistem və proses kimi), maddi komponentlərin hər birinə ayrılıqdada təsir göstərirlər. Qeyd edək ki, (ictimai) şüurun tərkibində mütləq ayrıca olaraq təhsil, ideologiya, elm, milli mənlik şüuru, təbliğat və mass-media, dəyərlər və adət-ənənələrin təsiri qiymətləndirilməlidir. Bunların hər biri digər qeyrimaddi komponentlərin (doktrin və idarəetmə) formalaşmasına təsir göstərir. Həmçinin birbaşa və ya dolayı yolla maddi komponentlərin də səviyyəcə inkişafına nüfuz edirlər. Təhsilin həm milli ümumtəhsil səviyyəsində, həm də peşə təhsilinə yiyələnmək və tətbiq etmək baxımından, birbaşa iqtisadiyyatda (o cümlədən, əmək məhsuldarlığının yüksəldilməsi, yeni texnologiyalara yiyələnmək vasitəsilə) və hərbidə (mürəkkəb döyüş vasitə və üsullarını mənimsəmək imkanı) , həm də əhalinin (gəlirlər, sabit peşəkar məşğulluq, asudə vaxtı, həyat perspektivləri) yüksəlişinə nail olmaq realdır. Bununla yanaşı, müasir zamanda bu prosesin fasiləsiz və nəsildən nəsilə ağrısız ötürülməsi problemi də (ictimai) idarəetmənin – daha doğrusu - dövlət qüdrətinin strateji inkişafının idarəedilməsinin vəzifəsi kimi çıxış edir.

Ordu quruculuğunda "Milli təhlükəsizlik" konsepsiyasının qəbul edilməsi şüur dəyişəninin artımı nəticəsində doktrin dəyişəninin müəyyən səviyyədə təsbit olunması deməkdir. "İdarəetmə" dəyişəni əslində bir tərəfdən qəbul edilmiş məqsədlərin və planların həyata keçirmək qabiliyyəti və potensialını əks etdirir, digər tərəfdən isə qarşıya qoyulan məqsədlərə nail olunduğu halda həm də bütün idarəetmə subyektlərinin inkişafına gətirib çıxarır. Bunun bir timsalı olaraq ordu quruculuğunda əldə edilən hər bir nailiyyət həm idarəetmə peşəəkarlığının artmasını bildirir, həm də idarəetmə subyektlərinin inkişafına güclü motivasiya yaradır.

Beləliklə, ordu quruculuğunun maddi tərəfi ilə yanaşı, onun insan amilinin təsiri mexanizminə həm dövlət, həm cəmiyyət kontekstində müəyyən aydınlıq gətirilir.

Milli Silahlı Qüvvələrin zaman tələblərinə uyğunlaşması yuxarıda baxılan "dövlətin qüdrəti" konsepsiyası kontekstində gənc zabitlər korpusunun yetişdirilməsinin strateji mühit cəhətinə müəyyən aydınlıq gətirir. Belə ki, gənc kursantların hərbi ali təhsil müəssisəllərinə qəbulu prinsiplərini və şərtlərini konkretləşdirir, onların təhsil alaraq hərbi xidmətə qoşulması prosesinin xarici qarşılıqlı əlaqələrinin makroçərçivəsini təyin etmiş olur. Bunların əsasında hərbi qurumların (həm təlim, həm həqiqi xüdmət) sosiallaşma agentləri kimi fəaliyyətlərinin xarici amilləri də müəyyn edilmişolur. Deyilənlər əsasında aşağıdakıları təklif etməyə imkan yaranır:

1. Sosiallaşma institutu kimi ordu qurumları konkret suveren dövlətin iqtisadi imkanları, əhalinin mənəvi və fiziki sağlamlıq və savadlılıq səviyyəsinə isstinadən fəaliyyətlərini qurmalıdırlar: müasir hərbi texnologiyalara yiyələnmək üçün gənc əskərlərin və kursantların təkcə fiziki və mənəvi sağlamlıq keyfiyyətləri deyil, həmçinin yetərli məktəb bilikləri (xüsusən ruyaziyyat və təbiyət fənləri sahəsində) olmalıdır. İqtisadiyyat amili ilə bunun əlaqəsi sənaye inkişafının profilləşməsi və ölkədəki hərbi-müdafiə sənayesinin inkişafı ilə məhz yetərli mühəndis kadrlara obyektiv tələbatin stimullaşması vasitəsilə gerçəkləşir. Məlumdur, ki, bazarların olmaması səbnəbindən keçid dövründə bir çox müəssisələr fəaliyyətini dayandırmalı olmuşdular, və nəticədə çoxsaylı mühəndis-texnikki işçilər təkcə iş yerlərini deyil, ixtisaslarını da dəyişməli olmuşdular. Bu çəraitdə ordunun da hərbi mühəndislərə olan ehtiyaclarını digər tədbirlər lə yanaşı müdafiə sənayesi vasitəsilə stimullaşdırılması pozitiv bir meyl kimi qiymətləndirilməlidir. Eyni zamanda aydındır ki, təkcə texniki biliklərin ötürülməsinin təşkili ilə kifayətlənmək olmaz, çünki əsil vətənpərvər şəxsiyyətin formalaşması üçün gənclər həm tarixi, hərb sənəti, milli ənənələri, sosiologiya və psixologiya, iqtisadiyyat və idarəetməelmini, coğrafiya və siyasətşunaslığı da yaxından mənimsəməlidir.

2. Baxılan düstur-model əsasında həmçinin ordu quruculuğunda maneələr kimi çıxış edən amillərə nəzər yetirmək imkanı vardır. Məqsədlərin dəqiq və aydın şəkildə ifadə olunmasına baxmayaraq məhz insan amili və onu törədən səbəblər də həmin məqsədlərə çatmaqda çətinliklər törədə bilərlər. Məlumdur ki, "əhali" komponentini ifadə edən və ya ona təsir edən dəyişənlər, ailə, məşğulluq (həm əhali, həm iqtisadiyyata bağlıdır), hıyat səviyyəsi, miqrasiya (mobillik) daha çox risk amilləri kimi çıxış edə bilərlər. Məsələn, gənclərin uşaqlıq və yeniyetmə dövrlərində mürəkkəb və qeyriqənaətbəxş ailə şəraitində (natamam –atasız, yoxsulluq, xəstəliklər, münaqişələr) böyüməsi, nasağlam kontakt dairələrdə davranması sonrakı sosiallaşma pillələrində müvafiq sosial və psixoloji çətinliklər yaradır. Neqativ tərbiyə fonu gənc zabitlərin şəxsiyyətinin müəyyən deformasıyalarına səbəb olur, peşəkar sosiallaşmanı da tam dolğunluqla həyata keçirmək mümkün olmur. Bir çox halda igidlik kobudluq və qəddarlıqla, peşəkar motivasiya egoizmlə, sağlam zabit karyerası isə karyerizm və yaltaqlıq, ikiüzlüllük və digər mənfi keyfiyyətlərlə əvəzlənməklə özünü birüzə verməyə başlayır.

3. Ordu quruculuğunun dövlətin qüdrətinin artması kimi məqsəd aydınlığı onun geniş əhatə mexanizmlərində konseptual həllini tapır. Məlumdur ki, Silahlı Qüvvələrin inkişafı ilə bağlı dövlət qərarları həm siyasi, əm iqtisadi həm ideoloji tədbirlər sistemi vasitəsilə dəstək tapır. Bunu Azərbaycanın Hərbi Doktrinası (Azərbaycan Respublikasının Milli Məclisinin 2010-cu il 8 Iyun tarixli 1029-IIIQR Sayli Qərari ilə təsdiq edilmişdir) timsalında aşkar şəkildə görmək olar. Sosioloji təhlil terminologiyasında buna sosiallaşma və digər mühüm sosial funksiyaları həyata keçirən cəmiyyətin sosial institutlar sisteminin elementlərinin qarşılıqlı əlaqələri və təsirlərinin təhlili zamanı müşahidə etmək olar. Yuxarıda aparılan təhlillərdən belə sosiallaşma proseslərinin səmərəliliyinin həmin institutların ahəngdar fəaliyyət göstərməsindən irəli gəlməsi sübuta yetirilmişdir. Əsas məsələ, qeyrimaddi amillərdən doktrin (strategiya və planlar şəkilində) və idarəetmənin (dövlət, siyasi və hərbi, iqtisadi və sosial, mərkəzi və yerli, ərazi və sahə) elə təşkilindən ibarətdir ki, qoyulan məqsədlərə sərəncamda olan resurslar və insan potensialı yetərli olsun. Bu məqamları aydınlaşdırmadan, yəni öncə araşdırma, təhlil və

qiymətləndirmə aparılmadan məqsədlərin real və aktuallığı təmin olunmur, resurslar isə səmərəsiz sərf oluna bilər.

**Ədəbiyyat siyahısı:**


1. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. (onuncu kitab) B., Azərnəşr, 2002, səh 135.
2. Əmirov M. İlham Əliyev. Bizim siyasətimiz bizim işimizdi. B., 2007.
3. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı, 2005.
4. Əliyev N.A., Hərbi dəniz donanması üçün kadr hazırlığı, Bakı, AHDDM, 2006
5. Şəfiyeva E. İ., Zabit hazırlığının sosial-psixoloji məsələləri, Bakı, Elm, 2006, 232s.
6. Корчемный П., и др. Военная психология: методология, теория, практика Москва Военный университет Кафедра психологии Москва 1996 г.
7. Бергер, П. Конструирование социальной реальности. Трактат по социологии знания / П. Бергер, Т. Лукман / Моск. филос. фонд. М. : Academia-Центр : Медиум, 1995. С. 213.
8. Большой толковый социологический словарь Коллинза, Д.Джери, Дж,Джерри, том 1 и 2, Москва 1999.
9. Галкин А. А. Тенденции изменения социальной структуры. //Соц.исслед. 1998. № 10.

# "AZƏRBAYCAN TARİXİ" DƏRSLƏRİNDƏ VƏTƏNDAŞ HAZIRLIĞI KEYFİYYƏTİNİN YÜKSƏLDİLMƏSİNDƏ TƏLİM STRATEGİYALARINDAN İSTİFADƏNİN ROLU VƏ ƏHƏMİYYƏTİ

**Ceyhun Qasımbəyli**
Sumqayıt Dövlət Universitetinin müəllim
qasimbeyli.ceyhun@mail.ru

**Açar sözlər:** Ümummilli lider Heydər Əliyev, Azərbaycan tarixinin tədrisi, təlim strategiyaları, vətəndaşlıq, vətəndaş hazırlığı, vətən sevgisi

**Giriş.** Müasir dövrümüzün tələbləri təhsilin bütün strukturlarında təhsilalanın vətənə layiqli şəxsiyyətyönlü bir vətəndaş kimi tərbiyə olunması amilini zəruri edir. Hər bir məktəbli öz ölkəsinin qayda-qanunlarını dərindən bilən, vəzifə və hüquqlarına bələd olan, ona hörmətlə yanaşan vətəndaş kimi yetişməlidir. Məhz belə məktəblidə vətəndaşlıq ləyaqəti formalaşır. Vətəndaşlıq ləyaqəti doğma yurda , Ana Vətənə məhəbbətdir. Bu vətənin düşmənlərinə qarşı barışmaz, torpağın, millətin azadlığı və istiqlaliyyəti uğrunda mübariz olmaq deməkdir. Hərtərəfli vətəndaş hazırlanmasında, hər bir şagirdin şəxsiyyət kimi formalaşdırılmasında tarix dərslərinin tədrisi, təlimi mühüm əhəmiyyətə malikdir. Tarixin öyrənilməsinin əsas məqsədi cəmiyyətin siyasi və mədəni dəyərlərinin ötürülməsidir. Tarix fənni vətəndaşlıq hazırlığına çox vacib töhfə verir ki, bu da şagirdlərə ümumi insanlığımızı, müxtəlifliyimizi anlamağa, hörmət etməyə kömək edə bilər və şagirdlərə həyatı anlamaqda, əsl vətəndaş kimi yetişməkdə konseptual vasitələrlə böyük imkanlar yaradar. Tarix dərsləri təlim strategiyalarını düzgün quran müəllimə vətənə yararlı əsl vətəndaşlar qazanmaq üçün bir çox imkanlar verir. Tarix dərslərində təlim strategiyasının rolunun vacibliyi ondan ibarətdir ki, o asan metod və üsullar vasitəsi ilə tədrisin səmərləliliyinə imkan yaradır. Tarix dərsləri məktəblilərə vətəndaşlıq üçün vacib olan bilik, anlayış, bacarıq, münasibət və dəyərləri inkişaf etdirməyə başlamaları üçün geniş imkanlar yaradır. Bunun üçün ən yaxşı vasitə Heydər Əliyevin tariximizin daha dərindən tədris edilməsində: "Hər bir Azərbaycan vətəndaşı öz tarixini bilməlidir və tarixini də bilmək üçün gərək onu uşaqlıqdan bu işə cəlb edəsən, gərək orta məktəbdən cəlb edəsən. Demək, orta məktəblərdə tarixin tədrisi çox yüksək səviyyədə olmalıdır" [2, s. 459] tezisini tarix müəllimlərimiz unutmamalıdırlar. Vətəndaş hazırlığı ilə bağlı təhsilin məqsədlərini müəyyənləşdirmək üçün amerikalı alimlərin konsepsiyalarında üç hədəf qrupu mövcuddur: vətəndaşın aktiv sivil mövqeyi; şəxsiyyətindən asılı olmayaraq insan dəyərinin tanınması; şəxsiyyətin mənəvi keyfiyyətlərinin gücləndirilməsi.

**Mövcud ədəbiyyatlara istinad.** A. Colby hesab edir ki, məktəbdə vətəndaş hazırlığında təhsilin məqsədi hər bir şagird tərəfindən əxlaqi, sosial və mədəni dəyərlərin şüurlu şəkildə qəbul edilməsi və məktəb icmasının və demokratik bir çoxmədəniyyətli cəmiyyətin bir üzvü kimi vəzifə və hüquqları çərçivəsində bu dəyərlərə uyğun hərəkət etmə öhdəliyinin formalaşdırılmasıdır [6].

P. Freyr ölkəsinin layiqli bir vətəndaşı yetişdirməyin, ilk növbədə məsuliyyət, öz intizamı, bir insana ən yüksək dəyər kimi hörmət, hökumətə hörmət, qanunlara riayət, məlumat, iqtisadi, siyasi və hüquqi savadlılıq kimi şəxsiyyət keyfiyyətlərinin formalaşmasına yönəldiyini vurğulayır [7].

Rus alimlərinin konsepsiyalarında isə vətəndaş hazırlığı ilə bağlı təhsilin məqsədlərinin müəyyənləşdirilməsinə vətənpərvərliyin, hüquqi və siyasi şüurun və ictimai həyatda məsuliyyətli iştirakın aktuallığı vurğulanır. Vətəndaş təhsili prosesində bir vətəndaş-vətənpərvər yetişdirməyin əhəmiyyəti İ.V. Molotsova görə, bu, vətəni ilə vahid bir bütövlükdə özünü dərk edən, dövlətini və azadlığını qorumağa hazır olan bir insanda öz

ölkəsinin vətənpərvərinin yetişdirilməsidir. Bunun üçün məktəblilərin müasir vətəndaş tərbiyəsi metodologiyası evlərinə, məktəblərinə hörmət tərbiyəsi yolu ilə vətənpərvərliyin formalaşdırılmasını; sinif yoldaşlarına və müəllimlərə hörmət; bir növ, şəhərin tarixini bilmək; yerli ənənələrin və folklorun öyrənilməsi və s daxildir [5].

Ümummilli liderimiz Heydər Əliyev demişdir: "Hər bir Azərbaycan vətəndaşı, hər bir Azərbaycan vətənpərvəri Azərbaycanın gələcəyi haqqında düşünməlidir. Hər bir Azərbaycan gənci öz həyat yolunu müstəqil Azərbaycan Respublikasının gələcək yolu kimi qəbul etməlidir və öz həyatını qurarkən, özünü həyatda fəaliyyətə hazırlayarkən və fəaliyyətə başlayıb onu davam etdirərkən özü haqqında düşünməlidir, ailəsi haqqında düşünməlidir, ancaq hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bugünü, gələcəyi haqqında düşünməlidir" [3, s. 46].

**"Azərbaycan tarixi" dərslərində təlim strategiyasından istifadənin üstünlükləri.** Vətəndaş-vətənpərvər yetişdirmək hər bir dövlətin milli təhsil sisteminin vacib vəzifəsidir. Böyüyən vətəndaşların vətənpərvərlik ruhunu qorumaq üçün əsas funksiyalarından çox hissəsi ilə bağlı öhdəlikləri tarix dərsləri öz öhdəsinə götürür. Azərbaycan tarixi dərslərində təlim strategiyalarından düzgün istifadə vasitəsilə öyrənənlərin yaşadığımız mürəkkəb, dəyişən dünya haqqında biliklərini inkişaf etdirmələrini və demokratik gələcəyimizin formalaşmasına necə töhfə verə biləcəklərini təmin etmək vacibdir. Burada böyük rol dövlət rəmzlərinə (himn, bayraq, gerb, bayram tarixləri) hörmətin formalaşmasına aiddir. Məsələn, ABŞ-da dərslər hər sinifdə olan dövlət bayrağına and içməklə başlayır, siniflərdə ölkə prezidentlərinin portretləri asılır, şagirdlər dövlət himnini və vətənpərvərlik mahnılarını öyrənirlər. Tarix dərslərində müasir təlim strategiyalarından istifadə etməklə müəllim vətəndaş hazırlığının keyfiyyətini yüksəltmək üçün vətəndaşlıq tərbiyəsinin əsas vəzifələrinə önəm verməlidir. Araşdırmalara görə, siniflərdə bir-birindən fərqli 3 dünya mövcuddur: müəllimlərin gördüyü və idarə etdiyi hər kəsə məlum olan dünya; şagirdlərin qarşılıqlı münasibətlərinin yarımgizli dünyası; şagirdin ağlında baş verənlərin gizli dünyası. Müəllim şagirdlər arasında baş verənlərin təqribən 70 faizini görmür və ya bilmir [8].
Düzgün təlim strategiyalarının tətbiqi isə müəllimdən peşəkarlıq tələb edir. Araşdırmalar nəticəsində məlumdur ki, peşəkarlıq səviyyəsi yüksək olan müəllimlərin göstərdiyi təsir peşəkarlıq səviyyəsi aşağı olan müəllimlə müqayisədə fərqlilik təşkil edir. Yəni, peşəkarlıq səviyyəsi yüksək olan müəllimin sinfindəki şagird peşəkarlıq səviyyəsi daha aşağı olan müəllimin sinfindəki yaşıdlarından, demək olar ki, bir il öndədir [9].

**Vətəndaş hazırlığı keyfiyyətinin yüksəldilməsində təlim srtategiyasının əhəmiyyəti**

Tarix dərslərində müəllim təlim strategiyaları ilə iş apararkən tədris prosesində istifadə olunan forma, üsul, vasitə və yanaşmaların məcmusuna diqqət etməlidir. Buraya daxil olan təlimin təşkilinə verilən tələblər, forma və üsullar, təlim fəaliyyətinin planlaşdırılması üzrə işləri düzgün təşkil etməyi bacarmalıdır. Təlimdə başlıca məqsəd alınmış məlumatı ancaq yadda saxlamaq deyil, həm də, onun əvvəlki məlumatlarla əlaqəsini başa düşməkdir [4,s.129].
Con Dui demişdir: Bütün təhsillər bir Yer kürəsi və onun üzərində mövcud olan bir ömürlə bağlıdır. Bizim bir neçə qatdan ibarət Yer kürəmiz yoxdur ki, onun biri riyaziyyat, digəri fizika , üçüncüsü isə tarixlə əlaqəli olsun. Bütün təhsil istiqamətlərini bir-biri ilə, eləcə də məktəbi həyatla əlaqələndirmək çox vacibdir. İctimai həyatda və ölkənin idarə olunmasında mükəmməl və faydalı iştirak etməyə mənəvi tələbat bir günə yaranmır. Belə xüsusiyyətlər uşaqlıqdan tərbiyə olunmazsa, böyük adamda onların peyda olmasına ümid etmək olmaz. Tarix dərslərində təlim strategiyaları vasitəsi ilə düzgün formalaşdırılan, aşılanan bilik, bacarıqlar, anlayışlar və proseslər ölkəmiz üçün düşüncəli, prinsipial, inamlı vətəndaşların inkişafına kömək edə bilər. Bu gün elm, mərdlik və qəhrəmanlıq nümayəndələri olan Koroğlu, Tomris, Babək, Burla xatun, Sara Xatun, Xurşudbanu Natavan, Həcər, Nizami Gəncəvi, Nəsirəddin Tusi, Şah İsmayil Xətai, Qaçaq Nəbi, Hacı Zeynəlabdin Tağıyev,

Məhəmməd Əmin Rəsulzadə, Heydər Əliyev irsi əsasında nəsillər formalaşdırmaq ən mühüm məsələlərdən biridir [1, s, 27].

Tarix müəllimi şagirdlərə Layihələr metodundan istifadə etməyi tapşırmaqla şagirdlərin dövrünə görə nüfuzlu, həmçinin tariximizin şərəfli oğulları hesab olunan Məhəmməd Əmin Rəsulzadə, Fətəli xan Xoyski, ziyalı və dövlət xadimi kimi fəaliyyət göstərmiş Nəriman Nərimanov, Milli qurtuluş tariximizin, dövlətçilik ənənələrimizin bərpasının, milli və mənəvi dəyərlərin qoruyucusu, tolerantlığın keşiyində duran Ulu öndər Heydər Əliyev və onun layiqli davamçısı İlham Əliyev kimi şəxsiyyətlərin tarixdəki rolunu araşdırmaqla onların vətəndaş hazırlığına doğru tərbiyə istiqamətində böyük potensiala sahib olmasına imkan yarada bilər. Ümummilli liderimiz ulu öndərimiz Heydər Əliyevin həyat və fəaliyyəti, onun mənəvi irsi sədaqətlilik, əsl vətəndaşlıq ifadəsinə bariz nümunə olub - həm insani, həm də vətəndaşlıq borcunun ölçüsü hesab oluna bilər. Bəhs etdiyimiz problemin həllində XI sinifdə Azərbaycan tarixi dərslərinin geniş imkanları vardır. XI siniflərdə "Azərbaycan tarixi" dərslərində keçirilən bir sıra mövzular xüsusi diqqət cəlb edir. "Dövlət müstəqilliyinin bərpası", "Birinci Qarabağ müharibəsi", "Xocalı Soyqırımı", "Müstəqilliyin ilk addımları ", "Milli qurtuluş",

"Hüquqi islahatlar və demokratik dövlət quruculuğu", "XX əsrin 90–cı illərində həyata keçirilən sosial-iqtisadi islahatlar", "Azərbaycan Respublikasının xarici siyasəti", "Yeni minilliyə yeni liderlə", "Qətiyyətin nümayişi", "Mədəniyyət" və digər mövzuların tədrisi prosesində vətəndaşlıq hazırlığının keyfiyyətinin yüksəldilməsində vətəndaşlıq amalının işıqlandırılması müəllimdən yüksək hazırlıq tələb edir.

**Nəticə**

Müəllim tarix dərslərində vətəndaş hazırlığı keyfiyyətinin yüksəldilməsində tarixin tədrisini sürətləndirmək, şagirdlərin öyrənməsini daha çevik, daha sürətli etmək üçün təlimdə bir sıra xüsusi incəliklərə önəm verməlidir. Şagirdlərdə idrak fəallığı oyatmaq, onların idrak prosessorununun inkişafına təsir edən amillərə istinad etməlidir. Şagirdlər əvvəlcədən planlaşdırılmış çevik düşüncə sxemi üzrə hərəkət edərək zehni lazımi istiqamətdə yönləndirməyi bacarmalıdır. Şagirdlərdə metokoqnitiv düşünmə qabiliyyəti inkişaf etdirilməlidir. Şagird problem həllinin nəyi ifadə etdiyini, rasionallaşdırmağı və təhlil etməyi, fikirlərinin gələcəkdə necə tətbiq olunacağını aydın düşünməyi bacarmalıdır. Şagirdlərin gələcəkdə müstəqil vətəndaş kimi yetişdirilməsində bunlar çox önəmli olmalıdır. Şagirdlər tarix dərslərində əldə etdiyi biliyi digər dərslərlə, eləcə də həyatla əlaqələndirməyi, körpü rolunu yaratmağı bacarmalıdır. Unutmamalıyıq ki, ilk bünövrə, ilk vətəndaş hazırlığının təməli məktəbdən başlayır. Tarix dərslərində demokratiya və hökumət, hüquqlar və qanunlar və multikultural cəmiyyətdə necə yaşadığımız barədə bilikləri təlim strategiyalarından səmərəli istifadə ilə artırmaqla şagirdlərin vətənə layiqli vətəndaşlar kimi yetişdirilmələrinə kömək edə bilərik. Şagirdlər əgər bir vətəndaş kimi yetişdirilərsə onlar tənqid edə, mübahisə edə, inandırıcı arqumentlər edə bilər, gələcək həyatda və işdə uğur qazana bilərlər.

**İstifadə edilmiş ədəbiyyat:**


1. Cəbrayılov İ. Şəxsiyyətyönümlü təhsil və vətəndaş cəmiyyəti, Bakı, 2011.
2. Əliyev H.Ə - Təhsil millətin gələcəyidir. Bakı: Təhsil, 2002, 580 s.
3. Əliyev H.Ə. - Türkdilli Dövlətlərin Başçılarının VII zirvə görüşündəki nitqi // Dirçəliş XXI əsr, 2003, № 70, s.169-170
4. Əmirov M. Tam orta məktəbdə tarixin fəal interaktiv təlimi metodikası. Bakı,2011
5. Молодцова И.В. Педагогические условия становления гражданской позиции старшего подростк // Преподавание истории в школе. 2007. № 1. С. 15-18.
6. Colby A. Educating Citizens: Preparing America's Undergraduates for Lives of Moral and Civic Responsibility. NY: John Wiley and Sons, 2013. 367 p.
7. Freire P. The Politics of Education: Culture, Power, and Liberation. MA: Bergin & Garvey, 2014. 332 p.
8. Nuthall ,G.A.(2007). The hidden lives of learners .Wellington: New Zeland Council for Educational Research.

# SOSİAL İDRAKIN DƏYİŞKƏNLİYİ PROBLEMİ

**Həlimə Qafarova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun
Məntiq şöbəsinin elmi işçisi
*helime.qafarova@mail.ru*

**Açar sözlər:** idrak, cəmiyyət, nizam, sosial sistem. sosial idrak

Cəmiyyətdə gedən proseslər və baş verən hadisələr öz unikallığı və mürəkkəbliyi ilə seçilir. Sosial fəlsəfənin məqsədi cəmiyyətin sosial sistem kimi fəaliyyət və inkişaf qanunlarını araşdırmaq, müxtəlif ictimai hadisə və prosesləri onların qarşılıqlı təsiri halında təhlil etməkdir. Dərketmədə əsaslı dəyişikliklər getdikcə, insanın yaşadığı mühitə, ətrafındakı hadisə və proseslərə, ümumilikdə cəmiyyətə münasibəti də yenilənir.

Sosial gerçəkliyin dərkolunması probleminin araşdırılması fəlsəfi və elmi düşüncənin inkişafının müxtəlif dövrlərində, müxtəlif səviyyələrdə olmuşdur. Bu da tamamilə təbiidir. Çünki hər zaman mövcud olan gerçəkliyin yeni tərəfləri açılır. Başqa sözlə, insanın cəmiyyətin təkamülü prosesini tədqiq etməsində daima yeniliklərlə qarşılaşması zəruri vəziyyətdir.

Cəmiyyəti sadəcə olaraq müxtəlif əlaqələrin və münasibətlərin məcmusu kimi götürmək doğru deyildir. Cəmiyyət sosial idrak obyekti olaraq ümumi, təkrarlanan xassələrə malik olmaqla bərabər, təsadüfi hadisələrlə müşayət olunan, təkrarlanmayan, dayanıqsız vəziyyətlərə malik, xaosdan nizama doğru gedən prosesdə özünütəşkilatlandırma xassəsini daşımaqla yanaşı, mürəkkəb özüinkişafedən sistemdir. Cəmiyyət statik mövcud olan yox, daim prosesdə olan varlıqdır. Ə.F.Abbasovun ifadəsilə desək, ona qanunauyğun və sabit əlaqələrin sahmanlı düzülməsini ifadə edən canlı orqanizm kimi, özüinkişafedən sistem kimi baxmaq lazımdır. Bu isə cəmiyyətə postneoklassik elmin tələbləri baxımından yanaşmanı tələb edir.

Cəmiyyətdə xaosla nizamlılıq çox zaman bir formanın qırılmaz tərəfləri kimi çıxış edir. Yəni cəmiyyətdə söhbət universal xaos və ya universal nizamdan getmir. Sosial mühitdə xaotik təsirlər içərisində daim müəyyən nizamlılıq qorunur. Çünki sosial xaos dünyada insanın bilavasitə davranışları fonunda yaranan durumdur. Hər bir cəmiyyət sosial sistem olaraq digərlərindən fərqli tarixə malikdir. N.Luman hesab edir ki, sosial sistemlər üçün universallıq anlayışından ehtiyatla istifadə etmək gərəkdir. Yəni, bir qrup cəmiyyətlər üçün müsbət nəticələr verən proqramları başqalarına eyni uğurla tətbiq etmək mümkün deyil. Bu məqam isə sosial idrakın dəyişkənliyi ilə yanaşı fərqliliyini ifadə edir.

Sosial reallığın tarixi insan fəaliyyətinə aid hadisələrin bir-birini əvəz etməsindən ibarət prosesdir. Sosial idrakın çox mühüm vəzifəsi real cəmiyyəti həm, nəzəri səviyyədə araşdırmaq həm də hadisə və proseslərin təfərrüatını izləməkdir. Belə ki, konkret hadisələri öyrənmədən, vəziyyətlərin qarşılıqlı şərtlənməsini başa düşmədən sosial sistem haqqında hərtərəfli elmi təsəvvür əldə etmək qeyri-mümkündür. Bunsuz cəmiyyətin bir mərhələdən digərinə keçməsi mexanizmini anlamaq olmaz. Həmin hadisələrin mahiyyətini dərk etmək üçün onların arxasında gizlənən daxili münasibətləri aşkar etmək tələb olunur. Beləliklə, sosial həqiqətin dialektikası ümuminin, xüsusinin və təkcənin vəhdəti kimi çıxış edir. Sosial həqiqətin səciyyəvi cəhətlərindən biri də onda şərtilik əlamətinin nisbətən güclü olmasıdır. Bu yol ilə insan sosial reallığa inkişaf və dəyişilmədə yanaşa bilir. Sosial idrakın obyekti mürəkkəb olduğundan, burada həqiqi bilik əldə etmək çətinləşir və bu prosesdə dəyərlərin rolu neqativ planda da təzahür edə bilir. Bu öz ifadəsini araşdırılacaq konkret problemin düzgün seçilməməsində, elmi təhlilin məqsəd və vəzifələrinin təhrif edilməsində, elmi axtarış prosedurlarının səhv tətbiqində, manipulyasiya hallarının genişlənməsində, elmi həqiqətin fərdi kooperativ maraqlara qurban verilməsində, onun saxtalaşdırılmasında, gizlədilməsində, bəzən isə yalanla əvəz olunmasında tapır. Elmin inkişafında yanılmaların rolu birmənalı deyildir. Əslində hər bir yanılma bizi həqiqətdən uzaqlaşdırır, dərketməyə maneçilik törədir. Yanılmalar elmin sonrakı hərəkəti üçün çıxış nöqtəsi olan problemli situasiyaların yaradılmasına və problemlərin həllinin düzgün yollarının tapılmasına səbəb olur.

Digər amil sosial idrakın obyektinin spesifıkliyi ilə bağlıdır. İctimai həyat son dərəcə mürəkkəb, çoxtərəfli və çoxsəviyyəli xarakter daşıyır. Onu məcmu halında götürdükdə cəmiyyətin özü və burada yaradılan hər şey insanların zəkası və ağlı ilə yanaşı hisslərinin də iştirak etdiyi fəaliyyətin nəticələridir. Həmçinin, bu fəaliyyətin şüuri və qeyri-şüuri tərəflərini, habelə rasional və irrasional ünsürlərini də unutmaq olmaz.

Cəmiyyət qanunları öz xarakteri üzündən ayrı-ayrı sosial qrupların və şəxslərin mənafeləri ilə də sıx bağlıdır. Sosial sistemin əsas elementi olan insanın unikal xarakteri də onu fərqləndirir. Belə ki, insan öz fəaliyyətinin, davranışının forma və üsullarını sərbəst surətdə və geniş diapazonda seçə bilir. Bunun nəticəsində cəmiyyətin inkişafında qeyri-müəyyənlik dərəcəsi yüksək olur. Burada hadisələrin gələcək nəticələrini öncədən müəyyən etmək çox vaxt mümkün olmur. Cəmiyyətdə baş verən hər bir hadisə özü ilə bir yenilik gətirir, yeni suallar doğurur və bunlara uyğun cavablar tələb edir. Başqa sözlə desək, əslində cəmiyyətdə təsadüflər daha çox hökmranlıq edirlər. Lakin tarixdə baş verən konkret hadisələrin təkrarolunmaz fərdiliyində və təsadüflüyündə nə isə müəyyən bir ümumi cəhət tapmaq olur.

Nəhayət, sosial sistem özünün açıq xarakter daşıması ilə səciyyələnir. O qapalı deyildir. Sosial sistemin açıq olması o deməkdir ki, cəmiyyət daim ətraf mühit ilə maddələr, enerji və informasiya mübadiləsində olur. Bu isə sinergetik yanaşmaya görə onun dayanıqsızlığını təmin edir. Sosial sistemin açıqlığı burada entropiyanın toplanmasının qarşısını almış olur.

Sosial idrakda sosial proseslərin yaranması və inkişafına başqa sözlə burada baş verən özüinkişafa zaman baxımından yanaşılma xasdır. Bu ictimai həyat hadisələrinin keçmişini, bugününü və gələcək inkişaf meyllərini araşdırmaqdır. Belə ki, ictimai sistemin indiki vəziyyəti onun keçmişi ilə şərtlənir, ondan ayrılmazdır. Digər tərəfdən isə belə yanaşma tələbi ictimai reallığın müasir vəziyyətini əbədi və dəyişməz hesab etməyin mənasızlığını göstərir. O sübut edir ki, cəmiyyətin hər bir vəziyyəti müvəqqəti xarakter daşıyır, o müəyyən zamandan sonra dəyişilir. Ona görə də, sosial idrak cəmiyyətə birdən-birə yaranan obyekt kimi baxmır, onu daim dəyişilmə və təkmilləşmədə, inkişafda olan proses kimi götürür. Bu prosesdə əslində sosial idrakın dəyişkənliyi mexanizması da açılmış olur. Sosial idrakın obyektiv olaraq dəyişilməsi ilə yanaşı müəyyən subyektiv xarakterli tərəflər də vardır. İdrakın subyekti olan insan müxtəlif ictimai əlaqələrə cəlb olunmuş halda çıxış etsə də, özünün fərdi təcrübəsinə və intellektinə, tələbat və mənafelərinə, dəyərlərinə malikdir. Buradan aydın olur ki, sosial idrakı səciyyələndirərkən onda şəxsiyyət amilinin də mühüm rolu göstərilməlidir. Sosial idrakın dəyərlərə münasibəti də birmənalı izah olunmur. Bəziləri belə hesab edir ki, sosial idrakda dəyərlər anlayışının iştirakı onun elmiliyini heçə endirir. Digər bir mövqe isə göstərir ki, idraki tərəf ilə dəyər tərəfı bir-birinə qarşı durmur. Onlardan biri digərini tamamlayır və beləliklə də, sosial həyatı daha dərindən öyrənməyə imkan verir. Sosial idrakın spesifikliyi təhlil olunarkən deyilənlərlə yanaşı onun sosial-tarixi şərtlənməsi nəzərə alınmalıdır. Sosial reallığı əks etdirən sosial idrak təkcə cəmiyyətdə gedən obyektiv prosesləri öyrənməklə məhdudlaşmır. Bu proseslərlə və qanunauyğunluqlarla ayrılmaz olan və onların daşıyıcıları kimi çıxış edən subyektin öyrənilməsi də burada əsas yeri tutur. Buradan sosial idrakın digər bir xüsusiyyəti irəli gəlir: ictimai həyatın dərk olunmasına insanın şəxsi keyfiyyətləri, öyrənmək istədiyi problemə münasibəti güclü təsir göstərir. Özü də bu təsir həm müsbət ola bilər, dərketmə prosesi sürətlənər, həm də mənfi istiqamətdə olmaqla idrak prosesini ləngidər və saxtalaşdıra bilər.

Beləliklə, ictimai həyatın yuxarıda sadaladığımız rəngarəngliyi və spesipik xüsusiyyətləri sosial idrakın dəyişkənliyini şərtləndirir. Daha doğrusu, sosial idrakın obyektini təşkil edən sosial reallığın özü daim dəyişməyə məruz qaldığından sosial idrak da dəyişməyə məhkumdur. Qısa tezis çərçivəsində sosial idrakın dəyişkənliyi problemini araşdırmaqla bir neçə nəticələri əldə etmiş olduq. Aydın oldu ki, sosial idrakın dəyişkənliyini şərtləndirən vacib amillərdən biri rasionallıq tiplərinini sosial idraka təsiri ilə bağlıdır. Dərketmədə əsaslı dəyişikliklər getdikcə, insanın yaşadığı mühitə, ətrafındakı hadisə və proseslərə, ümumilikdə cəmiyyətə münasibəti də yenilənir Dünyanı dərketmədə yaranan elmi dəyişikliklər cəmiyyətə münasibətə də təsir etmiş olur. Bu ən əvvəl cəmiyyətdə xaosla nizamlılıq çox zaman bir

formanın qırılmaz tərəfləri kimi çıxış etməsi ilə bağlıdır. Digər bir amil sosial idrakın obyekti ilə bağlıdır. İctimai həyat son dərəcə mürəkkəb, çoxtərəfli və çoxsəviyyəli xarakter daşıdığından onun spesipik xüsusiyyətləri sosial idrakın dəyişkənliyini şərtləndirir. Həmçinin sosial idrakı səciyyələndirərkən onda şəxsiyyət amilinin də mühüm rolu göstərilməlidir.

## ƏDƏBİYYAT SİYAHISI


1. Abbasova Q.Y., Hacıyev S.C. Sosial fəlsəfə. Bakı "Ayna Mətbu evi", 2001, 505s.
2. Abbasov Ə.F. Əliyev E. «Sosial idrak fiziki ideyaların təsiri altında.» // Müasir mərhələdə sosiohumanitar elmlərin sosioloji və metodoloji problemləri, Bakı, 2000.
3. Allahyarova T.B. Sosial- sinergetika- cəmiyyət haqqında tədqiqatların metodologiyası kimi "Dirçəliş- XXI əsr", N°3, 2001. Səh. 87-98.
4. Qurbanov F.M. Autopoyezis və sinergetika: sosial təşəkkül metaforaları. Bakı, «Adiloğlu» nəşriyyatı, 2007, 486 s.
5. Абасов А.С. Монолог классизма, диалог неоклассизма и полилог постнеклассизма. //Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyriklassik epistemologiya. Bakı, 2011, s.50-72.
6. Аббасов А.Ф. Общество и государство. Баку, 2007, с. 108
7. Луман Н. Общество как социальная система. М. 2004, с. 230.
8. Степин В.С. Наука и философия // Вопросы философии 2010, №8, с. 49-61.

# İSTEHSALIN İDARƏ EDİLMƏSİ PROSESİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İNSAN AMİLİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASI KONTEKSTİNDƏ

**Rəşad Rafiqli**
AMEA İqtisadiyyat İnstitutunun doktorantı

**Açar sözlər:** qloballaşma, istehsal, insan faktoru, milli iqtisadiyyat, idarəetmə, yenilik, müəssisə.

Qloballaşma öz xüsusiyyətlərinə əsasən istehsal prosesinin idarə edilməsində keyfiyyət dəyişikliklərinin həyata keçirilməsini tələb edir. Bu insan faktorunu, insan kapitalını və insan potensialının əhəmiyyətini nəzərə almaqla, eyni zamanda istehsal prosesinə də diqqət yetirilməsini tələb edir. Birincisi, istehsal bütün iqtisadi əlaqələri birbaşa və ya dolayı vasitələrlə birləşdirir. İkincisi, istehsalın iqtisadiyyat nəzəriyyəsinin birbaşa tədqiqat mövzusu olduğuna əsaslanaraq, bunun problemini onunla birləşdirmək məqsədəuyğun olardı. Üçüncüsü, son qlobal iqtisadi böhranın səbəblərindən biri xidmət sektorunun idarə edilməsində baş verən xüsusiyyətlərdən asılı olduğunu göstərdi. Bizim fikrimizcə, yuxarıda qeyd edilən üç səbəb əsasən, iqtisadi artımın təmin edilməsi və istehsal prosesinin tənzimlənməsi baxımından insan amilinin öyrənilməsi baxımından çox vacib məsələdir.

Məsələnin qloballaşma kontekstində öyrənilməsi istehsalın idarə olunması ilə bağlı münasibətləri əhatə edir ki, bu da öz növbəsində iqtisadi idarəetmə prinsipləri əsasında həyata keçirilməsini ehtiva edir. Ümumiyyətlə iqtisadi idarəetmə, iqtisadi göstəricilər, normalar və mexanizmlər vasitəsilə ölkənin, cəmiyyətin, müəssisələrin və təşkilatların potensialından səmərəli istifadə olunmasına, müasir iqtisadiyyatın idarəedilməsində elmi mövqeyə əsaslanmasından asılıdır. İstehsal prosesində ikili prinsiplərdən istifadə etməklə insan faktoru baxımından qiymətləndirmə müxtəlif aspektlərdən ibarətdir. Həm obyektin, həm də tədqiqatın predmeti baxımından istehsalın idarə edilməsi insan amilinə əsaslanır. Birincisi, qeyd etmək lazımdır ki, insan amili baxımından istehsalın idarə edilməsi həm mikro, həm də makroiqtisadi səviyyədə həyata keçirilir. Bizim işimizdə mikroiqtisadiyyat məsələlərinə daha çox diqqət yetirilir. Bu baxımdan daxili idarəetmə 3 mərhələdən ibarətdir:

1. İstehsalın təşkili ilə bağlı münasibətlərin öyrənilməsi;
2. Müəssisə və təşkilatların insan potensialının və əmək resurslarının idarə edilməsinin öyrənilməsi;
3. Xarici bazarların təsiri altında yaranan istehsal rəhbərliyinin əlaqələrinin öyrənilməsi;

Qeyd etmək lazımdır ki, ilk və ikinci mərhələdə insan amilinin öyrənilməsi tədqiq olunan problemlə birbaşa əlaqələndirilir və müəssisə üçün daxili məsələdir, üçüncü mərhələ isə bazar münasibətlərinə və mexanizmlərindən kənar əlaqələri birləşdirir. Həm də qeyd etmək lazımdır ki, reproduksiya prosesinin bütün mərhələləri faktiki olaraq istehsalın idarə olunması obyekti kimi çıxış edir. İstehsalın həlledici rol oynadığından, onun öyrənilməsi mövcud iqtisadi tendensiyalar baxımından böyük əhəmiyyət kəsb edir. İstehsal prosesinin subyektləri arasında dövlət və onun orqanları (makro səviyyədə), təkəl assosiasiyaların orqanları, sahibkarlar, menecerlər, müxtəlif istehsalat birlikləri və s. Daxildir. Yuxarıda göstərilən mövzular, nəzarət mexanizmi sayəsində istehsal, paylama, mübadilə və istehlakın idarə edilməsi prosesini aparır. Bazar tələblərinə uyğun istehsal amilləri və resursları paylayır, istehsalını stimullaşdırır, məhsuldarlığını və gəlirliliyini təmin edir. Bununla yanaşı istehsal rəhbərliyinin əsas məqsədi mövcud resursların optimal istifadəsi əsasında yüksək iqtisadi nəticələr əldə etmək olduğunu nəzərə almaq lazımdır.

Bununla yanaşı, istehsal idarəetmə məsələlərinə bir sıra tədqiqatçılar yalnız daxili istehsal münasibətləri və bazar mühiti ilə əlaqələr daxildir. Xatırla ki, iqtisadi artımın əsas amil resurs bazarında qiymət dəyişikliyidir. Buna görə, bizim fikrimizcə, effektiv istehsalın idarə edilməsi üçün əsas meyarlar resursların optimal istifadəsidir.

İstehsal prosesində insan amilinin həyata keçirilməsinin təkmilləşdirilməsinin başqa bir xüsusiyyəti də qeyd edilməlidir, yəni subyektlərin təsirini müəyyənləşdirərkən müxtəlif mülkiyyət formalarını nəzərə almaq vacibdir. Beləliklə, istehsal idarəetməsində səmərəliliyin fərqi dövlət və özəl mülkiyyətin bu mövzusundakı nisbət əsasında müəyyən edilməlidir.

İstehsalın optimal strukturunun formalaşması və onun sabit inkişafına nail olmaq üçün elmi-texniki tərəqqinin nailiyyətlərini davamlı şəkildə tətbiq etmək lazımdır (bu, tam texnoloji və innovativ istehsalın xüsusiyyətlərindən biridir). Bu məqsədin həyata keçirilməsi ölkənin iqtisadiyyatının sürətlə inkişafı üçün bir vəzifədir. Bu baxımdan biz hesab edirik ki, dövlətin innovasiya və investisiya siyasətinin bu xüsusiyyəti sahibkarlığın inkişafı baxımından nəzərə alınmalıdır; firmaların və müəssisələrin cinsiyyət hesabına xərclərini ödəməyə nail olmaq.

İstehsalın optimal strukturunun formalaşması və onun sabit inkişafına nail olmaq üçün elmi-texniki tərəqqinin nailiyyətlərini davamlı şəkildə tətbiq etmək lazımdır (bu, tam texnoloji və innovativ istehsalın xüsusiyyətlərindən biridir). Bu məqsədin həyata keçirilməsi ölkənin iqtisadiyyatının sürətlə inkişafı üçün bir vəzifədir. Bu baxımdan biz hesab edirik ki, dövlətin innovasiya və investisiya siyasətinin bu xüsusiyyəti sahibkarlığın inkişafı baxımından nəzərə alınmalıdır; Şirkətlərin və müəssisələrin xərcləri əldə olunan gəlirin və sosial ədalət prinsipinin onların paylanmasında təmin edilməsi və s.

İki funksiyada istehsalın idarə edilməsi iqtisadi mülkiyyət formalarının həyata keçirilməsini təmin etməlidir (İbadov S.Ə., 2009).

İnsan resurslarının effektiv idarə edilməsində və istehsal prosesində müəssisənin tərkibində idarəetmə nəzəriyyəsi xüsusi əhəmiyyət kəsb edir. Beləliklə, XX əsrdən etibarən, iqtisadi qabiliyyətli şəxslərin istehsal prosesini idarə etmək və onların imkanlarından istifadə etmək üçün xüsusi qabiliyyət və öyüd-nəsihət olan insanların seçilməsi iqtisadiyyat üçün əsas yenilik olmuşdur.

Ümumiyyətlə qeyd etmək lazımdır ki, bazar iqtisadiyyatının inkişaf modellərinin yanaşı, istehsalın müəyyən modelləri mövcuddur, bu modellər dünyanın inkişaf etmiş ölkələrinə aiddir. Məsələn Fransa, İtaliya, Yaponiya, ABŞ, Böyük Britaniya və digər ölkələrin modellərinə istinad edilə bilər.

İstehsal prosesində insan amilinin istifadəsinin artırılması ən çox Yaponiya və ABŞ modellərində tapılıb. Beləliklə, müəssisənin əsas məqsədlərinin həyata keçirilməsində insan resurslarının istifadəsinin səmərəliliyi "keyfiyyət idarəetmə" konsepsiyası ilə zənginləşdirilmişdir, maraqlı məqamlardan isə aşağıdakılardan ibarətdir:

- iş yerində (müəssisə və təşkilatlarda) şəxsin etibarlılığı və onu təmin edən iqlimin yaradılması;
- müəssisələrin işçi heyətinin qrup siniflərində təhsili üçün şərait yaradılması;
- istehsalçıların istehsalını təkmilləşdirmək üçün təkliflərin vaxtında və birtərəfli həyata keçirilməsi.

Bu qruplardan faydalanmaq (Yaponiya daha çox dairələrin anlayışını istifadə edir) həm müəssisələr, həm də işçilər tərəfindən alınır. Bu faydalar aşağıdakıları əhatə edir:

- əməkdaşlar və şöbələr arasında əməkdaşlığın səviyyəsinin artırılması;
- işçilər arasında müəssisənin problemlərinə olan məsuliyyət hissini artırmaq;

malların və işlərin keyfiyyətinin artırılması;

- işçilərin dövriyyəsinin azaldılması;
- bəzi gizli problemlərin həlli.

İşçilər üçün faydalar aşağıdakılardan ibarətdir:

- işçilərin fikirlərini söyləmək üçün iqlim yaratmaq;
- müxtəlif faydalı mövzuları öyrənmək;
- bir qrupda qrup işi və onunla münasibət ruhi inkişafı;
- həllərin verilməsi və qiymətləndirilməsi qabiliyyətinin inkişafı;
- həyata keçirilən işlərdə aralığın və doymanın genişləndirilməsi;
- liderlik bacarıqlarını inkişaf etdirmək;
- işləyən şöbələrdəki işçilər üçün şərait yaradılması (Talıbov R.K., 2007).

Son illər beynəlxalq təcrübə və qlobal səviyyədə yaradılan rəqabət problemi sürətlə dəyişən məhsul və texnologiyaların inkişafı üçün işçilərin, mütəxəssislərin və insan resurslarının biznes təşkilatlarının mövcudluğunun vacibliyini təsdiq etdi. Belə hallarda, iqtisadi aktorların qarşısında istehsal idarəetməsinin strategiyası və üsullarını yenidən nəzərdən keçirmək lazımdır. Respublikanın iqtisadi reallıqlarından və qlobal iqtisadi proseslərdən asılı olaraq, istehsalın idarə edilməsi və insan amillərinin istifadəsini yaxşılaşdırmaq üçün təşkilatın işçiləri və menecerləri yeni bilik və təcrübə əldə etməlidirlər:

1. İstehsal proseslərini davamlı artırmaq və onların davamlılığını artırmaq.

2. Etkili qarşılıqlı əlaqələr və əməkdaşlıq. Müasir firmalar və qurumlar kompleks bir sistem olduğundan, əsas bacarıqlı heyətin idarə olunması bu proseslərin lideri tərəfindən effektiv əlaqələndirilməsindən ibarətdir.

3. Nəticələrə diqqət yetirin. İnsan resurslarında firmalar öz məqsədlərini başa düşməlidirlər və onların həyata keçirilməsini təmin etməlidirlər (Fərruxov A.N., 2007).

Görüldüyü kimi, istehsalın idarə edilməsi prosesində müəssisələrin və firmaların yüksək keyfiyyətli Daha sonra, "sənaye demokratiyası" özünü dəyişdirərək, idarəetmə (iştiraklı) iştirak növlərindən birinə çevrildi. Sosioloqlar J. Cole və A. Korsch, bu ideyanın müəllifləri olaraq bilinən, müəssisələrin idarə edilməsi işçilərin aparıcı istehsal şüarları ilə həyata keçirilməsini təklif etdi. Bunun əsas məqsədi müəssisənin bütün insan potensialının istifadəsini yaxşılaşdırmaqdır. Bu, işçilərin milli sahibkarlıq və digər müəssisələrdə və təşkilatlarda nəzərə alınanda böyük fayda ola biləcək rəhbərliyə cəlb edilməsi kimi vəzifələri nəzərdə tutur. Aşağıdakılardan ibarətdir:

- işçilərin müstəqil qərar qəbul etməsi hüququ;
- qərarvermə prosesinə işçilərin cəlb edilməsi və onların mövcud bacarıqlarını müəyyən etmək;
- işçilərin öz işlərini kəmiyyət və keyfiyyətlə idarə etmələri hüququ;
- İdarəetmə qərarlarının daha səmərəli icrası üçün işçilərin işçi qrupları yaratma hüququ;
- işçilərin və işçilərin keyfiyyətinin idarə edilməsində mağaza səviyyəsində iştirakı;
- işçilərin və menecerlərin işçi şuralarının (birgə komitələrinin) yaradılması;
- gəlirlərə iştirak etmək üçün sistemin inkişafı;
- Korporasiyaların idarə heyətinə işçi nümayəndələrinin cəlb edilməsi və s. (Talıbov R.K., 2007).

Ümumiyyətlə, qeyd olunan rəhbərliyin ilkin mənbələrinin yaradılmasını nəzərdən keçirərkən aydın olur ki, müasir dövrdə bu mənbələrdəki inkişaf və inkişaf proseslərinin axınına görə idarəetmə də təkmilləşdirilməlidir. Bu mənbələrin faktorları aşağıdakılardır: iri şirkətlərin, səhmdar cəmiyyətlərin yaradılması və yeni fəaliyyət növlərinə gətirilməsi, müxtəlif ölkələrdəki filialları, daşınar və daşınmaz əmlakın effektiv idarə funksiyalarını daha mütərəqqi menecerə ötürmək; müsabiqə - rəqabət qabiliyyətli məhsulların sərbəst buraxılması, bu sahədə firmaların işinin təşkilinin gücləndirilməsi; istehsal texnologiyalarının müasir tələblərə uyğun olaraq kompleksləşdirilməsi, avadanlıqların dəyərinin artırılması, müəssisələrin və təşkilatların geniş dallı strukturunun mövcudluğu, çox sayda işçinin olması və onların keyfiyyətli qruplara bölünməsi və s. istehsal idarəetmə sisteminin təkmilləşdirilməsini tələb edir.

**Nəticə**

Dünyanın aparıcı ölkələrində idarəetmə sahəsində təcrübəsini öyrənmək də daxil olmaqla dünyanın inkişaf etmiş ölkələrində istehsal prosesində insan amillərindən istifadə təcrübəsi Azərbaycan sahibkarlarının formalaşmasında və onların fəaliyyətinin idarə olunmasında böyük önəm daşıyır. İnsan amilindən danışarkən, bu müəssisənin insan potensialı deyil, həm də onların fəaliyyətini idarə edən şəxsləri nəzərdə tutur. Bu baxımdan, dövlətin prioritet iqtisadi siyasəti ilə yanaşı, sahibkarların da təlimə layiq görülən menecerlərə qayğı göstərməsi, bu istiqamətdə zəruri işlərin görülməsi onların əsas vəzifəsi olmalıdır, çünki neftdən sonrakı dövrdə ölkədə müxtəlif sənaye sahələrinin yaradılması ilə bağlı yüksək səviyyədə olacaqdır peşəkar idarə heyətinə ehtiyac. Qeyd olunduğu kimi, bu rəqəm 50 mindən artıqdır. Buna görə də belə bir ehtiyacın həyata keçirilməsində yalnız dövlətin iştirakı deyil, özəl sektorun rolu da var.effektiv insan

resurslarının idarə edilməsi menecerlərin əsas məqsədi. Xatırladaq ki, XX əsrin 60-cı illərindən etibarən, Amerika müəssisələrinin işçilərinin sosial-iqtisadi vəziyyətinin yaxşılaşdırılması üçün tələblərindən sonra bəzi rəhbərlər (idarəetmə nəzəriyyəçiləri və ya menecerləri) bir çox müəssisələrin sürətlə dəyişən sosial mühitə kifayət qədər diqqət yetirməməsi ilə nəticələnmişdir , öz məqsədlərinə nail ola bilməz. Bu, öz növbəsində, rəhbərliyə qeyri-peşəkarların iştirakı üçün yol açan "sənaye demokratiyası" doktrinasının yaranmasına kömək edir.

**Ədəbiyyat**


1. İbadov S.Ə. İqtisadiyyat (dərslik). Bakı - 2009, s. 234.
2. Talıbov R.K. Dünya idarəetmə modelləri: üstünlüklər və zəifliklər (sənaye müəssisələri nümunəsi). AMEA İqtisadiyyat İnstitutu. Milli iqtisadiyyat problemləri (məqalələrin toplanması). 1 saylı, Bakı - Elm, 2007, s. 272.
3. Fərruxov A.N. Şirkətin yenilikçi fəaliyyətinin idarə edilməsi. AMEA İqtisadiyyat İnstitutu. Azərbaycan Təhsil Nazirliyi. "Azərbaycan Respublikasında milli sahibkarlığın formalaşmasının və inkişafının əsas istiqamətləri" elmi-praktiki konfransın materialları. Bakı, 2002, s. 378.

# TARİXİ ZƏFƏRİN MODAYA TƏSİRİ

**Şəhla Abdullayeva**
Azərbaycan Dövlət İqtisad Universitetinin müəllimi,
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı
shahlabdullayeva@gmail.com

**Açar sözlər:** moda, dizayn, milli-mənəvi dəyərlər, tarixi zəfər, pandemiya

Milli-mənəvi dəyərlər geniş əhatə dairəsinə malikdir. Buraya xalqın dili, dini, davranışı, əxlaqı, adət-ənənəsi, folkloru, incəsənəti, ədəbiyyatı, fəlsəfəsi, elmi və bütövlükdə mənəvi mədəniyyəti daxildir. Belə geniş tərkibə malik olan mənəvi mədəniyyət cəmiyyətin mənəvi resurslarının yaradılması və onlardan istifadə olunması kimi mürəkkəb bir prosesi nəzərdə tutur. Mənəvi mədəniyyət milli mədəniyyətin mühüm bir hissəsidir və xalqın bir milli-mədəni varlıq olaraq mövcudluğunun əsas göstəricisidir. Ümumiyyətlə isə, mədəniyyət fenomeninə insan fəaliyyətinin bütün sahələri, onun əldə etdiyi nəticələri və yaratdığı sərvətlərin məcmusu aiddir. Sosial hadisə kimi mürəkkəbliyi ilə seçilən mədəniyyət ən ümumi şəkildə təbiətlə binar oppozisiyada olur və onun üzərində qurulur, bəşəriyyətin topladığı bütün maddi və mənəvi sərvətlərin məcmusu kimi çıxış edir, onların yaradılması, istifadəsi və gələcəyə itkisiz çatdırılmasını özündə ehtiva edir. Mədəniyyətin inkişafı milli-mənəvi və mədəni irsin ən yaxşı nümunələrinin yaradılması, inkişaf etdirilməsi, mənimsənilməsi və yaradılmış irsin qorunması ilə şərtlənir.

Moda və dizayn da öz növbəsində mənəvi dəyərlərlə, ictimai münasibətlərlə və ictimai quruluşun xarakteri ilə sıx şəkildə bağlıdır və bəşəri dəyərlərin tərəqqisinə təkan verən vasitələrdən biridir. Moda və dizayn özündə hər bir quruluşun səciyyəvi xüsusiyyətlərini, insanların düşüncə və davranış tərzlərini də bu və ya başqa şəkildə əks etdirir. Bu baxımdan modaya ictimai həyatın bütün sahələrinə sirayət edən amil və ictimai münasibətləri tənzimləyən, onları daim inkişafa və daha mütərəqqi formalar axtarışına sövq edən faktor kimi də baxmaq olar.

Modaya eyni zamanda ənənə və varislik prizmasından baxmaq lazımdır. Modanın daxili məzmunundakı bu dual sistem onu həm ənənədən tamamilə ayrılmağa qoymur, həm də onu daim səmərəli yeniləşməyə sövq edir. Buradakı ənənəvilik eyni zamnda mədəniyyətdə varisliyin təmin olunmasını şərtləndirir. Varisliyin təmin olunması hesabına milli-mədəni dəyərlər nəsildən-nəslə ötürülərək zamanın sınaqlarından keçərək, fərdin, xalqın və millətin formalaşmasında çox önəmli bir rolu yerinə yetirir və milli kimliyi müəyyənləşdirir. Beləliklə, moda xalqın tarixən formalaşan milli mədəniyyətinin əsasını təşkil edir. Moda bir dəyər və dəyərlərin tənzimləyicisi kimi çıxış edir və tarixi inkişaf prosesində dövrlər və nəsillər arasında məntiqi əlaqəni, tarixi yaddaşın bötüvlüyünü və tərbiyəvi əhəmiyyətini təmin edir. Yaranmasında və zənginləşməsində modanın da aktiv iştirak etdiyi mədəni dəyərlər intellektual fəaliyyətin nəticəsi kimi özündə fərdin mənəvi tələbatının ödənilməsi üçün yararlı mədəni təkamülü üçün şərait yaradan dəyərlər kompleksini nəzərdə tutur. Belə dəyərlər insan həyatının, fəaliyyətinin bütün sahələrinə sirayət edir, mədəni keyfiyyət meyarı kimi çıxış edir.

Moda, şübhəsiz, cəmiyyətin inkişafında elmi maraq doğuran ən vacib sosial hadisələrdən biri kimi qəbul olunur. Həmişə bu fenomenin mürəkkəbliyinə dəlalət edən sosial-fəlsəfi, etik, kulturoloji, sosioloji təhlil obyekti olmuşdur. Moda zamanla dəyişir, tarixi, dinamik, dövrə adekvatdır. Tarixi kontekstin məzmun-mahiyyətini təcəssüm etdirir, bir növ müasirliyin kvintessensiyasıdır. İnformasiya və texnoloji "irəliləyişlər" dəbin təbiətini dəyişdirir, yeniləşdirir, əlavələr edir,irəli aparır. onu daha əlçatan edir və müxtəlif sosial icmalar tərəfindən moda üçün etik dəyərlərin gözlənilməsini əsaslandırılan tələblər qoyulur.

Son günlər Azərbaycan tarixinin şanlı səhifələrindən biri kimi yaddaşlara həkk olundu. Cəmi 44 gün ərzində rəşadətli Azərbaycan Ordusu Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi altında 30 il müddətində işğal altında olan ərazilərimizi azad etdi, torpaqlarımızı

terrorçulardan təmizlədi. Vətən müharibəsində qələbənin əldə olunmasında xalq-ordu-dövlət birliyinin də mühüm rolu oldu. Xalqımız ordumuzun hər addım irəliləməsini böyük sevinclə izlədi, onu ruhlandırdı. Bu öz ifadəsini geyimlərdə də tapdı. Balaca uşaqdan başlamış yaşlı insanlaradək, xüsusilə gənclər milli ordumuzun aksesuarlarından köynəklər, batinkalar, futbolkalar, şapkaları öz geyimlərinə daxil edib, bununla da əsgərlərimizə milli-mənəvi dəyərlərimizi əks etdirən birlik, vəhdət, qəhrəmanlıq, igidlik, dostluq mesajlarını göndərdilər. Vətən müharibəsindən sonra Azərbaycan sənətkarları tərəfindən yüksək zövqlə və böyük ehtiramla hazırlanmış azadlıq və zəfər simvoluna çevrilmiş Şuşa şəhərinin rəmzi sayılan Xarıbülbül broşları geyimlərə daha da gözəllik verir, torpaqlara bağlılığımızı daha da möhkəmləndirir, dəyərlərimizə sadiqliyimizi ifadə edir.

Hazırda dünya ölkələri və cəmiyyətlər mürəkkəb bir dövrü yaşayır. Belə ki, bütün dünya ölkələri insanların həyatını və sağlamlığını təhlükə altına qoyan yeni növ koronavirusun yayılmasının qarşısının alınması üçün təxirəsalınmaz tədbirlər həyata keçiririr, lazımi müdafiə işləri görür. Belə tədbirlərdən biri də ictimai yerlərdə tibbi qoruyuculardan-maskalardan istifadə edilməsidir. Maskalardan istifadə olunması insan həyatının bu xəstəliyə yoluxmadan qoruması, xilas yollarından biri olması ölkəmizdə aparılan geniş maarifləndirmə işləri nəticəsində hamıya məlumdur. Bununla belə artıq maskalardan moda elementi kimi də istifadə olunmağa başlanmışdır. Daha çox qadınlar geyimin, əl çantasının, hətta dırnaq boyasının rənginə uyğun maskalardan istifadə edir, bu qoruyucu vasitədən estetik zövq almaqla onun istifadəsinin zəruriliyinə insanları cəlb edirlər. Maskalara əlavə olunmuş milli-mənəvi dəyərləri ehtiva edən fikirlər,devizlər, şüarlar, işğaldan azad olunmuş rayon və şəhər adları (“Qarabağ-Azərbaycandır”, “Can-Azərbaycan”, “Dəmir yumruq”, “Odlar Yurdu”, “Şəhidlər ölməz, vətən bölünməz”, “Land of fire”, “Biz qayıtdıq”, “Ana yurdum”, “Şuşa”, “Laçın”, “Füzuli”, “Cəbrayıl”, “Zəngilan”, “Ağdam”, “Qubadlı”, “Bayrakdar” və s.) insanları vətənpərvərliyə,birliyə, torpağı qorumağa və onu sevməyə, şəhidlərimizi hörmətlə yad etməyə çağırır.Ümumiyyətlə, dünya miqyaslı tədbirlər, idman və musiqi yarışmaları, oyunlar, olimpiadalar, beynəlxalq turnirlər, yubileylər, festivallar və onların simvolları da müəyyən dövr ərzində modaya daxil olaraq geyimlərdə öz əksini tapır, insanları dostluğa dəvət edir və sülh mədəniyyətini təbliğ etməklə etik dəyərlərin gözlənilməsinin zəruriliyini bildirir. Bu il Azərbaycanda dahi şair-filosof Nizami Gəncəvinin 880 illik yubileyi böyük təntənələrlə qeyd edilir, mütəfəkkirin yaradıcılığı təbliğ olunur. Müdrik şairimizin incə təfəkkürünün məhsulu olan ibrətli ifadələr, fikirlər yazılmış köynəklər, şapkalar, çantalar artıq modanın aksesuarlarına çevrilib, gənclərimiz dəblə bu geyimlərdən istifadə edirlər, şairin dəyərlərimizi əks etdirən fikirlərinə dərin hörmətlə yanaşırlar. Moda ümumbəşəri olanı və hər hadisəni əhatə edir, təsir dairəsində yalnız mədəniyyət və əlaqəli fenomenlər deyil, həm də müxtəlif məzmundakı sosial proseslərdir. Moda həm də sosial tənzimləyici və sosial marker rolunu oynayır, "dəbli" rəftar, zövq və üstünlükləri formalaşdıran kütləvi istehlak dövründə xüsusilə nəzərə çarpan bütün sosial təbəqələri əhatə edir. Tənzimləmə funksiyasını yerinə yetirmək, müasir bir insanın düşüncə xüsusiyyətlərini, davranışını, həyat təlimatlarının seçimini böyük ölçüdə müəyyənləşdirir. İnkişafı cəmiyyətin sosial quruluşu, sosial proseslərin xüsusiyyətləri və qrup istəkləri ilə şərtləndirilən bir sosial-mədəni fenomen olaraq, dəb sosial qarşılıqlı təsir məkanının genişlənməsinə, sosial həmrəylik mexanizmlərinin gücləndirilməsinə kömək edir.

Əslində, moda insan yaşamının zəruri faktoru kimi mahiyyətində fəlsəfi yük daşıyır. İnsan övladı qədimdən informasiyanın rəmzi ötürülməsi üsulundan istifadə edib. Bunun üçün bədən dilindən yararlanıb. Xüsusilə, insanlar sosial statuslarını rəmzi ifadə etmək üçün bədəndən geniş istifadə ediblər. Müəyyən sosial təbəqəyə mənsubluqda bundan geniş istifadə olunub. Müasir dövrdə mədəniyyət etik və estetik prinsiplərə uyğun şəkildə inkişaf edərək dəyişir. Mədəniyyətdəki inkişafın əsas hərəkətverici qüvvələrindən biri də olan moda elmi bilikləri, mütərəqqi ideyaları, yüksək əxlaqi və estetik görüşlərin məcmusu kimi çıxış edərək mənəvi dəyərlərin ardıcıl, hərtərəfli və harmonik inkişaf etdirilməsi və mənimsənilməsi üçün əlverişli şərait yaradır. Yuxarıda qeyd etdiyimiz məsələlər moda və dizaynın mənəvi dəyərlərlə əlaqəli şəkildə öyrənilməsinin vacibliyini şərtləndirir.

# UŞAQ ŞƏXSİYYƏTİNİN FORMALAŞMASINDA AİLƏDAXİLİ MÜNASİBƏTLƏRİN ROLU

**Günay Ağayeva**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi
gunaysherbet@gmail.com

**Açar sözlər:** ailə tərbiyəsi, ailədaxili münasibətlər,valideyn-övlad münasibəti,ər-arvad münasibəti,şəxsiyyətin formalaşması,uşağın təlim-tərbiyəsi

Ailə insanın sosiallaşması,tərbiyəsi və psixoloji dəstək almasını,müəyyən həyat tərzi və münasibətlərinin formalaşmasını şərtləndirən institutdur.Ailə ayrıca şəxsiyyətin,eləcə də bütövlükdə cəmiyyətin həyatında mühüm rol oynayır.Ailə psixoterapevtik mühitdir.İnsanlar dərdlərini,kədərlərini ailədə unudurlar.Ailə, uşağın ictimailəşməsində ən vacib və təsirli rolu öz üzərinə götürmüş bir sosial qrupdur. Ailədəki sosiallaşma təməl olub, fərdin daha sonra digər qruplarda öyrəndikləri bu təmələ görə formalaşır.Ailədəki sosiallaşmanın əhəmiyyəti yalnız körpəlikdə və uşaqlıqda deyil, yeniyetməlikdə də davam edir. Hər hansı bir səbəbdən ailənin bütövlüyünün pozulması və ya ailə daxilində qeyri-kafi qarşılıqlı əlaqə sosiallaşma prosesini əhəmiyyətli dərəcədə maneə törədir və uşağın səhv və ya qeyri-kafi bir şəkildə ictimailəşməsinə səbəb olur. Sosiallaşma prosesinə mənfi təsir göstərməsinə səbəb olan ailə quruluşunu araşdırmaq lazımdır. Çünki sosiallaşmanın müvəffəqiyyəti cəmiyyətin ən təməl daşları olan ailə üzvlərinin modelləşdirilməsi və möhkəmləndirilməsi kimi sosiallaşma üsullarından asılıdır.

Gənc nəslin şəxsiyyət kimi formalaşmasında və cəmiyyət həyatına hazırlanmasında böyük rol oynayan amillərdən biri ailə tərbiyəsidir. Gənc nəslin tərbiyəsi ailənin başlıca funksiyalarından, valideynlərin isə ən mühüm vəzifələrindən biridir. Uşaq şəxsiyyətinin formalaşmasında ailənin rolu əvəzedilməzdir. O,cəmiyyətlə inkişaf edən insan arasında vasitə rolunu oynayır. Ailədə uşaqların ata-ana ilə ünsiyyət tələbatı çox vaxt təmin olunmur. Valideynlər bəzi hallarda uşaqlarla rəftar və davranış zamanı birtərəfli iştirak edirlər.Valideynlərdən birinin uşağı əzizləməsi,yaxud da ona" hələ uşaqdır düzələr"deməsi uşaqların ailədəki tərbiyəsinə mənfi təsir göstərir.Çünki,ailənin tərbiyə imkanları valideyn və uşaqların qarşılıqlı əlaqəsi ilə müəyyən olunur.Bu baxımdan ailədə intizam tərbiyəsi çox vacibdir.Ailədə uşaqların həddindən artıq əzizlənməsi buna mane olur.(1,s.48)

Uşaq şəxsiyyətinin formalaşmasında ailədaxili münasibətlərin mühüm rolu vardır. Ailədaxili münasibətlərin sağlam psixoloji əsaslar, qarşılıqlı hörmət və məhəbbət əsasında qurulması cəmiyyətin inkişafını şərtləndirən amillərdəndir. Ailədaxili münasibətlər əsasən ata və ananın ailədəki rolu və bir-birilərinə olan münasibəti ilə şərtlənir. Həmin bu münasibətlər həm ailənin möhkəmliyinə, həm də uşaqların tərbiyəsinə xüsusi təsir göstərir. Ailədaxili münasibətlərdə valideynlərin uşaqlar ilə olan münasibəti də önəmli əhəmiyyət kəsb edir. Bu münasibətlər lap kiçik yaşlardan, məktəbəqədər yaş dövründən başlayır. Məktəbəqədər yaşlı uşaqların şəxsiyyətinin formalaşmasında, psixi inkişafında, ətrafdakılarla rəftar və davranışında valideyn-övlad münasibətləri mühüm rol oynayır. Bu münasibətlər uşağın öz yerini, ailədəki rolunu müəyyənləşdirməkdə və özünü dərk etməkdə, qabiliyyət və bacarıqlarını inkişaf etdirməsində vacibdir.

Hər uşaq doğularkən fərqli irsi xüsusiyyətlərlə doğulur. Ətraf mühit faktorları və valideynlərin münasibətləri onların şəxsiyyətlərini formalaşdırır. Fərdi xüsusiyyətləri nəzərə alınaraq tərbiyə alan uşaqlar özlərinə güvənən şəxsiyyətlər kimi formalaşırlar.Valideyn münasibətləri tamamlayıcı, ziddiyyətli olmayan və uşaqlara həddindən artıq təzyiq və ya boşluq yaratmayan bir keyfiyyət olmalıdır.Valideynlərin münasibətləri, uşaqların şəxsiyyətini irsi xüsusiyyətləri ilə birlikdə inkişaf etdirən,gücləndirən və formalaşdıran ən vacib amildir. Çox vaxt uşaqların davranışının çoxunun 0-6 yaş arasında qazandıqlarını nəzərə alsaq, burada valideynlərin münasibətlərinin nə qədər vacib olduğunu başa düşmək olar.Ailənin uşağa təsiri uşaq ana bətnində olanda başlayır. Hamilə ana davamlı olaraq hirs, məyusluq, narahatlıq hissləri

ilə yüklənmişdirsə,aşırı dərəcədə narahat və qorxu içində olarsa, bu həyəcanlar körpəyə ananın qanı və hormonları ilə ötürülmüş olur.Beləliklə, körpəsi hələ bətnindəykən ananın duyğuları və reaksiyaları körpəyə təsir göstərməyə başlayır .Valideyn münasibətlərinin ən görkəmli iki xüsusiyyəti "emosional münasibət ölçüsü" və "nəzarət ölçüsüdür"."Emosional münasibət" ölçüsü araşdırıldıqda, uşağı qəbul edən münasibətdən, rədd edilməyə qədər geniş bir şəkildə fərqləndiyi görülür.Eynilə, "nəzarət ölçüsü" məhdudlaşdırıcı münasibətdən tolerant münasibətə qədər geniş bir sahəni əhatə edir. Uşaq isti bir şəraitdə valideyn razılığı almağa istəkli olur və onun sevgisini itirməkdən qorxur. Təcavüzkarlığı idarə etmək üçün döymək kimi şiddət metodlarına müraciət edən valideynlər həm uşağı məyus edir, həm də daha çox qəzəbə səbəb olan münasibətlər göstərərək ona təcavüzkarlıq nümunəsi nümayiş etdirirlər.Uşaqların sosial və əqli cəhətdən səriştəli bir şəxs olması istənilirsə,valideyn nəzarəti müəyyən dərəcədə tələb olunur. Bir övlad böyütməkdə və valideynlərin uşaqlara qarşı münasibətini müəyyənləşdirməkdə uşağın inkişaf mərhələlərinin xüsusiyyətlərinin nə olduğunu bilmək çox vacibdir.Uşaq böyüklərin kiçik bir modeli deyildir. Uşaqları böyüklərdən fərqləndirən bir çox xüsusiyyətləri var: uşağın ən güclü nümayiş etdirilə bilən gücü və üstünlüyü öyrənmək üçün motivasiyadır.

Uşaq həyatla əlaqəli bilik və bacarıqları valideynlərindən öyrənir. Valideynlərin körpəlikdən uşağa qarşı münasibətləri dərin və qalıcı izlər buraxır. Valideynlərin uşağa göstərdiyi tarazlı sevgi və qoruma hissi onlarda etibar hissini inkişaf etdirməyə kömək edir. Belə olduqda uşaq insanları sevməyi,onlarla münasibət qurmağı öyrənir. Uşaq valideynlərini təqlid edərək sosial həyata alışır. Ailənin içindən seçdiyi nümunə pis bir şəxsiyyət quruluşuna malikdirsə, uşağın içində pis davranışın yaranma ehtimalı artır.Bu səbəbdən də valideynlərin uşağa yaxşı bir nümunə göstərmələri çox vacibdir. Valideynlər sözlərindən daha çox davranışları ilə uşağa nümunə olmalıdırlar.Ana və ya ata - tamamilə şüursuz - uşağa həddindən artıq həvəs göstərməsi həm ailə həyatının xoşbəxtliyini poza bilər,həm də uşağa mənfi təsir göstərə bilər.

Doğuşdan sonra uşağın ilk sosial mühiti ailəsidir. Uşaq davranış nümunələrini burada tapır, yaşayır və öyrənir. Yaxşı-pis, düzgün-səhv, günah-yaxşı əməllər və digər sosial dəyərlər burada qazanılır. Bundan əlavə, uşaq fiziki ehtiyacları sığınacaq, qoruma, qidalanma, yuxu, geyinmə, oyun təmin edilərkən, güvən, sevgi, müstəqillik, bir qrupa mənsubiyyət, məsuliyyət, işdə uğur qazanma, qeyri-müəyyənlikdən qorunma, qaydaları, hörmət, hüquq və vəzifələri öyrənmək üçün psixoloji və sosial ehtiyac hissini ilk dəfə bu mühitdə öyrənir.Uşağın sevgi potensialı 0-2 yaşlarında daha sürətlə olur. Ömür boyu paylaşacağı bu isti, sevgi dolu hissi ailə mühitindən alır. Bu mühitdə şəxsiyyətin sağlam təməlləri qoyulur. Sevgi ilə böyüyən uşaq həyata etibar etməyi və digər insanlara məhəbbətlə yanaşmağı öyrənir. Əsas etibar hissi belə bir ailə mühitində inkişaf edir, yetkinləşir və ömür boyu davam edir. Fərdlərin ailə daxilindəki qarşılıqlı əlaqəsi uşağın ailədəki mövqeyini təyin edir.

Uşaq sosial bir fərd olaraq özü üçün bir model axtarır və bunu ailədə tapır. İlk modellər valideynlərdir. Ailədə uşağın tərbiyəsində ananın rolu kifayət qədər yüksəkdir. Uşağın şəxsiyyəti ananın davranışı ilə müəyyən edilir. Uşaqlar əvvəlcə analarını, sonra atalarını modelləşdirirlər. Daha aydın şəkildə desək, ümumiyyətlə qız uşağı ananı, oğlan uşağı isə atanı model olaraq görür.Modelin uşaq tərəfindən təqlid edilməsinin ən vacib şərti müşahidədir. (2,s.71)Lakin bu, kifayət qədər şərt ola bilməz. Çünki bir çoxlarının davranışı uşaq tərəfindən müşahidə olunur; lakin təqlid edilə bilməz. Uşaq nümunə götürməli olduğunu düşündüyü davranışları seçərkən, özünə görə seçim edə bilər. Model valideynin mənfi davranışı uşaqda böyük bir narahatlığa səbəb olur. Evdə profilaktik və cəzalandırıcı qərarların icrası ataya həvalə olunur. Ata ailədə qorxu və hörmət rəmzi kimi qəbul edilir, bu səbəbdən də patriarxal ailə quruluşunun izləri bu gün də davam edir.Bu vəziyyətdə, ata evə gəldikdə, uşağın gün boyu etdiyi fəsad yalnız ana tərəfindən siyahıya alınmır, həm də atanın uşağı cəzalandırması gözlənilir. Digər tərəfdən ailələrdə bu meyl bir müddətdən sonra atanın evin hökmdarı olması və cəza sistemini idarə etməsi deməkdir. Ölkəmizdə ata övlad böyütmək və təhsil vermək məsuliyyətini anaya həvalə edir və evin qida və geyim kimi maddi ehtiyaclarını ödəməklə bitdiyini düşünür, bu səbəbdən evə gələndə uşaqların səs-küyündən uzaq olmaq istədiyini,hətta uşaqların səsini eşitməyə dözə bilməyəcəyini və ayrı bir otaqda tək qalmaq istədiyini belə dilə gətirir. Bu, ailə münasibətlərinin

zəifləməsinə, ailədəki cinsi rolları və vəzifələri lazım olduğu kimi yerinə yetirə bilməməyə, düzgün olmayan ictimailəşməyə və nəticədə ailənin əsl missiyasını açа bilməməsinə səbəb ola bilər. İndiki ailələrdə valideynlər, xüsusən də atalar özlərini uşaqlarının maddi ehtiyacları üçün böyük ölçüdə məsuliyyət daşıyırlar və nəticədə övladları üçün çox az vaxt ayırırlar. Bu, uşağın bir model olmadan böyüməsinə səbəb olur, beləliklə məsuliyyətin öyrənilməsinə və daxili nəzarət mexanizminin inkişafına mane olur. Bu səbəblədə uşağa erkən yaşlarından ehtiyacı olan şeyləri verməк lazımdır ki,gələcək üçün ümidli ola bilsinlər. Əslində uşaqların ailələrindən gözləntiləri çoxdur.Bir uşağın ən çox ehtiyac duyduğu şeylərə nəzər salsaq, yetərli qidalanma, valideynləri olan bir evdə sevgi və anlayışla baxılması, qorunması, hörmət və barış mühitində böyüməsi, dövrün ehtiyaclarına uyğun bir təhsil almaqdan başqa çox vacib ehtiyaclarının olmadığını görərik .Uşağın yaxşı bir təhsil fürsəti , rol modellərini və olması lazım olan modeli tapdığı zaman inkişaf etməsi, bir şəxsiyyət qazanması, bir peşə qazanması və cəmiyyətin faydalı bir üzvü olması heç də çətin deyil. Unutmaq olmaz ki, bu metodla cəmiyyətə gətirilən uşaqların sayı kifayət qədər çoxdur. Bu məqamda sağlam ailələrdə böyüyən uşaqların daha sağlam olduqlarını, cəmiyyətlə və özləri ilə daha sağlam ünsiyyət və qarşılıqlı mühit qurduqlarını bir daha xatırlatmanın faydalı olduğunu düşünürük.Təəssüf ki, uşağın axtardığı əlverişli şərtlər həmişə bir araya gətirilə bilməz. Uşaqlar çörək tapanda sevgi , sevgi tapanda isə çörək tapa bilməzlər, alçaldıla bilər, əzilir, döyülməkdən şikəst olur, ölməyə belə göz yumur və hətta bəzən ailə üzvləri tərəfindən bu arzuolunmaz vəziyyətə, ailə üzvləri tərəfindən dilənməyə ,pis vərdişlərə məruz qala bilərlər.

İnsan anadan olduğu gündən ömrünün sonuna kimi tərbiyəvi təsirlərin əhatəsində yaşayır.Bunun üçün valieynlər uşağı ilk gündən elə tərbiyə etməlidirlər ki,onun hansı yaşındasa yenidən tərbiyəsinə ehtiyac qalmasın.O,cəmiyyət üçün faydalı adam kimi böyüsün,ailə,kollektiv,ümumiyyətlə xalq üçün ağır yükə çevrilməsin.Böyüməkdə olan gənc nəslin tələbat-motivasiya sahəsinin,əxlaq şüurunun və s. formalaşmasına xüsusi diqqət yetirilməlidir.Uşaqda özü haqqında aydın təsəvvür yaradılmalıdır.O,özünün müsbət və mənfi keyfiyyətlərini düzgün qiymətləndirməyi öyrənməli və vaxtında özünütərbiyə ilə məşğul olmalıdır.

**İstifadə edilmiş ədəbiyyat**

1.Quliyev S.M. Məktəblilərin mənəvi tərbiyəsində ailə, məktəb və ictimaiyyətin birgə fəaliyyəti. Bakı: 1982.

2.Дониченко О.Г., Фелькер Ю.И. Модель психолого-педагогического сопровождения учителя в инклюзивном пространстве общеобразовательного учреждения, ГОУ СОШ № 1323

# ELİTAR VƏ KÜTLƏVİ MƏDƏNİYYƏTLƏRİN İNKİŞAF MƏRHƏLƏLƏRİ

**Məhsəti Cəfərova**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının müəllimi,
AMEA-nın Fəlsəfə institutunun dissertantı
mehseti.ceferova@inbox.ru

**Açar sözlər:** elitar mədəniyyət, kütləvi mədəniyyət, yaradıcı insan, fəlsəfə, kulturologiya, sosiologiya, milli xarakter.

Müxtəlif tarixi dövrlərdə yaradılan və qorunan, nəsillərdən nəsillərə ötürülən ayrı-ayrı mədəniyyətlərin bəşər mədəniyyətinə mərhələli şəkildə çevrilməsi təbii prosesdir. Bu proses xalqlar arasında məqsədli olaraq süni şəkildə yaradılmış ziddiyyətlərə baxmayaraq müntəzəm şəkildə davam etməkdədir. Beləliklə, mədəniyyət mənsub olduğu xalqın özünəməxsus maddi və mənəvi abidələrini, zənginliklərini müvafiq zaman, məkan çərçivəsində əks etdirməklə varislik və müasirlik kontekstində daim əbədiləşir.

Mədəniyyətlərin yaranması və inkişafı dərketmə səviyyəsinə, zehni fəallığa, müxtəlif tarixi dövrdə baş verən hadisələrə münasibətə, dəyər vermə keyfiyyətinə, təfəkkür qabiliyyətinə görə seçilən insanlarla bilavasitə əlaqədar olmuşdur. Xalqlar məhz belə insanların intellektinə uyğun olaraq onların mədəni qabiliyyət və yaradıcılıqlarına görə mədəni sahədə istiqamətlənmişlər. Xalqlarda ayrı-ayrı tarixi mərhələlərdə elitar qüvvələr təşəkkül tapmış və bu da elitar mədəniyyətin yaranmasında mühüm əhəmiyyət kəsb etmişdir. Zaman keçdikcə elitar mədəniyyət vasitəsilə kütləvi mədəniyyətin təşəkkülü baş vermiş, inkişaf mərhələlərində olmuşdur. Beləliklə, müxtəlif zaman və məkanlarda baş verən sosial hadisələrdən, fəaliyyətin məqsədindən, təşkili xüsusiyyətlərindən asılı olmaqla, bəşər mədəniyyətinin inkişafı həm sürətli, həm də məqsədəmüvafiq xarakter almışdır. Bütün bu proseslərdə ictimai mühitin dərketmə səviyyəsində irəliləyişlər baş vermiş, nəticədə fəaliyyətin müxtəlif sahələrində baş verən yeniliklərin ümumi qanunauyğunluqlarının qavranılması özünü göstərmişdir. İnsanların zaman-zaman əldə etdikləri milli maddi və mənəvi mədəni dəyərlər kütləviləşərək, ümumbəşəri dəyərlərin tərkib hissəsinə çevrilmişdir. Bütün bu proseslərin mənbəyində mədəniyyətdə fərqlənmə ideyalarının təşəkkülü elitar qüvvənin cəmiyyətin inkişafındakı əhəmiyyəti ilə bağlı təlim və nəzəriyyələrin yaranmasına səbəb olmuşdur. Təlim və nəzəriyyələr mühüm əhəmiyyətə malik elitar və kütləvi mədəniyyətlərin bir-biri ilə əlaqəsi, qarşılıqlı təsirini, mədəni inkişafın sürətli xarakter almasını, inkişafa, tərəqqiyə xidmət edən ideyaların tətbiqini, yayılmasını təmin etmişdir.

Məlumdur ki, cəmiyyətdə elita və kütləyə bölünmə zərurəti ilə bağlı elitarizm konsepsiyası mövcuddur. Elitarizmlə bağlı ilkin ideyaların təşəkkülü qədim dövrlərə təsadüf edir. Bəzi mənbələrə görə elitarizm nəzəriyyəsi hətta Plutondan əvvəəl Pifaqor tərəfindən irəli sürülmüşdür.

Şərq fəlsəfəsi tarixindən məlum olmuşdur ki, ilkin elitar nəzəriyyələr 2500 il bundan əvvəl yaranmışdır. XX əsrdə isə elitar və kütləvi mədəniyyətlər arasındakı ziddiyyətlərin dərinləşməsi ənənəsi daha da güclənməyə başlandı.

Mənbələrdən məlum olmuşdur ki, ayrı-ayrı tarixi dövrlərdə müxtəlif fəlsəfi cərəyanlar da elita haqqında fərqli nəticələrə gəlmişlər.

Beləliklə, apardığımız araşdırmalardan məlum olmuşdur ki:

- elita, elitarlıq, elitar və kütləvi mədəniyyətlərlə bağlı fəlsəfi fikir tarixində fərqli və ziddiyyətli mövqelər mövcuddur;
- elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı əlaqəsi cəmiyyətdə öz müsbət təsirini göstərir;
- ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətin kütləvi mədəniyyətin inkişafına təkanverici təsiri özünü göstərmişdir;

- inkişafın ayrı-ayrı sahələri üzrə elitanın əldə etdiyi yeniliklər, digər sahələrlə yanaşı, mədəniyyətdə də inkişafetdirici qüvvəsini sübut etmişdir;
- hüquqi, siyasi, iqtisadi, dini, elmi və digər sahələr üzrə elitaların mədəniyyətin inkişafında mühüm rolu olduğu kimi, mədəni elitanın da digər sahələrin inkişafında əhəmiyyəti bütün tarixi dövrlərdə özünü göstərmişdir.

Hazırda kütləvi xarakterə malik milli mədəni nümunələr digər mədəniyyətlər tərəfindən assimilyasiyaya məruz qalaraq, milli xarakterə malik olan nümunələr özünəməxsusluğunu itirir. Nəticədə milli mədəniyyətin unudulması kimi problemlər yaranır.

Elitar və kütləvi mədəniyyətlərin qarşılıqlı əlaqə prosesində müasir innovasiyalardan istifadənin əhəmiyyəti böyükdür. İnformasiya mübadiləsi və qarşılıqlı təsir ictimai-mədəni prosesləri sürətləndirir. Bu zaman müxtəlif mədəni sahələrdə dialoq zamanı informasiya bolluğu və yaxud əksinə, informasiya qıtlığı mədəni innovasiyanın təşəkkülü üçün mənbə rolunu oynayır.

Kütləvi mədəniyyət ilk mədəni dəyərlərin təşəkkülü ilə bilavasitə bağlıdır. Müqəddəs kitabların kütləvi auditoriya üçün nəzərdə tutulmuş formalarını buna misal göstərmək olar. Avropada kitab çağının meydana gəlməsi sayəsində kütləvi mədəniyyət inkişaf etmiş, dini ədəbiyyatla bərabər macəra və dedektiv romanın yayılması nəticəsində müvafiq oxucu auditoriyası artmışdır.

Elitar mədəniyyət innovasiyaya dəyər vermək nöqteyi-nəzərindən də kütləvi mədəniyyətdən məzmun etibarilə fərqlənir, mütərəqqi sosial hadisə kimi özünü göstərir. Qeyd edək ki, elitar təbəqə və onun bəxş etdiyi mədəniyyət nümunələri kütləvi mədəniyyətə nisbətən azlıq təşkil edir. Elitar şüurun kütləvi şüurdan fərqliliyi də özünü göstərir. Belə ki, elitar şüur:

- keçmişə nəzər salır, müasirliyi qoruyaraq gələcək inkişafa cəhd edir;
- gündəlik zehni fəaliyyətini zərurətini anlayır;
- daim yeni yaradıcılıq məkanı axtarışındadır;
- təbiətə, cəmiyyətə və insana yeni yanaşmalar axtarışındadır.

Çoxmədəniyyətli cəmiyyətlərdə milli mədəniyyətlər zənginliyi və rəngarəngliyi ilə fərqlənir. Bu baxımdan multikultural cəmiyyətlərdə milli məzmunlu kütləvi mədəniyyətin öz forma və məzmununu qoruması üçün daha münbit şərait mövcud olur. Ölkəmizdə də multikultural ənənələr hökm sürdüyündən etnik birliklərin həm elitar, həm də kütləvi mədəniyyət nümunələri öz varlığını qoruyub saxlamaqdadır.

Kütləvi mədəniyyətin səciyyəvi xüsusiyyətləri Qustav Lebonun “Xalqların və kütlənin psixologiyası”, Ziqmund Freydin “Kütlə psixologiyası və insan “mən”inin analizi”, L.Veytolovksinin “Kollektiv psixologiyaya dair esselər”, “İctimai hərəkatların psixologiyası”, Qabriel Tardın “Xalq və izdiham” əsərlərində ətraflı şəkildə şərh edilmişdir.

Hazırda kütləvi mədəniyyət sosial-mədəni həyatın ayrılmaz hissəsi kimi təzahür edir. Kütləvi mədəniyyətin yaradıcılarının yaradıcılıq qabiliyyətləri və bacarıqlarının zəif olmasına görə onlar bəzən elitar mədəniyyətin yamsılanması qismində çıxış edirlər. Yaradıcılıqda məhdudluğa görə kütləvi informasiya vasitələrinə imkan yaratmaq, önəm vermək kütləvi mədəniyyət yaradıcılarının əsas səciyyəvi xüsusiyyətlərindəndir.

İstər elitar, istərsə də kütləvi mədəniyyətlərdə tarixi dövrdən asılı olmayaraq insan amili əsas rol oynamışdır. Xalqının tərkibində öz zehni inkişafı ilə fərqlənən insan amili əsas rol oynamışdır. Bu proseslər mühitində baş verən hadisələrdən asılı olaraq idraki proseslərdən də asılılığını göstərmişdir. Beləliklə, “ ... fikri baxımdan zəngin, yaxud “kasıb” idrakların mövcud olduğu qruplar, xalqlar, ölkələr müvafiq inkişafda olduqlarından, inkişaf fərqliliyi özünü qabarıq şəkildə göstərmişdir.

Ümumiyyətlə, mədəniyyətin inkişafı elitar mədəniyyətin inkişafı ilə bilavasitə bağlı olmuşdur. Məhz insan zəkasının inkişafı sayəsində bu proseslər mövcud olmuşdur. İnsan zəkası ayrı-ayrı tarixi dövrlərdə mərhələlərlə maddi və mənəvi dəyərlərin yaradılmasını, qorunmasını, kütləviləşməsini, gələcək nəsillərə ötürülməsini təmin etmişdir. Alim-tədqiqatçılara görə ümumi

inkişafın, ictimai həyatda baş verən bütün dəyişikliklərin mərkəzində insan dayanır, hətta dünya qəhrəmanları insanlardır.

Elitar və kütləvi mədəniyyətlərdə insan əsas yaradıcı varlıq kimi öz yaratdıqlarını mənəviləşdirir. Yəni, tarixi dövrlərdə maddi nemətlərin istehsalından sonra bu nümunələrə əsasən zəngin məlumatlar, biliklər əldə edilir. Bunun nəticəsində də adətlər, ənənələr, bayramlar, mərasimlər yaranır, sonrakı tarixi dövrdə mərhələlərlə gələcək nəsillərə ötürülür. Beləliklə, zaman-zaman maddiləşən yazılı qaynaqlar şəklində mövcud olan, qorunan mədəni sərvətlər kimi bu irs öyrənilmiş və qədim mədəniyyətlərin dərk mənbəyi kimi mühüm amilə çevrilmişdir. Bu səbəbdən elitar və kütləvi mədəniyyətlərlə bağlı müxtəlif nəzəriyyə və baxışların araşdırılması, öyrənilməsi mümkün olmuşdur.

Mədəniyyətlə bağlı araşdırmalardan, fikir və mülahizələrdən belə nəticəyə gəlmək olar ki, mədəniyyət üçün məkan, mənbə cəmiyyətdir, yəni cəmiyyətsiz mədəniyyətin mövcudluğu mümkün deyil. Cəmiyyət yarandıqdan sonra mədəniyyət təşəkkül tapmağa başlamışdır ki, bu da sivilizasiyanın inkişafı ilə bilavasitə bağlıdır. Öz növbəsində sivilizasiyanın inkişafında isə insan tərəfindən mənimsənilən bilik, bacarıq, vərdişlər, təcrübə, əxlaq, incəsənət, adətlər, qabiliyyətlər kompleksi əsas əhəmiyyət ksəb edir. Elitar və kütləvi mədəniyyətlər müxtəlif istiqamətli, səviyyəli yaradıcı insanların cəmiyyətə bəxş etdikləri ideyalar, yaradıcılıq istiqamətlərinin nəticələri, nümunələri vasitəsilə inkişaf yolunda olmuşdur . Yaradıcı insan elitar və kütləvi mədəniyyətlərin yaradıcısı, inkişaflarına təkan verən, həmçinin sivil cəmiyyətin aparıcı qüvvələri hesab edilirlər. Bütün bu proseslər hər bir milli mədəniyyətin daxili məzmununu təşkil edir. Həmçinin yaradıcı insanlar – şəxsiyyətlər, yüksək bacarıq və qabiliyyətə malik olanlar, fitri istedadlar, elm və incəsənət xadimləri, digər seçilmişlər milli mədəniyyətin inkişafı zəminində həmin xalqın mədəniyyətinin kütləvi xarakter almasına səbəb olmaqla, eyni zamanda bəşər mədəniyyətində elitar fenomenlərə çevrilərək mədəniyyətin dünya miqyasında kütləviliyinə yardım etmiş olurlar.

Qeyd etmək lazımdır ki, elitar və kütləvi mədəniyyətlərdə "millilik" məfhumu barədə alim-tədqiqatçılarda rəy müxtəlifliyi mövcuddur. Hər bir milli mədəniyyətin yaranması, inkişafı və tərəqqisində həm mühit, həm də təkamül baxımından qarşılıqlı əlaqələrin məqsədyönlülüyü əhəmiyyət baxımından özünü göstərir. Elitar mədəniyyətdə məkan və şəraitin əhəmiyyəti böyükdür. Elitar incəsənətin formalaşdırılmasında mühit, şəraitlərlə yanaşı, fərdlərin yüksək yaradıcılıq bacarıqları getdikcə millilikdən bəşəriliyə çevrilir. Çünki, belə yaradıcıların "yaradıcılıq manevrləri" üçün daha geniş məkan, dünyəvi şərait tələb olunur.

Beləliklə, yaradıcı insan tərəfindən ərsəyə gətirilən mədəni sərvətlər ayrı-ayrı tarixi dövrlərdə müxtəlif məzmunda və formalarda olmuş, sivilizasiyanın tərkib hissəsi kimi, mifoloji və dini hadisələrlə yanaşı, əksər hallarda real fəaliyyəti özündə əks etdirə bilmişdir.

Apardığımız araşdırmadan aşağıdakı nəticəyə gəlmək olar:

- elitarlıqda mövcudluq milli xarakterə əsaslanır. Bu prosesdə maddi və mənəvi dəyərlərə yaradıcı münasibətin təşəkkülü, coğrafi mövqe, mühit, şərait, tarixi dövr ifadə olunur;
- elitar mədəniyyətdə maddi və mənəvi yaradıcılığın məzmununu ehtiva edən milli təfəkkür mühüm amil hesab olunur;
- elita tərəfindən bəşər mədəniyyətinə təqdim olunan milli mədəniyyətdə milli xarakter özünü büruzə verir;
- elitar və kütləvi mədəniyyətlərdə ənənəviliklə tarixi varisliyin vəhdəti qarşılıqlı əlaqədə olur;
- elitar mədəniyyətin kütləvi mədəniyyətə çevrilməsində yaranan ziddiyyətlər getdikcə müvafiq tarixi dövr ərzində öz həllini tapır.

# MİLLİ DƏYƏRLƏR VƏ SİYASİ MÜNASİBƏTLƏR

**Kamran Vəlizadə**
Naxçıvan Dövlət Universitetinin doktorantı

Milli dəyərlər və siyasi münasibətlərin qarşılıqlı əlaqəsinin müəyyənləşdirilməsi olduqca aktual problemdir. Milli dəyərlərin dövlətin daxili və xarici siyasətində mühüm rolu bəşər sivilizasiyasının yeni mərhələyə qədəm qoyması ilə əlaqədardır. Müasir dövr ümumi və yaxın milli dəyərlərə malik xalqlar, sivilizasiyalar, mədəniyyətlər arasında dialoqu zərurətə çevirmişdir. Qərb sivilizasiyasının öz dəyərlərini bütün dünyada milli dəyərlər sisteminə tətbiq etmək cəhdi əslində münaqişələr yaratmaq təhlükəsi doğurur. Dünyagörüşlərin, dinlərin, mədəniyyətlərin rəqabəti əsrlər boyu davam etmişdir.

XVII-XIX əsrlərdə dünyəvi ideoloji doktrinalar-millətçilik, liberalizm, kommunizm, faşizm cərəyanları meydana gəlib inkişaf etdi. Onlar öz aralarında və ənənəvi dini dəyərlərlə mübarizə aparırdılar. XX əsrdə bu ideologiyalar və dəyərlər sistemi bir-birilərini məğlubiyyətə uğratdılar. Faşizm təkcə hərbi cəhətdən deyil, iki kosmopolit ideologiya və dəyərlər sistemi olan liberalizmin və kommunizmin birləşmiş mənəvi qüvvələri tərəfindən də darmadağın edildi. Lakin tezliklə dünya liderliyi uğrunda iki ideologiya-liberalizm və kommunizm arasında “soyuq müharibə” başladı. Bu “müharibə” kommunizmin məğlubiyyətilə başa çatdı.

Millətçilik ideologiyası və milli dəyərlər sistemi Avropada milli dövlətlərin yaranması və müstəmləkəçiliyin sona çatması ilə öz vəzifəsini yerinə yetirmiş oldu. Lakin millətçilik müasir dövrdə öz aktuallığını itirdi. İndi millətçilik ancaq regional səviyyədə müəyyən rol oynayır. Qloballaşma şəraitində xalqların milli özünəməxsusluğunun, milli dəyərlərinin qorunub-saxlanmasında millətçilik əsas amillərdən biri kimi çıxış edir. Müasir dövrdə millətçiliyin ideoloji doktrinadan dəyərlər sisteminə transformasiyası baş verir. Millətçilik yeni keyfiyyət kəsb edərək yeni siyasi layihələrin həyata keçirilməsindən daha çox müxtəlif ölkələrin və xalqların ənənəvi milli dəyərlər sisteminin qorunub-saxlanmasına cəhd edir.

“Millətçiliyin əsasını özünü etnik birlik kimi dərk edən insanların ümumi mənafe və tələbatlarının reallaşmasına xidmət göstərən… dəyərlər. normalar və prinsiplər təşkil edir. Bu ideologiya (və dəyərlər sistemi) millətin, xalqın özünü vahid tam kimi dərk etməsini, hər bir fərddə onun etnosa mənsubiyyəti hissinin meydana gəlməsi və güclənməsini şərtləndirməklə ictimai tərəqqini sürətləndirən təsirli sosial-psixoloji, mənəvi-emosional amil rolunu oynayır”[1, c.392]. Göründüyü kimi, millətçiliyin doğurduğu milli dəyərlər fərd-etnos-millət triadasında birləşdirici amil olaraq özünü göstərir. Bu isə öz növbəsində qlobal səviyyədə etnik və milli intibaha gətirib çıxarır.

XIX əsrin sonlarında Qərb liberalizmi dünyada qalib gəldi.Bəzi tədqiqatçılar bunu bəşəriyyətin inkişafında “tarixin sonu”, “qızıl əsrin” başlanğıcı kimi səciyyələndirir.Bütün dünya Qərb liberal dəyərlər modelini qəbul etdi. Liberalizm millətçilik və milli dəyərlərdən fərqli olaraq özündə şəxsiyyət azadlığını, insanın ali sərvət hesab edilməsi, kosmopolitizm, humanizm, fərdiyyətçilik, maraqların təbii harmoniyası ideyalarını əks etdirir. Qərb öz dəyərlər modelini başqa cəmiyyətlərə sirayət etdirməklə özünü sivilizasiyaların lideri hesab edir.

Milli dəyərlər fəlsəfi kateqoriya olub ictimai şüur anlayışıdır. “Milli dəyərlər millətin varlığından doğan spesifik fenomendir. Hər bir millətin milli dəyərləri ənənəviliklə müasir ümumbəşəri cəhətləri özündə vəhdət şəklində əks etdirir”[2, s.141]. Burada çoxsaylı nəsillərin təcrübəsində dərk edilən dəyərlər ifadə olunmuşdur.Ənənəvi milli dəyərlər müasir müstəqil Azərbaycanın ideoloji silahı funksiyasını yerinə yetirir. Çünki ənənəvi dəyərlər konsepsiyasında müasir Azərbaycan siyasi ritorikasında geniş istifadə edilir.Bəziləri səhv olaraq onu demokratik cəmiyyət üçün sosial və siyasi təhlükə hesab edirlər.Əslində ənənəvi milli dəyərlərin unudulması, dağılması cəmiyyətin qarşılıqlı özgələşməsi, tənəzzülü, insanların şəxsiyyətsizləşməsinə gətirib çıxarır.Bunlar isə radikalizmin, ksenofobiyanın, dini zəmində münaqişələrin artmasına səbəb olur, insanları parçalayan eqoizm təcavüzkar millətçiliyə çevrilir.Ənənəvi dəyərlərə müraciət hər cür şəraitdə tətbiq olunan geniş yayılmış üsullardan

biridir. Siyasi aspektdən ənənəvi milli dəyərlərə toxunan rus alimi D.Dubrovskinin fikrincə, ənənələrə istinad edilməsi, hər şeydən əvvəl hipotetik təhlükə yaranarsa siyasi məkanda oyun gedərkən müdafiə məqsədilə istifadə olunur. Müəllif bu məqamda ənənəvi dəyərlərin virtual müdafiə rolu oynadığını, cəmiyyəti "təhlükəli" "dağıdıcı" amillərdən müdafiə etdiyini göstərir.

Müasir dövrdə Azərbaycan cəmiyyətində mili dəyərlər siyasi kontekstdə azərbaycancılığa qovuşur. Məlum olduğu kimi, azərbaycanlıların milli xüsusiyyətləri və ənənələri kimi Azərbaycanın obyektiv tələbatları və inkişaf perspektivləri konteksində aşağıdakı milli dəyərlər sistemini müəyyənləşdirmək olar:vətənə məhəbbət; milli-dövlət birliyi, ailə dəyərləri, şəxsiyyət azadlığı, liberal-demokratik dəyərlər,dilindən, dinindən, milli mənsubiyyətindən, ictimai mövqeyindən asılı olmayaraq bütün insanların bərabərliyi, maddi və mədəni sərvətlər, ərazi bütövlüyü,sosial ədalət, mədəni müxtəliflik, yüksək mənəvilik.

Uzun müddət, xüsusilə sovet dönəmində milli dəyərlər birtərəfli olaraq millətçilik kimi təqdim edilir, millilik beynəlmilləlçiliyin içərisində əridilir, milli kökdən və milli ruhdan uzaqlaşdırılma, yadlaşdırma, yaddaşsızlıq siyasəti həyata keçirilirdi.Müstəqillik dövrü dəyərlərin varisliyi, milli dəyərlərin inkişafında yeni mərhələ oldu."Müstəqil Azərbaycan dövlətinin yaradılması ilə böyük bir millətin özünütəsdiqi üçün zəruri milli-mədəni, mənəvi mühitdə yaşamaq imkanı əldə edildi. Bu illər ərzində milli yiyəlik hissinə sahib, dövlətin bu günü və sabahı üçün məsuliyyət hissi daşıyan, yüksək- milli mənəvi dəyərləri həyat prinsipinə çevirmiş, dövlətin siyasi, iqtisadi, hərbi, mədəni yüksəlişi ilə qürür duyan bir azərbaycanlı obrazı formalaşdı"[4, s.151]. Müəllif bu azərbaycanlı obrazını millilik, ümumbəşərilik, siyasilik, dövlətçilik amillərini özündə birləşdirən obraz kimi təqdim edir. Bu obraz yeni dövrdə azərbaycanlığın-milli, siyasi və ümumbəşəri dəyərlərin vəhdətinin daşıyıcısı kimi çıxış edir.

Ənənəvi milli dəyərlər müasirliyə uyğunlaşdırıldı, milli maraqlara xidmət etdi. Milli dəyərlər sistemi dövlətin milli maraqlarına real təsir edir. Belə ki, bu dəyərlər milli maraqlarda transformasiyaya səbəb olur. Milli dəyərlər və milli maraqların qarşılıqlı təsiri birtipli deyildir. Bu qarşılıqlı təsirdə milli maraqlar fəal tərəf, milli dəyərlər mühafizəkar qüvvə kimi çıxış edir.

Ənənəvi milli dəyər irsini milli mədəniyyətin və milli mənlik şüurunun inkişaf qanunauyğunluqlarından biri hesab edən professor Q.Əliyev yazır: "Məlum olduğu kimi, mədəniyyət insanların maddi və mənəvi fəaliyyətinin nəticələrində təcəssümünü tapmış sosial təcrübədir. Bu isə, birincisi, o deməkdir ki, burada bu və ya digər xalq, millət təmsil olunur, deməli, onların dünya anlamı və ətraf mühiti dərk etməsi, xalqın ideya-psixoloji baxışları ehtiva edilir. İkincisi, mənəvi irs təkcə insanların təcrübəsi, bilikləri və fəaliyyətini deyil, həm də xalqın tarixi yaddaşını, onun dərk olunmuş mənafelərini və məqsədlərini əhatə edir. Xalqı vəhdətdə birləşdirən bu subyektiv amillər onun milli inkişafının mühüm müqəddəs şərtləridir"[5, s.110]. Deməli, milli dəyərlər möhkəmlənmiş, qərarlaşmış baxışlar sistemi olub tez-tez dəyişmir, o, yalnız reallıqla ziddiyyət təşkil etdikdə, cəmiyyətin inkişafına təhdid olduqda transformasiyaya məruz qalır.

Milli dəyərlər sistemi xalqın sosial mədəni, siyasi varlığının ayrılmaz tərkib hissəsi olub azərbaycançılıq ideyası ilə qarşılıqlı əlaqədə inkişaf etmişdir."Bir sözlə, xalqın aparıcı hissəsi etnik birliyin yaratdığı milli-mənəvi dəyərləri inkişaf etdirərək onu yaşadır. Milli-mənəvi dəyərlər insan həyatına daxil olaraq fərdin mənsub olduğu xalqın ideallarına qovuşdurur"[6, s.102]. Deməli, müəllif haqlı olaraq göstərir ki, milli dəyərləri xalq, cəmiyyət yaratsa da şəxsiyyət onu mənimsəyərək özü də zənginləşir, milli ruhda formalaşır, onu özününküləşdirir. Milli dəyər xalqın milli varlığının daxili qatını, mədəni, siyasi həyat tərzini, dünyagörüşünü formalaşdıran amil kimi çıxış edir.

Azərbaycanın milli dəyərləri ümümtürk ruhu, milli, Şərq, ümumdünya mədəni və siyasi dəyərlərlə azərbaycançılığın vəhdətini özündə təcəssüm etdirir. "Azərbaycançılıq həyat tərzində, əxlaqda, mədəniyyət və mənəviyyatda, ədəbiyyatda olduğu kimi dövlətimizin siyasi məfkürəsində təməl prinsiplərdəndir. Əsrlərdən bizə miras qalmış milli- mənəvi dəyərlərimiz dövlətçiliyin nəinki mənə-vi, həmçinin siyasi mövcudluğunun qarantı kimi çıxış edir"[4, s.152]. Deməli, azərbaycançılıqda millilik, ümumbəşərilik və siyasilik vəhdət təşkil edir.

Millətin, millətçiliyin, milli dəyərlərin öyrənilməsi metodologiyasının müəyyən edilməsində sintetik yanaşma əsas rol oynayır. Millət bir-birilərilə bağlılıq və doğmalıq hislərilə birləşən insanların birliyindən yaranır. Müasir elmi ədəbiyyatda millətçiliyin inteqrasiyasının müsbət amilindən, millətçilik anlayışına aid edilən mənfi məzmundan imtina edilməsindən bəhs edən akademik R.Mehdiyev millətçiliyin ideoloji təsəvvürlər və siyasi praktikanın kompleksi kimi başa düşüldüyünü və burada üstünlüyün məhz millətin mənafelərinə və milli mədəni dəyərlərə verildiyini göstərir. Millətçiliyin doğurduğu milli dəyərlər birləşdirici, inteqrativ xarakter kəsb etdikdə müsbət amil kimi dəyərləndirilir. Əgər millətçilik və onun məhsulu olan milli dəyərlər təcavüzkar, şovinist, separatçı, ksenofobik, təkəbbürlülük, xudbinlik xarakteri daşıyırsa onda o, cəmiyyət və insanlar üçün təhlükəlidir. Millətə iki aspekdən vətəndaş-siyasi və etik aspektlərdən yanaşıldığını qeyd edən R.Mehdiyev millətçiliyi dövlət praktikası olan ideologiya kimi səciyyələndirir və azərbaycançılığı milli ideyanın əsas prinsipi və dövlət millətçiliyi fenomeninin vəhdəti kimi təqdim edir: “Zənnimcə, dövlət millətçiliyi spesifik dövlət ideologiyası və onun siyasi məqsədlər üçün tətbiq edilməsi praktikasıdır. Məsələn, milli ideyanın əsas prinsipi olan “azərbaycançılıq”, həmçinin dövlət millətçiliyi fenomenini ehtiva edir. Azərbaycançılıq ideologiyası XIX əsrin sonu - XX əsrin əvvəlində Azərbaycan əhalisində milli mənlik şüurunun formalaşması uğrunda mübarizə forması kimi təşəkkül tapmışdır. O vaxt xalq hələ millət statusu qazanmamışdı, lakin intellektual elita tərəfindən “azərbaycançılıq” ideologiyası şəklində irəli çəkilən millətçilik ideologiyası tədricən şəhər əhalisinin savadlı hissəsinin düşüncəsinə hakim kəsilirdi. “Azərbaycançılıq” xüsusi ideoloji konstruksiya kimi xalqın daxili tələbatının, spesifik maraqlarının ödənilməsinə yönəlmişdi. Bu gün bu anlayışın məzmunu həm ölkənin daxilində dövlət məsələlərinin həllinə, həm də onun hüdudlarından kənarda respublikanın maraqlarının qorunmasına istiqamətlənmiş yeni mənalarla xeyli zənginləşmişdir”[7, s.144]. Burada, fikrimizcə, haqlı olaraq Azərbaycanda azərbaycançılığın dövlət millətçiliyi və milli dəyər kimi birləşdirici, müdafiə qüvvəsi olduğu bildirilir, azərbaycançılıq millətin birliyini möhkəmləndirmək, millətin dövlət ətrafında birləşdirmək üçün ən yaxşı vasitə hesab edilir.Dövlət millətçiliyini müasir Azərbaycan xalqının tarixi milli ənənələrilə bağlı “sağlam millətçilik” hesab edən R.Mehdiyev məhz onu XXI əsrdə Azərbaycan dövlətçiliyinin təməli kimi qiymətləndirir: “Çoxmillətli Azərbaycan dövlətində millətin etnik məzmunu tədricən aradan qalxır və vətəndaş elementi ilə əvəzlənir. Ona görə də ölkədə ümumazərbaycan identikliyi forması kimi vətəndaş (dövlət) millətçiliyinin formalaşmasına ictimai dəstəyi gücləndirmək lazımdır. Əgər dövlət maraqlarından çıxış etsək, bizim buna böyük ehtiyacımız vardır. Bu, cəmiyyətin strateji vəzifələrinin həlli üçün zəruridir. Buradan aydın olur ki, ölkəmizdə milli dəyərlər, eləcə də millətçilik şüuru fərdi-vətəndaş və dövlət maraqlarını uzlaşdırır, onun vahid tamlığını təşkil edir”[7, s.145]. Beləliklə, vətəndaş millətçiliyi (milli dəyərlər də) dövlət və cəmiyyət arasında problemlərin həllində sanballı resurs hesab edilir.Beləliklə də, vətəndaş millətçiliyi insanın öz varlığını dərk etməyə, xalqa öz milli dəyərlərini möhkəmləndirməyə, inkişaf etdirməyə kömək edən ideya kimi, millətin mədəni identikliyi, siyasi səfərbərliyinin əsası hesab edilir. Vətəndaş-dövlət millətçiliyi milli özündərkdə, mənəvi inkişafda, kreativ şəxsiyyət yetişməsində, ən əsası ümumazərbaycan identikliyinin formalaşmasında tolerant birgəyaşayışın reallaşmasında həlledici amil olaraq çıxış edir.

**Ədəbiyyat**


**1.** Гелнер,Э.Нации и национализм/Э.Гелнер.-Москва:Мысль,-1991.-248 с.

2.Məmmədəliyeva, S.Qloballaşma dövründə mədəniyyətin fəlsəfi aspektləri/ S.Məmmədəliyeva. -Bakı:Nurlar, -2006. -224 s.

4.Ağayeva, Z. Mənəvi dəyərlər və sosial-siyasi gerçəklik/Z.Ağayeva.-Bakı: Elm, -2014.-186 s.

5.Əliyev, Q. Heydər Əliyev və milli mentalilet fəlsəfəsi/ Q.Əliyev.- Bakı: Qismət, -2003. - 248 s.

6. Həsənov, A. Milli ideologiya və milli-mənəvi dəyərlər/A.Həsənov.-Bakı: Təknur, 2013,176 s.

7. Mehdiyev, R. XXI əsrdə Azərbaycan ideyası kreativ millət kontekstində//- Bakı:Dövlət İdarəçiliyi:nəzəriyyə və təcrübə. DİA-nın nəşriyyatı, -2018. №2(38), -s.114-152.

# AİLƏ VƏ ALTERNATİV QAYĞI PROQRAMLARI

**Mədinə Ağayeva**
Azərbaycan Kooperasiya Universitetinin müəllimi,
Bakı Dövlət Universitetinin doktorantı
medineaqayeva@yahoo.com

**Açar sözlər:** Ailə, ailə institute, ər, arvad, qohumluq, tərbiyyə, münasibət, uşaq hüquqları

Ailə hər bir cəmiyyətin, dövlətin özəyi olmaqla yanaşı, həm də milli-mənəvi dəyərlərin daşıyıcısıdır.İnsan yarandığı gündən ailə yaranmışdır.Bütün tarixi dövrlərdə ailə, onun mahiyyəti həmişə diqqət mərkəzində olmuşdur.Hazırda qloballaşma şəraitində ailənin sosial statusu haqqında bir çox müxtəlif fikirlər yönəlmişdir.Belə ki, ailənin mahiyyəti nədən ibarətdir, ailə hansı tarixi inkşaf yolu keçmişdir, ailə lazımdırmı, ailə şəxsiyyətin və cəmiyyətin inkişafına necə təsir göstərir və bu təsir nədən ibarətdir.Avropa ailənin yeni tiplərinin yaranması ailə inistitunda baş verən böhran bu və ya digər məsələlərin müzakirəsi çox vacib və zəruridir.Bütün bunlar onu göstərir ki, ailə mövzusu bütün dövrlərdə olduğu kimi bu gündə ailıə daim diqqət mərkəzində duran ən aktual problemlərdəndir.Bu problemlərin həllində cəmiyyətin və dövlətin həm inkişafı həmdə gələcəyi asılıdır.Ailə ilk dövrlərdə qan qohumluğunu sonradan isə nigaha əsaslanan münasibəıtləri tənzimləyən məişət ümumiliyyi və insan nəslini təkrar istehlakçısı olan kiçik sosial birlikdir.Ailə hər bir cəmiyyətin sosial strukturunun mühüm konponenti olub bir çox sosial funksiyalar yerinə yetirməklə cıəmiyyətin inkişafında mühüm rol oynayır.Ailənin funksiyaları bir tərəfdən ailə-cəmiyyət, digər tərəfədin isə ailə-şəxsiyyət qarşılıqlı təsir sistemi əks etdirir.Ailənin tarixi inkşaf yolunu öyrənmək və müasir dövrdə ailə inistitunda baş verən dəyişikliklərin xüsusiyyətlərini öyrənmək və baş verən böhranın aradan qaldırmaqla tarixin təcrübəsindən istifadə etmək olar və lazımdır.Müasir dövrdə baş verən çətinliklər ailənin inkişaf tarixinə həddsiz maraq yaratmışdır.Azərbaycan cəmiyyətinin düşündüyündən ən əsas problemlərdən biridə tarixən formalaşmış milli ailə dəyərlərinin formalarının durmadan yad təsirlərə məruz qalmasına tüş gəlmişdir.Müasir dövrdə içtimai məişət münasibətlərinin çoc uşaqlı ailə modellərinin qohumluq-qonşuluq münasibətlərinin get-gedə zəifləməsi cəmiyyətin əsas ağrılı problemlərindən birinə çevrilib.20-ci əsdrə açıq dünyada sərhədsiz planetdə yaşadığımızdan milli mənəvi dəyərlər sanki arxa plana keçir.Araşdırmalar göstərir ki, ailənin dağılmasında sosial şəbəkələrin yaranması da, mühüm rol oynayır.Ər və Arvad sosial şəbəkələrdə öz maraqlarına uyğun adamlar tapmaqla ailə uçuruma gedir.Bütün bunlar isə boşanma ilə nəticələnir.Ailədə yaranan konfilikt ailə başçılarına deyil uşaqların da pisixoloji vəziyyətinə mənfi təsir göstərir.Ailə cəmiyyət və dövlət tərəfindən müdafiə olunmaq hüququna malikdir.Uşaq hüquqları haqqında konvensiyada ailə uşaqların sağlam inkişafı üçün şərait yaradan və onları ən yaxşı formada müdafiə edən sosial sistem kimi qeyd olunur.Uşaq hüquqları haqqında konvensiya uşağın rifahında dövlətin və valideynlərin məsuliyyət daşıdığını göstərir.Belə ki, uşağın inkişafına və tərbiyyəsinə görə 1-ci dərəcəli cavabdehlik daşıyan valideynlərə bu vəzifələrin yerinə yetirilməsində dəstək üçün müxtəlif tədbirlər həyata keçirmək dövlətin üzərinə düşür.Valideynlər uşağın inkişafı üçün lazım olan həyat şəraitini öz bacarıqları və maliyyə imkanları daxilində təmin etməyə görə əsas məsuliyyət daşıyırlar, lakin əgər valideynlər uşağı təmin etməyə qadir deyillərsə dövlət onlara kömək etməyə borcludur.Valideynlər və müvafiq hallarda qanuni qəyyumlar uşağın inkişaf etmə

Konvensiyaya olan qabiuliyyəti ilə uzlaşan metodlar ilə onun hüquqlarını həyata keçirilməsində uşağa rəhbərlik etməlidir.Uşaq böyüdükcə isə şəxsi məsələlərdə söz hüququ artmalıdır.Uşaq hüquqları haqqında Konvensiyaya görə valideynlər uşağı öz şəxsi əmlakı kimi deyil şəxsiyyət və hüquqları olan subyekt kimi görməlidirlər. Konvensiyaya görə valideynlər uşağı öz şəxsi əmlakı kimi deyil, şəxsiyyət və hüquqları olan subyekt kimi görməlidirlər. Ailə nədir? Nikahda olan iki valideyn və onların bioloji uşaqlarından ibarət ənənəvi ailədən başqa, avropalılar müxtəlif strukturlu ailələrdə yaşayırlar, belə ki: - müxtəlif nəsillərdən ibarət geniş ailə; - bir valideyndən ibarət ailə (digər valideyn boşanma, ölüm və s. səbəblərdən yoxdur); -

övladlığa götürən və ya patronaj ailə; - ögey valideynin (ögey ata/ögey ana), hərdən doğma və ögey bacı-qardaşlarm olduğu yeni ailə; - iki nəfərin bir yerdə yaşadığı vətəndaş nikahı; - nənə, baba və uşaqlardan ibarət ailə; Uşaqların ailədə dəyişikliklərlə üzləşməyi, bir valideynlə və ya ögey ata (ögey ana) ilə yaşaması ehtimalı artır.Bütün Avropa ölkələrində uşaqların minimum 2/3- si uşaqlıq dövrünün əksər hissəsini öz bioloji valideynlərinin hər ikisi ilə keçirirlər. Uşağın hansı strukturlu ailədə yaşamasından asılı olmayaraq, hər iki valideyn, hətta bir yerdə yaşamasalar belə, uşaqlara qayğı və dəstəyə görə birgə cavabdehlik daşıyırlar. Uşaq hüquqları haqqında Konvensiyanın 18-ci maddəsində valideynlərin uşaqların tərbiyə və qayğısına görə bərabər cavabdehliyi öz əksini tapır. Bir neçə Avropa dövlətləri ailənin və valideynlərin ehtiyaclarına dəstək siyasətini yaxşılaşdırmaq məqsədilə işləyən cütlüklərin öz uşaqlarına qayğı göstərə bilmələri üçün atalara məzuniyyət təklif edir. Cinsindən, vəziyyətindən yaxud ailə büdcəsindən asılı olmayaraq uşaqlar üçün bərabər imkanların təmin edilməsi valideyn öhdəliklərinə dəstək üçün vacibdir. Avropa ailələri qarşısında çağırışlar Avropada ailələr qarşısında bir çox problemlər durur: • İşləyən valideynlər: Əksər hallarda hər iki valideyn işləyir. Uzunmüddətli iş vaxtı, iş və ailə vəzifələri arasındakı konflikt bir çox problemlər yaradır. Avropa Birliyində 10%-dən az olmayan, yeni üzv ölkələrdə isə 15% valideyn həddindən artıq yorğunluq səbəbindən ailə vəzifələrinin yerinə yetirilməsində çətinlikləri olduğunu bildirirlər. Tədqiqatların nəticələrinə görə ən çox problem isə 3 yaşdan kiçik uşaqların valideynlərində yaranır.

*Hər bir uşaq ailədə yaşamaq və tərbiyə almaq, öz valideynlərini tanımaq və onların qayğısından istifadə etmək, uşağın maraqlarına zidd olan hallar istisna olmaqla, onlarla birgə yaşamaq hüququna malikdir.* 3

Hər bir uşağın ailəsi ilə birlikdə yaşamaq hüququ olmasına baxmayaraq, bəzi hallarda bu hüququn reallaşması mümkün olmur. Uşaq Hüquqları Konvensiyasının 20-ci maddəsinə görə, öz ailə mühitindən müvəqqəti və ya daimi məhrum olan və ya özünün ən yaxşı mənafeyi üçün belə mühitdə qala bilməyən uşaq dövlət tərəfindən xüsusi müdafiə edilmək və kömək almaq hüququna malikdir.

Azərbaycan Respublikasının “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında” Qanununda valideyn himayəsindən məhrum olmuş uşaqların dairəsi verilmişdir. Onlar aşağıdakılardır:

- hər iki valideyni:
- məlum olmayan;
- valideynlik hüquqlarından məhrum edilən və ya valideynlik hüquqları məhdudlaşdırılan;
- xəbərsiz itkin düşmüş, fəaliyyət qabiliyyəti olmayan (fəaliyyət qabiliyyəti məhdudlaşdırılan) hesab edilən, ölmüş elan edilən;
- cəzaçəkmə müəssisələrində cəzasını çəkən;
- uşaqlarının tərbiyə edilməsindən və ya onların hüquq və mənafelərinin müdafiəsindən imtina edən;
- uşaqlarını tərbiyə, müalicə, əhalinin sosial müdafiəsi və digər analoji müəssisələrdən götürməkdən imtina edən;
- qanunla nəzərdə tutulmuş qaydada digər hallarda valideyn himayəsindən məhrum hesab edilən 18 yaşmadək şəxslər;
- Bir valideyni vəfat etmiş və o biri valideyni I və II qrup əlil olan 18 yaşmadək şəxslər.

Dünya təcrübəsində alternativ qayğı metodlarından istifadə edilir. Azərbaycanda alternativ qayğı dedikdə, adətən müxtəlif mərkəzlər nəzərdə tutulur, ya da uşaq məcburən yaxınlarından kiminsə himayəsində qalır. BMT-nin Uşaqlar üçün Alternativ Qayğıya dair Qaydalarında foster (himayədar) ailələrin olması təşviq olunur. Ölkəmizdə foster ailə (əsasən qohum foster ailə) təşviqinə ehtiyac var. Bu forma belədir ki, uşaq valideyn himayəsindən məhrum olarsa, qəyyumluq komissiyası uşaqları saxlamaq istəyən qohumlar arasında ən uyğun ailəni seçir və uşaqların baxılması üçün maliyyə ayrılır. Qəyyumluq komissiyası prosesə xüsusi nəzarət edir və ya etməlidir.

Lakin bunların heç biri mümkün olmadıqda, uşaq müəssisəyə yerləşdirilir. "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Qanuna görə, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar aşağıdakı müəssisələrdən birinə yerləşdirilir:

valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların saxlanıldığı, təhsil və (və ya) tərbiyə aldığı təhsil müəssisələri;

- ailə tipli uşaq evləri;
- əhalinin sosial müdafiəsi müəssisələri;
- uşaq evləri;
- sağlamlıq imkanları məhdud uşaqlar üçün internatlar;
- sosial-reabilitasiya yardım mərkəzləri;
- sosial sığınacaqlar;
- səhiyyə sistemi müəssisələri;
- qanunvericiliklə müəyyən edilmiş qaydada yaradılan digər dövlət və qeyri-dövlət müəssisələri.

Uşaq müəssisələrində saxlanan himayədən məhrum uşaqların hansı dövlət təminatları var?

Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən, uşaq müəssisələrində saxlanan valideyn himayəsindən məhrum olmuş uşaqlar tam dövlət təminatmdadır və güzəşt və imtiyazlara malikdirlər. Bu güzəşt və imtiyazlar - təhsil, tibbi xidmət, əmək hüququ, əmlak və yaşayış sahəsi üzrə təminatlardır. Eyni zamanda "tam dövlət təminatı" dedikdə: valideyn himayəsindən məhrum olan uşaqların müvafiq dövlət və ya bələdiyyə müəssisələrində, qəyyumun (himayəçinin) ailəsində olduqları müddətdə yemək, paltar və ayaqqabı dəsti verilməsi, yaşaması, təhsil alması və tibbi xidmət göstərilməsi və ya onların tanı dəyərinin dövlət büdcəsi hesabına ödənilməsi başa düşülür.

İstifadə olunmuş ədəbiyyat


1. Ə.Ə.Əlizadə, A.Abbasov, "Ailə", Bakı, 1989, 312 S
2. Emin Mehdiyev, Azərbaycanda ailə dəyərləri, Bakı ,2018, 713
3. Ş.Bünyadova.Orta əsr.Azərbaycan ailəsi.Bakı, 2012, 383 S
4. F.Engels. Ailənin, xüsusi mülkiyyətin və dövlətin mənşəyi.Seçilmiş əsərləri, II cild, Bakı 1953, səh. 187-240
5. Антонов А.И. Изменение структуры и жизни деятельности семьи.Молодая семья.М 1977 140 с.

# ВЛИЯНИЕ ПАНДЕМИИ НА
# СОЦИАЛЬНО - ЭКОНОМИЧЕСКИЕ ПРОЦЕССЫ

**Фарида Багирова**
Институт философии и социологии НАНА
научный сотрудник
freedabagira@gmail.com

**Ключевые слова:** Коммуникация, сообщества, инициаторы, аналитики, вирус, пандемия, катаклизмы.

В 2019 г. мировые темпы экономического роста отпустились до показателей экономического кризиса 2008 г., составив по итогам года 2,3%1. Замедление темпов роста затронуло большинство ключевых экономик мира: США (2,3% в 2019 г. по сравнению с 2,9% в 2018 г.), страны еврозоны (1,2% в 2019 г. по сравнению с 1,9% в 2018 г.) и Китай (6,1% в 2019 г. по сравнению с 6,6% в 2018 г.). Следует отметить, что в течение последних 12 лет уже наблюдалось замедление темпов роста мировой экономики. Следовательно, пандемия коронавируса сильно повлияла на текущие социально-экономические процессы не только в глобальном, но и в национальных масштабах, что стало полной неожиданностью для мировой и национальных экономик. Не предзказуемый ни в одном прогнозе социально - экономического развития, кризис пандемии очень сложно соотнести с какими-то подобными инцидентами в истории, а неопределенность ситуации, и отсутствие социального опыта осложняют попытки его разрешения. Вместе с тем, следут учесть, что именно от скорости реагирования органов власти на ситуацию и адекватности принимаемых мер зависит предвидение катаклизм в социально-экономической сфере. Сегодня многие аналитические центры пытаются давать прогнозы, проводя опросы различных групп населения с целью определения реакции общества на вынужденные меры и ограничения, а также выявления коллективного мнения. Цель данных опросов – обобщение в период пандемии, материалов и результатов социологических исследований, для того чтобы оценить ее реальные социально-экономические последствия и дать прогнозы на ближайшие и отдаленные перспективы.

Распространяющейся по всему миру, COVID-19 оказывает большое влияние на социально - экономическую жизнь вызывая непредсказуемые человеческие и экономические потери. Отметим что, частичное сокращение занятости в мире во второй половине 2020 г. эквивалентно потере 400 млн рабочих мест. Во всем мире государства предпринимают меры поддержки группам населения, которые в период пандемии оказались наиболее уязвимыми слоями населения (пожилые люди, работники сферы здравоохранения и.т.д.), уделяя особое внимание лицам, для которых этот режим является дополнительным фактором исключения из социума. Например, правительством Великобритании в руководстве по социальному дистанцированию прописан вопрос, который посвящен психическому благополучию с предусмотренной онлайн - поддержкой. Отметим также, что в Южной Корее предлагают персонализированные услуги пожилым людям для того, чтобы помочь справиться с психологическим давлением и стрессом в условиях пандемии, а в Панаме открыта телефонная линия психологической помощи, для получения консультации психиатров, психологов и.т.д..

Сегодня положительной стороной пандемии является то, что она способствовала установлению тесной связи между правительственными структурами и неправительственными организациями, волонтерами, работающими с пожилыми людьми (доставка продуктов, рецептов лекарств), а в целях минимизации риска распространения инфекции в Великобритании выделили из бюджета 4 млрд долл. США на организацию ночлега для них. Именно пандемия позволила обратить внимание на тех людей, кому особенно нужна помощь, а появление разнообразных форм помощи и поддержки, как со

стороны государства, так и со стороны граждан, приводит к усилению элементов гражданского общества.

Следует указать, что переход на удаленные формы взаимодействия работодателей и работников в период пандемии существенно менят сферу социально-трудовых отношений, это касается, в первую очередь, и форм занятости, и условий труда, и кадровой безопасности, и др. Сегодня необходимо внесение в трудовое законодательство положений о защите дистанционно работающих работников, в том числе и создание нормативной базы, регулирующей переход на дистанционную форму работы в форс – мажорных условиях. Постепенно становится ясно, что массового ухода в онлайн-работу не произойдет, но стиль жизни и потребления уже во многом меняются. Напрмер, интернет-торговля, в эпоху пандемии обеспечивающая миллионы людей продуктами питания и необходимыми товарами, показала свою эффективность и востребованность во всем мире. Сегодня влияние пандемии можно проследить и на взаимодействие власти, государства и общества. Очевидно, что пандемия проявляет и создает новое состояние общества, к примеру, граждане, многие из которых оказались в условиях самоизоляции, проявили готовность к освоению новых форм коммуникаций в процессе удаленной онлайн - работы. Таким образом, государственные структуры должны не только быть готовыми к появлению новых коммуникаций среди людей и сообществами, но и сами стать инициаторами развития современных форм взаимодействия.

Подведя итоги многие аналитики утверждают, что когда угроза короновируса спадет, а неблагоприятные последствия пандемии проявятся, многие страны будут наблюдать рост общественного недовольства, сравнимый с серьезными общественными катаклизмами. Рост недовольсва в обществе, с одной стороны, может нанести экономикам достаточно сильный ущерб, а с другой – продуцировать новые, более совершенные формы экономических и социальных отношений. Стоило отметить, что масштабы спада, и особенно его социальные последствия, могут быть существенно разными для государсв. Следовательно, для поддержки отраслей экономики и граждан в период пандемии, в первую очередь, необходимо принятие государтвами конструктивных управленческих решений и способов их эффективного использования.

**Список литературы:**

**1.** Барышева Г. Влияние пандемии covid-19 на социально-экономическое развитие и положение наиболее уязвимого населения (Векторы благополучия: экономика и социум. 2020. № 4 (39)).

**2.** Комплексное реагирование системы Организации Объединенных наций на COVID-19: спасение людей, защита общества, более эффективное восстановление. URL: https://www.un.org/ (дата обращения 29.11.2020).

**3.** Covid-19 и международная практика поддержки экономики и населения. Меры поддержки бизнеса и занятости // Институт социальной политики НИУ ВШЭ. (дата обращения 01.12.2020)

# AZƏRBAYCAN DASTANLARINDA ƏXLAQİ DƏYƏRLƏR

**Xalidə Nəzərova**
AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun elmi işçisi
xnezereova@mail.ru

**Açar sözlər:** dəyər, dastan, əxlaq, adət, fəlsəfə

Azərbaycan xalqı mənəvi-əxlaqi keyfiyyətlərilə bütün dünya xalqlarına örnək ola biləcək bir xalqdır. Ulu babalarımızın həyatı, məişəti, adət-ənənəsi, mərdanəlik keyfiyyətləri xalqımızın yüksək mənəvi-əxlaqi keyfiyyətlərə malik olmasından xəbər verir. Bununla belə, Azərbaycan xalqını digər xalqlardan fərqləndirən bir sıra özünəməxsus xüsusiyyətlər var ki, onları qeyd etməmək, ən azından, haqsızlıq olar.

Müasir dövrdə Azərbaycanın düşüncə tarixinə diqqətin artması amili aktual bir məsələdir. Ümumiyyətlə, hər bir xalqın özünəməxsus mentaliteti, milli-mənəvi dəyərləri, etik-əxlaqi sistemi onun varlığının təcəssümüdür. Qloballaşma prosesinin getdiyi bir zamanda xalqımızın tarixən zəngin və qiymətli milli-mənəvi dəyərlərinin öyrənilməsi, araşdırılması zəruridir. "Milli-mənəvi dəyərlərin, əxlaqın, adət-ənənələrin yeni nəslə çatdırılması davam etdirilməsi üçün mədəni abidələrin, bədii ədəbiyyatın, milli fəlsəfi fikir tarixinin rolu böyükdür. Lakin milli ruhu qorumaq, inkişaf etdirmək və yeni nəsillərə çatdırılmaq üçün ən yaxşı mühit milli dövlətçilik şəraitində yaranır. Milli dövlət ancaq ərazinin, maddi sərvətlərin deyil, həm də milli-mənəvi dəyərlərin qorunmasına xidmət edir.” Varislik, tarixilik, məntiqilik və sistemlilik prinsiplərini özündə ehtiva etməyən milli-mənəvi sistemlər güclənən qloballaşma prossesləri nəticəsində öz orjinallığını və xüsusiyyətlərini itirmə təhlükəsi ilə qarşı-qarşıya gəlir. Milli-mənəvi irsin qorunub saxlanması və yeni nəsillərə ötürülməsi amili hər zaman ən ümdə problem olaraq qalır. Heç şübhəsiz ki, nəhəng bir prosses olan qloballaşmanın əsas və ayrılmaz komponenti olan inteqrasiya zamanı milli-mənəvi xüsusiyyətlərin, etik dəyərlərin özünəməxsusluğunun qorunub saxlanması və varislik prinsipi əsasında gələcək nəsillərə ötürülməsi yalnız ağır və məsuliyyətli əmək nəticəsində mümkün ola bilər. Qloballaşma zamanı hər bir vətəndaş milli-mənəvi dəyərlərin tənəzzülü və aşınması prosesinə qarşı varislik prinsipi ilə silahlanmalı, bu yolda öz öhdəsinə düşən vəzifəsini dərk etməli və bu istiqamətdə əlindən gələni əsirgəməməlidir. Ümumiyyətlə, şifahi xalq ədəbiyyatı nümunələri milli-mənəvi dəyərlərin formalaşmasında və tarixi cəhətdən araşdırılmasında xüsusi bir rola malikdir. "Hər millətin tarixi milli dastan və əfsanələrlə başlar. Böyük dövlətlər quran xaqanların və onlara yardım edən milli tanrıların mənşələrinə dair söylənən əfsanələr, ayinlərdə oxunan dua və ilahilər, qəhrəmanların sərgüzəştlərini tərənnüm edən epopeyalar, nağıllar, xalq fəlsəfəsindən ibarət olan atalar sözü, bu gün bizim üçün mənasız kimi görünən xurafat yalnız bir millətin deyil, bütün bəşəriyyətin təfəkkür tarixini və onun müxtəlif təkamül səhifələrini öyrənmək üçün çox qiymətli materialları təşkil edir.”. Müstəqilliyini yaşadığımız indiki dövrdə ümumbəşər və milli düşüncəmizin tarixini, etik və mənəvi dəyərlərini dərk etmək, onun ən qədim yaddaş salnaməsini qoruyub saxlamaq, yaşatmaq və gələcək nəsillərə ötürmək, bu gün bizim qarşımızda duran başlıca vəzifələrdən biridir. Milli sərvətlərin toplanıb qorunması, nümayiş etdirilməsi, qiymətləndirilməsi və ən nəhayət tədqiqat obyektinə çevrilməsi vacibdir. Dünya Azərbaycanlılarının birinci qurultayındakı çıxışında ümummilli lider Heydər Əliyev demişdir: "Azərbaycan xalqı böyük, qədim tarixə malikdir. Çoxəsrlik tariximizdə xalqımız bir çox sınaqlardan çıxmış, yaşamış, öz mənliyini itirməmiş, öz milliliyini itirməmiş, dünya sivilizasiyasına dəyərli töhfələr vermiş, dünya sivilizasiyasını zənginləşdirmişdir.”

Bu nöqteyi-nəzərdən yanaşsaq "Kitabi-Dədə Qorqud", "Koroğlu", "Şah İsmayıl" dastanlarında milli-mənəvi dəyərlərin fundamental problemləri əksini tapmışdır. Bu dastanlarda çoxəsrlik zəngin bir tarixə malik olan Azərbaycan milli-mənəvi dəyərləri özündə əks etdirərək ideoloji irs funksiyasını yerinə yetirir. Bu ideoloji irsin dərindən öyrənilməsi elmi-nəzəri və praktiki əhəmiyyət kəsb edir. Ümumiyyətlə, Azərbaycanın milli-mənəvi irsinin öyrənilməsi gənc nəslin təlim-tərbiyəsi üçün və elmi fikirimizin dəyərləndirilməsi müasir dövrdə mənəvi-əxlaqi inkişafımız baxımıdan zəruri bir amil hesab oluna bilər. "Azərbaycan xalqının böyük tarixi, zəngin mədəniyyəti var. Bu milli-mənəvi zənginliyin dünyaya layiqincə təqdim olunması nəticə etibarilə ölkəmizin təbliğinə, beynəlxalq nüfuzunun yüksəlməsinə xidmət edir. Müasir dünyadakı qlobal inteqrasiya prosesində qabaqcıl yer tutmaq istəyən dövlət özünün iqtisadi, siyasi gücü ilə yanaşı, həm də tarixi, mədəniyyəti, milli-mənəvi dəyərləri ilə tanınmalı, onları yüksək səviyyədə təbliğ etməyi bacarmalıdır". Xalqımız bütün milli-mənəvi dəyərlərimizə, zəngin əxlaqi-fəlsəfi irsə diqqət göstərməlidir. Məşhur alman filosofu G. V. F. Hegel qədim tarixi dəyərə malik olan şah əsərlərin araşdırılmasının zəruriliyini vurğulayaraq qeyd edirdi ki, "Əsl mənəvi incəsənət və onun duyulması və dərindən mənimsənilməsi zəminində xüsusi bir həssaslıq və azadlıq yaranmışdır ki, onun da sayəsində yeni dövrün, orta əsrlərin və hətta bizə tamamilə yad olan qədim xalqların (məsələn, hindlilərin) çoxdan mövcud olan dahiyanə əsərlərini qiymətləndirmək və anlamaq mümkün olmuşdur."

Zəngin türk mədəniyyəti içərisində milli-mənəvi sərvətlərə ən dəyərli nümunə kimi formalaşan "Kitabi-Dədə Qorqud" irsi hər zaman xalqımızın diqqət mərkəzində olmalıdır. Çünki, bədii ədəbiyyat, ədəbi-bədii fikir hər bir xalqın özündərkində və milli-mənəvi dəyərlərin genezisinin müəyyən olunmasına imkan yaradır. Eyni zamanda "Koroğlu" qəhrəmanlıq dastanının əxlaqi idealı xalq kütlələrini sosial ədalətsizlik doğuran qaydalara qarşı etiraz etməyə ruhlandırır. Bu idealda insanların mənafeyinə uyğun olaraq cəmiyyətin daha da inkişafına olan ümid və cəhdlər ifadə olunmuşdur. Bu ideal keçmişdə mövcud olan gələcəyə istiqamətləndirmişdir. Bizim hər birimiz də müqəddəslik qazanmış dastanlarımıza ali amallarla yanaşmalı, onun aşıladığı milli və bəşəri dəyərləri qoruyub yaşatmalı, geniş təbliğ etməliyik.

"Milli özünüdərk məqamları ədəbi-bədii fikir vasitəsilə də ifadə oluna bilir. Azərbaycan xalqının milli inkişafında ədəbi-bədii fikrin rolu həmişə böyük olmuşdur. Obrazlı düşüncə bir təfəkkür tərzi kimi rasional elmi düşüncəni həmişə üstələmişdir. Xalqımızın milli-fəlsəfi fikri də çox vaxt öz əksini elmi traktatlar və monoqrafiyalarda deyil, bədii ədəbiyyatda tapmışdır. Ona görə, fəlsəfi təfəkkürə gedən yol da əsasən ədəbiyyatdan keçmişdir.

Cəmiyyətin həyatında əxlaqın əhəmiyyəti onun fayda verə biləcək bacarığı ilə əlaqələndirilirdi. Ləyaqət insanın əxlaqi şəxsiyyət olaraq dəyərlilik ölçüsünü bildirən əxlaqi şüur anlayışıdır. Ləyaqət həm də insanın özü-özünə və cəmiyyət tərəfindən ona olan xüsusi əxlaqi münasibətini bildirən əxlaqi kateqoriyadır. Ləyaqət həm də insan tərəfindən dərk edildiyinə görə o, özünüdərk və özünənəzarət forması kimi də qiymətləndirilməlidir. Öz ləyaqətini təsdiqləmək üçün insan gərək müvafiq əxlaqi hərəkətləri həyata keçirsin (və ona zidd olanları rədd etsin). Bu mənada insan tərəfindən, vicdan və şərəflə yanaşı öz ləyaqətinin düşünülməsi həm də şəxsiyyət kimi məsuliyyətin özündə aşılanması yollarından biridir. Digər tərəfdən, şəxsiyyətin ləyaqəti digər insanların həmin şəxsiyyətə hörmət saxlamaq, onun hüquq və imkanlarını qəbul etmək, ona qarşı tələbkar olmaq kimi keyfiyyətləri bildirir. Bəzən ləyaqəti insanın fövqəl mahiyyətinə yanaşması mənasında axtarırlar (bəzi dini, etik məktəblər, dini ekzistensializm və s.). Yəqin ki, ləyaqət insanın tarixi inkişafının müvafiq mərhələsini, onun həyat şəraitinə və fəaliyyətinə uyğunluğunu da göstərir. Məsələn, feodal cəmiyyətdə insan təbəqələşmə mövqeyindən qiymətləndirilir, burada ləyaqətin daha çox ictimai kökləri özünü ifadə edirdi. Burjua etikasında şəxsi ləyaqəti insanın müəyyən bacarıq və qabiliyyətləri nümayiş etdirməklə özünütəsdiqini

bildirir. Nikbinlik (latınca optimus – "ən yaxşı" deməkdir) dünyanın, cəmiyyətin inkişafının ümumi gedişatına bir baxışdır. Burada hesab olunur ki, xeyirxahlıq şər qüvvələrinə, ədalət isə ədalətsizlik üzərinə qalib gələcək; insan daima, sonsuz dərəcədə sosial inkişafa, əxlaqi kamilliyə doğru irəliləməyə qadirdir. Nikbinliyin əksi bədbinlikdir. Nikbinlik ictimai əhval ruhiyyə, fəlsəfi-etik baxışlar sistemi olaraq mənəvi və sosial-tarixi tərəqqi ideyası ilə sıx bağlıdır. Nikbinlik insanın həyatda istiqamətlənmə üsulu olaraq gələcəkdə ona arzuların faş olunması ümidini verir. Məhz buna görə nikbinlik prinsipini fərdin davranışı üçün faydalı bir əsas olduğunu hesab etmək olar. Yaxşı gələcəyə inam şəxsiyyətin yaradıcı qabiliyyət və bacarıqlarının aşkar olunmasına səbəb olur, ona özündə müsbət əxlaqi keyfiyyətləri formalaşdırmağa köməklik edir. Etika tarixində nikbinliyi müxtəlif cürə əsaslandırırdılar. Məsələn, Platon mütləq ədalət və xeyiri qəbul edir, bunların ideyalar aləmində olduğunu geyd edir. Bu dünyada isə insan o şərtlə fəzilətli ola bilər ki, onun ağlı (məhz ağıl vasitəsilə o, ideyalar aləmi ilə ünsiyyət yarada bilər) həyat şəraitini özünə tabe edə bilsin. Demokrit, Aristotel, Epikür, digər qədim dövrünün filosofları düşünürdülər ki, insan öz hissi tələblərini ağıllı şəkildə idarə etməklə özünə fəzilətli, xoşbəxt ömrü təmin edə bilər. Xristian əxlaqının nümayəndələri Avqustin, Akvinali Foma isə hesab edirdilər ki, xeyirin qələbəsi Allahın iradəsi ilə bağlıdır, bu isə yalnız axirət dünyasında mümkündür. Bu dünyada ağrı, əzab-əziyyət həddindən artıq çoxdur, axı günah, günahkarlıq insan təbiətinin aparıcı tərəfidir. Beləliklə, burada nikbinlik elə əslində bədbinlikdir. Yeni dövrdə nikbinliyinin mütləq ifadəsinin tərəfdarı Leybnits olmuşdur. O, hesab edirdi ki, dünya kamil olmayan varlıqlardan ibarətdir (kamil və əbədi olan yalnız Allahdır), buna görə də şər burada qaçılmazdır. Aydındır ki, Allah pis dünyanı yarada bilməz, yaxşılıq pisliyi, şəri üstələyir. Yəqin ki, xeyirin qalib gəlməsi üçün şər bir şərt, fondur, bizim dünya isə bütün mümkün aləmlərdən ən yaxşısıdır. Sonradan İ. Höte, Fixte və digər mütəfəkkirlər də bu fikirlə razılaşırdılar. Hegel tarixdə tərəqqini göstərərkən nikbinliyə əsaslanırdı. Xeyir əldə edilmiş azadlıq, dünyanın inkişafının son məqsədidir. Şər həyatda zəruri olsa da, gərək əngələ çevrilməsin. Bunun üçün onu mütləq fəth etmək və irəliyə doğru getmək lazımdır. Sosial tərəqqiyə inam həm də bir çox müasir tədqiqatçılar, siyasətçilər və adi insanlar üçün xasıdr. Yaxşılıq (covmərdlik) əxlaqi şüura aid olan anlayışlardan biri olaraq şəxsə, sosial qrupa, sinfə, cəmiyyətə xas olan müsbət davamlı keyfiyyətlərin ümumiləşdirilmiş ifadəsini bildirir. Bu zaman həmin keyfiyyətlərin əxlaqi dəyəri (qiyməti) verilir. Yaxşılığın əksi pislikdir. Yaxşılıq anlayışı onu göstərir ki, hər hansı bir insan bu və ya digər əxlaqi keyfiyyətin daşıyıcısıdır. Yaxşılıq haqqında təsəvvürlər antik və feodal cəmiyyətlərin əxlaqi şüurunda fəal rol oynayırdı. Hesab olunurdu ki, şəxsiyyət ictimai əxlaqın təmsilçisi və daşıyıcısıdır. Əxlaqi keyfiyyətlər insanın təbii meyllərindədir və onların psixikasından irəli gəlir. Məsuliyyət etik kateqoriyadır. Məsuliyyət şəxsiyyətin, ona qarşı irəli sürülən əxlaqi tələblərə uyğun cəmiyyətə münasibətdir. İnsan borcu ondan ibarətdir ki, o, hansısa əxlaqi tələbləri real şəkildə müəyyən halda düşünüb tətbiq etməlidirsə, əxlaqi məsuliyyət həmin görülən hərəkətin, əməlin necə yerinə yetirilməsini və yaxud insanın burada günahkarlıq dərəcəsini bildirir. Məsuliyyət şəxsiyyətin əxlaqi fəaliyyətinin, onun özünün borca necə uyğun gəldiyini bildirir. Bununla əlaqədar məsuliyyət aşağıdakı məsələni əhatə edir: nə dərəcədə insan ona qarşı irəli sürülən tələbləri yerinə yetirməyə qadirdir? O, bunları düzgün başa düşüb dərk edibmi? Onun fəaliyyət imkanları və bacarıqlarının hüdudları nə qədərdir? İnsan gördüyü işinin ümumi nəticələrinə cavabdehdirmi, o, həmin işin xarici təsirinə cavab verməlidirmi, onları qabaqcadan görüb qarşısını almağı bacarmalıdırmı? Bu suallara verilən cavablar müxtəlif olur, çünki sosial mühit və şərait də müxtəlifdir. Aydındır ki, cəmiyyətdə insan məsuliyyəti dövrdəndövrə dəyişilir. Bunun səbəbi dünyanın getdikcə daha dərindən dərk edilməsi və mənimsənilməsidir. Burada özgələşmənin rolunu da nəzərə almaq lazımdır. Əvvəlki dövrlərdə insan hərəkətlərində tale-qismətin rolunu hədsiz dərəcədə şişirdilər. Şəxsi məsuliyyət hüquqi dövlət, vətəndaş cəmiyyəti şəraitində artır. Xeyir (yaxşılıq) anlayışının məzmunu müxtəlif dövrlərdə fərqli idi. Məsələn, qədim Yunanstanda xeyir haqqında təsəvvürlər ilk növbədə cəsarət, mötədillik, müdriklik və ədalətdə uzlaşdırılırdı. Bu barədə Platon yazırdı. Aristotel də qeyd edirdi ki, xeyir insan tərəfindən sosial təcrübə əsasında qavranılır. Orta əsrlərdə xristian etikasında xeyir dedikdə üç məziyyət göstərilirdi: inam, ümid, sevgi (ilk növbədə həmin

anlayışlar dini məzmun daşıyır və Allahla əlaqələndirilirdi). Bununla da xeyir asketizm baxımından qiymətləndirilirdi. Insan bu dünyanın naz-nemətindən əl çəkib bütün ümidlərini axirət günü ilə bağlamalı idi. İntibah dövründə və Yeni dövrdə xeyir anlayışı insan xoşbəxtliyi ilə əlaqələndirilirdi. Bütövlükdə xeyir haqqındakı təsəvvürlər konkret, real sosial-tarixi şərait ilə birbaşa əlaqəlidir. İnsanı əhatə edən aləmin predmet və hadisələrinin müsbət dəyərini bildirən anlayışdır. Bu xeyirin növlərindən biri, əxlaqi dəyər, fəzilətdir. Bəzən xeyir və fəzilət sözlərini sinonim kimi istifadə edirlər. Bizi əhatə edən predmet və hadisələr insanların maraqlarına cavab verdikdə, bir o qədər onların xeyiri artır. Tarixi inkişaf ziddiyyətli xarakter daşıyır, ona görə də bəzi adamlar üçün xeyirli olan digərlər üçün ziyanlı və təhlükəli ola bilər. Bununla belə xeyirin ümumbəşəri məzmunu da var. İnsan maraqlarının formalaşması prosesi xeyirin nisbi xarakterini göstərir. Yaxşılıq da əxlaqi şüur tərəfindən xeyir kimi qiymətləndirilir, çünki bu müsbət əxlaqi məna daşıyan bir hərəkətdir. Yaxşılığın geniş mənası ümumsosial ola bilər, çünki bütün insanların xeyrinə cavab verir. Bunu yüksək amal, ideal naminə həyata keçirirlər.

# PANDEMİYA MƏRHƏLƏSİNDƏ İNFORMASİYA VƏ BİLİK: QARŞILIQLI TƏSİRLƏRİN DİNAMİKASI

**Turanə Əlibəyova**
AMEA Fəlsəfə və Sosiologiya
İnstitutunun doktorantı
turanelibeyova@gmail.com

**Açar sözlər:** pandemiya, informasiya, bilik, dinamika, həqiqət, komplo təlimlər, dress-kod, linqvistika, ədalət

Elm adamlarının ümumi qənaətinə görə, pandemiya mərhələsində insanların fərdi və kollektiv həyatlarının müxtəlif sferalarına ciddi təsir edən faktorlar meydana çıxıb. Müxtəlif sahələrin qabaqcıl elm adamları problemin bu aspektini fərqli mövqelərdən tədqiq etməkdədirlər. Bizi həmin əlaqədə pandemiya mərhələsində "informasiya" və "bilik" anlayışlarının qarşılıqlı əlaqəsi maraqlandırır.

Araşdırmalar göstərir ki, bu məsələ doğurdan xeyli aktuallaşıb. Çünki pandemiya mərhələsində insanların davranışlarında, düşüncələrində, proseslərə verdikləri etik qiymətlərdə birbaşa informasiya ilə biliyin əlaqəsinin olması öz təsdiqini tapır. Məsələn, müasir dövrün tanınmış fransız sosioloqu Alen Turenin, rusiyalı sosioloq Simon Kordonskinin, politoloqlar D.A.Parenkov və K.E.Petrovun, bir sıra tanınmış başqa elm adamlarının məsələ kontekstində düşündürücü qənaətləri vardır.

Aydın olur ki, pandemiya mərhələsində informasiya ilə biliyin qarşılıqlı əlaqə dinamikası kifayət qədər dərində olan nəzəri və etik faktorlarla bağlıdır. Burada əsas məqam kimi informasiya ilə biliyin ənənəvi münasibətlərində dəyişikliyin olması özünü göstərir. A.Turen həmin faktı maraqlı ifadə edib. O, türkiyəli pofessor Gürşad Oğuza verdiyi müsahibədə ayrıca vurğulayıb ki, pandemiya informasiya ilə bilik arasında dərin ziddiyyətli məqamları üzə çıxardı. Həmin məqamlar insanların elmi biliyə deyil, qaynağı elə də aydın olmayan və daha çox dedi-qodu xarakteri daşıyan informasiyalara etibar etməsi ilə əlaqəlidir.

Fəlsəfi-elmi baxımdan informasiya-elmi bilik münasibətləri kontekstində daha maraqlı cəhət ondan ibarətdir ki, mənbəyi aydın olmayan informasiyaların əksəriyyəti insanın yaşam tərzi, xüsusilə onun etik baxışları və davranışları ilə əlaqəlidir. O tip informasiyalar birbaşa insanların mənəvi-əxlaqi düşüncəsinə təsir edir. Konkret olaraq, sosioloqlar insanların həmin informasiyalar əsasında "xeyir", "şər", "yaxşı", "pis", "ədalət", "mərhəmət" və sair kimi fundamental elmi-etik anlayışların qavranması dəyişir. A.Turen pandemiyanın isanların bir-birinə olduğu kimi səhiyyə sisteminə də etibarını azaltdı. Məsələn, bir sıra ölkələrdə yaşlı insanlar yaxınlarına xəbər edilmədən dünyasını dəyişdilər və dəfn edildilər. Bu, etik baxımdan insan mənəviyyatını zədələdi (1). Eyni zamanda, tibb təşkilatlar tərəfindən yayılan elmi informasiyalara inamı azaltdı. Daha doğrusu, insanlar "elmiliyə" deyil, bədbin mənzərə yaradan informasiyalara üstünlük verdilər.

Məsələnin bu aspekti maraqlı tərzdə pandemiyada informasiya-bilik münasibətlərinə yeni məzmun çalarları verir. İlk olaraq fəlsəfi aspektdə qədim dövrlərdən həqiqət kimi qəbul edilən (hər halda elmi biliyin həqiqət axtarışı nəticəsində yarandığına inam vardır) elmi biliyə deyil, qaynağı məlum olmayan və əsas olaraq insanlarda bədbinlik, inamsızlıq, etibarsızlıq yaradan informasiyalara üstünlük verdilər. Bununla pandemiya dövründə son bir neçə yüz ildə informasiya-bilik münasibətlərində üstünlük kütləvi yayılan informasiyalara verilmiş oldu. Sanki elmi biliyin etibarlılıq statusu zəiflədi. Bu da, təbii ki, ziddiyyətdir və bəşəriyyət üçün faydalı olduğunu düşünmək çətindir. A.Turen isə əslində məsələni təməl insan haqlarının pozulması ilə əlaqələndirir. Hətta proses dünyanın böyük dövlətləri arasında konfliktlərə qədər gedib çıxdı. Bütövlükdə dünya dövlətlərinin ədalət və mərhəmət prinsipləri ilə deyil, şəxsi maraqlarına əsaslanaraq hərəkət etdiyi təəssüratı yaradıldı. Belə bir vəziyyətin, A.Turenə görə bütövlükdə bəşəriyyət üçün təhlükə törətdiyini anlamaq gərəkdir. Həmin bağlılıqda da A.Turen köklü bir problemdən bəhs edir.

Dəqiq ifadə etsək, fransız sosioloq müasir cəmiyyətlərdə vətəndaşların (fərdlərin, insanların) informasiya resurslarına eyni dərəcədə daxil olmaq imkanından məhrum olduğunu başlıca səbəb olaraq göstərir. Belə ki, dünyanın hər bir ölkəsinin ailələrində elmi xarakterli informasiyaya (bu mənada biliyə) yiyələnmək imkanı fərqlidir. Bu vəziyyətin yaranmasının kökündə isə müasir cəmiyyətlərin sosial-mədəni həyatında yer almış başqa bir faktor dayanır.

Alen Turen bununla bağlı deyir: "Təhsilli insanların peşəkar səviyyədə yaratdıqları bilikləri, araşdırmaları toplumun alt səviyyəsində olanlar tərəfindən rədd edildiyi bir çağda yaşayırıq" (1). Deməli, cəmiyyətlərdə insanların ciddi, elmi informasiya resurslarından istifadə etmək imkanlarına bərabər qaydada malik ola bilməmələri fəlsəfi baxımdan iki problemi meydana çıxarır.

Birincisi, elmi bilik sahəsində çalışanlarla cəmiyyətin digər təbəqələri arasında sosiallaşmada ciddi fərqlər yaranır – sanki onların hər biri öz "dünyasında" yaşayırlar və o "dünyaların" bir-biri ilə əlaqəsi minimumdur.

İkincisi, peşəkar səviyyədə yaranmış biliyə cəmiyyətin digər kəsimlərinin inamı çox azalır. Faktiki olaraq insanlar həqiqət kimi elmi fəaliyyət nəticəsində əldə edilmiş biliyi deyil, kütlə arasında yayılan və mənşəyi bilinməyən informasiyaları qəbul etməyə başlayırlar.

Bu vəziyyət özlüyündə xüsusilə pandemiya dövründə çoxlu sayda mənəvi-əxlaqi və ideoloji problemləri meydana çıxarır. Həmin problemlər fərdi, kollektiv, dövlət və dövlətlərarası (həm də cəmiyyətlərarası) miqyaslarda özünü göstərir. Bu o deməkdir ki, informasiya ilə biliyin münasibətlərində ciddi dəyişikliklər olduğu halda bütövlükdə insan həyatının fəlsəfi-etik normaları da dəyişə bilər. Eyni zamanda, cəmiyyətdə sosial kəsimlərin fərqlənməsi ənənəvi meyarlarla deyil, yeni kriteriyalara görə müəyyənləşir. Bu bağlılıqda A.Turen məhz biliyi vurğulayır. Fransız sosioloq deyir: "bilmək və bilik də bir sərmayədir"(1).

Yəni insanın cəmiyyətdə sinfi mənsubluğu yox, informasiya və biliyə münasibəti onun sosial-mədəni statusunu müəyyən edir. Lakin bir sosial kəsimin real elmi biliklər əldə etmək imkanı azdır. Bu səbəbdən onlar gerçək elmi biliyə deyil, kütlə arasında yayılan informasiyalara inanır. Hətta onlar əsassız və qeyri-ciddi arqumentlərdən formalaşmış "yalançı nəzəriyyələrə" (məsələn, "komplo teoriyaları"na) daha çox inanırlar.

Pandemiya dönəmində bunun nümunəsi kimi peyvəndin insanı öldürməsi haqqında yayılan informasiyaları göstərmək olar. Həmin informasiyalar "yalançı təlimlər" çərçivəsində yayılır. Yəni süni məlumatlar qeyri-elmi izah edilir, həmin əsasda ola biləcək vaciəni guya öncədən xəbər verir. Maraqlıdır ki, insanların xeyli hissəsi məhz bu kimi informasiyaları real elmi bilikdən üstün tuturlar.

Rusiyalı sosioloq Simon Kordonskinin bu aspektdə bir fikri də çox maraqlıdır. O, verdiyi müsahibələrin birində pandemiya ilə bağlı deyir: "etika profilaktikanı qabaqlayır" və səbəbini belə izah edir: "maskanı taxmaq yalnız profilaktik əhəmiyyət daşımır. Bu artıq dress-koddur ki, ona əməl etməmək hər şeydən öncə layiqlilik sayılmır, təhlükəsizlik məsələsi bundan sonra gəlir" (2).

İnformasiya-bilik münasibətləri aspektində bu fikir də düşündürücüdür. Çünki sosioloq pandemiyanın əlaməti olan maskanın insanların təhlükəsizliyin təmini ilə bağlı elmi biliyə malik olmasından öncə, bir ləyaqətlilik rəmzi kimi qiymətləndirildiyini ifadə edir. Burada yenə informativlik elmilikdən irəlidə təsəvvür edilir. İnsan virusun təhlükəli olması haqqında elmi biliyə sahib olmaqdan öncə, maskanı dress-kod kimi (müəyyən informasiya daşıyan rəmz kimi) taxmağa üstünlük verirlər.

Bunun nəicəsidir ki, ictimai yerlərdə (məsələn, nəqliyyatda) insanlar bir-birilərini "ləyaqətli", "qaydalara əməl edən" olmamaqda ittiham edir və hətta zor tətbiq edirlər. Əgər virus haqqında tam elmi biliyə malik ona inansaydılar bur cür emosional reaksiyalardan yaranan konfliktlər olmazdı. Sanki informasiyanın sürətli yayılması və qeyri-ciddi arqumentlərə əsaslanması insan davranışlarında məsuliyyətsizliyi artırıb. Hətta insanların nitqində pandemiyanın təsirindən formalaşmış xüsusi terminlərin sayı getdikcə artır (bax: məs., 3).

Bu da özlüyündə maraqlı prosesdir. Çünki tədqiqatçılar da vurğulayırlar ki, pandemik terminlər faktiki olaraq insan psixologiyasında apatiyaları artırır. Müəyyən mənada o "konfuj"

olur. Digər tərəfdən, tədqiqatçılar əmindirlər ki, pandemiya dünya miqyasında siyasi, geosiyasi, idarəetmə proseslərində fərdin şəxsi-psixoloji əhəmiyyətini daha da artırır (bax: məs., 4, s. 118-119).

Buna baxmayaraq həmin terminlərdən geniş istifadə edilir və ümumi leksikona daxil olunurlar. Onları elmi bilik hesab etmək olarmı? Yəni bu proses real olaraq müasir mərhələdə informasiyaların elmi biliyə çevrilməsi prosesinin məntiqi çərçivəsinə daxildirmi?

Suala cavab vermək üçün COVİD-19-la bağlı bir fəlsəfi-psixoloji tendensiyaya diqqət yetirək. Bunun üçün virusun elmi obrazının yaradılıb yaradılmadığı aydınlaşdırılmalıdır. Pandemiya başlayandan COVİD-19 haqqında çoxlu sayda tədqiqatlar aparılıb. Ona qarşı peyvənd hazırlamaq da kifayət qədər elmi bilik toplanmasını tələb edirdi. Bir sözlə, belə təəssürat yaranır ki, çox məhdud elmi dairələr üçün həmin virusun elmi obrazı məlumdur. Təsadüfi deyil ki, 2020-ci il Nobel mükafatını bu virusa qarşı peyvənd tapılmasına da veriblər. Deməli, söhbət bütün bəşəriyyət üçün böyük əhəmiyyəti olan elmi bilikdən gedir.

Ancaq bunun fonunda elə bir informasiya fırtınası yaradırlar ki, virusun gerçək elmi obrazı kölgədə qalır və ya yayğınlaşır. Bu informasiya burulğanı KİV-də, siyasətçilərin və diplomatların bəyanatları, müəyyən elm adamlarının virus haqqında “fərqli”, “gerçəkçi” və “sensaion fikirləri” ilə yaradılır. Nəticədə virusun elmi obrazı çox dumanlı, qeyri-müəyyən və daha çox mənfi aspektdə formalaşır. Əksər hallarda “sensasion” informasiya ilə COVİD-19 haqqında artıq beyinlərdə oturuşmuş ciddi bir elmi detal belə şübhə altına alınır. Son zamanlar bu proses özünü virusun yeni mutasiyaları ilə bağlı daha qabarıq göstərir. Elə mutasiyadan bəhs edirlər ki, həm virusun elmi obrazı arxa plana keçir, həm də təhlükə dərəcəsi artır. Bunun fonunda həmin məzmunda hər hansı qeyri-ciddi informasiyanı daha inandırıcı qəbul edirlər.

Məsələn, maska taxmaq və peyvəndləmə ilə əlaqəli müxtəlif ölkələrdə etiraz aksiyaları keçirirlər. İnsanlar məhdudiyyətlərin gətirdiyi sosial-iqtisadi və psixoloji çətinliklərə dözə bilmirlər. Çünki virusla bağlı yalançı və təhrikedici informasiya real elmi bilikdən daha çoxdur. Nəticədə insanlar elmi biliyə deyil, əsassız informasiyaya etibar edirlər.

Bu fikirlərdən fərdi və kollektiv səviyyədə pandemiya dövründə informasiya ilə elmi bilik arasında qarşılıqlı əlaqənin bir özəlliyi haqqında nəticə çıxarmaq olar. Sanki informasiya ilə elmi bilik arasında “sosial, koqnitiv və dünyagörüşü məsafəsi” daha da artıb. Qloballaşma informasiya ilə biliyi bir-birinə daha da yaxınlaşdırıb, onlar arasında fərqi silməyə zəmin hazılayırdısa, pandemiya bu prosesə zərbə vurmuş təsiri bağışlayır. Yəni informasiya ilə elmi bilik bir sıra funksional aspektdə bir-birindən “uzaqlaşırlar”, onlar arasındakı “koqnitiv uçurum” dərinləşir. Bunun insan tərbiyəsində və müxtəlif istiqamətlərdə fəaliyyətində hansı dərin izlər buraxacağını gələcək göstərəcək.

**Ədəbiyyat**


1. Gürşad Oğuz, pr.dk. “Tarihte ilk kez ortak öncelik insan hayatı”/ Habertürk.com, 23.12.2020/URL: https://www.haberturk.com/yazarlar/ kursad-oguz/2912119-tarihte-ilk-kez-ortak-oncelik-insan-hayati. Müraciət tarixi 22.05.2021.
2. Валерий Выжутович. Коронавирус диктует новую этику? Тема с социологом Симоном Кордонским/RG.RU, 07.07.2020//URL: https:// rg.ru/2020/07/07/kak-pandemiia-formiruet-novye-obshchestvennye-nravy.html. Müraciət tarixi 22.05.2021
3. Кристина Иванова. Татьяна Шахматова: «Словом года в мире стал «локдаун», а в России — «самоизоляция». Разбираем лексику пандемии вместе с экспертом-филологом/ Realnoe vremya, 01.01.2021//URL: https://realnoevremya.ru/articles/198993-filolog-kak-koronavirus-obogatil-nash-leksikon. Müraciət tarixi 22.05.2021
4. Пареньков, Д.А., Петров, К.Е. Коронавирус и политика: запросы и ценности в эпоху пандемии // Международная аналитика. 2020, Том 11 (2), с. 109–121. https://doi.org/10.46272/2587-8476-2020-11-2-109-121. Müraciət tarixi 29.05.2021.

# MƏMMƏD SƏİD ORDUBADİNİN MİLLİ-MƏDƏNİ YENİLƏŞMƏ PROBLEMİNƏ VƏ MİLLİ MƏSƏLƏYƏ MÜNASİBƏTİ

**Solmaz Əhmədova**
Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin doktorantı
solmazehmedova@yahoo.com

**Açar sözlər:** istismar, müti,cəhalət,istibdad,irtica, mütləqiyyət, mürtəce

İstiqlaliyyət fədailərinin yüksək amalı istibdad quruluşunu, onun ideologiyasını və siyasətini tənqid etmək, məzlum kütlələrin siyasi şüurunu oyatmaq, onları demokratik azadlıqlar uğrunda mübarizəyə ruhlandırmaq idi. O, mütləqiyyətçi monarxiya şəraitində, maddi və mədəni yoxsulluğun, iqtisadi, siyasi və ideoloji zülmün hökm sürdüyü bir şəraitdə istismar olunan xalq təbəqələrinin, xüsusən yoxsul kəndlilərin dözülməz həyatını əks etdirir, onlarda mövcud quruluşa qarşı nifrət oyadır, dövləti, cəmiyyəti demokratik əsaslarda dəyişdirməyə çağırıdı. Onun ideyaları 1905-1907-ci illərin burjua-demokratik inqilabının tələbləri ilə səsləşirdi və müasirlərində ciddi marağa səbəb olurdu. M.S.Ordubadi bu ideyaların Şərqdə yayılmasına böyük əhəmiyyət verirdi. Mütəfəkkir sənətkar xalqa yad olan, onu cəhalətdə və istismarda saxlayan qüvvələri ifşa etməklə bərabər, onlara mütilik göstərən, zülmə boyun əyən camaatın nöqsanlarını da açıq şəkildə bildirməyə xüsusi əhəmiyyət verirdi.

M.S.Ordubadi mənsub olduğu xalqın tələbatını ona başa salmaq, ictimai eyiblərini göstərmək, onu «öz-özündən dəhşətləndirib» mövcud ictimai bəlalara qarşı mübarizəyə qaldırmaq üçün satiranı və gülüşü ən məqsəduyğun mübarizə forması kimi seçmişdir. O, müsəlman qardaşlarının həyatını, mənəviyyatını, düşüncəsini yeniləşdirmək üçün, onları mənəvi yoxsulluqdan qurtarmaq, zülmət səltənətindən işıqlı dünyaya çıxarmaq üçün var qüvvəsi ilə çalışırdı. Onun xeyirxah niyyəti, ictimai amalı, dövrün haqsızlıqlarına qarşı barışmaz mübariz mövqeyi xüsusi qeyd olunmalıdır.

M.S.Ordubadi fəhlələrin, xalq kütlələrinin ən adi ehtiyaclarına belə sahibkarların laqeyd qaldıqlarını, onları müti vəziyyətdə saxlamağa çalışdıqlarını ciddi şəkildə vurğulayır, qumara, əyyaşlığa qurşanan, qoçuluq edən, xalqın taleyi ilə maraqlanmayan adamları tənqid atəşinə tutaraq yazırdı:

İşimiz yoxdu, bizim kəlmeyi-hürriyyət ilən,
Gecədən keflənərək sübh xumar olmalıyız [1]!

Fəhlələrin savadsız olduqlarını, öz hüquqlarını bilmədiklərini qeyd edən mütəfəkkir onlara qeyri-insani münasibət göstərildiyini başa salmağa çalışırdı. O, yazırdı ki, İran fəhlələri Rusiya məmləkətində gündə bir manat, manat yarım və bəlkə də iki manat muzd alırlar. Hər bir fəhlənin xərci gündə altı qəpiklik çörək, bir qəpiklik pendir, otuz altı qəpiklik qovun ya qarpız və bir qəpiklik tənbəkidir. Qalan pullar hara gedir.

M.S.Ordubadi XX əsrin əvvəlində inqilab dalğalarının yayılmasını, rus-yapon müharibəsində çarizmin məğlubiyyətini, mütləqiyyət quruluşunun böhranını, müxtəlif millətlərin siyasi hərəkatlara qoşulmalarını təqdirəlayiq hal hesab edir, azadlıq uğrunda mübarizə aparan məzlumları daha cəsarətli, hünərli olmağa dəvət edirdi.

M.S.Ordubadi azadlığın xalqın öz əlində olduğunu, mütləqiyyət quruluşu qaldıqca belə azadlığın mümkün olmayacağını, əksinə, inqilabçıların, demokratiya tərəfdarlarının təqib ediləcəklərini kütlələrə başa salırdı. O, İrandakı «Məşrutə» və Türkiyədəki «Qanuni-əsası»nın da xalqa heç bir şey vermədiyini qeyd edərək onların yarımçıqlığını göstərmişdir. O, «İranın hürriyyətinə çox da bel bağlamayın», «Sultanın hökmü ilə zindanlarda çürüyən min-min məşrutəxaşların ahu-naləsi» göylərə ucalıb dedikdə Şah İranı və Sultan Türkiyəsi dövlətlərinin xalqa zidd və mürtəce daxili siyasətini ifşa etmiş, hər ikisini Konstitusiyanın və azadlığın düşməni hesab etmişdir. O, azadlığa münasibətdə çar istibdadı və Şərq istibdadı arasında heç bir

fərq görmürdü. Onun ideya irsində həm rus və həm də Şərq istibdadının tənqidi kifayət qədər əsaslıdır, əhatəlidir.

1905-1907-ci illər inqilabı zamanı ictimaiyyəti düşündürən problemlərə xüsusi önəm verən Ordubadi inqilab illərində irticaçı dövlət nazirlərinin ifşa edilməsinə xüsusi diqqət yetirir, Stolıpin, Durnovo, Vitte kimi yüksək vəzifəli şəxslərin adını nifrətlə çəkir, onları azadlıq və demokratiyanın qəddar düşmənləri adlandırırdı. Xalqın taleyi, azadlığı haqqında düşünən M.S.Ordubadi kütlələri istismarçılardan xilas etməyə çağırırdı. Onun ictimai-siyasi idealları əsasən demokratik islahatların həyata keçirilməsini, cəmiyyətdə istismarın, hər cür fiziki və mənəvi zülmün aradan qaldırılmasını, torpaqların zəhmətkeş kəndlilərə verilməsini, hüquq bərabərliyinin bərqərar olunmasını, xalqın dövlət işlərində iştirak etməsini nəzərdə tuturdu.

Çoxmillətli çar Rusiyasında xalqlar hakim və məhkum millətlərə bölünmüşdü; o zaman Rusiyada yalnız iqtisadi və mənəvi zülm deyil, habelə milli zülm mövcud idi. Ona görə də ictimai ədalət prinsipini müdafiə edən M.S.Ordubadi başqa problemlərlə yanaşı millətlərin taleyinə xüsusi diqqət göstərdi.

XX əsrin əvvəllərində Rusiyada milli məsələ müxtəlif siyasi-ideoloji cəbhələrdə qızğın müzakirə obyektinə çevrilmişdi. Azərbaycanda bu məsələyə münasibətdə inqilabçı – demokratlar milli mənsubiyyətdən asılı olmayaraq ölkədəki bütün millətlərin azadlığını, müstəqilliyini, hüquq bərabərliyini müdafiə edir, əlbir mübarizə aparmağı vacib sayırdılar.

M.S.Ordubadinin bu sahədə ideya inamı, siyasi mövqeyi inqilabçı demokratların mövqeyinə yaxın idi. O, millətlərin azadlığını, səadətini demokratik ictimai quruluşla bağlayır, milli zülmü kəskin şəkildə pisləyir, milli ayrı-seçkilik, milli ədavət yayanları kəskin tənqid edirdi [2].

Ədibin fikrincə, vətəndən, millətdən dəm vuranlar gərək əvvəlcə özlərini yox, millətin azadlığını, səadətini düşünsünlər, xalqa, vətəndaşlara xidmət etsinlər. Ordubadi «İncəsənət və müharibə» məqaləsində yazırdı: «Xalqların qələbə tarixində incəsənət və ədəbiyyatın nə qədər şərəfli rol oynadığı hər kəsə məlumdur. Tarix bu fikrin əksini söyləyənlərin, «Toplar guruldayarkən muzalar susmalıdır» - deyənlərin nə qədər yanıldığını artıq çoxdan sübut etmişdir [3].

Həyat yalnız öz qələmlərini və fırçalarını böyük tarixi döyüş günlərində süngülərlə yanaşı qoya bilən sənətkarları yaşatmışdır. Vətənin təhlükə qarşısında olduğu günlərdə vətən qəhrəmanlarını döyüşə ruhlandırmaq, qələbənin ölməz epopeyalarını yaratmaq həqiqi sənətkarların həmişə vətəndaşlıq borcu olmuşdur. Bunun həqiqətən belə olduğunu təsdiq etmək üçün təkcə yunan incəsənət tarixini nəzərdən keçirmək kifayətdir. İmperialist faşist İtaliyasının quduz ordularına qarşı kiçik Yunanıstanın göstərdiyi şanlı müqavimətə əsrimiz şahid oldu. Əcəba, bu igidliyin, mərdliyin sirri nədə idi?! Şübhəsiz, bunun sirri, hər şeydən əvvəl, yunan xalqının mənəvi qüdrətində idi. Bu mənəvi qüdrətin inkişafında yunan incəsənəti və ədəbiyyatının nə dərəcədə böyük rol oynadığı hər kəsə məlumdur. Yunan xalqı özünün Homer və Kallinyus dövrü ədəbiyyatından aldığı milli qürur, qəhrəmanlıq və cəngavərlik hisslərini hələ də yaşatmaqdadır. Məşhur yunan rəssamlarının Troya müharibəsi qəhrəmanlıqlarını əks etdirən tabloları, legendar cəngavər Axillesin əzəmətli heykəli indi də yunan xalqını vətən müdafiəsinə çağırır» [3].

M.S.Ordubadi müxtəlif millətlərdən olan zəhmətkeşlərin birliyini millətçilik ideologiyasına qarşı qoyurdu, millətin ruhuna yad olan, lakin onun adından danışanlara deyil, xalqın birliyinə, həmrəyliyinə ümid bəsləyir, yalnız bu yolla milli azadlıq, rifah əldə etməyin mümkünlüyünə inanırdı. Millətin ictimai şüurunu oyatmağa ciddi əhəmiyyət verir, onu öz haqqını anlayıb müntəzəm mübarizə aparmağa çağırırdı.

Mənsub olduğu xalqın milli mənlik şüurunun formalaşmasını vacib sayan ədib, onu başqa millətlərin bu baxımdan diqqət çəkən xüsusiyyətlərinə diqqət yetirməyə çağırırdı. Onun fikrincə, qonşu ermənilər öz mənafelərini qorumaqda, öz dilinə münasibətdə xüsusi fəallıq nümayiş etdirir, məmurların əqidəsindən yararlanmağı bacarırlar. O, Qanlı illər» əsərində yazırdı: "Müsəlmanlar elm və siyasətdən bixəbər olduqlarından hökumət məmurlarının Qafqazda tutduğu əqidəsini və ermənilərin o əqidədən necə istifadə etdiklərini düşünmədilər" [2].

Milli şüurun oyanması üçün ədib millәti "elm və siyasətdən bixəbər" olmağa son qoymağı, onun maarifə, təhsilə, mədəniyyətə qovuşmasını tələb edirdi. O, xalqın öz rifahı, gələcəyi uğrunda mübarizə aparmasında onun mədəni səviyyəsinin əhəmiyyətini yüksək qiymətləndirirdi.

M.S.Ordubadi "Böyük dövlət adamları" adlı məqaləsində yazırdı: "Tarixin müxtəlif dövrlərində bir çox istilaçı mürtəce qüvvələr və onlara başçılıq edən zalim hökmdarlar bizim milli və mədəni birliyimizi, bötüvlüyümüzü tapdalamağa çalışmışdır. Lakin, bununla bərabər, xalqımızın içərisindən çıxan və öz şəxsi iş və mübarizələrində ümumxalq iradəsini təmsil etdirən böyük adamlarımız azğın düşmənlərimizin bu çirkin məqsədlərinə qarşı böyük inadla çarpışmışlar. Xalqımızın mədəniyyətinə, dil və ədəbiyyatına qarşı birinci hücum miladın VI əsrində Nuşirəvanın Şirvan şahlığını təşkil etməsi ilə əlaqədar olaraq meydana çıxır. O zamandan başlayaraq ümumiyyətlə, Azərbaycan mədəniyyəti, o cümlədən də Azərbaycan dili və ədəbiyyatı ölkənin siyasi, iqtisadi varlığı ilə birlikdə yabançı təsirlər altına düşməyə başlayır.

Nuşirəvan bir tərəfdən şimal köçərilərinin Azərbaycan və İrana olan hücumunun qarşısını almaq, ikinci tərəfdən də Azərbaycanı, İranı bir müstəmləkəsi şəklinə salmaq məqsədi ilə, birinci dəfə Şirvana otuz mindən ibarət fars ailəsi köçürdü. Bu da ölkədə fars dili və farslıq ruhunun kök salmasına səbəb oldu. Əvvəlcə köçərilərin hücumundan qorunmaq üçün görülən bu təşəbbüs get-gedə öz əski mündəricəsini dəyişərək bir tərəfdən ölkənin şimal hissəsində yaşayan xalqlar ilə olan əlaqəsinə ciddi mümaniət göstərdi, ikinci tərəfdən də Azərbaycanda dövlət dilinin farslaşmasına şərait yaratdı" [4]. O, milli mədəniyyətin inkişafı baxımından milli dilin qorunub saxlanılmasını mühüm şərt sayır, ana dilinə ehtiram bəsləməyən saxta "ziyalları" tənqid edirdi.

Ana dilini milli mənliyi ifadə edən mühüm ictimai hadisə sayan ədib "Dil bəlası" adlı məqaləsində yazırdı: "Mətbuat və yazılarımızda mövcud olan bəla yeni deyildir. Bu kimi bir çətinlik çoxdan bəri hiss edilsə də, onun rəf olunması üçün qəti addım atılmamışdır. Bu qədəm beş ildən bəri Azərbaycanda atılmış, dilimizdəki çətinlikləri ləğv etmək işlərinə başlanmış isə bu yolda qazanılan müvəffəqiyyət başqa cəbhələrdəki müvəffəqiyyətlərə nisbətən o qədər gözə çarpacaq deyildir. Bu müvəffəqiyyətsizliyin başlıca səbəbi dil məsələsindəki işlərin təşkilatsızlığıdır. Dilimizi islah etmək, onu bir azəri dili şəklinə salmaq üçün əcnəbi kəlmələrdən xilas etməkdən ötrü indiyə qədər heç bir təşkilat olmamışdır. Təbii ki, bu təşkilatın çıxardığı qərar, yaxud qərar aldığı dil qəzetə və mətbuatımız üçün qəti bir düsturəməl ola bilərdi. Belə bir elmi təşkilatın olmadığı üzündəndir ki, bütün ağırlıq qəzetə və mətbuatın üzərinə düşmüşdür.

Hazırda hər kəs qəzetənin dilinin çətinliyindən şikayət edir. Burası doğrudur. Qəzetələrin dilində çətinlik yox deyildir. Lakin bir dəfə orasını da düşünməlidir ki, bu çətinliyin ikinci tərəfi də vardır. O da qəzetə oxucularından bir çoxunun savadsızlığıdır.

Bizcə, bu son ağırlığı, bu son qüsuru da qəzetə və mətbuatın üzərinə qoymaq doğru deyildir. Zira, bizim asanlıq vücuda gətirmək təşəbbüsümüz mütəqabil bir surətdə irəliləməlidir. Nə qədər ki, qəzetə oxucularının savadlanması işləri irəli aparılmalıdır. Əksinə olaraq, qəzetəni xalq danışan dildən də xaricə çıxarmaq, onun tərbiyəverici xasiyyətini itirmək deməkdir. Bununla bərabər, qəzetə idarələri dili yüngülləşdirmək işlərindən boyun qaçırmırlar. Bizdə orijinal məqalə və yazıların az olduğu dil işlərindəki bəlamızı daha da artırmışdır"[5].

M.S.Ordubadinin Azərbaycan dilinin saflığı uğrunda mübarizəsi onun demokratik idealları ilə bağlı idi. Mütəfəkkir sənətkar xalqa öz ictimai varlığını, öz vəziyyətini anlatmaq üçün ona doğma dilində həqiqətləri çatdırmağı, onda milli qeyrət, mübarizə ruhu aşılamağı tələb edirdi.

M.S.Ordubadi özünün şah əsərlərindən biri olan "Qılınc və qələm" əsərində yazırdı: "Azərbaycnılar hər şeydə güzəştə getsələr də öz dili barəsində güzəştə gedə blməzlər" [6].

XX əsrrin əvvəllərində Azərbaycanda yeni siyasi və ideoloji mühitin formalaşmasında əsaslı zəminin yaranması XIX əsrin II yarısından başlanır. Bu, bir sıra elmi, ictimai-siyasi və sosial-iqtisadi səbəblərlə bağlıdır. XIX əsrin II yarısından etibarən Azərbaycanın ictimai-siyasi həyatında önəmli hadisələr baş verməyə başlamışdır. İlk dövrlərdə bu, parakəndə və sistemsiz idi, yəni milli düşüncənin sahibləri sayıla bilən adamlar ayrı-ayrılıqda mübarizə aparırdı, onların hərəkətlərində qətiyyətsizlik, dağınıqlıq vardı. Eyni zamanda xalqın milli kimliyini dərk edə

bilməməsi azad, milli düşüncəli mütəfəkkirləri üçün ciddi problem yaradırdı. Ona görə də XIX əsr Azərbaycan mütəfəkkirləri səylərini daha çox xalqın öz milli kimliyini tanımasına və savadlanmasına istiqamətləndirirdilər. Bütün hallarda isə XIX əsrdə Azərbaycanın ictimai-siyasi və ideoloji mühitində oyanış, özünütanıma istəyi əvvəlki dövrlərdən fərqli olaraq daha güclü idi. Bunun mühüm səbəblərindən biri də çar Rusiyasının müstəmləkəçiliyi idi. Bu baxımdan da XIX əsrin əvvəllərində çar Rusiyasının müstəmləkəçiliyinə məruz qalan Azərbaycanda milli oyanışın yeni formada baş qaldırması təbii idi. Qeyd edək ki, bu dövrdə Azərbaycanın ictimai-siyasi mühitində dəyişikliklərin baş verməsinə sosial-iqtisadi tərəqqi, maşınlı sənayenin yaranması, kapitalist bazarının formalaşması da fəal təsir göstərirdi.

XIX əsrin II yarısında çar Rusiyasının apardığı islahatlar, elmin dünyada sürətlə inkişafı imperiyanın əksər xalqları arasında milli oyanışa səbəb olmuşdur.
Azərbaycan xalqı da bu prosesdən kənarda qalmamışdır. Çarizmin amansız hökmranlığı şəraitində planauyğun şəkildə ruslaşdırma siyasəti apardığı dövrdə milli tərəqqi və azadlıq problemi ilə bağlı cəsarətli fikirlər söyləmək və bunları nəzəri cəhətdən əsaslandırmaq heç də asan deyildi [7]. Halbuki, F.B.Köçərlinin qeyd etdiyi kimi, xalq öz taleyinin ağası olmalıdır. Dövlət xalqın mənafeyinə xidmət etməlidir [8]. Böyük mütəfəkkir ana dilini ölkənin bütün sakinləri üçün müqəddəs sayır, öz varlığını dərk edən adamın ana dilinə baş əydiyini göstərirdi. O, Azərbaycan dilini ərəbçilik, farsçılıq, osmanlaşdırmaq meyllərindən, ruslaşldırmaq siyasətindən azad etməyə çağırırdı. O, çar Rusiyası tabeliyində olan millətlər, xalqlar arasında aparılan ruslaşdırma siyasətini milli zülm hesab edirdi və ona qarşı mübarizə aparırdı.

M.S.Ordubadi "Musiqimizin növbəti vəzifələri" əsərində yazırdı: "Tarixi qovmalardan qədim yunan, hətta islamdan əvvəl bədəvi və qəbilə həyatı keçirən ərəb komandanları qoşunun çoxluğu ilə deyil, bəzən dilin kəskinliyi və müharibədə nəğmələrlə, şüurlara qəhrəmanlıq duyğuları aşılamaqla qalib gəlirdilər" [3]. Ədib çarizmin milli-müstəmləkə siyasətini tənqild edərkən, məzlum millətləri öz müstəqilliyini qorumaq uğrunda mübarizəyə ruhlandırır, başqa xalqların milli-azadlıq hərəkatına öz rəğbətini bildirirdi. M.S.Ordubadi ruslaşdırma siyasətinin timsalı kimi dövlət, cəmiyyət işlərində vəzifələrin ruslara tapşırılmasını, rus dilinin hakim, milli dilin məhkum vəziyyətini, müsəlmanların cəhalət mühitində, mütilik vəziyyətində saxlandığını ictimai ədalətsizlik sayırdı və vəziyyətin dəyişilməsini vacib sayırdı. Ədib milli dilin müstəqilliyini millətlərin azadlığı ilə bağlayırdı. MS.Ordubadi milli-müstəmləkəçilik siyasətinin vaxtı keçdiyini, bu cür siyasətin məzlum millətlərin milli-azadlıq hərəkatı sayəsində hökmən iflasa uğrayacağını tarixi zərurət hesab edirdi. O, İranda, o cümlədən Cənubi Azərbaycanda azadlıq uğrunda mübarizəyə yaxından kömək etməyə çağırırdı. Onun ideya irsində milli məsələyə mühüm diqqət yetirilməsi və millətlərin müstəqilliyi, bərabərliyi, onların öz dillərində oxumaları, mədəniyyətlərini inkişaf etdirmələri haqqında fikirləri 1905-ci il inqilabının təsiri ilə daha qətiyyətlə tələb edilirdi. O, xalqlar arasında düşmənçilik yaratmaq istəyən çarizmin siyasətini inqilaba qarşı sui-qəsd kimi təqdim edirdi. O, 1905-ci il "erməni-müsəlman qırğını"nın baş verməsində rus çarizmini təqsirləndirir, onu ciddi şəkildə ittiham edirdi. Avropanın Şərqdə milli-müstəmləkəçilik siyasətini tənqid edərkən M.S.Ordubadi ingilis müstəmləkəçilərinin fəaliyyətindən hiddətlə danışırdı. O, millətlərin iqtisadi və mədəni inkişafında qeyri-bərabərliyin xeyli dərəcədə milli müstəmləkəçilik siyasəti ilə şərtləndirdiyini dərk edir, Şərq xalqlarının Avropa, Amerika müstəmləkəçilərindən azad olmaları üçün öz milli mənafelərini dərk edib, müstəqil inkişaflarını təmin etmələrini zəruri sayırdı. M.S.Ordubadi XX əsrin ictimai hadisələrinin Şərq xalqlarına, onların milli mənlik şüurunun oyanmasına təsirini aydın şəkildə görür və Şərqin gələcəyinə ümidlə baxırdı. O, Avropa müstəmləkəçilərinin özlərini Şərqin qeydinə qalan, Şərqə mədəniyyət gətirməyə çalışan adamlar kimi qələmə vermələrini, müstəmləkəçiliyə haqq qazandırmağa çalışdıqlarını nəzərə çarpdırırdı. M.S.Ordubadi "Məktub" adlı məqaləsində İranın müstəmləkəçi dövlətlər tərəfindən talan edildiyini özünün satirik qələmi ilə ifşa edirdi:

"Əziz qardaşım Hərdəmxəyal! Minlərcə şükürlər, hökumətin sayeyi-mərhəmətinədə hürr və asudə yaşayıb gündən-günə tərəqqi və təməddün aləminə sarışıb mədəni millətlər, müntəzəm hökumətlər sırasına keçirik!... Asiya meydanında bir elektrik fanusu kimi qətəati-xəmsədə olan

bəni-növi-bəşəri işıqlandırıb aləmi-mədəniyytəti birdən-birə tənvir etmişik. Gündən günə ticarət mətalarımız Avropa, Amerika, Avstraliya bazarlarında satılmaqdadır. Şükürlər olsun, hər həftədə hökumət paytaxtında müşavirə edib tüccari və siyasi əhdnamələr bağlayırıq. Hər saatda daxili-məmləkətimizdə millət və hökumətin pişrəfti üçün vüzara tərəfindən müxtəlif qanunnmələr ortaya qoylur. Hər saatda imperiyamızın ətraf şəhərlərindən sənaye vəzirinə qism-qism ixtiraati-cədidə təqdim edilir… və zavodlarımıza küreyi-ərzin hər tərəfindən vaqonlar, hərbi paraxodlar, balonlar, telefonlar, teleskoplar, ənva-ənva qüvveyi-nariyələr sifariş edilir. İran dağlarının hər qayasına baxılarsa, başsız meşələrin hər tərəfinə nəzəri-diqqət edilərsə, insan əli dəyməmiş bir ağac, sənətdə işlədilməmiş bir qaya əbədi görməz olursan. Çiçəkli qəzalarımızda, uzun-uzaq çöllərimizdə dəmir yol xəttindən özgə ayaq qoymağa boş yer tapa bilməzsən" [9].

Ədib istismarçı cəmiyyətin millətlər arasında hakim və məhkum münasibətlər yaratdığını dərk edir və Şərqin məzlum millətlərini milli-müstəmləkə zülmünə qarşı mübarizəyə çağırır, habelə öz ölkələrinin hakim millətinin zülmündən azad olmağa ruhlandırırdı. O, İranda fars millətçiliyini tənqid edərkən bütün millətlərin dostluğunu, qardaşlığını anlatmaqla yanaşı, hakimiyyət gücünə milləti istismar edənlərin bu birliyə düşmən olduqlarını söyləyirdi.

M.S.Ordubadi müstəmləkə ölkələrinin xalqlarının öz milli-azadlıq hərəkatları sayəsində özlərinin müstəqilliyini, səadətini əldə edəcəklərinə səmimi inam bəsləyir, müstəmləkəçilərə müraciətlə "Partlarız" felyetonunda deyirdi:

Olmuşuq axırda biz beynəlmiləl bir bihəya,
Hürməyir dünyada bir it, bir köpək bizdən səva,
Bir küçük vanqıldamaz Rimdə pop olmazsa riza.
Qoymarız əf-əflə dünya xalqı dalsın rahətə,
Çatmasın bir kimsə bu əf-əfdən azadiyyətə [10].

Ədibin fikrincə, müstəmləkə ölkələrində kütlələr milli zülmün ağırlığını dərk etdikcə onların bu zülmə qarşı etirazı artacaq, inqilab alovuna çevriləcək, axırda müstəmləkəçiliyi məhv edəcəkdir. Sovet imperiyasının süqutundan sonra doğma Azərbaycanımız da öz müstəqilliyini bərpa etmişdir. Deməli, böyük mütəfəkkirin arzuları həyata keçmiş və idealları həqiqətə çevrilmişdir. Ulu öndərimiz Heydər Əliyevin sözləri ilə desək: "Əgər XX əsrin əvvəlində xalqımız milli azadlıq, dövlət müstəqilliyi yolunda ilk dəfə böyük addım atıbsa, XX əsrin sonunda milli azadlığa, dövlət müstəqilliyinə tam nail olmuşdur" [11].

**ƏDƏBİYYAT**


1. "Əxbar", 1920, №13, 21 avqust
2. M.S.Ordubadi Qanlı illər 1905-1906-ci illərdə Qafqazda baş verən erməni-müsəlman qırğınının tarixi, "Elm və təhsil" Bakı-2012, səh.9
3. M.S.Ordubadi Əsərlər VIII cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1967, 403 səh., səh. 341-342
4. M.S.Ordubadi Əsərlər VIII cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1967, 403 səh., səh. 372-373
5. M.S.Ordubadi Əsərlər VIII cild, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı-1967, 403 səh., səh. 334-335
6. Ordubadi Məmməd Səid. Qılınc və qələm: I hissə, Şərq-Qərb. Bakı, 2005, 344 səh., səh.36
7. Əliyev İ. Dağlıq Qarabağ: Tarixi faktlar, hadisələr – Bakı, "Elm", 1989
8. Köçərli F.O. "M.F.Axundovun dünyagörüşü". Bakı, Elm, 1999, 124 səh.
9. Ordubadi M.S. Seçilmiş əsərləri, Məktub, I cild, Bakı, 1964, 446 səh., səh.110-111
10. Ordubadi M.S., Əsərləri, I cild, B., Azərnəşr, 1964, 446 səh., səh.209
11. Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti. Bakı, Bakı Dövlət Universiteti nəşriyyatı, 2001, 134 səh., səh.21

# ƏBU-NƏSR ƏL-FARABININ YARADICILIĞINDA VARLIQ PROBLEMİ

**Fazilə Əliyeva**
Gəncə Dövlət Universitetinin dissertantı
fazilkaazerinka@mail.ru

**Açar sözlər:** varlıq, materiya, emanasiya, ayaltı dünya, Şərq peripatetizmi.

İslam dininin yaranmasından sonra ərəb-müsəlman dünyasında möhtəşəm mədəni-intellektual inkişaf baş verir. Yeni dövr avropasında inkişaf etmiş bir sıra elmlərin təməl prinsipləri məhz burada hazırlanır. Bu inkişaf fəlsəfədən də yan keçmir, orijinal fəlsəfi konsepsiyalar meydana gəlir. Əvvəlcə daha çox ilahiyyat problemlərinin çözülməsi (azad iradə və alın yazısı, Allahın atributları və s.) ön plana çıxsa da, sonralar, xüsusilə antik filosofların əsərlərinin ərəb dilinə tərcümə olunmasından sonra məhz fəlsəfə sahəsində də intensiv inkişaf müşahidə olunur. Ərəb-müsəlman dünyasında antik filosoflardan Aristotelin daha çox populyar olması və əsərlərinin geniş müzakirə edilməsi səbəbindən yeni filosoflar pleyadası "Şərq peripatetikləri" (xatırladaq ki, Aristotelin ardıcılları həm də peripatetiklər (yəni, gəzişərək söhbət edənlər) çağırılırdı) adlandırılıb. Bu filosoflar içərisində sonralar "ikinci müəllim" (yəni Aristoteldən sonra) deyə çağırılan, yaradıcılığı sonrakı filosoflar nəslinin yetişməsinə cididi təsir göstərmiş Əbu-Nəsr Əl-Farabi daha məşhur olmuşdur.

Əbu-Nəsr Əl-Farabi (təx. 872-950-ci illərdə yaşadığı güman edilir) həyatı haqqında çox az məlumat qalıb. Onun Orta Asiya ərazisində yerləşən Farab (müasir Qazaxıstanın Otrar şəhəri) yaşayış məntəqəsində anadan olması, sonradan Dəməşqə köçməsi haqqında bilgilər var. Adının tam yazılışında "ət-Türki" ifadəsindən türk tayfasından olması bilinir.

Farabi fəlsəfi təlimini yaradarkən həm Şərq, həm də antik dövr fəlsəfi ənənələrindən, xüsusilə Platon və Aristotelin fəlsəfi tələmlərindən bəhrələnmişdir. Ənənəvi olaraq belə hesab edilir ki, onun ontoloji baxışlarının formalaşmasına Platon irsinin, məntiqi-qnoseoloji baxışlarının formalaşmasına isə Aristotel təliminin böyük təsiri olub. Onun təlimi Aristotelin universal fəlsəfi sistemi kimi dövrün əsas fəlsəfi problemlərini: təbii-elmi idrakın bütün problemlərini, məntiq, eika, estetika, cəmiyyətin ictimai-siyasi həyatı və dövlət quruluşu problemlərini əhatə etmişdir. Bütövlükdə onun yaratdığı fəlsəfi təlimin mərkəzində varlıq problemi və onunla sıx bağlı olan problemlər dayanmışdır.

Zəruri olaraq qeyd edək ki, Əl-Farabi öz varlıq təlimini heç də sırf peripatetizim ənənəsinə əsaslanaraq yaratmayıb. Belə ki, filosof dünyünın yaranması prosesini izah edərkən neoplatonizmin emanasiyalar konsepsiyasına müraciət etmişdir. Bunun səbəbi isə Plotinin "Enneadalar" traktatının şərqdə "Aristotelin teologiyası" adı ilə tanınması olmuşdur.(1, s. 83) Onlar belə hesab edirdilər ki, bu əsərin və o cümlədən emanasiyalar konsepsiyasının gerçək müəllifi Aristoteldir.

Əl-Farabi varlıq probleminə Allahın mövcudluğunun əsaslandırılması ilə bağlı müraciət etmişdir. Bu zaman o, varlığı iki qismə, yaxud növə ayırmışdır. "Birinci növə o nəsnələr aiddir ki, onların mahiyyətindən mövcudluqları zəruri olaraq çıxarılmır. Bu növ nəsnələr "mümkün varlıq" adlanır".(2, s.166) Deməli, bu növə aid nəsnələr mövcud ola da, olmaya da bilərlər. Yəni, onların mövcudluqları hansısa kənar səbəblə müəyyənləşir. İkinci növ varlıq öz mövcudluğu üçün heç bir kənar səbəbə möhtac deyil, onun varlığı öz mahiyyətindən irəli gəlir və zəruridir. Filosof bu varlıq növünü "vacib varlıq" adlandırır və o Allahdır.

Vacib varlığı təhlil edən filosof onu heç də Aristotelin təlimində olduğu kimi "ilkin mühərrik" deyil, müəyyən mənada Plotinin təliminə uyğun olaraq "İlkin mahiyyət" kimi səciyyələndirmişdir: "O başlağıcdır və ondan başqa heç bir başlanğıc ola bilməz; heç nə əvvəl, heç nə qədim".(3, s.203) Son hədd kimi götürülən belə Başlanğıc ("vacib varlıq") nə cins, nə də növ fərqinə malik deyil, Ona tərif verilə bilməz, varlığı sübut oluna bilməz. Əslində O özü hər şeyin sübutu, hər nəsnənin varlığının səbəbidir. Əl-Faribi bununla kifayətlənməyib, vacib varlığın geniş səciyyəsini vermişdir: O cisimsizdir, vahiddir, bölünməzdir, bütün əksliklərdən azaddır.

Varlıq problemini çözən Əl-Farabi ilk növbədə dünyanın yaranmasını şərh etməyə, yaxud vacib varlıqdan mümkün varlığın yaranması probleminə xüsusi diqqət yetirmişdir. Məhz bu zaman o neoplatonist ənənəyə müraciət etmişdir. Çünki, Aristotelin kosmoqonik təlimi mövcud şəraitdə qəbuledilməz sayılırdı. Belə ki, stagirli müdrikə görə kosmosun özü də "ilkin mühərrik" qədər əbədidir. Bu isə kreasionist ideyaların hökmran olduğu müsəlman dünyasında qəbul edilə bilməzdi. Lakin, neoplatonist emanasiyalar nəzəriyyəsi monoteist kreasionizmdən, eyni zamanda Mütləqin yaratdığı hissi qavranılan, yaxud mümkün varlıq dünyasından tam ayrılması ideyasından yan ötməyə imkan vermişdir. Onun kosmoqoniyasını sxematik olaraq belə şərh etmək olar: vacib varlıq özündən ilk intellekti emanasiya (şüalandırma) edir, onda isə aksidental olaraq çoxobrazlılıq törəyir. Birinci intellekt özünəməxsus intellekti və canı olan səma sferasını törədir, o isə öz növbəsində aşağı sferanı, onun intellekt və canını törədir və s. Bu ardıcıllıq "ayaltı dünyanın", daha doğrusu materiya və formanı, dörd elementi emanasiyası ilə başa çatır. Beləliklə, Farabi üçün materiya varlığın iyerarxiyasında ən aşağı pillədir. Aristotelin intellekti fəal və potensial olaraq iki yerə bölməsini Farabi neoplatonizmin təsiri altında belə şərh edir: insanın potensial intellekti dünyanı, onu kosmik fəal intellekt tərəfindən nurlandırması sayəsində dərk edir. (1, s.84-85)

Burada qeyd etmək lazımdır ki, Əl-Farabi öz təlimini qurarkən heç də tam şəkildə Aristoteli təkrarlamamışdır. Deyilənləri neoplatonist emanasiyalar nəzəriyyəsinə də aid etmək olar. Xatırladaq ki, əslində neoplatonizm qərb-xristian fəlsəfəsində demək olar ki, tam şəkildə inkar edilmişdir. Çünki, onları, xüsusən erkən xristian fəlsəfəsini sistemləşdirmiş Müqəddəs Avqustini emanasiyalar nəzəriyyəsindən zəruri olaraq çıxarılan Yaradanla yaratdıqları arasında maddi bağlantı (İlk Başlanğıcın şüalanması vasitəsilə) qane etməmişdir. Çünki bu ideya əsas xristian ehkamlarına zidd olmuşdur. Ona görə də Əl-Farabi Plotinin konsepsiyasına yaradıcı yanaşmış, müəyyən mənada onu mövcud dini ehkamlara əks müddəalarını "zəiflətməyə" çalışmışdır.

Belə ki, Plotin və onun neoplatonist ardıcılları emanasiyanı materiyanın dərinliklərinə qədər çatdırır, onu qaranlığa, zülmətə çevirirdilər. Əl-Farabi isə onun fəaliyyətini fəal ağılla məhdudlaşdırır, madii, yaxud hissi qavranılan nəsnələr dünyasını işıqlı, hərəkətli qüvvələrin mövcud olduğu məkan kimi təsvir edir. Neoplatoniklər və Əl-Farabini ilk növbədə bütün mövcud varlığın biliklə eyniləşdirmək cəhdləri birləşirir. Ona görə də neoplatoniklərdə olduğu kimi Əl-Fərabi üçün də İlk səbəb təfəkkür və varlığın eyniyyətidir. Universal biliyin gerçəkləşməsi tükənməz və əbədi İlahi mahiyyətin emanasiyası vasitəsilə mümkün olur. İlkin səbəbim yaradıcı qüvvəsi onun əslində öz mahiyyətinin bilməsidir. İlkin səbəb tərəfindən yaradılmış Zəkalar (Ağıllar), yaxud ideal prinsipər Kainatı törədir və onun ideal xarakterini müəyyənləşdirir. Lakin Plotindən fərqli olaraq, və hətta demək olar ki, onun tam əksinə olaraq Əl-Farabi dünyanın quruluşu mənzərəsində materiyaya kifayət qədər yer ayırır. Yer dünyasında mövcud olan nəsnələr iki komponentdən təşkil olunur: materiya və forma. İlkin materiya dörd ünsürün (su, hava, torpaq və hava) əsasını təşkil edir, dörd ünsürün müxtəlif nisbətlərdə birləşməsi isə ayaltı dünyanı əmələ gətirir. Bir sözlə təkcə Plotindən yox, həm də materiyanı qeyri-varlıq (heçlik), mütləq əxlaqi şər kimi təfsir edən Platondan fərqli olaraq (əslində Plotinin təlimi Platon təliminin yeni, mistik prinsiplərlər əsasında yeni interpretasiyası olmuş, elə bu səbəbdən neoplatonizm adlandırılmışdır) Əl-Farabi materiyanı varlıq iyerarxiyasında ayrıca pillə kimi nəzərdən keçirmişdir. Burada qeyd etmək lazımdır ki, filosofun öz varlıq təlimində materiyaya xüsusi önəm verməsi sonrakı təhlilçilər üçün onun materialist filosof kimi səciyyələndirilməsinə rəvac vermişdir.

Əl-Farabi varlıq konsepsiyasında insanın mahiyyətinə aydınlaşdırılmasına xüsusi yer ayırmışdır. O da Platon və Aristotel kimi, insan canının xüsusiyyətlərini müəyyənləşdirməyə çalışmış, bu zaman antik sələflərindən kifayət qədər fərqlənən konsepsiya yaratmışdır. Belə ki, insanı ayaltı dünyanın inkişafında ali həlqə kimi nəzərdən keçirən filosof onun "canının" əsas "qüvvələrini" fərqləndirir: qidalanan, duyan, təxəyyül, fikirləşən cəhd edən. Canın belə təsnifatı əsasında o, insanın anatomiyası, fiziologiyası və psixologiyası haqqında fikirlərini şərh etmiş, bu zaman əvvəlki filosoflardan fərqli olaraq daha çox elmi mövqe tutmuşdur.

Varlıq problemini həll edərkən teosentrik mövqe tutmasına və faktiki olaraq ilahiyyatçılarla eyni mövqedən çıxış etməsinə baxmayaraq iman və biliyin qarşılıqlı münasibəti mövzusunda Əl-Farabinin mövqeyi ilahiyyatçılardan tam fərqlənmişdir. Yəni o, Orta əsrlər avropasında aktual olan "fəlsəfə dinin xidmətçisidir" tezisini qəbul etməmişdir. Filosof gerçəkliyin dərkində fəlsəfənin rolunun böyük olduğunu qeyd etmişdir. Onun fikrincə, fəlsəfənin məqsədi həqiqətin, dinin məqsədi isə Allahın dərkidir. Bununla belə o, cəmiyyət həyatında dinin xüsusi rola malik olmasını qeyd etmiş, dini insanların sosial həyatın bütün səviyyələrində insanlar arsında münasibətlərin sosial-əxlaqi tənzimləyicisi kimi səciyyələndirmişdir.

Əbu-Nəsr Əl-Farabinin bütövlükdə fəlsəfi təlimi, xüsusi halda isə onun varlıq konsepsiyası klassik ərəb-müsəlmən fəlsəfəsində metafizik ənənənin əsaslarından biri olmuşdur. Onun varlıq problemini fəlsəfi diskursun episentrinə gətirməsi sonrakı filosoflar üçün bir növ örnək olmuş və onların varlıq probleminə xüsusi marağını şərtləndirmişdir. Əl-Farabinin ideyaları İbn Sina, İbn Rüşd kimi müsəlman filosoflarla yanaşı, sonrakı dövrlərdə Avropa mütəfəkkirlərinin də baxışlarının formalaşmasına ciddi təsir göstərmişdir.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Bayramzadə E. Fəlsəfə. Bakı: "Kitab klubu", 2018, 254 s.
2. Избранное произведение мыслителей стран Ближнего и Среднего Востока: IX – XIV вв. М.: Соцэкгиз, 1961, 632 с.
3. Аль-Фараби. Философские трактаты. Алма-Ата: «Наука», 1970, 430 с

**Beynəlxalq elmi-praktik konfransın**

**MATERİALLARI**

**31 MAY 2021**

Çapa imzalanıb 03.06.2021. Kağız formatı 297x210 1/16

mətbəə kağızı.Çapı ofset üsulu ilə. Həcmi 18,4 çap vərəqi.

Sifariş 9/014. Tiraj 100.Qiyməti müqavilə yolu ilə.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin mətbəəsi.

Bakı-AZ 1010. Azadlıq prospekti, 34. Tel: 493-44-11